FƏXRƏDDİN VEYSƏLLİ

# GERMAN DİLÇİLİYİNƏ GİRİŞ

***(dərslik)***

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 06.06.2001-ci il tarixli 607 №-li əmri ilə təsdiq edilmişdir.*

**Bakı – MÜTƏRCİM – 2011**

**Elmi redaktorlar:** Prof. **S.M.Babayev**
F.e.n., dos. **F.Ə.Aslanov**

**Fəxrəddin Yadigar oğlu Veysəlli. GERMAN DİLÇİLİYİNƏ GİRİŞ.** – Bakı: Mütərcim, 2011. 408 s.

Bu kitab german dilçiliyinin sistem və struktur xüsusiyyətlərini müasir dilçilik və çağdaş germanistika baxımından şərh edir. Kitabda müəlif bu sahədə son illərin nəşrlərini təhlil etməklə elmi-ədəbiyyata öz tənqidi münasibətini bildirir, german dillərinin aktual problemlərini qabarıq şəkildə göstərməyə nail olur. Dərslik girişlə birlikdə səkkiz fəsildən ibarətdir. Girişdə fənnin məqsəd və vəzifələri, başqa fənlərlə əlaqəsi, obyekti, predmeti, tədqiqat metodları və onun əhəmiyyətindən danışılır. Digər altı fəsildə isə german dillərinin sistemlərinin iç qurumları konkret dil materialları əsasında geniş və əhatəli şərh olunur.

Axırıncı, səkkizinci fəsildə Azərbaycanda german dillərinin öyrənilməsi tarixinə dair qısa məlumat verilir.

$V\ \frac{4310020000}{026}\ 76\text{-}11$

© «Təhsil» NPM, 2010
© Mütərcim, 2011

# Kitabın içindəkilər

Ön söz........................................................................ 6
Qısaltmalar.................................................................. 10

I. Giriş

I.1. Kursun məqsəd və vəzifələri............................ 11
I.2. Kursun kadr hazırlığında yeri və əhəmiyyəti.... 12
I.3. Kursun dilçilik tarixi və başqa fənlərlə əlaqəsi.. 15
I.4. Kursun obyekti və predmeti............................. 43
I.5. Kursun tədqiqat metodlari............................... 52
I.6. Dil-danışıq münasibətləri................................ 71
I.7. Transkripsiya və onun rolu............................... 79
I.8. Girişə dair yoxlama sualları və tapşırıqlar........ 92

II. Germanistikanın tarixinə bir baxış

II.1. German dilləri haqqında ümumi məlumat........ 103
II.2. German dili haqqında.................................... 108
II.3. German dillərinin səciyyəsi.............................. 117
II.3.1. Doğu german dilləri. Qot dili........................... 117
II.3.2. İsveç dili........................................................ 119
II.3.3. İngilis dili....................................................... 119
II.3.4. Güney germanları........................................... 124
II.3.5. Daç dili (flamand, Niderland, holland) dili...... 126
II.3.6. Alman dili...................................................... 131
II.4. Fəslə dair yoxlama sualları və tapşırıqlar......... 140

III. German dillərində söz (leksiklayı)

III.1. Söz haqqında ümumi məlumat........................ 143
III.2. Sözün yaranması (mənşəyi) və strukturu.......... 145
III.3. Sözün formal xüsusiyyətləri............................. 152
III.3.1. Sözün məna strukturuna dair.......................... 155
III.3.2. Sözün (işarənin) denotatı və konnotatı............ 157

III.3.3. Söz mənasının dəyişməsi (diaxrronik semasiologiya).............................. 159
III.3.4. Dubletlər....................................................... 159
III.4. Dilin söz fondunun bölgüsü............................ 161
III.5. Fəslə dair yoxlama suallar və tapşırıqlar......... 168

**IV. German dillərinin fonteik qurumu və fonoloji sistemi**

IV.1 Ünsiyyətin modeli.......................................... 171
IV.2. Ünsiyyətin fizioloji aspekti.............................. 171
IV.3. Ünsiyyətin akustik aspekti.............................. 186
IV.4. Ünsiyyətin perspektiv aspekti.......................... 197
IV.5. Ünsiyyətin linqvistik aspekti........................... 198
IV.6. Danışıq aktının üzvlənməsi.............................. 212
IV.7. Səs, variant və fonem münasibətləri................ 219
IV.8. Fonemlərin identifikasiyası............................. 224
IV.9. Germən dillərinin fonem inventarı................... 228
IV.10. Fonem sistemi fonemlərin qarşılıqlı münasibətləridir............................................ 233
IV.11. Fəslə dair yoxlama sualları və tapşırıqlar......... 238

**V. Fonemlərin distributiv təhlili**

V.1. Fonem birləşmələri və fonem dəyişmələri......... 249
V.2. Fonem əvəzlənmələri...................................... 251
V.3. Fonem realizasiyasına heca və prosodiyanın təsiri............................................................. 255
V.4. Sintaqm intonasiya vahidi kimi....................... 259
V.5. Fəslə dair yoxlama sualları və tapşırıqlar......... 268

**VI. German dillərinin morfoloji strukturu**

VI.1. Ümumi qeydlər.............................................. 273
VI.2. Dilin morfoloji quruluşu və morfem tərkibi...... 277
VI.3. Avtosemantik və sinsemantik morfemlər.......... 279
VI.4. Morf, allomlof(em) və morfem münasibətləri... 280
VI.5. Morfemlərin valentliyi və variativliyi............... 282

VI.6. Sözün morfem strukturu.................................. 284
VI.7. Nitq hissələri................................................... 290
VI.8. Fəslə dair yoxlama sualları və tapşırıqlar......... 296

**VII. German dillərinin sintaktik qurumu**

VII.1. Ümumi qeydlər................................................ 299
VII.2. German dilləri sintaksisinin nəzəri məsələləri (Qrimmdən Xomskiyədək)............................... 303
VII.3. Sintaktik vahidlərin ümumi səciyyəsi və tipologiyası................................................. 324
VII.4. Sintaktik vahidlərin semantik təhlili................ 332
VII.5. Sintaktik əlaqələr............................................. 337
VII.6. Söz sırası......................................................... 340
VII.7. Sintaktik vahidin verbosentrik konsepsiyası..... 341
VII.8. Sintaktik vahidin aktual (kommunikativ) üzvlənməsi...................................................... 345
VII.9. Qrammatik funksiyalar.................................... 347
VII.10. Fəslə dair yoxlama sualları və tapşırıqlar......... 350

**VIII. German dillərinin Azərbaycanda öyrənilməsinin bəzi məsələləri**

VIII.1. Ümumi qeydlər................................................ 355
VIII.2 Xarici dəl fənninin özəllikləri........................... 360
VIII.3. Xarici dil dərslərinin əsas komponentləri.......... 362
VIII.4. German dillərinin Azərbaycanda öyrənilməsi tarixindən..................................... 365
VIII.5. Fəslə dair yoxlama sualları və tapşırıqlar......... 366

**Şəkillər**................................................................... 369
**Ad göstəriciləri**....................................................... 391
**Fənnin özək sözləri**................................................. 397
**Biliklərin dərinləşməsi üçün**................................... 404

# GERMAN DİLÇİLİYİNƏ GİRİŞ

## ÖN SÖZ

Giriş yazmaq, üzü də dünyada ən geniş yayılmış dillərdən olan german dillərinin öyrənilməsinə həsr edilmiş kitaba giriş yazmaq, son dərəcə məsuliyyətli bir işdir. Bu məsuliyyəti tam dərk etməsəydik, belə bir işi heç vaxt boynumuza götürməzdik. Lakin roman-german filologiyası fakültəsinin açılmasında bilavasitə təşəbbüskar və iştirakçı olduğumuz üçün belə bir dərsliyin yazılması fikrindən yan keçə bilmədik. Həm də 70-ci illərdən bəri «**Dilçiliyə giriş**» və «**Ümumi dilçilik**» fənlərindən oxuduğumuz mühazirələrin köməyimizə çatacağına möhkəm inanırdıq. Lakin bu kitab üzərində iş zamanı yanıldığımızı başa düşdük, çünki külli miqdarda əlavə mənbələri araşdırmalı olduq.

Nə isə, işə başlamışdıq, daha geriyə yol yox idi. Ona görə də ilk təcrübə kimi kitabı başa çatdırmağı qərara aldıq.

Bu kitabın birinci fəslində biz tədrisimizin obyekti olan german dillərinin ümumi mənzərəsini verməyə çalışdıq, bu dillərin elmi şəkildə öyrənilməsinə nə vaxtdan başlandığını, onlara qohum olan dillərlə genetik yaxınlığına sübut olan faktları, dilin nə demək olduğunu, bu dillərin misalları ilə açmağa cəhd göstərdik. İş orasındadır, bu dillərdə hansı problemə toxunsaq, o mütləq ümumi dilçilik işığında şərh olunmalıdır, zira ümumi dilçiliyin üzdə olan bütün problemləri olmasa da, əksəryyəti bu dillərin materialları əsasında formalaşaraq nəzəriyyə səviyyəsinə qalxmışdır. Bu gün linqvistikada məlum nəzəriyyələrin çoxu ya roman, ya da german dillərinin konkret dil materiallarına söykənir. Komparativistlər, gənc qrammatikçilər, sosial dilçilik cərəyanının nümayəndələri, psixolinqvistlər, funksionalistlər, strukturalistlər, deskriptivistlər, qlossematiklər və s. əldə etdiklərinin əksəriyyətini german dillərinin konkret tədqiqi nəticəsində qazanıblar. Odur ki, bu kitabı müəyyən mənada dilçiliyə giriş də adlandırmaq olar. Müəllif öz doğma türkcəsindən sonra german dillərindən almanı rus dililə birlikdə ikinci və üçüncü dili hesab edir, ingilisi sərbəst danışır, fransız dilindən lüğətlə istifadə edir, Azərbaycan dililə qohum olan Türkiyə türkcəsini tam başa düşür və digər bir neçə dildə ünsiyyətə girə bilir. Göründüyü kimi, bu dillər müəllifə çox

yaxındır, ona görə də konkret dil materialını şərh etməkdə o subyektivizmə yol verə bilməzdi.

Beləliklə, obyekt kimi götürdüyümüz dillərin ümumi mənzərəsini verdikdən sonra biz ikinci fəsildə bu dillərin tədqiqi tarixinə nəzər salmağı üstün tutduq. Yalnız bundan sonra bu dillərin ayrı-ayrı aspektlərini müqayisəli və qarşılıqlı şəkildə şərh etməyə başladıq Leksikologiya, fonetika/fonologiya, morfologiya/morfematika və sintaksisə müvafiq olaraq fəsillər həsr edilmişdir.

Məqsədimizə necə nail olduğumuzu oxucularımız deyəcək, bizsə fürsəti əldən verməyərək xeyirxah və ciddi iradlar süyləyəcək oxucularımıza bəri başdan öz minnətdarlığımızı bildirmək istərdik.

Bu kitabdakı qüsurları müəllifə çatdıran hər bir oxucu nə qədər çox tutarlı dəlil gətirsə, müəllif bir o qədər tez inanar və onları kitabın gələcək nəşrlərində, sözsüz, nəzərə alar.

Bu kitabın filologiya fakultələrinin tələbə, magistr və aspirantları, habelə çağdaş linqvistikanın bütün problemlərilə maraqlananlar üçün dəyərli mənbə olacağına inanırıq.

***Müəllif,***
*1999-2000, Bakı-London-Boxum-Bakı*

## Kitabın ikinci nəşrinə ön söz

Kitabın birinci nəşrindən xeyli vaxt keçib. Kitab mütəxəssislər tərəfindən maraqla qarşılandı Bunu Respublika mətbuatında gedən rəylər bir daha təsdiq edir. Öz rəylərindətənqidi fikir və mülahizələr söyləyənlərə, xüsusilə AEA müxbir üzvü, prof. A.Axundova, prof. H.Quliyevə, prof. A.Qarayevə, dos.F.Aslanova və başqalarına dərin minnətdarlığımızı bildiririk. Kitabın geniş müzakirəsi keçirilərkən professorlardan K.Abdulla, A.Qarayev, S.Babayev, N.Kazımov, dosentlərdən Ə.Əliyeva, C.Axundov, K.Hacıyev, Ə.Cəfərov, F.Hüsənoğlu və çoxlumiqdarda tələbə və magistr çıxış edərək onun yaxşı cəhətlərilə bərabər çapında nəzərdən qaçmış səhvləri göstərdilər, kitabın bəzi yerlərinə öz irad və mülahizələrini bildirdilər. Bu nöqsanların böyük əksəriyyəti kitabın bu nəşrində nəzərə alınıb. Əsərin müzakirəsində çıxış edən ə.e.x. prof. K.Abdulla onun həm ümumi dilçilik, həm də konkret bir dilşünaslıq üçün dəyərli töhfə olduğunu vurğulayaraq dedi: «Türkologiya ilə məşğul olan hər bir kəs bu kitabdan yan keçə bilməz, çünki bu kitabda söylənilənlər türk dillərinə də şamil edilə bilər».

Müzakirəyə təqdim etdiyi yazılı rəydə AEA-nın müxbir üzvü, ə.e.x. prof. a.Axundov bu kitabı belə dəyərləndirir: «Bu gün müzakirəsi keçirilən «German dilçiliyinə giriş» kitabını mən Azərbaycan dilçiliyi üçün əlamətdar hadisə kimi qeyd etməklə yanaşı, ümumən germanşünaslıqda dəyərli əsər sayıram… Mən alman dilçiliyi və almanşünaslıq hüdudlarından müsbət mənada kənara çıxan həmin kitabı dil nəzəriyyəsi, türk dillərinin elmi tədqiqinin metodoloji problemlərinin həlli sahəsində də uğurlu bir əsər kimi qəbul edirəm».

Kitabın təqdimatında çıxış edən tanınmış germanist dos. Ə.Əliyeva kitabı oxuyarkən ondan ayrıla bilmədiyini, demək olar ki, onu birnəfəsə oxuyub qurtardığın, onun

bütün germanistlər, türkoloqlar və digər mütəxəssislər üçün dəyərli bir mənbə olduğunu dilə gətirdi.

Kitabın müzakirəsində çıxış edənlərin, demək olar ki, hamısı onun yenidən, özü də latın qrafikasında nəşr olunmasını arzuladılar. Biz söylənilən iradları və kitabın ilk nəşrində nəzərdən qaçırılan məsələləri götür-qoy edib onu ikinci nəşrə hazırladıq. Kitabın leksikologiya, morfologiya və sintaksis fəsilləri yenidən işlənib, terminologiya nəzərdən keçirilib, tədqiqat mətodları bölməsi və Respublikamızda german dillərinin öyrənilməsinə dair yeni fəsil yazılaraq kitaba əlavə edilib.

Ümidvar olduğumuzu bildirmək istəyirik ki, kitabın yenidən, geniş şəkildə işlənmiş nəşri yaxşı qarşılanacaq və sevimli oxucular bu kitab haqqında öz dəyərli fikir və mülahizələrini mətbuatda və elmi ədəbiyyatda bildirəcəklər. Biz isə bu kitab haqqında tənqidi fikir söyləyəcək hər bir oxucuya öncədən öz minnətdarlığımızı bildiririk.

Kitabın ikinci nəşrinin kompüter variantında çapa hazırlanmasında müəllifə yaxından köməklik göstərdiyinə görə S.Fərzəliyevaya və bəzi biblioqrafik məlumatların dəqiqləşdirilməsində bizdən öz köməyini əsirgəməyən E.Əliyevaya dərin minnətdarlığımızı bildiririk.

***Müəllif,***
*Bakı, 2002-ci il.*

## Qısaltmalar

| | |
|---|---|
| adv. | adverb |
| adj | adyektiv |
| alm. | alman |
| alm. | almanca |
| alm. d. | alman dili |
| akk. | akkusativ |
| azərb. | azərbaycanca |
| Azərb. d. | Azərbaycan dili |
| auxil. verb | köməkçi fel |
| b.c. | budaq cümlə |
| daç. | daçca |
| dat. | dativ |
| det. | determinat |
| gen. | genitiv |
| h.g.d. | hind-german dilləri |
| ing. | ingilis |
| ing. | ingiliscə |
| ing.d. | ingilis dili |
| IPA/BFA | Beynəlxalq Fonetika Assosiasiyası |
| q.a.d. | qədim alman dili |
| q.ing.d. | qədim ingilis dili |
| KİV | kütləvi informasiya vasitələri |
| m. | mübtəda |

| | |
|---|---|
| n. | noun |
| NP | noun phrase |
| o.a.d. | orta dövr alman dili |
| obj. | obyekt |
| o.ing.d. | orta dövr ingilis dili |
| p. | predikat |
| rus d. | rus dili |
| s. | subyekt |
| t. | tamamlıq |
| və i.a. | və ilaxır |
| və s. | və sair |
| VP | verbal phrase |
| y.a.d. | yeni dövr alman dili |
| y.ing.d. | yeni dövr ingilis dili |
| x. | xəbər |

# I. GİRİŞ

## I.1. Kursun məqsəd və vəzifələri

Ölkəmiz üçün roman-german filologiyası üzrə kadr hazırlamaq biz germanist və romanistlərin çoxdankı arzusu idi. Lakin bu arzunu gerçəkliyə çevirmək o qədər də asa niş deyildi. Yuxarılarda bu işdən boyun qaçıraraq deyirdilər ki, kifayət qədər kadrmız və lazımi tədris bazamız yoxdur. Odur ki, hər dəfə məsələ qaldırılanda bizə «yox» cavabı verirdilər. Ancaq illər ötdü, ölkəmiz müstəqillik qazandı, elm, texnika, istehsalat və digər fəaliyyət sahələri üçün lazım olan kadrların hazırlığı məsələsi öz ixtiyarımıza keçdi. Elə o gündən yavaş-yavaş roman-german dilləri fakultəsinin yaradılması ideyasına qaytdaq. Və nəhayət, arzumuz çin oldu.

Artıq bir neçə ildir ki, bu fakultə bizdə fəaliyyət göstərir və təbii ki, başlanğıcında olduğumuz bu yeni yolun bütün göstəricilərini özümüz hazırlamalıyıq. Mənim də öhdəmə «German dilçiliyinə giriş» fənnindən mühazirə mətnlərini hazırlamaq düşüb. Elə bu kitab həmin mühazirələrin əsasında meydana gəlib.

Fənnə 50 saat – 34 saat mühazirələrə, 16 saat seminarlara vaxt ayrılıb. Bu kitabı mühazirələrə görə də tərtib etmək olardı.Ancaq belə bölgü kitabın oxunaqlığını və informativliyini azaldardı. Ona görə də biz ənənəvi bölgüyə sadiq qalıb fənnin öz daxili bağlılığını saxlamağı qərara aldıq.

Sual oluna bilər, bəs romanist və ya germanist bizim nəyimizə gərəkdir? Bu kadrların hazırlığını pedaqoji fakultələrə həvalə etmək olmazdımı? Doğrudan da, geniş və dərin bilikli mütəxəssisləri (romanist və germanistləri) hazırlamaq üçün bizim elmi-texniki bazamız varmı? Bu cür suallar çox təbii görünür. Lakin onlara cavablar da, fikrimizcə, bir o qədər təbii görünə bilər.

Öncə qeyd etməliyik ki, dünya əhalisinin 1 milyarda

qədəri roman və german dillərində fəal ünsiyyətdədir.[1] Yəqin ki, bir o qədəri də qeyri-fəal şəkildə bu dillərdən (xüsusilə ingilis, alman və fransız dillərindən) istifadə edir. Məlumdur ki, müasir istehsalatın elmi və texniki bazasının və həcminin səviyyəsinə görə bu dillərdə danışan xalqlar daha irəlidədirlər. Bu dillərdə yaranan informasiyanı ölçmək mümkün olsaydı, mübaliğəsiz demək olar ki, onun çox böyük hissəsi bu dillərin payına düşərdi. Azərbaycan xalqı bu cür zəngin informasiya mənbəyindən məhrum ola bilməz.

## I.2. Kursun kadr hazırlığında yeri və əhəmiyyəti

İmperiyanın dövründə biz xarici aləmlə əlaqələrimizi rus dili vasitəsilə qururduq. İndi isə vasitəçi olmadan dünya miqyasına çıxmaq istəyirik.

Göstərilən dillər üzrə geniş profili kadrlar hazırlamaq niyyətimiz öncə bu deyilənlərlə bağlıdır. Pedaqoji şöbələr isə məktəb müəllimləri hazırlayır, ona görə də onlar bui şin öhdəsindən gələ bilməzlər. German və roman dillərində danışan xalqların incəsənət və mədəniyyətini, tarix və coğrafiyasını, dil və ədəbiyyatını, adət və ənənəsini, siyasi və ictimai durumunu, iqtisadi vəziyyətini dərindən öyrənmək, xalqımızı bu sahələri əhatə edən informasiyalarla dolğun şəkildə birinci əldən məlumatlandırmaq və eynilə özümüz haqqında olanları obyektiv olaraq german və roman dillərində danışanlara vasitəçisiz çatdırmaq bu ixtisasların qarşısında duran ümdə məsələlərdir. Yalnız belə olduqda biz müstəşilliyimizi yaşada bilərik.

Almaniyanın çox nüfuzlu **«Frankfurter Allgemeine»** qəzetinin 11 iyul 1998-ci il tarixli sayında çap etdirdiyi məqaləsində K.Hofman Bakimiz və bütövlükdə Azərbaycanımız haqqında ətraflı söhbət açır və reallıqdan xəbərsiz olduğuna görə bir sıra təhriflərə yol verir. Məs., Dağüstü parkın bu yaxınlarda qəbristanlığa çevrildiyini və ya Güney

Azərbaycanda cəmisi 12 milyon türk yaşadığını iddia edir. Halbuki o real gerçəkliklə tanış olsaydı bilərdi ki, hələ 1018-ci ildə erməni qırğını nəticəsində[2] qanına qəltan edilmiş 30 minə yaxın soydaşımız elə bu Dağüstü parkdaca torpağa gömülmüşdü. Digər tərəfdən, müasir demoqrafik mənbələr güneydə 30-35 milyon Azərbaycan türkünün yaşadığını yazır. Yalnız rus dilli qaynaqlar alman jurnalistinin dediyi kimi yazırlar.

Göründüyü kimi, bizim haqqımızda fikir söyləyənlər hələ də vasitəçilərdən əl çəkə bilmirlər. Bizim jurnalistlər də Avropadan yazanda bu cür yanlışdıqlara, güman ki, yol verirlər. Belə yanlışlıqlara yol verməmək üçün ekspertlərin rəyinə böyük ehtiyac duyulur. Ekspert isə təsadüfi adam ola bilməz, o mütləq mütəxəssis olmalıdır.

Beləliklə, bizim hazırladığımız germanist və romanistlər german və roman dillərinin yazılı və şifahi qolları üzrə geniş profili mütəxəssislər olmalı, anqlistlər isə Amerikadan tutmuş Avstraliya, Yeni Zelandiya, Afrika, bir sözlə, ingilis dilinin, dar mənada germanistdirsə alman və daç dillərinin işləndiyi bütün bölgələr üzrə, bu dillərin tarixi də daxil olmaqla hərtərəfili bilikli kadrlar olmalıdırlar[3].

O ki qaldı bizim elmi-texniki bazamızın olmamasına, bu məsələni də tədricən həll etmək olar. Öncə deyək ki, bu fakultədə işləməyə qadir olan, mühazirə və seminarları yüksək səviyyədə aparmağı bacaran alimlərimiz vardır. Amerikalıların, ingilis, alman və fransızların Respublikamızda yaratdıqları mədəniyyət və dil məakəzləri bu ixtisaslar üzrə kadr hazırlığının öhdəsindən uğurla gələ biləcəyimizdən xəbər verir. Biz yavaş-yavaş kompüter mərkəzləri yaradıb dillərin tədrisində yeni mütərəqqi metodlardan istifadə edə biləcəyik. Almaniyanın Boxum, Fransanın Strasburq, Amerika və İngiltərənin müvafiq universitetlərilə bağladığımız və bağlayacağımız əməkdaşlıq müqavilələri germanist və romanist kadrların hazırlığına güclü təkan verəcəkdir.

Ali məktəbin vəziyyətinin yaxşılaşmağa doğru getdiyi

bir vaxtda, axı qəbulumuzun tən yarısı özünümaliyyələşmə prinsipilə həyata keçirilir, xaricdən mütəxəssis çağırmaq problem olmamalıdır. Bu o deməkdir ki, biz istənilən mütəxəssisi Bakıya dəvət edib ona mühazirə oxumağı tapşıra bilərik. Lazım gəldikdə kömək üçün dilləri öyrənilən ölkələrin Bakıdakı təmsilçilərinə müraciət etmək olar. Həmin fakultə üçün lazımi dərslik və dərs vəsaitlərini sifariş yolu ilə yazdırmaq olar. Bir sözlə, istək, arzu və məqsəd aydınlığı varsa, niyyəti həyata keçirmək çətin məsələ deyil.

Məlumdur ki, germanist çox geniş profili mütəxəssis deməkdir. Bizim fənn isə dilçilik fənni olduğundan, burada biz german dillərinin sistem və struktur xüsusiyyətlərini verməyə çalışacağıq. Bizim qəti inamımız budur ki, bu fənn çox əsaslı şəkildə öyrədilməlidir, çünki sonra veriləcək biliklərin hamısı bunun üzərində qurulmalıdır. Dil materialı kimi əsasən ingilis, alman və daç, bəzi hallarda isə tədris dili və ana dili kimi Azərbaycan və rus, bəzən də başqa german və roman dillərindən istifadə olunur.

Bakalavr səviyyəsinin 1-2-ci kurslarında germanistikanın ümumi-nəzəri məsələlərinə, o cümlədən bu fənnin və praktik dilin öyrənilməsinə xüsusi fikir verilməlidir. 3-4-cü kurslarda isə tələbələr öz gələcək elmi maraq istiqamətlərini müəyyənləşdirməli, 4-cü kursun son semestrində germanistikanın konkret bir sahəsindən diplom işi yazaraq müvəffəqiyyətlə müdafiə edib diplom aldıqları təqdirdə çoxsaylı firma, şirkət, cəmiyyət, nəşriyyat, idarə, təşkilat, komitə, nazirlik, səfirlik və redaksiyalarda məlum bölgə üzrə əmək fəaliyyətinə başlaya bilərlər. Xüsusi yaradıcılıq qabiliyyəti olanlar isə magistraturaya gedib ixtisaslarını artıraraq germanistikadan dissertasiya müdafiə edib Respublikamızın müxtəlif elm və təhsil ocaqlarında çalışa bilərlər. Göründüyü kimi Respublikamızın germanist kadrlarına ehtiyacı son dərəcə böyükdür.

## 1.3. Kursun dilçilik tarixi və başqa fənlərlə əlaqəsi

**"German diçiliyinə giriş" fənni** bir çox dil və qeyri-dil fənlərilə sıx bağlıdır. Öncə onun dil fənlərilə əlaqəsinə bir nəzər salaq. Germanistika dilçilik tarixi, etimologiya, romanistika, slavistika, skandinavistika, geniş mənada filologiya və xüsusilə klassik filologiya, tarixi-müqayisəli dilçilik, tipologiya və s.-lə qarşılıqlı təsir şəraitində yaranmış, formalaşmış və inkişaf etmişdir.

Dilin tarixini tədqiq etməklə germanistika german dillərinin keçdiyi uzun tarixi yolu, dillərin ilk şifahi və yazılı abidəsindən tutmuş bugünkü səviyyəyə necə gəlib çatdığını açıb göstərir.

Məlumdur ki, dilin yaranması, yayılması, təşəkkülü və işlənməsi kimi məsələləri elmi yolla təhqiq edən elm sahəsinə dilçilik deyilir. Çağdaş dilçiliyin çox görkəmli nümayəndələrindən sayılan britaniyalı strukturalist C.Layons (1932) dilçiliyə tərif verərkən onu dilin dəqiq linqvistik tədqiqilə məşğul olan elm kimi müəyyənləşdirir.[4] Elmilik dil strukturunun ümumi səviyyəsinə dair aparılan müşahidələri yoxlamaq və alınan nəticələri empirik yolla sübut etmək deməkdir.[5]

Bunun üçün tarixən mövcud linqvistik irsi araşdırmaq, dilin mahiyyətini açıqlayan mənbələri mükəmməl şəkildə öyrənmək lazımdır. Eyni zamanda dili tədqiq etməyin, öyrənməyin yollarını, üsul və vaitələrini, metodlarını dərindən mənimsəmək çox yaşxı nəticə verə bilər. Başqa sözlə desək, dili öyrənməyin texnikasına yiyələnmək vacibdir və nəhayət, dili təsvir etmək üçün, müşahidə ediləni təhlil edib ümumiləşdirmək üçün müəyyən ənənəvi terminlərlə yanaşı müasir dilçilik terminlərindən də istifadə edilməlidir.

Beləliklə, dilçiliyin başlıca məqsədi, dilin obyektiv varlığını dərk etmək, onu danışıb-eşitdiyimiz kimi açmaq və

şərh etməkdən ibarətdir. Bəri başdan qeyd edək ki, İ.A.Boduen de Kurtenedən (1845-1929) və F.de Sössürdən (1857-1913) sonra dilçilikdə dönüş yarandı.

F.de Sössür birmənalı şəkildə göstərdi ki, dilçiliyin yeganə və həqiqi obyekti özlüyündə və özü üçün nəzərdən keçirilən dildir. Məhz bu tezis dilçiliyin avtonomluğunu, yəni başqa elm sahələrindən asılı olmamasını ön plana çəkirdi, hərçənd ki, dilçiliyin bir sıra dəqiq və qeyri-dəqiq elmlərlə əlaqəsi danılmazdır.

Elə buna görə də dilçilik elmi üç əsas sahəni fərqləndirməlidir. Birinci növbədə ümumi dilçilik məsələləri, ümumiyyətlə dili (language) öyrənmək, konkret bir dilin, deyək ki, alman, ingilis və s.-in sistem və struktur xüsusiyyətlərini araşdırmaq (langue) və hər hansı bir dilin konkret danışıq məqamında işlənməsi xüsusiyyətlərini (parole) tədqiq etmək müasir linqvistikanın mühüm vəzifələri hesab edilir.

F.de Sössür ruhunda tədqiqat aparan hər bir dilçi daim bu üç mühüm problemin həllinə çalışır:

Tanınmış fransız dilçisi E.Benvenist (1902-1976) dilçi qarşısında hansı vəzifələrin durduğunu aşağıdakı kimi ümumiləşdirir.

1. Dilçinin vəzifəsi nədən ibarətdir, «dil» adı altında nə təsvir olmalıdır? Bu cür təsvirlər bizə nə verir? Başqa sözlə, burada söhbət dilçiliyin obyektindən gedir.

2. Bu obyekt necə təsvir olunmalıdır? Dilin bütün incəliklərini açıb göstərmək üçün müəyyən yollar aramaq və bununla da dillərin hamısında deyilən və eşdilən nə varsa hamısını həmin yol və üsullarla şərh etmək.

3. Dil nə isə demək və bu deyiləni eşidib ona cavab qaytarmaq funksiyasını daşıyır. Həmin bu «nə isə»ni tapıb üzə çıxarmaq, yəni dil vasitəsilə ifadə olunan mənanı müəyyənləşdirmək tələb olunur.[6]

Yuxarıda qeyd etdiyimiz vəzifələri dilçilik tarixən necə həll edib? Bu və bu kimi suallara cavab vermək üçün dilçiliyin tarixinə bir nəzər salmaq gərəkdir. Başqa sözlə desək,

«dil haqqında nə deyilib və nə yazılıb?» sualına tarixin dərin qatlarında ilişib qalan, bizə çatan və çatmayan mənbələri araşdırmaqla cavab vermək olar. Dilçilik tarixi təkcə bu elmin formalaşması yolunda zaman-zaman buraxılmış səhvləri düzəltmək deyildir. Əslində elə bunun özü çox önəmli bir işdir, çünki hər bir elm öz keçmişi üzərində ucalır və inkişaf edir. Keçmişi öyrənmək həm də mövcud fikir və mülahizələri yenidən ifadə etmək üçün vacibdir. Hər hansı bir elm sahəsinin tarixini bilmək onun özəl prinsiplərini və nəzəri əsaslarını bilmək deməkdir.

Germanistikanın dilçiliyin bir qolu kimi formalaşması və inkişafı bütün dilçilikdə olduğu kimi üç tarixi mərhələdən keçib. Bunlar qədim hind, yunan-roma və ərəb dilçiliyi tarixidir. Biz aşağıda həmin mərhələlərin qısa icmalını verməy lazım bildik.[7]

Ənənəvi qrammatika kimi göstərilən elm sahəsi çoxşaxəli və rəngarən bilgilər tarixidir. Tarixin dərin qatlarında çox mühüm və ziddiyyətli mərhələlər yatıb qalıb. Mənbələrin çoxu it-bat olsa da, bizə gəlib çatan qaynaqlar bunu söyləməyə əsas verir ki, biz dilçilik tarixindən çox şey götürə bilərik. Əslind sözün yaxşı mənasında tam və əhatəli ənənəvi dilçilik tarixi hələ yazılmayıb.[8] Bu məqsədlə də biz dilçilik tarixinə bir nəzər yetirmək istədik.

Hindistanın qrammatika sahəsində xidmətlərini ayrıca qeyd etmək lazımdır. Eradan əvvəl təxminən 4-cü əsrdə hindistanlı Panini öz xələflərinin böyük siyahısını verir və özündən bir neçə əsr qabağın qrammatik ənənəsini yad edir. Panini dövründə ən azı on dilçilik məktəbi olduğunu və minlərlə əsərin yazıldığını yada salanda Hindistanda qrammatikanın nə qədər inkişaf etdiyini təsəvvür etmək çətin olmaz. Hindlilər qədim mətnləri şərh edərək qlossarlar və arayış kitabları tərtib edirdilər, bir neçə əsr özlərindən qabaq meydana gələn Ved himnlərinin (Rig-ved – himnlər toplusu, Sam-ved – şeirlər, Yacur-ved – qurbanlıq vedləri və Atxarva-ved – yalvarış vedləri) şərhini verməyə cəhd göstə-

rirdilər. Qeyd edək ki, bu himnlərin tələffüz qaydaları və sözlərin daxili strukturu çox dəqiqliklə açıqlanırdı. Mütəxəssislərin qəti fikridir ki, Panini və onun ardıcılları sanskrit dilinin fonetik qurumunu daha müfəssəl açmışlar. Onların fonetikası sonralar qərbdə bu elmin inkişafına güclü təkan vermişdir. Paninin qrammatikasında yalnız müqəddəs dini ayələr deyil, həmçinin öz dövrünün dili təsvir olunur. Bu qram matikalarda sanskrit dilində ad və Feb bəhsilə yanaşı, sözönü və ədatı da fərqəndirirlər. Öz daxili bağlılığına, bütövlüyünə və ifadə vasitələrinin yığcamlığına görə Paninin qrammatikası bu gün də bir çox qrammatikadan üstündür. Əsərin 4000-dən çox qayda ilə açılmasını verən Panini ardıcılları ona elə düşünüb yaradıblar ki, bir qayda sonrakı qayda ilə tamamlanır, ya da şərh olunur. İfadələrin yığcamləğəna qısaltmalar və simvollar kömək edir. Sanskritin kəşfi nəinki təzə dillə tanış olmağa imkan verdi, həmçinin Hindistanın zəngin qrammatika ənənəsini öyrənməyə kömək etdi.[9]

Hindistanda dilçilik sonralar da inkişaf edirdi. XIII əsrdə məşdür Hindistan alimi Vopadeva sanskrit dilinin qrammatikasını tərtib edir və orada dil səslərinin artikulator təsnifini, sait əvəzlənmələrini geniş şərh edir. Onlar 4 nitq hissəsinin (ad, fel, sözönü və ədat) təsnifini verir, sözü kökə, şəkilçiyə və sonluğa bölür, sözdəyişmə və sözdüzəltməyə xüsusi yer ayırır və 7 hal fərqləndirirlər.

Təəssüf ki, Hindistan dilçiləri sanskriti ən qədim dil saymaqda, bu dildə yalnız üç saitin - /a/, /i/ və /u/, habelə yalnız dilarxası samitlərin olmasını israr etməkdə səhvlərə yol verirdilər.

Qədim yunanlar eradan əvvəl beşinci əsrdə dilin mahiyyəti və təbiətinə dair çox maraqla fikirlər irəli sürmüşdülər (Heraklit – 540-480, Demokrit – 460-370). Artıq Platon (eradan əvvəl 420-347) çox dəyərli linqvistik fikirləri əhatə edən «Kratil» adlı dialoqunda materialistlərin dünyagörüşünü açıqlayaraq göstərirdi ki, sözlərlə onların ifadə et-

diyi əşyalar arasında təbii bağlılıq var, ona görə də dil məntiqi və qanunidir. O, dilin yaranmasını, mənanın təbiətini, dilin struktur xüsusiyyətlərini, dildəki sapmaları və onu ilkin normadan uzaqlaşdıran amilləri ilk dəfə mübahisə obyektinə çevirə bilmişdi.

Məsələni bu şəkildə izah edənlər anomalistlər deyirdilər. Anomalistlərə görə naşı adamın dərk etməsi çətin olsa da, filosoflar şeylərin arxasında duran gerçəkliyi görüb dərk edə bilirlər. Buradan da şüurlu və düşünülmüş «etimologizasiya» anlayışı meydana gəlib, bu da «sözün mənşəyini və bununla bağlı mənasını açmağa imkan verir. Bu nəzəriyyəyə göə dilin bütün sözlərinin həqiqi mənasını açmaq, təbiətin həqiqətlərindən birini duymaq deməkdir» (J.Lyons, s.1). Sözlə onun mənası arasındakı əlaqənin olmasını sübut edən bir neçə üsul var. Onlardan biri səs təqlidi nəzəriyyəsidir. Məs.: /mələmk/, /böyürmək/, /brüllen/ və s. İkincisi, söz səs təqlidilə yaransa da o, bilavasitə həmin sözdəki hər hansı bir səsin əksi deyil. Yəni söz bütövlükdə səsin mənbəyini və ya səsi əks etdirmir. Məs.: /ağacdələn/, /kukuk/ və s. Bu iki qrupp sözləri yunanlar «onomatopoeia» (ad yaradıcılığı) adı altında birləşdirirlərö Sözlərin səsləri yamsılama yolu ilə yarandığını güman edən naturalistlər (bunları stoiklər də edirdilər. Qədim yunanların fikrincə, bu sözlər adlandırırlar.) belə qənaətə gəlirdilər ki, bu cür sözlər dildəki adlarn özəyini təşkil edir və guya dil elə bu sözlərdən yaranıb. Qədim yunanların fikrincə, bu sözlər onun mənası arasındakı münasibətləri adlandırmağa xidmət edir. Bu nəzəriyyə dilin bütün sözlərini aça bilmirdi, çünki dildəki dəyişikliklər, başqa sözlər bura daxil olmur. Ona görə də yunanlar səs təqlidi nəzəriyyəsini genişləndirərək bütün sözlərdə ayrı-ayrı səslərin təqlidini tədqiqata cəlb etməklə sözdüzəltmənin bazasını genişləndirməyə çalışırdılar. Məs.: alman dilində /l/ fonemi süzülən samidir. Alimlər güman edirdilər ki, tərkibində /l/ samiti olan bütün sözlərin mənasında bir axıcılıq müşahidə olunur. Müq.eq: /fli:sen/ (axmaq), /flu:s/ (çay) və s. Müasir

dilçilikdə linqvistikanın bu istiqamətinə fonosemantika və ya səs semantikası, bəzən də səs simolikası deyilir. Ümumiyyətlə, yunanlar sözlərin yaranmasına və qarşılıqlı münasibətlərinə dair rəngarəng prinsiplər işləyib hazırlamışlar. Məs.: sözlərin ilkin mənası ilə sonrakı mənaları arasındakı təbii əlaqə (məs.: /boğaz/ «insanın, çəkmənin, butulkanın»), sözə müəyyən bir ünsürün əlavə edilməsi (məs.: dol+a+b), dəyişdirlməsi (məs.: dol+a+n), atılması ilə (məs.: qazanc – qazan) və s. düzələn sözlərdə təbii əlaqənin olması kimi prinsiplər buna misal ola bilər. Bəzən sözün mənası onu təşkil edən tərkiblərin mənalarından doğur. Məs.: ingilis dilində /blackbird/ (qara toyuq) /black/ (qara və /bird/ (quş) sözlərindən əmələ gəlib. Quş ona görə belə adlanır ki, onun rəngi qaradır. Azərbaycan dilində /qazayağı/ ona görə belə adlanır ki, bu bitki qaz ayağına oxşayır. Burada zahiri oxşarlıq göz qabağındadır. Bu minvalla etimoloqları ingilis dilindəki /breakfast/ sözünü mütləq daxili əlaqədən yaranan, yəni motivləşmiş söz kimi götürə bilərdilər. /break/ «sındırmaq», /fast/ isə «pəhriz», yəni pəhrizi pozmaq və ya gözləməmək.

Bəzən sözdəki komponentlər öz fonem tərkibinə görə tam üst-üstə düşsələr də, onların mənaca eyni olduğunu sübut etmək o qədər də asan olmur. Məs.: ingilis dilində /manly/ və /early/ sözlərindəki /ly/ eyni səslənsə də, etimoloji baxımdan /manly/ sözündə bu /like/ sözündən əmələ gəlib və «yaraşan, layiq» mənasını verir. /early/ (tezdən, sübhdən) sözündə isə /ly/-nin nə demək olduğunu açmaq mümkün deyil. Eləcə də /woman/ (qadın) sözündə /man/ bu dildəki kişi sözü ilə üst-üstə düşsə də, /wo/ -nun nə demək olduğunu bu üzvlənmə vasitəsilə açmaq olmaz. Dildəki təkhecalı sözlərin də etimoloji yolla mənasının açılmasının qeyri-mümkün olduğunu nəzərə alsaq, F.de Sössürün işarələrin ixtiyariliyi haqqında nəzəriyyəsinin nə dərəcədə əhəmiyyətli olmasını başa düşmək çətin olmaz (bu barədə bax 1-ci fəsil).

Beləliklə, sözlə onun mənası arasında birbaşa bağlı-

lığın olmasını israr edənlər, bunlara qədim Yunanıstanda naturalistlər deyirdilər, təkidlə bildirirdilər ki, dildəki bütün sözlər bir qrupp ulu sözlərdən təbii yolla yaranıb. Əslində naturalistlərlə daban-dabana zidd mövqedə olan sazişçilər (konventsionistlər) arasındakı uzun sürən mübahisələr qrammatik nəzəriyyənin formalaşmasına səbəb oldu və yeni tədqiqatlara təkan verən etimoloji axtarışlar fəlsəfənin tərkib hissəsi kimi qrammatika[10] elminin inkişafına gətirib çıxartdı.

German dillərində qaydanın gözlənilməsinə dair xeyli misal vermək olar. İngilis dilində /boy-boys, girl-girls, cave-caves/, alman dilində /Hand-Hande, Nacht-Nachte, Wand-Wande/ və s. kimi sözlərdə qrammatik kəmiyyətin göstəricisi eynidir: /-s/ və /--+e/. Burada həlledici rolu analogiya oynayır, ona görə də bu mövqedə duran alimləri analogistlər adlandırırlar. Əslində analogistlər riyazi nisbəti və ya proporsiyanı [11] üsul kimi götürürdülər. 6:3-ə nisbəti 4:2-yə və ya 2:1-ə nisbətinə bərabərdir. Bu prinsipi Platon və Aristotel (384-322) geniş elmi zəmin üzərində tətbiq edərək külli miqdarda yeni söz modelləri[12] düzəltməyə nail oldular.

Sözdüzəltmədə müəyyən qaydalar olduğunu inkar etməyən anomalistlər çoxlu sayda qaydadan kənara çıxan misallar tapırdılar. Məs.: /child-children, gut-besser/. Yunanca cəmdə olan /Athen/ sözü bir şəhərin adıdır. Bu dildə «paidion» (uşaq) orta cinsdədir, halbuki uşaq ya qadın, ya da kişi cinsində olar. Anomalistlər iddia edirdilər ki, dil razılaşmadırsa, onda sapmalar olmamalıdır, olsa da düzəldilməlidir. Dilə təbiətin bir hissəsi kimi yanaşan anomalistlər onun qismən model və ya analogiya vasitəsilə şərhinə etiraz etməsələr də, onun canlı işlədilməsinə ayrılıqda nə qədər irrasional olsa belə diqqət yetirməyi tələb edirdilər. Analogistlər anomaliya hesab etdiklərini düzəltməyə hazır idilər, ancaq dilin mahiyyəti haqqında fikirlərindən geri dönmək istəmirdilər. Eyni zamanda qaydalı və qaydasızın özü mübahisəli idi. Birinin qaydalı hesab etdiyini başqası qaydasız hesab

edirdi. Deməli, bu modelin özü dəqiqləşdirilməli idi. Digər tərəfdən, dildə nə qədər anomaliya və nə qədər analogiya, nə qədər qaydalı və nə qədər qaydasız olduğunu da isbat etmək o qədər asan məsələ deyildir.

Əslində bu iki cəbhənin diskussiyasını sübut edən tarixi faktlar azdır. Amma eradan əvvəl 1-ci əsrdə romalı qrammatist Varro onların arasındakı mübahisələri çox şişirtmişdi.[13]

Yunan elmi qrammatikası 6 əsr ərzində (xristianlıqdan öncə 4-cü əsrdən ta eranın 2-ci əsrinə qədər) təhlilin metodikasını işləyib hazırladı və onu norma səviyyəsinə qaldırdı. TƏsadüfi deyil ki, bu qrammatika sonralar dilçilik tarixinə yunan qrammatikası kimi daxil olub.

Artıq Platon adlar və fellər anlayışını fərqləndirirdi. Platona görə adlar cümlələrdə deyilənin subyektləri kimi çıxış edə bilir, fellər icra edilən hərəkətin və ya əlamətin ifadəsidir. Elə bu gün də məktəb qrammatikalarında cümlənin mübtədası haqqında danışılan əşya, şey kimi, xəbər isə mübtədada deyilən hər hansı bir şeyin ifadəsi kimi müəyyənləşdirilir. Sonralar bu iki anlayışa sifət əlavə edilsə də, yunan qrammatistləri ikili sistemi saxladılar və adlarla sifəti bir klassda birləşdirdilər. Aristotel Platonun bölgüsünü saxlasa da, adlar və fellərdən başqa bütün sözləri «bağlayıcılar» adı altında birləşdirdi. Aristotel həmçinin 3-lü cins bölgüsünü qəbul edirdi. O, «kişi» və «qadın» cinsilə bərabər, onların arasnda olan üçüncü cinsi fərqləndirir və bu da sonralar latın dilinə tərcümə edilərək orta (cins (Neutrum) adlandırılır. Aristotel yunan felinin zamanlarına xüsusi fikir verir, indiki və keçmiş zamanı əlaqələndirməyə çalışırdı.

Yunanlar qrammatikanın deskriptiv (təsviri) və preskriptiv (normativ) növlərinin olması ilə bağlı mübahisələr aparırdılar.[14] Başqa sözlə desək, dilin qrammatikası ya danışıldığı və ya yazıldığı kimi (deskriptiv), ya da necə danışılmalıdır və ya yazılmalıdır qaydalarına əsaslanaraq (preskriptiv) təsvir edilməlidir.

Bu gün dilçilik elmi birmənalı şəkildə sübut etməyə çalışır ki, ənənəvi qrammatikanın əsasını anomalistlərdən sayılan stoiklər qoymuş, sonralar İskəndəriyyə analoqistləri onlardan çox şey öyrənmişlər.

Stoiklər dilin yaranmasının fəlsəfi problemləri, məntiq və ritorika ilə məşğul olurdularsa, iskəndəriyyəlilər ədəbi tənqidə daha çox yer verirdilər. Axırıncılar keçmişin bədii mətnlərini şərh etmək iddiasında idilər, ona görə də boşluqları anomaliya prinsiplərinin köməyilə doldurmağa çalışırdılar. Stoiklər ifadə edənlə ifadə ediləni fərqləndirir, ancaq dili təbiətin inikası kimi götürmürdülər. Stoiklər həmçinin şəkilçilərin bölgüsündə və hal kateqoriyasının, habelə aktiv /passiv, təsirli/ təsirsiz anlayışlarını da işləyib hazırlamışdılar. Sonralar ənənəvi qrammatika öz qaydalarını həmin qrammatistlərə əsasən quraşdırırdı. Ancaq həm onu, həm də bunu nəzəri əsas kimi götürdüklərindən problem həll olunmadan qalırdı. Onlar bir tərəfdən dildə qanunauyğunluqları axtarrdılar və bu yolla əlaqələri bərpa etmək istəyirdilər. Digər tərəfdən isə, dildə işlənmə dedikdə kimin düzgün danışdığını müəyyənləşdirmək məsələsi dururdu. Elə müasir dilçilik də, onlardan hansının daha çox haqlı olduğunu birmənalı şəkildə müəyyənləşdirməkdə çətinlik çəkir.

Xristianlıqdan öncə üçüncü və ikinci əsrlərdə yunan koloniyası olan İskəndəriyyədə bir kitabxana yarandı və bununla da həmin şəhər ədəbi axtarışların və elmi tədqiqatların mərkəzinə çevrildi. Bu zaman Homerin epik əsərləri («İliada» və «Odisseya») geniş tədqiqata cəlb olunurdu və müxtəlif əsərlərin müqayisə obyektinə çevrilməsi əsərlərin orijinallığını və müəlliflərin əsl kimliyini üzə çıxartmağa imkan yaradırdı. Keçmişin epik əsərlərinə aludəçilik ona gətirib çıxardırdı ki, ötən dövrlərin dili daha «təmiz» sayılırdı. Klassik yunan dilini savadsız və səviyyəsiz adamların korlamasına yol verməmək üçün, alimlər bir tərəfdən yazılı dili danışıq dilindən üstün tuturdular, digər tərəfdən isə dilin inkişafını ancaq keçmişə söykənməklə açmaq istəyirdilər.

Elə o vaxtdan ta İ.A.Boduen de Kurteneyə qədər dilçilər yazılı dili əsas götürürdülər. Hətta indinin özündə də bəzi dilçilər hərfi səsdən ayırmaqda çətinlik çəkirlər.

İskəndəriyyəli dilçilər belə hesab edirdilər ki, xristianlıqdan öncə beşinci əsrdə Afina müəlliflərinin əsərləri dil baxımından müasirlərindən daha təmiz olub. Təmizliyi ziyalılar, savadlılar qoruduğu halda, savadsızlar dili korlayırlar. Bu da onların ikinci böyük səhvi idi. Platonun dilinin İskəndəriyyədən oxumağı və yazmağı bacarmayan sənətçinin dilindən daha təmiz olduğunu söyləmək nəinki səhv idi, bu əslində mənasız və tavtaloji bir fikir idi.[15]

Stoiklərdən fərqli olaraq iskəndəriyyəlilər analogistlər idilər. Onların (xristianlıqdan öncəki ikinci əsr) məşhur dilçisi Dionisius Traks ilk dəfə olaraq zərf, partisip, əvəzlik və sözönülərini fərqləndirir. Sözlər hal, cins, kəmiyyət, zaman, şəklə görə təsnif olunurdu. Lakin 3 əsr sonra Appolonius Dyscolus (eradan sonra 2-ci əsr) yunan dilinin qrammatik təsvirini verir.

Ümumilikdə, yunan alimləri dilçiliyin inkişafında mühüm rol oynamışlar. Onlar nitq hissələrinin, hal, kəmiyyət, növ, zaman, suöyekt, predikat və s. kateqoriyaların tərifini vermişlər. Bu anlayışlar sonralar latınlarda aparıcı linqvistik anlayışlar idi. Elə bu gün də germanistika, geniş mənada dünya dilçiliyi bu məfhum və anlayışlardan gen-bol istifadə edir.

Yunan mədəniyyətinin təsiri altında formalaşan Roma qrammatistləri fəlsəfə, ədəbi tənqid və ritorikaya tabe idilər. Romalılarda anomalistlər və analoqistlər arasındakı mübahisə davm etməkdə idi. Y.Seəar müharibə meydanlarında Siserona həsr etdiyi «Analogiya haqqında» qrammatik traktatını yazır. Latınların yunan qramatiklərinin təsiri altında olmasını sübut edən fakt odur ki, D.Rtaksın kitabı kimi üç hissəli latın qrammatiksı yazılmışdı. Birinci hissə düzgün danışmaq və şairləri başa düşmək incəsənətinə həsr olunub, amma burada əsas təhlil obyekti kimi hərflər və he-

calar götürülürdü. İkinci hissədə nitq hissələrindən danışılır. Üçüncü hissə isə üsluba və səhvlərə həsr olunub. Sonrakı dövr (Donatus, eranın 4-cü əsri və Priscian, eranın 6-cı əsri) klassisizm adlanır və 17-ci əsrə qədər davam edən latın qrammatikası ənənəsi dil baxımından seçmə müəlliflərin əsərlərini şərh etməyi qarşısına məqsəd qoyurdu.

Eramızın VII-VIII əsrlərində ön Asiya, quzey Afrika və qismən Pireney yarımadasında möhtəşəm ərəb xilafəti yarandı ki, bu da vahid islam dini və rəngarəng dil və mədəniyyəti özündə birləşdirən bir imperiya idi. Xilafətin dövlət dili ərəb dili idi. İlk dilçilik məktəbləri Bəsrə və Kufə şəhərlərində yarandı. Onların əsas məqsədi klassik ərəb dilində yazılmış Quranı geniş xalq kütlələrinə şərh etmək və b udili dialektlərin təsirindən xilas etmək idi. Sonradan (IX-X əsrlər) mərkəzi Bağdada keçən dilçilik məktəbi məşhur Sibaveyxinin adı ilə bağlı idi. «Əl Kitab» əsərində o, öz sələflərinin fikirlərini ümumiləşdirib ərəb dilinin qrammatik sistemini yazıb hazırlayır. Sibaveyxinin daba-dabana zidd olan Bəsrə və Kufə məktəbləri eyni dərəcədə yüksək qiymətləndirirdi. Şərqinən böyük alimi Əli ibn Sina (Avizenna – 980-1037) «Danışıq səslərinin yaranması səbəbləri» adlı linqvistik traktatını yaradır. Xilafətin ən böyük alimlərindən sayılan XI əsrdə yaşamış türk Mahmud Kaşqarlı türk dillərinin materialını toplayaraq çoxcildli «Divani lüğət ət-türk» əsərini 1073-74-cü illərdə tamamlayır. O zaman çap olunmayan bu şedevr 1912-1915-ci illərdə İstanbulda çapdan çıxdı.

Şirazlı Firuzabadi (1329-1414) sonralar dilçilikdə şöhrət qazanmış «Kamus» (Okean) adlı lüğət yazır. Sonralar bütün lüğətləri kamus adlandırırlar.

Ərəb dilçiliyindən danışanda onların leksikoqrafiya və fonetika sahəsində xidmətlərini xüsusi qeyd etməliyik. Mahmud Kaşqarlı dilçilikdə müqayisəli tədqiqatların əsasını qoyanlardan biri və birincisidir. Ərəblər sözün kökü anlayışını, səsin deyilməsi və dərk olunması, isim, fel və köməkçi

nitq hissələri, semit dilləri üçün səciyyəvi olan üç samitli kök, ...........və daxili fleksiya və s. anlayışlarını dilçiliyə gətiriblər.

Məlumdur ki, orta əsrlər Avropasında latın dili elm, mədəniyyət və təhsil dili sayılırdı. O təkcə din və müqəddəs yazı dili deyil, həmçinin siyasət, diplomatiya və mədəniyyət dili idi. Məktəblərdə latın dili öyrədilirdi, özü də yazılı dilə üstündük verilirdi.

Bu dövrlərdə latın dilinin qrammatik təhlili yunan fəlsəfəsinin güclü təsiri altında idi. Onlar qrammatik kateqoriyaların məntiq, epistemologiya və metafizika kateqoriyalarından törədiyini iddia edirdilər. Başqa sözlə, bu dörd elmin kateqoriyalarını eyni prinsiplər əsasında şərh edirdilər. Onlar Donatus və Prisciani faktları düzgün şərh etməməkdə, faktların öz səbəblərindən törəmədiyini görməməkdə günahlandırırlar. Sözlə məfhum arasında əlaqələrin əbədi və universal olması prinsipindən çıxış edən latınlar qrammatikanı nitq hissələrinin və onlara xas olan mənanın fəlsəfi nəzəriyyəsi kimi götürürdülər. Onlar qrammatikanı spekulativ fənn kimi şərh edirdilər. Latın dilində «speculativ» (güzgü) sözündən olan anlam onlara dili gerçəkliyin aynası, yəni fiziki aləmin fenomenləri əsasında duran şəkil hesab edirdilər. Qeyd edək ki, bu konsepsiya stoiklərdə müşahidə olunurdu, sonralar isə o, L.Vaisgebergin (1899-1958) dilçilik görüşlərinin əsasını təşkil edirdi.

R.Bekon (1214-1294) yazırdı ki, qrammatika təsadüfi çalarlıqları çıxmaq şərtilə bütün dillər üçün eynidir. Digər naməlum müəllifə görə, kim bir dilin qrammatikasını bilirsə, deməli, substansiya baxımından başqa bir dilin də qrammatikasını bilir. Əgər o başqa bir dildə danışmırsa və ya başqa dildə danışanları başa düşmürsə, bu, sözlərin və onların formalarının müxtəlifliyilə izah oluna bilər ki, bu da qrammatikada təsadüfi haldır. Elə bu hökm orta əsrlərdə latın dilinin aparıcı, sxloastik qrammatikanın isə universal olmasını sübut edən amillərdir. Başqa sözlə, bütün dillərdə

eyni məfhumlar üçün sözlər, eyni nitq hissələri sə ümumi qrammatik kateqoriyalar mövcuddur. Orta əsrlərdə qrammatikanı düzgün danışqam və düzgün yazmaq ustalığı kimi başa düşən, onun qarşısında duran məqsədi dilin yaxşı mənada işlənməsini təsvir etməkdən, təmiz fransızca danışan fransızların dilini təsvir etməklə onu korrupsiyadan qorumaqdan, bir sözlə dilin zibillənməsinin (alınmalar, əcnəbi söz və ifadələr, sahə etrminləri, kobud danışıq üslubu və s.) qarşısını almaqdan ibarətdir. Qrammatik qaydaları onlar kortəbii deyil, insan ruhunun təbii davranış tərzindən əmələ gəldiyini deyirdilər. Bütün bunlar Fransada daha ciddi qəbul olunsa da, kökləri Yunan və İskəndəriyyə dilçiliyinə gedib çıxırdı. Hər necə olursa olsun, bizim ənənəvi adlandırdığımız yunan-latın qrammatikası sonralar Avropadan kənarda da geniş təsir gücünə malik idi. D.Traksın qrammatikası V-VI əsrlərdə Suriyada yayıldı, sonralar onun təsiri altında ərəb qrammatikaları yarandı, bunlar həbəş dilinin qrammatikalarının yazılmasında həlledici rol oynadı.[16] Bir qədər sonra isə ərəblər İspaniyada yunan-roma ənənəsilə qarşılaşdılar.

İntibah dövründə alimlər bu cür sxolastik təlimlə razılaşa bilməzdilər. Onlar Siseronun humanizmini «sivilizasiyaya» sinonim kimi götürür və onu sxolastların barbarizminə qarşı qoyurdular. qədim sivilizasiyanın mədəni dəyərlərə xüsusi önəm verərək kitab çapının inkişafı ilə bağlı qədim mətnləri toplayıb çap etməklə həbəş, yunan və latın ədəbiyyatlarını və dillərini öyrənməkdə uğurları böyük idi. 1513-cü ildə Erasmus Donatusa söykənən latın dili sintaksisinə dair bir əsər yazıb çap etdirdi.

Lakin eyni zamanda digər dillərin (onlara vulqar dillər deyilirdi) qrammatik quruluşu öyrənilməyə başlandı. X əsrdə latın və anqlosaks dillərinin müqayisəli əsəri, baskların dili haqqında müşahidələr və XIV-XV əsrlərdə ingilis səyyahları üçün fransız dilinin qrammatikaları, o cümlədən Dantesin «De vulqari eloquentia» əsərləri Avropanın yeni

canlı dillərinə artan marağı aydın göstərirdi. Maraqlıdır ki, bu dahi italyan şairi məşhur «İlahi komediyasını» italyan xalq dilində yazmışdı. Artıq İskəndəriyyənin və İntibah dövrünün praktik kaonoları köməyə gələ bilmirdi. Amma bununla yanaşı məktəblərdə klassik ruh qalmaqda davam edirdi.

Spekulativ qrammatikanın idealları XVI əsr Fransanın Por Royal monastrının monarxları Anton Arno və Klod Lanslonun köməyilə yeni zirvəyə qalxdı. 1660-cı ildə onlar Parisdə nəşr etdirdikləri «Grammaire generale et raisonnee» (Ümumi və rasional qrammatika) adlı əsərdə dil strukturunu zəkanın məhsulu kimi götürür və müxtəlif xalqların dillərinin ümumi məntiqi və rasional sistemdən başqa bir şey olmadığı vurğulanır. Bu müəlliflərə görə qrammatika məntiqə əsaslanmalıdır. Məntiq bir olduğu üçün qrammatika da bir olmalıdır. Bir dilin ayrılıqda qrammatikası olmaz, qrammatika ümumi olmalıdır. Ümumiyyətlə latınlar qrammatika dedikdə, klassik üslubda yazıb-oxumaq vərdişlərini başa düşürdülər.[17] Onlar normativ qaydalar müəyyənləşdirərək onlara əməl olunması tələbini irəli sürürdülər. Kardinal Rişelyü 1635-ci ildə fransız dilinin təmizliyi keşiyində durmaq üçün akademiya yaradanda artıq latın dilinin nüfuzu zəifləməkdə idi. Pol Royal qrammatikası adı ilə tarixə düşmüş bu əsər maarifçilik dövründə meydana gəlmiş digər əsərlər kimi bütün Avropada ta XIX əsrə qədər güclü təsir oyatsa da, onların hamısı ənənvi qrammatika çərçivəsindən kənara çıxmırdı və yeni dil nəzəriyyəsinin yaranmasına gətirib çıxartmadı. Lakin bütün bunlarla yanaşı, birmənalı şəkildə qeyd edilməlidir ki, romantizmin çiçəklənməsi dilçiliyi başqa elmlərin təsirindən xilas etdi və dilin müstəqil elmi araşdırmaların obyektinə çevrilməsi prosesi başladı.

Ancaq alman alimi Y.G.Herder (1744-1803) özünün «Alte Volkslieder» (Köhnə xalq mahnıları-I, II-1778-1779) əsərilə mədəni abidələrin, dillərin və xalq yaradıcılığının ta-

rixi baxımdan öyrənilməsini prinsip kimi irəli sürməklə tədqiqatların istiqamətini dəyişdirməyə nail oldu.

Digər tərəfdən, yeni coğrafi kəşflər yeni canlı dillərə marağı artırdı. İspan missionerləri Amerika və Filippin dillərini öyrənərkən latın dilinin qrammatik sxemindən bəhrələnirdilər, ona görə də bu dillərin şərhində ciddi səhvlərə yol verirdilər. Rus çariçası II Yekatrinanın göstərişilə P.S.Pallas (1741-1811) 1786-cı ildə Avropa və Asiyanın 200-dən artıq dilində 285 sözü əhatə edən lüğət çap etdirir.[18]

İ.K.Adelunqla İ.S.Faterin dördcildli «Mithridat» əsərində bir dini ayə 500 dilə tərcümə edilib. Bu əsərin ikinci cildi «Mithridatev oder allgemeine Sprackunde» (1809) Avropa dillərinə həsr edilib. Sonralar bu əsəri hind-Avropa dillərinin müqayisəli dilçiliyinin ilk qaranquşu adlandırırdılar.

Alimlər indi daha çox dil öyrənmək arzusunda olurlar. Həm də dillərin yaranması haqqında da fikirlər geniş müzakirə olunur. Çoxları güman edirdi ki, dillərin əksəriyyəti qədim yəhudi dilindən törəyib. Ancaq XIX əsrdə tarixi-müqayisəli dilçilik Avropada linqvistikanın inkişafına yeni təkan verdi.

Digər tərəfdən Avropada dilə tarixən dəyişikliklərin davamı kimi yanaşma müşahidə olunurdu. İngilis filosofu Josef Priesley (1733-1804) dilin inkişafını tarixi mərhələlərə bölürdü, onun inkişafında başlanğıc, zirvə və tənəzzül mərhələlərini ayırmağı tövsiyə edirdi. Beləliklə, dilçilikdə historizm tarixi-müqayisəli tədqiqatların başlanğıcı oldu.

Biz artıq yuxarıda M.Kaşqarlının müqayisəli metodun başında durduğunu qeyd etmişdik. Mahmud Kaşqarlı yazırdı: «Mən tayı-bərabəri olmayan bir kitab yazmışam. Mən söz köklərini, onları doğuran səbəblərlə birgə şərh etmişəm, qaydaları aşkara çıxarmışam ki, əsərim nümunə ola bilsin. Mən hər qrupda sözün yaranmasının özülünü verirəm, çünki müdriklik sadə həqiqətlərdən yaranır».[19]

Lakin böyük alman filosofu Q.V.Laybnits (1646-1716) fin, macar, türk, mancur və monqol dillərinin qohum-

luğunu göstərməklə yanaşı, qədim yəhudi dilinin ulu dil olması fikrinə qarşı çıxdı. Rus alimi M.Lomonosov (1711-1765) da rus, latış, yunan, latın və alman dillərinin qohumluğundan söz açmışdı. Lakin dilçilik tarixində ilk dəfə «müqayisəli qrammatika» terminini F.fon Şleqer (1772-1829) 1808-ci ildə Haydelberqdə çap etdirdiyi «Über die Sprasre und die Weisheit der İndier» («Hinduların dili və mührikliyi haqqında») əsərində işlədib. Elə bundan sonra da müqayisəli qrammatika ideyaları geniş vüsət almağa başladı. 1816-cı ildə F.Bopp (1791-1867) öz əsərilə tarixi müqayisəli dilçiliyin əsasını qoydu.[20] Deməli, XIX əsr dilçiliyi tarixi qrammatikasının yerinə tarixi və müqayisəli dilçilik gəlirdi. Qeyd edək ki, o zaman əksər hallarda dilçilik əvəzinə «filologiya» termini işlənirdi, özü də əsasən Böyük Britaniyada bu terminə üstünlük verilirdi. Elə akademik kafedra, fakultə və mühazirələrin o zamankı adları dediklərimizi bir daha təsdiq edir. Ancaq bunun mətn tənqidinə və ədəbiyyatşünaslığa aidiyyatı yox idi. Onlar müstəqil elm sahələri idi.[21]

Beləliklə, XIX əsri elmi dilçiliyin, o cümlədən germanistikanın yaranışının başlanğıcı hesab etmək olar. Bu dövrdə apriorik, məntiqi şərhlərdən narazılıq getdikcə artırdı və tarixiliyə məhəbbət artırdı. Bu da yeni tədqiqat metodları və dil faktlarına qayğı ilə yanaşmağı tələb edirdi.

XIX əsrdə alimlər öz tədqiqatlarında hind-Avropa dillərinin qohumluğunu sübut edərək hind-german ulu dilini bərpa etməyə çalışırdılar. /volf/ (alm.), /vulf/ (ing.), /vulfas/ (germ.), /lobo/ (isp.), /lu:/ (ital.), /lurus/ (lat.), /volk/ (rus.), /volooko/ (qədim slavy.), /lyoks/ (qəd. yunan) sözlərinin tarixi-müqayisəli tədqiqi ulu hind-german dilində bu sözün /vlkos/ və ya /ulpos/ kimi olması nəticəsində gətirib çıxarır. Bu və bu kimi dəyişikliklər təadüfi deyil, sistem halında olduğundan, yəni 3500-2500 il bundan əvvəl Avropanın şimalında yaşamış germanların dili öz ulu babaları olan hind-germanlarının[22] dillərindən sistemli şəkildə fərqlənmiş və bu fərqləri də əvvəlcə danimarkalı R.Rask (1787-1832), sonra

isə alman Y.Qrimm (1785-1863) 1-ci və ya german fonem irəli çəkilməsi adlandırıblar. Bunu aşağıdakı kimi göstərmək olar:

1-ci və ya german fonem dəyişikliyi

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| qot.d. | f | p | b | th | t | d | h | k | g |
| latın d. | p | b | f | t | d | t | c | g | h |
| yunan d. | p | b | ph | t | d | th | k | g | kh |
| sanskrit d. | p | b | bh | t | d | dh | s | j | h |

Bu sxemdən məlum olur ki, german dillərində (sxemdə bu dillərin nümayəndəsi kimi qot dili verilib, çünki bu dil yazılı abidəsi olan ən qədim dildir) f digər dillərdə p – «podos», sanskrit d. «pades», alm. «Fuss» (ayaq). German dillərində p başqa dillərdə b-ya, th (transkripsiyada ingilis dilindəki /θ/ kimi yazılır) t-ya, t isə d-ya uyğun gəlir (məs. qot d. «fadar», lat. «pater», alm. «Vater» - ata).

Y.Qrimm bunları german dillərinin tarixdən əvvəlki dövründə baş verən səs dəyişmələrilə izah edir. O dövrdə qədim h.g.dillərində nəfəsli samitlər (bh, dh və gh) nəfəssiz (b, g, d) olur, cigiltililər (b, g, d) karlaşır (p, t, k), kar kipləşən-partlayışlılar isə novlulara (f, th, h) çevrilirlər.

Dil tarixinə dair istənilən misalı göstərdiyimiz mənbələrdə tapmaq olar. Burada isə əlavə etmək yerinə düşər ki, german dillərnidə sərbəst vurğunun kökün birinci hecası üzərinə keçməsi nəticəsində son heca saitləri neytrallaşaraq /_ə_/ saiti realizə olunmağa başladı. Ulu german dili cəmisi min il yaşadı, sonra onun üç böyük qruppu yarandı – quzey, şərqi və güney. Onlardan da müasir ingilis, friz, alman və daç (Niderland) dilləri formalaşıb.

Sonralar Y.Qrimm öz araşdırmalarını davam etdirərək ikinci və ya alman fonem dəyişikliklərini aşkar etdi. Bu da alman dilini o biri german dillərindən ayıran bir əlamət kimi tarixi – müqayisəli dilçiliyin sonrakı inkişafına güclü təkan verdi. Bunu aşağıdakı cədvəl aydın göstərir:

| german dillərində | alman dilində |
|---|---|
| p | pF, ff |
| t | (t) z, zz, ss |
| k | (k) ch, hh (c, x) |
| b (v) | b (p) |
| d | d (t) |
| g (j) | g (k) |

Ancaq məsələyə diqqətlə yanaşanda məlum olur ki, bu qanun heç də hər yerdə həmişə gözlənilmir. Məs.: qot d. fadar, lat.pater:f:p, ancaq d=t uyğun gəlmirdi, ona görə də Y.Qrimmdə bu istisna kimi verilirdi.

Lakin sanskrit dilində müvafiq sözlərin vurğusunu nəzərdən keçirəndə bu istisnanın həmin qanunla səsləşdiyini görürük. Məs.:

| | | |
|---|---|---|
| Sanskrit | bhratar | pitar |
| Qot d. | brothar | fadar |
| Lat. d. | frather | pater |

Bu məsələni araşdırarkən danimarkalı alim K.Verner (1846-1896) 1878-ci ildə bir qanun kəşf etdi ki, bu da dilçilik tarixinə Verner qanunu kimi daxil olub. Bu qanunun mahiyyəti budur: Sanskrit dilində vurğu qədim hind-Avropa dillərindəki yerini saxlayıb və german səs irəli çəkilməsi german dillərinin tarixindən öncəki dövrdə vurğunun söz-başına keçməsindən qabaq baş verib. Bu mülahizəyə görə /d/-nın işlənməsi (sözdə saitlərarası mövqedə cingiltili novlu sami – ingilis dilindəki /father/ sözündə olduğu kimi tələffüz olunur belə izah olunur: German səsdəyişməsi nəticəsində meydana gələn kar nəfəsli f, th, h samitləri onlardan əvvəlki hecanın vurğulu vəziyyətində dəyişməz qalırdı. Müq. et: qot dilində **brothar** və s. Əvvəlki heca vurğusuz olanda onlar cingiltili tələffüz olunurdular, yəni b, d, g. Buradan da qot

dilində fadar olması anlaşılır. İngilis dilindəki father və brother sözlərinin eyniliyi onların xüsusi inkişaf yolu keçməsilə izah olunur. Onlar qədim ingilis dilində də müxtəlif olublar, hətta müasir alman dilində də müxtəlif olaraq qalırlar (Vater, Bruder), baxmayaraq ki, çox-çox sonralar baş vermiş və yalnız alman dilini səciyyələndirən ikinci və ya alman sammit dəyişmələri nəticəsində fonetik dəyişikliyə uğrayıblar.[23]

Germanistika german dillərinin söz ehtiyatını araşdırarkən sözlərin necə əmələ gəlməsinə və ayılmasına, bu və ya digər sözün hansı dildən alınaraq mənimsənilməsinə və ya əcnəbi söz kimi işlənilməsinə, bir sözlə etimologiyaya xüsusi diqqət yetirir. Germanistika qohum və ya qeyri-qohum dillərin tədqiqi ilə məşğul olan elm sahələrilə (romanistika, slavistika, skandinavistika, türkologiya və s.) daim təmasda olub, müəyyən ideya və fikirlərin mübadiləsində fəal iştirak edib. Məs.: fonem nəzəriyyəsi bütövlükdə slavyan dillərinin materialı əsasında yaranıb və təşəkkül tapıb. Təbiidir ki, germanistika fonologiyanın yeni istiqamətlərini mənimsəyib və onların nəticələrini german dillərinin tədqiqinə cəlb edib. Digər tərəfdən, tarixi-müqayisəli metod daha çox german dillərinin materialları əsasında işlənib hazırlanıb. O da təbiidir ki, digər elm sahələri germanistikanın bu sahədəki uğurlarından gen-bol istifadə edib.

Klassik filologiya bütövlükdə dilçilik, o cümlədən germanistika üçün bir örnək olmuşdur. Hind və ərəb dilçiliyinin tənəzzülü, fonoqrafik yazının türklər vasitəsilə Avropaya latınlara gətirilməsi və bir qədər sonra xristianlığın latınlar vasitəsilə bütün Avropaya yayılması ilə bağlı canlı dillərə olan maraq mərkəzinin yunanlara və latınlara keçməsinə səbəb oldu.

XIX əsrin əvvəllərində F,Bopp, Y.Qrimm, R.Rask, A.Şlayxer (1821-1868) öz tədqiqatları ilə nəinki tarixi-müqayisəli dilçiliyin, həm də germanistikanın elmi özülünü qoymağa müyəssər oldular. Y.Qrimm «Deutsche Gramma-

tik» (1819), A.Şlayxer isə **«Compendium der vergleichenden Grammatik der indogermanischen Sprachen»** (1861/62) german və hind-german dillərinin qrammatik quruluşunu açıb göstərə bildilər. Birincisi müasir dil formalarını ən qədimlərilə bağlayır, ikincisi isə daha uzağa gedərək qədim hind-german ulu dilində yaratdığı «Qoyun və atlar» təmsili ilə ulu dili rekonstruksiya etmək istəyirdi. Amma bərpa edilmiş dilin həqiqətən məhz bu şəkildə mövcudluğu və elə bu şəkildə işlədildiyini yoxlamaq, demək olar ki, mümkün deyildi. Amma bu, rekonstruksiya məsələsini cazibəli etmişdi və elə A.Şlayxerin özü 1850-ci ildə yazdığı «Die Sprachen Europas in systematischer Übersicht» kitabında «Ağac» nəzəriyyəsinni inkişaf etdirərək hind-Avropa dillərinin qohumluğunu kök, gövdə və budaqları olan ağaca bənzədir. Bu istiqamət XIX əsrdə V.von Humboldt (1767-1835) və H.Ştayntal (1823-1899) kimi alimlərin germanistikaya təsirini çıxmaq şərtilə sonrakı tədqiqatlara və xüsusilə, gənc qrammatikçilərə güclü təkan oldu, hərçənd ki, Y.Şmidt[24] (1843-1901) öz **«Dalğa»** nəzəriyyəsilə bunun əksinə çıxaraq onu kəskin tənqid edirdi.

Bu gün germanlar, romanlar, slavyanlar və skandinaviyalılarla nəinki genetik cəhətdən qohum olduqları üçün, həm də qonşuluqda yaşamağa məhkum edilmiş xalqlar kimi qanlı müharibələrdən çıxmış və müxtəlif vasitələrlə bir-birinin mədəniyyətinə, dilinə, ədəbiyyatına və həyat tərzinə təsir etmişlər. Sözalma və sözvermə adi hala çevrilib. İngilis alimləri yazırlar ki, çağdaş ingilis leksikonunun yarısı german dillərinin payına düşürsə, yarısı roman dillərinin (fransız, italyan və s.) payına düşür. Sözlərin mənasının açılmasında, etimoloji şərhlərin verilməsində etimon dili nəzərdən qaçırmaq olmaz.

Geneoloji bölgü ilə yanaşı tipoloji bölgü prinsipini A.V.fon Şlegel (1767-1845) 1818-ci ildə irəli sürərək dilləri analitik, (təcrid edilən, məs.: Çin dili, çünki bu dildə heç bir fleksiya yoxdur), sintetik (flektiv, məs.: yunan, sanskrit),

onların o biri tərəfində türk və Koreya dilləri durur «deyə təsnif edirdi.

Müqayisəli və tipoloji dilçilik təkcə genetik və tipoloji yaxınlıqları aşkar etməyə yönəldiyi halda məs.: N.S.Trubeskoyun (1890-1938) dillərin tipoloji təsnifində müəyyənləşdirdiyi qaydalar, konfornativ linqvistikaya tətbiqi xarakter daşıyır və əsasən dilöyrənmənin ehtiyacından irəli gələrək təşəkkül tapmışdır. Bu gün slavyan və romalıların, eləcə də digər xalqların german dillərini və german dilli xalqların fransız, rus, ispan, çin, türk və s. dilləri öyrənmələri və bu dilöyrənməni səmərəli elmi zəmin üzərində qurmaq üçün kontakta girən dillərin konfrontativ tədqiqi çox önəmlidir.

V.fon Humboldt dilə erqon deyil, enerqeya kimi yanaşmaqla dilçilikdə yeni tədqiqatların əsasını qoydu. Dilçilikdə V.von Humboldt bənzəri olmayan bir alim, dünya dilçiliyinin ən məşhur simalarından olub ümumi və nəzəri dilçiliyin banilərindən biridir. Onu F.Bopp, A.Şlayxer, İ.A.Boduen, de Kurtene və b. öz müəllimləri hesab edirdilər. O, nəzəri və fəlsəfi düşüncələr alimi idi. Ümumi və nəzəri dilçilik sahəsində V.fon Humboldtun söylədiyi fikirlər bu gün də təravətini saxlamaqdadır. O, dilin fəlsəfəsini diriltdi və tarixi-müqayisəli metodun tətbiqilə dil nəzəriyyəsinin elmi əsasını qoydu. V.von Humboldt dili fərdin fövqündə görürdü. Buradan da sonralar F.de Sössür bəhrələnmişdi. O, dilə sistem, orqanik bütöv kimi yanaşırdı, bu da İ.A.Boduen de Kurteneyə, oradan isə strukturalizmə yol açırdı. Dili fərdlərin ruhu və təfəkkürünə münasibətdə götürən V.fon Humboldt dilçilikdə psixologizmin meydana gəlməsinə səbəb oldu. Eyni zamanda o, dilin təfəkkürə təsirindən danışırdı. Dili fərdin fəaliyyəti kimi götürməklə o, estetik və yaradıcı dilçiliyə yol açmış oldu. «Xalq ruhu» anlayışını işləyib hazırlamaqla etnipsixologizmin hər xalqın dililə yaranan etnik mədəniyyətin daimi və təkrarsız obrazını yaratmış oldu.

Bask dilindən tutmuş malayziya-polineziya və Amerika hindularının dllərini bilməsi ona geniş və hərtərəfli fikir

yürütmək imkanı verirdi.

Onun şah əsəri ölümündən sonra 1836-cı ildə təbiətşünas qardaşı A.von Humboldt tərəfindən çap olunmuş, «Über die Verschiedenheit des menschlichen Sprachbaues und ihren Einfluss auf die geistige Entwicklung des Menschengeschlechts» («İnsan dillərinin quruluş müxtəlifliyi və onun insanların mənəvi inkişafına təsiri») adlanırdı. Bu əsərdə o, dilə xalqın tarixi, mədəni və mənəvi fəaliyyətinin təzahürü kimi yanaşırdı. O, hər bir dili ayrıca öyrənməyi və ancaq bundan sonra bu dillər arasındakı bağları üzə çıxartmaq məqsədilə qohum dillərin müqayisəsini əsas görürdü. V.von Humboldtun dilə daimi proses kimi (energeya) yanaşması tariximizə kəskin zərbə idi, çünki o, tarixi müqayisəli tədqiqatdan ayırmır, əsl müqayisə tarixi olmalıdır deyirdi.

V.fon Humboldt dili danışıqda təzahür edən daimi bir hadisəhesab etdiyindən canlı dilləri və dialektləri öyrənməyi ön plana çəkirdi.

O dilə həm fərdə məxsus, həm də fərddən asılı olmayaraq bir neçə nəslin qoyub getdiyi irs kimi yanaşırdı.

Bu böyük alimə görə, dil tamamlanmış bir proses olmaqla, həm də daim hərəktdə olan bir alətdir. Hər bir nəsl dili sələflərindən hazır şəkildə alsa da, ona yaradıcılıqla yanaşır və onu təkmilləşdirir. V.von Humboldta görə dil obyektivləşmə vasitəsidir və danışanın düşünməsi üçün birstimuldur, fikrini reallaşdırma vasitəsidir. Danışan məhz bu yolla məlumatı dinləyənə çatdirir. Həm də hər bir danışıq aktı subyektivdir, çünki onda iştirak edən dinləyici eşitdiyini sanki özündə yenidən yaradır. V.fon Humboldt qohum və qeyri-qohum dillərin müqayisəli tədqiqinə xüsusi önəm verirdi. O, dillərin induktiv, ümumi, müqayisəli qrammatikasını yaratmağa çalışırdı. V.fon Humboldt müxtəlif dillərdə eyni funksiya daşıyan faktları müqayisə etməklə fikri yaratmaq vasitəsi olan dilin sirlərinə varid olmaq istəyirdi. O yazırdı ki, dil, anlama prosesində vasitəçi rolunu oynayır. Ona görə də dil dəqiqlik və aydınlıq tələb edir. Dil hissə

meydan verir, özü hiss oyadır, ona görə də güc, dəqiqlik və çeviklik tələb edir. Dil məlumatın verilməsində obrazlı vasitələrlə yeni fikir doğurur, ona görə də sözlərdə iz buraxan ruhu hərəkətə gətirir.[25] Digər bir əsərində o yazır: «Dil fikri yaradan bir orqandır» («Die Sprache ist das bildende Organ des Gedankens»).[26]

Bütün bunlar göstərir ki, V.fon Humboldt dilin fəlsəfəsini araşdırmaqla çox ciddi məşğul olub. O, dilin dialektik qarşılaşmalarının vəhdəti kimi götürürdü. Ondan fərqli olaraq xələfi A.Şlayxer isə dilin iki mərhələli inkişafını - tarixəqədərki dövr və tənəzzül dövrü – əsas götürürdü. Lakin sonralar alimlər, o cümlədən İ.A.Boduen de Kurtene, sübut etdilər ki, dilin inkişafı heç də onun məhvi demək deyildir.

Ənənəvi dilçiliyin ən böyük qüsuru yazını əsas mənbə kimi götürməsi idi. Elə bunun nəticəsi idi ki, zahiri oxşarlıqlara meyl artırdı, ancaq bu oxşarlıqların kökündə duran fərqlərə əhəmiyyət verilmirdi. Ulu dildən parçalanıb ayrılandan sonra bir dildə baş verən sərbəst dəyişikliklər nəzərdən qaçırılırdı. Bu da ulu dildən sonrakı mərhələ üçün nəzəriyyələrin işlənib hazırlanmasına əngəl törədirdi.

Ulu dildən sonrakı dövrdə ondan qopub ayrılan dillərin bir-birinə qarşılıqlı təsiri, demək olar ki, inkar edilirdi. Halbuki dillərin tarixinə baş vurduqca daha çox naməlum faktorlar tapırıq və daha çox dəyişmələrin şahidi oluruq. Özü də bir ulu dilin bir neçə dialektin formalaşmasında, onlardan yenilərinin parçalanıb ayrılmasında, onların habelə bu parçalanmadan sonrakı fəaliyyətində iştirakı aydın şəkildə özünü biruzə verir.

XIX əsrin birinci yarısında alman dilçiliyi bu təsvir metodunun yarıtmazlığını getdikcə daha aydın başa düşməyə başladı. 1876-cı ildə ilk dəfə olaraq E.Sivers (1850-1932) **«Grundzüge der Phonetik» kitabını** çapdan buraxdı.[27] Bu vaxtdan germanistikada artıq gənc qrammatikçilər yavaş-yavaş start götürürdülər (bax II fəslə) «Sturm und Drang» periodu başlayırdı.[28] Bu da germanistikanın inkişafına

güclü təkan göstərməyə bilməzdi.

Germanistikanın bir elmi-nəzəri cərəyan kimi formalaşmasında qeyri-dil fənlərindən fəlsəfə və məntiqlə yanaşı, semiotikanı[29] xüsusi qeyd etmək lazımdır. Semiotika dünyamızı əhatə və ünsiyyətə xidmət edən bütün işarələri – yol hərəkəti qaydalarını nizamlayan işarələr, göstərici və əlamətləri, habelə piktoqram və ideoqramları, sözləri və s. öyrənməklə onları ümumi şəkildə üç yerə bölür: 1. ***İkonlar.*** Bura şəkillər, modellər, piktoqramlar, dildə metaforlar, bənzətmələr (qan kimi qırmızı), habelə onomatopoetik sözlər aiddir. Onların əsas funksiyası əks etdirməkdir, ona görə də öz obyektinə yaxınlığı ilə səciyyələnir. 2. ***Göstəricilər və ya nişanlar.*** Buraya jestlər, yol və hərəkət nişanları və xüsusi adlar daxildir. Onlar fərdi xarakter daşıyır və tam ixtiyaridir. 3. ***Simvollar.*** Buraya malların üstündəki yazılar, riyazi və kimyəvi formullar, ideoqramlar, musiqi notları və əksər sözlər aiddir. Bunların aid olduğu obyektlərə oxşarlığı belə yoxdur.

Əsl işarələr bir növ əvəzedici rolunda çıxış edir, obyektin özü olmyaıb onun yerində, əvəzində gəlir. Dildəki sözlər buna aydın misaldır. Göstəricilər, nişanlar isə obyekti qismən və ya bütövlükdə bildirmək, göstərmək və səciyyələndirmək funksiyası daşıyır. Məsələn, adamın məclisdə qızarmağı onun utancaqlığına, sarılıq isə qara ciyərin xəstəliyinə işarədir.

Adamlar bəzən işarələrin bir-birindən ayıra bilmirlər, birini digərinin yerində işlədirlər. Baş gicəllənməsi qan təzyiqinin simptomudursa, göyərçin sülhün simtomu deyil, simvoludur. Xalqlar bəzən eyni ünsiyyət məqamında eyni hadisəyə müxtəlif işarə işlədirlər, bu da işarələrin bütövlükdə ixtiyariliyinə dəlalət edir. Məs.: biz «xeyr, yox» deyəndə başımızı sağa-sola fırladırıq, farslar isə aşağı-yuxar hərəkət etdirirlər. Biz xudahafizləşəndə əlimizi açıb sağa-sola hərəkət etdiririk, bolqarlar isə barmaqlarını yumub açırlar.

Amerikalı filosof Ç.Pirs (1839-1914) işarələr haqqında

elmi konsepsiya işləyib hazırladı, onun yerlisi Ç.Morris (1938) isə semiotkanı dərindən tədqiq edərək bu elmin sintaktika (işarələrin öz aralarındakı münasibətlərini araşdırır və onların əlaqəyə girmək qaydalarını müəyyənləşdirir (işarələrlə obyekt və əşyalar arasındakı münasibətləri və qaydaları müəyyənləşdirir) və praqmatika (işarələrlə onlardan istifadə edənlər arasındakı qarşılıqlı əlaqələri, psixoloji, sosioloji və bioloji aspektləri öyrənir) sahələrini işləyib hazırladı.[30]

F.de Sössür[31] dilçilikdə yeni baxışlar sistemini yaradanda dilin ontoloji xüsusiyyəti kimi onun işarəviliyini əsas götürmüş, dillə məşğul olan liqvistikanı da semiotikanın tərkib hissəsi elan etmişdi. Bu alimin xidməti onda idi ki, işarələrin mahiyyətini açıb göstərməklə bərabər, onların birləşmə xüsusiyyətlərindən danışaraq sintaqmatik və paradiqmatik əlaqələrini konkret dil materialı əsasında açıb göstərə bilmişdi. Bir misalla bunu belə göstəmək olar:

ASPEKTLƏR

| | |
|---|---|
| Sintaqmatik | P |
| ------------------------ | ! a |
| /Mən ancaq Fazili gördüm// | ! r |
| /Sən yalnız Turalı seçdin// | ! a |
| /Biz təkcə Nərgizi tapdıq// və s. | ! d |
| | ! i |
| və ya: | ! q |
| | ! m |
| /Mən dünən Berlində idim// | ! a |
| | ! t |
| /Mən srağagün Bakıda idim// | ! i |
| və s. | ! k |

Burada biz yalnız dil vahidləri arasındakı münasibətləri cümlə səviyyəsində göstərdik. Misallardan görünür ki, sintaqmatika dil vahidlərinin düz xətt boyunca, paradiqma-

tika isə onların eyni mövqedə bir-birin əvəz edə bilməsidir. Müvafiq fəsillərdə bu barədə ətraflı danışılacaq. Burada isə yalnız onu demək istərdik ki, dil vahidləri eyni mövqedə işlənə bilmirsə, onlar müxtəlif kateqoriyalara aiddir. Yuxarıdakı misallarda nə /mən, sən, biz/ xüsusi adların yerində cümlələr xəbər şəklində müvafiq dəyişiklik etmədən işlənə bilər, nə də əksinə.

Dildəki sözlərə işarələr kimi yanaşılması, onların bir sıra spesifik cəhətlərini açıb göstərməyə imkan verdi. Birinci növbədə alimlər sübut elədilər ki, F.de Sössür dil işarələrini və bu işarələrlə məşğul olan liqvistikanı semiotka ilə eyniləşdirməkdə haqlı deyildir, çünki semiotika, yuxarıda göründüyü kimi, işarələrin təbiətilə maraqlanmır.[32] Dil işarələrisə bütün digər işarələrdən maddi varlığın səslə ifadə olunması ilə seçilir. Məhz bu cəhətilə dil başqa ünsiyyət vasitələrindən əsaslı şəkildə fərqlənir. Səsli dilin digər ünsiyyət vasitələrindən fərqlənməsi onda bu məhdudiyyətin olmamasıdır.

Dəniz nəqliyyatında verilən informasiyanı başa düşmək üçün onları gözlə görmək gərəkdir. Əks təqdirdə ünsiyyət baş tutmaz. Simsiz teleqrafdan əvvəl dəniz nəqliyyatında ünsiyyətdə beynəlxalq konvensiya ilə qəbul edilmiş bayraqlardan ibarət işarələr sistemindən istifadə edilirdi. Onlardan bir neçəsini K.Bülerə (1879-1963) əsasən belə göstərmək olar: burada 3 elementar formadan istifadə olunur: dairəvi top, üçkünc vımpel və dördkünc bayraq.

OΔ – Siz təhlükədəsiniz.
ΔO – Ərzaq ehtiyatı tükənib.
O□ – Yanğın, bort deşilib, kömək lazımdır.
□O – Çökürük, köməyə gəlin.
ΔO□ – Dayanın və ya yerə oturun! Təcili xəbər var.
O□Δ – Bizim üçün teleqraf və ya məlumat varmı?
O□Δ – Bəli.
OΔΔ – Xeyr[33]

Göründüyü kimi, işarələrin sintaktikasında birləşmə məhdudiyyəti bir tərəfdən qəbul edilmiş ilkin şərtlərlə, digər tərəfdən isə semantik məna ilə bağlıdır, dil işarələrində isə fonoolji, morfoloji və semantik məhdudiyyətlər birgə çıxış edir. Bu məhdudiyyətlər olmadıqda birləşməyə girmə imkanları sonsuzdur. Ona görə də N.Xomski (1928) dilə sonu məlum elementlərin sonsuz birləşmələr yarada bilməsi kimi baxır.[34] F.de Sössür isə[35] dilin işarəviliyi və onların xüsusiyyətləri barədə dili şahmatla müqayisə edərək bu qənaətə gəlirdi ki, bu oyunda taxta üzərində yaranmış vəziyyət həmin oyun an üçün həlledicidir, oyundakı fiqurların nədən hazırlanmasının həmin oyun vəziyyətinin səciyyəsi üçün qəti əhəmiyyəti yoxdur.[36] Təbii olaraq buradan belə nəticə hasil olur ki, hər hansı bir ünsiyyət məqamında dil vahidlərinin birləşib söyləm və ya cümlə yaratması üçün dilin tarixinə baş vurmaq mənasız olduğu kimi, dil vahidlərinin də hansı təbiətə malik olmasının heç bir əhəmiyyəti yoxdur. Burada birinci tezislə razılaşmaq olar. Ancaq ikinci, tezis çətin başa düşüləndir, çünki dildə ünsiyyətin baş tutması üçün onun səsli təbiətə malik olması lazımdır.

Lakin bununla yanaşı qeyd edilməlidir ki, F.de Sössürün «**Dil işarələr sistemidir**» kəlamının XX əsr dilçiliyinin inkişafına çox böyük təsiri oldu. Belə ki, işarələrin bir sıra cəhətləri aşkar edildi. Məs.: dil işarələrinin iki tərəfi var: ifadə edən (signifie) və ifadə olunan (signifiant).[37] Bu iki tərəf arasındakı əlaqələr əksər hallarda ixtiyaridir, təsadüfidir, ola bilsin ki, tarixən obyektlə bağlı olub, ancaq dilin bugünki səviyyəsində bu əlaqə yox dərəcəsindədir.

Dilçi üçün sinxronik və diaxronik[38] aspektləri ayıran F.de Sössür üstünlüyü birinciyə verirdi və dil sistemini araşdırmaq üçün diaxronik aspektə əl atmağa ehtiyac duyulmadığını göstərirdi. Doğrudan da, ingilis dilində «nice» sözünün niyə «incə, gözəl» mənasında işləndiyini söyləməyə nə ifadə edənlə ifadə olunanın əlaqəsi ilə açmaq olar, nə də

onun indiki mənası imkan verir. Deməkk, latın dilində bus öz «nescius» kimi işlənib, özü də «naməlum» demək imiş.[39]

Deməli, vaxtilə ingilislər tanımadığı və bələd olmadığı hər şeyə «nice» (gözəl) deyirmişlər. Amma bu, ingilis dilində bu gün /nais/ kimi işlənən sözün nə deyilişindən, nə də birbaşa mənasından doğur. Dilin işarəviliyinə dəlalət edən faktorlardan biri də eyni əşya və məfhumun müxtəlif dillərdə eyni cür yox, müxtəlif şəkildə deyilməsidir. Müq. et: Azərbaycan dilində /öküz/ sözü almanca /oks/, ingiliscə /bul/ (bull), fransızca /böf/, rusca /bık/ və s. Lakin düzəltmə və xüsusilə, səs təqlidi yolu ilə yaranan sözlərdə bu əlaqəni görmək çətin deyil. Almanca /aenuntzeçtsiç/, ingiliscə /fo:tiwʌn/ və ya azərbaycanca /əllibir/ bu sözlərin tərkibinə daxil olan komponentlərin məzmunundan hasil olur. Almanca /lalən/, ingiliscə /dʒıngl/, rusca /myakkat/ və ya azərbaycanca /mələmək/ səs iəqlidi yolu ilə yarandığından, onların mənasını başa düşmək çətin deyil, çünki bu mənalar onların təbiətindən doğur.

Dil işarələrinin digər əlaməti onların öz səviyyələrində (level) bölünməzliyidir. Dilin heç bir vahidi öz səviyyəsində özündən kiçik hissələrə bölünmədiyindən onlara diskret[40] vahidlər deyilir. Cümlə sintaktik səviyyədə ən kiçik vahid sayılır./iç bin le:rər// cümləsi iki cümləyə bölünə bilmir, bölündüyü təqdirdə isə artıq o, iki cümlə olur.

Dil işarələri düz xətt boyunca düzülür. Yazı çaşdırmasın deyə, bunu belə şərh etmək olar ki, dil vahidləri birbirinin ardınca gəlir və ona görə də onları eyni vaxtda demək olmur. /an/, /in/, /on/ və s. sözlərində saitlə samiti eyni vaxtda demək mümkün deyildir.

Başqa bir xüsusiyyəti rus alimi A.A. Reformatski (1900-1978) dil işarələrinin hierarxikliyi adlandırır. Bu, o deməkdir ki, yuxarı səviyyənin vahidləri aşağı səviyyənin minimum bir vahidindən ibarətdir və aşağı səviyyənin vahidi ən azı bir yuxarı vahid kimi çıxış etməlidir.

Dil işarələri eyni maddi varlığa malik olduqları üçün

eyni dil cəmiyyəti daxilində identik funksiya yerinə yetirir – danışandan dinləyiciyə məlumatın verilməsinə xidmət edir, başqa cür desək, onların hamısı eyni funksiya daşıyır ki, bununla da dil insan cəmiyyətinin məlumat verib məlumat almaq ehtiyacını tamamilə maneəsiz olaraq ödəyə bilir.

## I. 4. Kursun obyekti və predmeti

Mücərrəd anlayışların və maddi varlığın konkret təzahürünü hər hansı bir elm sahəsi baxımından nəzəri və praktik biliklərin əsasında müəyyən araşdırma metodlarından istifadə etməklə təhlil etmək olar. Bu da elmin obyekti sayıla bilər. Dilçinin tədqiqat obyekti danışıqdır (parole), çünki dil yalnız danışıqda öz real gerçəkliyini tapır. İnsan fəaliyyətinin hər tərəfi, bu fəaliyyətin özülünü təşkil edən psixoloji-fizioloji amillərin hər biri ayrılıqda müxtəlif elmi araşdırmaların və konkret tədqiqatların obyekti ola bilər. Danışmaq, görmək, eşitmək, yerimək, ətraf aləmin siqnallarına reaksiya vermək (gülmək, əsəbləşmək, cavab vermək, susmaq, görüb eşitdiklərini dillə, rəsmlə və digər vasitələrlə təsvir etmək və s.) gündəlik fəaliyyətimizin bir qismini əks etdirir. Adi halda bu deyilənlərin heç biri etiraz doğurmur, elə buna görə də onlardan hər biri dəqiq elmi araşdırmaların obyekti ola bilər. Maraqlı burasıdır ki, F. de Sössür nöqteyi-nəzərin tədqiqatın obyektini müəyyənləşdirdiyini çox kəskin şəkildə qoymuşdu.

Eləcə də danışıq obyektinin, danışığın elmi-nəzəri təhlilə və tədqiqə ehtiyacı var. Uşaq dilindən tutmuş süni dilə qədər cəmiyyətin bütün dil fəaliyyəti dilçiliyin obyektinə aiddir. Sadəcə olaraq, bu və ya digər obyektin, daha doğrusu, aspektin seçilməsi qarşıya qoyulan məqsəddən asılıdır. Ünsiyyət modelinin müəyyənləşdirilməsi[41], bu modeldə çıxış edən bütün tərəflərin (danışan, dinləyən, dil kodları) ünsiyyət kanalı da daxil olmaqla öyrənilməsi, məlumatın uzaq və yaxın məsafələrə göndərilməsinin daha sərfəli yollarının

tapılması, eyni ünsiyyət kanalı ilə bir neçə məlumatın eyni zamanda göndərilməsi, müxtəlif texnoloji proseslərin danışıqla idarə olunması və həyata keçirilməsi, bir-, iki- və üçdilliliyin elmi-nəzəri və praktik (ikinci, üçüncü və digər dillərin öyrədilməsi və öyrənilməsi) məsələlərinin araşdırılması, müxtəlif məlumat kanallarında dərk etməyə təsir edən maneələrin aradan qaldırılması, dilin yaranması[42], təşəkkülü, başqa canlıların dili, dillərin geneoloji və tipoloji yaxınlığı və digər məsələlərin öyrənilməsi german dilçiliyinin son illərdə ardıcıl şəkildə müdaxilə və tədqiq etdiyi obyektlərdəndir.

Bəzən «Dil nədir?», «Dil necə yaranır?», «Ən qədim dil hansıdır?», «Dünyada neçə dil var?» və s. kimi məsələlərin araşdırılmasını dilçiliyin əsas problemləri sırasına aid edənlər, fikrimizcə, yanılırlar. Dilçi üçün daha önəmli «İnsanlar bir-birilə necə ünsiyyətə girirlər?» və ya «Nə üçün insanlar bir-birini asanlıqla başa düşürlər?» kimi suallardır. Əlbəttə ki, burada söhbət bir dildə danışanlardan gedir.

Mütəxəssislər həbəş dilinin daha qədim olduğunu dəfələrlə qeyd ediblər. Yunan tarixçisi Heredotun 2-ci kitabında dilin yaranması ilə bağlı belə bir rəvayət var. Xristianlıqdan əvvəl 17-ci əsrdə Misir padşahı Psalamey hansı dilin birinci olmağını təcrübədən keçirmək istəyir. Bunun üçün o, kasıb ailədə anadan olan kimi iki uşağı götürüb qoyun sürüsünün çobanına verdirir. Çobana ciddi tapşırıq verdirir ki, uşaqlarla heç kim ünsiyyətdə olmasın. Padşah güman edir ki, uşaqlar danışmaq həddinə çatanda dünyanın ilk yaranan dilində danışacaqlar. 2 ildən sonra padşaha ərz edirlər ki, uşaqlar "bekos" deyib dururlar. Firon məsələni araşdırmağı tapşırtdırır. Bilicilər padşaha məlumat verirlər ki, bu söz qonşu frikiyalıların dilində «çörək» deməkdir. Beləliklə, məlum olur ki, dünyanın ən qədim dili frikiya dilidir və təbii ki, ən qədim xalq da frikiya xalqıdır. Lakin dilçilər bunun qoyunların çıxardığı mələrti səsinə oxşadığını deyirlər.

Buna baxmayaraq bu ideya çox cazibəli oldu. Başqa ölkələrdə buna bənzər təcrübələr keçirildi. Şotlandiyada IV Yakob (1493) buna oxşar təcrübə apararaq belə nəticəyə gəlir ki, uşaqlar sonucda həbəşcə gözəl danışırlar.

1979-cu ildə Fransada meşədən bir uşaq tapılır. Məlum olur ki, uşağın insanlarla əlaqəsi olmayıb. Onu müşahidə edən mütəxəssislər seviniblər ki, onların gümanları təsdiq olunacaq və uşaq ya həbəşcə, ya da başqa dildə danışacaq. Ancaq o, heyvan səslərindən başqa heç bir səs çıxarda bilmədi.

Maraq dairəsi getdikcə genişlənir və din mövqeyinə görə həbəş dili daha önəmli sayılırdı. Başqa dillər ondan törəmə və ya onun variantları hesab edilirdi. Bunun da əsas səbəbi başqa dillərdən fərqli olaraq həbəş dilində yazının soldan sağa olması idi. Volter buna şübhə ilə yanaşanlardan olub, bu məsələnin həllində samit və saitin aparıcı rol oynadığına inanmırdı. İsveç Andreas Kemke belə güman edirdi ki, cənnətdə Adəm Danimarka dilində, ilan fransızca, Allah isə isveççə danışırmış. Y.T.Bekanus güman edirdi ki, dünyada ilk dil alman dili olub, çünki o ilk dil ən təkmil dil olmalıydı, alman dili də öz təkmilliyilə seçilir. Guya Adəm almanca danışıb, Babil qülləsindəki dil qalmaqalı alman dilindən yan keçib, çünki almanlar qüllənin tikilməsində iştirak etməyiblər. Sonralar ilahi testamenti indi mövcud olmayan alman dilindən həbəş dilinə tərcümə etdirib. Çin dili də qədim dillərdən hesab olunurdu.

Qeyd etmək lazımdır ki, Avropada Russo və Kondilak kimiləri bu məsələni olduqca qızışdırırdılar.

Amerikalı Uitni (1827-1894) bu fərziyyələrin çoxunu rədd edirdi.[43] Əlbəttə, dillə yanaşı ünsiyyətə xidmət edən digər vasitələr də mövcuddur. Jest, mimika, digər işarələr, rəsm əsəri və s. vasitələr ünsiyyətə xidmət edir. Ünsiyyət zamanı əl-qolun hərəkətlərini, üz cizgilərini, göz-qaş oynatmalarını paralinqvistika öyrənir.[44]

«Bütün canlı aləmin dili var» desək, səhv etmərik.

Heyvanların dilinin öyrənilməsinin linqvo-fəlsəfi əhəmiyyəti onunla bağlıdır ki, bu yolla insan dilinin başqa canlıların dilindən fərqlənməsini yeni yönümdən işıqlandırmaq, onun təfəkkürlə əlaqəsini yeni faktlar işığında nəzərdən keçirmək olar. Arıların «dilində» insanların dilinə oxşayan cəhət budur ki, arılar da insanlar kimi ətraf aləmin təsirindən qıcıqlanır, bədən hərəkətlərinin köməyilə yaşantılarını «yadda» saxlayıb geri qayıdaraq öz dəstəsinə kəşfi barədə məlumat verir. Şərtilik əsasında müəyyən reallığa dair «işarə» düzəltmək, onu tərkib hissələrinə bölmək təcrübəsinə və bacarığına yaxınlaşmağa nail olmaq halları canlı insan dilinə oxşarlıqdan xəbər verir. Dairə şəkilli rəqs - kəşfi, onun uzaqda olmadığını bildirirsə, digər rəqs məlumatı formalaşdırmağa, daha doğrusu, qidanın uzaqlığını və istiqamətini göstərməyə xidmət edir.[45] Obyektiv aləmin simvollarla formalaşmasında variativ elementlərin və sabit «mənanın» olması insan dilinin situasiya və funksiyasına bənzəyir. Bir qədər ümumiləşdirilmiş şəkildə desək, hər şey bir kollektiv içərisində sistem şəklindədir və bu kollektivdə hər bir üzv bərabər hüquqlu varlıq kimi digərini dindirir və başa düşür.

Bununla yanaşı bu iki sistem arasında fərqlər də var. Arılarda ünsiyyətin maddi varlığını insan dilindən fərqli olaraq danışıq cihazı deyil, bədən üzvlərinin hərəkətləri təşkil edir, «dərketmə» auditiv deyil, vizual baş verir. Ona görə də ünsiyyət gündüz olmalıdır. Digər tərəfdən arılarda verilən məlumatı cavablandırmağa ehtiyac yoxdur, burada davranış lazım gəlir. İnsan dilində monoloji forma ilə yanaşı, dialoji forma çox önəmlidir. Məlumat gətirən arının hərəkətlərini görməyən arı onları təkrarlaya bilmir. İnsanlar təcrübə toplamaqla sərbəst və qeyri-məhdud şəkildə ünsiyyətə girərək mücərrəd təfəkkürü formalaşdırırlar. Arılarda alınmış məlumatdan yeniləri düzələ bilməz, onlar qidanın yerini öyrənir, oraya uçur və eyni yolla geri qayıdır. Beləliklə, onlar yalnız ilk simvola uyğun hərəkət edir. İnsan dilində isə fikir zənginliyi və bənzərsizliyi bir yana dursun, həm də bu,

hər vaxt müxtəlif simvol və formalarda öz əksini tapa bilir. Arı dilində uşaqlarda olduğu kimi təqlid aparıcı və həlledicidir. Üçüncü mühüm fərq odur ki, arıların dilini tərkib hissələrinə bölmək qeyri-mümkündür, onlar bütöv məzmunu-adı çəkilən əşyanın məkanını bildirir, dildəki kimi fonem, morfem və s. bölgü yoxdur və təbii ki, konkret element - müəyyən funksiya əlaqəsindən danışmaq qeyri-mümkündür. Fransız alimi E.Benvenist göstərir ki, arılarda söhbət dildən deyil, siqnallardan ibarət olan koddan gedir. Müəyyən məzmun, məlumatın dəyişməzliyi, təkcə bir situasiyaya bağlılıq, ifadənin bölünməzliyi, simvolların qarşılıqlı verilməsi, alimin fikrincə, arı dilinin əsas əlamətləri sayıla bilər. Bunlar bir daha göstərir ki, dilçilik insanlar arasında maneəsiz olaraq həyata keçən səsli ünsiyyətin mexanizmini açmaqla «Dil nədir?» sualına cavab tapa bilər.

Dilin əsas vəzifəsi ünsiyyəti təmin etmək, dil haqqında elmin də əsas vəzifəsi bunun mexanizmini açıb göstərməkdir.

Bəzən dəqiq elmlər sahələrində çalışan alimlər arasında mübahisə düşür ki, bəs demə, dilçilərin işi-peşəsi «cıkcik», «cuk-cük» öyrətməkdən ibarətdir. Lakin izah edəndə ki, canlı aləm, hətta maddi varlıq, bütövlükdə öyrənildiyi, tədqiq edildiyi kimi, sosial sahənin bütün hadisələri, o cümlədən insanların sosial birliyini və varlığını təmin edən əsas vasitələrdən biri olan dilin də öyrənilməyə və tədqiqə ehtiyacı var. Düzgün, normaya uyğun gəlməyən danışıq ciddi əngəl törədir, bircə dil vahidinin yeri səhv salınanda ünsiyyət pozulur, nəzərdə tutulan iş baş tutmur, istehsalat dayanır, hərəkət iflic vəziyyətə düşür, hətta qarşısı alınmaz faciə baş verir. Müasir texniki avadanlıqlarda bir işarənin yeri tərs düşəndə hansı bədbəxt hadisələrin baş verdiyini təsəvvür etmək çətin deyil. Aşağıdakı misalları müqayisə edək:

?De görüm, bu vəziyyət çox çəkər?

?De görüm, bu əziyyət çox çəkər?

Göründüyü kimi, iki fikri bir-birindən fərqləndirən təkcə /v/ samitinin olub-olmamasıdır. Belə hallara tez-tez

rast gəlmək olur. Məşhur «Mimino» filmində əsərin qəhrəmanı sözü düzgün tələffüz etmədiyindən «Teləvi» əvəzinə «Teləviv»lə danışır. Telefon danışıqlarında belə anlaşılmazlıqdan qaçmaq üçün əksər hallarda samitlə saiti birlikdə tələffüz edirlər. Məs: be, se, ve və s. Bu anlaşılmazlıq əksər hallarda frikativ samitlərdə olur: /s, ts-z-s-v-f-h-x/ tez-tez qarışıq düşən samitlərdəndir. /Şəhər/ əvəzinə /səhər/ eşidilməsi çox mümkün olan şeydir. Ona görə danışan sözdəki bütün fonemləri təklikdə deyir, hətta onların hər birini ayrılıqda bir sözün əvvəlində deyil ki, adresat nə deyildiyini yaxşı başa düşsün /Şakir-Əhəd-Həsən-Əli-Ramiz/. Təcrübəyə əsaslanan adresat bu sözlərin ilk fonemlərini ardıcıl düzür və söhbətin «şəhər»dən getdiyini asanlıqla müəyyən edir.

Tətbiqi dilçiliyi bu gün təkcə mühəndis qurğuları və yeni texnoloji avadanlığın istehsalı və yayılması maraqlandırmır. O, həmçinin dilöyrənmə məsələsilə yaxından məşğul olur. Ana dililə öyrənilən dil arasındakı fərqlərin müəyyənləşdirilməsi çox vacibdir. Tələbələrimdən bir neçəsi həmişə təəccüblənirdi ki, niyə «şəhər» sözü almanca qadın cinsinə (die Stadt), «dövlət» sözü isə kişi cinsinə aiddir (der Staat). Axı onlardan birincisi rus dilində kişi cinsinə (qorod), ikincisi isə orta cinsə (qosudarstvo) aid isimlərdir. Niyə almanca zamanlarda cinsə görə uzlaşma yoxdur, amma rus dilində var (müq. et: on çitaet, on çital, ona çitala, ono çitalo) və s. Onlar elə fikirləşirdilər ki, rus dili ətraf aləmi necə əks etdirirsə, alman dili də belə olmalıdır.[46] Tədrisdə uğur qazanmaq üçün biz dilöyrənmənin ilkin mərhələsində müqayisəni tamam kənara qoyuruq, ya da yeri gəldikcə az-az müqayisələrə yol veririk ki, fərqləri daha aydın göstərə bilək. İdarə olunan dilöyrənməni maksimum təbii dilöyrənməyə yaxınlaşdırmaq lazımdır.

Sonrakı mərhələlərdə isə dilöyrənmədə müqayisə və qarşılaşdırma aparıcı metodiki priyom olmalıdır.

Ənənəvi metodikanın elə bu gün əksər yerlərdə rast gəldiyimiz qarşılaşdırma üsullarının ən böyük qüsuru on-

dan ibarətdir ki, orada yazı əsas tədris predmeti kimi götürülürdü. XX əsrin 2-ci yarısı, hətta deyərdik ki, müharibənin ilk illərindən canlı ünsiyyətə olan ehtiyac bu üsulun tərəfdarlarına ciddi zərbə vurdu. Birinci növbədə universitetlərdə klassik dillərin öyrədilməsi arxa plana keçməyə başladı. Amerikalılar yerli əhalinin dilini tez və mütəşəkkil şəkildə öyrənib onun nümayəndələrinə ingilis dilini təcili öyrətməklə öz məqsədlərinə nail ola bildilər. Avropalılar, xüsusilə nasist Almaniyasına qarşı ittifaqda birləşən dövlətlər baxıb gördülər ki, onların ixtiyarlarında olan dilmanjlar müasir alman danışıq dilini yaxşı bilmədiklərindən onları bu ölkəyə göndərmək və lazımi informasiyanı almaq mümkün deyil, çünki onlar tez ələ keçə bilərdilər. Ona görə də dövlət külli miqdarda vəsait ayırıb düşmənin dilini yaxşı bilən, müasir tələblərə cavab verən tərcüməçi kadrlar hazırlamağa başladı. 1950-ci illlərin əvvəllərində Moskvada yaranmış Xarici Dillər İnstitutu buna bariz nümunədir.

Bu gün qrammatik qaydaları əzbərləyib söz öyrənməklə xarici dili tədris etmək gülünc gələr. Bu gün ingilislər /I shall/ və ya /I will/ demirlər. Hər iki hal üçün /I'll/ işlədilir. Fransızlar danışıqda "Konjunktiv"-i və tarixi Presens-i işlətmirlər. Alman və ingilis dillərində danışıqla yazıda söz sırasında ciddi fərq nəzərə çarpır.

İngilis dilində oxunan mühazirədən bir parçanı D.Kristalın (1941) əsərindən burada iqtibas gətiririk: /Well, now I'd like to turn now to assessment- and I hope you want mind if I use this opportunity to try to give some indication of. eym-a. more modern-more-recent approach to the assessment problem//.[47] Alman dilində: /vln vfolndesmaxn//- „Wollen wir folgendes machen“.

Dilöyrənmədə dil haqqında biliklərin olması çox vacibdir. Son zamanlar dilin xarici dil kimi tədrisi problemləri ilə məşğul olan sahəni çoxları tətbiqi dilçilik adlandırır. Bu biliklərin ana dilinin tədqiqində də istifadə oluna bilməsi çox geniş diskussiyaya səbəb olub.

Bu gün peşə və ya ixtisas dili çox ciddi sahə kimi mütəxəssisləri düşündürür. Məktəbi qurtaran məzunların hüquq, maliyyə, səhiyyə və s. sahələrə aid lazımi bilikləri varmı? Onlar bu sahədə verilən mətnləri oxuyub başa düşürlərmi? Razılaşaq ki, yox! Hüquqşünasların mühafizəkar dili, idarəetmə sistemində çalışan məmurların danışıq və ya yazı üslubu, vəkillərin leksikonu, resept və xəstəlik tarixi doldurma xüsusiyyətləri dil baxımından çox çətin və aktual məsələdir. Bu gün məhkəmələrin çıxardığı qərar və hökmləri oxuyanda, yol hərəkəti qaydalarına nəzarət edən polis işçilərinin protokollarını nəzərdən keçirəndə, hüquq-mühafizə orqanlarında işlənən dilə diqqət yetirəndə sahə dilinin nə qədər cilalanmağa ehtiyacı olduğu hamımıza aydın olar. Reklam və siyasi nitqlərdə klişe və ştamplar və ya bəlağətli danışıqla auditoriyanı ələ almağa çalışan «dil pəhləvanları» dilin başına nə oyunlar açdıqlarından xəbərsizdirlər. Bütövlükdə təbliğatın dili geniş tədqiq olunmalıdır.

Eyni səviyyəli sosial qrupların daxilində anlaşılma daha tez baş tutur. Odur ki, bu cür amillər istehsalata da aid edilir. Müxtəlif səviyyəli adamların və sosial qrupların cəmləşdiyi kollektivə rəhbərlik edən onların dilində danışmağı bacarmalıdır. Sosializm dövründə xalqın başa düşmədiyi dildə danışan rəhbərlərə də rast gəlmək olurdu.

İş adamları dildən və kompüterdən istifadəyə ciddi fikir verirlər. Onları «Əməkdaş məktub tərtib edə biləcəkmi? Anket doldura biləcəkmi? Telefon danışıqlarına və internetə cavab verə biləcəkmi?» kimi suallar çox düşündürür. Bəzən firmalar özləri üçün kadr axtaranda xüsusi testlər vasitəsilə imtahanlar keçirirlər. Çoxları güman edir ki, vəziyyətdən çıxmağa dilçilik kömək edər: sualların həcmini, məzmununu və onlara veriləcək cavabları prinsipial şəkildə hazırlayıb istifadəyə verə bilərlər. Ünsiyyət tələblərinin ümumi prinsipial şərtlərini nəzərə almaqla işlənib hazırlanması çox vacib sahə kimi göz önünə gəlir. Firma, idarə və təşkilatlar mətbuat xidməti yaradırlar. Onun vəzifəsi ölkə içində və dışında

baş verən olaylar (qəzet və jurnalların xüsusiyyətləri, siyasi-iqtisadi, mədəni görüşlər haqqında referatlar, idman və incəsənətə dair məlumatlar), radio, televiziya və KİV-də gedən xəbərlərlə bagli məlumat toplayıb həmin firma, təşkilat və idarələrin rəhbərlərinə onların dilində təqdim etməkdən ibarətdir. Bu zaman toplanan məlumatı necə demək, necə çatdırmaq, ölkənin və xalqın deyim tərzini nəzərə almaq, lazımi mənanı ifadə etmək çox vacibdir.

Vaxtilə dilöyrənmə və dilin tədqiqi bütövlükdə ədəbiyyata söykənirdi. Bədii ədəbiyyat, onun janrları, nəsr və poeziyanın dili ön plana çəkilirdi. İngilis dili Çoser, V.Şekspir, B.Şou, V.Skott, alman dili Y.V. fon Göte, F.Şiller, H.Hayne, fransız dili Q. de Mopassan, A.Düma, O. de Balzak və s.-in dillərilə eyniləşdirilirdi. Bir qayda olaraq tədrisdə bu klassiklərin dilinin öyrənilməsinə daha çox yer ayrılırdı. Şübhəsiz ki, bu və ya digər şair və yazıçı öz dilinin bilicisi olmalıdır və bu baxımdan onun yaradıcılığı böyük əhəmiyyət kəsb edir. Amma bu yaradıcı adam nə qədər də dahi olsa, onun dilində bu və ya digər leksikon bir mənada işlənir, o, öz ideyalarının təbliği üçün dildən istifadə edir. Eyni dildə danışan hər bir fərd ünsiyyət məqamında vermək istədiyi məlumat üçün doğma dildən özünəməxsusluqla istifadə edir. Bu mənada yazarla adi dil daşıyıcısının dildən istifadə etməsi müxtəlif şəkildə və formada getsə də, hər ikisinin istifadə etdiyi instrument birdir – dil. Təsadüfi deyildir ki, ayrı-ayrı mütəfəkkirlərin öz dillərində yaratdıqları və yazdıqları onların yazdığı dilin linqvistik tədqiqi üçün kifayət etmir.

Alman ədəbi dil normasını hazırlamaq istəyən T.Zibs (1870-1941), E.Sivers və digər dilçilər xüsusi sorğu blanklarında cümlələri yazıb Almaniyanın müxtəlif bölgələrinə göndərmişdilər. Onların məqsədi yerlərdən gələn transkripsiya əsasında ümumiləşdirilmiş ədəbi dil yaratmaq idi. Lakin cümlələrin transkripsiyası elə fərqli idi ki, (çünki Almaniyada dialekt fərqləri nəinki ötən əsrin sonunda, elə indinin

özündə də o qədər böyükdür ki, cənubdan bavariyalı şimaldan gələn holştaynlını çətin başa düşür və ya heç başa düşə bilmir) onlar məcbur olub səhnə dilini əsas götürdülər. Ona görə də təsadüfi deyildi ki, elə Avropada ilk orfoepiya lüğəti 1898-ci ildə Almaniyada «Bühnendeutsch» («Səhnə dili») adı altında meydana gəldi.

Dilləri ona görə tədqiq edirik ki,onlara xas olan ümumi prinsipləri üzə çıxarmaq, başa düşmək istəyirik. Bu zaman dilöyrənmə şəraitinin yaxşılaşması, hər hansı bir dili özü-özlüyündə öyrənmək və ya bədii ədəbiyyatın üslubi xüsusiyyətlərini araşdırmaq da ola bilər. Ancaq bunlar dilçinin əsas məqsədi deyil, əsas məqsəd istər bir dilin, istərsə bir neçə dilin və ümumilikdə bəşər dilinin ümumi cəhətləri və dildə ünsiyyətin mexanizmi barədə biliklər sistemi əldə etməkdən ibarətdir. Bu da dilçilik elminin predmetini təşkil edir.

## I.5. Kursun tədqiqat metodları

Germanistikanın tədqiqat metodlarından danışanda ümumi dilçilik zəminində işlənib hazırlanmış üsul və priyomlardan yan keçmək olmaz. Ontoloji baxımdan olduğu kimi, metodoloji baxımdan da İ.A.Boduen de Kurtene və F. de Sössür bu sahədə öncüllərdən hesab edilirlər.

F. de Sössür 1879-cu ildə Laypsiqdə çap etdirdiyi hind-Avropa dillərində qədim sait sistemi haqqında əsərilə german dilçiliyinə töhfə vermişdi[48]. Sonra isə, məlum olduğu kimi, onun ümumi dilçilik sahəsində sanballı əsəri çap olundu.[49]

F. de Sössür dixotomiyasında[50] dil-danışıq (langue-parole), paradiqmatik-sintaqmatik, sinxronik-diaxronik qarşılaşmaları ilə yanaşı, dil işarələrinin bilaterallığı, diskretliyi, linearlığı germanistikanın sonrakı inkişafına güclü təkan verdi, dil nəzəriyyəsinin yeni baxımdan işlənib hazırlanmasına möhkəm zəmin yaratdı. Kitabın Avropada əks-sədası

xeyli sonralar yayılmağa başladı. Buna da səbəb Avropada müharibələrin getməsi oldu. Ancaq buna baxmayaraq onun V. fon Humboldtdan sonra dilə canlı bir fenomen kimi yanaşması, danışığı yazıdan üstün tutması, təcrid edilən fonetik meyllərin və adi qrammatik müqayisələrdən fərqli olaraq dilə (langue) sistem kimi yanaşması və onu öz sosial zəminine qaytarması (ona qədər dil zahiri əlamətlərin toplusu kimi götürülürdü) tezliklə özünə çoxlu tərəfdar tapdı. Artıq 1928-ci ildə mənşəcə Rusiyadan olan N.S.Trubeskoy, R.O.Yakobson (1896-1982) və S.N.Karsevski (1884-1955) Haaqada birinci Beynəlxalq Dilçilər qurultayında proqram sənədi ilə çıxış edərək prinsipcə dilin sistem kimi götürülərək sinxron və funksional aspektdə tədqiqini nəinki təsviri, həmçinin tarixi fonologiya sahəsində vacibliyini elan etdilər.[51] Çox maraqlıdır ki, L.V.Şerba (1880-1944) xatirələrində yazırdı ki, F. de Sössürün dəyərli fikirlərlə dolu olan bu kitabı Petroqrada gec gəlib çatmışdı. Ancaq onu oxuyub qurtarandan sonra yəqin etdik ki, orada söylənilənlərin çoxu bizə öz müəllimimiz İ.A.Boduen de Kurtenin əsərlərindən çoxdan bəlli idi.[52]

Beləliklə, biz əsrin qovuşuğunda ümumi dilçilik və eyni zamanda germanistikaya güclü təsir göstərən istiqamətlərdən biri olan İ.A.Boduen de Kurtene məktəbinə bir nəzər salmaq istəyirik.

Fransız mənşəli, Varşavada doğulmuş, Laypsiqdə təhsil almış, Rusiya və Polşa universitetlərində çalışmış bu alim 400-ə qədər əsərin və məqalələrin müəllifidir. Onun Avropa və dünya dilçiliyinə az, həm də gec təsir etməsi əsərlərinin dağınıq və rus dilində olması ilə izah edilə bilər. İ.A.Boduen de Kurtene gənc qrammatikçilərin mənəvi atalarından biri sayılır. 1867 / 68-ci illərdə Yenada A.Şlayxerin yanında təhsil alan İ.A.Boduen de Kurtene 1870-ci ildə Laypsiqdə A.Leskinin (1840-1916) birinci dissertantı kimi "Polşa dilində hallanmada analogiyanın əhəmiyyəti" mövzusunda müdafiə edib. Bu işdə o, gənc qrammatikçilərin səs qanunu və

analogiya vasitəsilə paradiqm yaratmasında iştirakçı olur.[53] Boduenin böyük xidməti dilçilikdə dil səsini (Sprachlaut - Phonem - F.Y.) hərfdən ayırması oldu. Dil faktlarının tarixi baxımdan ümumiləşdirilməsi və dildə fəaliyyət göstərən, onun varlığını və inkişafını müəyyənləşdirən qüvvə və qanunların aşkar edilməsi əsl elmi yön sayıla bilər. Dilçilik üçün müqayisəni əsas götürən İ.A.Boduen de Kurtene dilə orqanizm kimi yox, ona yalnız və yalnız öz daşıyıcılarında (native speaker) yaşayan instrument kimi yanaşır. Qədim formaların bərpa edilməsi haqqında tezisilə o, gənc qrammatikçilərə lap yaxın idi, ancaq İ.A.Boduen de Kurteneyə görə bərpa, dilin real formalarını bərpaya xidmət etməməli, cizgiləri bərpa etməlidir. Psixoloji tədqiqi ön plana çəksə də, İ.A.Boduen de Kurtene yalnız fərdin dilini psixoloji reallıq kimi götürürdü. O, dil və dili işlədənlər arasındakı münasibətlərin öyrənilməsinə, o cümlədən, xalqın dünyagörüşünün dilin inkişafına təsirini qəbul edir və bir növ tətbiqi dilçiliyin əsasını qoymuş olur. O, canlı dili bütün şaxələrilə öyrənməyi məsləhət gördüyü kimi, özü də bu sahədə nümunə göstərirdi. Dil onun üçün psixoloji-ictimai bir hadisə idi.[54] Bütün ömrü boyu elm uğrunda mübarizə aparan bu alim taleyin qismətilə Varşava, S.Peterburq, Tartu (Derpt, Yuryev) universitetlərində çalışmış, L.V.Şerba, N.Kruşevski (1851 - 1887), Y.D.Polivanov və s. kimi dünya şöhrətli alimlər yetişdirmişdir. İ.A.Boduen de Kurtenenin F. de Sössürlə birbaşa tanışlığı sübut olunmayıb, amma F. de Sössür 1879-cu ildən Parisdə Linqvistik Cəmiyyətin katibi vəzifəsində çalışanda İ.A.Boduen de Kurtene və onun əsərlərilə tanış olduğunu göstərən mənbələr vardır. İ.A.Boduen de Kurtene Rusiya Elmlər Akademiyasının müxbir üzvü, 1918-ci ildə isə Polşada milli azlıqların Polşa prezidentliyinə namizədi olub.[55]

1870-ci ildə İ.A.Boduen de Kurtene artıq dil vahidlərinin ikili üzvlənməsi prinsipinin linqvistik əsaslarını işləyib hazırlayaraq, fonem və morfem anlayışlarını dilçiliyə

gətirmişdi. O, bir tərəfdən müəyyən bir fərdin konkret bir ünsiyyət məqamındakı danışığını (idiolekti),[56] onun sosial[57] və lokal xüsusiyyətlərini əks etdirən dili (dialekt), digər tərəfdən, potensiyadakı dillə (langue) anlaşılma vasitəsi kimi daim təkrarlanan proses - nitq (parole) arasındakı fərqləri düzgün dəyərləndirir, buradan dilin statikliyi və dinamikliyini əsaslandırır və məqsəddən asılı olaraq statik və dinamik tədqiqatlar metodunun vacibliyini göstərirdi.

Germanistikanın inkişafına güclü təkan verən elmlərdən fəlsəfə, məntiq və psixologiyanı xüsusi qeyd etmək lazımdır. Məntiqi kateqoriyaların dil təhlilinə birbaşa təsirindən biz irəlidə söhbət açmışdıq. Fəlsəfə ilə dilçiliyin, o cümlədən germanistikanın əlaqəsinə gəldikdə isə deməliyik ki, pozitivizm, yeni faktların mövcudluğunun aparıcı kriteriya kimi götürülməsi gənc qrammatikçilərin əsas iş prinsiplərindən olub. Hələ hind-Avropa dillərinin bölgüsündən bəhs edən A.Şlayxer Ç.Darvinin (1809-1882) canlı varlığın təkamül nəzəriyyəsini[58] Q.Hegelin fəlsəfi baxışları ilə bağlayaraq dillərin amorf, aqqlütinativ və flektiv tipoloji bölgüsünün tezə-antitezə-sintezə uyğunluğunu belə izah edirdi: sintezi inkişafın ən yüksək zirvəsi sayırdı, flektiv formaların sayının çox olduğu dili ən yüksək inkişaf səviyyəsinə çatmış dil hesab edirdi. Latın, yunan və sanskrit bura aid dillərdən sayılırdı. Çin dili ən az inkişaf etmişlərdən sayılırdı. Bütün proto-hind-Avropa dili isə tədricən tənəzzülə doğru gedirdi. Müqayisəli dilçilik sübut etməyə çalışırdı ki, bu ulu dil, yəqin ki, bizə gəlib çatan dillərdən ən çox flektivi idi.

Təbiətşünaslığın dilçiliyə güclü təsiri nəticəsində linqvistika bir elm kimi getdikcə filologiyadan ayrılıb tam müstəqil elm olmağa başladı. 1922-ci ildə nəşr etdirdiyi kitabında germanistikanın yaradıcılarından biri O. Yespersen (1860-1943) bu fənnin emansipasiyasından danışırdı və onun bu fikri özünə çoxlu tərəfdar tapırdı.[59]

Alimlər uzun mübahisələrə qoşularaq sübut edirdilər ki, dil canlı orqanizm deyildir, onun müstəqil fiziki varlığı

yoxdur. Ona görə də dili canlılar kimi götürmək düz deyildir. O, canlı orqanizmin - fərdin davranışının bir hissəsi kimi abstrakt bütöv olaraq götürülməlidir. Lap fərz edək ki, fransız və ingilis dilləri bir canlı orqanizmdən parçalanaraq ayrılıblar. Bəs onda bu dillərin sonradan bir-birinə qarşılıqlı təsirini necə izah etmək olar?

Gənc qrammatikçilər fonetikanın tədqiqində, fonetik qanunların ardıcıllığını axtarıb tapanda bir tərəfdən fizika, digər tərəfdən isə biologiyadan bəhrələnərək öz tədqiqat metodlarını işləyib hazırlamağa nail olmuşlar.[60] Bu yolla öz tədqiqat metodlarını hazırlayan "gənc qrammatikçilər" bəzən nəzəri cəhətdən səhvə yol verirdilər. Faktlar ayrı-ayrılıqda götürülür, bu da atomizm, yəni sistemliliyi nəzərə almamaq demək idi.

Digər elmi bağlılıq psixologiya ilədir. Gənc qrammatikçilər dilə, daha doğrusu, danışığa psixofiziki fəaliyyət kimi baxırdılar, odur ki, onlar dilin varlığını istər-istəməz fərdin varlığına bağlayırdılar. Fərd isə, məlum olduğu kimi, təkcə fiziki varlıq deyil, həm də müəyyən ruhi varlıq deməkdir. Psixologiya əsas elm kimi götürülsə də, empirik dəqiqliyilə qanunların çıxarılmasında ona bazis kimi yanaşırdı. H.Paul (1846-1921) anlamında bu fərdi psixologizmdir, çünki real olan fərddir. Dilçinin müşahidə edə biləcəyi yalnız fərdin dilidir, dil kollektivi deyilən anlam yox dərəcəsində idi. Bu mövqe həm H.Paulda, həm də Boduen de Kurtenedə güclü şəkildə özünü büruzə verirdi.[61] Ancaq burada çətinlik törədən odur ki, dilçi bütün fərdlərin danışığını öyrənib onun mənsub olduğu dil (langue) haqqında ümumiləşmələr aparmalıdır. Elə məsələnin mürəkkəbliyi də burasındadır. Dilçiliyin təşəkkülü, sözün həqiqi mənasında, təbiət elmlərinin müdaxiləsilə xeyli qabağa getmişdir. Dildə danışanların heç birisinin digərini təkrar etmədiyini qəbul etsək, bir dil vahidini eyni şəkildə iki danışanın heç vaxt eyni cür deyə bilmədiyini başa düşən alimlər XIX əsrin sonunda ciddi axtarışlar aparır, danışığı saxlayaraq lentə kö-

çürmək və onun təhlili zamanı istənilən qədər fırladıb qulaq asa bilmək və eyni zamanda bu təhlildə yol verilə biləcək subyektivizmi aradan qaldırmaq üçün yeni elmi kəşflərə böyük ehtiyacı duyurdular. Paris Elmlər Akademiyasında gözlə görüləni ölçmək üçün Daguerreotyp adlı cihaz nümayiş etdiriləndən 18 il sonra (1857) germanist R. fon Raumer (1815-76) belə bir cihazın danışılan üçün də olmasını çox arzulamışdı. 1878-ci ildə Tomas Edisonun Parisdə Dünya sərgisində nümayiş etdirdiyi fonoqraf da dilçilərin arzusunu yerinə yetirə bilmədi, çünki hələ plastinka kəşf olunmamışdı. Yalnız 1887-ci ildə berlinli Ernest plastinka yaradandan sonra əvvəlcə Vyanada, sonra Sürix, Berlin və Marburqda fonoqram arxivləri yarandı. Beləliklə, dialekt və dilləri yazmaqla onlardakı canlı danışığı gələcək nəsillərə ötürmək imkanı yarandı. Almaniyada 1932-ci ildə «Alman dili arxivi» yarandı. Aşağı tezlikli gücləndiricilər kəşf ediləndən sonra mikrofon yarandı və ilk dəfə olaraq külli miqdarda dialektin və xeyli miqdarda adamın təbii danışığını maqnitofon lentinə alıb hərtərəfli linqvistik təhlil aparmaq mümkün oldu.[62]

İtaliyada və Fransada abbat Russlonun yanında təcrübələr aparıb sanballı əsərlər yazan L.V.Şerba avropalı həmkarlarından fərqli olaraq, fonetik eksperimenti eksperiment xatirinə deyil, irəli sürdüyü nəzəri fikri təcrübədə təsdiq etmək üçün həyata keçirirdi. Bu da ona imkan verirdi ki, adi gözlə görə bilmədiyi fonetik elementləri aydın görə bilsin. Beləliklə, dilçilikdə təbiətşünaslıq elmlərinin çoxdan sınaqdan çıxardığı metodlara geniş meydan açıldı. Dilçilər saymağı öyrənməyə başladılar. Amma saymaq heç də əsas məqsəd ola bilməz. Riyazi hesablamalardan istifadə edərək dildəki qanunauyğunluqları, dil vahidlərinin işlənmə tezliyini və dəyişikliyə uğrama dərəcəsini, həmçinin variantların hüdudlarını müəyyənləşdirmək olar. Bu barədə biz öz kitabımızda geniş yazmışıq.[63] Burada isə məşhur amerikan alimi Z. Harrisin (1909-1992) dilin riyazi modeli üçün müəy-

yənləşdirdiyi xüsusiyyətləri[64] sadalamaqla bu bölməni tamamlamaq istərdik.

*1. Diskretlik.* Dilin təhlilində ayrı-ayrı sözlərin özündən kiçik hissələrə bölünməyən fonemlərdən, cümlələrin isə sözlərdən ibarət olduğu aşkarlanır. Riyazi düstur və ya tənliklə rəqəmlər (0, 1, 2, 3 və s.) və simvolların (x, y, z və s.) dililə bunu göstərmək olur. 2. *Qabaqlama (pre-setting).* Dildəki fonetik fərqləri və sözləri təşkil edən fonem ardıcıllıqlarını dili öyrənmək istəyən mənimsəyir və onları öz gələcək danışığına qabaqcadan daxil edə bilir. Danışan hər hansı bir dil vahidini bircə dəfə eşitsə və onu başqa dil vahidlərindən fərqləndirsə, onun əvvəlkinin eyni olduğunu tam dərk edir. Riyazi modeldə əvvəlki mənimsənilmiş düstur sonrakılara hazırlıq mərhələsi təşkil edir; *3. Təkrarlanma.* Nə zamansa deyilən və eşidilən istənilən dil vahidi istənilən miqdarda təkrarlana bilər. /a/ fonemi yüzlərcə sözümüzdə təkrarlanır. Riyazi düsturda rəqəm və simvollar sonsuzluğa qədər təkrarlana bilir; *4. Səhv birləşmə.* Məlumatın verilməsində bu və ya digər dil vahidinin yeri səhv düşə bilər, onda qarşılıqlı anlaşılma baş tutmur. Uzun sait əvəzinə qısa deyilsə, terminal intonasiya əvəzinə proqrediyent işlənsə, əlbət ki, məlumatın ötürülməsində anlaşılmazlıq olacaq. $(a+b)^2$ -də mötərizə yaddan çıxsa, düstur başa düşülməz; *5. Dilin ixtiyariliyi.* İfadə edənlə ifadə olunan arasında birbaşa əlaqə olmur. $H_2O$ düsturunun suyu bildirməsi müəyyən razılaşmanın nəticəsidir, formulun özündən irəli gəlmir. /daş/ sözünün mənası /d/, /a/ və /ʃ/ fonemlərinin mənalarının cəmi olduğunu söyləyən tapılmaz; *6. Düzxətlilik.* İstər danışıqda, istərsə də riyazi formullarda olduğu kimi, dil vahidləri bir-birinin ardınca düzülür və eyni vaxtda və eyni yerdə iki müxtəlif dil vahidi gələ bilməz. *7. Üzvlənmə.* Cümləni əmələ gətirən söz və fonem birləşmələri kiçik hissələrə bölünə bilər: Fonem birləşmələri hecalara, cümlələr isə tərkiblərə bölünə bilər. Lakin danışıq aktının bölünməsi yalnız linqvistik kriteriyaya əsaslanmalıdır. *8. Birləşməyə girmə.* Bütün dil

vahidləri öz səviyyələrində və başqa səviyyələrdə məhdudluqlar nəzərə alınmasa, birləşməyə girə bilir. Məs.: alman və ingilis dillərində /ŋ/ fonemi sözün və hecanın başında gələ bilmir. "Çoxları günəşin mükafatından imtina etdi" cümləsi qrammatik baxımdan düzdür, amma mənaca düz olması Günəşin hansı mənada işlənməsindən asılıdır. Hidrogenin birbaşa oksigenlə birləşməsi mümkün deyildir, bunun üçün hidrogen iki valentdə götürülməlidir. *9. Son həddin olması.* Cümlələrin, sözlərin və digər vahidlərin uzunluğunda bir hədd var, əslində cümlələr müxtəlif növlü söz işlətməklə qısa səyahətə çıxmaqdır. *10. Cümlələrin sayı.* Cümlələrin sayı yoxdur, amma cümlə ardıcıllığında hər bir cümlə və dönəmin öz sayı və sırası var. *11. Sonluqlu qrammatika.* Danışıq və yazı sonu olan elementlərdən düzəlir. *12. Sayıla bilmək.* Cümlə strukturu sayılır. Sonlu alqoritmlər yeni cümlə konstruksiyaları yarada bilər.

Yuxarıdakı geniş müzakirədən sonra biz dillərin, o cümlədən german dillərinin tədqiqinə ən çox tətbiq edilən metodları aşağıdakı kimi qruplaşdıra bilərik:

I. Tarixi-müqayisəli metod. XIX əsrin əvvəllərində dilçilikdə yeni olan bu metodun qarşısında duran əsas məqsəd dillərin qohumluq əlaqələrini, bunun da nəticəsində ulu dili müəyyənləşdirmək və bir dili başqa bir dilin köməyilə şərh etməklə dilin yaranması qanunauyğunluqlarını aşkar etməkdən ibarət idi. Tarixi-müqayisəli metod dilin tarixində dərin qatlarda ilişib qalmış özəllikləri üzə çıxartmağa, üzdə görünməyən, lakin tarixin səhifələrində yer almış uyğunluqları tapmağa imkan verir.

İlk olaraq danimarkalı R.Rask «İsland dilinə giriş» (1811) kitabında german, litov, italyan, latın və yunan dillərinin qohumluğunu sübut etməklə tarixi-müqayisəli araşdırmaların əsasını qoydu. Onun ardınca alman Y.qrimm dördcildi «Deutsche Grammatik» (Göttingen, I cild 1819) alman dilinin ilk yazılı abidələr dövrünə qədər tarixini german dillərilə müqayisə edərək germanistika üçün son dərəcə

əhəmiyyət kəsb edən 1-ci (və ya german) və 2-ci (və ya alman) sammit irəli çəkilməsi qanunlarını kəşf etdi. Həmin bu qanunlar kitabın ikinci nəşrinə (1822) əlavə edilmiş german dillərinin tarixi fonetikası bölməsində öz əksini tapmışdır. Bu metod dilləri müqayisə etməklə hər hansı bir dilin tarixi dəyişikliklərini açıb göstərməyə imkan verir. Tarixi-müqayisəli metodun ən yüksək səviyyədə tətbiqinin biz F.Boppun sanskrit, zend, erməni, yunan, latın, litov, qədim slavyan, qot və alman dillərinin 3 cildli müqayisəli qrammatikasında (1833-1835) şahidi oluruq.

V.fon Humboldt tarixi-müqayisəli metodun nailiyyətlərin əsaslanaraq hind-Avropa dillərindən kənara çıxaraq dünya dillərini tiplər üzrə qruplaşdırmaqla mövcud geneoloji təsnifata yeni bir təsnifat – tipoloji bölgü prinsipini əlavə edir ki, bu da dilçilik tarixinə dillərin tipoloji təsnifi kimi daxil olmuşdur. Əsasən morfoloji əlamətləri əsas götürən bu bölgü V.fon Humboldtun yozumunda belə görünür:

1. Təcrid edilmiş və ya amorf dillər. Bunu sonralar analitik[65] dillər də adlandırırdılar. Bu dillərdə qrammatik məna sözün özündə deyil, ondan kənarda, ayrı sözlə ifadə olunur. Məs.: ingilis dilində istiqamət, yer və s. mənalarının sözönü ilə ifadə olunması buna yaxşı misal ola bilər. Müq. et: /a cup of tea/. Bağlayıcı, artikl, sözönü, köməkçi fel, həmçinin söz sırası və intonasiya analitik ifadə vasitələrinə daxildir. Analitik dillərə bütün roman dilləri, bolqar, ingilis, Danimarka, yeni yunan, yeni fars və başqaları daxildir. Bu dillərdə müəyyən dərəcədə sintetik vasitələrdən də istifadə olunur.

2. Leksik və qrammatik mənaların verilməsində sözdə birləşmədən, sintezdən[66] istifadə edən dillər. Bu dillərdə sözün öz qrammatik mənanı ifadə edə bilir. Buraya sonluqlar, şəkilçilər, önşəkilçilər, daxili fleksiya (fonem əvəzlənmələri), vurğu dəyişiklikləri, suppletivizmlər, transfikslər (semit dillərində) və morfemlərin təkrarı daxildir. Sintetik dillərə bütün slavyan dilləri (bolqar dilindən başqa), sanskrit,

qədim yunan, latın, litov, yakut, nenes, ərəb, suaxili və digər dillər daxildir.[67]

Bundan başqa areal və ya ərazi əlamətinə görə bölgü də var.

Bunlar da öz növbəsində iltisaqi və flektiv dillərə bölünür. Birincidə affiks mənaca müstəqil olub, müəyyən formaya malikdir. Söz strukturu sərbəstdir və həmahənglik var. Flektiv dillərdə sözün struktur komponentləri sxı bağlıdır. Sözün kökü leksik, şəkilçilər isə qrammatik mənanı bildirir. Birincilərə türk, ikincilərə isə german dilləri aiddir.

İltisaqi dillər də öz növbəsində qeyri-inkoror və inkorpor dillərə bölünür. Sonuncunu adətən polisintetik dillər adlandırırlar.

Hind-Avropa dillərinin bir bölgüsü də dilarxası kipləşən-partlayışlı samitlərlə bağlıdır. Hind-Avropa dillərində sözlərin üçdə birində mütləq bir dilarxası samiti iştirak edir. Həmin samitlərin işlənməsini əsas götürərək bu dilləri iki yerə bölürlər: şərq və qərb dilləri. Birinciyə hind, İrar, erməni, baltik-slavyan, alban dilləri, ikinciyə isə kelt, latın, yunan, german, illir, venetik dilləri aiddir. Qərb qruppu dillərində k və g səslərinin bir hissəsi ş və j ilə təmsil olunduğu halda, qərb qruppu dillərində k və g-nı dəyişmələn qoruyub saxlayıblar. Hind-Avropa dilində yüz sözü (hundert - *kmtom) latın dilində (centum - /kentum/, yunan dilində (ekatov), kelt dilində (cet) kimi tələffüz olunmaqla /k/ dilarxası samitini hifz edib. Şərq qrupu dillərində isə qədim dövrlərdə ş müvafiq olaraq s dəyişməz qalıb (qədim hind d. satam, qədim İran d. satəm, Litva d. şimtas, qədim slavyan d. suto). Beləliklə, /k/ samitinə dəyişən dillər kentum, dəyişməyənlər isə satem dilləri adlandırmışlar. Coğrafi bölgü prinsipi het və toxar dillərinin kəşfi nəticəsində şübhə altına alında, çünki həm het, həm də toxar dili ərazi baxımından şərq dilləri olsalar da, kentum dillərinə daxil idilər. Digər tərəfdən, german, slavyan, baltik və toxar dilləri arasında yaxınlıq kentum dilləri olan latın və yunan dilləri arasındakı

yaxınlıqdan artıq idi. Ancaq son illərin tədqiqatları göstərdi ki, ieroqlif yazısı olan het dilində dilarxası samitlərin növlu samitə keçməsi yalnız u saiti qarşısında baş vermişdir. Müq. et: şuvana-it, şurna-buynuz. Ancaq mixi yazılı het dilində (karauar-buynuz) k dəyişməz qalmışdır.

German dillərinin tarixi-müqayisəli metodla tədqiqində H.Paul və onun ardıcılları mühüm mərhələ təşkil edirlər. Bunu sübut edən fakt o dövrdə german filologiyasına dair çap olunan kitablardır.

XIX əsrin ortalarında dilçilikdə A.Şlayxerin biologizmi ulu dil formasını bərpa etmək axtarışlarında tarixi-müqayisəli metoddan bəhrələnərək dilə ardı-arası kəsilməyən dəyişikliklər sistemi kimi yanaşırdı. Darvinizm dilçilikdə naturalist baxışlarının formalaşmasına güclü zəmin yaratdı. Ancaq elə bu əsrin ikinci yarısında insan faktorun əsas götürən bir cərəyan yarandı ki, bu da psixi assosiasiyanın özəlliklərinə arxalanaraq insanın dil fəaliyyətinin fərdlə bağlı olduğunu sübut etməyə çalışır, dili psixofiziki fəaliyyət hesab edərək onu fərdi psixoloji akt kimi nəzərdən keçirirdi. Psixologizm kimi tanınan bu cərəyanın nümayəndələri V.Vundt (1832-1920), B.Delbrük (1842-1922) və başqalarını göstərmək olar.

Psixologizm dilin ictimai mahiyyətini inkar edirdi. Dilə fərdin psixoloji təsəvvürləri kimi yanaşmaq onun ictimai qrupun bütün üzvləri üçün məcburi olan və həmin qrupun həyatında obyektiv mövcud olan dilin sosial mahiyyətini nəzərdən qaçırmaq deməkdir.[68]

Biologizmə və logitsizmə qalib gələn psixologizm eyni zamanda dili fərdin fikrinin aləti və şüurunun vasitəsi kimi götürməklə onun ictimai mahiyyətini açmaqda acizlik çəkirdi.

XIX əsrin sonlarında tarixi-müqayisəli metod xeyli zəngindəşir və onun tətbiq dairəsi genişlənir. Bu dövr həm də gənc qrammatikçilərin çiçəklənməsi dövrüdür. Tarixi-müqayisəli metodun köməyilə gənc qrammatikçilər fonetik

qanunlar və analogiyanı o qədər incəliklə işləyib hazırlayırlar ki, dilçilik tarixinə bu qanunlar onların adı ilə daxil olur.

Gənc qrammatikçilərdən danışanda alimlər adətən K.Bruqmannın (1849-1919) H.Osthoffla (1847-1909) birlikdə yazdıqları «Morphologische Untersuchungen auf dem Geibet der indogermanischen Sprachen» (Leipzig, 1878) kitabının girişini göstərirlər. Onlar burada bir neçə qaydanı doqma şəklində qeyd edirlər. O cümlədən metodlar və prinsiplər təlimini dilin düzgün dərk olunmasından irəli gəldiyinə inanduqlarını dilə gətirirlər. Bu sahədəki doqma səs qanunlarının istinasızlığı və analogiyanın qüvvədə olması prinsipindən ibarətdir. Onlar göstərirdilər ki, səs qanunu olmadan tədqiqat mümkün deyil. Özü də onlar yeni dilləri və dialektləri tədqiqata cəlb etməklə öz metodlarının yararlığını yoxlaya bilirdilər.[69]

Gənc qrammatikçilər prinsip olaraq A.Şlayxerin biologizmini rədd edir və dili tarixi hadisə kimi dəyərləndirirlər. H.Paulun 1880-cı ildə çapdan çıxan «Prinzipien der Sprachgeschichte» əsərinin adı bunu bir daha təsdiq edir. Onların ikinci əsas tezisi ondan ibarətdir ki, fonetik dəyişmələr ciddi qanunauyğunluqlara tabedirlər və heç bir istisna tanımırlar. Qanundan kənar dəyişiklik varsa, deməli, buy a başqa səs qanununa tabedir, ya analogiya ilə yaranan sözlərdən, ya da alınmalardan gəlir. Gənc qrammatikçilərin prinsipləri bunlardır:

1) Fonetik qanunlar ardıcıl dəyişikliklər və uyğunluqlar şəklində öz əksini tapırlar.

2) Analogiya. Sistemin az işlənən formaları çox işlənənlə tarazlıq yaratma tələbi, hal və təsrif paradiqmində sözün fonetik formalarındakı fərqlərin aradan qaldırılması.

3) Alınmalar. Bir dilin və ya dialektin təsirinin təsdiqi. Səsdəyişmənin izahı mümkün deyilsə, alınmalara müraciət etməyin vacibliyi.

4) Neologizmlər. «Metodologiyanın əsasını ümumi məntiqlə yanaşı, hər bir faktın ayrılıqda müəyyənləşməsində

rəhbər tutulmalı olan tarixi formalaşma şərtlərinin aydınlaşdırılması təşkil edir».[70]

II. Struktur funksional metod. Bu metodun yaranması dövrün tələbi idi. Dilçilər artıq yaxşı başa düşürdülər ki, dili cəmiyyətdən ayrı, fərdlərin danışığında baş verən dəyişikliklərşəklində götürməklə onun əsl mahiyyətini açıb göstərmək olmaz. Həddən artıq tariximizə meyl dilin sistem və struktur özəlliklərini görməyə Mane olur. İ.A.Boduen de Kurtenenin şagirdi H.V.Kruşevski yazırdı ki, dilçilik tarixi deyil, təbiətşünaslıq elmlərinə aiddir.[71]

Struktur dilçilik gənc qrammatikçilərin ilkin baxışlarını kənara atır, dili linqvistikanın yeganə obyekti hesab edir, dilə sistem münasibətlərinin məcmusu kimi yanaşır, onun müəyyən bir anda mövcudluğunun sistem münasibətlərini sinxron aspektdə öyrənməyi əsas götürür. 1926-cı ildə yaranan Praqa Dilçilik Məktəbi dil vahidlərinin funksional baxımdan öyrənilməsinə üstünlük verirdi. 1928-ci ildə dilçilərin 1-ci Beynəlxalq Haaqa konqresində strukturalistlər öz manifestlərini elan etdilər. Bir il sonra onlar slavistlərin 1-ci konqresində «Travaux du Cercle Linguistique de Prague» məcmuəsini çap etməyi qərara aldılar. Cəmi 8 cəldi işıq üzü görən (1929-1939) həmin məcmuənin 1-ci cildində Praqa funksionalistlərinin məşhur 9 tezisi çap olundu. Onlardan 3-ü dərnəyin məqsəd və vəzifələrinə, 6-sı isə slavistika sahəsindəki tədqiqatlara aid idi.

1-ci tezis dilin sistem olması ideasını əsaslandırmağa xidmət edirdi. Sistem daxilən bir-birinə bağlı olan, bir-birini şərtləndirən, bir-birindən asılı olan və biri digərindən ayrılıqda mövcud ola bilməyən eyni biçimli və həmcins ünsürlərin məcmusudur. Strukturalizm dili hierarxik təşkil olunmuş çoxşaxəli nizamlı düzümünü təşkil edən bütöv sayır. Onun hər bir yarusu nisbətən müstəqildir, sərbəstdir. Praqalıların funksional metodun tətbiqilə dilin sistem və struktur əlamətlərinin aşkar edilməsi ədəbi dil, fonologiya, diaxronik fonologiyada sistemliliyin olması və dil ittifaqı an-

layışlarının, habelə cümlənin aktual üzvlənməsi sahələrində yeni fikir və məktəblərin yaranmasına gətirib çıxartdı.[72]

Eyni zamanda onlar sinxron tədqiqata üstünlük verməyi əsas götürürlər, çünki o, dilin özəlliklərini açmağa imkan verir. Ancaq praqalılar sinxron metodu kəskin şəkildə diaxron metoddan ayırmırdılar. Bir tərəfdən dəyişiklikləri sistem daxilində nəzərdən keçirməyi, digər tərəfdən isə sinxronik təsvirdə, züsusilə stilistik və leksik araşdırmalarda diaxronik aspekti inkar etmək olmaz.

Praqalılar müqayisəli metodun təkcə diaxronik deyil, sinxronik məqsədlə də, yəni dilin struktur qanunlarının aşkar edilməsi üçün tətbiqini mümkün hesab edirdilər. Bu qanunlar ayrılıqda və dağınıq halda baş verən dəyişiklikləri müəyyən homogenetik qanunların inkişaf bağlılığı ilə izah edir.

İkinci tezis dil sisteminin tədqiqində vəzifələrin müəyyənləşməsilə bağlıdır. Buraya substansiya ilə formanın fərqləndirilməsi, obyektiv fiziki xassələrə malik səsin funksional sistemin üzvü olan dil vahidindən (fonemdən) fərqləndirilməsinin vacibliyi və sistem vahidlərinin statusunun (inventarın) və fnksional yükünün müəyyənləşməsi, sistemdaxili əlaqələrin aşkar edilməsi və hər bir dil vahidinin realizə imkanlarının (distribusiyasının) və onun qrammatik və leksik mənaların ifadəsində iştirakı, sözün işarəliviyi və onun sintaqmatik və paradiqmatik xüsusiyyətlərinin fərqləndirilməsinin vacibliyi və s. daxildir.

Beləliklə, Praqa Dilçilik Məktəbinin əsas tələbi dili sistem kimi götürmək və onun vahidlərini funksional baxımdan müəyyən etmək idi. Bu metodun geniş yayılmasında N.Trubeskoy, R.Yakobson, A.Martine (1908) və başqalarının xidmətləri danılmazdır. N.Trubeskoy dildə fonemlərin funksional statusunu müəyyənləşdirməklə, R.Yakobson diaxronik tədqiqatda sistem münasibətlərinin hökm sürdüyünü göstərməklə, A.Martine isə ikili üzvlənmə nəzəriyyəsildə bu metodun tətbiq dairəsini genişləndirə bildilər. Əslində

Amerika dilçilərinin işləyib hazırladığı distributiv təhlil metodu funksional metodun tərkib hissəsi kimi götürülə bilər. Çünki məhz distributiv təhlil metodu əksər hallarda dil vahidlərinin invariantlığını və variantlığını müəyyən etməkdə çox güclü instrumentdir.

Üçüncü tezis dil vahidlərinin emosional və kommunikativ funksiyasını poetik funksiyadan ayırmağın vacibliyini vurğulayır. Kommunikativ funksiya dilin ifadə vasitələrini ön plana çəkdiyi halda, poetik funksiyada daha çox işarənin özünə aid olub fərdin danışıq aktında yaradıcı fəaliyyətini əks etdirir.

III. Riyazi-statistik metod. Dilçilər çoxdan saymaq arzusundadırlar. Müasir ünsiyyət nəzəriyyəsi informasiya və ehtimal nəzəriyyəsilə üzvü surətdə bağlıdır. Bu gün elektron məlumat sistemlərində qənaətlə işləmək, maşınla tərcümə və dil işarələrinin avtomatik tanınması, verilən məlumatın diktofonla yazıya çevrilməsi və danışılanın gözlə görünməsini təmin etmək və s. kimi məsələlərin həlli dilçilərin dəqiq elmlər sahəsinin mütəxəssislərinə əməkdaşlığı nəticəsində mümkün ola bilər. Elə bu əməkdaşlığın nəticəsidir ki, stenoqrafik yazı sistemi və ya yazı makinalarının, habelə kompüter tastaturlarında hərflrin düzülüşü, onların işlənməsi tezliyinə uyğun olaraq verilir. Riyazi tədqiqat üsulu ilə dünya mütəfəkkirlərindən bəzilərinin (Dante, Şekspir, Göte, Puşkin və s. əsərlərin, habelə İncilin mətni statistik baxımdan geniş tədqiqata cəlb olunublar.[73]

Riyazi metodların dilçiliyə yol açması ən azı iki məqsəd güdür. Biri dil statistikası ilə bağlıdır, digəri isə cəbri və ya alqoritmik, yəni dilin müəyyən simvollarla təhlil etməkdən ibarətdir. İrəlidə biz törəmə qrammatikasından söhbət açacağıq. Transformasion təhlil riyazi dilçilik üçün nümunə ola bilər. O ki qaldı saymaqla hesablamağa, bu barədə burada bir az geniş məlumat vermək istərdik.

Qeyd edək ki, fonetika sahəsində hesablamalarla hər bir dil vahidinin funksional yükünün prinsipcə mümkünlü-

yünü hələ E. və K.Tsvirnerlər xüsusi qeyd etmişdilər.[74] Sonralar Praqa Dilçilik Məktəbi dil vahidlərinin statistik hesablamalarına xüsusi diqqət verirdi. Bunun təsdiqini biz N.S.Trubeskoyun tədqiqatlarında görə bilərik. O, fonemlərin işlənmə tezliyini və funksional yükünü konkret tədqiqatları ilə müəyyənləşdirə bilmişdi.[75]

Ancaq Amerika alimi Q.K.Tsipf (1902-1950) öz tədqiqatlarında dil vahidlərinin işlənmə tezliyi ilə sözün uzunluğu və ya əmələ gəlməsi arasında bir nisbət mövcudluğunu qeyd edir.[76] Daha az enerji sərf etməklə düzələn dil vahidləri daha yüksək işlənmə tezliyinə malikdir və ya daha qısa sözlər daha yüksək işlənmə tezliyinə malikdirlər. Digər tərəfdə az enerji ilə tələffüz edilən səslər daha çox işlənmə tezliyinə malikdirlər.

Tədqiqatlar göstərir ki, 50 minlik lüğətdə sözləri tezlik siyahısında düzsək, görərik ki, 15 ən çox işlənən söz istənilən mətndəki sözlərin 25%-ni, 100 ən çox işlənən söz onun 60%-ni və 1000 ən çox işlənən söz 85%-ni, 4000 söz isə istənilən mətnin 97,5%-ni təşkil edir. Bu hesablamalar xarici dilin tədrisini yenidən qurmaq, bu məqsədlə yazılan dərsliklərdə məhz daha çox işlənən sözlərdən istifadə olunmalıdır.

Statistik hesablamalar birmənalı şəkildə sübut etmişdir ki, yüksək işlənmə tezliyini ən qısa, daha qədim, morfoloji cəhətdən daha sadə və daha çox məna tutumu olan sözlər təşkil edir.

Statistik hesablamalar ayrı-ayrı müəlliflərin üslubunu müəyyənləşdirməkdə böyük rol oynayır. Hətta tarixi dilçilikdə də (elmi ədəbiyyatda buna «qlottoxronologiya» deyirlər) kəmiyyət kriteriyalarından istifadə olunur.

Ancaq hesablamalara başlamazdan əvvəl tədqiqatçı öz məqsədini müəyyənləşdirməlidir. Məs.: söz formaları (gut, guter, gute, gutes) bir vahid kimi götürülməlidirmi? Yoxsa onlar ayrı-ayrı sözlər kimi nəzərdən keçirilməlidir. Aydındır ki, məqsədən asılı olaraq aparılan tədqiqat fərqli nəticələr

verəcəkdir. Bütün bunları elmi ədəbiyyatdan tapıb öyrənmək olar.[77]

Məlumdur ki, sözün məlumat tutumu onun işlənməsi tezliyinə tərs mütənasibdir. Gözlənilmədən işlənən sözün məna tutumu daha böyükdür. Azərbaycan dilində /qatar/ sözündə /r/ fonemi heç bir informasiya daşımır, çünki bu sözdə /r/ samitindən başqa heç bir çamiğ işlənə bilməz. Ancaq /qar/ sözündəki /r/ müəyyən informasiya daşıyır, çünki bu mövqedə /l, n, z, t/ və s.-dən hər biri gələ bilər. Deməli, dil vahidinin seçilmə ehtimalı böyük olduqca, onun informativliyi də böyük olur. Odur ki, /qar/ sözündəki /r/ daha informativdir, çünki onun bu sözdə gəlmə ehtimalı dörddə birə bərabərdir. Başqa sözlə desək, /qatar/ sözündə axırıncı sammit tələffüz olunmasa belə, bu ünsiyyətə xələl gətirməz. Beləliklə, dildə müəyyən ünsiyyət məqamında hər hansı bir vahid deyilməsə də, məna pozulmur, sözü bərpa etmək olur. Bu informasiya nəzəriyyəsində redundant adlanır (məs.: /qata+r/. Dil vahidi buraxıldığı halda ünsiyyətin pozulması müşahidə olunarsa, buna revelant deyilir (məs.: /qa+r/). Kibernetikanın ən çox işlətdiyi məfhum entropiyadır. Entropiya fizikadan əxz edilib və hadisələrin qeyri-müəyyənliyini ölçmək üçün tətbiq edilən üsuldur. Məs.: alman dilində /p/ samitindən sonra /z/ fonemi /r/-ya nisbətən daha az ehtimal olunandır, çünki /pr/ fonem birləşməsi mümkündür, ancaq /pz/ mümkün deyil. Beləliklə, redundantlığı hesablamaq olar və küyün statistik əlamətlərini tədqiq etmək mümkündür. Amma bir şey xüsusi qeyd edilməlidir ki, redundant nəsə artıq bir şey kimi başa düşülməməlidir. Bəzən ünsiyyətdə redundant deyiləni başa düşmək üçün mühüm əhəmiyyət kəsb edir. Məs.: səsli-küylü danışıqda deyiləni başa düşməkdə bu əlamət son dərəcə əhəmiyyətlidir.[78]

Statistik tədqiqatlarda ehtimal nəzəriyyəsi mühüm rol oynayır. Bu yolla hər bir dil vahidinin işlənməsi ehtimalını müəyyənləşdirmək və proqnozlaşdırmaq mümkündür. Bu da maşınla tərcümədə vacib rol oynayır.[79]

Maşınla və ya avtomatik tərcümə bəşəriyyətin çoxdankı arzusudur. Təsəvvür edək ki, kompüterdə yazılmış hər hansı bir mətni bir qrafikdən o birisinə düyməni basmaqla nail olduğumuz kimi, tərcümədə də bir dilin mətnini o biri dilə bir düymə ilə çevirmək olardı.

Bu sahədə ilk cəhd 1933-cü ildə P.Petroviç Smirnov Troyanskiyə məxsusdur.[80] Sonralar bu ideya özünə daha çox tərəfdar tapdı. 1952-ci ildə Amerikada maşınla tərcüməyə həsr olunmuş 1-ci Konqress oldu. Özü də cəmisi 18 adam iştirak edirdi. Bu gün onların sayı məlum deyil. 1954-cü ildə N.Yorkda ilk nümayişi oldu. İBM-in təşkil etdiyi bu tədbirdə rus dilindən ingilis dilinə 250 sözlü 701 tərcümə nümayiş etdirildi. 1955-ci ildə Moskvada 952 ingilis sözlü mətn rus dilinə tərcümə edildi. 1956-cı ildə Moskvada maşınla tərcüməyə həsr edilmiş seminar oldu. Həmin ildə Amerikada Beynəlxalq Konqres keçirildi. Sonralar bu, ənənə halını aldı.

Son illərdə elektron hesablayıcı maşınların köməyilə müəyyən irəliləyiş müşahidə olunsa da, elə bir ciddi nəticələr əldə edilməyib. Bar-Hillelin səyləri yüksək qiymətləndirilir. Amma bu sahənin çox bahalı olduğunu nəzərə alsaq, mütəxəssislərin skepsizmi aydın olar. Bəlkə də süni dil burada daha sərfəli olardı. Bəzən sözbəsöz tərcüməni üstün tutanlar qramatikanı nəzərdən qaçırdıqlarından elə bir uğur qazana bilmirlər. Bəzən maşın dil kimi ara dildən istifadə etmək təklifləri də eşidilir. Bu, əsasən Rusiyada müşahidə olunur.

Son dövrlərdə avtomatik sintez və analizdən istifadə etməklə məsələni durğunluq nöqtəsindən tərpətmək istəyirlər. Avtomata sözlər və qaydalar verilir və bu yolla da mütəxəssislər törəmə qrammatikası ruhunda cümlələr düzəltməyə nail olurlar.

Məqsəd hər hansı cümlənin sintaktik konstruksiyasını tanımaqdan ibarətdir. Maşın öz yaddaşındakı göstəricilər əsasında cümlənin sintaktik strukturunu düzəldir. Bu za-

man cümlədə meydana gələ bilən ikimənalıq əvvəlcədən verilmiş qaydalar əsasında nəzərə alınır. Amma o da doğrudur ki, tərcümə maşınından öncə elə maşın düzəltmək lazımdır ki, o, bilgili olsun və düşünə bilsin.

4. Qarşılaşdırma-tutuşdurma metodu. German dillərinin geniş zəmində öyrənilməsi son illərdə yeni metodun meydana gəlməsinə və yayılmasına səbəb olmuşudur. Bu əsasən zamanın tələbi olaraq dillərin tədrisini yaxşılaşdırmaq məqsədi güdür. Xarici dili öyrənmək və o dildə danışmaq, müəyyən ünsiyyət vərdişlərinə yiyələnmək deməkdir. Öyrənilən dilin sistem və struktur xüsusiyyətlərini ana dilinin müvafiq qaydaları ilə müqayisə edib, onlar arasındakı fərqi və oxşar cəhətləri şüurlu şəkildə mənimsəməklə dilin öyrənilməsində uğur qazanmaq olar. Bu məsələləri həll etmək üçün son illərdə qarşılaşdırma-tutuşdurma metodundan gen-bol istifadə olunur. Bu zaman dillərin genetik qohum olub-olmaması önəmli deyil. Azərbaycan auditoriyasında alman, ingilis və ya hər hansı bir dilin tədrisi kontakta girən dillərin (Azərbaycan dililə ingilis, alman və ya başqa bir dilin) daima qarşılaşmasını və bu zaman ana dilinin təsirini minimuma endirmək üçün ana dilini tədrsin mərkəzində saxlamaq lazımdır. Fonloji, morfoloji, sintaktik və leksik səviyyələrdə öyrənilənlərin daha tez mənimsənilməsinə nail olmaq üçün birbaşa, şüurlu və intensiv ünsiyyət metodundan istifadə edilməlidir. Azərbaycan dilinin fonetik və fonoloji özəllikləri (ahənglik və həmahənglik), morfoloji layındakı iltisaqilik, sintaktik səviyyədə xəbərin bir qayda olaraq sonda gəlməsi alman və ingilis dilini öyrənən azıbaycanlının daim diqqət mərkəzində olmalıdır.

Qarşılaşdırma-tutuşdurma elmi tədqiqatların aparıcı metoduna çevirməkdədir. «Bu gün iki və çox dilli lüğətlərin tərtibi, transkripsiya və transliterasiya məsələləri, yazısı olmayan dillər üçün yararlı əlifbaların yaradılması kimi problemlər konfrontativ və konstrastiv dilçilik metodunun tətbiqi ilə alınan nəticələrdən səmərəli istifadə etməklə bilin-

qvizm və polilinqvizm, sosio- və psixoliqvizm tədqiqatların səviyyəsini yeni mərhələyə qaldırmaq mümkündür.

Bu cür yanaşma həmçinin dilöyrənənlərin gündəlik müraciət etdiyi üsuldur. Tədqiqatlarda dil sistemləri və ya sistemlərin layları qarşılaşdırılır, konfrontativ və kontrastiv əlamətlər üzə çıxarılır və bunun da əsasında sanballı əsərlər meydana gəlir. Özbək alimi C.B.Buranovun (1935) əsəri buna nümunə ola bilər.[81] Bu metod həm də didaktikanın sınanmış metoduna çevrilməkdədir. Bu gün qarşılaşdırma-tutuşdurma metodu ilə aparılan tədqiqatların içərisində A.V. İsaçenkonun fundamental tədqiqatları xüsusi yer tutur.[82]

Son illərdə (1908-0972) bizim respublikada bu istiqamətdə tədqiqatlara rast gəlmək olur. Məsələn, Azərbaycan türkcəsinin fonoloji sisteminin german dillərinin fonoloji sistemlərilə qaşılaşdırma-tutuşdurma üsulu ilə öyrənən dilçilərimizdən C.Cəfərov (1904-1987), A.Axundov (1983), S.Babayev (1932), T.Hidayətzadə (1926), C.Axundov (1932), C.Məmmədquliyev (1940-2000) və başqaları həm nəzəri, həm də konstrastiv dilçilik üçün çox maraqlı nəticələr əldə etmişlər.[83] Elə məhz bu işlərin nəticəsidir ki, Respublikamızda fonetika və fonologiyanın tədqiqi və tədrisi dilin o biri aspektlərinə nisbətən xeyli irəlidədir desək yanılmarıq.

## I.6. Dil-danışıq münasibətləri

Dilçilərin çoxu bu gün öz sələflərinin ideyalarının inkişafına və təbliğinə çalışır. 50-60-cı illərin araşdırmaları bu istiqamətdə geniş vüsət almışdı. Tədqiqatçılar arasında çox zərərli bir fikir yaranmışdı: Görəsən primat kimə məxsusdur? Məs., fonem anlayışının dilçiliyə gətirilməsində F. de Sössür, yoxsa İ.A. Boduen de Kurtene birinci idi? «Linqvistika öz tarixində müxtəlif hücum mərhələsini keçib: indi o, ayıq başla həm keçmişin nailiyyətlərini, həm də gələcəyə verəcəyi töhfələrin planlarını tutmalıdır».[84]

Aydın məsələdir ki, ənənəvi dilçilik çox qədim və çox-

tərəfli bir anlayışdır. Yuxarıda biz bu barədə bir qədər məlumat vermişik, lakin onun bütün qollarını açıb göstərmək üçün ayrıca əsər yazmaq lazımdır. Buna xeyli vaxt və hazırlıq tələb olunur. Sadəcə olaraq, «German dilçiliyinə giriş» fənnində biz bu ikili qarşılaşma üzərində geniş dayanacağıq. Amma ilk öncə qısa şəkildə çağdaş dilçiliyin tarixi inkişaf mərhələlərini burada verməklə bu elmin formalaşmasına aydınlıq gətirmək istərdik:

1. Platonun və Aristotelin cümlə strukturları, stoiklərin nitq hissələri haqqında nəzəriyyələri;
2. Orta əsrlərdə sxolastika cərəyanının adla onun mənası arasındakı əlaqəyə dair fikir və mülahizələri;
3. Dillə ruhun bağlılığı haqqında rasionalistlərlə empiriklər arasındakı 17-ci əsrə qədər davam edən mülahizələr;
4. 18-ci əsrdə qrammatikçilərin dil haqqında nəzəriyyələri;
5. 19-cu əsrdə dilin tarixi haqqında irəli sürülən təlimlər və nəzəriyyələr;
6. Dillərin genetik qohumluğuna dair tarixi-müqayisəli dilçiliyin nəzəriyyələri;
7. Dillərin yaranmasına dair naturalist, psixoloji və sosial təlimlər; «gənc qrammatikçilərin» təliminin mahiyyəti;
8. Dilin sistem və struktur əlaqələrinin vəhdət halında götürülməsinə dair nəzəriyyələr;
9. Funksional və struktur dilçilik təlimləri;
10. Tətbiqi və tipoloji dilçilik təlimləri;
11. Sosiolinqvistikanın işləyib hazırladığı nəzəriyyələr.

Aydındır ki, bu sadaladığımız nəzəriyyələri daha kiçik bölmələrə vermək olardı. Onlardan hər birinin öz müsbət və mənfi cəhəti var. Biz isə burada onları sadalamaqla kifayətləndik. Məlumdur ki, linqvistik tədqiqatda hər hansı bir fərdin danışığından, bir dildən, fərqi yoxdur, hansı dil olursa-olsun, başlamalıyıq (ingilisdən, almandan və s.) Burada dilin dini və fəlsəfi yozumuna toxunulmadı, «insan-maşın» və əksinə, ünsiyyətindən danışılmadı. Kitabın fonetika və

fonologiya bölməsində bu barədə məlumat veriləcək (bax: IV, V və VIII fəsillər).

Hər bir dialektin və fərdin dili ayrılıqda tədqiq edilməlidir. Bəziləri fikirləşir ki, onların danışığı sırf məhəlli və ya dialekt səviyyəsindədir, çoxları fizioloji defektlə danışır, qeyri-adi tələffüz nümayiş etdirir. Bunlar da nəzərdən qaçırılmamalıdır. Loqopediya, afaziya, patologiya və s. elm sahələri müştərək tədqiqatdan doğur. Milli azlıqların dilləri öyrənilməlidir. Belçikada, Hindistanda, Kanada və başqa yerlərdə milli azlıqların öz dilləri uğrunda mübarizəsi davam edir.[85]

Dil insana öz davranışını və başqalarının davranışını öyrənməyə kömək edir. Dil və təfəkkür əlaqəsi insana ruhunun açılmasına kömək edir. N.Xomski yazır ki, dil kompetensiyadır və kompetensiyanı həyata keçirmək vasitəsidir (Performance).

N.Xomskiyə mənbə kimi əsaslanaraq müasir dilçilər çağdaş linqvistikanı kompetensiya haqqında elm, əsrin birinci yarısındakı dilçiliyi dil strukturu, 19-cu əsr dilçiliyini isə dil tarixinin linqvistikası adlandırırlar.[86] F.de Sössür dil fəaliyyəti (language), konkret dil sistemi (langue) və danışıq (parole) konsepsiyasından çıxış edirdisə, N.Xomski səriştəni (kompetensiyanı) və onun bilavasitə tətbiqini (performance) əsas götürür. Birinci dildə danışa bilmək üçün tarixən əldə edilmiş müəyyən bilgilərdirsə, ikincisi həmin biliklərin bilavasitə danışıqda öz əksini tapmasıdır. N. Xomski biliklə, yəni adamın biliyi və bu biliklər səriştəsi ilə həmin biliyin danışıqda həyata keçirilməsini aydın fərqləndirir.[87] E.Koseriunun (1921-2002) fikrincə, N.Xomskinin terminləri daha tutarlıdır. F. de Sössürün langue-si əslində forma və məzmunun, həmçinin onlara uyğun gələn struktur və paradiqmlərin statik sistemidir.[88] F. de Sössürdə müəyyən bir forma və müəyyən bir məna var. Xomskinin kompetensiyası isə, bunun əksinə olaraq, daha çox operativ və dinamik dərk oluna bilən qaydalar sistemidir. Söhbət konkret olaraq dil

formaları və strukturlarının, əsasən də cümlələrin danışığa gətirilməsi üçün edilən əməliyyatlardan gedir.[89]

Doğrudan da, danışıq F. de Sössürə görə dilin realizasiyasıdırsa, N.Xomskiyə görə performans kompetensiyanın həyata keçirilməsidir.

E.Koseriu öz tədqiqatlarında göstərir ki, əslində langue/parole qarşılaşması çox qədimdən bəlli idi və bu fərqləndirmənin tarixən üç tipi məlumdur:

*1. İntuitiv.*

Müq.et:

| alm. d. | fr. d. | ing. d. | rus. d. | |
|---|---|---|---|---|
| Sprache | langue | language | язык | |
| Rede | parole | speech | речь | və s. |

Burda bəzən «dil nədir?» sualı veriləndə artıq söhbət ümumbəşəri və bir ünsiyyət vasitəsi olan dildən gedir.

2. *Praktik olaraq dil fənləri bu fərqləndirməni müəyyən dərəcədə əks etdirir.* Məs., qrammatika, ritorika, langue/parole. Bu bölgüyə görə langue hər hansı bir dildir, parole isə həmin dilin danışıqda təcəssümüdür. F. de Sössürə görə onların ikisinin cəmi langage-ı təşkil etməlidir. E.Koseriu güman edir ki, bu bölgü qüsurludur, çünki assimmetrikdir. Məsələ burasındadır ki, langue-ın heç də hamısı parol-da öz təcəssümünü tapmır.[90]

İngilis alimi A.Qardinerə görə isə „speech“ bütün dil fəaliyyətini əks etdirir, „language“ isə danışıqda özünü büruzə verən həm bilikdir, həm də elmdir. Qrammatikada ümumi sistem və strukturdan, ritorikada isə necə danışmaq qaydalarından söhbət gedir. Hələ bundan başqa bir elm də ayırırdılar, dialektologia, o da dialektlərin incəliklərindən bəhs edirdi.

Danışıqla (parole) dili (langue) elmi-nəzəri baxımdan ilk dəfə fərqləndirən alman alimi V. fon Humboldt olmuş-

dur. Yava adasında yaşayan kavilərin dili haqqında „Kawiwerk“ adlı 1836-cı ildə ölümündən bir il sonra çap edilən əsərinə girişdə[91] o yazmışdı: «Dilə yalnız ölü bir produkt kimi deyil, daha çox yaranan bir şey kimi baxmaq lazımdır. O, özlüyündə alət deyil (Ergon), əksinə fəaliyyətdir (Energeia)“.

Göründüyü kimi, bu böyük alim dilə hazır produkt kimi deyil, fəaliyyət kimi yanaşır. V. fon Humboldtun fəaliyyət sözünə əlavə etdiyi energeya anlayışı yaradıcılıqda əldə olunmuş bilik, bacarıq və vərdişlər sahəsindəki səriştəni (Xomskinin kompetensiyası-F.Y.) və onların bilavasitə danışığa tətbiqini bildirir. Bu böyük alim bütöv danışıqda, ümumiyyətlə, konkret bir dili və hər dəfə bu biliyin realizasiyasını bir-birindən ayırmağı tövsiyyə edirdi.

Energeya nəinki təkcə danışıqdır, o həm də dildir, o, dili də, danışığı da əhatə edir, o, həmçinin konkret danışığın bir hissəsidir. Beləliklə, danışıq başdan ayağa, yəni insanın danışıq fəaliyyəti hər hansı bir dil və hər dəfəki konkret danışıq F. de Sössürün sonralar fərqləndirdiyi langage, langue, parole anlayışlarına tam uyğundur.[92]

E.Koseriu daha sonra yazır ki, elmi cəhətdən bu fərqləndirməni bir qədər sonra, yəni hələ 1842-ci ildə danimarkalı alim Y.N.Madviq (1804-1886) özünün «Dilin həyatı, inkişafı və mahiyyəti haqqında» rektorluqdakı çıxışında dilçilər qarşısında bir tələb kimi irəli sürmüşdü və həmin çıxışında bu dilçi V. fon Humboldta istinad etmişdi.

Nəhayət, XX əsr dilçiliyini lərzəyə salan bu «dil-danışıq» dixotomiyasını 1891-ci ildə çap etdirdiyi «Die Sprachwissenschaft. Ihre Aufgaben, Methoden und bisherigen Ergebnisse»[93] adlı əsərində məşhur alman sinoloqu Q. fon der Qabelents (1840-1893) elmi cəhətdən aydın və dolğun şəkildə əsaslandıra bilmişdir.

Q. fon de Qabelentsə görə, dil hər hansı bir fikrin konkret ifadə vasitəsidir, hadisədir, yəni danışıqdır.

Dil (Rede) hər cür fikirləri idarə etmək üçün belə ifa-

dələrin vahid məcmusudur. Bu mənada biz hər hansı bir xalqın, zümrənin, yazıçının dilindən (Sprache) danışırıq. Bu o deməkdir ki, dil xalqın təkcə bütün danışıqlarının cəmi deyil, həm də o, daha çox danışığın formasını və məzmununu müəyyənləşdirdiyi bacarıq, meyl və predmet təsəvvürlərinin məcmusudur. Və nəhayət, dil hüquq və dində olduğu kimi insanların ümumi sərvətidir (Vermögen). Nəzərdə tutulur ki, bütün xalqların fikirlərini ifadə edə biləcəkləri dil (Sprachvermögen) vardır.

Q. fon der Qabelents dilin öyrənilməsini belə açır:

Dil
- Danışıq (Rede) - konkret dildə tədqiqatlar.
- Fərdi dil (Einzelsprache) - geneoloji tarixi tədqiqatlar.
- Dil səriştəsi (Sprachvermögen) - ümumi dilçilik tədqiqatları.

Elm dedikdə bu alim onda nəyin təsvir ediləcəyini deyil, elmlə nəyin izah ediləcəyini başa düşür. Məs., niyə almanlar özlərinə «deutsch» deyirlər? Cavab belə olardı: çünki onlar belə deyirlər, tədqiqat bunu belə izah edir. Sual olunsa ki, nədən almanlar özlərini başqa cür yox, məhz belə adlandırırlar, onda bu artıq konkret bir dilin geneoloji-tarixi tədqiqi zəminində izah olunmalıdır.

Üçüncü elm sahəsi də dil səriştəliyini tədqiq etməlidir. Q.fon der Qabelentsə görə, danışıq konkret bir dilin təcəssümüdür. Danışıq yalnız bir dil daxilində seçmə azadlığına malikdir. Bir dildən kənara çıxmaq başqa bir dilin sisteminə keçmək deməkdir. Konkret bir dil ümumilikdə götürülən dilin müəyyən vəziyyətidir. Yəni onun sinxron durumudur. Bu mənada bir dilin tədqiqi həmin bu vəziyyət çərçivəsində olmalıdır. Dilin konkret bir zaman kəsiyində durumu onun sistemini əks etdirir. Ərazi və digər fərqlənmələr sistem xüsusiyyətlərinin tədqiqində nəzərə alınmamalıdır.[94]

E.Koseriu «Kompetensiya hər hansı bir dillə eynidir-

mi?», «Danışıqda realizə olunan dil bütöv bir sistem kimi götürülən dil vəziyyətinin tam eynidirmi?» və ya «Bir dil kimi və ya dil vəziyyəti kimi götürülən kompetensiya dil sisteminə uyğun gəlirmi?» suallarının hamısına mənfi cavab verir. Başqa sözlə, onlar arasında bərabərlik işarəsi qoymaq olmaz. Artıq «Sistem, norma və danışıq» əsərində E.Koseriu göstərirdi ki, bütün danışığı o, nitq adlandırmır, yalnız hər bir vahidi reallaşdığına görə, dilin təcəssümü olan danışığı nitq adlandırır. Yəni müəyyən normaya və normanın da müəyyən dil sisteminə uyğun gəldiyi nitqdən söhbət gedir.[95]

Dil, tarixi baxımdan mənəvi irsdir. O, dil daşıyıcılarının hamısının danışdığı və başqa dildən fərqlənən bir dil kimi tanıdığı instrumentdir. Hər dilin bu mənada öz yeri var: alman, ingilis, azəri türkcəsi və s.

Dilin öz tarixi hüdudları olduğu halda ailənin, yazıçının və ya bölgənin dilini şərti olaraq hüdudlandıra bilmərik. Tarixən dil tək bir dil sistemi olmayıb, qismən müxtəlif dil sistemlərinin şəbəkəsidir (Gefüge), toplusudur. Onda fonetik, qrammatik və leksik fərqlər nəzərə çarpır. Qismən fərqlənən, lakin tarixən bağlı olan dil sistemlərini tarixi dil baxımından üç cür fərqləndirmək olar:

1. Məkan, yer, ərazi fərqləri, yəni dildə dialektlərin mövcudluğu. Yerlə bağlı fərqləri diatopik, amma bütövlüyü sintopik adlandırırlar.

2. İctimai-mədəni baxımdan müxtəlif dil layları və səviyyələri fərqlənir ki, bu fərqləri diastratik, eyniliyi isə sinstratik adlandırırlar.

3. Dil sistemləri ekspressivliyilə fərqlənir, müxtəlif danışıq məqamları və buna müvafiq dil üslubları mövcud olur. Müxtəlifliyə diafatik, eyniliyə isə sinfatik deyirlər.

Yekunlaşdırsaq, deyə bilərik ki, tarixən dil müxtəlif dialektlərin, dil səviyyələrinin və üslublarının məcmusudur.[96]

Məs., şvab dialektini ayrıca bir dil kimi deyil, alman dilinin dialekti kimi götürürük. Deməli, biz sintopik tədqiqatla məşğuluq. Biz hər hansı bir zümrənin, məs., ziyalıla-

rın, sürücülərin dilini vahid bir dilin müxtəlif səviyyələri kimi nəzərdən keçiririksə, biz sinstratik tədqiqatla məşğul oluruq və nəhayət, biz yalnız bir dil üslubunu nəzərdən keçiririksə, onda bizim tədqiqatımız sinfatik olur. Bütün bunların əksini etmiş olsaq, onda birinci halda biz diatopik, ikinci halda diastratik və nəhayət, üçüncü halda diafatik tədqiqatla məşğul olmuş oluruq.

Sözsüz ki, hər bir sintopik, sinstratik və sinfatik istiqamətdə diatopik, diastratik və diafatik tədqiqat istiqamətini götürmək olar. Şvab dialektinin içərisində ləhcə fərqləri, hər bir dil səviyyəsinin içərisində digər sosiomədəni səviyyələr axtarsaq və ya bir ailə danışıq üslubunda digər incəliklərə varsaq, bu, dediyimizə misal ola bilər. Amma tarixən hər bir dil diatopik, diastratik və diafatik bütövdür.

Dialekt rəngarəngliyi olmayan, yalnız bir dil üslubu olan canlı bir dil kimi götürülə bilməz. Bütün səviyyələrdə yalnız birjə üslub işlənirsə, deməli bu, ölü dildir, çünki o, artıq başqa dilə keçir. Latın dili orta əsrlərdən bəri Avropada məhz həmin rolu oynayır.

Yalnız funksional dil bütün baxımlardan vahid dil sistemi ola bilər, yəni həm sintopik, həm sinstratik, həm də sinfatik ola bilər. Başqa sözlə bu tam müəyyən bir səviyyədə, tam müəyyən bir üslubda işlənən dialekt fövqündə olan bir dil olmalıdır, çünki danışıqda çıxış edən sözün tam mənasında yalnız bu dildir.

Tarixən baxanda heç vaxt bu cür funksional dil bir dialekt çərçivəsində sıxılıb qala bilməz. Almaniyanın tarixində Bavariya, şvab, digər alman dialektləri olub. Heç kəs eyni zamanda bir neçə dialektdə müxtəlif səviyyədə və üslubda danışa bilməz. Hər kəs funksional dildən istifadə edir. Ola bilsin ki, danışıqda kimsə mətnin bir yerində şvab dialektindən istifadə etsin və ya hər hansı bir səviyyədə və stildə danışsın. Bunlar yalnız danışanın ifadə etdiyi fikrə bəslədiyi münasibət, mətni, dövrü öz mənəvi səviyyəsi baxımından aydın nəzərə çarpdırmaq istəyindən irəli gələ bilər.

Ən müasir dilləri belə (alman ədəbi dili, standart ingilis dili) diatopik və diastratik fərqlərdən uzaq olsa da, onlarda diafatik fərq çox böyükdür, çünki onlar müxtəlif danışıq məqamlarında işlənir.

Həmin bu vahid funksional dili öz obyektimiz kimi götürürük. Ancaq dil sistemini müəyyənləşdirmək üçün biz danışığa müraciət etməliyik, yalnız danışığı obyekt kimi müşahidə edərək dil sistemi haqqında normadan keçməklə müəyyən biliklər əldə etmək mümkündür. Konkret bir dil kompetensiyası, dil vəziyyəti, dil sistemi yalnız funksional dilə əsaslanaraq fonetik, fonoloji, qrammatik və leksik baxımdan tədqiq oluna bilər ki, bu da funksional ədildə, dediyimiz kimi, normadan süzülərək danışıqda öz təcəssümünü tapa bilir.

## 1.7. Transkripsiya və onun rolu

Dilçinin məqsədi ünsiyyət prosesində yaranan və ya nə vaxtsa yaranmış mətnin linqvistik xüsusiyyətlərini açıb göstərməkdir. Burada iki mənbə mövcud ola bilər: 1. Dildəki yazılı abidələr, məs., qədim alman dilindəki «Nibelunqlar haqqında dastan», «Hildebrand nəğməsi», «Strasburq andı», «İncilin tərcüməsi» və s. sənədlər, qaynaqlar, müasir mətnlər, roman və hekayələr, yazışmalar buna misal ola bilər; 2. Canlı danışıq, telefon danışığı, monoloq və dialoqlar, radio və televiziya verilişləri və s. Qeyd edək ki, hər iki halda linqvistik tədqiqatın məqsədindən asılı olaraq mətnlərin xüsusi yazı növü olan fonetik işarələrlə transkripsiya[97] edilməsinə ehtiyac duyulur. Unutmaq olmaz ki, dilin yazılı forması ikinci (sekundar) olduğundan çox mühafizəkardır. F. de Sössür deyəndə ki, dil işarələr sistemidir və elə buna görə də o, semiotikaya daxildir, dilin yazılı formasını da nəzərə almışdı, çünki danışığın xüsusi işarələrlə verilməsinə xidmət edən yazı ikinci olsa da, əsl semiotik sistemdir.

Bəşər tarixi həmişə fonoqrafik yazıya can atıb, çünki

o, əsl ideal yazıdır. Bu halda dilin ən kiçik vahidi - fonem yazıda bir qrafemlə verilir. İkonik (piktoqramm) yazı hər sözü ayrı-ayrı şəkillərlə verirdisə, ümumi anlayış və təsəvvürləri göstərmək, öz obyektinə oxşamağa can atan yazı ideoqrafik (ideoqramlar), həm də mücərrədləşmə prosesi demək idi, yəni ideyalar göstərmək məqsədi güdürdü.

Bu axırıncı yazının mürəkkəbliyi aydındır. Hər bir anlayış və təsəvvürə əlahiddə bir şəkil göstərməklə dildəki minlərlə sözləri necə vermək olar? Ancaq ideya və anlayışları deyil, sözləri verən bu yazı növünə loqoqram deyilir.

Hazırda çinlilər qədim misirlilər kimi heroqliflərdən istifadə edirlər. Bu, irəlidə adları çəkilən yazı növlərindən xeyli mütərəqqi idi və əslində sillabik yazıya yaponlar da yaxınlaşırdı. Ancaq finikiyalılar, ondan sonra isə etrusklar, yunanlar və latınlar dünyanın bir çox yerində işlənən fonoqrafik yazını kəşf etmişlər. İngilis alimi S.Potter yazır: «Romanlar yunan yazısı ilə ilk olaraq etruskların vasitəsilə tanış olublar və bu əlifba birbaşa (in due course) Britaniyaya keçirilmişdir».[98] Bundan öncə bütün germanlar 24 hərfli runik əlifbadan istifadə ediblər; almanlar 40 fonem üçün, „a, o, u“ üstünə iki nöqtə qoymaqla 26 qrafemdən istifadə ediblər.[99] Bu qrafemlərdən üçü (q, c və x) artıqdır, birincini və ikincini «k», üçüncünü isə «ks» qrafem birləşməsi ilə vermək olar. «y» da artıq görünür, ingilis dilindəki «c» -da /dz/ birləşməsilə verilə bilərdi.

Azərbaycan dilində də əlifba məsələsi çox uzun və keşməkeşli bir yol keçib. Nəhayət, 1992-ci ildə ikinci cəhdlə kirildən (IX əsrin ikinci yarısında yunan, latın və yəhudi əlifbaları əsasında K.Kirill (826-869) və Mefodinin (təxminən 815-885) yaratdığı slavyan əlifbasından) latına keçə bildik. Məlumdur ki, əlifba dilimizin yazıda verilməsi üçün istifadə etdiyi qrafemlərin sistemli şəkildə düzülüşüdür. Əksər hallarda, təəssüflər olsun ki, dillə əlifba eyniləşdirilir və bu zəmində də cəmiyyətdə sosial gərginlik yaranır.

Bu gün Azərbaycan əlifbasında lazımsız və yeri səhv

salınmış işarələr çoxdur. Öncə deməliyik ki, «ə» işarəsinə ehtiyac yox idi, çünki simmetrik olaraq «o» - «ö», «u» – «ü» idisə, «a» - «ä» olmalıydı. Fikrimizcə əlifbada «y» - ya ehtiyac yox idi, bunu «j» işarəsilə vermək daha düzgün olardı. Digər tərəfdən, «q» tam artıq bir işarədir. Biz hələ «g» və «ğ»- nı demirik: «k» - «k´», «g» - «ğ» olmalıydı.

Belə olduqda bir tərəfdən daxili simmetriya saxlanılmış olardı, digər tərəfdən də üç (̲", ̲ˇ, -,) işarənin köməyilə əlifbamızda qənaət prinsipinə əməl edilərdi:[100]

| Saitlərdə | Samitlərdə |
|---|---|
| «a»-/a/ → «ä»-/ə/ | «k»-/k/ → «k,» -/Ђ/, «s»-/s/→ «ş»- /ʃ/ |
| «o»-/o/ → «ö»-/ю/ | «g»-/g/ → «ğ» -/ɤ/, «c»-/dz/ → «ç»- /tʃ/ |
| «u»-/u / → «ü»-/ü/ | «j»- /c/ → «j» -/ʒ/ |

Lakin yuxarıda deyildiyi kimi, əlifbamız qəbul olunanda bəzi vəzifəli, nüfuzlu, lakin əlifba məsələlərində naşı adamların təkidi və təsirilə indiki calaq əlifba meydana gəldi. Güman edirik ki, gec-tez eyni prinsip qalib gələcək və əlifbamız yeni dəyişikliklərdən sonra təmiz və dolğun bir yazı sistemi şəklini alajaqdır.

Məlumdur ki, yazı ilə danışıq arasındakı ziddiyyətləri aradan qaldırmaq üçün ayrı-ayrı ölkələrdə vaxtaşırı orfoqrafiya[101] islahatları aparılır. Məs.: almanlar axırıncı dəfə 1901/02-ci illərdə orfoqrafiya islahatı aparmışdılar. Sonuncu islahat almandilli ölkələrin 1996-cı il 1 iyul tarixli niyyət protokoluna əsasən 80 yeni qaydadan ibarət olub, 1998-ci ilin avqustun 1-dən qüvvəyə minib. Almanlarda yazıda islahatlar keçirilməsinə səbəb ola biləcək faktlar kifayət qədər idi. Bu, bir tərəfdən, sözün ayrı, birgə və defislə yazılmasındakı qarışıqlıqlardan (əvvəl: irgend jemand, Freude strahlend, nicht öffentlich: indi: irgendjemand, freudestrahlend, nichtöffentlich və s.), digər tərəfdən, fonem-qrafem münasibətindəki müxtəlifliklərdən irəli gəlirdisə (əvvəl: naß, Fuß,

groß, Fluß, numerieren, rauh, selbstständig, Sauerstofflasjhe, indi qısa saitlərdən sonra „ss", uzun saitlərdən sonra „ß“ yazılır, yəni nass, Fluss, ancaq Fuß, groß, nummerieren, (çünki Nummer var, Sauerstoffflasche, rau, selbständig və s.), üçüncü tərəfdən, xarici mənşəli sözlərin yazılışındakı uyğunsuzluqlardan (əvvəl: Joghurt, Spaghettih, Bureau, indi isə Jogurt, Spagetti, Büro və s.) irəli gəlirdi.[102]

Yazı qaydalarında ciddi dəyişikliyə ehtiyac duyulursa da, ingilislər ənənəni pozmaqdan çəkinərək buna getmirlər. Güman edirlər ki, belə olduqda ingilis dili tamam parçalanar. İslahatı elə Şekspir (Shakespeare) adı ilə əsaslandırmaq olardı. Bəzi misallara müraciət edək: Whole, capital, colony, custom, but, centre, certain, circle, ingilislərdə plough, amerikanlarda plow, music, physic, chemical, chemist və s. enough, shower /şauə/, but, bower /bauə/ və s. quality, might-have-beens və s.

1755-ci ildə "Dictionary of the English Language" lüğətini çap etdirmiş[103] S.Consonla bağlı yazırlar: dr.Conson birinci həqiqi avtoritar leksikoqraf idi ki, ingilis orfoqrafiyasının yaxşılaşdırılmasında maraqlı deyildi.

Lakin yeddicə il sonra Fransız Akademik lüğətini 3-cü nəşrdə buraxanlar təxminən 5 minə yaxın sözün və ya fransız sözlüyünün ¼-də dəyişikliklər etmişdilər.

Ənənəvi dilçilik, yazı qaydalarında üç prinsip fərqləndirir. 1. Fonetik prinsip. Bu prinsipə görə, sözlər əsasən eşidildiyi kimi yazılır. Müq. et: alm.d.: /Tal/, /fünf/, /gut/; ing.d.: /ten/, /pen/, /it/; rus d.: /tom/, /dom/, /lom/; Azərb.d.: /baş/, /öeş/, /adam/ və s. Azərbaycan dilində sözlərin xeyli hissəsi bu prinsipə tabedir. 2. Morfoloji prinsip. Bu prinsipə görə sözdəki vəziyyətdən asılı olmayaraq morfem eyniliyi saxlanılır. Məs.: alm.d.: /Tag/, /täglich/, /Jahr/, /jährlich/, /Jahrhundert/ və s.; ing.d.: /teacher/, /teaching/, /become/, /becomming/; rus d.: /voda/, /vodovoz/, /vodenoy/ və s.; Azərb.d.: /baş/, /başçı/, /kənd/, /kəndçi/, /kirli/ və s. Rus və alman dillərində bu prinsip daha çox sözü əhatə edir. 3.

*Ənənəvi prinsip*. Deyilməsindən və morfoloji dəyişikliyə uğramasından asılı olmayaraq sözlər tarixən necə yazılırsa, o cür də qalmaqdadır. Müq. et: alm.d.: /Goethe/, /Melodie/, /Hannover/ və s.; ing.d.: /Shakespeare/, /London/, /enough/, /between/; rus d.: /ночь/, /печь/, /сечь/, /яйцо/ və s. Azərb. d.: /sirr/, /fənn/, və s. İngilis dilinin orfoqrafiyası daha çox bu prinsipə əsaslanır.

Orfoqrafiya bizi bir qədər əsas məsələdən yayındırır. Əsas məqsədimiz dilçi üçün vacib olan transkripsiyanın mahiyyətini açmaqdır. Bu yolla biz bütün bu kitab boyu istifadə edəcəyimiz yazı növü ilə oxucuları tanış edəcəyik. Dilçi istər tarixi abidənin dilini öyrənsin, istər müasir dili funksional, struktur və distributiv baxımdan tədqiq etsin, istər dialekt və sosiolekti öyrənsin, hər zaman transkripsiyadan istifadə etməlidir. Germanist /'Lant/ və /'lɛndəʀ/ sözlərindəki hansı fonemlərin olduğunu müəyyənləşdirirsə, onda o, fonoloji transkripsiyadan istifadə edir. „Land“ kimi yazılan sözdə /l/+/ɛ/+/a/+/n/+/t/ fonemləri olduğunu müəyyənləşdirən dilçi axtarışlarını davam etdirərkən görür ki, „Land“ „Lande" və „Länder“ sözlərində həmişə /d/ yazılsa da, onların deyilişi arasında fərq var. /`lant/, /`landə/, /`lɛndər/. Sonra biz „dünn və dann, „Lüge“ və „Lage” sözlərində də /d/ və /l/ foneminin əvvəlcə dodaqlanan [d°], [l°], sonra isə dilin arxaya çəkilməsilə [d] və [l] tələffüz edildiyinin şahidi oluruq. Yazı ilə danışıq arasındakı fərqləri daha böyük dil mətnlərində görə bilərik. Məs: alm.d.: "Wollen wir folgendes machen?"- /΄vo ve. fonts '"man//, ing.d.: I should be surprised if John and Mary were late. - /ai ʃu bi spraizd if dʒo.n meri wə leit//. Deməli, hər bir dil vahidinin real tələffüzündəki fonetik əlamətləri biz mütləq göstərməliyiksə, buna fonetik transkripsiya deyilir və nəhayət, bir transkripsiya növü də var ki, buna fonomorfoloji və ya morfonoloji transkripsiya deyilir. Bu transkripsiyada sözdəki morfemin bütün mümkün variantları öz əksini tapır. Məs.: /l ɛ/a n d/t

ə R /, yəni „Land“, „Lande“ və „Lɛndər“ kimi formaları mövcuddur.

Canlı danışığı obyekt kimi götürdüyümüzdən və funksional dil sistemi haqqında bilikləri həmin obyekti müşahidə və tədqiq yolu ilə əldə etdiyimizdən danışılanın yazıya alınması üçün müəyyən işarələrdən istifadə etməliyik. Danışıq aktında bütün fonetik xüsusiyyətlərin yazıya köçürülməsini biz yuxarıda transkripsiya adlandırdıq. Elmi ədəbiyyatda transkripsiyanın üç növündən istifadə edilir:

1. Fonetik (ingilislər buna allofonik və ya «narrow» transkripsiya deyirlər); 2. Fonoloji (ingilislər buna fonemik və ya «broad» transkripsiya deyirlər)[104];, 3. Fonomorfoloji. Birincidə eşidilən hər bir danışıq aktı nitq parçası və onun söz tərkibi fonetik incəliklərin hamısının nəzərə alınması ilə yazılır. Məs.:

/` İm ‿ ``zy:dən `herʃt ```Ru:ə//

Burada başlanğıjı (/) və sonu (//), sintaqmatik fasiləni və ayrı-ayrı fonemləri / i, m, z, y:, d, ə, n, h, ə, R, E, t, R, u:/ göstərən işarələri və vurğuları (söz vurğusu /`/, sintaqm vurğusu /``/, və cümlə vurğusu/```/ göstərən işarələrdən başqa həm də (?)- knaklaut, (̥)-samitin dodaqlanan tələffüzü və onun altından qoyulan (.) nöqtə isə əlavə fonetik informasiyanı - onun yarımcingiltili deyilməsini bildirir ki, bunları fonoloji transkripsiyada göstərməyə ehtiyac yoxdur. Beləliklə, yuxarıdakı parça fonoloji transkripsiyada belə olacaq:

/`İm ‿ ``zy:dən /`heRʃt ``` Ru:ə//

Fonoloji transkripsiya ifadənin, sözün və parçanın bütövlükdə fonem tərkibinin yazıda verilməsinə deyilir.

O ki qaldı fonomorfoloji transkripsiyaya, bu transkripsiyada amalqam morfemlər də daxil olmaqla hər bir morfemin tərkibindəki fonem əvəzlənməsinin nəzərə alınmaqla yazılışı deməkdir. Məs: /İn/m (de.m) `` zy:dən/ hɛRşt ```Ru:ə//

Biz bu əsərdə fonetik və fonoloji transkripsiyadan istifadə etdiyimizə görə ona qarışıq transkripsiya deyirik.

İstifadə edəcəyimiz qarışıq transkripsiya işarələrinin geniş şərhinə keçməzdən əvvəl transkripsiyanın yaranması və inkişafı haqqında bir qədər ətraflı danışmaq istərdik.

Beynəlxalq Fonetika Assosiasiyası ilk dəfə 1886 -cı ilin əvvəllərində Thi Fonetik Tîçerz Asociecon (FTA) adı altında „L` Association Phonetique des Professeurs d'Anglais" adlı cəmiyyətin əsasında yaranmışdır.

Xarici dilin real tələffüzündə uşaqlara köməklik göstərmək məqsədilə məktəbdə istifadə edilə biləcək fonetik işarələri sistem şəklində vermək üçün fransız P.Passinin (1859-1940) rəhbərliyi altında dil müəllimlərinin kiçik bir qrupu bir yerə gələrək bu cəmiyyəti yaradırlar. Sonradan fonetik yazı sistemi gənclərə də öyrədilməyə başladı. Bu məqsədlə cəmiyyət xarici ölkələrdən olan fonetistlərin hesabına genişlənməyə başlayır. Cəmiyyətin işində Danimarkadan O.Yespersen, Almaniyadan V. Fiyetor (1850-1918), Rusiyadan L.V.Şerba, İngiltərədən D.Counz (1881-1967) və digər məşhur alimlər yaxından iştirak ediblər. Artıq 1914-cü ildə Cəmiyyətin 8-ci yığıncağında 40 ölkədən 1751 üzvü vardı. 1889-cu ilin yanvarında cəmiyyətin adı dəyişərək „L` Association Phonetique des Professeurs de Langues Vivantes (AP)"[105] adlandırıldı. 1897-ci ildə „L`Association Phonetique Internationale(APİ)", ingiliscə „International Phonetics Association (İPA)" adlandı.

1886-cı ilin ilk aylarında məktəb müəllimlərinə fonetikanın təliminin texniki məsələlərindən bəhs edən xüsusi buraxılış həsr edilmişdi. Amma həmin ilin mayından „Dhi Fonetik Tiçer (FT)" adlı kiçik həcmli jurnal buraxılmağa başlandı, 1889-cu ilin yanvarından jurnal dəyişib „Le Maitre Phonetique (MF)" oldu. Həmin vaxtdan cəmiyyətin rəsmi dili fransız dili olur. Yalnız 1971-ci ildə „MF" çevrilir olur „The Journal of the International Phonetics Association (İPA)" və rəsmi dil olur ingilis dili. 1911-ci ildən "Şimal

küləyi və günəş" təmsili nümunə kimi bu yazı sistemində müxtəlif dillərdə nəşr edilməyə başladı.

Aşağıda dilin və dillərin fonetik təsvirində Beynəlxalq Fonetika Assosiasiyasının (İPA) 1886-cı ildə qəbul etdiyi fonetik işarələr sistemini və ona bəzi əlavələri veririk.

/ / - fonoloji transkripsiya işarəsi

[ ] - fonetik variantın işarəsi

„ „ - konkret səsi göstərir

« » - qrafem göstərməyə xidmət edir

/|/ - kiçik fasilə işarəsidir, sintaqmlar arasında işlənir

/||/ - böyük fasilə işarəsidir

/'/ - vurğu işarəsi, söz vurğusu

/"/ - qüvvətli vurğu, sintaqm vurğusu

/,/ - zəif vurğu, ikinji dərəjəli vurğu

/'"/ - cümlə vurğusu

/˘/ - vurğusuz hecanı göstərir

/|... ||/- terminal və ya bitkinlik intonasiyasının işarəsi

/¿...?/ - sual intonasiyasını bildirir

/⁝/ - fakültativ fasiləni bildirir

/‿/ - vurğulu sözdən əvvəl gələn vurğusuz sözü (proklitik) birləşdirməyə xidmət edən işarə. Eynilə vurğusuz sözdən sonra gələn vurğusuz sözü (enklitik) birləşdirir.

/⊥/ - dilin yuxarı qalxması

/t/ - dilin aşağı düşməsi

/*/ - samitin altından qoyulur, karlaşmanı bildirir

/°/ - dodaqlanma, saitin və ya samitin üzərinə sağdan yuxarıdan qoyulur

/ '/ - yumşalma, samitin üzərinə yuxarıdan sağdan qoyulur

/ʰ/ - nəfəslilik, samitin üzərinə yuxarıdan sağdan qoyulur

/←/ - irəliçəkilmə, səsin altında qoyulur

/→/ - geriçəkilmə, səsin altında qoyulur

/:/ - uzunluq işarəsi, səsin yanında qoyulur

/ ./ - yarımuzunluq, səsin yanında qoyulur

/~/ - burunlaşma, səsin üstündə qoyulur

/◦/ - samitin altında qoyulur, heja əmələ gətirməni bildirir

/C/ - samit

/V/ - sait

/→/ - keçmə işarəsi
/ˀ/ - sərt başlanğıc, alman dilində buna knaklaut deyirlər
/∨/ - eksplozivlik
/∧/ - implozivlik
/↗/ - tonun qalxması
/↘/ - tonun düşməsi

Burada bir məsələyə də toxunmağı vacib bildik. Danışıqda deyiliş məqamı, şəraiti və məqsədi tələffüzə ciddi təsir göstərir. Adi danışıqda biz tələffüzümüzə ciddi fikir vermirik. Ona görə də danışıq üslubumuz yüksək sürətlə səciyyələnir, bunun da nəticəsi olaraq vurğusuz hecaların güclü reduksiyaya[106] uğraması baş verir. Sürət yüksək olur, fasiləyə yer qalmır. Eyni qrupdan olan insanlar asan anlaşırlar. Özü də hər bir sosial qrupun (sosiolektin) danışıq xüsusiyyətləri (sürücülər, tikinti işçiləri, məişət işçiləri, jurnalistlər, müəllimlər, həkimlər, dövlət məmurları, bunlara professionalizm[107] də deyirlər) əsaslı şəkildə fərqlənir. Bəzən onlar bir-birini başa düşmür. Danışıq üslubuna dialektizmlər[108] daxil deyildir. Danışıq üslubundan sonra ikinci yerdə qarşılıqlı anlaşma tələffüzü üslubu gəlir. Burada danışıq sürəti orta olur, reduksiya bir qədər zəifdir, vurğu və intonasiya aydın eşidilir. Sait-samit münasibəti tam gözlənilməsə də, nitq zəncirində vurğusuz saitlərin murmel [ə]-yə meyli güclü olur. Müasir ingilis və alman dillərində vurğusuz hecalarda keyfiyyətin zəifləməsi və ümumiyyətlə, bütün vurğusuz saitlərin neytral [ə] saitində mərkəzləşməsi bu dillərin fonetik qurumundakı meyli aydın əks etdirir[109] və nəhayət, Hochlautung, ingiliscə Queen's English və RP (received pronunciation) tələffüz üslubu var ki, bu zaman sait və samitlər tam aydın məxrəcdə tələffüz edilir, heca reduksiyası yox dərəcəsindədir, fakültativ və sintaqmatik fasilələr kifayət qədərdir, vurğu və intonasiya səlis və aydın eşidilir. Cəmiyyətin yuxarı hakimiyyət dairələrindən tutmuş, məclis, iclas, mühazirə, radio, televiziya, mətbuat bu üslubda fəaliyyət göstərir. Bizim fəaliyyət dairəmiz ədəbi

danışıq üslubunda olduğundan biz əsasən ədəbi dili mükəmməl öyrənməli (xüsusən aşağı kurslarda), sonra isə nitqimizi adi danışıq üslubuna qədər inkişaf etdirməliyik. Elə buna görə də burada qarışıq transkripsiyadan – fonetik və fonolojidən birgə istifadə edəcəyik. Sxematik olaraq bunu belə göstərmək olar:



**Ədəbi danışıq üslubu**
**Anlaşıqlı danışıq üslubu**
**Adi danışıq üslubu**
**Ümumxalq danışıq üslubu**

İndi də BFC[110]-nin 1996-cı ildə qəbul elədiyi son variant əsasında alman, ingilis, daç və Azərbaycan dillərindəki fonoloji sistemi əks etdirən işarələri burda vermək yerinə düşərdi.

Samitlər:

/p/-kipləşən- partlayışlı, qoşadodaq, kar.
alm.: Puppe, ing.: part, daç: pen, azərb.: pir.
/b/ -kipləşən-partlayışlı, qoşadodaq, cingiltili
alm.: Bus, ing.:boy, daç: ben, azərb.: bir.
/m/-kipləşən- partlayışlı, qoşadodaq, burun, sonor
alm.: man, ing.: man, daç: mens, azərb.: mən.
/f/- novlu, dodaq, kar,
alm.: vier,ing.: four, daç: fiets, azərb.: fil.
/v/-novlu, dodaq, cingiltili
alm.:Wein, ing.: vine, daç: vang, azərb.: vəkil.
/w/-novlu, dodaq
ing.: why.
/p͜f/-kipləşən-partlayışlı, dodaq, kar
alm.: Pferd.
/d/- kipləşən-partlayışlı, dilönü, cingiltili
alm.: Dach, ing.: die, daç: dak, azərb.: duz.
/t/ -kipləşən-partlayışlı, dilönü, kar

alm.: Tag, ing.: tie, daç: tak- budaq, azərb.: tel.
/þ/-novlu, dil-diş, kar
ing.: thigh- yambız.
/ð/-novlu, dil-diş, cingiltili
ing.: they- onlar.
/n/-dilönü, sonant
alm.: nah, ing.: night, daç: nek- peysər, azərb.: nə?
/s/-dilönü, novlu, kar
alm.:essen, ing.: sigh, daç: sok-corab, azərb.: sən.
/z/-dilönü, novlu, cingiltili
alm.: Saat, ing.: busy, daç: zeep- sabun, azərb.: zər.
/r/-dilönü, titrək, sonant
ing.: rye- arpa, daç: rat- siçovul. azərb.: rəf.
/l/-dilyanı, süzülən, sonant
alm.: Land, ing.: land, daç: land, azərb.: ləng.
/ʃ/-dilönü, novlu, kar
alm.:Schule, ing.:shine, daç: schol/ʃx/, azərb.: şal.
/ʒ/-dilönü, novlu, cingiltili
alm.: Garage, ing.: azure, daç: jury, azərb.: jalə.
/tʃ/-dilönü, kipləşən-novlu, kar
alm.: Deutsch, ing.: child, daç: ketjap/kecap/-keçub, azərb.: çilə.
/t͜s/- dilönü, kipləşən-novlu, kar
alm.:-zehn.
/d͜ʒ/- dilönü, kipləşən-novlu, cingiltili
ing.:Jones, azərb.: cəza.
/j/- dilortası, novlu, cingiltili
alm.:Jahr, ing.:yes, daç: jasmaker, azərb.: yox.
/ç/- dilortası, novlu, kar
alm.: ich.
/k/- dilarxası, kipləşən-partlayışlı, kar
alm.:Krug, ing.: cold, daç: kat, azərb.:kanal.
/g/- dilarxası, kipləşən-partlayışlı, cingiltili
alm.:Garten, ing.: garden, azərb.: qart.

/ŋ/- dilarxası, kipləşən-partlayışlı, sonant
alm.: Gesang, ing.:song, daç: eng-dar.
/x/- dilarxası, novlu, kar
alm.:lachen, daç: gat/xat/- deşik, azərb.: xala.
/ʀ/- dilçək, titrək, sonant
alm.:Rache.
/h/- udlaq, novlu, kar
alm.:Hand, ing.: hand, daç: had/hut/, azərb.:hava.
/dʒ/- dilönü, kipləşən-partlayışlı, sonant
daç: orange/oraɲʒ/ narıncı.
/ђ/- dilortası, kipləşən-partlayışlı, cingiltili,
azərb.: gənə.
/ɣ/- dilarxası, novlu, cingiltili
azərb.:bağa.
/˃/- xirtdək, kipləşən-partlayışlı, kar[111]
alm.: Abend, daç: beamen- təsdiq etmək.

Beləliklə, yuxarıda verdiyimiz işarələrin əksəriyyəti təhlilə cəlb olunan bütün dillərdə, bəziləri isə yalnız bir dildə işlənir.

| Bütün dillərdə işlənənlər | | Yalnız bir dildə işlənənlər |
|---|---|---|
| /p/, /b/, /d/, /t/, /m/ | alm. | /p‿f/, /ç/, /R/, /z/, /t‿s/,/ŋ/, /x/ |
| /v/, /f/, /n/, /s/, /z/ | ing. | /w/, /θ/, /ð/, /d‿ʒ/, /ʍ /, /η/ |
| /r/, /l/, /ʃ/, /ʒ/, /t‿ʃ/,([č]) | daç | /ɲ/, /z/, /ɂ/,/ŋ/, /x/ |
| /j/, /k/, /g/, /h/ | azərb | /Ђ/, /ɣ/, /d‿ʒ/, /x/ |

Əlbəttə, biz burada fiziki varlığı, yəni öz keyfiyyətilə digərlərindən seçilən fonemlərdən danışırıq. Əslində hər bir dildə insan n qədər səs deyə bilir. Bir misalla fikrimizi izah edək. /t‿s/ yalnız alman dilində təmsil olunub, bu o demək deyil ki, ingilis, daç və ya azərbaycanlılar /t‿s/ səsini deyə bilmirlər. Sadəcə olaraq bu dillərdə /t‿s/ ayrıca bir bütöv

kimi olmasa da, /t+s/ birləşməsi kimi gələ bilir. Məsələn, ingilis dilində /sait+s/, daç dilində /segment+s/, Azərbaycan dilində /ət+siz/ və s. mümkündür. Bu barədə irəlidə söhbət gedəcək. İndi isə saitlərin hansı işarələrlə verilməsindən danışaq.

Monoftonqlar:

| Səs-lər | Alman | ing. | D a ç[109] | | | Azərb |
|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | 3 | |
| /⊥/ | Bin | bid | Bit | | | Biz |
| /i:/ | Bier | bead | - | Analyse | | |
| /ɛ/ | Bett | bed | bed | - | | bel |
| /æ/ | - | bad | | | | |
| /e:/ | Beet | bed | bed | Beet | serre | əl |
| /a/ | - | - | - | | | |
| /o/ | Sonne | pod | bot | | zone | - |
| /o:/ | Sohn | bode | | Boot | | boş |
| /u/ | Mund | good | | Hoed | | ulu |
| /u:/ | Uhr | hood | | | cruise | |
| /ʌ/ | | but | bad | | aeure | |
| /ə/ | - | bird | | | | əl |
| /a/ | Band | - | | Road | | baş |
| /a:/ | Abend | - | | | | |
| /ü/ | dğnn | | hut | | | gün |
| /u:/ | Bğhne | | | | | |
| /u/ | | | | | centu-fuge | |
| **/œ/** | Mürder | | neus | Oeuvre | fuut | göz |
| /ø/ | büse | | | | | |
| /ı/ | | | | | | qız |
| [ə] | be, ge | an | | | | |

Diftonqlar isə bunlardır:

| | | |
|---|---|---|
| /æ/ - Ei | /ei/ - bay | /εi/ - ei |
| /a͜o/ - Haus | /зʊ/ - no | /εə/- fair |
| /ɔ͜ø/ - heute | /ai/ - tie | /ou/ - sold |
| | /iə/ hear | /ʊə/-poor |
| | /ɔ͜i /-ihn | /aʊ/-now |

Söz yox ki, hər dildə hər bir saitin son dərəcə müxtəlif çalarları var və Beynəlxalq Fonetika Əlifbası bunları bildirmək üçün müxtəlif diakritik işarələrdən istifadə edir.

## I.8. Girişə dair yoxlama sualları və tapşırıqlar

1. Kursun məqsəd və vəzifələri hansılardır?
2. Kursun kadr hazırlığında yeri və əhəmiyyəti nədən ibarətdir?
3. Kursun hansı elm sahələri ilə əlaqəsi var?
4. Kursun obyekti və predmeti nədir?
5. Kursun tədqiqat metodları hansılardır?
6. Tədqiqat metodlarını konkret dil materialları ilə açıb göstərin.
7. Dil-danışıq münasibətlərini konkret misallarla açmağa çalışın. Bu münasibətlərə dair ayrı-ayrı dilçilərin mülahizələrini təhlil edin.
8. Transkripsiya nədir? Onun hansı növləri var? Mətni transkripsiya edin.
9. Alman və ingilis dillərinin fonem sistemlərini cədvəl şəklində verin.
10. Diakritik işarələr hansı işarələrə deyilir?
11. «Giriş»də adı çəkilən alimləri əlifba sırası ilə düzün, onlar haqqında bildiklərinizi seminarda nəql edin.

[1] Roman dillərindən ispanca 210, porquqalca 115, fransızca 90, italyanca 60, rumınca 22, german dillərindən ingiliscə 320, almanca 110, daçca 19 milyon adam danışır.Bu barədə bax.H.Gross. Einführung in die germanistisdhe. Linguistik. München, 1990, s. 178.

[2] R.Jakobson. N.S.Trubetzkoys Letters and Notes. Mouton, 1985, s.4

[3] Germanist (romanist) german (roman) sözkökünə –ist şəkilçisi artırmaqla düzəlir və german (roman) dilləri və ədəbiyyatları üzrə mütəxəssis deməkdir. Başqa yozumda daha geniş məna kəsb edərək bu dilli xalqların mədəniyyəti, tarixi, dili, ədəbiyyatı və s. üzrə mütəxəssisi nəzərdə tutur. Həmin sözlərə –(i)ka əlavə etməklə müvafiq elm sahəsini bildirən sözlər yaranır. Qeyd edək son illərin termin yaradıcılığında germanistika, anqlistika və skandiinavistikaya qarşı qoyulur və qərbi german dillərindən əsasən alman, daç və flamand dilləri üzrə elm sahələrini əhatə edir. Beləliklə, tarixi anlam istisna olunarsa, müasir mərhələdə ingilis dilini və ədəbiyyatını öyrənən sahəyə anqlistika, o sahələr üzrə mütəxəssisə anqlist deyirlər. Biz də burada həmin terminləri göstərdiyimiz mənada işlədəcəyik.

[4] J.Lyons. Einführung in die moderne Linguistik. 8. Aufl., München, 1995, s.1; qeyd edək ki, bütün dərslik boyu adı çəkilən xarici müəlliflərin soyadları Azərbaycan dilinə transliterasiya edilərək verilir. Oxucu həmin müəlliflərin orijinaldakı soyadlarını müvafiq çıxarışlardan tapa bilər.

[5] Bax: göstərilən əsəri.

[6] E.Benveniste. Probleme der allgemeinen Sprachwissenschaft. München, 1974, s. 15-16. Dilçilik tarixində uzun müddət qrammatika məntiq və metafizika kateqoriyalarını bir sistemə pərçim etməyə çalışıb. Müxtəlif dillərə eyni basma – qəlib üsulu ilə yanaşmaq da uzun müddət ənənə şəklini alıb. Məs.: belə güman edirdilər ki, bütün dillərdə nitq hissələri var. Elə buna görə L.Bloomfield (1887-1949) yazırdı ki, insanın sağlam düşüncəsi kimi qələmə verilən bir çox şeydə olduğu kimi bu cür yanaşma əslində o qədər də sadə və bəsit deyildir və mülahizələr son nəticədə qədim və orta əsrlər filosoflarının nəzəriyyələrinə söykənirdi.

[7] E.Benveniste. Göstərilən əsər, s. 15-16. Azərbaycan dilində dilçilik tarixinə dair üç sanballı əsər yazılıb. Bax: A.Qurbanov. Dilçiliyin tarixi. Bakı, 1976; A.Axundov. Ümumi dilçilik, Bakı, 1979; Ə.Rəcəbov. Dilçilik tarixi, Bakı, 1988.

[8] Digər tərəfdən ənənəvi dilçilik yunan və latın dillərində mövcud olan yazılı mətnlərin açılmasını əsas məqsəd kimi başa düşürdü. Elə qədim Hindistanda və orta əsrlər ərəb dilçiliyinin meydana gəlməsinin əsas səbəbi dini mətnlərin mənalarının anlaşıqlı şəkildə şərhi olmuşdur.

[9] В.Я.Лоя. История лингвистических учений. М., 1968.

[10] J.Lyons. Yenə orada, s. 29.

[11] J.Lyons. Yenə orada, s. 310.
[12] Л.Блумфильд. Язык. «Прогресс», М., 1968.
[13] Я.В.Лоя. История лингвистических учений. М., 1968.
[14] D.Crystal. Einführung in die Linguistik. Stuttgart, 1975, s. 125.
[15] Я.В.Лоя. Göstərilən əsər.
[16] Qammatika yunan sözü grammatic-dən götürülüb, hərfləri başa düşüb oxumaq və yazmaq bacarığını bildirir.
[17] Latınlar qrammatikaya belə tərif verirdilər: ars bene dicent et bene scribendi – yaxşı danışmaq və yaxşı yazmaq incəsənəti. Beləliklə, yunanların ritorikası da qrammatikaya aid edilirdi.
[18] Я.В.Лоя. Göstərilən əsər, s.8.
[19] Хрестоматия по истории языкознания XIX-XX веков. Составитель В.А.Звегинцев. Москва, 1956. с.
[20] Brigite Bartschaft. Methoden der Sprachwissenschaft (Von Hermann Paul bis Noam Chomsky). Berlin, 1996.
[21] Alman dilçilik mənbələrində hind-Avropa dillərini adətən hind-german terminilə göstərirlər. Bax: Claus Jürgen Hutterer. Die germanischen Sprachen in Grundzügen. Budapest, 1975, s.9. Bu zaman əsas səbəb kimi o götürülür ki, şərqdə hind, qərbdə isə german dilləri zolaq yaradırlar. Ən qərbdə keltlərin olduğunu götürən ingilis dilçiliyi isə hind-kelt dilləri termininə üstünlük verirlər. Müasir dilçilikdə daha çox hind-Avropa termini işlənir.
[22] Bu tayfaların tarixən harada məskunlaşması hələ mübahisə obyektidir. Alimlər onların Orta Asiya, Qafqaz və ya Orta Avropada 4000-5000 il bundan öncə yaşadıqlarını iddia edirdilər, lakin ilk böyük yerdəyişmədən öncə onların həyat tərzi, heyvanat və bitki aləmi, habelə təsərrüfatı və danışıqları dillər haqqında xeyli biliklər əldə ediblər. Ətraflı məlumat almaq üçün bax: В.М.Жирмунский. История немецкого языка. М., 1965; V.Schmidt. Geschishte der deutschen Sprache. Berlin, 1975.
[23] J.Lyons. Yenə orada, s. 29-30.
[24] Bu barədə ətraflı məlumat almaq üçün bax: Brigitte Bartschaft. Methoden der Sprachwissenschaft (von H.Paul bis Noam Chomsky). Berlin, 1996. İngilis dilçisi D.Kristal yazır ki, əvvəllər yəhudi alimlərindən başqa heç kim dillərdəki oxşar və fərqli əlamətlərin sistem xarakteri daşımasından yazmırdı. Yalnız fransız missioneri Kördü (Coeurdoux) çoxlu misal gətirərək sanskrit və latın dillərində leksik və qrammatik oxşarlıqların olduğunu göstərdi. Ancaq bu çox gec çap olundu. Ona görə də ser Vilyam Couns bu fikri daha təkidlə israr etməklə onların sırasına yunan dilini də əlavə etdi. Benqaliyada baş həkim işləyən Couns 1786-cı ilin fevralında Asiya Cəmiyyətindəki çıxışında söylədiyi aşağıdakı fikirlər dilçiliyin sonrakı taleyində ciddi rol oynadı: «Sanskrit nə qədər qədim olsa da, onun çox möcüzəli quruluşu var. O,yunan dilindən daha təkmildir, latından çox zəngindir və hər ikisini seç-

mə incəliyilə üstələyir; bununla yanaşı, sanskrit fel köklərində və qrammatik formalarında latın və yunan dillərinə çox oxşayır. Bu oxşarlıq o qədər böyükdür ki, onların bir ümumi qaynaqdan törədiyinə heç bir filoloq inanmaz və bu səbəbdən də bu dillərdəki oxşarlıqları tədqiq edə bilməzdi». Göründüyü kimi, dillərin qohumluğu haqda ilk fikri ser V.Couns komparativistlərdən təxminən 100 il qabaq söyləmişdir. Bax: D.Crystal. Einführung in die Linguistik. Stuttgart, 1975, s.125.

[25] S.Potter. Our Language. London. 1990, s.36.

[26] N.S.Trubetzkoy. Gedanken über das İndogermanenproblem. Acta Liinguistica. Kopenhagen, 1939. 1958-də rus dilində «Вопросы языкознания»-da çap olunub. Qeyd edək ki, bu məqalə müəllifin 1936-cı ildə Praqa dilçilik məktəbində etdiyi məruzənin mətni əsasında hazırlanmışdı. N.S.Trubeskoy bu məqalədə german dilləri üçün 6 struktur tipoloji əlamət göstərir: 1.Bu dillərdə sait ahəngi yoxdur; 2.Morfoloji funksiya daşıyan samit əvəzləmələri mövcuddur; 3.Affiks və fleksiya ilə sözdüzəltmə; 4.Anlautda, in – və auslautdan az olmayan sammit birləşməsinin olması; 5.Sözün köklə başlaması məcburi deyil, o, prefikslə başlaya bilər; 6. Tranzitiv fellərin subyekti intranzitiv fellərin obyekti kimi götürülə bilər.

[27] В.фон Гумбольдт. Характер языка и характер народов. В кн.: В.фон Гумбольдт. Язык и философия культуры. Перевод с немецкого языка. М., «Прогресс», 1985, с.378.

[28] В.фон Гумбольдт. О различии строения человеческих языков и его влияния на духовное развитие человечества. Избранные труды по языкознанию. Перевод с немецкого языка под редакцией и с предисловием проф. Г.В.Рамишвили. М., 1984, стр.75.

[29] E.Sievers. Grundzüge der Lautphysiologie (mit einer Einführung in die Phonetik der germanischen Sprachen). Leipzig, 1970. Kitabın beşinci nəşri 1901-ci ildə işıq üzü görüb.

[30] «Fırtına və hücum» Almaniyada XIX əsrin ikinci yarısındı elmin və mədəniyyətin oyanışında yeni romantik mərhələnin başlanğıcını bildirir.

[31] Semiotika – yunanca semeiou sözündən olub, müxtəlif işarə sistemlərinin ümumi xüsusiyyətlərini öyrənən elm sahəsidir.

[32] H.Gross. Einführung in die germanistische Linguistik. München, 1990.s. 29-34.

[33] F.de Sausseure. Cours de linguistiqa generale. Genf, 1916. F. de Sössürün bu kitabını ölümündən üç il sonra tələbələri Ş.Balli və A. Seşeye öz müəllimlərinin Cenevrə universitetində 1910-11, 1911-12 və 1912-13 tədris illərində oxuduğu mühazirələrin mətnləri əsasında hazırlayıb çap etdiriblər. Ona görə də F.de Sössürün elmi-nəzəri irsinə qiymət verəndə bəzi alimlər kitabda söylənilən fikirlərin bəzilərinin ona aid olmadığını güman edirlər. Lakin bütün mübahisələrə baxmayaraq F.de Sössürün XX əsr dilçiliyində yeni

istiqamətlər və cərəyanlar yaradan bir şəxsiyyət olduğunu onun əleyhidarları belə etiraf etməyə bilmirlər. Bax: D.Crystal. Göstərilən əsər, s.137.

[34] Bax. Л.Р.Зиндер. Основные фонологические школы. «Вопросы общего языкознания», Л., 1967; Ю.С.Маслов. О знаковой природе языка. Л., 1967; Ю.С.Маслов. Введение в языкознание. М., 1985; K.Bühler. Sprachtheorie. Stuttgart – New York, 1982.

[35] K.Bühler. Yenə orada, s. 70-71.

[36] N.Chomsky. Aspects of the Theory of Syntax. Cambridge, 1965.

[37] F.de Saussure. Grundlagen der allgemeinen Sprachvvissenschaft. Berlin, 1967, s.106-109.

[38] F.de Saussure. Grundlagen der allgemeinen Sprachwissenschaft. Berlin, 1967, s. 106-109.

[39] Fransız dilində /sinifje/ və /sinifja/ kimi deyilən bu sözlər dilimizə müvafiq olaraq «ifadə olunan» və «ifadə edən» kimi tərcümə edilə bilər.

[40] synxronos və diaxronos yunan sözləri olub birincisi vaxtla (xronos) birgə (syn), ikincisi isə vaxt axarında, ardıcıllığında (dia) deməkdir.

[41] S.Potter. Our Language. London, 1990, s.113. Çağdaş dilçilikdə dil müxtəlif yaruslu, səviyyəli mürəkkəb struktur kimi götürülür. Ən aşağı səviyyənin adı merizmatik, ən yuxarı səviyyənin adı isə iri həcmli əsərlər kimi disruks adlanır. Ünsiyyətdə bir merizm (əlamət) fərqləndirə bildiyi kim, bir cümlə və s. bircə əlamətlə fərqlənə bilər. A.A.Reformatski bunu izah etmək üçün belə bir misal gətirir. İki romalı mübahisə edir ki, onlardan hansı qısa cümlə deyər. Birinci romalı deyir «İo rus» (mən kəndə gedirəm), o birisi cavabında deyir «İ». Məsələ aydındır, ikinci yarışı udur, çünki o, ən qısa cümlə işlədib, həm də bu dilin bütün vahidlərini özündə ehtiva edir. Bax: A.A. Реформатский. Введение в языкознание. М., 1967, с.28.

[42] Diskret latın dilində discret sözündəndir, özündən kiçik hissələrə bölünməyən deməkdir.

[43] F.Yadigar. Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

[44] Hansı dilin daha qədim olması və ya dilin necə yaranması məsələləri dilçilərin daim diqqət mərkəzində olmuşdur. Amma maraqlı burasıdır ki, ötən əsrin sonunda Paris Dilçilik Cəmiyyəti (Societe Linguisique de Paris) bu cür məsələlərin elmi əhəmiyyət kəsb etmədiyini əsas götürərək öz iclaslarında onları müzakirəyə çıxarmaqdan imtina etmişdi. Bax: D.Crystal. Gbstərilən əsər, s. 39-40.

[45] D.Crystal. Göstərilən əsəri, s.39.

[46] Paralinguistica – qədim yunanca para «nəyinsə yanında» və latınca linguia – dil sözlərindən əmələ gəlib ünsiyyətdə dil sistemilə yanaşı çıxış edən bütün digər vasitələrin məcmusuna deyilir.

[47] 30 il ərzində arıların ünsiyyətini müşahidə etmiş alman alimi Münhen Universitetinin prof. K.fon Fişer 1950-ci ildə çap etdirdiyi əsərdə heyvanla-

rın dilindən ətraflı söhbət açır. Arıların başçısı uçub gedərək qida mənbəyi tapır. Sonra o, pətəyinə qayıdaraq bu barədə arıları məlumatlandırır. Sübut arıların qida yerinə başçısız getmələrin və səhvə yol vermədən qida mənbəyini tapmalarıdır. Tədqiqatçı başsını nişanlayır və o, ikinci dəfə qida dalınca gedən arıların arasında olmur. Başçı məlumatı öz rəqslərilə vermişdi. Bu zaman arı iki mühüm rəqs mərhələsi keçir: 1. Üfüqi istiqamətdə sağdan sola dairəvi rəqslərdir. 2. Üfüqi istiqamətdə soldan sağa dairəvi rəqslərdir. Digər rəqs isə bədənin aşağı hissəsilə 8 rəqəminə oxşar davamlı titrəyişdir. Arı ayaqlarını düz tutur, sonra tam şəkildə sola dönür, yenidən düz uçur, sonra tamamilə sağa dönür və s. Daha sonra pətəkdən bir neçə arı başçısının kəşf etdiyi qida mənbəyinə uçur, şirə yığıb pətəyə qayıdır, başçının əvvəl etdiyi rəqsləri təkrarlayır. Beləliklə, dairəvi və 8 şəkilli rəqslər qidanın mənbəyi haqqında arılara məlumata xidmət edir. K.fon Fişer göstərir ki, dairəvi rəqs şirəni, 8 şəkilli rəqs isə çiçəyin tozunu bildirir. Sonralar bu alim belə qənaətə gəlir ki, rəqslər tapıntının təbiətinə deyil, onunla pətək arasındakı məsafəyə aiddir. Dairəvi rəqslər qidanın yaxında, yüz metrlik radiusda yerləşdiyinə işarədir, 8 şəkilli titrək rəqslər isə qidanın uzaqda – 100m-dən 6 km-ə qədər məsafədə yerləşdiyinə işarədir. Əsas məsələ budur ki, rəqslərdən biri qidanın yerini, digəri isə istiqamətini göstərir. Məsafənin uzaqlığı müəyyən zaman daxilində edilən fiqurların sayı ilə təyin edilir. Bax: V.Veysəlova. Uşaq dilinin formalaşması və inkişafı problemləri. Namizdəlik dissertasiyası, Bakı, 2002; E.Benveniste. Probleme der allgemeinen Sprachwissenschaft. München, 1974.

[48] Alman dilçisi L.Vaysgerber ardıcıl olaraq bu fikri inkişaf etdirdi ki, hər bir dil həmin dildə danışan xalqın dünyanı dərketmə vasitəsidir. Dil xalqla ətraf mühit arasında bir aralıq dünyası (Zwischenwelt) kimi götürülür. Bu barədə məlumat almaq üçün bax: L.Weisgerber. Die vier Stufen in der Erforschung der Sprache. Düsseldorf, 1963.

[49] Nöqtə kiçik, ştrix isə böyük fasiləni, «eym» isə danışanın düşünərkən çıxardığı adi səsdir. Bax: D.Crystal. Göstərilən əsər, s.17.

[50] F.de Sausseure. Memorie sur le system primitiv des voyelles d.l.l.i.e.L.; 1879.

[51] F.de Sasseure. Course de liguistique general. Genf. 1916.

[52] Dixotomiya – yunan sözü olub, ikili qarşılaşma deməkdir.

[53] N.S.Trubetzkoy. Grundziige der Phonologie. Göttingen, 1958, 2. Auflage, s.8. Müəllif bu əsəri almancadan Azərbaycan dilinə tərcümə etmiş və 2001-ci ildə nəşr etdirmişdir.

[54] Л.В.Щерба. Очередные проблемы языковедения. В кн.: Л.В.Щерба. Языковая система и речевая деятиельность. Л.1974, с.49. Xarici ideyaların arxasınca gedən həmyerlilərini tənqid edərək L.V.Şerba yazırdı: məs.: «Sössürün dərindən düşünülmüş və gözəl şərh olunmuş, 1916-cı ildə hamının malı-

na çevrilmiş və ümumi heyranlıq doğuran kitabında söylədiklərinin çoxu bizə Boduenin yazılarından bəlli idi. Buna baxmayaraq bizim dilçilərimiz fonem haqqında təlimi bu və ya digər şəkildə Sössürün ayağına yazmağa hazırdılar». Yenə orada, s. 49 (bu barədə bax: 3-cü fəslə).

[55] Brigitte Bartschaft. Methoden der Sprachwissenschaft (Von Hermann Paul bis Noam Chomsky). Berlin, 1996, s. 33-38. D.Crystal. Göstərilən əsər, s.141.

[56] И.А.Бодуен де Куртене. Избранные труды. М., 1963. I və II hissələr.

[57] Ətraflı məlumat almaq üçün bax: Brigitte Bartschaft. Göstərilən əsər, s. 33-48; J.Mugdan. Jan Baudouin de Courtenay (1845-1929). Leben und Werk. München, 1984.

[58] E.Soceriu. Sprachkompetenz. Tübingen, 1988, s. 39-41.

[59] В.М.Жирмунский. Национальный язык и социальные диалекты. Ленинград, 1936.

[60] Ç.Darvin öz təlimində bütün canlı aləmin üç mərhələdən keçdiyini vurğulayırdı: doğum, inkişaf və tənəzzül. Bax: D.Crystal. Göstərilən əsəri, s.32.

[61] O.Jespersen. Language: It's Nature, Development and Origin. London, 1922. Bu alim ilk dəfə «The Philosophy of Grammar» (1924) adlı əsərində qrammati və məntiqi kateqoriyalar arasındakı qarşılıqlı əlaqələri nəzərdən keçirir, dillə təfəkkür arasında münasibətləri açıb göstərməyə çalışırdı. O.Jespersen izah etməyə çalışırdı ki, təfəkkürün hansı kateqoriyaları qrammatik kateqoriyalarda öz əksini tapıb və əksinə. Məs.: o, zaman qrammatik kateqoriyası ilə (ing.tense) real zaman (ing.time) arasındakı əlaqələri geniş dil materialı əsasında tədqiq edir. Nəhəng germanitslərdən biri kimi O.Jespersen anqlistikanın formalaşmasında çox böyük əmək sərf etmişdir. 1943-cü ildə 80 yaşında olanda, «Modern English Grammar on Historical Principles» əsərinin 6-cı və 7-ci cildi üzərində işləyərkən vəfat edir. Sonradan bu cildləri onun 3 şagirdi Kopenhagen Universitetində tamamlayıb 1949-cu ildə çar etdirirlər. Birinci cildi 1909-cu ildə çap olunub və fonetikaya həsr edilib, 6-cı cildi morfologiyaya, qalan cildləri isə bütövlükdə sintaksisə həsr olunub. Bax: S.Potter. Our Language. London. 1990, s.123-125.

[62] B.Bartschaft. Göstərilən əsəri, s.26-28. Laypsiqdə dekan Fridrix Samke istehza ilə 30 yaşlı gənclərin ahıl nəslə qarşı mövqeyini «gənc qramatikçilər» terminilə ifadə etmişdi. Sonra da K.Bruqman bu məfhumu utancaqlıq əlamətini göstərmək üçün işlədirdi. Yenə orada, s.13.

[63] I.A. Baudouin de Courtenay. Göstərilən əsəri. Bax: həmçinin H.Paul. Prinzipien der Sprachgeschichte. Tübingen, 1970.

[64] E. und K.Zwirner. Grundlagen der phonometrischen Linguistik. Basel, 1982; Vinteler ilk dəfə olaraq Vyana dialektini eksperimental yolla təhlil etdi. S.Krasenştayn danışan maşın kəşf etməklə Rusiya Akademiyasının mükafatına layiq görüldü. Bax: Л.Р.Зиндер. Из истории фонетики. В сб.

«Вопросы фонетики». Ленинград, 1967; О трояком аспекте языковых явлений и об эксперименте в языкознании. Памяти учителя И.А.Бодуена де Куртене. В.кн.: Языковая система и речевая деятельность. Л., 1974, s.26-27; O.Winteler. Die Kerenzer Mundart des Kantons Clarus. 1876. Artıq bu əsərdə müəllif iki cür fərqlərdən danışırdı: semantik və qrammatik və bunların yer almadığı hallar. Bax: Ф.Вейласов. Об акустическом различии в фонетике и фонологии. «Уч.записки» АПИРЯиЛ им. М.Ф.Ахундова, Баку, 1975, №3.

[65] F.Veysalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989.

[66] Zellig Harris. A theory of Language and İnformation. Oxford, 1991, p.147-151.

[67] Analitik yunan dilində analysis sözündən olub bölmə, parçalanma mənasını verir və təhlil nəticəsində tərkib hissələrinə bölünmə deməkdir.

[68] Sintetik yunan dilində synthesis sözündən olub, birləşmə, tərtib etmə mənasını verir və sintez nəticəsində birləşdirmək, düzəltmək deməkdir.

[69] Н.В.Мечковская. Общее языкознание. Структурная и социальная типологияязыков. Минск, 2000.

[70] P.von Polenz. Geschichte der deutschen Sprache. Berlin, 1975, s.14.

[71] R.von Raumer. Geschichte der germanischen Philologie, vorzugsvveise in Deutschland. München, 1870; H.Paul. Grundriss der germanischen Philologie. I-III, Strassburg, 1891, 1901 (2).

[72] Г.Паул. Принципы истории языка. М., 1960, с.27.

[73] Н.В.Крушевский. Пердмет, деление и метод науки о языке. В. кн.: Н.В.Крушевский. «Избранные работы по языкознанию». М., 1998, с.65-71.

[74] Praqa funksional məktəbi. İ.Zubatıy (1855-1931) və çex anqlisti V.Matezius (1882-1945) tərəfindən yaradılıb.

[75] Giulio Lepschy. Die strukturale Sprachwissenschaft. Eine Einführung. München, 1969, 258 s.

[76] E.und K.Zwirner. Grundfragen der phonometrischen Linguistik. 3-cü nəşri, Basel, 1982.

[77] N.S.Trubeskoy. Fonologiyanın əsasları. Grundzüge der Phonologie, TCLP, 8, 1939-cu il almanca nəşrindən azərbaycancaya tərcüməsi, son söz və qeydlər prof. F.Yadigarındır. Bakı, 2001.

[78] G.K.Zipf. The Pyscho-Biology of Language. Boston, 1935.

[79] K.Zipf. The Pyscho-Biology of Language. Boston, 1935.

[80] G.C.Lepschy. Göstərilən əsər, s.40-43.

[81] A.Dalligna Rodriguez. Eine neue Datierungsmethode der vergleichenden Sprachwissenschaft. Kratylos, 2, 1957; Д.Ж.Панов. Перевидная машна П.П.Троянского, М., 1959.

[82] D.Ju.Panov. Perevodnaja maşina. p.R.Trojanskoqo. M., 1959.

[83] Дж. Б.Буранов. Сравнительная типология английского и тюруских языков. М., 1983.
[84] А.И.Исаченко. Грамматический строй русского языка в сопоставлении с словацким. Монография, I. Братислава, 1954, 1965 (2); II, 1960.
[85] Ümumi dilçilik, Azərbaycan dilçiliyi…Prof. F.Y.Veysəlovun sədrliyilə redaksiya heyətinin nəşri. Bakı, 2002. Azərbaycanda filoloji təfəkkürün və fonoloji ideyaların inkişaf etməsində B.Çobanzadənin (1893-1937) və Ə.M.Dəmirçizadənin (1909-1979) xidmətləri xüsusi qeyd olunmalıdır.
[86] D.Crystal. Yenə orada, s.31.
[87] Azərbaycanın Quba rayonunda şəhərdən 60 km. cənub-qərb istiqamətdə dəniz səviyyəsindən 2100 metr hündürlükdə bir kənd yerləşir, onun adı Xınalıqdır. Bu kənddə danışılan dil ətraf rayonlarda danışılan dillərdən əsaslı şəkildə fərqlənir. Bu kənddə 2000 adam yaşayır və xınalıq dilində danışır. Belə deyirlər ki, bu dil Qafqaz albanlarından qalmadır, ancaq bunun Avropadakı Albaniyaya dəxli yoxdur.
[88] E.Soseriu. Sprachkompetenz. Tübingen, 1988.
[89] Göstərilən əsər, s.3
[90] Göstərilən əsər, s.2-55.
[91] Yenə orada.
[92] E.Coseriu. Göstərilən əsəri, s.2-55.
[93] Über die Verschiedenheit des menschlichen Sprachbaus und ihren Einfluss auf die geistige Eniwicklung des Menschengeschlechts. Werke. Bd.3, 1836 Schriften zu Sprachphilosophie. Darmsadt, 1963. Man muss die Spradhe nicht sowohl wie ein todtes Erzeugtes, sondern weit mehr wie eine Erzeugung ansehen…Sie selbst ist kein Werk. (Ergon), sondern eine Tatigkeit (Energia). S. 416-418.
[94] E.Coseriu. Göstərilən əsəri, s.13.
[95] Əsər 1901-ci ildə müəllifin ölümündən sonra 2-ci dəfə, yenilikdə 1972-ci ildə çap edilmişdir.
[96] Yenə orada, s.16.
[97] E.Coseriu. System, Norm und Rede: İn: «Sprache», 1970, s.193-212; Ф.Я.Вейсалов. Вариативность гласных фонем современного немецкого языка. АДД. Ленинград, 1980.
[98] E.Coseriu. Cprachkompetenz. Tübingen, 1988, s.25.
[99] Transkripsiya latın sözü olub «trans» - çevirmə və «scriban» - yazmaq sözlərindən düzəlib, bir simvolikadan xüsusi işarələr sisteminə çevirib yazmaq deməkdir.
[100] S.Potter. Our Language. London, 1990, s.70. Dilçilik elminin yaranmasına təkan verən amillərdən biri kimi xristianoıqdan 4 əsr öncə 4000-ə yaxın hind ridveqalarının (dini hminlərin) lnqvistik şərhini verməklə Panini sanskrit dilinin qrammatikasını yaratmağa çalışmışdı. 7-ci əsrdə müqəddəs kitab

«Qurani-Kərim»in dilinin şərhilə klassik ərəb qrammatikası yarandı. Bu yolla lüğətlərin meydana gəlməsi və eyni zamanda xarici dilləri öyrənmə ənənsi yarandı. Legionerlər öz fəaliyyətini gücləndirməyə başladılar. Keşiş Vulfild 4-cü əsrdə (daha doğrusu 348-ci ildə) «İncil»i qot dilinə tərcümə etdi. Çin buddistləri 5-ci əsrdə çin dilini öyrətmək üçün kitablar yazırdılar. 5-ci əsrdə İngiltərədə Alfrik fon Aynşəm anqel-sakson-lara latın dilini tez öyrətmək üçün danışıq kitabçası yazmışdı. Kilsələr və məscidlərdə dioloji nitq öyrədilirdi. İntibah dövründə yeni coğrafi kəşflərlə bağlı, yeni dillərin öyrənilməsinə maraq artırdı. Dini kitabları tərcümə etmək üçün həmin dillərin əlifbası olmalı idi. 1651-ci ildə vyetnam dili üçün tərtib olunmuş əlifba bu gün də həmin dilin əlifbasının əsasını təşkil edir. Yunan, ərəb, həbəş dillərilə yanaşı, latın, türk, fars dilləri də maraq dairəsinə daxil olurdu. Dinin rolundan bəhs edən aşağıdakı fikirlər maraqlıdır. Deyirlər ki, Allah Adəmə ixtiyar verib ki, adamlara ad qoysun. Qot allahı misirlilərin, Nabu isə babillilərin dilini və yazısını yaradıb. Rəvayətə görə, göydən düşmüş su tısbağası belindəki işarələri çinlilər üçün yazı gətirmişdir. Yazı uzaq məsafələrdəki adresata nəsə verməyə qadirdir. Deyirlər ki, yazını, hərfləri, səsi Allah istədiyi vaxt canlandırıb dinləndirə bilir. Mistik şərhə görə, əlifba Allahın mövcudluğudur. Bəzi inanclara görə, gözlərin şeylərlə əlaqəsi var, onlarla eyniləşdirilə bilər. Ruhlar ecazkar bir vasitə sayılırdı. Məzmun ruhən güclü olduqca, möcüzənin gücü böyük olur. Xəstəni «İncil» səhifəsilə yellədikdə və ya ona dua yazılmış kağız yedirtdikdə o guya sağalarmış. Söz əşyaya hakimdirsə, tez-tez təkrarlamaqla onun gücünü artırmaq olar. Bəzi xalqlarda adamların adını çəkmirlər, çünki ad mahiyyət bildirir. Tayfa başçısına ad verilsə (məs.: həyat), həmin məfhumu bildirmək üçün yeni ad tapılmalıdır. Ölülərin adı çəkilməzdi. Hər misirlinin iki adı olurdu. Ölən uşağın adı sonrakına qoyulmazdı. Romalılarda bir ad itlyon dəfə təkrarlanmışsa, dünyanın axırı gəlibmiş. İtalyanlar əsgərliyə yaxşı adı olanlardan (Victor, Felix və s.) aparırlarmış və s. Göründüyü kimi, din dili uzun müddət himayə edib və etməkdədir. Bu barədə bax: D.Crystal. Einführung in die Linguistik. Stuttgart. 1975, s. 32-36.

[101] «Runen» - almanca «sirri açmaq», «sirrinə bələd olmaq» deməkdir. Oxumaqla yazının möcüzəsini açmağa nail olmaq olur.

[102] Bu barədə biz ətraflı yazdığımız üçün burada geniş şərhdən vaz keçirik. Maraqlananlar üçün tövsiyə edirik. F.Yadigar. Dilimiz, qeyrətimiz və qayğılarımız. Bakı, 1997, s. 102-113.

[103] Orfoqrafiya-yunan dilindəki «orthos» - düzgün və «grafiya» - yazmaq sözlərindən düzəlib, bir dildə düzgün yazılış qaydalarını müəyyənləşdirən etm sahəsidir. Əlifbadakı işarələrin sayı və düzülüşü qaydaların daxili bağlılığından və ənənədən asılıdır. Sözün və digər dil vahidinin necə yazılmasının əlifbaya qəti dəxili yoxdur. Bunlar bütövlükdə orfoqrafiyanın sahəsidir.

[104] K.Duden. Die neue Rechtschreibung. Mannheim, 1996.
[105] S.Potter. Göstərilən əsəri, s.71.
[106] Yenə orada, s.71.
[107] H.G.Tillmann mit Phil Mansell. Phonetik. Lautsprachliche Zeichen, Sprachsignale und Lautsprachlicher Kommunikationsprozess. Stuttgart, 1980.
[108] Vivantes - canlı; qeyd edək ki, həmyerlimiz M.Şahtaxtılı bu cəmiyyətin işində fəal iştirak edib. Bax: F.Yadigar. Fonetika və fonologiya məsələləri. Bakı, 1993.
[109] Qeyd edək ki, bu və ya digər dilin spesifik fonetik hadisəsini dolğun təsvir etmək üçün buradakı işarələr yetərli olmaya bilər. Onda biz müvafiq fonetik işarənin üstündə və ya altında diakritik işarədən istifadə edə bilərik. Diakritik yunanca «dia - içindən», ortasından, «critic» isə ən kiçik deməkdir. Bax: H.G.Tillman mit Phil Mansell. Phonetik. Lautsprachliche Zeichen, Sprachsignale und lautsprachlicher Kommunikationspozess. Stuttgart, 1980, s. 127.
[110] «Reduksiya» latın sözü olub, «uyuşma, azalma, enmə, düşmə», yəni keyfiyyətdən «düşmə» deməkdir.
[111] Professio - latınca «peşə», «ixtisas» deməkdir.
112. «Dialektizm» - sırf dialektə xas olan dil xüsusiyyətləri. Məs.: Avstriyada «Payerbach» sözü «Beirbach» kimi tələffüz edilir. Sözün əvvəlində ədəbi dilin kar samitinin cingiltili və /a e/ diftonqunun dilin irəli çəkilməsi ilə tələffüzü dialekt xüsusiyyətidir.
113. F.Veysalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989; S.Potter. Our language. London, 1990, p.21.
114. İngiliscə İnternational Phonetik Associaton birləşməsinin Azərbaycan dilində Beynəlxalq Fonetika Cəmiyyəti qarşılığının qısaltmasıdır.
115. Dilçilik ədəbiyyatında bəzən kipləşən-partlayışlıları - eksploziv, novluları - frikativ, kipləşən - novluları - affrikat, qoşadodaq, bilabial, dodaq-dişi - labiodental, dil-dişi - dental, dilönüləri - alveolar, dilorta samitlərini - palatal, dilarxasını - velar, udlağı isə - qlotal adlandırıblar. Bax: Handbook of the İnternational Phonetic Association. Cambridge, 1999. Biz bu terminləri düzgün hesab etmirik. Bax: V fəsil.
116. Daç dilində saitlər üç qruppa bölünür: zəif /Lax/, gərgin /deuse/ və reduksiyaya uğrayan saitlər. Ətraflı məlumat almaq üçün bax: Hanbook of the İnternational Phonetic Association. Cambridge, 1999.

# II. GERMANİSTİKANIN TARİXİNƏ BİR BAXIŞ

## II.1. German dilləri haqqında ümumi məlumat

Hind-Avropa dilləri ailəsinin mövcudluğu haqqında ilk elmi mənbə kimi italyan Filippo Sossettinin 1585-ci ildə Hindistana səfəri zamanı aşkar etdiyi bəzi dil qohumluqları ilə bağlı yazdığı məktublar götürülə bilər. Bu məktublarda o yazırdı ki, hindlilərin danışdığı dil latın və yunanların dillərinə oxşayır. Həmin dili F.Sossetti sanskrit (sanscruta) adlandırırdı, sözlərin forma və məzmunja oxşarlığına əsasən bu nətijəyə gəlirdi. Müq. et:

| Sanskrit | ingilis | italyan |
|---|---|---|
| Sapta | seven | sette |
| Ashta | eight | otto |
| Nava | nine | nove |

Bu dillərin oxşarlığını sonralar Şer Vilyam Cons bir daha təsdiq etmişdir.[1] 1816-cı ildə çap etdirdiyi əsərində F.Bopp hind-Avropa dillərinin genetik qohumluğunu geniş və çoxsaylı dil materialı əsasında sübut etməyə nail oldu.[2] Əslində bu tarixi-müqayisəli tədqiqatların başlanğıcı kimi də götürülə bilər.

Mütəxəssislər hind-Avropa dillərini XX əsrdə kəşf olunan toxar və het ölü dillərindən başqa altı qrupa bölürlər.

Rəqəmlər bu dillərdə danışanların sayını (milyon hesabı ilə) göstərir:

| I. German | II. Roman | III. Slavyan |
| --- | --- | --- |
| a) alman - 110 | a) ispan - 210 | a) rus- 145 |
| b) ingilis - 320 | b) portuqaliya - 115 | b) ukrayna- 35 |
| c) daç və ya flamand (Niderlandın dövlət dili) - 9 | c) fransız - 90 | c) polyak- 34 |
| d) friz (doğu german dilləri) island- 210 min | d) italyan - 60 | d) serb-xorvat-17 |
| feroy - 38 min | e) rumın- 22 | e) çex- 10 |
| Danimarka - 5 | | |
| İsveç - 8 | | |
| Norveç - 3,9 | | |

| IV. Hind-aria | V. İran | VI. |
| --- | --- | --- |
| a) hindi- 180 | a) fars və tacik - 25 | a) yunan - 10 |
| b) benqali-120 | b) əfqan - 15 | b) alban - 4 |
| c) pəncəb- 50 | c) kürd, puştu - 7 | c) erməni - 5 |

Bundan savayı baltik və kelt dilləri də bu dillər ailəsinə aiddir.[3]

Tipoloji baxımdan bu dillər flektiv və ya sintetik dillərdir. Bu o deməkdir ki, sonluqlar və prefikslər (xarici fleksiya), habelə söz kökündəki fonem əvəzlənməsi (daxili fleksiya) qrammatik mənaların verilməsinə xidmət edir. Bu dillərin əksəriyyətində flektiv kateqoriyalar – səkkizə qədər hal, üç kəmiyyət, üç cins, dörd modi və yeddi zaman var.

Ortaq mədəniyyət olduğunu sübut etmək çətindir. Hindli, yunan və rumlarda erkən inkişaf etmiş say sistemi vardı. Məs., qədim alman dilində einlif "11", yəni «biri artıq», zwelif "12" (y.a.d. Dutzend), ing. dilində 1 foot = 12 inches və s. Əkinçilik, heyvandarlıq və bitkiçilikdə də ümumi oxşar anlayışlara rast gəlmək olur. Alman dilindəki "Erz" sözünə (filiz, tunc, mis) bir çox h.g. dillərində rast gəlmək olur.[4]

Sırf linqvistik əlamət /k/ və /g/ samitlərilə bağlıdır. Bu baxımdan iki yerə bölünən hind-Avropa dillərinin şərq qrupunda (hindi, İran, erməni, baltoslavyan, alban dilləri) bu samitlər müvafiq olaraq /ʃ/ və /ʒ/-ya keçmiş, qərb qrupunda isə (kelt, italyan, yunan, german və s. dillər) həmin samitlər dəyişməz qalmışdır. Məs: hind-Avropa ulu dilində "yüz" sözü /°kmton/, latın dilində centum-/kɛntum/, yunan dilində /ɛ°katȯ`v/, kelt dilində (qədim irland dilində) /kēt/ /k/ samiti saxlanmış, qot dilində də /hund/, q.a.d. /hunt/- "yüz" qədim german dilindəki /k/-ya bağlılığını göstərir. Bunun əksinə olaraq, şərq qrupu dillərində artıq qədimdən /ʃ/ müvafiq olaraq /s/ (müq.et: qədim hindu dilində /sbtám/, qədim İran dilində /satəm/, Litva dilində /šim̃tas/, qədim slavyan dilində /suto/) işlənmişdir. Beləliklə, hind-Avropa kentum və satem dilləri olmaqla iki yerə bölünmüşdür. Lakin Asiyada mövcud olmuş het və toxar dillərinin kentum qrupuna aid olması həmin bölgünü bir qədər şübhə altına aldı. Digər tərəfdən, german, slavyan, baltik və toxar dilləri italyan və yunan kimi kentum dillərindən daha yaxın olmuşlar.

Güman edilir ki, yunan və italyanlar hazırkı yaşayış yerlərinə xeyli sonralar, quzeydəki ən yaxın qonşuları germanlardan qopub aşağı gəldiklərindən, onların dilləri ulu german dilinə daha yaxındır.[5]

Germanlar həmçinin keltlərlə çox yaxın olublar, hətta onları bir-birilərindən ayırmaq belə çətin olub.[6]

Yuxarıda deyildiyi kimi, 1-ci (german) və 2-ci (alman) fonem irəli çəkilmələrinin kəşfi R.Rask, F.Bopp və Y.Qrimmin adları ilə bağlıdır. /p(h)/, /t(h)/, /k(h)/ fonemləri sk, sp, st birləşmələri istisna olmaqla bütün hallarda german dillərində müvafiq olaraq f, th (ing.d.: ð), x (= ch) novlu samitlərinə keçir. lat. pater-qot. fadar, lat. tres-qot. preis, lat. sornu- qot. haurn (qədim xurna sözündən).

b, d, g, müvafiq olaraq p, t, k-ya çevrildilər. Yun. βaiтŋ (pencək) - qot. paida, lat. genu-qot. kniu, lat. duo-qot. twa.

İkinci fonem irəli çəkilməsi alman dialektlərini və alman

ədəbi dilini ortaq german dilindən ayıran xüsusiyyətdir.

1. Cingiltili kipləşən-partlayışlı samitlər karlaşır: b>p, d>t, g>k, g > k.

2. Kar nəfəsli kipləşən partlayışlı samitlər nəfəssiz karlaşır. ph~p>f, th~t>th, kh~k>$x^h$, $q^u$>$q^h$>x.

3. Cingiltili nəfəsli kipləşən-partlayışlı samitlər əhatədən asılı olaraq nəfəssiz cingiltiliyə keçirlər. bh>b~b, dh>d~d, gh>g~g, $g^{uh}$>$g^u$.[7]

German dillərində /z/ qot dili istisna olmaqla /r/- ya uyğun gəlir. Buna r-laşma (rotatsizm) deyirlər. Beləliklə, /s/- ya german dillərində /z/ yox, /r/ uyğun gəlir. Məs. kiesen, frieren-Frost, verlieren- Verlust, war-gewesen və s.

Lakin ptk dəyişmələrilə yanaşı, azad vurğu hələ də hökm sürməkdə idi. Mütəxəssislər bu dəyişmələri son dövrlər dildaxili şərtlərlə əlaqələndirməyə çalışırlar.

Bu fonem dəyişiklikləri xristianlıqdan 5 əsr əvvəl baş vermişdir. Əvvəllər bunu dilxarici təsirlərlə (başqa dillərin təsiri, substrat nəzəriyyəsi, iqlim dəyişikliyi və ya müharibələrlə izah etməyə çalışırdılar). Xristianlıqdan əvvəl 3-cü və ya 2-ci əsrdə prosesin bitməsini təsdiqləyən amillərdən biri də odur ki, rum mənşəli keçmə sözlərdə artıq bu dəyişikliklər müşahidə olunmur, latın mənbələrində isə german adları və sözləri yalnız irəli çəkilmə ilə müşahidə olunurdu.

German dillərinin ikinci əlaməti vurğunun kök hecasında sabit qalmasıdır. Müq. et: yunan ħat∧p- alm. Vater. Hind-Avropa dillərindən qalma vurğu sərbəstliyi bu gün də mexaniki olaraq özünü Urlaub, Urkunde, Ursprung, Ablass sözlərində sözün ilk hecası üzərinə düşməsilə büruzə verir. Özü də h.g. dillərindəki musiqili vurğu tədricən dinamik vurğuya çevrildi, yəni sözlərin tona görə fərqləndirilməsi daha önəmli deyildi. Müasir dildə tonun gücü onun səviyyəsilə üst-üstə düşür.

Vurğunun dəyişməsi vurğusuz hecaların zəifləməsinə gətirib çıxartdı. Artıq tələffüz enercisilə bərabər vurğunun ilk hecaya düşməsi son hecalardakı sait və samitlərin güclü reduksiyasına səbəb oldu. Bu, sonralar da təkrarlandı və vurğulu

hecadan əvvəl və sonra gələn hecaların saitləri tamam reduksiyaya uğrayaraq yalnız zəif və neytral [ə] şəklində realizə olunurdular. Bu proses bu gün də davam etməkdədir. Sonralar umlaut, sınma (Brechung), monoftonqlaşma və diftonqlaşma da əslində aksent dəyişikliklərinin nəticəsi idi. Məs., Männ+er sözündə zəifləşmiş son heja kök saitinə təsir edərək onu özünə yaxın çalarda kökləyirdi. Deməli, german dillərində türk dillərindəki ahəng qanununun əksinə olan bir proses gedirdi.

Germanistikanın mühüm problemlərindən biri də hind-german tayfalarının vətəninin harada olmasını müəyyənləşdirməkdən ibarətdir.

Öncə belə güman edilirdi ki, hind-german dillərinin ulu vətəni Hindistandır. 1845-ci ildən başlayaraq linqvistik paleontologiya elminin metodlarından istifadə edərək alimlər belə qənaətə gəldilər ki, hind-german dillərinin hər birinin malik olduğu ortaq mədəni sözlər ümumi ortaq irs yaradır, yəni onlar artıq ulu dildə olmalı idi.[8]

Lakin sözlər bəzən bir-birindən mənaca elə uzaqlaşır ki, onların bir kökdən olduğunu isbat etmək çətin olur. Nəticə etibarı ilə ulu vətənin Asiya olması tezisi köhnəlməyə başlayır, hərçənd ki, toxar və het ölü dillərinin ön Asiyada mövcudluğu məhz 20-ci əsrdə sübut olundu.

XIX əsrin ortalarından hind-german dillərinin ulu vətəninin Avropa olmasını müxtəlif metodlar, o cümlədən astroloji tədqiqatlarla sübut etməyə çalışırlar. Sadəcə olaraq tarix boyu onlar müxtəlif miqrasiya və yerdəyişmə nəticəsində başqa xalqlarla qaynayıb-qarışmışlar. Ulu xalqın Skandinaviyadan boylandığını təsdiq edənlər çoxluq təşkil edir.

Son tədqiqatların bəzisi hind-german tayfalarının ulu vətəninin Orta Avropa, digərləri isə Şərqi və Cənubi Avropa olduğunu hesab edirlər.[9]

Deməli, ən vacibi odur ki, bu tayfalar tarix boyu təcrid olunmuş şəkildə deyil, daim hərəkətdə olaraq başqalarına qaynayıb-qarışmış, bəzən uyğunlaşmış, bəzən isə özgürlüyünü qo-

ruyub saxlaya bilmişlər.

Substrat nəzəriyyəsinə əsasən iki xalq qaynayıb-qarışanda siyasi cəhətdən güclü olanın dili qalib gəlir, məğlub xalq məcbur olub qalibin dilini qəbul edir. Məğlub xalqın dili fonetik və qrammatik baxımdan əriyərək tədricən sıxışdırılıb aradan çıxarılır. Lakin qalib dildə məğlub dilin bəzi izləri qalır. Misal olaraq kelt substratını göstərmək olar. O, fransız dilindən əvvəl o ərazidə mövcud olan dil idi. Bundan fərqli olaraq superstrat gəlmələrin dili olmaqla yerli əhalinin dili ilə qarışır, ancaq onun əsasını sarsıtmadan onda əriyib itir. Misal olaraq norman dilinin ingilis və ərəb dilinin fars dilinə qatışmasını göstərmək olar. Nəhayət, kontakta girən dillərin qarşılıqlı təsirindən əmələ gələn adstrat da qeyd olunur. Bu zaman dillərin heç biri o birisinə üstün gələ bilmir.

Substrat nəzəriyyəsinin nümayəndələri Y.Şmidt və H.Şuxartdır (1842-1927).

Beləliklə, bu gün belə güman edilir ki, hind-german ulu dili Avropada Şimal dənizi, şərqdən Qafqaz, cənub-şərqdən isə Balkan yarımadası ərazisində olub. Ancaq bu sərhədlər Aralıq dənizi sahillərində daim dəyişkən olub.

## II. 2. Ulu german dili haqqında

Ulu german dilini yalnız bərpa etmək mümkündür. Çünki bu dildə heç bir yazılı abidə qalmayıb. Mütəxəssislərin fikrincə, ulu german dili min il "yaşayıb", sonra isə german tayfaları 3 böyük qrupa bölünüblər: quzey, doğu və batı germanları. Həmin batı german tayfalarının dilindən sonralar ingilis, friz, alman və daç dilləri meydana gəlmişdir.

Tədqiqatlar göstərir ki, german tayfaları İsveçin və Norveçin cənubunda, Danimarkada və Elbe çayının aşağılarında məskunlaşmışlar. Eradan min il əvvəl onlar buradan Vezer və Oder çaylarının aşağılarına və daha sonra Visla və Rayn çaylarının mənsəbinə qədər gəlib çıxıblar.[10]

German dilindəki samitlər:

p, t, k, k^u, f, χ, $\chi^h$,Ђ, đ, g̲, $\underline{g}^u$

German dilindəki saitlər, monoftonqlar:

a, e, i, u, ē, ī, ō, ū

diftonqlar: ai, eu, au

Hind-german dillərindəki /o/ və /a/ german dilində /a/-ya çevrildi. Məs. h.g. agros-lat. ager-alm. Acker, ing.- acre; h.g. ok^to-lat. octo-alm. acht, ing. eight və s.

H.g.d.-də /ō/ və /ā/ isə german dilində /o/-ya çevrildi. Məs. lat. flos, qot. d. bloma, ing.d.: bloom, lat. māter, ing. mother və s.

Hind-german dilindəki dualis german dilində yalnız 1-ci və 2-ci şəxs əvəzliklərində, qot dilində isə həm də feldə qalırdı. Sonralar o tamam aradan çıxdı. Hal sistemində lokativin funksiyasını sözönülü dativ yerinə yetirir. Nominativ akuzativlə, genitiv isə dativ instrumentalislə üst-üstə düşməyə başladı, sözönülərinə meyl gücləndi, beləliklə, analitizmin əlamətləri özünü daha aydın büruzə verməyə başladı.

İsimlərin hallanmasında böyük söz qrupları zəifləri getdikcə sıxışdırıb aradan çıxardırdı. H.g. dilindəki ən güclü o-klass (latında 2-ci hallanma: german dilində isə ā -klass) kişi və orta cinsləri, ā -klass isə (latında 1-ci hallanma, german dilində isə ā-klass) qadın cinsli isimləri əhatə edirdi. O biri klaslar isə (i-, u- və n- klaslar) tədricən iri klasslara keçirdi.

German dilində sifət sonu saitlə bitən (kişi, orta cinsdə-o, qadın cinsdə-ā) suffikslə düzəlirdi. Samit suffikslə düzəltmə (latın dilində sifətlərin 3-cü hallanması) tamam aradan çıxdı və o və ā-klassa keçdi.

Y.Qrimmdən bəri sait hallanmanı «qüvvətli», n-hallanmanı isə «zəif» adlandırırlar. Qüvvətlilərdə şəkilçi (onlar ilkin idi) halı bildirmək kimi vacib funksiya yerinə yetirirdi, zəiflərdə isə bu funksiyanı başqa sözlər – əsasən işarə əvəzlikləri, sonralar isə artikl yerinə yetirirdi. Bunlar ikinci idi. Bu cür bölgünü isimlərə də şamil etdilər. Beləliklə, sait hallanma «güclü», n-

klass isə «zəif» adlandırıldı. Əvəzliklər h.g. dillərindəkindən, demək olar ki, fərqlənmirlər. Qədim h.g. dilində refleksiya forması (se bax: latın dilində sē-«sich») yalnız qot və qədim alman dilində hifz olunub.

Fel sistemi çox sadələşib, yalnız Präsens və Präteritum vardı, özü də bu Präteritum h.g. dilindəki perfektə uyğun gəlirdi. H.g. dillərində futurum qədim dialektlərdə prezenslə ifadə olunurdu. Ulu german dilində üç forma- xəbər, əmr və obtativ (arzu) vardı. Obtativ h.g. dilindəki konyunktivi sıxışdırırdı.

Aktivlə yanaşı medium əsasən passiv funksiyası daşıyırdı. O, yalnız qot və qədim ingilis dilində olub. Passiv dolayı yollarla ifadə olunurdu. Kəmiyyət yalnız tək və cəm idi. Dualis aradan çıxmışdı.

Fel sistemində və sözdüzəltmədə ablaut[11] mühüm rol oynayırdı və qüvvətli fellərə xas idi. H.g. dilində ablaut eyni söz kökündə /e/-nin /o/ ilə əvəzlənməsi idi. Ulu german dilində ablaut sistemi güclü dəyişikliyə uğradı (o>a, e>e/i).

2-cür ablaut vardı: 1-cisində saitin kəmiyyəti dəyişir. (Abstufung) /uzun; qısa; diftonq (Məs. reiten-geritten, q.a.d. ritan-giritan).

Lakin söz kökündə saitin keyfiyyəti dəyişirsə, buna keyfiyyət ablautu deyilir (Abtünung).

Fellərdə 6 sıra və klass fərqləndirilirdi, özü də onların düzülüşündə heç bir əlaqə və ya xronologiya yox idi, sadəcə olaraq bu, linqvistik təhlilin nəticəsi idi.

Fel formaları prezens və infinitiv (1), təkdə preteritum (2), cəmdə preteritum (3) və preteritumun partisipi (4) şəklində işlənirdi.

H. Kraye bu ablaut sıralarını belə düzür:[12]

1-ci sıra: h.g.d.: ei/oi-i=germ. Ī /ai-i. Məs.:

| | | | |
|---|---|---|---|
| qot. | greipan | graip/grɛ:p/ | gripum |
| qədim ing. | grĪpan | grap | gripon |
| q.a.d. | grĪfan | greif | griffun |

2-ci sıra: h.g.d.: eu/ou-u=germ. iu (eu)/au-u. Məs.:

| | | | | |
|---|---|---|---|---|
| qot. | bindan | bau p /b⊃:r/ | budum | budans |
| qədim ing. | bēodan | bead | budon | (ge) boden |
| qədim alm. | beotan/biotan | bot (/o:/ /ou/) | butan | gibotan |

3-cü sıra: en/on= n=germ.d. in(<en) an-un

(həmçinin kök sonunda samitlə bitən bütün burun və süzülən samitlər qarşısında, yəni im/am-um, er/ar-ur, el/al-ul. Məs.:

| | | | | |
|---|---|---|---|---|
| qot.d.: | bindan | band | bandum | bundans |
| qədim ing.d.: | binden | band | bundon | (ge) buntan |
| q.a.d.: | bintan | bant | buntum | gi-buntan |
| qot d.: | wairpan | warp | waurpum | waurpaus |
| | (werfen) | /ve:rpan/ | /vo:rpum/ | /vo:rpons/ |
| ing.d.: | weorpan | wearp | wurpon | (ge) worpen |
| q.a.d.: | werfan | warf | worfum | gi-worfan |

4-cü sıra. h.g.d.: en/on-en-n=germ. in(en)/an-en-un

(həmçinin burun və süzülən samitlər qarşısında üçüncüdən fərqli olaraq samit gəlmir). Məs.:

| | | | | |
|---|---|---|---|---|
| qot d.: | niman | nam | nīmum | numans |
| qədim ing.d.: | niman | nam | nāmon | (ge)numen |
| qədim alm.d.: | neman | nam | nāmum | gi-noman |
| qot.d.: | bairan | bar | bērum | bauras |
| | /bo:Rans/ | tragen | /bɛ:Ran/ | |
| qədim ing.d.: | beran | boer | bǣren | (ge) boran |
| qədim alm.d.: | beran | bar | bārum | gi-boran |

5-ci sıra h.g.d.: e/o-ē=germ. i(e)/a-ē. Məs.:

| | | | | |
|---|---|---|---|---|
| qot d.: | lisan | las | lēsum | lisans |
| qədim ing.d.: | lesan | loes | lǣsan | (ge) lesen |
| qədim alm.d.: | lesan | las | lārrum | gi-leran |

6-cı sıra h.g.d.: a(o)- ā(ō)=germ. a-ō. Məs.:

| | | | | |
|---|---|---|---|---|
| qot d.: | faran | fōr | fōrum | faraus |
| qədim ing.d.: | faran | fōr | fōron | (ge) faren |
| qədim alm.d.: | faran | fuor | fuorum | gi-faran |

Bu qısa saitli sıralardan başqa qot dilində özünü daha aydın büruzə verən 7-ci uzun saitli sıra da var: ē/ō.

Məs.:qot d.: lētan (lassan) – lailot (lelo:t) – ließ -lailōtum (ließen) lētans (gelassen)

Bunlar sözdüzəltmədə də mühüm rol oynayırdılar.

Preterito-prezentiya felləri də ablaut sırası düzəldirdilər.

Budaq cümlələr geniş işlənməyə başlayır. Vasitəsiz nitq daha çox işlənirdi. Xəbər baş cümlədə indiki və gələcək zamanda idisə, budaq cümlədə konyunktiv prezensdə dururdu. Baş cümlədə keçmiş zaman olanda budaq cümlədə konyunktiv də keçmiş zamanda olurdu.

Söz sırası hazırkı german dillərinə nisbətən çox az bağlı idi, çünki cümlə üzvlərinin sintaktik funksiyası morfoloji əlamətə malik idi.

German dillərində sözlərin böyük hissəsini h.g. dillərinin leksik irsi təşkil edir. İnsan bədəninin üzvləri, qohumluq bildirən, yaşayış tərzini əks etdirən, əkinçilik, maldarlıq və s. sahələrdəki sözlər h.g. dillərindəndir.

Məs.: h.g: qap-ut (Kopf), lat: caput, q.ing.d.: hafud / hiafod, ing.d.: head, q.a.d: haubit> alm.d.: Haupt və ya h.g.d.:oq- lat: olulas- germ: Aug(n), q.ing.d.: ēage, ing: eye, q.a.d: ouga > Auge.

Eradan əvvəl 5-ci əsrdə artıq qədim ingilis dili müstəqil dil kimi formalaşmışdı. Skandinaviyada eradan əvvəl 6-cı əsrdə doğu batıdan dil baxımından fərqlənirdi.

Quzey germanlar getdikcə güneydəkilərdən dil baxımından uzaqlaşırdılar. Materikdə də müasir alman dilinin xələfləri bu müddətdə nisbətən vəhdət təşkil edirdi. Dialekt fərqləri getdikcə artır və tayfaların bir qismi Britaniya adalarına köçərək orada öz dillərini inkişaf etdirirdilər.

Eradan əvvəl 4-cü əsrdə qotların varlığı heç bir şübhə doğurmur. Onlar quzey germanlarla daha yaxın idilər. Quzeydəki dillərdə bugünkü əlamətlərin e.ə. II əsrdən başlandığını demək mümkündür. Lanqobardlar güneyə doğru irəliləyən tayfa olmuşdur.[13]

Qədim ingilis dili V əsrdə Britaniya adalarına hazır dil kimi gəlib. Elbe, Rayn və Vezer çayları arasında yaşayanlar sonralar alman dilinin formalaşmasında yaxından iştirak ediblər. Frankların hakimiyyəti dövründə (e.ə. 1 əsr) güney germanlar quzeyə doğru irəlilədi. Germanların (Teutonie və Gothonie kimi də adlandırılır) böyük köçü bu illərə təsadüf edir.

Roma tarixçisi Tatsitus e.ə. I əsrdə german tayfalarını inqevon, istevon və herminonlar (həmçinin herminon və irminonlar adlanır) olmaqla üç yerə bölürdü.[14] Elə sonralar quzey, doğu və batı germanların bölgüsü də bu prinsipə əsaslanır.

A.Şlayxerin «ağac» nəzəriyyəsinə əsasən ulu german dili belə bölünür:

Ulu german dili

batı german doğu german

anqlofriz ulu alman dili ulu qüzey qot dili və s.

Coğrafi faktoru əsas götürənlər aşağıdakı bölgünü təklif edirlər:

Germanlar

herminonlar illevonlar inqevonlar istevonlar

Elbe qədim / gənc quzey Şimal Vezer Rayn
germ. Oder, Visla germ. dənizi germ. germ.
almanlar, lanqobardlar, frizlər, anqellər, sakslar
bavarlar franklar hessenlər
Almanlar

Məşhur germanist V.M.Jirmunski (1891-1970) qədim german dialektlərini belə təsnif etməyi tövsiyə edirdi:

1. İlk öncə 2 böyük qrup olmuş: Skandinaviya və ya quzey qrupu və materik və ya güney qrupu;

2. Doğu german tayfalarının (vandalların) e.ə. III və I əsrdə kontinentə axını;

3. Qotların Qara dəniz sahili çöllərinə axını (e.ə. III-II əsrdə qot dilinin inkişafı, IV əsrdə Vulfilin yazılı abidələri);

4. Batı german dilindən üç qrupun ayrılması: inqevon (Şimal dənizi germanları), istevon (Rayn-Vezer germanları) və herminonlar (Elbe germanları, e. I əsri), inqevonlar və istevonlar qaynayıb qarışmışlar;

5. Qot dili istisna olmaqla quzey və güney germanların geniş əlaqələri (b. e. I və V əsri);

6. Anqelsaksların Britaniya adalarına hərəkəti, anqelsaks dilinin qədim ingilis dilindən təcrid olunması (V-VI əsr), abidə V əsrin sonundan məlumdur;

7. Saksların Şimal dənizi sahillərindən quzey, batı və güneyə hərəkəti, onların Vezer-Rayn germanları və istevon qalıqları ilə birgə qruplaşması (e. IV-V əsri)

8. Herminonların Elbe çayının aşağı və orta zolağından güney Almaniyaya yayılması (I əsr). Güney bölgələrin alman və bavariyalılar (sonrakı alman ədəbi dil daşıyıcıları) tərəfindən zəbt edilməsi (III-V əsr). II və ya alman fonem irəli çəkilməsi (VI əsr), onun orta alman bölgələrinə yayılması (frenk, hessen, türingiya, onlar da VII-XV əsr). Roma ədəbi dilinin təsirilə inqevonizmlərin sıxışdırılması;

9. Frank-istevonların batıda romanlaşması, şimali Qalliyaya hücumu, ikidilli Merovingiya dövlətinin yaranması (V əsrin sonu). Frankların (istevonların) alman, Bavariya (herminonlar), hessen və türingiyalıların, sonralar isə saksların (inqevonların) qaynayıb qarışması. Bu da alman xalqının təşəkkülündə, q. a.d.-nin yaranmasında mühüm rol oynadı (abidələr

VIII əsrin ortalarından mövcuddur);

10. Quzey german dillərinin materikdən ayrılması (V əsr). Danimarkalılar Yutlandiyanı V-VI əsrdə, norveçlər İslandiyanı VIII-IX əsrlərdə müstəmləkəyə çevirirlər. Artıq XII-XIII əsrlərdə qədim Danimarka, İsveç və İslandiya dillərində yazılı abidə meydana gəlir.[15]

German tayfaları haqqında ən geniş məlumatı Tatsitusun yuxarıda adını çəkdiyimiz əsəri verir.[16] German tayfaları əkinçilik və maldarlıqla intensiv məşğul olmuşlar. Ovçuluq, balıq ovu onları tədricən oturaq həyat keçirməyə sövq edib. Onlar çovdar, buğda, darı, arpa, vələmir, lobya və digər bostan və tərəvəz bitkilərini əkib becərirdilər. Onların məşğuliyyətini aşağıdakı sözlər daha aydın göstərir:

Qot: skatts, rus: skot; alm.d.: Schatz, ing.d.: cattle, lat.: capital, Kapital lat.: pecunia «pul» < pecus «heyvan» və s. sözlər dediklərimizi təsdiq edir.

Germanlarda toxuculuq və əl əməyi geniş inkişaf etmişdi. Gəmiqayırma, araba, bəzək şeyləri, tikinti (blokvari binalar), ağajdan tikililər (Fachwerkhäuser), ipəkdən və kətandan hazırlanmış paltarlar, cürbəcür silah düzəldilməsi onların həyat tərzini göstərən əlamətlərdir.

Germanlar qəbilə şəklində yaşayır və mübadilə ilə ticarət edirdilər. Xəz, toxuculuq, bəzək, şüşə, dəri emalı inkişaf etmiş sahələr sayılırdı. Artıq birinci əsrdə onlar romalılara vergi verməli idilər.

Yaxın və uzaq ticarət geniş inkişaf etmişdi.

Hüquqi idarəetmə instrumenti kimi Thing-dən istifadə edilirdi. Qəbilələrdə adambaşına müəyyənləşmiş xalq məşvərəti bütün hüquqi məsələləri həll edirdi.

Artıq bazar iqtisadiyyatı o dövrlərdə geniş yayılmaqda idi. Tayfa şuraları bütün məsələlərin həllində yaxından iştirak edirdi.

Germanlarda politeismus çox inkişaf etmişdi. Təbiət qüvvələrinə inam, mifologiya və kult xristianlıqdan əvvəlki dini inanclığı səciyyələndirən cəhətlər idi.

Qədimdə german tayfaları run yazılarından istifadə etmişlər.

K.Vaynhold (1856) sübut elədi ki, run yazıları germanlara miladi təqviminin əvvəllərində İtaliyanın şimalında yaşamış, sonralar məhv olmuş türk mənşəli etrukslardan keçib[17], sonra da bütün germanlarda geniş yayılıb. Qot dilində rune (rūna-raunen - to raund) təəccüblənmək deməkdir). 24 işarədən ibarət olan bu yazı sistemi 1-ci 6 işarənin adı ilə (f, u, p, a, r, k) Fupark (ing.d.: fupork, çünki a>o-ya keçir) adlanır. Run işarələri üç yerə bölünür: 1. f-w; 2. h-s; 3. t-o/d, bunlara run cinsləri deyirdilər. Əvvəllər bu şriftləri taxtadan kəsib hazırlayırdılar. Burdan da həkk etmək, içərisinə yazmaq, cızma-qara yazmaq (ing.d.: to write, alm. reißen, ritzen) meydana gəlmişdir. Hətta Buch (ing.d.:book) sözünün «der Buche» fıstıq ağacından düzəldiyi güman edilir. Alm.d.: Buchstabe (q. ing.d.: bōc-staf) fıstıq ağacından düzəlmiş parça çubuq deməkdir.[18]

Qeyd edək ki, ingilislərin 700-cü ildə işlətdiyi run yazı sistemi 28 işarə, sonralar bu, 33-ə çatır, almanlarda isə mirovinglərin vaxtında (VI-VIII əsr) 30 işarədən ibarət idi.

Xristianlığın qəbulu və roma kilsəsinin təsiri artdıqca run yazı sistemi sıxışdırılırdı. Artıq 700-cü illərdə alman əyalətlərində run yazısı, demək olar ki, işlənmirdi. İngilislərdə və skandinaviyalılarda bu run yazısı xeyli qalsa da, artıq VIII əsrdə bu ölkələrdə də run yazı sistemi tamam sıxışdırılmışdı. Normanların istilası (1066) İngiltərədə run yazı sisteminə son qoydu.

German tayfalarında run yazısından latına keçid mərhələsində qot yazı sistemi (qot şriftlərilə qarışdırmamalı) geniş işlənirdi. Əllə yazılan bu işarələri V əsrdə yaşamış qotların keşişi Vulfilin (311-382 və ya 388) adı ilə bağlayırlar. Vulfilin əlifbasında hər işarə bir rəqəmi bildirirdi.

German tayfalarında V-IX əsrlərdə ağız ədəbiyyatı, iri həcmli poeziya, saray və qəhrəmanlıq nümunələri, himnlər, Allaha həsr olunan əsərlər bir-birinin ardınca meydana gəlməkdə idi. Onlarda qafiyəyə, ritmə, söz sırasına, alliterasiyaya çox ciddi qaydada əməl olunurdu.[19]

## II. 3. German dillərinin səciyyəsi

### II. 3.1. Doğu german dilləri, Qot dili

Bir neçə doğu german tayfasından (vandallar, burqundlar və s.) yalnız qotların yazılı abidəsi qalmışdır. Qotlar batı və doğu qotlara bölünmüş, sonralar hunlarla qaynayıb qarışmış (IV-VII əsrlər), bir qismi güney Fransa və İspaniya (VI əsr), digər qismi isə İtaliyaya qədər gedib çıxmışdır.

Vulfil "İncil"i qot dilinə tərcümə etmişdi. Yunan, run və latın əlifbasından istifadə etməklə Vulfil qot şriftlərini işləyib hazırlayıb. Qot şrifti ilə yazılmış digər abidələr İsveçdə və Niderlandda aşkar edilib.

Bu yaxınlarda Krım tatarlarının dilində xeyli qot sözü tapılmışdır.

Fonoloji sistem:

Saitlər: a, o, u, e, i və iu

Samitlər: b, d, g, p, t, k, l, r, m, n, f, w, h, p, s, z.

Qot dilində umlaut yoxdur. Diftonqlar /ai, au, ei, iu/ monoftonqlaşmışdı. wait-/ vɛ:t/-mən bilirəm; aukan- /o:kan/- çoxaltma və s. Vurğusuz saitlər güclü reduksiyaya uğrayırdı. İsimlərdə -s sonluğu vardır. Məs. Qot d.: dag-s gün, stols-Krım qotlarında stul, tag. Tək və cəmlə yanaşı bu dildə dualis də vardı. İsmin nom., gen., dat. və akuzativdən başqa vokativ (haideis-çoban, hairdi- çoban!) və instrumentalis halları vardı (re (h)-bununla və s.). İsmin hallanması klasslar üzrə idi. Qüvvətli klasslar: 1. A- köklü kişi və orta cinsli isimlər. Məs.: dags (m), kuni (n) - Geschlecht. Burada ya-variantı da vardı. Məs.: haideis (m), trin (n)-ağac 2. Ō-köklü əsasən qadın cinsli isimlər a klassı ilə paralel idi. Məs.: giba(t)-hədiyyə. JŌ və wŌ variantları da vardı (bandi(f)-qandal, mawi(f)-qul-qadın). 4. I-köklü kişi cinsli isimlər və əsasən qadın cinsli isimlər, Məs.: gasts(m)-qonaq, laiseins(f)-təlim. Kişi cinsli isimlər isə təkdə artıq a-klassa keçmişdi. 5. U-köklü kişi cinsli və bəzi qadın cinsli isimlər. Məs.: sunus (m)- Sohn, handus (f)- Nand. Bircə orta cinsli isim (sinqulariatantum) faihu (Vieh) - qul bura aid idi.

Samit klasslar: 1. N-əsaslı (zəif) hallanma əsasən kişi və qadın cinsli, nadir halda orta cinsli samit əsaslı isimləri əhatə edir. Məs.: gama (Mensch), gumin (Menschen); 2. R-əsaslılar brorar(m)-Bruder, swistar(f) - Schwester, fadar(m) - Vater və s. 3. Nd-əsaslı isimləşmiş fellər. Məs.: frijonds - Freund (frijon)-lieben.

Əvəzliklər də dualisdən başqa üçüncü şəxs güney german dillərindəkinə paralel düzəlirdi. is-alm. er, si-alm, sie (ing.d.:she), ital.d.:-alm.d.: es(ingl.d.:it), sa(m) der, so(t) die, pata(n) das kimi işarə əvəzlikləri artikl rolunda çıxış edirdi.

Ulu german dilində olduğu kimi sifət qüvvətli və zəif hallanırdı.

Bir, iki və üç sayları cinsə görə fərqlənirdi.

1. Ens(m), aina(n), (ata)n, eins; 2. Twai(m), twa(n), twos(f) 3. rreis(m, f), prija(n)-3

Felin prezensdə passiv forması işlənirdi: Indikativdə nima→nimada (Ich werde genommen), Opt. nimau (Ich würde nehmen)→nimaidou (Ich würde genommen werden).

Qot dilində felin sintetik yolla düzələn iki mühüm zaman forması vardı: futurum prezenslə, ya da prefikslə, müvafiq olaraq dolayı yolla ifadə olunurdu. İndikativ, imperativ və optativ üçlü qarşılaşdırma yaradırdı. Axırıncı həm də konyunktivi bildirirdi. İnfinitiv, prezens partisip və preteritum partisip qot dilində fellərin nominal formaları idi.

Qot dili isveç dililə ortaq sözlərə malikdir.

Məs.: qot bagms- q. isveç bagn- ağac
Kriustan-krysta-knistern

Qot dilində hind-Avropa mənşəli arxaik sözlərə də rast gəlmək olur.

Məs.: qot aðn-Jahr (lat.anmus<atnos-olass)

Həmçinin keçmə sözlər də kifayət qədər çox idi.

Müq. et: lat. lucerna qot. lukarn-Lampe
acetum-aket-Essig
elephantes-ulbandus-Kamel və s.

## II. 3.2. İsveç dili

Quzey germanlara isveçlər daxildir. Qöteborq sözündən çıxış edərək onların qotlarla bağlılığını sübut etməyə çalışanlar da var. Ancaq bu qədim dil özlüyündə güney və doğu qruplarına bölünür. Güney dilinə qədim norveç dili və onun dialektləri, doğu qrupuna isə qədim İsveç və qədim Danimarka dili, 1500-cü ildən isə yeni island, yeni İsveç, Norveç, Danimarka və feroy[20] dilləri daxildir. Bu dillərin haqqında ətraflı bəhs etmək istəmirik. Ancaq onların fonoloji, morfoloji sistemlərində, leksik və sintaktik laylarında digər german dillərinə oxşar hadisələr istənilən qədərdir.[21]

## II. 3.3. İngilis dili

Batı german dillərinə ingilis və friz dilləri aiddir.

Deyildiyi kimi, şimali dəniz germanları, anqellər, qərbi sakslar və Danimarkadan yutlar V əsrdə Britan adalarına çıxmışlar. Axırıncılar Kenidə Vayt adasında və qarşı sahillərdə, anqellər şərqi və orta İngiltərə, şimali Umbriyada və o zamankı Mersiyendə, sakslar isə krallığın quzey, güney və batı əyalətlərində məskunlaşmışdılar.

Qohumluq münasibətlərini bildirən father, mother, brother, sister, son, daughter (ancaq husband və wife yox) geriyə ulu dilə söykənir. İnsan bədəninin hissələrini bildirən sözlər arm, ear, eye, tooth, heart, foot, nail, one-dan ten-ə qədər saylar, habelə night, star, dew, fire, snow, thunder, wind, father, nest, beaver, cow, goat, goose, hound, mouse, ox, steer, sow, weather, door, timber, thatch (amma window yox) axle, nave, wine, whole, yoke kimi sözlər də bu dilin digər german dillərinə nə qədər yaxın olduğunu bir daha təsdiq edir.[22]

İngilis dilinin tarixinə dair bilgilər budur ki, adada ilk əvvəl V-VI əsrlərdə yutlar, saksonlar və anqellər yaşayıb. 597-ci ildə S.T.Avqustun gəlişi və İngiltərənin latınlardan xristianlığı qəbul etməsi bu ölkənin sonrakı taleyində mühüm rol oynayıb.

VIII-IX-X əsrlərdə skandinaviyalıların hücumları, XI əsrdə normanların basqını, XVI əsrdə maarifin artması və XVIII-XIX əsrlərdə ingiliscə danışanların quzey Amerikaya, Avstraliyaya və cənubi Afrikaya miqrasiyası ingilis dilinin sonrakı taleyində mühüm rol oynayıb.

Venerobl Beda təxminən 730-cu ildə latınca yazdığı "The Ecclesiastical history of the English people" adlı kitabında bu barədə geniş məlumat verir və göstərir ki, 3 əsr əvvəl yutlar, henqstlər və horzalar 449-cu ildə Tanet adasında Ebedqlittdə məskunlaşıblar.

Əvvəl yutlar gəlib və kentdə, güney və Vayt adasında məskunlaşıblar. Sakslar İngiltərənin Temz çayından jənubda qalan hissəsini zəbt ediblər, sonra isə anqellər Temzin şimal bölgələrində məskunlaşıblar. Yutlar Yutlandiyadan, sakslar Holştayndan və anqellər Şlezviqdən gəlmədilər. Anqellər öz adlarını güney Baltikada indiki Şlezviqlə Flensberq şəhərləri arasında yaşayan tayfalardan götürüblər.[23] Həm latın, həm də ulu german dilində bu tayfanın adı Angli olub və bu söz qədim ingilis dilində vurğulu saitin irəli çəkilməsi nəticəsində (/a/→/e/; buna bənzər analogiya /man/→/men/, Frankish→French və s.) bu şəklə düşüb. Artıq 1000 ildir ki, Angelcynn "Angle-race", Englaland (land of the Angles) sözləri Britaniyada yaşayan anqel, saks və yutların german mənşəli olmasına işarə kimi mövcuddur.[24]

Əlbəttə, məqsədimiz burada ingilis dilinin tarixini açıb göstərmək deyil. Amma bununla biz demək istəyirik ki, tarixən heç bir dil təmiz olmadığından, german dillərindən ən geniş yayılmışı ingilis dili uzun müddət keltlərlə əlaqədə olmuşdur (bugünkü ingilis adları Aire, Avon, Thames, Trent, London, Dover, York, Leeds, -chester, -cester şəkilçilərilə düzələn sözlər bunu bir daha təsdiq edir). Ölkənin 300 il Roma imperiyasının əsarətində olması, 3 əsr skadinaviyalıların həmlələrinə məruz qalması və nəhayət, XI əsrdə normanların istilası (1066) müasir ingilis dilində dərin iz buraxmışdır.

Vurğusuz saitlərin neytral [ə]-yə doğru mərkəzləşməsi

(centralization of unstressed sounds to the neutral murmur-vowel [ə])[25] əvvəlcə old Northumbrian dialektində işlənirdi, yalnız X əsrdən sonra bu, güneydə də işlənməyə başladı. Ulu german dilində olduğu kimi, qədim və yeni ingilis dilində vurğu kök heca üzərində o zaman olurdu ki, prefiks və suffiks sözlə birgə işlənirdi. Məs.: rise, aȑise, aȑising, see, foreśee, foreśeable, ǵladly, ǵladden, ǵladness, ǵladsome, ќing, ќingly, ќinglike, ќingdom, ќingship.[26] Yunan və latın dilindən keçmə sözlərdə isə vurğunun yerdəyişməsi bu gün də qalmaqdadır. Məs.: 'telephone, tèlephony, telephónis, 'family, familar, fámilarity.

Qədim ingilis dili qeyri-flektiv dil idi, amma yunan, latın və qot dillərində olduğu kimi də qeyri-flektiv deyildi. O, hind-Avropa sintetizmindən, müasir ingilis dilindəki analitizmə doğru inkişaf etdi. Söz sırası müasir alman dilindəkinə bənzəyir, amma əvvəl elə bir ciddi qayda olmayıb. O, müəyyən modellərə uyğun gəlir, xüsusilə, tabeli cümlələrdə. Amma buna baxmayaraq mübtəda və xəbər baş cümlədə sərbəst şəkildə yerini dəyişə bilər.

Kral Alfredin (871-899) yazışmalarındakı dil xüsusiyyətlərini tədqiq edən alimlər maraqlı nəticələrə gəlirlər. Müasir dildə /If you like and If you please// o zaman /If to it like or please// kimi işlənirdi. Və ya tarixən /him evil likes// (şeytan ona xoş gəlir) indi /He likes evil// və ya /Cold weather likes us not// (soyuq hava bizi xoşlamır) indi /We don't like cold weather// kimi işlənir. Qeyd edək ki, müasir alman dilində bu cür ifadələr indi də qalmaqdadır. Müq. et: /Das gefällt mir nicht.//, /Mir geht's gut// və s. Buradan belə məlum olur ki, qədim ingilis dilində hərəkətin icraçısı cümlənin mübtədası rolunda çıxış etməyə bilirdi.

Sözönülərdə ciddi dəyişiklik var, amma köhnə məna qalır.

Məs.: of-from mənasında-John of Salosbury
at-from mənasında-received at his hand (əlindən almaq)
to-at mənasında-take to wife və s.

Qədim ingilis dilində ismin böyük əksəriyyətinin hallanması üç cür (kişi, qadın və orta olmaqla) idi. father, mother, brother, sister, daughter (ancaq „son“ yox), xüsusi tip hallanmaya aid idi. 7 isim (feet, greese, teeth, men, women, lice, louse, nice), qədim ingilis dilində 25 variantda çıxış edirdi. book, goat və oak da daxil olmaqla, axırıncılar güman ki, beech, geat və each kimi işlənirdi. Lakin 7 söz bu qaydada qala bildi. Man+s qəbul edilmədi, men oldu. /ox/-/oxen/, brethren-qardaşlıq, children-uşaqlar, treen for trees, worden for words, honden for hands, sistren, housen, lambren, ashen, peasen və s.

Bu gün alman dilində der Fuß, die Hand və das Auge olduğu kimi, qədim ingilis dilində foot-kişi, hand-qadın, eye- orta cins idi. İsimlərdən hər biri bu üç kateqoriyadan birinə aid idi. Qədim ingilis dilində woman, queen və wife sinonim idi, anjaq birinci kişi, ikinci qadın, üçüncü isə orta cinsə aid idi. Horse, sheep və maiden orta, earth-qadın, land-orta cins idi. Sun-qadın, ancaq moon-kişi, day-kişi, night isə qadın cinsinə aid idi. Qədim ingilis dilində qrammatik cinsdən danışmaq olmaz, çünki yunan və latında olduğu kimi, bu dildə də cinsin qrammatik göstəricisi yox idi.[27]

Bu gün ingilis dilində işlənən sözlərin çoxu Skandinaviya dillərindən keçmədir. By (Derby, Whitby), beck (brook deməkdir) Birkbeck, Troutbeck, keld (spring) Hallikeld, Trinkeld, -rigg (ridge) Grossrigg, Lambrigg və s. kimi sözlərdəki şəkilçilər, Trigg (true), store (great), lait (to seek) və s. kimi sözlər,[28] standart danışıqda no and nay, from and  fro, edge and egg kimi ifadələr, calf, leg, skin, buall, kid, axle, trust, want and window və s. sözlər Skandinaviya dillərindən gəlmədir. Skandinaviya dillərində çox fel (məs.: rive, scare, snub və s.), əvəzliklər (məs.: they, their, both and same) bu dilə Skandinaviya dillərindən gəlib.[29]

Sister ulu sözü şimaldakı systir sözündəndir. Çoxları bunu qədim ingilis dilindəki swester-dən düzəldiyini güman edir. Qədim norz dili 10-cu əsrdən 12-ci əsrə qədər Şotlandiyada işlənirdi. Kral Knutun ölümündən sonra (1035) taxt-

taja yiyələnən Fransada doğulmuş kral Eduardın dövründə Skandinaviyanın təsiri norman Fransasına keçdi (nor-man-d-y və ya Northmens land). 300 ildən çox bir müddətdə ingilis kralları fransızca danışıblar. Henri Bolinbrok (1399-1413) C.Çoserin (1340-1400) ölümündən bir il əvvəl taxta oturmuş normanlardan sonra ilk kral idi ki, onun ana dili ingilis dili idi.[30]

3 əsr ingilis ədəbiyyatı üçdilli olub (ingilis, latın (əsasən kilsə) və fransız). 1362-ci il oktyabrın parlament iclası öz işinə ingilisjə başladı.

Royal ordusunda, hüquqda və başqa sahələrdə fransız dili işlənir. C.Çoser "Statute of Pleading" qəbul ediləndə (1362) 22 yaşında idi, o, həyatı boyu fransızca və italyanca danışıb, amma ən böyük poemalarını ingiliscə yazıb. O, əsərlərində 8 min söz işlədib, onlardan 4 mindən bir qədər az söz roman dillərindəndir. Çağdaş ingilis lüğətinin yarısı german (ingilis və Skandinaviya) və yarısı roman (fransız və italyan) sözləridir.[31]

Prince, peer, duke, marquis, baron, people, nation - ingilisjədir; king, Queen Town, hall, house, home, city, village, palace, mansion, residence - fransızcadır. Law- Skandinaviya sözüdür, jury, juridical və s. fransız, ox, swine, calf-ing., buf pork veal-fransız, boil, broil, try, grill, roast, souse, toast-fransız, breakfast-ing., dinner və supper-fransız sözləridir.

"İncil"in ingilis dilinə tərcüməçisi John Wycliff (1320-1384) və ilk kitab naşiri William Caxton (1422-1491) ingilis ədəbi dilinin formalaşmasında mühüm rol oynayıblar.

C.Çoyserdən sonra ingilis dili Şekspir, Milton və Sviftin əllərində daha təmiz oldu.[32] 18-ci əsrin ortalarında belə çoxları öz əsərlərini latınca yazırdı. Stratfordda doğulmuş və yaşamış Şekspirin heç zaman öz dialekti Varviksşiyedən (Warwiekshire) imtina etməyə ehtiyacı olmayıb. Qədim ingilis dili 5-ci əsrdən norman istilasına qədərki (1066) tarixi əhatə edir, müvafiq olaraq 1100-cü ildən orta ingilis dövrü (1100-1600) başlayır. «Yeni ingilis dili» dövrü isə 16-cı əsrdən bəri olan dövrdür.

Məhz yeni dövrdə ümumi ingilis dili (Standard English) və ədəbi tələffüz norması (Received Pronunciation), məşhur anqlist A.İ.Smirnitskinin (1903-1954) təbirincə desək, London yazılı dil variantı əsasında meydana gələrək təşəkkül tapdı.33 Başqa sözlə desək, London dil norması onun şimalında şərqi-orta ingilis dialektinə əsaslanaraq yarandı.34 Bu proses tədricən Şotlandiyaya da yayılmağa başladı.

Şimal dənizi sahilində güneydə yaşayan germanlara frizlər deyilir. Onlar friz dilində danışırlar. Niderlandın şimalında Frizlandda təxminən 0,5 milyon adam bu dildə danışır. Ölkənin paytaxtı Lyouvertdir.

Bu dili bəzən anqlofriz terminilə də göstərirlər. Bu gün Şlezviq-Holştaynda dar bir zolaqda işlənən dialektə doğu, Saterlanddakı dialektə şərqi və Frizlandın qərbindəki dialektə isə batı friz və ən geniş ərazidə işlənənə isə orta friz dialekti deyirlər. Qədim friz dili qədim ingilis dilinə daha yaxın idi. Müasir friz dili isə orta friz dialekti zəminində formalaşıb.

Bəzi mütəxəssislər bu gün Almaniyanın şimalında yaşayanların əksəriyyətinin sakslar olduğunu söyləyirlər. Onlar anqel və yut tayfaları ilə birlikdə Böyük Britaniyanın işğalında iştirak ediblər. Onların kökləri herminonlara və inqevonlara gedib çıxır. Saks sözü qədim sakson dilində «sahs» (bıçaq, qılınc) sözündən götürülüb. Bəzi ədəbiyyatda «qədim sakson dilinə qədim aşağı alman dili» də deyilir.

## II. 3.4. Güney germanları

Romalılar uzun müddət germanları keltlərdən fərqləndirə bilmirdilər. Onları Teutonen (e. ə. təxminən 1-ci əsr) adlandırırdılar. Yuli Sezar germanlara qarşı vuruşmağa məcbur idi. Tatsitusun vaxtında isə güney germanları Dunay-Rayn çaylarını keçmişdilər. Tezliklə Rayn sahilindən istevonlar, Şimal dənizi sahilindən inqevonlar və Elbe sahilindən herminonlar birləşərək güclü mədəni ittifaq yaratdılar. İstevonlar sonralar franklar, inqevonlar, anqellər, frizlər, sakslar, herminonlar isə

şvablar və lanqobardlar adı ilə çıxış edirdilər. İtaliyanın şimalında Lombarday adında dövlət yarandı. Onlardan isə türingiyalılar, alemanlar və bavariyalılar törəyir.

İstevon batavarlarının dialekti müasir daç dilinin əsasını təşkil edir. Aşağı frank dialektlərindən bugünkü aşağı alman dialektləri yaranmışdır. Merovinqlərin və korolinqlərin vaxtında çiçəklənən franklar hazırkı Fransa və Almaniyada yaşayanların əcdadlarıdırlar. Orta və yuxarı frank dialektlərindən orta və yuxarı alman dialektləri formalaşıb. Qərbi franklar isə qalliya-roman əhatəsinin təsirinə məruz qalaraq fransız dilini əmələ gətirdi.[35]

Orta əsr alman dialektlərindən idiş dili yaranıb, ABŞ və İsraildə danışılır, ancaq İsrailin dövlət dili ivritdir. ABŞ-ın Pensilviani ştatında danışılan pensilvian dili Pfaltsdan gəlmədir.

Son dövrl ər Niderland (daç) - aşağı alman və alman ədəbi dili bölgüsü irəli sürülür. Özü də inqevon, istevon və herminon terminləri əvəzinə sahil alman dili, iç alman dili və Alp boyu-güney alman dili terminlərini işlədirlər.

Bütün bunlar üçün relevant əlamətlər aşağıdakılardır:

1. Batı german qeminasiyası (samitlərin uzun tələffüzü). Məs.: germ. bidjan > batı germ. biddjan (bitten), anqlosaks biddian-biddan, afr. bidda; germ. akkar, q.a.d. Acker, afr. ekker, qot d. akrs. Deməli, german dilində /j, w, r, l/ qarşısında gələn samitlər güney german dillərində uzun tələffüz olunur.

2. German dilində sonda gələn /s/ güney german dilində düşür. Məs.: qot d. dags, anqlos. doegj, q.a.d. tag

3. Mühüm qrammatik əlamət kimi hallanan qerundun olması idi. Müq.et: anqlos. niman-to nimenne (Dat), q.a.d. nëman- nëmannes (Gen.) -zi nëmanne (Dat.) nehmen

4. Sözdüzəldici şəkilçinin olması. Müq.et: q.a.d. heit, anqlos-hād(heit), afr. hēd-vəziyyət, hal; q.a.d. Magatheit, anqlos. Mugəhād, aşağı a.d. maidenhood - bakirəlik; q.a.d.

tuom, qot d. doms- məhkəmə, hökm; q.a.d. scaff-schaff, anqlos. scap- yaratmaq.

Batı german dillərində ikinci fonem irəli çəkilməsi o birilərdən alman dilini tamamilə ayırmağa imkan verir. Yəni yuxarı alman, idiş və pensivian dilləri bu dəyişikliyi ya tam, ya da qismən keçmişlər, amma aşağı alman, daç, afrikan, həmçinin şimal dəniz german dili (ingilis, şotland və friz dilləri) əvvəlki ümumi german dilləri səviyyəsində qalmışlar.

### II.3.5. Daç (flamand, Niderland, holland) dili[36]

Bu dil Niderland krallığının (12 milyon) və fransız dililə birlikdə Belçika krallığının (10 milyonun 54%-i) dövlət dilidir. Bu dil həmin ölkələrdə danışılan frank, saks və friz dialektlərindən əmələ gəlmişdir. Bundan başqa İndoneziya, Zair, Surinam, Qayana və s. ölkələrdə də bu dil danışılır. Böyük Karlın ölümündən sonra Niderlandın güneyi lotaringiyalılarla birləşsələr də, burada XII əsrdə artıq knyazlıqlar yaranır. Onlar 1482-ji ildən habsburqlara tabe olublar. V Karl (1555) bu əraziləri ispan kralı II Filipə bağışlayır. Lakin V. fon Nassau quzey bölgələrini azad edir, yalnız 30 illik (1618-1648) müharibədən sonra Niderlandın müstəqilliyi tanındı. (1648-ji il, Vestfal sülhü). XVII əsrdə Niderland inkişaf edərək öz jənub əyalətlərini XIV Ludviqin ordularından xilas etdi. Sonralar ingilis-Niderland ittifaqı güney bölgələrinin ispanlardan azad edilərək Avstriyaya daxil olmasına şərait yaratdı. Lakin Napoleon onları 15 illik müvəqqəti müstəqillikdən sonra Fransaya qatdı. 1815-ci il Vyana konqresində Belçika və Holland krallıqları birləşdi, lakin 1830-cu ildə Belçika inqilabı cənub bölgələrinin ayrılmasına gətirib çıxardı. 1830-ju il London müqaviləsinə əsasən Belçika krallığı Avropa ölkələri tərəfindən tanındı. I Dünya müharibəsində Niderland müstəqil idi, Belçika isə zəbt olunmuşdu. II Dünya müharibəsində isə Niderland da təslim oldu. Lakin müharibədən sonra Belçika (Zair 1960) və Niderland öz koloniyalarından (İndoneziya 1949, Surinam

1954) əl çəkməli oldular.

1947-ci ildə Belçika, Niderland və Lüksemburq Benilüks dövlətləri birliyini yaratdılar, 1949-cu ildən onlar NATO-nun, 1957-ci ildən isə Avropa Birliyinin üzvləridirlər.

Ən qədim abidələri Niderfrank qlosslarıdır (Malberq qlossları), IX-X əsrdən qalma psalmlar, həmçinin yer və şəxs adlarıdır. XII əsr minezenqeri Haynrix fon Veldekenin, XIII əsr flamand Yakob van Maerlandın əsərləri mühüm yazılı mənbələrdir. 1619-1637-ci illərdə tərcümə edilmiş „İncil" daç dilinin qrammatikasının yaranmasında mühüm rol oynadı.

Daç dili tarixən üç mərhələyə bölünür: 1. Qədim Niderfrank dövrü (Oudnederfrank: VII-XI əsrlər); 2. Orta dövr (Medelnederland: XII-XVI əsrlər); 3. Yeni dövr (Niewnederland: XVII əsrdən sonra). Birinci dövrdə ikinci fonem irəli çəkilməsi müşahidə olunmur, umlaut işlənir (məs.: betero- qot d. batiza, heri-qot d. harris və s.) qeminasiya (məs.: pennen - lələk, potten - qazan) və german dillərinə xas olan adlıq hal şəkilçisinin düşməsi (qot d. dag- germ. dagaz-dag və s.).

İsmin üç cinsi vardı və o, kökündəki sait və samitə görə müxtəlif klasslar üzrə təsnif olunurdu. Sifət zəif və güjlü hallanırdı. Orta dövrdəki vurğusuz hecaların zəifləməsi hal sonuqlarının neytrallaşmasına gətirib çıxardı. XV-XVI əsrlərdə alman və fransız dillərinin təsirilə daç dilində analitik formalar inkişaf etməyə başladı.

İlk qrammatika kitabı 1584-cü ildə Amsterdamda çıxan "Twespraak der Nederduytsche Letterkunst" - dur. XVII əsrdə Fransa Akademiyası kimi Nil Volentibus Arduum qurumu yarandı. 1805-1806-cı illərdəki orfoqrafiya qaydaları 1947-ci ilə qədər davam etdi. 1947-ci il orfoqrafiyası uzun saitləri göstərən işarələri ləğv etdi, qoşa yazılan samitləri sadələşdirdi.

1837-ci ildə Yan Frans Villemsin yaratdığı "Flamand hərəkatı" fransız dilinin rəsmi dil kimi işlənməsinə qarşı çıxış etdi və 1841-ci il Qentdə keçirilən dil konqresi daç dilinin işlənməsini rəsmiləşdirdi və valonların fransızcasını sıxışdır-

mağa başladı. 1886-cı ildə Flamand Kral Akademiyası Belçikada flamand həyat tərzini bərqərar etsə də, indiyə kimi flamand-valon dil qarşıdurması davam etməkdədir.

Müasir daç dilində "ie, œ, eu" diqrafları müvafiq olaraq /i:/, /u:/, /ş:/ fonemlərinin verilməsinə xidmət edir. Məs.: ziek /zi:k/- xəstə, hoed /hu:t/ papaq, doer /dş:r/- qapı və s. Uzunluq qoşa yazılmaqla da bildirilir. Məs.: maar /ma:r/-ancaq, zee /ze:/- göl, oo /o:/- noord /no:rt/ şimal, duur /dy:r/- baha. Açıq hecada saitin uzunluğu qalır. Məs.: steen /ste:n/- daş; anjaq stenen /ste:nə/- daşlar. u /y, y:/ və /œ/ fonemlərinin verilməsinə xidmət edir. Məs.: nu /ny:/-demək, indi, ancaq nut /nat/- xeyir. Vurğusuz hecalarda e, i, ə bir qayda olaraq [ə] kimi tələffüz olunur. Məs.: zitten /zitən/-oturmaq, monnik /monək/- rahib, lelijk /le:lək/-kifir və s. Əcnəbi sözlərdə "y" /i/ və ya /y/ saitlərini, Niderland adlarında isə /ei/ diftonqunu verir. Məs: Dyck /dεik/.

Diftonqlar: /ou/, / εi/, /œi, œy/, /y:u/, /a:i/, /o:i/, /u:i/, /i:u/ və /e:u/.

/p,t,k/ samitləri nəfəsli tələffüz olunmur. Söz sonunda və qüvvətli samitlərdən əvvəl "g" /x/ fonemini əks etdirir. Məs: droog /dro:x/-quru, liegt /li:xt/-yalan danışır, başqa vəziyyətlərdə isə novlu samitin verilməsinə xidmət edir. Məs.: goed /gu:t/-yaxşı, dagen /da:gən/-günlər.

/b/ və /d/ samitləri auslautda kar samitlərlə əvəzlənir. Məs.: "ik heb"-/ik hεp/-varımdır, brood /bro:t/-çörək və s. Sözün əvvəlində "sch" /sx/, sözün sonunda saitdən sonra isə /s/ fonemini əks etdirir. Məs: schip /sxip/-gəmi, amma belgisch /belgis/.

/ʃ/ fonemi isə "sj", "stj" qrafem birləşmələrilə verilir. Məs.: sjaal /ʃa:l/-şal, meisj"e /"mεiʃə/-qız, kastje /kaʃə/-sandıqça.

"W" zəif dodaqlanan dilönü samitini /v/, "v" isə /f/ foneminin cingiltili tayını bildirir. Məs.: water /va:tər/-su, ancaq vader /va:dər/-ata.

"c, x, y, q" əsasən əcnəbi sözlərdə işlənir. /s/ sait qarşısında /z/-la əvəzlənir. Məs: huis /hœys/-ev, ancaq huizen

/hoyzən/-evlər. "sh" birləşməsi ancaq /x/ fonemini bildirir. (Məs.: nasht /naxt/-gecə, nishtje /nixjə/-əmiqızı), ancaq əcnəbi sözlərdə /ʃ/ fonemini də göstərə bilir. Məs.: machine /maʃi:nə/.

Vurğu saitin üzərindəki akut /'/ işarəsilə göstərilir. Məs.: een-bir, yyn təkjə, yalnız və s.

İsmin üç cinsi var, ancaq kişi və qadın cinslər birləşməyə meyllidirlər. Məs.: de Man(m)- kişi; de Vrouw(f)-qadın, het bosk(n)-orta.

Cəmdə müxtəlif kök klassları aradan çıxmış, yalnız üç cəmlənmə növü qalmışdır:

1. -(e)n- man - mannen, vrouw - vrauen, bosk - bosken və s.
2. -s-oom-ooms (əmi), kamer-kamers (otaq) və s.
3. -eren-kind-kinderen və s.

Bəzən kök saiti cəmdə dəyişir. Məs.: stad-steden (şəhər), schip-schepen və s.

Hallanmada əsasən qenitiv qalmaqdadır. Məs.:

de hoed eens goeden mans- yaxşı kişinin papağı

de hoed eener goede vrouw-yaxşı qadının papağı

Lakin van hal şəkilçisini sıxışdıraraq aradan çıxardır.

Məs.: de hoed van den vader- atanın papağı.

Nadir hallarda, yəni daşlaşmış ifadələrdə dativ şəkilçisi işlənir. Məs.: ten allen tijde- hər zaman və s.

Cümlədə, ingilis dilində olduğu kimi, sözlər arasındakı əlaqələr əsasən sözönülərlə verilir.

Artikllər bunlardır: de-der/die, het~'t-das.

Qeyri-müəyyən artikl een sayı ilə üst-üstə düşür. Sifət qüvvətli və zəif formalarını saxlayır.

Məs.: het goede bosk-das gute Buch

een goed bosk-ein gutes Buch

Şəxs əvəzlikləri üçünjü şəxs təkdə cinsə görə fərqlənir, (hij-er, zij-ze-sie, het-es); jəmdə isə bu fərq aradan çıxır (Məs.: zij-ze-sie).

Felin indiki (ik houd-ich halte) və preteritum (ik hield-ich hielt) zamanları sintetikdir.

Mürəkkəb zaman formaları /helben/-haben və /zijn/-sein köməkçi fellərilə düzəlir. Perfekt/ik heb gehouden//-ich habe gehalten, pluskvamperfekt/ik had gehouden//. Futurum (zullen)-sollen felilə düzəlir. Məs.: /ik zal houden//. Hərəkət bildirən fellər /sijn/ felilə düzəlir. Məs: /ik bin gegaan//-ich bin gegangen (Perfekt); /ik wes gegaan// (Plusquamperfekt).

Passiv "worden", vəziyyət passivi isə /zijn/ felilə düzəlir. Məs: /het ei wordt gekookt//- (Das Ei wird gekocht) və /het ei is gekookt// - (Das Ei ist gekocht).

Felin nominal formaları: infinitiv (məs.: houden), prezens partisip (houden(e)) və preterit partisip (gehouden)

Fellər qüvvətli və zəif olur. Qüvvətli fellər 6 ablaut sırasına bölünür.

Qüvvətlilər:

1. grijpen-greep-grepen-gegrepen (greifen)
2. bieden-bood-boden-geboden (bieten)
3. binden-bond-bonden-gebonden (binden)
4. numen-nam-namen-genommen (nehmen)
5. lezen-las-lazen-gelezen (lesen)
6. waren-voer-voeren-gevaren (fahren)

Zəiflər:

1. hopen-hoopte
2. branden-brandde

Preterito-prezentiya felləri german dilləri tipində qalıb.

weet-weiß; kann-konnen; mag; zal;moet; wil;

Prdt. wist; kon (Pl. konden); mocht; zou; moest; wou (wilde).

Atematik fel dəyişir:

ben-bin; bent-bist; is-ist; zijn-sind; was-war;gewest-gewesen.

Şəxs sonluqları:

| Prät. Sing. | Pl. |
|---|---|
| I.-lach, II, III-lacht / lachte | I, III-lachen, II-lacht, lachten |

Flamand dialektində fransız dilinin təsiri nəticəsində

çoxlu qallisizm mövcuddur, holland dialektində isə friz və sakson elementləri çoxdur.

Məs.:

| Niderland | Flamand |
|---|---|
| /ik weet niet wat te zeggen// | /ik weet niet wat zeqsen// |
| /Ich weiß nicht,was zu sagen// | /ich weiß nicht, was sagen// |
| sechetaris | geheimschrijver (Sekretdr) |
| redacteur | q.a.d. Geheimschreiber |
| | Obsteller və s. |

## II. 3.6. Alman dili

Artıq eradan əvvəl birinci əsrdə və eranın I əsrində Rayn sahillərini və indiki Avstriyanı romalılar zəbt etmişdilər. Toytoburqer döyüşündə (Vestfalen) Arminiusun rəhbərliyi altında germanlar romalıların şimala yürüşünün qarşısını aldılar (miladın IX ilində). Eranın IV-V əsrlərində germanlar romalıları sıxışdıraraq, bavarlar, şvablar və almanlar artıq bugünkü güney Almaniya, Avstriya və İsveçrəni tutdular. Batıda və quzeybatı frank tayfaları Qalliya əyalətlərinin xarabalıqları üzərində öz dövlətlərini qurdular. Anqel-sakson və irland missionerləri quruda yaşayan german tayfalarına xristianlığı qəbul etdirdilər. Elbedən doğuda məskunlaşan slavyanlar da xristianlığı qəbul etdilər. Fransanın süqutundan sonra karolingiyalıların şərqində IX əsrdə Ludviq Doyçun krallığı yarandı. Sonralar norman, macar (türk-F.Y.) və slavyanların basqınları nəticəsində mərkəzi hakimiyyət zəiflədi, frank, şvab, bavar, sakson və Lotaringiya hersoqluqlarına parçalandı. Yalnız I Haynrix və 962-ci ildə kral taxt-tacına yiyələnən I Ottonun vaxtında mərkəzi hakimiyyət yenidən bərpa edildi. Bu da müqəddəs Roma reyxində alman və italyanların birləşməsilə alman millətini yaratdı. Kral, daha doğrusu, kayzer alman knyazlıqları-kurfürstlər tərəfindən seçildi. Erkən orta əsrlərdə kayzer hakimiyyəti əslində feodal və kilsə zadəganlarının əlinə keçdi.

30 illik müharibə nəticəsində (1618-1648) Niderland və İsveçrə reyxdən ayrıldılar. Habsburqlar Avstriyada çoxxalqlı dövlət qurdular, quzeydə isə Prusiya krallığı yarandı. Pruslarla habsburqlar arasında hakimiyyət dartışmalarına Napoleonun hüjumu son qoydu. 1806-1807-ci illərdə Napoleon kayzer II Fransı məğlub edərək roma-alman reyxinə son qoydu və Prusiya bir neçə ərazini Fransaya güzəştə getməli oldu.

16 kiçik dövlət birləşərək Rayn ittifaqını yaratdılar. Vyana konqresi 1814/1815-ci ildə alman knyazlıqlarının sayını azaltdı, anjaq knyaz federal idarəetmə sistemini bərpa etdi və Almaniyanı federativ dövlət elan etdi.

1848-ci il inqilabı birləşmə jəhdlərinin uğurla başa çatmasına və Frankfurt parlamentinin yaranmasına gətirib çıxartdı. Prusiya tədricən habsburqları alman siyasi həyatından sıxışdırıb aradan çıxartmağa nail oldu. Avstriya-Prusiya müharibəsi (1866) və alman-fransız müharibəsindən (1871) sonra Otto fon Bismark şimali alman ittifaqının kansleri seçilərək Prusiyanın hegemonluğuna nail oldu. 1871-ci ildə Prusiya kralı I Vilhelm birləşmiş alman reyxinin (II) kayzeri oldu. 1934-cü ildə alman kömrük birliyi, vahid reyxstaq və iqtisadi birlik yaratmaqla yanaşı Prusiya, Bavariya, Vürtemberq, Saksoniya-Vaymar, Meklenburq böyük knyazlıqlarının, habelə bir neçə kiçik feodal ərazilərinin, həmçinin liman şəhərlərinin (Hamburq, Bremen, Lübek) müstəqilliyinə toxunmadı.

Almaniya sürətlə inkişaf edərək Avropanın mühüm iqtisadi və hərbi dövlətinə çevrildi. Dünyanın yenidən bölüşdürülməsi uğrunda mübarizə I Cahan müharibəsinə gətirib çıxartdı.

1918-ci ildə Almaniya məğlub olmalıydı. Kayzer taxtdan salındı və Berlində Vaymar Respublikası elan edildi. 1933-cü ildə sağ-ekstremist şovinist qüvvələr A.Hitlerin nasional-sosialist partiyasını hakimiyyətə gətirdi və bu da Almaniya tarixində III dəfə reyxin yaranmasına səbəb oldu. İkinci dünya müharibəsində Almaniya məğlub oldu və onun ərazisi 4 istila zonasına bölündü. 1949-cu ildə Almaniyada iki dövlət- AFR və

ADR yarandı. 1990-cı ildə isə yenidən dinc inqilab nəticəsində vahid alman dövləti - AFR yarandı ki, bu da 16 federal əyaləti özündə birləşdirir.

Mütəxəssislər tarixi baxımdan alman dilinin tarixini üç dövrə bölürlər:

1. Qədim alman dili dövrü (q.a.d.)- VIII-XI əsrlər
2. Orta alman dili dövrü (o.a.d.)-XI-XIV əsrlər
3. Yeni alman dili dövrü (y.a.d.)- XIV əsrdən hal-hazıra qədərki dövr

Q.a.d.: Hamburq və Vürtsburq yazıları, mətnlər, kilsə mahnıları, latın dilindən tərcümələr, Hildebrand və Lüdviq nəğmələri (Hildebrandslied, Ludwigslied) kimi yazılı abidələr mövjud idi.

X əsrdə latın dili alman dialektlərini sıxışdırırdı. Anjaq X-XI əsrlərdə St.Qallen monarxı Notkerin alman dialektində dini-fəlsəfi əsərləri yarandı.

German xalqlarının miqrasiyası haqqında yazılar bizə latın və şimal dialektləri vasitəsilə gəlib çatmışdır.

XI əsrdə Kristi Vundernin «Ezzolied» əsəri artıq orta dövr alman dilinin başlanğıcı idi. Saray və cəngavərlik minne-zenqer poeziyası bu dövrdə güclü inkişaf edir.

Artıq Valter fon der Foqelvaydenin lirikası yaranırdı. Xalq eposları (Nibelungenlied, Kudrunlied və s.) meydana gəlirdi. Orta dövr alman dili vahid alman dili kimi formalaşırdı. Yazı məhsullarının artması və kitab nəşrinin kəşfi (Y.Qutenberq, 1397-1468), M.Lüterin (1483-1546) "İncil"i tərcümə etməsi və digər əsərlər bu dövrün sonrakı dil inkişafına güclü təkan verdi.

Qədim alman dili dövründə alman ədəbi dili (Hoch-deutsch), ikinci fonem irəli çəkilməsi (alman) başa çatdı və aşağı alman deyilişindən ayrılaraq yuxarı və orta alman qruplarına bölünürdü.

Bu dövrdə yazılı abidələrdə lingua vulgaris (xalq dili) terminilə yanaşı german dillərində ðiuda ~ ðeoda (xalq) sözləri də işlənirdi. 786-cı ildə ilk dəfə bu söz Teodiscus formasında

işlənib, özü də ingilis dilinə aid edilib. Amma karolinqer reyxində frenk sözünü də eyni terminlə ifadə edirlər. Sonralar latın mənbələrində artıq almanları bildirən ad kimi işlənirdi. Q.a.d. diot/diut (xalq)- -isk→isch suffiksilə diutisch yaranır, bu da „xalq« demək idi. Orta əsrlərdə diutsch /truitsch/ yeni alman dilində t/h/utsch-deutsch alman dilinə aid olub, geniş mənada həm də aşağı alman və Niderland dillərini bildirir. Amma əksər mənbələrdə german dilləri işlənir ki, bu da bütün german dillərini əhatə edir.

Qədim alman dilində 16 sait fonem vardı:

| Monoftonqlar | Diftonqlar |
|---|---|
| i u i ū | iu io ie uo |
| e o ē ō | ei ou[37] |
| a ā | |

Samitlər: /p/,/f/, /b/, /p͜f/, /t/, /d/, /s/, /z/, /ʒ/, /ch/, /k/, /g/, /h/, /w/, /m/, /n/, /l/, /r/, /j/

Lakin saitlər[38] sistemində i-umlautu nətijəsində jiddi dəyişikliklər baş verirdi. Bu da sonra gələn i və c səslərinin kök saitini dəyişdirmək qabiliyyətindən irəli gəlirdi.

/a/ → /e/ - qot d. satjan, q.a.d. setzen, gasteis, q.a.d. gesti (qonaq)

/ô/ → /œ/ - mohti-möhte (möchte)

/ō/ → /ø:/ - skōmi-schœne

/ū/ → /ü/ - suntea-Sünde

/ū/ → /iu/ - hüti(Häute)-hiuti

/uo/ → /üe/ - gruoni-grüene

/ou/ → /öu/ - gouni(Gau)-göu və s.

Samitlərin (c-dan başqa) hər birinin uzun qarşılığı vardı.

Bu dəyişikliklər heç yazıda öz əksini tapmırdı, çünki onlar relevant deyildi. Sonra bu dəyişməni doğuran son hecadakı "i, y" unifikasiya nəticəsində neytrallaşaraq ötəri [ə]-də reallaşdığından saitin umlautlaşması fonoloci funksiya yerinə yetirməyə başladı. O dəyişikliklər relevant olduğundan yazıda

göstərilməyə başlandı. Beləliklə, əvvəl allofon kimi çıxış edən saitlər sonralar fonem statusu qazandı. Elə buna görə də orta dövr alman dilində 24 sait fonem oldu.

| Monoftonqlar | Diftonqlar |
|---|---|
| i ü u ī ü ū | (iu) ie üe uo |
| e ö o ē | ö ō ei öu ou å |
| | a œ ā |

Orta dövr alman dilində aşağıdakı samit fonemlər var idi: /p/, /b/, /p̣f/, /t/, /z/, /d/, /ʃ/, /ʒ/, /k/, /g/, /ch/, /h/, /w/, /j/, /m/, /n/, /l/, /r/, /sch/,=/sx/ və ya /sk/[39]

Yeni dövr alman dilində 17 sait (14 monoftonq və ʒ diftonq) və 23 samit formalaşır.

| Saitlər | | | Samitlər |
|---|---|---|---|
| Monoftonqlar / Diftonqlar | | | |
| /i:/ | /⊥/ | /a͜e / | /b/,/p/,/v/,/f/,/p͜f/,/m/ |
| /y:/ | /ü/ | /⊃͜ø/ | /d/,/t/,/r/,/s/,/ʃ/,/t͜ʃ/, |
| /e:/ | /ɛ/ | | /t͜s/,/n/, /j/, / ç/, |
| /ø:/ | /œ/ | | |
| /u:/ | /ʊ/ | | /g/, /k/, /x/, /ŋ/ |
| /o:/ | /⊃/ | /a͜o/ | /l/ |
| /a:/ | /a/ | | /R/ /h/ |

Beləliklə, fonoloji sistemdə ciddi evolusiya baş verir:

Diverqensiya konverqensiya innovasiya

1. /o/ → /o/, /⊃/

2. /ie → /i:/, /⊥/

3. sch= /ʃ/

Dilin fonem sistemində yeni fonemin yaranması səbəbləri ilkin olaraq fonetik mövqe və əhatə ilə bağlı olur. Məs., q.a.d. *sein* feli ind. preteritumda un şəkilçisi (müq. et-/warun/), konyunktivdə isə in şəkilçisi (müq.et wärin) qəbul edirdi. Beləliklə, iki qrammatik mənanın ifadəsinə xidmət edən bu fərqlər sistemdə də müvafiq olaraq əks olunurdu: /ɛ:/ - /e:/. Sonralar unifikasiya nəticəsində bütün sonluqlar [ə] - də özünü göstərdi. Fərqləri doğuran səbəblər yox oldu, ancaq sistemdəki iki fonem qarşılaşması qaldı. Lakin yeni dövr alman dilində onların ayrılıqda fonem kimi qalmasına sistem ehtiyac duymadığından, onlar bir fonemdə birləşdilər: /e:/. Lakin yazıda «d» ənənəyə görə saxlanması bəzi alimlərə əsas verir ki, onların minimal cütlər əmələ gətirməsindən çıxış edərək iki fonemin (/ɛ:/ # /e:/ - Ähre-sünbül, Ehre- vicdan) mövcudluğunu iddia etsinlər. Halbuki onların omonimliyi heç bir şübhə doğurmur.[40]

Digər tərəfdən mövqelərin aradan çıxması yeni fonemlərin yaranmasına səbəb ola bilər. O.a.d. /ç/ /⊥/ foneminin təsiri nəticəsində milich, solich, manich, welich və s. sözlərdə geniş işlənməyə başladı. Lakin sonralar bu faktor aradan çıxsa da, /ç/- nın işlənməsinə zərər gətirmədi və o, tədricən sərbəst fonemə çevrildi.

Qısa şəkildə q.a.d. fonem sistemindəki dəyişiklikləri belə göstərmək olar:

1. İkinci və ya q.alman dili fonem irəli çəkilməsi

2. Sonrakı hecada gələn /a/ saitinin təsirilə (artıq q.a.d. bu /a/ yox olmuşdu) söz kökündəki /u/ və /o/ saitlərinin sınması (Brechung). Məs., germ. gulda> q.a.d. Gold>guldin, gğlden q.a.d. Gulden və ya diota (Volk)-diutisk. Bu bir növ əks istiqamətli sait ahəngini xatırladır: /←/

3. Saitlərin əvəzlənməsi: /ë ~ i/ Məs: nimu (ich nehme), nimis (du nimmst), nimit (er nimmt), nümēn (wir nehmen), nümet (ihr nehmet), nemant (sie nehmen)

4. Sondakı hecada gələn /i/ və /j/-nın təsirilə /a/ /e/-yə keçir. /i/ /j/-nı umlautdan fərqləndirmək üçün buna ilkin

umlaut deyilir /Primärumlaut/. Məs: lat. hostia-q.a.d. gast-gesti, /ū/- da bu dövrdə iu /y:/-yə keçirdi. Məs.: hūt-Haut, hiute-Häute və s.

5. Vurğusuz hecalarda saitlərin proqressiv reduksiyaya uğraması və s.

Qrammatik strukturunda müşahidə olunan xüsusiyyətlər bunlar idi: ismin indiki kimi üç cinsi vardı ki, onlar ulu german dilində olduğu kimi sait köklü klasslara (1. a-əsaslı tag (m), wort(n) ya köklü ilə birgə (hirti(m), enti(n), richi(n) (Reich, Land) və wā-köklü (snēo(m). Schnee, kneo(n)-Knie; 2. o-köklü (geba(f) Gabe jō-köklü (hiltia(f)-Kampf və wō-köklü (triuwa(f)-Treue); 3. i- köklü (gast(m) anst(f)-Gnade, meri(n)-Meer; 4. u-köklü; (fridu(m)-Friede, hand(f)-Hand, fihu(n)-Vieh bölünürdü. Sonra isə üç samit köklü klaslar vardı. 1.n-köklü (zəif hallanma). Məs: hano(m)-Hahn, Zunga(f)-Zunge, ouga(n)-Auge; 2. r-köklü (qohumluq bildirən sözlər) bruoder(m)-Bruder, swester(f)-Schwester; 3.nt-köklü friunt (m) - Freund. İri klaslar (a, ō və i- köklülər) xırdaları aradan çıxarırdı.

Sifətlərdə n-köklülər zəif hallanmaya doğru gedirdi. a, ō (Məs: guot (m, f, n) - gut) ja və jō (māri(m,n,f) - berühmt, wa və wō- əsaslılar (gilo-gël(a) wes) (m,n)- güclü fleksiya olduğundan hələ qalırdı. ein, zwei, drei miqdar sayları cinsə görə fərqlənirdi və sifət kimi dəyişirdi. Məs.: ein, eine, zwēne(m) zwā/zwō(f), zwei(n), dri(m), driō(f), driu(n).

Əvəzlikdə dualis vardı. nukër (zweio)-hər ikimiz. İşarə əvəzliklərində instrumentalis qalırdı. Məs.: diu (dër/ daz/-damit, mit wem, des(i)u~ dis(i)u-damit, mit diesem və s. Anjaq ismin artıq 4 halı sabitləşirdi.

Şəxs əvəzlikləri üçüncü şəxsdə cinsə görə fərqlənirdi. Məs.: ër, si(u)~si və iz (es).

Fellər qüvvətli və zəif olmaqla iki yerə bölünürdü. Sin, tuon, gān ~ (gēn), stān, wollen kimi atematik fellər vardı. Passiv forması sein və werden köməkçi fellərilə düzəlirdi. Məs.: /ist

wirdit ginoman.//

İndikativ, optativlə (konyunktiv) yanaşı imperativ də formalaşırdı. Şəxs sonluqları var idi. Prezens, preteritum var idi, anjaq prezens həm də futurumu ifadə edirdi.

Leksikon digər german dillərində olduğu kimi idi. Anjaq yunan dilindən çoxlu söz gəlirdi. Məs.: həftə günlərinin qədim bavar dilində işlənməsi: Er(ge) tag (Dicustag) və Pfinztag (Domerstag)- o.a.d. erintag- qot d. areinsdag və s.

Orta dövr alman dilində bu xüsusiyyətlər özünü göstərirdi:

1. Monoftonqlaşma. Məs.: ie>/i:/, iu>/i:/, ei>/ē/, ou>/ō/

2. Diftonqlaşma. Məs.: /i:/-/æ/,/u:/-/a‿o/, /ü:/-/ /⊃‿ø /

3. /t‿s/ afrikatının yaranması. Məs.: zït>/ts̲œt/

4. /h/-nın /ç/və /x/-ya keçməsi. Məs.: rëht>recht, naht>Nacht, amma əvvəldə /h/ qalırdı. Məs.: hunt > /hund/

5. Uzun /k/-nın /sk/ birləşməsilə verilməsi. Məs.: stuck>/stukkə və s.

6. XIII əsrdən başlayaraq /ʃ/ yaranır, rs, st,sp, sl, sn, sm birləşmələrində /ʃ/ işlənir. Məs.: Schif-/ʃ⊥f/,Kirsche-/k⊥rʃə/, Stein-/ʃtæn/, Spiel-/ʃpi:l/, /ʃla:f/ və s.

7. Vurğusuz hejalarda güclü reduksiya nətijəsində bütün saitlərin [ə]-də reallaşması müşahidə olunurdu.

Deyildiyi kimi, son hecada gələn /i/ və /j/ fonemləri /a:/, /o:/, /u:/, /a/, /⊃/, /ʊ/ saitlərinin umlaut qəbul etməsinə güclü təsir göstərirdi. /a/>/d/ keçməsini ikinci umlaut (Sekundrumlaut) adlandırırlar. Məs.: mahti>mähte (Macht-Mdchte), magadi>mägede (Magd) analoji olaraq nagel-nägel və s. Samitlərdə /ʃ/ yarandı, söz sonunda və karlardan əvvəl cingiltililər karlarla əvəzlənir (Auslautsverhdrtung). Məs.: tages-tag, geloubeN-geloupte və s., sonda isə w düşür. Sēwes-(Gen)-sĕ (Nom)-See, Meer.

Bu dövrdə -igi,-egi, -ibi və -idi reduksiyaya uğrayaraq düşür (kontraksiya). Məs.:ligit>-liegt, tregit>treit-trägt, gibit>gît-gibt, guidit>guit-sagt və s.

İsimdə güclü sadələşmə gedir. İnstrumentalis yox olur, sonluqlar [ə]-də neytrallaşır, kök klassları aradan çıxır, paradiqmdə müasir cəmlənmə tipləri qalır. Sifət də güclü və zəif hallanır, amma şəkilçilərdə, əvəzliklərdə elə bir dəyişiklik nəzərə çarpmır. Bu dövrdə işarə əvəzliklərindən artikllər törəyir. Fel ya qüvvətli, ya da zəif olurdu. Atematik fellər qalırdı. Perfekt və pluskvamperfekt işlənməyə başlayır. Sözönləri inkişaf edir. Lüğət tərkibi fransız dilinin təsiri altında zənginləşir. Məs: q.f.d. estival>stieval (o.a.d.) Stiefel, q.f.d. dancer> o.a.d. tanzen və s; ier,ie guffikslərilə sözlər düzəldilir. Məs.: q.f.d. logier> o.a.d. loschieren; o.a.d. zouber > Zauberie - Zauberei və s.; q.fr.d. eshag- o.a.d. Schäch. Slavjan dillərindən tvarog> o.a.d. tware-Quark.

Orta dövr alman dili normasının yaranmasında böyük maarifçi-islahatçı Martin Lüterin rolu əvəzsiz olub. Latın dili tədricən işgüzarlıq aləmindən sıxışdırılır. "İncil"in M.Lüter tərəfindən alman dilinə tərcüməsi, sakson knyazlığında işgüzarlığın nümunəvi inkişafı, Almaniyanın başqa sahələrində dilin vahid istiqamətdə cilalanaraq ümumxalq dilinə çevrilməsində böyük hünər göstərmiş oldu. İlk dəfə „Grammatica Germanicae linguae" əsəri (1578) yarandı. XVII əsrdə yaranan müxtəlif cəmiyyətlər də alman ədəbi dilinin təşəkkülündə mühüm rol oynadılar. Maysen dil xüsusiyyətləri əsasında Adelunq "Alman ədəbi dilinin tam qrammatik tənqidi" lüğətinə bir cəhdlə ilk böyük leksikoqrafik əsər yaratdı. XVII əsrin sonunda Laypsiq Universitetində mühazirələr artıq almanca oxunurdu.

1898-ci ildə T.Zibs „Deutsche Bğhnenaussprache“ kitabı ilə alman orfofonik lüğətinin əsasını qoydu. Bundan başqa XIX əsrin ikinci yarısında vahid orfoqrafiya qaydaları qəbul edildi. 1902-ci ildə alman dili orfoqrafiyasında islahatlar aparıldı. İsveçrəli K. Dudenin nəşrləri bu qaydalara əsaslanırdı.

Yeni alman dilində çağdaş alman dilinin fonem sistemi, prosodiya və intonasiya əlamətləri, morfoloji strukturu və qrammatik quruluşu formalaşıb. Alman dilində anqlisizmlər

olduqca çoxdur. Məs: Streik, Baykott, Parlament, Humor, Konzern, Export, Import. Türk dilindən keçmələr də az deyil: Joghurt, Bazar, Kabab və s. Fransız dilindən keçmələr xüsusi yer tutur. Məs.: Offizier, Leutnant, General, Armee, Mode, Dame və s.

## II. 4. Fəslə dair yoxlama sualları və tapşırıqlar

1. Hind-Avropa dillərinin bölgüsünü verin.
   Linqvistik xəritədə bu dillərin yerini tapın.
2. Kentum və satem dilləri hansılardır?
3. Ulu german dili haqqında nə bilirsiniz?
4. Ulu german tayfalarının adını çəkin.
5. German tayfalarının vətəni haradır?
6. German dillərinin ümumi səciyyəsini verin.
7. İngilis dili haqqında nə bilirsiniz?
8. Daç dilinin ümumi səciyyəsini verin.
9. Alman dili haqqında nə bilirsiniz?
10. Bu dillərin sait və samit sistemlərini cədvəllərdə əks etdirin.

[1] P.Themie. The Indo-European language. In. V.P.Clark, P.A.Eschholz, A.F.Rosa. Language. N.York, 1995, s.587-597.
[2] F.Bopp. Vergleichende Grammatik des Sanskrits, Armenischen, Griechischen, Lateinischen, Litauischen, Altslawischen, Gotischen und Deutschen. Berlin, 1833-1852.
[3] H.Gros. Göstərilən əsər; G.Meier und B. Meier. Handbuch der Linguistik und Kommunika tionswissenschaft. Bd.1. Berlin, 1979. Beləliklə, hind-Avropa dillərində təxminən 2 milyarda yaxın adam danışır.
[4] Jlaus Jürgen Hutterer. Die germanischen Sprachen. Ihre Geschichte in Grundzügen. Budapest, 1975. s.9.
[5] P.von Polenz. Geschichte der deutschen Sprache. Berlin, 1978 (9-cu yenidən işlənmiş nəşri),s. 14-15.
[6] Yenə orada.
[7] C.J.Hutterer. Göstərilən əsər,s. 50.
[8] Claus Jürgen Hutterer. Göstərilən əsər,s. 16-17.
[9] Claus Jürgen Hutterer. Göstərilən əsər,s. 16-20.
[10] Claus Jürgen Hutterer. Göstərilən əsər,s. 43.
[11] İngilis, roman və slavyan ədəbiyyatında bunun əvəzinə yunan sözü apofonik (Aporhonij) işlənir.
[12] C.Jğrgen Hutterer. Göstərilən əsər.
[13] Murad Hacı çox maraqlı tədqiqatlarında belə nəticəllərə gəlir: «İnkivizisiyadan hifz olunan sənədlər göstərir ki, Mərkəzi Avropada türk tayfaları yaşamışdır. Burqundlar, türinglər (Terinq kul-Balxaş gölünün qədim adıdır), saklar, inqlendlər (inq-tapıntı deməkdir) türk mənşəli tayfalardır». Bax: Мурад Аджи . Европа, Тюрки. Великая степь. М.,1988, с.28.
[14] Tacitus. Germania. Leipzig, 1956, s. 4.
[15] В.М.Жирмунский. История немецкого языка. М., 1965.
[16] Claus Jğrgen Hutterer. Göstərilən əsər.
[17] C.J. Hutterer .Göstərilən əsər,s105.Run yazılırının türk mənşəli olması barədə bax: Мурад Аджи. Göstərilən əsər, s.106-113. Təəssüf ki, J.C.Hutterer bu barədə heç nə demir. Run yazılarını hər adam oxuya bilmirdi. Oxumaq sirri açıb demək idi. İngiliscə (to) read, almanja raten, erraten mənasında işlənir.
[18] C.J. Hutterer. Göstərilən əsər,s. 109-113.
[19] Qeyd edək ki, german tayfalarının dili, tarixi və vətəni haqqında ən zəngin material adlardır ki, bunlarla məşğul olan elmə onomastika deyilir. Mübaliğəli şəkildə desək, adlar dilin qəbristanlığıdır. Burada bu məsələ ilə dərindən məşğul olmaq imkanımız xaricində olduğundan maraqlananları yuxarıda adları çəkilən C.Huttererin və S.Potterin kitablarına yönəldirik.
[20] Atlantik okeanında 2 kiçik adada 38000- ə qədər yaşayanların dili.

---

[21] C.J. Hutterer.Göstərilən əsər, s. 142-195.
[22] S.Potter yuxarıda adı çəkilən əsərinin 60-səhifəsində yazır ki, daç dili ingilis dilinə alman dilindən daha yaxındır, ancaq friz dili ingilis dilinə ən yaxın dildir.
[23] S.Potter. Göstərilən əsər, s . 16.
[24] Yenə orada, s. 17.
[25] Yenə orada, s. 20.
[26] Yenə orada, s. 22 .
[27] Yenə orada, s. 24-25. İngilis dilində hind-Avropa mənşəli olmayan sözlərə də rast gəlmək olur: cherup və seraph - həbəş dilindən, zenith və nadir-ərəbcədən, coffee və kiosk türkcədən, bamboo və sago Malayziya dilindəndir.
[28] Yenə orada, s. 29.
[29] Yenə orada, s. 31.
[30] Göstərilən əsər, s. 34.
[31] Yenə orada. 36.
[32] Mütəxəssislər hesablayıblar ki, V.Şekspir 25 min, Milton 12 min, V.Çerçil isə təxminən 60 min söz işlədib. Bax: S.Potter, s. 21.
[33] А.И.Смирницкий. Современный английский язык. М., 1953
[34] C.J. Hutterer. Göstərilən əsər, s. 222.
[35] C.J. Hutterer. Göstərilən əsər, s.251-253.
[36] Mötərizədəki terminlər, göründüyü kimi, ölkə adlarından götürülüb. İngilis dilində bu dil Dutch /d^tʃ/ adlanır. İspanlar 1585-ci ildə Antverpeni tutduqdan sonra güney dialektlərin quzeyə təsiri olduqca gücləndi, çünki istila nəticəsində çoxlu şair və yazıçı quzeyə qaçmışdı. Onlar orada güney danışıq normasını təbliğ edirdilər. XVII əsrdə isə quzey dialektləri (Holland) üstünlüyü yenidən ələ aldı. Bunun bariz nümunəsini Niderland (Niderlandiya) anlayışının Holland (Hollandiya) terminilə indi olduğu kimi o zaman da sıxışdırılması oldu. Niderlandlılar orta əsrlərdə öz dillərini Dietsch /di:t͜ʃ/ və ya Duutsch /du: t͜ʃ/, sonra isə Duitsch /doit͜ʃ/, yəni „doyç« adlandırıblar.XVII əsrdə Hochdeutsch-a münasibətdə Niederduitsch,bu da 1813-cü ildə Niderlandkrallığı yaranandan sonra 1518-ci ildən bəri işlənən Nederlandsch (bu gün Nederlands) anlayışlarını tam sıxışdırdı. Bax: C.J.Hutterer. Göstərilən əsər, s.268.
[37] P.von Polenz. Geschichte der deutschen Sprache. Berlin, 1978, s. 48.
[38] Göründüyü kimi, qədim alman dilində nə /ş / , nə də /ng/ samitləri vardı.
[39] Orta dövr alman dilində /y:/,/y/,/ø:/,/œ/,/iu/, /ie/, /ue/, /ou/ saitləri əmələ gəlir. Samitlər sistemində isə uzunluğa görə qarşılaşma aradan çıxır, /v/, /ŋ/,/ʃ/,/ç/ və /x/, /ts/ və /tʃ/ fonemləri formalaşır.
[40] Fonem haqqında ətraflı məlumat almaq üçün bax: IV fəsil.

# III. GERMAN DİLLƏRİNDƏ SÖZ (LEKSİK LAY)

## III. 1. Söz haqqında ümumi məlumat

Söz həm çox öyrənilən, həm də çox mübahisə doğuran məfhumdur. Əlbəttə, adi dil daşıyıcısı üçün söz başqa dil vahidlərindən daha tez tanınan və ən çox işlənən məfhumdur. «gut» yaxşı sözdür. «Sənin sözün mənə bərk toxundu» və ya «Sənə sözüm var», «Od yarası sağalar, söz yarası sağalmaz», «Bu bir atalar sözüdür». Bu misalların hamısında işlənən «söz» eyni mənalı olmasa da, adi dil daşıyıcısı fərqinə varmadan onları öz danışığında gen-bol işlədir. Alman alimi H.Mozer alman dilində yaranan sözlərin müəyyən bir sistemə tabe olduğunu deməyin çətinliyini söyləyir.[1]

Söz də dilin digər avtosemantik vahidləri kimi ikitərəfli işarədir: forma (maddi varlıq / ifadə edən) və ideya (məzmun / ifadə olunan). Burada klassik dilçilik, strukturalizm və ya L.Yelmslev (1899-1965) məktəblərindən hansına əsaslansaq, onun da terminini işlədə bilərik.

Dilin lüğət tərkibi müxtəlif leksik baxımdan üzvlənə bilər:

1. Gerçəkliyə münasibətinə görə: a) konkret sözlər; b) abstrakt sözlər.
2. İşlənmə tezliyinə görə: a) çox işlənən sözlər; b) az işlənən sözlər.
3. İşlək dairəsinə görə: a) ümumişlək sözlər; b) peşə ilə bağlı sözlər; v) sahə (siyasi, iqtisadi, hüquqi və s.) terminləri.
4. Özəl və alınmaya görə a) dilin öz sözləri; b) alınma sözlər; c) bütöv dilə məxsus sözlər; d) dialekt sözləri.
5. Zamana görə bölgü: a) arxaizmlər; b) anarxizmlər; v) neologizmlər.
6. Üslubi bölgü: a) müstəqim mənalı sözlər; məcazi mənada işlənən sözlər.
7. Struktur bölgü: a) sadə sözlər; b) düzəltmə sözlər; c) mü-

rəkkəb sözlər

8. Birləşmələrdə iştirakına görə:a)sabit birləşmələr ; b) sərbəst birləşmələr.

Sözün nə qədər mürəkkəb məsələ olduğunu təsəvvür etmək üçün german dillərindən gətirdiyimiz aşağıdakı misallara mürajiət etmək kifayətdir:

Alm. Staubsauger; ing. Vajuum cleaner; alm. abziehen, anjaq: er zieht ab; ing. get up, stand up; alm. Das In-der-Welt Sein və ya das Immerwieder dem-guten Gedanken-Nachkommen; ing. to be-I am, you are; he, she, it is. Göründüyü kimi, sözün ümumi şəkildə hüdudlarını müəyyənləşdirmək çox çətindir.

Amerika dilçiliyi deskriptiv təsvirdə bir qayda olaraq söz anlayışından çox ehtiyatla istifadə edir. Onlarda aparıcı məfhum morfemdir (bax: VI fəsil). Onlar hər bir sözə morfem ardıcıllığı kimi yanaşırlar. Özü də bu baxımdan morfemlər iki yerə bölünür:

1. Müstəqil söz kimi işlənən morfemlər (müstəqil və ya avtosemantik) Məs.: alm. Tisch, ing. table;

2. Yalnız sözün tərkib hissəsi kimi çıxış edən morfemlər (leksik morfemlər, sinsemantik və ya qrammatik morfemlər)[2]. Məs: alm. və ing.-er: Lehrer, teacher sözlərində və s. Aydındır ki, sözün məna tərəfini nəzərə almayan bu baxışı ilə L.Blumfild[3], sonralar isə onun şagirdi E.A.Nayda[4] söz anlayışını dilçilikdən uzaqlaşdırmağa çalışırdılar. Beləliklə, onların təhlilində söz minimal sərbəst formadır (iki fasilə arasındakı fonem ardıcıllığı və ya iki boşluq arasındakı qrafem ardıcıllığı).

Bəzən söz öz strukturuna görə bir neçə morfemdən ibarət olur. Amma bu morfemlər bir-birinin dalınca düzülmür. Məs., alman dilində zəif və qüvvətli fellərin partisip II forması ge-t və ge-en bu qəbildəndir. Partisip II-nin göstəriciləri fel kökü ilə birlikdə bir söz yaradır. Bu morfemlərə dilçilikdə distant (məsafəcə aralı) morfemlər deyilir. Bunun əksinə olaraq, amalqam morfem iki morfemin bir sözdə birləşməsinə deyilir.

Məs.: alm. zu+dem=zum

an+dem=am
in+das=ins və s.

Lakin A.İ.Smirnitski sözə başqa cür yanaşmağı təklif edir. O, sözü dilin mərkəzi vahidi hesab edərək onu nominasiyanın canı adlandırır. Sözü o, tam təşkil olunmuş söz (цельнооформленная)[5], bir fonetik qəliblə deyilən, ən azı bir morfemdən ibarət olan dil vahidi kimi müəyyənləşdirir. Əslində bu tərifin özündə çox anlaşılmazlıq var. A.İ.Smirnitskinin tam təşkil olunma prinsipini cümləyə də aid etmək olar. Digər tərəfdən, alman və ya ingilis dilində "gut-besser", "good-better", "more-most" və ya rus dilindəki "xoroşo-luçşe" kimi suppletiv formaların mövjudluğu göstərir ki, «eyni fonetik qəlib» prinsipi də sözün tərifi üçün yetərli deyil. O ki qaldı ən azı bir morfemdən ibarət olmaya, əslində cümlə də bir morfemdən ibarət ola bilər (bax 1-ci fəsil).

Hər halda danışığın üzvlənməsində sözdən yan keçmək mümkündür, hərçənd ki, lüğətlərimiz sözü əsas leksik vahid kimi götürürlər. Biz də sözü əsas leksik vahid kimi götürməklə german dillərində onunla bağlı aşağıdakı problemləri çözələməyə çalışacağıq.

1. Sözün yaranması (mənşəyi) və strukturu
2. Sözün formal xüsusiyyətləri
3. Sözün məna strukturu
4. Söz və məfhum
5. Söz mənasının dəyişməsi
6. Dilin söz fondunun bölgüsü

## III. 2. Sözün yaranması (mənşəyi) və strukturu

Ümumi şəkildə götürüldükdə, struktur baxımdan söz yaranmasında iki yol var. İki əsas və ya leksik vahid birləşərək bir söz yaradır ki, buna mürəkkəb söz və ya tərkib (Zusammensetzung, Komposita) və ya əsas, leksik morfemə formativ qoşu-

laraq yeni söz yaranır ki, buna da düzəltmə söz (Ableitung, Derivation) deyilir.

Hər bir sözün yaranması müəyyən ehtiyacdan doğur. Ünsiyyətin müəyyən şəraitlə bağlı ehtiyacdan yaranan söz sonra bütün dil daşıyıcıları üçün zərurətə çevrilir. İşarənin ixtiyariliyi prinsipini irəli sürəndə F. de Sössür məhz bunu nəzərə almışdı. Sözün yaranmasında elmi-texniki tərəqqi, başqa xalqların dillərinin söz yaradıcılığı və bir də daxili resurslar əhəmiyyətli mənbə rolunu oynayırlar. Məs.: alman dilində Bahn (-hof, -steig, -station) və s. sözlərində "Bahn" kalka yolu ilə yaranmış sözdür. Bu, ilk dəfə ingilislərdə yaranmış araba yolunun dəmir xətlərlə əvəz olunması, sonradan isə qatarların meydana gəlməsi /Bahnlinie/ sözünün formalaşmasında əsas səbəb götürülə bilər. Əslində dilin lüğət fonduna daxil olmuş sözün hər birinin etimologiyasına[6] gedib çıxmaq olar, amma bu xüsusi elm sahəsi olan etimologiyanın mövzusudur.

Adətən etimon axtarışı ulu dilə gedib çıxır, bəzən də başqa dillərlə qarşılıqlı tarixi əlaqənin aşkar olunmasını tələb edir. Məs.: <u>deutsch</u> sözü ilk dəfə VIII əsrdən diutesk kimi işlənib, özü də xalq demək idi. Sonralar o, öz şəklini və mənasını dəyişərək indiki deutsch kimi formalaşmışdır. Amma bir qayda olaraq sözün mənasının haradan qaynaqlandığını biz etimoloci lüğətlərdən öyrənə bilərik.[7]

German dillərində sözün strukturu, onun morfem quruluşu çox mürəkkəb və müxtəlifdir.

1. Söz ən azı bir morfemli, bir fonemlidir. Məs.:alm.d. Er, Bad, Ei ; ing.d.:bad, fine , that, well , dog, back və s.

2. Söz iki müstəqil morfemdən ibarət ola bilər. Məs.: alm.d.: Haustür, Schalldicht; ing.d.: blackbird, schooltable və s.[8] Alman dilində mürəkkəb sözü tədqiq edən M.Abbasova bu nəticəyə gəlmişdir ki, iki müstəqil morfemli mürəkkəb sözə daha çox klassik ədəbiyyatın dilində rast gəlmək olur.[9]

3. Sözdə ən azı bir leksik morfem olmalıdır. Məs.: Zer/brech/lich/keit. Burada /brech/ asılı leksik morfemdir, çünki o, sözün yalnız nüvəsini təşkil edir, danışıqda ayrılıqda çıxış edə bilmir.

4. Sözdə bir asılı leksik morfem və bir və ya bir neçə asılı qrammatik morfem iştirak edə bilər. Məs.: yuxarıda verdiyimiz /Zerbrechlichkeit/ sözündə /Zer/, /lich/, /keit/ morfemləri /brech/ müstəqil morfemindən asılı qrammatik morfemlərdir. Qrammatik morfemlər sözdəyişdirici (Məs.: t, st və s.) və sözdüzəldici (Məs.: frei+lich və s.) olmaqla iki yerə bölünürlər. Alman dilində sözün əmələ gəlməsində mürəkkəb və düzəltmə sözlər çox fəaldır.

5. Mürəkkəb sözlər, tərkiblər (Komposita) minimum iki leksik morfemdən, maksimum isə külli miqdarda morfemdən (bunların sayını müəyyənləşdirmək çox çətindir: müq. et: Dampf, Schiff, Fahrt|s|, Ge| sell|, schaft|s|, Stell|ver|tret|er|, Direktor|, Ge|mahl|in və s.) ibarət olur.

6. Tərkiblərin xususi növü kimi yanaşma (Zusammenrückung) xüsusi yer tutur. Məs.: /Die Sich-mit-kaltem-Tuch-Trocknen-Prozedur// və ya /Das Tdglich dreimal Arznei-Einnahme-Rezept/ və s.

7. Tərkiblərdən biri də cümlə-fikir birliyinin bir söz halında deyilməsidir ki, bu da danışıqda qənaət prinsipinin tələbilə həyata keçirilir. Məs.: /Die Klinton-Reise nach Jerusalem/ və s.

8. Düzəltmə sözlər bir leksik morfemdən və bir və ya bir neçə sözdüzəldici morfemdən ibarət ola bilər. Araya sözdəyişdirici morfem də girə bilər. Leksik morfem həm də morfoloji funksiya yerinə yetirə bilər, yəni bir sözdən başqa söz düzəldilə bilər. Bu sözdüzəldici morfemləri affiks adı altında birləşdirirlər. Buraya prefiks, suffiks və infiks daxildir.

a) prefikslə və ya prefiksləşmiş sözlərlə yaranan düzəltmə sözlər. Məs.: Unkraut, Missglück, Abfahrt, Hinfahrt, übergehen, zugehen, erklingen və s.

b) suffikslə və suffiksləşmiş sözlərlə yaranan düzəltmə sözlər. Məs.: Wahrheit, essbar, possibel, ärgerlich, Fahrzeug.

v) infikslə yaranan düzəltmə sözlər. Məs.: rein+ig + en, schäd+ig+en

q) həm prefiks, həm də suffikslə yaranan düzəltmə sözlər.

Məs.: Be+ wässer + ung, miss + ver + ständ + lich, Un + über + setz +bar+keit və s.

İngilis dilində söz heç bir şəkilçisiz - filansız bir klassdan o birinə keçə bilir. Buna konversiya deyilir. Məs.: bridge-to bridge, to look-a look və s. [10]

Alman dilinin mürəkkəb sözləri ingilis dilində ya yanaşma vasitəsilə (Orangensaft-orange juice) və ya of qenitiv birləşməsilə verilir. (Məs.: Vertrauensposten→ poste of confidence). Göründüyü kimi, alman dilində təyin olunan, əsas söz sonra, təyin edən söz isə əvvəl gəldiyi halda, ingilis dilində sözün strukturunda dəyişiklik edilir. Təyin olunan keçir qabağa, təyin edən isə of-la ifadə olunaraq ikinji yerdə gəlir.

Sözün yaranmasından danışan tanınmış germanist D.Klement kompozitləri mürəkkəb tərkiblərdən ayırmağı tövsiyə edir: «Kompozit iki və daha artıq müstəqil işlənən morfem və ya sözlərin birləşməsindən əmələ gəlir». Bu müəllif də başqa germanistlər kimi mürəkkəb sözlərin içərisində «isim + isim» tərkibinin çox olmasını xüsusi qeyd edir. Amma eyni zamanda son zamanlar mürəkkəb isimlərdə «sifət+isim» tərkibinin çoxalmasını xüsusi qeyd edən D.Klement nədənsə bu yerdə iki komponentli mürəkkəb sözlərdən danışır.[11]

Mürəkkəb sözlərin söz düzümündə birinci yerdə gələn, adətən, tərkibin ikinci tərəfini təyin edir. Koordinativ mürəkkəb sözlərdə komponentlərdən heç biri digərini müəyyənləşdirmir və ya təyin etmir. Məs: «Strumpfhose», «Dichter-Komponist» və s.

Bu tərkiblərdə kopulativ əlaqə ilə bir-birinə bağlanan tərəflər öz semantik müstəqilliyini qoruyub saxlayırlar, hərçənd ki, onların məna asılılığı strukturdakı düzümdən asılı olur. Həmin sözlərdə komponentlərin yerini dəyişdirdikdə (semantik müstəqillik əslində buna yol verməməlidir) «Hosenstrumpf» və «Komponist-Dichter» düzümündə mənanın dəyişdiyinin şahidi olarıq. Əslində heç birinci sözdə dəyişiklik etmək mümkün deyildir. İkincidə isə şəxsin ilk öncə «şair» yaxud «bəstəçi» olması komponentlərin düzülüşündəki fərqlərdən aydın olur.

Lakin bununla yanaşı qeyd edilməlidir ki, derivativ tərkiblərdə kopulativlərə nisbətən tərəflərin semantik asılılığı özünü daha qabarıq büruzə verir. Ani düzələn mürəkkəb sözlər, şübhəsiz, dil sistemində mövcud modellər əsasında yaransa da, onlar əvvəllər ünsiyyətdə və ya heç bir kontekstdə işlənməyən məna tutumunun verilməsinə xidmət edir. D.Klement bu qəbildən olan sözləri ad-hoc yaranmalar adlandıraraq, yeni leksik məna çalarları ifadə etdiklərini xüsusi vurğulayır (səh. 52, 42). Məs: „Fliegenpilzfahrrad«- (ağ-qırmızı xətlər çəkilmiş velosiped) və ya „Kreuzwortvogel« (krossvordda tez-tez rast gəlinən quşun adı).

Son dövr elmi-nəzəri ədəbiyyatda mürəkkəb sözlərlə bağlı diqqəti çəkən məsələlərdən biri də həmin bu ani yaranan sözlərin sonralar dilin lüğət tərkibinə möhkəm daxil olması və digər başqa sözlərlə tam hüquqda işlənə bilməsidir. Məs.: "der Jahrhundertvertrag" (əsrin müqaviləsi), 7+plus-1-Gesprdche (7 inkişaf etmiş sənaye dövlətləri və Rusiya arasındakı danışıqlar).

Mürəkkəb sözlərin məna dəyişikliyi içərisində onların ilkin mənadan uzaqlaşaraq idiomlaşması da dilin leksik layında tez-tez baş verən hadisədir. Məs.: bu gün «Bleistift» sözünün təbaşir tipli maddədən hazırlanan yazı ləvazimatı olmasını komponentlərdən çıxış edərək iddia edən az tapılar, çünki bu söz bütövlükdə bir məfhumu - «qələm» anlayışını bildirir. Elə bu kimi hallarda komponentlərin daşlaşması prosesilə rastlaşmış oluruq.

V.Flayşer (1922) mürəkkəb tərkib və ya mürəkkəb sözlərin sərbəst morfemlərdən ibarət olduğunu qeyd edir (məs: Nagellack, Straßenbahn və s.). Düzəltmə sözlərə isə o, əsasən suffikslə və sıfır şəkilçiylə əmələ gələn sözləri aid edir.[12] Maraqlıdır ki, bu bölgüdə bir tərəfdən formal (prefiks və suffikslərlə əmələ gəlmə), digər tərəfdən isə semantik kriteriya əsas götürülür. Göründüyü kimi, V.Flayşerin bölgüsündə sözdüzəltmədə prefikslə suffiks bir-birindən elə bir əsas olmadan ayrılır.

Digər alman alimi Y.Erben (1925) də söz yaradıcılığında

qarışıq kriteriyalardan istifadə edir. V.Flayşer kimi, o da mürəkkəb sözləri ən azı iki tərkibdən ibarət söz kimi müəyyənləşdirir.[13]

Germanistikada E.Koseriunun (1921) bölgüsü son illər özünə daha çox tərəfdar tapır. Bu alimə görə söz öz kateqorial mənasını dəyişirsə (məs.: laufen-Lauf) və yeni sözlərin yaranmasında bir və ya bir neçə leksem iştirak edirsə (məs.: Buch və Laden Buchladen), onda biz yeni söz yaranmasından danışa bilərik.[14]

Buradan çıxış edərək E.Koseriu söz yaranmasının üç əsas növünü göstərir:

1. Kompozitlər (mürəkkəblər). Burada iki və daha artıq leksem iştirak edir, özü də onlardan biri, bir qayda olaraq, axırıncısı, yeni sözün hansı nitq hissəsinə xas olduğunu müəyyənləşdirir (Məs.: das Auto+die Bahn → die Autobahn);

2. Düzəltmə sözlər. Bunlar bir leksemə əsaslanır, anjaq sözün növünü dəyişir və həm əlavə morfemin köməyilə (məs.: grün→→ grünen), həm də morfemsiz düzələ bilir (məs.: Ruf ← rufen) və s.;

3. Modifikasiya. Bu da bir leksemə əsaslanır, lakin morfem əlavə etməklə dəyişikliyə uğrasa da, sözün növü dəyişmir (məs.: entfallen ← fallen; grünlich ← grün) və s.

Bu bölgü prinsipini əsas götürən E.Henqel (1928) və H.Vayd (1938) mürəkkəb sözləri daha geniş planda şərh edirlər. Kompozit (lat. compenere - «birləşmək») dedikdə, müəlliflər eyni zamanda burada iki növü bir-birindən ayırmağı təklif edirlər: 1) Leksem+kompozit (məs.: Dampfschiffahrt sözü «Dampf» leksemindən və «Schiffahrt» kompozitindən ibarətdir). 2) Kompozit+kompozit. Məs.: «Rheindampfschiffahrt» mürəkkəb ismini götürsək, onda burada iki kompozit olacaq: Rheindampf+Schiffahrt və s.[15]

Tərəflər arasındakı münasibətdən danışarkən müəlliflər mürəkkəb sözlərin iki növünü də xüsusi qeyd edirlər: determinativ və kopulativ kompozitlər. Birincidə söhbət təyin edəndən

gedir. İkinci komponent isə təyin olunandır. Təyin olunan bütöv mürəkkəb tərkibin söz kimi tanınmasına, isimdirsə, onun cinsini və kəmiyyətini göstərməyə xidmət edir. Semantik cəhətdən isə təyin olunan referenti - onun adını bildirir. Ancaq bəzən elə olur ki, mürəkkəb tərkibdəki bütöv məna onun komponentlərinin ayrılıqda mənasından hasil olur. Məs.: «Hundekuchen» heç də itdən bişirilmiş kökə demək deyildir (burada «Kirschkuchen» müqayisə edilə bilər).

Kopulativ kompozitlərdə isə söhbət bərabərhüquqlu leksemlərin birləşərək yeni söz əmələ gətirməsindən gedir. Məs.: «Radiowecker» sözündə zəngli saatın radio vasitəsilə işləməsi nəzərdə tutulur.[16]

Xüsusi adlarda da bu cür birləşmələrə tez-tez rast gəlmək olur. Məs: Baden-Württenberg, Rheinland-Westfalen və s.[17]

Azərbaycan dilində bu cür mürəkkəb sözlər təyini söz birləşməsi kimi tərcümə olunsa da, tərkiblərin yerində dəyişiklik edilmir. Məs.: Vertrauensperson-ürək dostu, Aktentasche - sənəd portfeli, Ledertasche-dəri çanta, Bierflasche-pivə butulkası və s.

O ki qaldı düzəltmə sözlərin təfsilatı ilə şərhinə, biz burada belə şərhdən imtina edib aşağıdakı məsələlərə diqqət yetirmək istərdik.

Düzəltmə sözlərin içərisində prefikslə düzələn fellər xüsusi əhəmiyyət kəsb edir. Alman dilində prefiks nəinki yeni fel düzəldir, o həm də felin mənasına güclü təsir göstərərək müəyyən qrammatik mənanın-semin ifadəsinə xidmət edir. Mənasına görə prefiksləri aşağıdakı qruplara bölmək olar:

1. Hərəkətin istiqamətini bildirən prefikslər. Məs.: ziehen-einziehen-ausziehen;

2. Hərəkətin növünü, olmasını və ya baş verməsini bildirən prefikslər. Məs.: wachen-erwachen, stehen-aufstehen.

Hərəkətin məhdud zaman bildirməsini perfektiv fellər aydın ifadə edir.

a) konqressiv (inkoativ) fellər hərəkətin başlanğıcını bildirir. Məs.: erwachen.

b) hərəkətin sonunu bildirən rezultativ fellər. Məs.: alm.d.:aufessen, verbrennen, austrinken, ausschiessen, auszahlen; ing.d.: to go out (herausgehen), to draw in (hin, her) einziehen, to eat up (aufessen) və s.

İngilislərdə də prefikslə sözdüzəltmə var (to retell, to repeat və s.), ancaq bu alman dilindəki kimi müxtəlif və rəngarəng deyildir. Bundan fərqli olaraq adverbial postpozisionlar ingilis dilində geniş yayılıb.

Prefikslə sözdüzəltmə alman dilinin struktur əlamətidir, buna fransız dilində oxşar bir şey yoxdur, ancaq ingilis dilində buna qismən təsadüf edilir.[18]

## III. 3. Sözün formal xüsusiyyətləri

Germanistikada ənənəvi bölgü kimi əsas və köməkçi sözləri bir-birindən fərqləndirirlər. Müəyyən leksik mənaya malik olub, cümlə üzvü yerində çıxış edən və formaca dəyişməyə qabil olan sözlər əsas, bu əlamətlərə malik olmayanlara isə köməkçi sözlər deyirlər. Yəni burada məna, forma və funksiya əsas fərqləndirici əlamət kimi götürülür. Amma bunların konkret tətbiqinə gəldikdə ənənəvi dilçilik çıxılmaz vəziyyətdə qalır. Məsələn, deyilir ki, isim əşyanın adını, fel hərəkəti, sifət əlaməti, əvəzlik əvəzetməni, zərf hərəkətin tərzini, say da kəmiyyəti bildirir. Bu bölgüdə abstrakt isimlər nəzərə alınmır. Alman dilində Vertrauung-"inam", Umkehr-"əksinə gediş", Aufgabe-"tapşırıq" kimi hərəkəti bildirən sözlər də bu bölgüdə fellərin sırasına daxil edilməlidir. Digər tərəfdən, „schweigen, sich befinden, denken", sich erinnern" və s. kimi fellərin mənasında vəziyət ifadə olunur. Dəyişməzlik müəyyən mənada zərflərə də aid edilə bilər (sehr, oft, gestern, vorgestern və s.). Bəzən də „Vorjdhrige Prüfungen“ - «ötənilki imtahanlar» kimi birləşməsində zaman anlayışı ifadə olunur.

Deməli, sözlərin struktur dilçiliyə qədərki bölgüsü vahid kriteriyaya əsaslanmırdı. Yuxarıda göstərdiyimiz üç kriteriyadan formal əlamət məsələyə aydınlıq gətirmirdi, bölgüdə müəy-

yən volyuntarizm vardı və bölgünün düzgünlüyünü yoxlamaq o qədər də asan deyildi.

Strukturalizm bütün bunların əvəzinə distribusiya kriteriyasını işləyib hazırladı: hər hansı bir dil vahidinin indiyə qədər rast gəlinən bütün fonetik və morfoloci əhatəsinin məjmusu onun distribusiyası adlanır. Eyni distribusiyaya malik sözlər eyni söz qruplarına aiddir. Söz qrupları distribusiya qrupları adlanmalıdır. Onlar paradiqmatik səviyyədə substitusiya vasitəsilə müəyyənləşir.

Məs.: /Der Tisch ist rund// (The Table is round).
/Der Baum ist rund// (The Tree is round)
(klein) (small)
(gross ) və s. (big) və s.

Deməli, "der" bütün adlardan qabaq gəlir. "Der" yerində "ein", "mein", "dein", "sein" və s. işlətmək olar. Bu cür sözlərə ismi təyin edən determinantlar deyilir. L.Blumfild deyirdi ki, onların hamsının bir funksiyası var, yəni hamısı eyni yerdə digər sintaktik əlaqələrin qovuşuğunda biri digərini əvəz edir və o zaman cümlənin mənası pozulmur. Bu yolla dildəki bütün sözlərin distribusiya qrupları və ya növləri müəyyənləşdirilə bilər.

Dildəki sözlərin formal cəhətdən fərqlənməsi onların tanınması üçün çox vacibdir. Distributiv təhlil sözlərin işlənməsi yerini və digər sözlərdən fərqlənməsini açıb göstərsə də, o, sözlərin formal baxımdan təşkilini tam aça bilmir. Hər bir sözün öz fonetik jildi və formal əlamətləri vardır. Başqa sözlə desək, hər bir sözün dəyişilməz fonem düzümü olur. Alman dilində ədatların və ya /ge/ ünsürünün ayrıları önşəkilçisilə fel kökünün arasına girməsi bu dilin ayrılmaz əlaməti sayıla bilər. Müq. et: «angeben, anzugeben, angegeben» və s.

German dillərinin fonetik təşkilində nəzərə çarpan bəzi xüsusiyyətləri biz bu kitabın 1-ci fəslində N.S.Trubeskoya istinadən vermişik. Burada isə daha bir neçə əlaməti sadalamaq istərdik.

Alman və ingilis dillərində sözün saitlə və /nq/ samitindən

başqa bütün samitlərlə başlaması adi haldır, Çin dilində isə sözbaşında /nq/ samiti çox tez-tez işlənir. İngilis dilində /g, k, ş, d, th, f, b/ -dan sonra /r/ gəlir, , ancaq /l/ samiti yalnız /g,k,f ,b/ samitlərindən sonra gələ bilir. İngilis dilində söz başında gələn /sp,st,sk/ birləşmələri söz sonunda işlənən yüzə qədər samit birləşmələrindəndir. Alman dilində /ʃt, ʃp, ʃpr, ʃtr/ birləşmələri söz başında, /rpst, kst/ və s. birləşmələri isə söz sonunda gələ bilir. Söz daxilində 7-yə qədər samit bir-birinin ardınca gələ bilir. Məs.: Herbststraße və s.

German dillərində sözün fonetik cildini təşkil edən əlamətlərdən biri də vurğudur. Bu dillərdə vurğunun yeri sabit deyil. Bu o deməkdir ki, bu dillərdə vurğu sözün istənilən hecası üzərinə düşə bilər. Amma bir qayda olaraq sözün kökü vurğu daşıyır. Məs.: stehen, verstehen, ancaq missverstehen və s. İngilis dilində dörd ton növündən istifadə olunur. Bütün tonun hərəkəti 1,2,3,4 ton şkalasında nizamlanır. 1-ci ən aşağı, 4-cü isə ən yüksək tonu bildirir. Məs.: /Where are you going? 3 home1! Belədə neytral şəkildə məlumat verilir; 3home2! Göstərir ki, başqa yol yoxdur. 4home1 isə ümumiyyətlə başqa söhbət ola bilməz, yalnız evə, vəssalam.

Sözdə neytral və ya normal vurğu ilə yanaşı emotiv və kontrastiv vurğu da fərqləndirilir. Məs.: Gënossen və Gënossen. Birinci emosional danışıqda, ikinci isə qarşılaşma yaratmaq məqsədilə işlənir.

German dillərində sözlərin formal səciyyəsində qovuşuq tipləri mühüm rol oynayır. Məs., ingilis dilində a name(ad) və an aim (məqsəd), İ scream (mən çığırıram) və ice-cream (yağlı dondurma), alman dilində vereinigen (birləşdirmək) – verreinigen (təmizləmək) sözləri omofon cütlərə oxşayır. Onlarda keçidin yerindən asılı olaraq (ing.juncture) fərqli sözlər əmələ gəlir.

## III. 3.1. Sözün məna strukturuna dair

L.Blumfild dil formasının mənasını elə bir məqam kimi başa düşür ki, burada danışan nə isə deyir və əvəzində dinləyəndə bu deyilənin yaratdığı reaksiya oyanır. Amma işarə olaraq söz dildən xaricdə olanın ifadəsinə (buna referent də deyirlər) xidmət edir. Burada qəribə hallar müşahidə oluna bilər. E.Husserlin (1859-1938) misalı bunu bir daha təsdiq edir. Vyananın qalibi və Vaterloonun məğlubu eyni referent olsa da, mənalar müxtəlifdir. Hər iki halda söhbət Napoleondan gedir. Ona görə də E.Koseriunun mənaya verdiyi tərif daha məqbul sayıla bilər: məna işarənin tək bir dildə verilmiş məzmunudur, ifadə isə dildən xarijdə olan əşya və ya şeyə xas olan aidlikdir.[19]

Lakin F. de Sössür məna ilə yanaşı dəyər (valeur) anlayışını da dəqiqləşdirir.

Dəyər üçün iki şərt lazımdır. 1. Dəyərini müəyyənləşdirmək istədiyimiz əşyadan başqa bir əşya da olmalıdır ki, onu dəyişmək mümkün olsun; 2. Əşyanı müqayisə edə biləjəyimiz və ona bənzər eyni cinsli digər əşyalar da olmalıdır. F. de Sössür bunu 5 frank əskinası ilə izah edirdi. Birinci bu əskinası çörəklə dəyişmək olar, həmin bu valyuta sistemində digər əskinaslarla, məs.: 1, 10 frankla müqayisə etmək olar. F. de Sössürün bu misalı təkcə söz mənasına deyil, həm də dilin başqa vahidlərinə aid edilə bilər. Məs.: alman dilində /o:/ və /ɔ/ saitləri mövjuddur, onlar çox böyük variativliyə malikdir, hətta burunlaşa da bilərlər: /õ:/,/ɔ̃/. Ancaq fransız dilində /o/ saiti burunlaşa bilməz, o zaman o sait fransız fonem sistemində mövcud olan müstəqil burun /õ:/ foneminin bütövlüyünə müdaxilə etmiş olardı. Beləliklə, biz görürük ki, signification F. de Sössürdə ifadəyə (Bezeichnung), məna isə valeur-ə uyğun gəlir.

İfadə edənlə ifadə edilən arasında yamsılamalar və bir sıra digər hallar(mənanın sözdəki komponentlərin mənasından hasil olması, məs., alm. Viertzehn = 4 + 10 və ya məjazi mənada işlənən sözlər, məs., paltarın ətəyi, dağın ətəyi və s.) istisna

olmaqla birbaşa əlaqənin olmadığını artıq birinci fəsildə qeyd etmişik. Bu da dildə işarələrin ixtiyariliyi deməkdir, yəni ifadə edənlə ifadə edilən arasında birbaşa əlaqə yoxdur.

F.de Sössür «signifiant» terminini işarənin xarici, «signifie» terminini isə daxili tərəfini göstərmək üçün işlədirdi. Amma 60-cı illərdən başlayaraq ifadə (Ausdruck, expression) və məzmun (İnhalt, content) terminlərindən geniş istifadə olunur.[20]

Söz mənasını adla məzmunun qarşılıqlı əlaqəsi kimi götürən müasir dilçilik bunu əyani şəkildə aşağıdakı üçbucaq kimi şərh edir:

Reference
(sense,sens)
Concept Signifie

Symbol
Referent
(name, nom)-----------------------------(thing, choose)
Signifiant
Signifie

Məzmun insanın təcrübəsinin artması ilə zənginləşir. Təcrübələr akustik obrazı və ya konsepti canlandırır. Söz kontekstdə verilən məlumatın (message) ümumi mənası məzmun kimi (jontent) ifadəyə qarşı qoyulur.[21]

Danışıq aktları fiziki prosesslərlə danışanın və dinləyənin hər ikisinin eyni dil sistemi kodlarına sahibdirlərsə məlumatın verilməsini və qəbulunu təmin edir, yəni danışan kodlaşdırır, dinləyən isə onu açır, dekodlaşdırır. Danışanın realizə etdiyi və dinləyənin eşidib başa düşə bildiyi bütün danışıq aktı ifadə edəndir.

Sözün mənası abstrakt ölçüdür. «Hund» konkret real iti göstərmir, ümumiyyətlə it anlayışını ifadə edir.

Danışıq aktı bir bütöv olaraq adət və ya vərdişlərdən ibarətdir, yəni sözlərdən düzəlir. Normal danışıqda bizim danı-

şığımız vərdişlər ardıcıllığından ibarətdir. «Söz aktını və ya səs varlığını biz söz forması, adlandırmada söz aktının həyata keçirilməsi şərtlərini isə söz mənası adlandırırıq».[22] Deməli, söz mənasının şərhi onların işlənməsi şərtlərini açıb göstərməkdən ibarətdir.

Məna strukturunu daha kiçik hissələrə ayırmaqda L.Yelmslev[23] məktəbinin xidmətləri böyükdür. Bu məktəbə görə ifadə edən ən kiçik ünsürlərə (fonem və ya fiqur), ifadə olunan da kiçik ünsürlərə (məna komponentləri, sem) bölunur. Bu da L.Yelmslevin bütün dil strukturlarında izomorfizmin (forma eyniliyi) olması ideyasından irəli gəlirdi. Bu gün semantik əlamət terminilə yanaşı sem anlayışı daha geniş işlənir. Fonoloji səviyyədə olduğu kimi məna strukturunda da ən kiçik ünsürləri –semləri müəyyənləşdirmək lazımdır. Məs.: «avtomobil» sözü aşağıdakı semlərlə təsvir oluna bilər: «minik vasitəsi + mühərriklə hərəkətə gətirilən + dördtəkərli + adamların daşınması». Bunların hər biri maşın sözünün məna kompenentləridir. Distinktiv vahid kimi çıxış edən bu semləri kommutasiya (əvəzetmə) üsulu ilə təhlil edə bilərik. Dördtəkərlini ikitəkərli ilə əvəz etsək, onda bu motosiklet olar. Adam daşınmasını mal daşınması ilə əvəz etsək, onda bu yük maşını olar və s.

Oxşar semli sözləri bir qrupda birləşdirməklə biz dilin lüğət fondunu söz sahələrinə bölə bilərik: minik vasitələri, ərzaq adları, geyim və s. Beləliklə, sem məna strukturunun ən kiçik distinktiv vahididir, semem isə semlərin məcmusudur. Leksem sememin leksik təzahürüdür.[24]

### III.3.2. Sözün (işarənin) denotatı və konnotatı

Sözün denotasiyası onun başqa yardımçı mənalarından (emosiya, başqa təsir) fərqli olaraq məfhumi mənasının məzmunudur, yəni sözün məzmun nüansları və çalarlıqları nəzərə alınmayan birbaşa məfhumi mənası nəzərdə tutulur.

Konnotasiya isə əsas məfhumi məzmunla yanaşı onu müşayiət edən emosional çalarlıqlardır, Məs.: Krebs - "xərçəng"

sözü simptomları obyektiv müəyyənləşdirilə bilən konkret xəstəliyi bildirməklə yanaşı (denotat), eyni zamanda xeyli hiss-həyəjan yarada bilən, birdən keçinə bilmək təhlükəsi, sağalmaz, əzab dolu, əksərən sonu ölümlə nətijələnə bilən və s. çalarlıqları (konnotat) bildirir. Deməli, konnotat bilavasitə əşyavi məzmunu deyil, sözdəki yardımçı, əlavə məna nüanslarını, çalarlıqlarını ifadə edir. Denotat isə, özək mənanı bildirir. Alman dilində yaz fəsli Frühling, Frühjahr və Lenz sözləri ilə ifadə olunur, hər üçündə denotat birdir, ancaq Frühjahr ilin bir zaman kəsiyini, Frühling və Lenz isə hisslərin, ümidlərin, gözləmələrin oyandığı bir təbiət durumuna işarədir. Almanlar deyir:/ Lenz des Lebens, Frühlingsgefühl və Frühjahr des Lebens//

Başqa bir misal: /Das Wasser siedet bei 100° Celsius// Eyni denotat /das Wasser/ müxtəlif kontekstdə də müxtəlif məna verir: /Ich habe mich mit kaltem Wasser abgeduscht// və ya /Ich kaufte eine Flasche Wasser//

Qeyd edək ki, denotatı olan sözlər müstəqim leksik mənası olan sözlərdir. Məs.: Baum, tree, gross, big, rennen, run, schlafen, sleep və s. Bunlardan fərqli olaraq funksional, köməkçi və ya struktur sözlərin ayrılıqda denotatı yoxdur və onlar ifadənin formalaşmasında həlledici rol oynayır, ona görə də daha yüksək işlənmə tezliyinə malikdirlər. Məs.: alman dilində zu və ingilis dilində to denotata malik deyillər. Ancaq alman deyəndə ki, /Das Buch ist lesen// onun həmsöhbəti ifadənin düzgün qurulmadığını o saat başa düşəcək və cümlənin yalnız /Das Buch ist zu lesen// kimi işlənə biləcəyini qəbul edəcək. Eynilə ingilis dilində /İ want to eat an apple// cümləsində to düşərsə anlaşılmazlıq baş verər.

Hesablamalar göstərir ki, çağdaş alman dilində 200-ə qədər[25], ingilis dilində isə 154 köməkçi söz var. Lakin onların işlənmə tezliyi bütün söz fondunun üçdə birini təşkil edir.[26]

## III.3.3. Söz mənasının dəyişməsi (diaxronik semasiologiya)

Sözün mənası müəyyən bir tarixi zaman kəsiyində dəyişir. Burada əsas odur ki, dil işarəsi (söz) formal baxımdan o qədər də dəyişmir, dəyişən əsas məna olur. Məna dəyişməsi müxtəlif bucaqdan qruplaşdırıla bilər:

1. Mənanın genişlənməsi

Məs.: mhd. Vertec (sınmağa hazır). Əvvəlcə fahrtig- yəni getməyə hazır, nhd. fertig-hazır və ya lat. adripare -sahilə çatmaq, fr. arriver ümumi mənada gəlib çatmaq, ing. to arrive .

2. Mənanın daralması

Məs.: ing. undertaker- ilkin mənası «sahibkar», bu gün isə «meyit basdıran» alm. mhd. Hohgezit-jedes hohe Fest, nhd. Hochzeit- «toy» deməkdir.

3. Mənanın yaxşılaşması

Məs.: mhd. Marsshale- "ata baxan, mehtər", nhd. Marsshall-"yüksək hərbi rütbə" və ya alm. və fr. ministr - ilkin mənası «xidmətçi», bu gün-Minister- "nazir" mənasında işlənir.

4. Mənanın pisləşməsi

Məs.: mhd. Wip- "arvad", nhd. Weib- əxlaqsız mənada "qadın" deməkdir.

## III.3.4. Dubletlər

Diaxronik aspektdə söz mənasının dəyişməsilə bağlı olmasa da, dubletlər mənanın verilməsində mühüm rol oynayır. Mənşəyinə görə eyni etimondan olan iki söz fonetik cildinə görə müxtəlif olur ki, belə sözlərə dubletlər deyilir. Latın dilindəki «causa« sözündən törəyən chose- «seç» və cause-«əsas», «səbəb» deməkdir dubletlərə misal ola bilər.

Göründüyü kimi, sözün fonetik qəlibində baş verən dəyişiklik onun mənasına da təsir etmişdir.

Bu sözlərdən chose-ə varis söz (Erbwort) deyilir, çünki o, qədim fransız dilindən qalmış, lakin fonem tərkibində dəyişiklik baş verməklə öz ilkin şəklindən uzaqlaşmışdır. İkincisi isə

eyni latın sözündən götürülmüş, əsasən 16-cı əsrdə fransız lüğət fondunu zənginləşdirmək məqsədilə alınmışdı.

Dubletlərdən danışarkən keçmə söz, alınma söz (Lehnwort), ulu dildən bərpa edilən söz (Erbwort) və əcnəbi söz (Fremdwort) məsələlərinə də xüsusi diqqət verilməlidir. Erbwort dilin öz sözüdür, müəyyən dövr ərzində ümumişlək söz kimi kənarda qalır, sonralar yenidən bərpa edilərək ümumişlək sözə çevrilir. Məs.: Ho^chzi^t. Alınma söz bütövlükdə həm fonetik, həm də semantik baxımdan mənimsənilir (məs.: Kasus), əcnəbi söz isə etimonun əlamətlərini qismən, ya da tam özündə saxlayır (məs.: Chancen və s.).

Struktur dilçiliyin xidmətlərindən biri də sözün nəinki ifadə tərəfinin (signifiant), həmçinin məna tərəfinin də (signifie) üzvlənə bilməsini açıb göstərməsidir. Məs.: Vertrauen sözünün F. de Sössür yozumunda mənaca üzvlənməsinə baxaq:

Vertrauen



(der)Vertraute vertrauen vertrauen vertraute Betrauung

Vertrauensmann glauben verstehen misstrauen Betrüng

1 2 3 3 a 4

Buradan məlum olur ki, 1-ci qolda formaca və mənaca yaxın sözlər cəmlənir ki, onlar söz ailələri yaradırlar. 2-ci qola yalnız mənaca yaxın sözlər aid edilir. Bunlara sinonim deyirlər. 3-cü qola eyni sözdüzəltmə vasitəsindən affikslə yaranan sözlər aiddir. Ancaq unutmaq olmaz ki, burada assosiasiya sözün bir qismilə bağlıdır. Bunlara kvaziomonimlər də deyirlər. 3 a-da müxtəlif məna verən suffikslər ola bilər, yəni -te isim bildirən şəkilçi olar, ya da Nom. və Akk. hallarında partisip 2-nin hal şəkilçisi kimi çıxış edə bilər. Onda həmin şəkilçilər omonim şəkilçi kimi qəbul edilir. Nəhayət, xüsusi isimi /Vertauen/ sözü ilə qismən oxşarlığı olduğu üçün xüsusi assosiativ qrup yaradır.

N.Pelts (1937) buna etiraz edərək yazır ki, belə təsnifatın qüsuru ondadır ki, həcminə görə assosiasiya nəzarətə dözmür,

xüsusilə 3 a -da yeni yaranan sözlər izahını n qədər uzatmağa imkan verir. Digər tərəfdən isə, bu fərdilik çox yüksəkdir. Və nəhayət, assosiasiya dilxarici gerçəkliklə şərtlənir.[27]

## III.4. Dilin söz fondunun bölgüsü

Dilin lüğət fondunun paradiqmatik baxımdan üzvlənməsi (bölünməsi, qruplara ayrılması) məzmunca yaxın olan sözlərin (antonimlər də daxil olmaqla) eyni nitq hissəsini (ismi, feli və s.) ayırıb bir qrupda cəmləşdimək mümkündür. İlk dəfə olaraq bu ideyanı alman alimi Yost Triir irəli sürsə də,[28] o, bütövlükdə Leo Vaysqerberin məzmun qrammatikası ilə bağlıdır.[29] Həmin nəzəriyyənin canı budur ki, dilin söz ehtiyatının daxilində məzmunca oxşar sözlər var. Məs: „binden-Band-Bündnis, gebunden, Verband, Binde, Bander, Verbündete“ eyni söz ailəsinə aiddir. Xalı və ya kilim naxışlarında təkrarlanan şəbəkə və mozaika olduğu kimi, sözlərin də məna və məzmunca oxşar olanları var. Həmin bu oxşarlıqlara görə sözləri qruplaşdırmağa cəhd edən nəzəriyyəyə söz sahəsi nəzəriyyəsi deyilir. Əyani olaraq bunu belə göstərirlər:

| | | | |
|---|---|---|---|
| | Freund | Bekannte | |
| FI | Kollege | Kommilitone | FII |

Göründüyü kimi, FI və FII qonşu sahələrdir, biri daha çox dostluq, o biri isə tanışlıq sahəsini göstərir. Amma dildəki oxşar məna ifadə edən sözlərin müəyyən mənada çarpazlaşması olur. Ən yaxını dost, sonra yoldaş, sonra tanış, sonra isə həmkar və ya başqa düzüm də mümkündür. Hər halda bu sxemdən aydın olur ki, hər sözün öz diapazonu və sərhədi var və bir sözün digər sözün diapazonuna və sərhədinə daxil olması intəhasız deyildir.

Lüğət fondunun nəinki paradiqmatik, həm də sintaqmatik strukturlaşması da mümkündür. Məs.: müəyyən kontekstdə üzvlənməsində /Freund, Bekannte, Kollege, Kommili-

tone/ kimi eyni sintaktik funksiya daşıyan sözlərdən birini seçə bildiyimiz kimi, sözlərin düzxətt boyunda düzümündə və cümlə quruluşunda müxtəlif klasslardan da sözləri seçməyi bajarmalıyıq.

Freund
Bekannter . . . . . Freund Freund*

Burada artıq biz dilin sintaqmatik səviyyədə qarşılaşma imkanından istifadə edərək birinci isim yerində istənilən sifəti və ya sifətləşmiş sözü (er) və ya (artikl + e) konstruksiyasından seçib götürə bilərik, ondan sonra isə /sein, fahren, kommen və s./ fellərdən birini situasiyadan asılı olaraq seçirik: /Der gute (və ya Guter) Freund ist, kommt, schlaft və s//. İndi də obyekti tamamlamaq üçün seçim qarşısındayıq. Sintaqmatik səviyyədə mənaca uyğun gələn dil işarələrinin birləşməsində dözümlülük / qeyri-dözümlülük anlayışı var ki, buna münasib kollakasiya və ya E.Koseriu demişkən, leksik həmrəylik deyilir.[30]

Sözlərin sahələr üzrə düzümü müxtəlif dilli xalqlarda müxtəlif cür olur. Məs.: azərbaycanlılarda əmi və dayı, xala və bibi fərqləndirildiyi halda, german dilli xalqlarda bu, fərqləndirilmir. Bizdə qan qohumu can qohumundan seçildiyi halda, onlarda bunun yalnız analitik yolla ifadəsi mümkündür. Məs.: alm. /Onkel və ya Tante von der mütterlichen oder vaterlichen Seite//.

Kopenhagen strukturalizminin banisi L.Yelmslevin xidməti ondadır ki, ifadə tərəfinin (Ausdrucks-figurae) üzvlənməsindən alınan ən kiçik vahidin fonem olduğunu qəbul etdiyi halda, eynilə bu üzvlənməni işarənin (sözün) məna tərəfinə tətbiq edərək ən kiçik vahid kimi sem (Inhalts-figurae) anlayışını gətirdi.[31] Məs.: Fahrrad sözü semantik baxımdan aşağıdakı semlərdən ibarətdir. «nəqliyat vasitəsi» + «ayaqla hərəkətə gətirilən» + «ikitəkərli» + «adamı gəzdirən». Bu semlərdən fonem səviyyəsində olduğu kimi digərilə əvəz edəndə, onun məzmunu və funksiyası dəyişir. Məs.: «motorla hərəkətə gətirilən» olur

moped, «dördtəkərli» olur maşın və s. Eynilə qrammatik cəhətdən bu cür üzvlənmə mümkündür. Alman dilində /za:kt/ formasında /t/ üçsemlidir: 1) indiki zaman, 2) 3-cü şəxs, 3) tək. Kontekst dəyişsə, yəni (ihr) /za:kt/ olsa, onda həmin semlər dəyişir, 2-ci şəxs cəm ifadə olunur.

Sem üzrə semantik təhlil söz sahəsini müəyyənləşdirməyə imkan verən təhlil üsuludur (Y.Triir və L.Vaysqerber).

Söz mənasını dəyişməsini diaxron planda göstərmək olar, yəni söz ehtiyatının məna baxımından dəyişilməsində yalnız tarixə əl atmaq lazımdır. İlk dəfə diaxron struktur semantikanı E.Koseriu elmi cəhətdən əsaslandıraraq burada iki qrup göstərir. 1) Adi leksik törəmə; 2) Məzmun strukturunun dəyişməsi. Məs.: yeni fransız dilində hanche (german dilindən götürülüb) yambız, cuisse- bud, jambe isə qıç deməkdir. Halbuki klassik latın dilində bu sözlər müvafiq olaraq coxa, femur və crus demək idi. Burada omonimlərin münaqişəsi və ya kolliziyası mühüm rol oynayıb.

İkinciyə misal olaraq latın və müasir roman dillərini gətirmək olar. Latınlar əmi və dayı anlayışlarını fərqləndirirdi, çünki roma hüququna görə ata və ana tərəfi vərəsəlikdə müxtəlif statusa malik idi. Dil də bunu müvafiq olaraq əks etdirirdi. Amma bu müxtəliflik ləğv edildikdən sonra onun dildə fərqləndirilməsinə ehtiyac qalmadı.

Onomasiologiya dilxarici reallığın (signifie) predmetindən çıxış edərək imkan daxilində ona aid olan ifadə edəni öyrənir. Ən mühüm istiqaməti dil coğrafiyasıdır ki, burada müxtəlif dil xəritələri tərtib edilir. Dil fəaliyyətinin ayrı-ayrı sahələrini öyrənmək üçün (kəndli həyatı, heyvandarlıq, üzümçülük və s.) müəyyən coğrafi əlaqədə çöl tədqiqatları aparılır, bu zaman ana dilində danışanlar cəlb edilir, onlardan məlumat toplanır. Tədqiqatçı onları qeyd edir və xəritəyə köçürərək eyni ifadə vasitələrilə-izoqlosslarla birləşdirir (eyni ifadə vasitələrinin cizgisi alınır). Məs.: deyək ki, Almaniyanın quzey, güney və mərkəzində eyni məfhum necə ifadə olunur. Burada marginal və periferik işlənmələr nəzərə çarpır. T.Frinqsin xəritəsi buna misal ola bilər.

Xəritələr, əlbət ki, əsasən sinxronik olur, amma onlar müxtəlif dövrlərin dil xüsusiyyətlərini əks etdirdiyindən diaxronik də ola bilər. Məs.: H. Şuxardtın əsasını qoyduğu və R. Merinqerlə V.Mayer-Lübkenin hərəkatı Almaniyada geniş yayıldı və ətraf aləmin dildə əks olunmasını geniş tədqiq etməyə başladılar.[32] Tarixi və mədəni irs bəzən köməyə gəlir. Bunlar əksər hallarda dildə öz əksini tapır. Hətta müxtəlif üslubi deyimləri də izah etmək asandır. Məs.: almanca Kopf, Haupt, Schddel, Birke, Grind və s. sözlərinin necə işləndiyini reallığı bilmədən düzgün başa düşmək olmaz.

Bəzən gerçək reallıq (signifie) müxtəlif dillərdə müxtəlif cür ifadə olunur. Alm. warm, heiß, ing. hot, fr. tries chaud və ya alm. Blume, der blühende Teil einer Pflanzeblüte, ing. flower və blossom, fr. isə yalnız fleur və ya başqa misal. Alm. Parlament, ing. parliament, fr. parlement, alm. Kult (us) ministerium, fr. office de le`ducation nationale, alm. Abitur, fr. baccalaureat, ing. school-leaving exam və s.

Semasiologiya ifadə edəndən (signifiant) çıxış edərək onun hansı tellərlə ifadə olunanla (signifie) bağlı olduğunu öyrənir.

Məzmun və ya ifadə olunanla forma və ya ifadə edən arasındakı əlaqələri aşağıdakı kimi göstərmək olar: Məs.:

/Die ganze Schule brannte ab//

/Die ganze Schule war empört über seine Misshandlungen /

və ya

/After dinner we go to the cinema//

/Fish and chips?/ that was not a big dinner//

Eyni ifadə edən (eyni söz) eyni məna ifadə edirmi? Əlbəttə ki, xeyr. Alman dilində birinci halda söhbət binadan gedirsə, ikinci halda məktəb ictimaiyyətindən gedir. İngilis dilində isə konkret olaraq birinci halda söhbət nahardan, ikinci halda günorta yeməyinin rasionundan gedir. Bü cür hallara polisemiya və ya çoxmənalılıq deyilir, yəni konteksdən asılı olaraq sememlərdən birinə üstünlük verilir. İngilis cümləsində $sem_1$

($S_1$) əsas naharı, ikinjidə isə sem$_2$ ($S_2$) axşam yeməyinin rasionunu dəqiqləşdirir. Burada omonimlər də fərqləndirilir. Məs.: die Arme-yazıq qadın, die Arme-qollar və ya cümlə omonimliyi: /Reiche| Studenten meinen Wein//- /Tələbələrə mənim şərabımdan ver//. /Reiche Studenten| meinen Wein//- /Varlı tələbələr şərab istəyirlər//

Semasioloji və onomosioloji tədqiqatların nəticələrindən lüğətlərin tərtibində istifadə olunur. Bununla məşğul olan elmə leksikoqrafiya deyilir. Bir dilli lüğətlər izahlı əsaslarla hər hansı bir sözdüzəltmənin (Stichwort və ya Lemma: pl. Lemmata) mənasını açmaqla məşğul olur, yəni semlərin sadalanması baş verir. İkidilli lüğətdə isə semasioloji proses omosioloji proseslə tamamlanır. Əsas sözün mənalarının açılışı semasiolojidir ($S_1+S_2+S_3.. + S_n$ ), bu zaman alınan sem təhlili isə, yəni öyrənilən dilin sözünə gediş onomolocidir, yəni $S_1+ S_2 + S_3... +S_n$ semlərindən ibarət olan sözü tərcümə dilində necə verməli? Sual belə qoyulur.

Dil işarələrinin (sözlərin) assimmetriyası da çox maraqlıdır. Dil işarələri üçün normal o haldır ki, bir ifadə bir məna verir. Bu zaman söhbət işarənin simmetriyasından gedir.




Amma əksər hallarda bir ifadə bir neçə məna və ya əksinə bildirir. Bunun da nəticəsində omonim, sinonim və polisemiya əmələ gəlir. Sxemlərdə bunu aydın görürük. Bu da işarənin asimetriyasıdır.



Buna dildəki omonimləri misal gətirmək olar. a) Bunlardan birincisi omofonlardır. Onlar eyni cür yazılır və ya deyilir, lakin müxtəlif mənalar verir. Məs. Tor- darvaza, Tor- dəli, Mohr- kök (yerkökü), Moor -bataqlıq, Lerche-torağay, Lärche-qara şam; b) İkincisi omoqraflardır, onlar eyni cür yazılır, lakin ya müxtəlif cür səslənir və ya məna ifadə edir.

Məs.: alm.

modern — /mo.`dɛRn/-yeni; /`mo:dɛRn/-başlamaq

Reif — /Ra͜ef/- dairə; /Ra͜ef/ - donmuş kanat; /Ra͜ef/- dəymiş

ing. read — /ri:d/-oxumaq; /red/-oxunub

ear — /i:ə/-qulaq; /i:ə/-sünbül və s.

Digər misallar: /Sie hat in Berlin Liebe genossen//-/Sie hat in Berlin liebe Genossen//. /Der Gefangene floh |(…| gefangene Floh)//. /Ich möchte nicht mit dem alten Auto fahren/… |dem Alten.// /Wir wollen nicht die wahre Kunst|, sondern die ware Kunst.//

Bəzən bütün cümlə omofon ola bilir.Məs.:
/Reiche | Studenten | meinen Wein.//

Yuxarıda göstərdiyimiz sxemin tərsi baş verir.



Tam sinonimlər tək-tək hallarda olur. Müq. et: Kiefer-Föhre-Christbaum-Weihnachtsbaum; Samstag-Sonnabend; bəzən bölgə sözləri: Metzger, Fleischer, Schlachter, Flaschner-Klempner; Tischler, Schreiner; Wagner, Spengler; Schornsteinfeger, Kaminfeger; Brieftrager, Postbote və s. Həmçinin bitki adları: Karotte, Mohre, Gelbe, Rübe, rote Rübe, Bete; ing. pink, cornation-Nelke; pansy, martsease-Stiefmğtterchen; potato beetle, Colorado beetle-Kartoffelkdfer; donkey, ass-Esel və s.

Sinonimlər biri digərinin yerində işlənə bilər. Ancaq bu həmişə belə olmur. Müq. et: /Du arbeitest seit Frühling| (Frühjahr*, Lenz*) hier.// /Ich hatte einen Sonnenbrand im Gesicht| (Antlitz[33], Visage*)//. Sinonimlər əsasən üslubi məqamlarla bağlıdır (Gesicht, Visage), ing. glasses/spectacles - Brille; to die / to be cease, alm. Auffassung/Konzept, Gebiet/Region, Auskunft / Information və s. Göründüyü kimi, sinonimlərdən biri dilin öz sözü, o biri keçmə söz də ola bilir.

Çoxmənalılığı "Die" artiklinin misalında belə göstərmək olar.




İfadənin bir neçə, bir-birilə bağlı məna ifadə etmək imkanı olur. Məs:

Absatz
1) ayaqqabı dabanı
2) pilləkənin oturacağı
3) malın satılması

ing. to ride < 1) reiten; 2) Auto (Bus) fahren

## III. 5. Fəslə dair yoxlama suallar və tapşırıqlar

1. Söz nədir?
2. Sözün yaranması və strukturu haqqında nə bilirsiniz?
3. Söz mənası hansı yollarla açıla bilər?
4. Omonim və sinonimlərə misallar verin.
5. Sözün çoxmənalılığını misallarla göstərin.
6. Sinonimlər cərgəsi düzəldin və bu cərgədə dominantı təyin edin.
7. Sözün formal xüsusiyyətlərini misallarla açıb göstərin.
8. Söz alınması və mənimsənilməsi barədə nə bilirsiniz?
9. Söz fondunun üzvlənməsi prinsiplərini izah edin.
10. Lüğətlərin tipləri barədə nə deyə bilərsiniz?
11. Sizi maraqlandıran elm sahəsi üzrə kiçik sözlük tərtib edə bilərsinizmi?

[1] Һ.Mosep. Triebkräfte im Sprachgeschehen der Gegenwart. In: Deutsche Sprache der Gegenwart. Ausgewählte Texte für den Unterricht. Stuttgart, 1977.

[2] Dilçilik ədəbiyyatında bundan başqa bir də asılı morfem fərqləndirirlər. Məs.: «Himbeere» /him/, ingilis dilində «voyage» sözündə /vou/ morfemləri bu qəbildəndir. Bəzən bunlara unikal morfemlər də deyirlər, çünki onlar bircə kombinasiyada iştirak edirlər. «Himbeere» sözünün təkmorfemli olmadığını bu misallar sübut edir: Him-, Erd-, Stachel-, Johannes-, Brom-, Prerielbeere və s. Bax: Heidrun Pelz. Linguistik. Eine Einführung. Hamburg, 1996, s.127.

[3] L.Bloomfield. Language. N.York, 1936. L.Blumfildə görə morfem ən kiçik forma, söz isə ən kiçik sərbəst formadır.

[4] E.Nida. Morphology. The descriptive Analysis of Words. 2., A., 13 Am.-Arbor, 1978.

[5] А.И.Смирниций. Лексикология английского языка. М., 1956.

[6] Etimologos-yunan sözü olub, etymon- həqiqi, logos-elm deməkdir.

[7] Onlardan bir neçəsini göstərək: F. Kluge. Etymologisches Wörterbujh der deutsjhen Sprache, 20.Aufl., bearbeitet von W.Mitzka, Berlin, 1967; Der Der GroƏe Duden, Bd. 7; Herkunftswürterbuch. Die Etymologie der deutschen Sprache. Mannheim. 1963; ingilis dilində: E.Weekley. An Etymological Dictionary of Modern English . London, 1921.

[8] Bax: M.Abbasova. Alman dilində mürəkkəb isimlərin qrammatik və fonetik xüsusiyyətləri. Namizədlik dissertasiyası. Bakı, 2002.

[9] M.Abbasova. Göstərilən əsər.

[10] H. Marchand. The Categories and Types of Present Day English Word Formation. Wiesbaden, 1960, Munchen, 1969.

[11] Alman dilində mürəkkəb isimlərdən bəhs edən namizədlik dissertasiyasında M.Abbasova göstərir ki, çağdaş alman dilində 3 və daha artıq komponentli kompozitlər üstünlük təşkil edir. Bax: M.Abbasova. Göstərilən əsəri.

[12] Die deutsche Sprache. 1967, s. 53.

[13] J.Erben. AbriƏ der deutschen Grammatik. Berlin, 1964,s. 54.

[14] E.Coseriu. Einfğhrung in die allgemeine Sprachwissenschaft. Tğbingen, 1988.

[15] E.Hänchel und H.Waidt. Grammatik der deutschen Sprache. 1997, s. 24.

[16] Yenə orada, s. 25.

[17] Yenə orada, s. 26.

[18] Heidrun Pelz. Linguistik. Eine Einführung. Hamburg, 1996, s. 135.

[19] E.Coseriu. Bedeutung und Bezeichnung im Lichte der strukturellen Semantik. München, 1970, ?.105.

[20] E.Leisi.Der Wortinhalt. Seine Struktur im Deutschen und Englischen.

Heidelberg, 1967,s.112.

[21] F.Leizinger. Elemente des neusprachlichen Unterrichts. Stuttgart, 1966, s.28.

[22] E.Leisi. Göstərilən əsər, s.19.

[23] L.Hcelmslev. Proleqomena to a Tneory of Language. Madison, 1963.

[24] Heidrun Peltz. Göstərilən əsər, s.187-198.

[25] C.Erben. Abriss der deutschen Grammatik. Berlin, 1958, s.117

[26] F.Leisinger. Göstərilən əsər, s.44-45

[27] Heidrun Pelz. Göstərilən əsər, s. 189.

[28] Jost Trier. Der deutsche Wortschatz im Sinnbezirk des Verstandes. Geschichte eines sprachlichen Feldes. 1931.

[29] L.J.Weisgerber. Grundzüge der inhaltbezogenen Grammatik Düsseldorf, 1962. Bax həmçinin: F.Yadigar. Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

[30] E. Coseriu. Lexikalische Solidaritäten. In „Poetica«, 1, 1967, s. 293-303.

[31] Alm. semantisches Merkmal, ing. semantic marker, fr. trait semantiquament pertinent. Ancaq sem umimi şəkildə qəbul olunmuş sayılır.

[32] H.M. Gaugep / Üsterreicher, R.Wulf / VVindisch. Einführung in die franzosische Sprachwissenschaft. Darmstadt, 1981.

[33] Əvəz etmək olmaz mənasını bildirən işarədir.

# IV. GERMAN DİLLƏRİNİN FONETİK QURUMU VƏ FONOLOJİ SİSTEMİ

## IV. 1. Ünsiyyətin modeli

Yuxarıda deyilən funksional dil danışılanda və dinlənib başa düşüləndə funksionallığını qoruyub saxlayır. Yəni dil səsləndirilməlidir, səslə verilən məlumat eşidilməlidir və qavranılaraq dərk edilməlidir. Yalnız belə olduqda dil səriştəsi, dil bilikləri (kompetens) həyata keçir (performans), yəni ünsiyyət baş tutur. Beləliklə, hələ 20 il bundan əvvəl irəli sürdüyümüz ünsiyyət modeli bu gün də öz aktuallığını saxlayır (bax: şəkil 1)[1]. Bu isə o deməkdir ki, danışanı, dil daşıyıcısını (native speaker), məlumatın mənbəyi, qaynağı kimi götürməli və onun necə danışdığı, işarələr sistemi olan dili necə canlı, səsli danışığa çevirdiyini tədqiq etməliyik. Aydın məsələdir ki, biz bir dil kollektivində danışanların hamısını öyrənə bilmərik, buna əslində heç ehtiyac da yoxdur. Çünki hər bir dil daşıyıcısı müəyyən bir funksional dil kollektivinin üzvü olmaqla onun danışıq bazası bəzi fərdi xüsusiyyətləri çıxmaq şərtilə həmin dildə danışan başqa dil daşıyıjılarında olduğu kimidir. Odur ki, ayrı-ayrı fərdlərin danışığını öyrənməklə biz ümumi artikulator[2] baza haqqında biliklər əldə edə bilərik. Başqa sözlə, biz ayrılıqda danışanların hər birini obyekt kimi seçə bilərik.

## IV. 2. Ünsiyyətin fizioloji aspekti

Danışığın artikulator bazasını öyrənən aspektə artikulator, fizioloji, anatomik və ya sadəcə olaraq fonetik aspekt deyilir. Somatik tədqiqat metodu ilə (rentgenoqram) fizioloji aspekti yaxından müşahidə etmək mümkündür.

Ünsiyyətin artikulator aspektinə-birinci növbədə səsin harada və necə əmələ gəlməsi, bu bucaq altında səslərin təsnifi və

onların danışıq axınında qarşılıqlı əlaqəsi (koartikulasiya) aiddir. Səs isə bütövlükdə danışıq cihazında formalaşır (bax: şəkil 2).

Fizioloji baxımdan səsin əmələ gəlməsi çox mürəkkəb bir prosesdir. İlk öncə nəfəs orqanlarını nəzərdən keçirək. Buraya ağ ciyərlər, hava yolu, bronxlar və döş qəfəsinin diafraqmı aiddir. Onların da fəaliyyəti döş qəfəsi əzələlərilə nizamlanır.[3] Qeyd edək ki, səslərin əksəriyyəti nəfəsvermə zamanı yaranır, anjaq nəfəsvermə nəfəsalmadan rövnəqlənir. Nəfəs alaraq dolmuş ağ ciyərlər döş qəfəsinin genişlənməsini tələb edir. Sonra fizioloji proses kimi döş qəfəsi sıxılanda hava axını ağız və burun boşluğundan bayıra çıxır. Lakin danışıq zamanı bu, sadəjə nəfəsvermə deyil, yaranacaq səsin təbiətinə münasib nizamlanma olur və bu an xirtdək (bax: şəkil 3-5) öz işini görür. Üzüyəbənzər vəzinin (qığırdağın) yuxarısı qalxanabənzər vəzinin oturacağı ilə elastik əzələ vasitəsilə birləşir ki, bunlara səs telləri deyirlər. Onların dəyişməsi dayaq vəzilərinin sürüşkən hərəkətilə nizamlanır. Qapaqla dayaq vəzi nəfəsvermədə yaranacaq səsin təbiətinə uyğun olaraq hərəkətə gəlir və öz aralarında səs cığırını müxtəlif şəklə salır. Səs cığırının beş növü var (bax: şəkil 6). Qalxanabənzər vəzi arasında yalançı səs telləri yerləşir. Adam soyuqlayanda yalançı səs telləri əsas səs tellərinin funksiyasını öz üzərinə götürür.

Fizioloji müşahidələr göstərir ki, ciyərlərdə həmişə müəyyən hava ehtiyatı qalır ki, ağız boşluğundan bayıra çıxan hava azlıq etdikdəköməyə gəlsin və danışan istənilən zaman öz fikrini tamamlaya bilsin. Ciyərlərdən gələn hava axını nə qədər güclü olarsa, deyilən səs də bir o qədər bərkdən çıxar və məlumatı uzaq məsafəyə çatdırmaq olar. Müəyyən səbəb üzündən məna qrupları arasında fasilə edilməyirsə və danışan o biri məna qrupuna keçirsə, ciyərlərdə qalan hava ehtiyatı bunu əvəz edir. Odur ki, bəzən məna qrupunun sonuna çatanda nəfəs tükənir, cümlənin son səsləri yarımçıq və boğuq alınır.

Səsin gücü, tonu və zamanı səs tellərinin titrəməsindən və bu da əsasən ciyərdən gələn hava axınının gücündən asılıdır. Bütün çalarlıqlar danışığın intonasiya-ritmik-prosodik təşkilinə

bilavasitə təsir edir. Xirtdəküstü çanağın ikinci funksiyası qida borusuna qida gedərkən xirtdəyin ağzını bağlamaqdır.

Ciyərlərdən gələn hava axını xirtdəkdə bir-birilə bağlı olan əzələləri hərəkətə gətirir. Burada bir neçə əzələ var (bax: şəkil 3-5).

Xirtdək səsin yeganə yaradıcısıdır. Onda bir neçə hərəki və əlaqəli əzələ var. Aşağısında üzüyəbənzər vəzi (bax: şəkil 3-5), yuxarısında isə qaşığabənzər xirtdək qapağı yerləşir. Oturacağında ən böyük vəz üzüyəbənzər vəzidir, o, xirtdəyi hava cığırı ilə birləşdirir. Arxadan sağdan geniş, soldan isə dardır. Üzüyəbənzər vəzinin üstündə ikibucaqlı dördkünc qalxanabənzər vəzi yerləşir. Onlar müxtəlif olsa da, bir-birilə hərəkətsiz bağlıdır. Qalxanabənzər vəzi kişilərdə 90° bucaq altında birləşdiyindən, onun boğazda çıxıntısı aydın görünür (hulqum), qadınlarda isə 120° bucaq altında birləşdiyindən görünmür. Kişilərin səs telləri uzun və az elastikdir, ona görə də səsləri aşağı tonda köklənib, qadınlarınkı isə qısa, ancaq çox elastikdir, ona görə də səsləri zildir. Arxa tərəfdə şaquli istiqamətdə iki dənə buynuzabənzər vəzi yerləşir.

Dərindən nəfəs alanda dayaq vəzilər çevrilir və qlottis (səs cığırı) görünür (bax: şəkil 5). Səs cığırı nazik tük kimi daralır, havanı içəri buraxmır. Bu, danışıq vəziyyətidir, səs cığırı kip bağlanıb, havanın təzyiqi ilə səs telləri birdən açılır, bu zaman şaqqıltı kimi bir səs eşidilir. Buna alman dilində sərt başlanğıc (Knacklaut) deyirlər. Termin kimi knaklaut işlədilir, linqvistik funksiyası sözün və morfemin saitlə başlandığını bildirdiyindən, dilçilikdə o, sərhədləmə siqnalı kimi tanınır.[4]

Səs telləri bir-birinin üstündə pərçim oturub titrəmir, amma oturacaqda ayrılır. Buna pıçıltı zamanı təsadüf edilir. Nəhayət, səs telləri üçbucaqlı şəkil alır ki, bu da nəfəsalma və nəfəsvermə mövqeyidir.[5]

Sakit vəziyyətdə nəfəsalmanın və nəfəsvermənin zamanı təxminən eynidir. Danışanda nəfəsvermə müddəti artır. Bu pozulanda fizioloji defekt müşahidə olunur. Səs telləri saniyədə üç hs-dən 1708 hs-ə qədər titrəyir. Oxuyanda bu 80 (bas)-1303

(sopran) münasibətdə olur. Səs diapazonu tenorlarda 128-433-ə qədər, alt səsində 171-640 hs, sopranda 256-853 hs olur.

Kişilərdə bas, bariton, tenor, qadınlarda isə alt, messosopran və sopran olur.

Xirtdəyin fəaliyyəti, eyni zamanda səs tellərinin hərəkəti səsin törəmə mənbəyidir. Səsin müəyyən çalara, ətə-qana dolması üçün onun xirtdəküstü boşluqda (Ansatzrohr) forma-laşması gərəkdir. «Nəfəs üzvləri və xirtdəkdən sonra xirtdək-üstü boşluq həlledici rol oynayır» desək, səhv etmərik. İlkin fizioloji funksiyası qidanı çeynəmək olan bu boşluğun fonetika da adı danışıq cihazıdır və üç hissədən ibarətdir: ağız, burun və udlaq boşluqları[6] (bax: şəkil 2).

Danışıq cihazında damaq pərdəsi, dil, dodaq və alt çənə hərəki olduğundan onlara fəal, dişlər, onların yuvaqları, sərt damaq və üst çənə qeyri-hərəki olduğundan onlara qeyri-fəal üzvlər deyilir.

İndi fizioloji baxımdan müəyyən biliklərimiz olduğundan biz ünsiyyət məqsədilə yaranan səslərin bölgüsünü verə bilərik. Bu həm də ona görə lazımdır ki, həmin bölgüdə biz ənənəvi olaraq qəbul edilmiş terminlərdən istifadə etməliyik. Beləliklə, fəal və qeyri-fəal, enerji mənbəyi (hava axını), titrəyən səs telləri və səs cığırı (xirtdəyin fəaliyyəti), artikulasiya da daxil olmaqla bunların hamısı dildə işlənən səslərin fizioloji baxımdan formalaşmasına xidmət edir. Bölgü isə müəyyən prinsipə əsaslanır. Eyni bölgüdə bir neçə prinsipdən istifadə olunursa, demək, o, yaxşı prinsip deyil. Biz də buna əməl edərək yalnız fəal üzvə söykənən təsnifatı əsas götürəcəyik.

İlk öncə klassik bölgü olan sait və samitləri götürək. Saitlər deyəndə, adətən ağız boşluğunda hava axınının qarşısında maneəyə rast gəlmədən düzələn səsləri başa düşürlər. Təəssüf ki, bu prinsip əksər dərslik və kitablarda verilsə də, nədənsə bu bölgüdəki naqisliyi unudurlar. Söhbət ondan gedir ki, /i:/, /⊥/, /y:/, /y/ və s. saitlərdəki maneəni aradan qaldırsaq, onda bu səslərdən əsər-əlamət qalmaz. Yəni /i:/ və /⊥/də dilin yuxarı qalxan ön hissəsini və /y:/, /y/- də bundan başqa həm də dodaqlanmanı

götürsək, onda bu saitlərdən heç nə qalmaz. Digər tərəfdən, bəs /h/ necə olsun? Axı bu samitin yaranmasında ağız boşluğunda maneədən söhbət gedə bilməz. Odur ki, biz başqa bölgü prinsipinə əl atacağıq. O da İ.A.Boduen de Kurtenenin mərkəzləşmiş artikulasiya prinsipidir.[7]

Hər hansı bir samitin tələffüzündə artikulasiyanın konkret bir yerdə mərkəzləşməsindən danışmaq olar, ancaq saitlər bu xassəyə malik olmayıb bütövlükdə xirtdəküstü boşluqda formalaşır. Dodaqdan udlağa doğru ikili prinsip (dixotomik) əsasında samitləri və saitləri artikulator baxımdan belə təsnif etmək olar:

*I. Fəal üzvə görə*

a)Dodaq/qeyri-dodaq samitləri (bax: şəkil 7).[8]

Alm.: b, p, v, f, m, p͜f- məs.: Bus, Pass, Wasser, fassen, Masse, Pferd (bax: şəkil 7) və s.

İng.: b, p, v, f, m, w - məs.: pie, by, my, five, why və s.

Daç.: b, p, v, f, v - məs.: ben, pen-qələm, mens-kaman, being, over-üzərində, frets-velosiped, wang-cheek və s.

Azərb.: b, p, v, f, m - məs.: pul, buz, fərd, mən və s.

Şəkillərdən görünür ki, dodaq samitlərində dodaqlar bir-birilə birləşib kipləşmə, ya da alt dodaq qabaqdan üst dişlərə toxunaraq nov yaradır və s.

| Mərkəzləşmiş artikulyasiyalı səslər<br>S a m i t l ə r | | | | Mərkəzləşmiş artikulyasiya olmayan səslər<br>S a i t l ə r | | | |
|---|---|---|---|---|---|---|---|
| alman | ingilis | daç | azərb. | alman | Ingilis | daç | azərb. |
| b, p, d, t, g,k | b, p, d, t,g,k | p, b, d, t(c),k | b, p, d, t,g,k | i:, ⊥, y:, ü | i:, ⊥, u, ʋ, e | i, ⊥, y, ü, ε, ə | e, ə, i, ø, ü |
| p‿f, v, f, z, s | z, s, v, f, ð, θ | v, f, s, z | v, f, z, s | e:, ε, | ə, ʋ, ε, ∧, | œ, ⊃, a: | a, I, o, u |
| ʃ, t‿s, t‿ʃ | ʃ, t‿ʃ,ʒʒ | ʃ (ʒ), x, | ʒ, ʃ, ǯ, t‿ʃ | ø:, œ, u:, ʋ | əe, a: ⊃,: | a, ei, oy | |
| j, ς | d‿ʒ, r, j, h | ĥ, r, v, j | ɣ, x, ђ, (k), | o:, ⊃, a:, a | ai, oi, au, ei | ∧u | |
| m, n, l, R | w, ŋ, m, n, l | l, m, ŋ, | c, m, n, l, r | a‿e, a‿o, ⊃‿ø | iə, εə, ʋə, oʋ (ɜʋ) | | |
| ŋ, h, x | | | h | | | | |

b) Dilönü/qeyri-dilönü samitləri (bax: şəkil 8).

Alm: d, t, z, s, n, ş, t͜s, t͜ş, l - məs.: Ding, Tal, Sohn, essen, Schlacht, zehn, deutsch, Linie və s.

İng: d, t, θ, ð, n, s, z, I, tş, d͜ʒ, ş, ʒ - məs.: tie, die, night, thigh, thy, sigh, zoo, rye, lie və s.

Daç: d, t, n, s, z, r, l, (c), (ɲ), (ş), (ʒ), i, n, s variantlarıdır, çünki /y/-dan əvvəl gəlirlər, /z/ /zc/ kimi götürülə bilər. Məs.: tak-bough, dak, roof, ketjap-soy sana, n-neck, (ɲ)-oranje, s-sok-sock, zeep-zoap, rat-rat və s.

Azərb: d, t, n, r, s, z, l, ş, c, ç, ; - məs.: dağ, tağ, nal, ram, saz, zolaq, ları (toyuq), şal, çay, jalə və s.

Şəkillərdən göründüyü kimi, dilönü samitlərin tələffüzündə dilin önü fəaldır, o, sərt damaqla kipləşir, ya da ona toxunur, ona görə də onlara dorsal, ingilislərdə dilin ucu (apix) sərt damağa doğru qalxır, odur ki, onlara apikal samitlər deyilir. İngilis dilində r-da dilin yanları yuxarı qalxır, qalxanabənzər şəkil alır (kakumus), ona görə də ona kakuminal səs deyilir. Bu dillərin hamısında /l/ dilin yanında tələffüz edilir, ona görə ona dil-yanı (lateral) səs deyilir.

c) Dilortası/qeyri-dilortası samitləri (bax: şəkil 7).

alm: j, ς - məs: Jahr, ich və s.

ing: j - məs: you və s.

daç: j - məs: jas-saat və s.

Azərb: c, ħ, k` - məs: yağ, gəmi, kələk və s.

Adından göründüyü kimi, bu samitlərin tələffüzündə dilin orta hissəsi fəal olur, müxtəlif dillərdə müxtəlif yerlərdən sərt damağa toxunma müşahidə olunur (bax: şəkil 7).

d) Dilarxası/qeyri-dilarxası samitləri (bax: şəkil 9).

alm: k, g, x, ŋ - məs: Krug, Garten, lachen, lang və s.

ing: k, g, ŋ - məs: Kite, guy; hang və s.

daç: k, ŋ - məs: cat-kat, eng, nerrow və s.

Azərb: k, g, x, - məs.: kartof, qarı, xala, və s.

Bu samitlərdə dilin arxa hissəsi fəal olur, o, yumşaq damağa doğru yuxarı qalxır.

e) Dilçək/qeyri-dilçək samitləri (bax: şəkil 9).

alm: /R/ məs.: Radio və s.

ing: ----
daç: /x/ məs: gat- hole
Azərb. dilində: /ɤ/ samiti sözün əvvəlində gəlmir: yaɤı, yaɤ və s.
Bu samitlərdə dilçək fəaldır.
f) Udlaq samiti/qeyri-udlaq samiti
alm: /h/ məs: haben və s.
ing: /h/ məs: have və s.
daç: /h/ məs: hoed, hat və s.
Azərb: /h/ məs: hava və s.
Bu samitlərdə udlağın yuxarı hissəsi fəaldır. Ona görə də bunlara yuxarı udlaq samiti deyirlər.[9]
Bütün bunlardan sonra german və Azərbaycan dillərində samitlərin fəal üzvə görə təsnifini bir cədvəldə belə ümumiləşdirə bilərik.

| | do-daq | dilönü | dilort. | dilarx. | dilçək | udlaq |
|---|---|---|---|---|---|---|
| alm. | b, p, v, f, m, p͜f | d, t, n, z, s, ʃ, t͜s, t͜ʃ, l | j, ç | k, g, ŋ, x | R | h |
| daç | b, p, m, v, f | d, t, n, s, z, p, (f), (ʒ) | J | k, ŋ | χ | ĥ(q) |
| ing. | b, p, w, m, v, f | d, t, z, s, n, θ, ð, l, r, d͜ʒ, tʃ, ʃ,ʒʒ | J | k, g, ŋ, | | h |
| Azərb | b, p, v, f, m | d, t, z, s, ʂ, n, r, l, ʃ, ʒʒ | j, ђ | k, g, n, x, ŋ | | h |

Alman, ingilis, daç dillərində m, n, ŋ, Azərbayjan dilində isə m, n samitlərinin tələffüzündə damaq pərdəsi qismən aşağı düşərək ağız boşluğuna gedən yolu bağlayır, ona görə bunlara burun (nasal) samitləri deyilir və onlar digər ağız (oral) samitlərinə qarşı qoyulurlar.

*II. Əmələ gəlmə üsuluna görə*

Burada samitin sırf artikulator təsnifi bir qədər çətindir, çünki təkcə artikulator[10] bölgü yetərli olmadığından nəticə kimi samitin necə akustik təsir bağışlaması da nəzərə alınmalıdır. Ona görə də qarışıq da olsa, bu bölgünü burada vermək daha məqsədəuyğundur, çünki nəticəni doğuran əlamətdir.

Beləliklə, əmələ gəlmə üsuluna görə samitlər aşağıdakı kimi təsnif olunurlar:

a) Kipləşən (partlayışlı)/qeyri-kipləşən (partlayışlı) samitlər:[11]

alm.: / b, p, d, t, k, g, m, n, ŋ/

ing.: / b, p, d, t, g, k, m, n, ŋ/

daç.: / b, p, d, t, k, m, n, ŋ /

azərb.: /b, p, d, t, k, k, q, m, n, ğ/

Bunların tələffüzündə bir qayda olaraq fəal üzv ya digər fəal və ya qeyri-fəal üzvlə kipləşmə yaradır, sonra güclü hava təzyiqi nəticəsində kipləşmə partlayışa keçir. /m, n, ŋ/ samitlərində hava qismən burun boşluğundan süzülərək bayıra çıxır.

b) Novlu/qeyri-novlu samitlər:

alm.: / v, f, s, ʃ, j, ç, x, h/

ing.: / v, f, θ, ð, s, z, ʃ, ʒ, h, w/

daç.: / v, f, ʋ, s, z, j, x, h /

azərb.: / v, f, z, s, ş, c, y, x, h/

Bunların deyilişi danışıq cihazında bir nov yaradır, hava axını bu novdan süzülərək bayıra çıxır.

c) Kipləşən-novlu/qeyri-kipləşən novlu samitlər:

alm.: /p͜f, t͜s, t͜ʃ/

ing.: /t͜ʃ, d͜ʒ/

daç.: / (ʃ), (ʒ)/

azərb.: /t͜ʃ, d͜ʒ/

Bunların tələffüzündə əvvəlcə kipləşmə yaranır, sonra kipləşmə ani olaraq nova keçir. Bunlara affrikatlar da deyirlər.

d) Titrək/qeyri-titrək samitlər:

alm.: /R/

ing.:/ r /

daç.: /r/

azərb.: /r/

Azərbaycan dilində /r/ titrək, dilönü samitidir, söz sonunda karlaşır, alman dilində bu titrək dilçək samit [ʁ, ʌ, ʀ] variantları kimi də deyilə bilər, ingilis dilində kakuminal, daç dilində isə söz əvvəlində titrək, sonda isə bir qədər karlaşan titrək samitdir.

e) Süzülən/qeyri-süzülən samitlər:

alm.: /l/

ing.: /l/

daç.: /l/

azərb.: /l/

Azərbaycan dilində /l/ arxa sıra saitlərinin qonşuluğunda qalın, incə saitlərin qonşuluğunda isə dil gövdəsinin güclü şəkildə irəli çəkilməsi nəticəsində yumşaq tələffüz olunur.

Bütün bunlardan sonra biz bu əlamətlərə görə samitləri cədvəl şəklində təqdim edə bilərik:

| Əlamətin adı / Dillər | Kipləşən-partlayışlılar | Novlular | Kipləşən-novlular | Titrək | Süzülənlər |
|---|---|---|---|---|---|
| alm. | b, p, d, t, g, k, m, n, ŋ | v, f, z, s, ʃ, j, ç, x, h | r͜f, t͜s, t͜ʃ | R | l |
| ing. | b, p, d, t, g, k, m, n, ŋ | v, f, θ, ð, s, z, ʃ, ʒ, h, w, r, l | t͜ʃ, d͜ʒ | J | l |
| daç | b, p, d, t, k, m, n, ŋ | v, f, v̹, s, z, χ, ĥ | (ʃ),(ʒ) | R | l |
| Azərb. | b, p, d, t, g, k, m, n, (k), ђ | v, f, ʃ, s, ʒ, y, x, h | t͜ʃ, ǀ, χ | R | l |

Samitin kipləşən-partlayışlı, novlu, kipləşən-novlu, titrək və ya süzülən olduğunu əməli olaraq göstərmək üçün yanan kibrit çöpünü və ya şamı çəpəki ağıza yaxınlaşdırmaq kifayətdir. Kipləşən-partlayışlı samiti tələffüz edən kimi onlar sönəcək. O biri samitlər də öz əvvəlki vəziyyətindən yayınacaq, xəfifcəsinə titrəyəcək, amma sönməyəcək, nə də sərt bucaq altında əyilməyəcək.

III.Səs teIlərinin vəziyyətinə görə:

Üçüncü böyük əlamət səs tellərinin iştirak edib-etməməsidir. Bəzi dillərdə bu, samitin güclü və zəif tələffüzü ilə müşayiət olunur. Bu əlamətə görə samitlər iki böyük qrupa bölünür:

| | Cingiltililər | Karlar |
|---|---|---|
| Alm.: | b, d, g, v, z, (d‿ʒ), j, | p, t, k, x, h, p‿f |
| | m, n, l, r, ŋ | s, f, ʃ,t‿ʃ, t‿s, ç |
| İng.: | b, d, g, d‿ʒ, v, ð, | p, t, k, t‿ʃ, f, |
| | z, ʒ, ŋ, l, j, w | θ, s, ʃ, h |
| Daç.: | b, d, (ɲ), v, z (ʒ), j, l, ŋ, ϑ | p, t, k (c), f, s, (ʃ), x, h |
| Azərb.: | b, d, q, , v, z, | p, t, k, x, h |
| | j, ђ, ɣ , m, n, l, r | f, s, ʃ, ʒ̆, (k'), |

Göründüyü kimi, alman və daç dillərində cingiltili ilə karların sayı təxminən eynidir. Yalnız Azərbaycan və ingilis dillərində cingiltililər 1,5 dəfə karlardan çoxdur. Sonor samitləri ayrıca qrupa daxil etsək, onda ümumiyyətlə, karlarla cingiltililər təxminən eyni gələr.

Samitləri cədvəldə belə əks etdirmək olar:

| Fəal üzvə görə / Səs tellərinin İşt. görə | | Dodaqlanan | | Dilönü | | Dilortası | | Dilarxası | | Dilçək | | Udlaq | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əmələ gəlmə üsuluna görə | | Cing. | Kar | Cing. | Kar | Cing. | Kar | Cing. | Kar | Cing. | Kar | Cing. | Kar |
| Kipləşən partlayışlılar | alm. | b, m, | r, f, | d, n, | t | | | g, η | | | | | |
| | ing. | b, m, | | d, n, | t - | - | - | ŋ, g | k | | | | |
| | daç | b, m, | r | d, n, | t - | - | - | | k | | | | |
| | A azərb. | b, m, | r | d, n, | | Ђ | k', | G | | | | | |
| Novlular | alm. | v, | f | z, (з) | s, ʃ | j | ς | | x | | | | h |
| | ing. | v, | f | r, z, ∂, d͜ʒ, | s, ʃ, θ | | | | | | | | h |
| | daç | v, | f | z, ν | | | | | χ | | | | ĥ |
| | A azərb. | v, | f | z, (ʒ) | | | | ɣ | x, ɤɤ | | | | h |
| Kipləşən-novlular | alm. | | p͜f | | t͜s, t͜ʃ | | | | | | | | |
| | ing. | | | | t͜ʃ, d͜ʒ | | | | | | | | |
| | daç | | | (ʒ) | (ʃ) | | | | | | | | |
| | A azərb. | | | | | | | | | | | | |
| Titrək-lər | alm. | | | | | | | | | | | | |
| | ing. | | | | | | | | | | | | |
| | daç | | | Θ | | | | | | | | | |
| | | | | r | | | | | | | | | |
| Süzülənlər | alm. | | | l | | | | | | | | | |
| | ing. | | | l | | { | | | | | | | |
| | daç | | | l | | | | | | | | | |
| | A azərb. | | | l | | | | | | | | | |

Saitlərin artikulyator təsnifi adətən alt çənənin düşmə dərəcəsinə, dodaqların iştirakına, dilin şaquli və üfüqi istiqamətdə hərəkətinə, damaq pərdəsinin qalxıb-enməsinə görə aparılır. Aydın məsələdir ki, saitlər saf sədalı səslər olduğundan, onlarda səs tellərinin iştirakı üzrə bölgüyə ehtiyac qalmır. Digər tərəfdən, german dillərində burunda deyilən sait olmadığından, damaq pərdəsinin qalxması (ağız saitləri) və enməsi (burun saitləri) təsnifat üçün əhəmiyyət kəsb etmir.[12]

Beləliklə, saitləri üç fəal üzvə görə təsnif etmək yetərlidir.

a) Dodaqların iştirakına görə. Təbiidir ki, burada dodaqların iştirakı ilə yaranan saitlər dodaq, onların iştirakı olmadan yarananlara isə qeyri-dodaq saitləri deyilir.

Dodaq/qeyri-dodaq saitləri:

| alm. | | ing. | | daç | | azərb. | |
|---|---|---|---|---|---|---|---|
| dodaq | q/dodaq | qodaq | q/dodaq | dodaq | q/dodaq | dodaq | Q/dodaq |
| y: y | i: i | ʋ u: | i ⊥ | ö y y:<br>u: u | i: ⊥ i | y ø | e ə<br>i, ı |
| ø: œ | e: ε | Þ : ⊃ | ε | ø:œ: ⊃: | e: ε | o u | a |
| o: o | a: a | | e, ʌ | ⊃ o: | ə | | |
| u: u | | | a α: | œy ʌu | a: a | | |
| a‿o,<br>⊃‿ø | a‿e | ⊃‿i, zʋ<br>a‿u | aı, eı | | ei | | |

Burada dodaqların nə dərəcədə gərgin və irəli çəkilməsinin, habelə hansı bucaq altında yanlara çəkilməsinin fərqinə varmırıq. Bununla maraqlananlar xüsusi labioqrafiya metodundan istifadə edərək problemi dərindən öyrənə bilərlər. Biz isə dodaq saitlərinin burada rentgenoqramını verməklə kifayətlənirik (bax: şəkil 10).

b) Alt çənənin aşağı-düşüb qalxması əlamətinə görə saitlər açıq və qapalı ola bilirlər. Alman dilində /a:/ saitindən başqa

bütün uzun saitlər qapalı /i:/, /ü/, /e:/, /ş:/,/u:/, /a:/, qısa saitlər isə, yəni, /a:/, /a./, /⊥/, /ü/, /ε/, /œ,u,o/ açıqdır.

İngilis dilində də təxminən vəziyyət eynidir. P.Leydfoqedə görə, / i:, e:, əe, o:, u:, ə:/ qapalı, digər saitlər isə /⊥, ε, a, u, ^ / açıqdır.[13]

Daç dilində saitlər açıq və qapalılığına görə belə bölünür: açıq saitlər: /⊥, ü, ε, ε:, a, ⊃:, œ:, ⊃/; /i, i:, y, y:, e:, a, o:, u:, u/ isə qapalıdır.

Azərbaycan dilində eyni keyfiyyətli iki sait bir-birindən bu əlamətə görə fərqlənmir. Ancaq /i, y, ş, u, o, əe, a/ düzümündə biz ən qapalı /⊥/ saitindən başlayıb ən açıq /a/ saitinə doğru getmiş oluruq. Eyni prinsipi alman, ingilis, daç və ya hər hansı bir dil üçün etmək mümkündür. Biz yoxlamaq üçün qələmi köndələninə ağzımıza qoyub saitləri tələffüz etsək, alt çənənin açılma dərəcəsini özümüz müşahidə edə bilərik. Şəkillər də bunu aydın göstərir (bax şəkil 10).

Lakin Azərbaycan dilindən fərqli olaraq german dillərində saitlər qapalı və açıqlığından asılı olaraq iki funksional keyfiyyətdə çıxış edir.

c) Çənənin aşağı düşüb, yuxarı qalxmasından danışarkən dilin üfüqi vəziyyətdə hərəkətinə fikir vermək lazımdır. Dilin bu istiqamətdə hərəkətindən çıxış edərək saitləri üç yerə bölürlər:

1. Yuxarı yüksəlişli saitlər: alm.: /i:, ⊥, y:, y, u:, ʋ, o:/ ; ing.: /i, ⊥, e:, ε, u:, ʋ/; daç: /i:, ⊥, y:, ü/ ; azərb.: /i, ü, u, o/.

2. Orta yüksəlişli saitlər: alm.: /e:, ε, ø, œ, ⊃/; ing.: /a, o, ε, ^ /; daç: /e:, ε, ε:, ⊃:, ş:, o:, œ/; azərb.: /e, ş, ı, c/.

3. Aşağı yüksəlişli saitlər: alm.: /a:, a/, ing.: /c, a/; daç.: /a:, α/ ; azərb.: /α/.

Əslində bu təsnifatda yüksəlişi dəqiq müəyyənləşdirmək o qədər də asan deyil, çünki müəyyən fərddə və məqamda sait başqa yüksəlişə keçə bilər və ya çox yaxınlaşa bilər. Burada hər şey nisbi götürülür və dəqiq məlumdur ki, bu dillərin hər birində /i:/ ən yuxarıda, /a/ isə ən aşağıda əmələ gələn saitdir. O birilər bu iki sait arasında bir az yuxarı, bir az aşağı prinsipini nəzərə almaqla

düzəlir. Yuxarı yüksəlişli saitlərdə dilin kürəyi yöndən sərt damağa doğru qalxır, aşağı yüksəlişdə isə dil ağız boşluğunda neytral uzanıb qalır.

d) Saitlərin təsnifini daha sonra dilin ağız boşluğunda irəli-geri, yəni üfüqi istiqamətdə hərəkətinə görə vermək olar. həmin əlamətə görə saitlər belə bölünür:

1. Ön sıra saitləri: alm.: / i:, ⊥, y:, y/ (bax: şəkil 11); ing.: /i, ⊥, e:, ε/; daç.: / i:, ≈, y:, ü /; azərb.: /i, ü/.

2. Orta sıra saitləri: alm: / e:, ε, ø, œ / (bax: şəkil 12), ing.: /a:, c, ʌ, ʋ/; daç.: /œ, a: /, azərb.: / e, ø, ı, œ /.

3. Arxa sıra saitləri: alm.: /ʋ, u:, ⊃, o:, α, α:/ (bax: şəkil 13); ing.: /u:, o:, a/; daç.: /u:, ⊃:, a, o:/; azərb.: /u, o, a/.

Ön sıra saitlərində dilin önü, orta sırada ortası, arxa sırada isə arxası daha fəal olur (bax: şəkil 11, 12, 13). Yuxarıda deyildiyi kimi, burada da bölgü nisbidir. Konkret olaraq dəqiqliklə sıranın sərhədini göstərmək çətindir. Ancaq bir şey var ki, bütün bu dillərdə /i:/ saiti ən öndə yaranan, /a/ isə ən arxada əmələ gələn səsdir. Məsələnin müqayisəli şəkildə tədqiqi çox ciddi nəticələr verə bilər (bax: şəkil 14). İndi də saitləri üçbucaq və ya dördbucaq şəklində göstərməklə əyani olaraq onların sıra və yüksəlişini göstərə bilərik.

Ağız boşluğunda bu və ya digər saitin nisbi yerini əsas götürərək bir dilin saitlərini həndəsi fiqurlar-üçbucaq və dördbucaq şəklində vermək mümkündür (bax: şəkil 15). Yuxarıda saitlərlə bağlı verdiyimiz bölgü prinsipləri bu fiqurlarda dolğun şəkildə öz əksini tapır.

Artikulator bölməni burada qurtarmaqla əlavə etmək istərdik ki, biz sadəcə olaraq danışanın ictimai funksiya daşıyan, ünsiyyətə xidmət edən səslərini (bunu biz ayrı-ayrı fərdlər üzərində müşahidə nəticəsində edirik) artikulator baxımdan bölməyə cəhd göstərdik. Bu hələ funksional dilə yaxınlaşmaq deyil. İndi həmin səslərin akustik keyfiyyətlərini araşdırmalı və yalnız bundan sonra ümumiləşmələr apararaq dil vahidlərini fonoloji baxımdan qruplaşdıra bilərik. Odur ki, növbəti bölmədə insan səslərinin

akustik bölgüsünü verəcəyik. Çünki tələffüz mənbədirsə, eşitmə məqsəddir, yəni nəticədir. Yalnız onlar birgə fəaliyyətdə olanda danışıq-monoloq və ya dialoq baş tutur.

## IV. 3. Ünsiyyətin akustik aspekti

Fərdin danışığından müşahidələrimiz vasitəsilə bir-birinə oxşayan və ya fərqlənən akustik obrazlar axtarıb tapmaq mümkündür.[14] Akustik baxımdan dil səslərinin strukturu çox mürəkkəbdir. Ancaq hər bir səs kiməsə nəsə demək ehtiyacından doğduğundan tələffüz edilməli və həm də eşidilməlidir. Bunun üçün onun müəyyən fiziki (akustik) əlamətləri olmalıdır.

Akustik strukturu mahiyyət etibarilə fərqlənməli olan (əks təqdirdə onlar fərqləndirə bilməz) nitq siqnalları danışığın substansiyasını, ifadə tərəfini təşkil edir. Həmin bu substansiyanın varlığı bilavasitə ünsiyyəti həyata keçirən insanlardakı danışıq cihazının və ələlxüsus da xirtdəkdəki səs tellərinin titrəməsindən asılıdır. Digər tərəfdən həmin siqnallarda elə keyfiyyət olmalıdır ki, informasiyanın göndərilməsi nəzərdə tutulan adam onu eşitsin, sonra qavrayaraq dərk etsin.

Fonetika isə linqvistik cəhətdən müəyyən funksiya daşıyan (insanın tələffüz etdiyi və eşidə bildiyi) səsləri öyrənir. Səsin yaranması belədir: nəfəsvermə zamanı ciyərlərdən gələn hava axını xirtdəkdən keçərkən səs tellərini hərəkətə gətirir, bu da dilçəyi titrədir və hava molekulları xirtdəküstü boşluğa daxil olarkən hava dalğalarının sıxılması və genişlənməsi hava təzyiqini yaradır. İnsan 0,0002-dən 250 bara qədər hava təzyiqini eşitməyə qabildir. Səslər isə 0,0002-dən 20 bar arasında olur. Səsin yaranmasından sönməsinə qədər yayılma düzxətli (-----) və dalğavari (⊃ ⊃ ⊃ ⊃) olur.

Səsin yayılması hava təzyiqinin gücündən, digər iqlim və məkandan asılı olur. Mütəxəssislər hesablayıblar ki, 11° havada səsin saniyədə sürəti 331 m-dir.

Eyni zamanda təkrar dalğaların yaratdığı səslər periodik (bura saitlər daxildir), qeyri-mütəmadi dalğaların yaratdığı səslər

isə qeyri-periodik (bura sonorlar və cingiltili samitlər daxildir) olur. Birincilər musiqili və ya tonlu[15], ikincilər isə tonla küyün qarışığından yaranan səslərdir. Tonu olmayan, yalnız küylü səslər cingiltili və kar samitlərin yaranmasında əsas olur (bax: şəkil 16).

Səsin müəyyən çalarda formalaşmasında rezonator mühüm rol oynayır. Səs tellərinin titrəməsilə yaranan səslər həmin səslərin ton tezliyilə boşluqlarda titrəyərək güclənirlər. Rezonatorun (ağız, burun və udlaq boşluğu) forması və həcmi, dodaqların açılıb örtülməsi və dilin ağızda vəziyyəti səsin yüksəkliyini şərtləndirən amillərdəndir. Ağız az açılanda səs aşağı, çox açılanda yuxarı olur. İnsanda rezonatorun divarları yumşaq olduğundan səs aşağı tonda formalaşır. Saitlərdə ağız boşluğunun həjmi və forması mühüm rol oynayır, onların formant quruluşunu müəyyən edir. Artıq H. fon Helmhols 2 formant kəşf etmişdir.[16] Ağız boşluğunun uzunluğu (orta hesabla 17,6 sm-dir) dilin uzunluğundan asılıdır. Dodaqların hərəkəti isə çənənin açılıb-örtülməsindən və dodaqların açılmasından asılıdır. Neytral vəziyyətdə yaranan səsin tezliyi 500-1500-2500 hs arasında olur. Danışıq cihazının müxtəlif şəklə düşməsi çalarlığı son dərəjə rəngarəng edir (açıq, qapalı, kompakt), bu da ənənəvi üçbucağı xatırladır.

| Saitlərdə | Samitlərdə |
|---|---|
| i — u | t — p |
| a | k |

Hər bir səsin tələffüzünə müəyyən zaman kəsiyi tələb olunur. Beləliklə, danışığın akustik görünüşündə üç parametri-əsas tonu, intensivliyi və zamanı asanlıqla müəyyənləşdirib onların hər biri üzrə konkret hesablamalar aparmaq olar.[17]

Ossilloqram, intonoqram, spektroqram və sonoqramlar ümumi şəkildə sait və samiti fərqləndirməyə imkan verir. Birincilərdə periodik əyrilər aydın görünür, onlar xeyli iridir, sonorlarda bu əyrilər kiçikdir, cingiltililərdə bu əyrilər qarışıqdır, küy-

lülərdə isə ümumiyyətlə əyri olmur. Zaman dişciklərlə, intensivlik isə əyrinin sıfır xəttdən aralanma dərəcəsilə müəyyənləşir.

Spektroqram və sonoqramlarda səsin spektri iki, üç və daha çox dirəkciklər kimi qara şəkildə, intensivlik qara rəngli tündlüklə, zaman isə düz xətt üzərində qeyd edilir (bax: şəkil 21). H.C.Tillmann (1934) məktəbi sonoqram təhlildə xüsusilə fərqlənir.

Spektral təhlilə görə, arxa sıra saitlərində FII çox aşağıdır. Ön sıra saitlərində yüksəkdir. FII isə ən aşağı olan /u:/ və /o:/ saitləridir. O biri saitlər bunların arasında yerləşir. FI ən yüksək /a/ saitindədir. Vurğusuz mövqelərdə sait güclü reduksiyaya uğradığından onların yuxarı və aşağı sərhədini müəyyənləşdirmək asan olmur. Saitlərin tam aydın formant strukturu var, sonantlarda isə bu, belə deyil. Sonantlarla qonşuluqda saitlərin FI strukturu dağınıq olur. Eyni cinsli samitlər arasında saitlərin FII strukturu yuxarı qalxır, partlayış FII strukturun qalxmasına, kipləşmə isə aşağı düşməsinə gətirib çıxarır.

Sonantlarda amplituda kiçikdir, onlar az intensivlidir və ona görə də spektrdə aydın struktur olmur. /l/ və /r/ samitlərinin qonşuluğunda saiti onlardan ayırmaq praktik olaraq qeyri-mümkündür.

Klassik fonetikanın bölgüdə həll edə bilmədiyi problemi dixotomik təsnifatın tərəfdarları da həll edə bilmədilər, ona görə də iki əlamət irəli sürdülər: saitlik/samitlik, samitlik/saitlik. Sonantlar həm samitliyə aiddir, çünki onların spektri saitlərinkindən zəifliyi ilə fərqlənir, həm də saitliliyə, çünki onlarda aydın formant strukturu mövcuddur (bax: şəkil 21).[18]

Qısa saitlərin spektrdə uzunluğu uzun saitlərin yarımuzun variantından çox olur. Bəzən qısa saitlərdə FI və F əsası ayırmaq olmur.

Cingiltili samitlərin ossilloqramlarında saitləşəndə sonorlara (məs.: />e.R, hɛR/ və s.), sözlərin əvvəlində karlaşanda isə kar samitlərə oxşayırlar (məs.: /'zu:xən/).

Cingiltili novlu samitlərin spektrində bəzən səs tellərinin qoşulması ilə aşağı tezlikdə tərkiblər görünmür. Kipləşən partlayışlılarda isə kipləşmə mərhələsində aşağı tezlikli strukturlar, partlayış səviyyəsində isə çox aydın spektrlər görünür. Kipləşən partlayışlı və novlu kar samitlərdə əsas ton yoxdur, ancaq kar novlularda yüksək sahələrdə tezliklər müşahidə olunur. Küylü samitlərdə küy sahələri aydın görünür, ancaq bəzən qaralma sahələri zəifləyir. /x/ samiti dar sahə və aşağı tezliklə səciyyələnir, /ʃ/-da yüksək, bir az da dar struktur, /f/-də tezlik çox aşağıdır. Ossilloqramda /s/ ən böyük amplituda malikdir. Kar kipləşən-partlayışlı samitlərdə, onların cingiltili qarşılıqlarında olduğu kimi, kipləşmə və partlayış mərhələləri fərqləndirilməlidir, özü də kipləşmə mərhələsi səssizdir. Akustik cəhətdən bu sıfırdır. Partlayış səviyyəsinə isə yüksək tezlikli sahə xasdır. Kar kipləşən-partlayışlılar partlayış mərhələsinə görə müvafiq kar novlulardan, demək olar ki, fərqlənmirlər. Kipləşən-partlayışlı samitlərin son mərhələsi, xüsusilə karlarda nəfəsli tələffüz olunanda, novlu samitlər üçün səciyyəvi olan yüksək səviyyədə aydın ifadə olunan formant strukturu var.

Beləliklə, spektral analiz nəinki ayrı-ayrı səslərin özü haqqında, hətta səslər arasındakı bütün keçidləri, bununla da danışıq aktındakı müxtəlif cür çalarlıqları, variativliyin bütün diapozununu öyrənməyə imkan verir. Amerikanın Haskins laboratoriyasının əməkdaşları süni səslər üzərində apardıqları təcrübə nəticəsində belə qənaətə gəlmişlər ki, səsin müəyyən tezliyində elə bir nöqtə var ki (lokus), onun köməyilə bütövlükdə səsi tanımaq mümkündür. Məs.: /nɛt/ və /nɛtə/ sözlərində axırıncı səsləri uzaqlaşdırsaq belə, alman dil daşıyıcıları bu sözləri asanlıqla tanıyıb dərk edəcəklər. Digər tərəfdən, müxtəliflik təkcə lokusların istiqamətində deyil, həm də sürətdə, lokusun hansı bucaq altında olmasında və onların qarşılıqlı münasibətində özünü göstərir. Sintetik səslərlə aparılan təcrübələrdə isə yalnız o parametrlərdən istifadə edilir ki, onlar səsin relevantlığı üçün həlledicidirlər.

Beləliklə, biz aşağıda dil səslərinin təsnifində hələlik axırıncı mərhələ olan R.Yakobson, M.Halle və Q.Fantın dixotomik bölgüsünü veririk[19]:

Spektral təhlil əsasında R.Yakobson və onun həmkarları səs mənbəyinin qoşulmasını əsas götürərək 2 əsas əlamət göstərirlər:

1. Saitlik / qeyri-saitlik.
2. Samitlik / qeyri-samitlik

Saitlərdə səs mənbəyi - səs telləri mütəmadi titrəyir və danışıq traktı qəfildən qoşulur. Elə buna görə də saitlərin spektrində aydın formant strukturları olur, samitlərdə bu belə deyil. Saitlər saitlik və qeyri-samitlik, samitlər isə samitlik və qeyri-saitliklə səciyyələnirlər (bax: şəkil 21). Süzülən /l/ və /r/ həm vokallığa, həm də konsonantlığa malikdir. Sürüşkənlər isə /h, c/ nə vokallığa, nə də konsonantlığa aiddir. Burada əsas problem sonantlarla bağlıdır. Yuxarıda deyildiyi kimi, zəif də olsa, səs mənbəyi periodik titrədiyindən onlarda formant strukturu var, amma birinci və ikinci formantlar çox aşağı düşür, bu da danışıq traktının uzanması ilə şərtlənir. İntensivlik samitlərdəkindən zəifdir.

Samitlik səs mənbəyi ilə bağlı iki yerə bölünür:

A. a) titrəmə əlaməti; b) kəskinlik əlaməti

B. Cingiltilik əlaməti, bu da səs mənbəyinin qoşulması ilə əlavə olunur.

Titrəmələrə görə yumşaq və kəskin səslər fərqləndirilir. Hamar səslərdə başlanğıc yumşaqdır, onlara «fasiləsiz» deyirlər, bunlar kəskin sonluğu olan, fasiləli səslərə qarşı qoyulur.

3. Davamlı (fasiləli) / qeyri - davamlı (qeyri-fasiləli). Davamlılara bütün novlu samitlər aiddir. /l/ davamlı kimi /r/ qeyri-davamlı samitinə qarşı qoyulur. Kipləşən-partlayışlılar da qeyri-davamlılığa malikdir, çünki birincilərdə hava axını fasiləsiz bayıra çıxdığı halda, ikincilərdə bir və ya iki fasilə yaranır.

4. Abruptiv/qeyri-abruptiv

Abruptiv səslərdə hava axını qırıq-qırıq bayıra çıxır. Məs.: Dağıstan, Qafqaz, Hind, Afrika, Uzaq Şərq dillərində. Ancaq kipləşən-partlayışlı samitlərdə ağız boşluğunda eyni zamanda xirtdəkdə kipləşmə yaranır, sonra o, partlayışa keçir: /$p^s$, $t^s$, $k^s$/. Bəzən novlular da abruptiv ola bilər. Qalan səslər qeyri-abruptivdir.

5. Kəskin/qeyri-kəskin (aydın/qeyri-aydın)

Kəskinlər əlavə manεənin olması ilə səiyyələnir. Novlular və kipləşən-partlayışlılar kəskin, yerdə qalanlar isə qeyri-kəskindir. Spektrdə kəskinlərdə qəfildən aydın qara ləkəciklər görünür (bax: şəkil 21).

6. Cingiltililər/karlar (əlavə mənbəyə görə)

Spektrdə birincilərdə aydın formant strukturları nəzərə çarpır ki, bu da səs tellərinin danışıq traktına qoşulması ilə izah edilə bilər. Məlumdur ki, karlarda bu yoxdur (bax: şəkil 21).

Yuxarıdakı əlamətlərin əksəriyyəti əsas əlamət adlandırılır: 1-ci və 2-ci - birinci dərəcəli əlamət, 3-cü, 4-cü və 5-ci əlamətlər isə ikinci dərəcəlidir. Qeyri-əsas əlamətlər isə samitlərə xasdır.

Aşağıda nəzərdən keçirəcəyimiz 6 əlamət rezonans əlamətləri adlanır. 7-ci, 8-ci və 11-ci əsas rezonatorla, 6,9,10-cular isə əlavə rezonatorla bağlıdır.

7. Kompakt/diffuz

Kompaktlarda mərkəzləşmiş, diffuzlarda dağınıq formant sahələri nəzərə çarpır. $F_{əsas}$, FI və FII bir-birinə yaxındırlarsa, səs kompakt /o, a, e, æ, k', h, k, g/, bir-birindən aralıdırlarsa, diffuz / u, i, p, f, v, m, b, n, s, t, z, d, ø / adlanır.

Bəzən səsin tam diffuz və ya kompakt olduğunu müəyyənləşdirmək çətindir. Ona görə də / i-əe-a / cərgəsində /i / diffuz, /a/ isə kompaktdır. /c/ /i / -yə nisbətdə kompakt, /a/-ya nisbətdə isə diffuzdur. Artikulyator baxımdan diffuzlarda ağız boşluğunun bir yerində (irəlidə və ya arxada) daralma, kompaktlarda isə hər hansı bir yerdə rezonator böyüyür.

| Kompakt | Diffuz |
| --- | --- |
| /k', k, h , g , | / b , p , t , d , |
| a , o , əe / | i , e , y , ø, u / |

8.Alçaq / yüksək.

Akustik baxımdan enerjinin aşağı tezliklərdə cəmlənməsilə yaranan səslər alçaq, yüksək tezliklərdə cəmləşənlər isə yüksək səslər adlanır (dodaq və dilarxası samitləri və arxa sıra saitləri). Artikyulator baxımdan bu mərkəzi və periferik səslərdir (dilönü, dilortası samitləri və ön sıra saitləri). FI və FII bir-birinə yaxındırsa, alçaq, FII və FIII bir-birinə yaxındırsa, yüksək səslərdir (bax: şəkil 21).

| alçaq | yüksək |
|---|---|
| /k , g , x , | /t , d , s , z , |
| b , p , v , f , | ʃ, c , j |
| a , o , u , æ/ | i , e , ø, y/ |

9. Bemol / sadə səslər.

Bemol səslər sadələrdən tonun qalxması və ya enməsi ilə seçilir və dodaqlanma səsin tonunu güclü şəkildə aşağı salır. Bemollarda yarım ton səs aşağı düşür. Artikulator baxımdan dodaqla düzələnlərin hamısı, ingilis dilində w- da daxil olmaq şərtilə bemollara, yerdə qalanlar isə sadələrə aiddir.

10. Diyez/ sadə səslər:

9-cunun əksi olaraq, yarım ton güclənmə ilə bağlı səslərə diyez, yerdə qalanlara sadə səslər deyilir. Burada səsin yaranmasına dilin bu və ya digər hissəsinin (məs.: rus dilində dilin ortasının sərt damağa doğru qalxması-palatalizasiya) fəallığı ilə yaranan səslər diyez, yerdə qalanlar isə sadədir.

11. Gərgin/qeyri-gərgin (fortis / lenis) səslər:

Gərgin qeyri-gərginlərdən uzunluğu və daha böyük enercisi ilə fərqlənir. Kipləşən-partlayışlılarda formant strukturu uzun olur və əlavə enerji partlayışı nəzərə çarpır. Diffuz səslər istənilən şəraitdə konpaktlardan qısa, yəni qeyri-gərgin olur.

| gərgin | qeyri-gərgin |
|---|---|
| /p , t , k , f / | / b , g , v , z / |

12. Ağız / burun (əlavə rezonatora görə)

Burun səslərində formant sahəsi ağız səslərindəkinə nisbətən daha sıxdır. FI və FII çox zəifləyir, onların arasında əlavə formant strukturu əmələ gəlir, üfüqi vəziyyətdə əlavə formant strukturu müşahidə edilir. Fransız dilindəki burun saitləri, başqa dillərdəki burun saitləri buna misal ola bilər.

| Əlamətlər / Fonemlər | Sait / Q.sait | Samit / Q. samit | Fasiləsiz / Q.fasiləsiz | Abruptiv / Q.abruptiv | Kəskin / Q.kəskin | Jing. / Kar | Kompakt / Diffuz | Bemol / Sadə | Alçaq / Yüksək | Diyez / Sadə | Gərgin / Q. gərgin | Burun / Ağız |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| i: | + | - | + | - | + | + | - | - | - | - | + | - |
| I | + | - | + | - | + | + | - | - | - | - | + | - |
| ü: | + | - | + | - | + | + | - | + | - | - | + | - |
| u | + | - | + | - | + | + | - | + | - | - | + | - |
| e: | + | - | + | - | + | + | + | - | - | - | + | - |
| ɛ | + | - | + | - | + | + | + | - | - | - | + | - |
| ş: | + | - | + | - | + | + | + | + | - | - | + | - |
| oe | + | - | + | - | + | + | + | + | - | - | + | - |
| u: | + | - | + | - | + | + | - | + | + | - | + | - |
| ʊ | + | - | + | - | + | + | - | + | + | - | + | - |
| o: | + | - | + | - | + | + | + | + | + | - | + | - |
| ɔ | + | - | + | - | + | + | + | + | + | - | + | - |
| a: | + | - | + | - | + | + | + | - | - | - | + | - |
| a | + | - | + | - | + | + | + | - | - | - | + | - |
| b | - | + | - | - | - | + | - | + | + | - | - | - |
| p | - | + | - | - | - | - | - | + | + | - | + | - |
| v | - | + | + | - | + | + | - | + | + | - | - | - |
| f | - | + | + | - | + | - | - | + | + | - | + | - |
| m | 0 | 0 | - | - | + | + | - | + | + | - | - | |
| p͜f | - | + | + | - | + | - | - | + | + | - | + | - |
| d | - | + | - | - | - | + | - | - | - | - | - | - |
| t | - | + | - | - | - | - | - | - | - | - | + | - |
| n | 0 | 0 | - | - | + | + | + | - | - | - | - | |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| s | - | + | + | - | + | - | - | - | - | - | + | - |
| z | - | + | + | - | + | + | - | - | - | - | - | - |
| ʃ | - | + | + | - | + | - | + | - | - | - | + | - |
| t͜s | - | + | + | - | + | - | - | - | - | - | + | - |
| t͜ʃ | - | + | + | - | + | - | - | - | - | - | + | - |
| j | - | + | + | - | + | + | - | - | - | + | + | - |
| ç | - | + | + | - | + | - | - | - | - | + | + | - |
| g | - | + | - | - | - | + | + | - | + | - | - | - |
| k | - | + | - | - | - | - | + | - | + | - | + | - |
| ŋ | 0 | 0 | + | - | + | + | + | - | + | - | - | |
| x | - | + | - | - | + | - | - | - | + | - | + | - |
| ʀ | 0 | 0 | + | - | + | + | - | - | - | - | - | - |
| l | 0 | 0 | + | - | + | + | - | - | - | - | - | - |
| h | - | + | - | - | + | - | - | - | - | - | + | - |
| w | - | + | + | - | + | - | - | + | + | - | - | - |

Akustik baxımdan səslər bir-birinə çox yaxın olduğundan biz yalnız alman dili səslərinin cədvəlini verməklə kifayətləndik. İstənilən vaxt hər hansı bir dilin səslərini bu cür cədvəldə əks etdirmək mümkündür.

Bu metoda görə hər bir fonemə differensial əlamətlərin məcmusu kimi baxılır. Əslində biz bir qədər sonda göstərəcəyik ki, N.S.Trubeskoydan bu yana fonemə differensial əlamətlərin məcmusu kimi baxmaq düz deyil. Digər tərəfdən bu metod universal olduğundan, onun ayrı-ayrı dillərə tətbiqi özünü doğrultmaya bilər. Üçüncü bir məsələ ondadır ki, bu metod klassik dilçiliyin həll edə bilmədiyi sonantlar problemini birmənalı şəkildə həll edə bilmədi. Və nəhayət, rus alimi M.S.Kuznetsov (1899-1968) demişkən, bu cür təsnifat o zaman səmərəlidir ki, dilin fonem sistemi, inventarı müəyyən edilsin, yalnız ondan sonra onun bu əlamətlər əsasında təsnifini vermək olar. Fonem tərkibi məlum olmadan belə bir təsnifat aparmaq ən azı təəssüf doğura bilər. Bu əlamətləri ağac şəklində də qurmaq olar. / >e.ʀ ˈlernt ‴>ɛŋliʃ // cümləsində səsləri belə düzmək olar.




A. Martine bu nəzəriyyəni Babil qülləsinə oxşadır və deyir ki, ona yeni bir Babil qülləsi qurmaqla cavab vermək olar.[20]

Fonem tərkibi məlum olanda isə bu metod təsnif üçün çox əlverişlidir. Hətta fon, allofon və fonemi fərqləndirməyə qabildir. Məsələn: alman və ya ingilis dilində sistem səviyyəsində dilönü samitləri bemol /qeyri-bemol olmalarına görə qarşıdurma

yaratmırlar. Amma /d°ün/ və /d°u / sözlərində hər iki dilin samiti dodaqların irəli çəkilməsi ilə tələffüz olunur ki, bu da normaya xasdır. Lakin bu və ya digər fərd isə onu çox və ya az dodaqlanma ilə deyə bilər ki, bu da fonun danışıq səviyyəsində xüsusiyyətidir.

Yuxarıda səsin artikulyator və akustik xüsusiyyətləri şərh olundu. Amma biz yalnız danışıq səviyyəsində akustik və artikulyator baxımdan müşahidə edə bildiyimizi həmin təsvir səviyyəsində izah edə bildik. Lakin biz deməmişik ki, danışığı nə akustik, nə də artikulyator baxımdan seqmentlərə bölmək olur. R.Menserat və A.Laçerda danışıq aktının parçalanmasının qeyri-mümkünlüyünü dərk edərək, koartikulasiya ideyasını irəli sürmüşlər.[21] Lakin artıq türklər fonqrafik yazını kəşf etməklə intuitiv şəkildə fonoloji kriteriyalardan çıxış etmişlər. Elə A.Tomson ötən əsrin axırlarında çox aydın şəkildə müxtəlif [$k_1$], [$k_2$], [$k_3$] (məs.: Kiel, Kohl, kühl, kahl və s.) aralarındakı fərqi görürdü, ancaq onun fonoloji şərhini verməkdə çətinlik çəkirdi. Bəs danışıq aktının parçalanması və ən kiçik dil vahidi olan fonemin nitq zəncirindən ayrılıb götürülərək təcrid olunması mümkündürmü? Son zamanlar fonem adlı dil vahidinin mövcudluğuna şübhə ilə yanaşanlar çoxalıb. Törəmə qrammatikasında ümumiyyətlə fonemdən danışmırlar. Onlar metodik baxımdan ən böyük və ən kiçik vahiddən çıxış edirlər. Digərləri deyirlər ki, fonem bir dəfə fonematik yazı üçün kəşf olunub. Özü də bu yunanlarda mövcud olub. Başqa xalqlarda isə yazı sözə və ya hejaya əsaslanır.[22]

Qəribə də olsa, maraqlıdır. Müasir dilçiliyin atası sayılan F. de Sössür fonologiya deyəndə səs tərəfinin akustik və artikulator xüsusiyyətlərini, fonetika deyəndə isə səslərin tarixi aspektini öyrənən elm kimi başa düşürdü. Fonem F. de Sössürdə fiziki səs deməkdir. [23]

## IV. 4. Ünsiyyətin perseptiv aspekti

Hər iki aspektdən heç də geri qalmayan perseptiv (eşitmə) aspekt son zamanlar geniş tədqiq olunmaqdadır. Deyilən söz , söyləm və ya cümlə dinləyicilərə çatmırsa, o, ünsiyyətə xidmət etmir. İnsan özü ilə (səssiz-daxili nitq, səsli-özünə müraciət etmək) və ya auditoriyada, iclas və mitinqdə danışanda dinləyiciləri nəzərdə tutmalıdır. Eşitmənin bütün incəliklərini öyrənən elmə son zamanlar qulaq fonetikası deyilir. Bu, doğrudan da, çox ciddi məsələdir. Məlumatın (informasiyanın) maddi qabığı fiziki cəhətdən (müxtəlif məxrəclərdə formalaşdığı üçün) bir-birindən seçilməlidir. Bu siqnalların eşidilməsi və dərk edilməsi dil işarəsinin (sözün) forması ilə mənası arasında əlaqənin bərpasına və qavramanın baş tutmasına səbəb olur. Bunun üçün eşitmə cihazı ilə, ötəri də olsa, tanışlıq pis olmazdı (bax: şəkil 22).

Dalğalar şəklində yayılan səslər xarici qulağa daxil olur. Qulaq seyvanı səsləri istiqamətləndirir və səsin təzyiqini gücləndirərək onu rezonator rolunu oynayan eşitmə keçidinə ötürür. Səs zindanları ehzaza gəlir və eşitmə sümükləri vasitəsilə oval pəncərəyə ötürülür. Membran və pəncərə ölçüləri arasındakı fərq səsin təzyiqini 50-60 dəfə artıraraq rəqs yaradır. Buna ehtiyac olmadıqda isə iblizdəki maye sıxlığı böyük amplituda ilə titrəməni istisna edir. Membranla birlikdə hərəkətə gələn eşitmə sinirləri siqnalları mərkəzi sinirə ötürür. Müxtəlif tonda yüklənən membran lifləri insan qulağının eşidə bildiyi 16-dan 22000 hs-ə qədər tezliyi əks etdirən rezonatoru xatırladır. İnsanda aşağı eşitmə həddi 16, yuxarı isə 22000 hs-dir (uşaqlarda). Yaşlılarda bu 15000 hs-dir.

Səsin gücü də əsas parametrlərdəndir. İnsan ən aşağı 1 db-dən, ən yuxarı 130 db-ə qədər gücü olan səsi eşidə bilər. Son dövrlər perseptiv tədqiqatı düşündürən «Necə olur ki, deyilən söz və ya cümlə eynilə eşidilir və sonda isə dərk edilir?» sualına cavab axtarmaqdır. Burada da təbii ki, eyniləşdirmə və fərqləndirmə əsas rol oynamalıdır ki, bunlar da müəyyən zonalar vasitəsilə həyata keçirilir. Belə söylənir ki, insan beynində hər bir

sait və ya samitin öz eşitmə mərkəzi mövjuddur (bax: şəkil 24). Eşidilən səslər həmin zonalarda kateqorial şəkildə (sait-saitlər zonasına, samit-samitlər zonasına), sonra isə eynilik və oxşarlıq zonalarına paylanırlar (bax: şəkil 23). «Biz xarici dili öyrənəndə bu dilin ana dilinə uyğun gəlməyən səsləri ya eynilik zonasına düşür, yəni xarici dildə eşitdiyimiz səsləri ana dilimizin səsləri kimi eşidir və dərk edirik, ya da eşitdiyimiz səsin ana dilində ekvivalenti olmadığından həmin səsin oxşarlıq zonasına düşür, yəni özünə bənzər səslə eşitmə zonasında üst-üstə düşür. Hər iki halda ciddi tələffüz səhvləri aşkara çıxır».[24]

Son dövrlərə qədər belə güman edilirdi ki, dərketmə bütövlükdə fərqləndirici əlamətlərə (FƏ) söykənir. Lakin tədqiqatlar göstərdi ki, fərq dərketməni təmin etmir, hətta təcrid edilmiş seqmentlər üçün kifayət deyil. İnformasiyanın diskret vahiddən çox (fonemdən) onun qonşusunda cəmlənməsini əsas götürən L.V.Bondarko (1935) fərqləndirmənin heca əsasında aparılmasını düzgün hesab edir.[25]

## IV. 5. Ünsiyyətin linqvistik aspekti

«Fonem nədir?» sualına dolğun cavabı ilk dəfə 1870-ci ildə İ.A.Boduen de Kurtene «Dilçiliyə giriş» əsərində dilin ikili üzvlənməsindən danışarkən verir və fonetik üzvlənmədə ən kiçik vahidlərin aşkar edilməsində fonem terminini işlədir. Burada İ.A.Boduen de Kurtenenin ən çox maraq doğuran fikri üzvlənmənin linqvistik əsasını müəyyənləşdirməsində idi. O, tələffüz-eşitmə və semantik-sintaktik üzvlənmədən danışır. Bir qədər sonra alman alimi E.Sivers, danimarkalı O.Yespersen, igilis D.Jounz və rus L.V.Şerba fonem sahəsində axtarışlarını davam etdirərək maraqlı nəticələrə gəlmişdilər. İnkaredilməz faktdır ki, söz mənasını fərqləndirən səslərin fonem olması kriteriyasının əsas götürülməsi məhz İ.A.Boduen de Kurteneyə və onun tələbəsi L.V.Şerbaya məxsusdur. Yarımçıq və ya kvaziomonimlərdən istifadə etməklə sözlərin maddi qabığında bir səs mənanı fərqləndirirsə, deməli, o səs fonem kimi götürülə bilər. Məsələn:

çat – çash , Band – Bund , Stadt – Staat və s. Məlum faktdır ki, İ.A.Boduen de Kurtenenin şagirdləri, xüsusilə də L.V.Şerba və onun davamçıları sonradan öz müəllimlərinin məna fərqləndirmə ideyasından uzaqlaşaraq canlı danışığı əsas mənbə götürmüş və fonemin danışıq aktından ayrılmasını tamamilə linqvistik amillə izah etməyə çalışmışlar. Halbuki İ.A.Boduen de Kurtenenin elmi konsepsiyasına əsaslanan digər xələfi N.F.Yakovlev (1892-1974) isə yazılı mənbələrin dilini şərh etmək məqsədini güddüyündən sözün morfem eyniliyini əsas götürürdü.

Qeyd etmək lazımdır ki, fonologiyanın elm kimi geniş yayılmasında, şübhəsiz, N.S.Trubeskoyun əməyi böyükdür. Lakin N.S.Trubeskoy üzvlənmə məsələsində tamam başqa bir istiqamət götürərək fonemi bir tərəfdən mənanın ayağına verdi, digər tərəfdən də onun danışıq aktından ayrılmasını fiziki substansiyanın assosiativ tərəfilə izah etməyə çalışdı və bununla da bu maraqlı elm sahəsini səmərəli axtarış zəminindən qoparmış oldu. Beləliklə, İ.A.Boduen de Kurtenenin irsindən üç məktəb çıxaraq formalaşdı: 1.L.V.Şerba məktəbi;[26] 2.Moskva fonoloji məktəbi; 3. N.S.Trubeskoy və bütövlükdə Qərb fonoloji məktəbi (N.S.Trubeskoy, Ç.F.Hoket (1907), M.Svodeş (1909-1967), T.L.Treyjer (1908), V.F.Tvoddel (1906-1982) və başqaları).[27]

Bu məktəblərin hər birinin konseptual mövqeyi şərh olunsa, fikrimizcə, gələcək germanist öz istiqamətini daha asan müəyyənləşdirə bilər.

Birinci N.S.Trubeskoydan başlamaq yaxşı olardı. Əslən rus olan knyaz N.S.Trubeskoy kvaziomonimləri qarşılaşdıraraq (məs.: Band-Sand-Land-Wand-Hand və s.) sözlərdə b-z-l-v-h samitlərini danışıq aktından ayrılmış hesab edir. Digər tərəfdən, o, fonetikanı fonologiyadan ayırmağı əsaslandıraraq yazır ki, bu, nəinki mümkündür, həm də vacibdir.[28] Onda soruşula bilər ki, yuxarıda verdiyimiz samitlərin müxtəlifliyini təsdiq edən zəmin olmadan onları necə fərqləndirmək olar? Əslində istər paradiqmatik, istərsə də sintaqmatik əlaqələrin substansiyasız var-

lığı sırf mücərrəd təfəkkürün məhsuludur. Dil isə danışılmayanda ölü olur, canlı ikitərəfli ünsiyyət baş tutmur. N.S.Trubeskoy bir qədər sonra izah edir ki, fonem relevant əlamətlərin məcmusudur.[29] Yəni yuxarıda gətirdiyimiz misalda /b-v/ bir-birindən /b/-nın kipləşən-partlayışlı, /v/-nın novlu olması ilə fərqlənir. Həm partlayışın, həm də novun akustik-artikulyator varlığı olmasa, onların distinktiv əlamət kimi çıxış etməsini necə bilmək olar? Əgər fonologiya yalnız funksiyanı əsas götürürsə, bu funksiyanı yerinə yetirən müəyyən bir fiziki varlıq olmalıdır, ya yox? Bəs kvaziomonimə gəlməyən halları necə təhlil etməli? Bəs nejə ola bilər ki, bir fonoloji sistemdə bir fonem normal olaraq fərqlənir, digər halda isə fərqlənmir? Söhbət N.S.Trubeskoyun arxifonemindən gedir. N.S.Trubeskoya görə, cingiltili / kar samit qarşılaşmaları (yenə fonetik qarşılaşma!) alman dilində morfem və söz sonunda neytrallaşır və onların yerində arxifonem çıxış edir.[30] Arxifonem əslində həm cingiltili, həm də kar samitlərə xas olan əlamətlərin məcmusudur, lakin real gerçəklikdə nə cingiltilidir, nə də kar. Bunu göstərmək üçün N.S.Trubeskoy arxifonem terminini irəli sürmüşdü. Əslində arxifonem anlayışını saitlərə də şamil etmək olar. Uzun /a:/ vurğulu mövqedə in- və auslautda çıxış edir. Anlautda onun müşayiətçisi knaklaut olmalıdır. Vurğusuz açıq hecada isə yarımuzun sait çıxış edir. Məgər bunları bir morfem altında birləşdirmək olmazmı? Bəli, N.S.Trubeskoy burada fonem və variant terminindən istifadə edir, çünki, D.Counz demişkən, uzunluq xronemi[31] bu saitlərin əsas differensial əlaməti olaraq qalır. Özü də söhbət fiziki mənada uzunluqdan getmir. Burada nisbət məsələsi var. Vurğusuz açıq və ya şərti qapalı hecada saitin real uzunluğu qısa saitin vurğulu mövqeyindəkindən az ola bilər, amma vurğusuz mövqedə gələn qısa sait də müvafiq olaraq həmin pozisiyada qısa olur.[32]

N.S.Trubeskoyun konsepsiyasında ən qüsurlu cəhətlərdən biri də onun allofonlar arasındakı fərqə tam biganə qalmasıdır, halbuki son illərin tədqiqatları göstərdi ki, fonemin dərk olunmasında onun fərqləndirici əlamətləri ilə yanaşı inteqral əlamət-

ləri də nəzərə alınmalıdır.[33] Beləliklə, ingilis dilində /pen/ - “qələm», /pəen/ - “tava», /p⊥n/ - “sancaq» sözlərində realizə olunmuş [p, →] - [p∩ →] - [p’ →] samitləri arasındakı fərqi görməmək və hər bir sözdə bu samitə ondan sonra gələn saitin təsirini nəzərə almamaq həmin sözlərin elə o sözlər kimi qavranılmaması deməkdir. Lakin bütün bunlara baxmayaraq, N.S.Trubeskoyun fonem sahəsində tədqiqatları, xüsusilə də fonoloji oppozisiyaların təsnifilə bağlı işləyib hazırladığı nəzəriyyə hələ uzun müddət fonologiyanın fəxri sayılacaq.[34]

N.S.Trubeskoy fonemi həm də fonoloji oppozisiyanın üzvü və fonoloji cəhətdən differensial əlamətlərin məjmusu hesab edirdi. Sonralar dilçilər bu oppozisiyanı bütün dil sistemində axtarmağa çalışırdılar. Məsələn, /s/ və /z/ sözün əvvəlində (ingiliscə sue, zoo) və ortasında (ingilisjə racer, razor) bu jür qarşılaşmada iştirak edir, ancaq söz sonunda kipləşən-partlayışlı samitlərdən sonra bu qarşılaşma üzvləri işlənmir. Burada kardan sonra kar, cingiltilidən sonra cingiltili gəlir. Müqayisə et: /baks/ - /bagz/, ancaq /bakz/ mümkün deyil. Fikrimizcə N.S.Trubeskoyun arxifonem anlayışını bu şəkildə yozmaq mümkün deyildir. N.S.Trubeskoyda söhbət mövqedən gedir, konkret hansısa fonemlə qonşuluqdan getmir. Söz sonunda həm /s/, həm də /z/ foneminin işlənməsi mümkündür, odur ki, onlara ingilis dilində arxifonem kimi yanaşmaq düzgün deyildir. Ancaq ispan dilində /r/ və / P/ fonemlərinin söz ortasında işlənə bilməsi, söz sonunda və əvvəlində gələ bilməməsinə və fransız dilində /e/ və /ɛ/ fasilədən qabaq, vurğulu mövqedə işlənə bilməsi, digər mövqelərdə isə gələ bilməməsinə, onları işlənə bilmədikləri mövqe baxımdan arxifonem kimi götürmək N.S.Trubetskoyun konsepsiyasına uyğun gəlir[35].

Fonemin danışıq aktından ayrılmasında mexaniki məna fərqləndirmə kriteriyasına bütün Qərb dilçiliyində rast gəlmək mümkündür. Burada həmin dilçiliyin nümayəndələrindən birinin elmi-nəzəri mövqeyini təhlil etməklə onların hansı zəmindən çıxış etdiklərini göstərmək istərdik. İngilis dilində heed-[hi:d]-

«diqqət», head-[hed]-«baş», hat-[həet]-«baş örtüyü» sözlərinin əvvəlində gələn h samiti müxtəlifdir, çünki onlar müxtəlif saitlərdən əvvəl gəlir.

«Səslərin bu cür qrupu dilin fonemini, bu qruplardakı hər bir səs isə həmin fonemin allofonlarını əmələ gətirir».[36] Əslində burada D.Jounzun «fonem-səslər ailəsidir» fiziki baxışı əks olunub. Amma D.Counz fonemi akustik cəhətdən yaxın olan, yəni qohum səslərin ailəsi kimi götürür. Həmin ingilis alimi daha sonralar yazır ki, fonemlər konkret səslər qrupunun nəticəsi olan hər bir formanın abstraksiyalar və ya elementləridir; onlar tələffüz olunmur, çünki səslər qrupunu simultan demək mümkün deyil; fonetik simvol fonoloqlar tərəfindən şərti səs kimi tələffüz edilir; hər bir dilin fonem inventarı və fonem sistemi var; dildə fonemlər söz fərqləndirir. Məs,: /fat/-/hat/-/kat/ və s.; hər bir dildə müəyyən əhatə var ki, o, müxtəlif fonemlərin işlənməsində sahə kimi götürülə bilər və s. /f/, /h/, /k/ üçün /at/ sahədir və s. Fonemlər dildə parallel distribusiyada işlənən vahidlər kimi təsvir oluna bilər.

Ümumiyyətlə, çağdaş dilçilikdə fonem 4 baxımdan araşdırılır:

1. <u>Mentalist və ya psixoloci baxım</u>. Buna əsasən, fonem danışanın nəzərdə tutduğu ideal səsdir. İ.A.Boduen de Kurteneyə görə, fonem insan psixikasında daima mövcud olan, artikulyator hərəkətlər və akustik təəssüratların məcmusu olmaqla heç vaxt danışanın niyyəti ilə üst-üstə düşməyən bir təsəvvürdür. Məs., almanın niyyəti /k/ fonemini reallaşdırmaqdırsa, /'ki:l/ və /'ko:l/ sözlərində bu müxtəlif səslər şəklində meydana gəlir, niyyətlə realizasiya üst-üstə düşmür; çünki /k/ foneminə müxtəlif mövqe və əhatə təsir edir. /i:/ və /o:/. Digər tərəfdən sözlərdəki /l/ müəyyən mənada mövqe təsirindən azad olsa da, bu /l/ /li:bən/ və /li:t/ sözündəki /l/-ya uyğun gəlmir. Odur ki, L.Blumfild və D.Counz praktiki olaraq fiziki cəhətdən qohum və ya oxşar olan səslərin birliyindən çıxış etməyə məcbur olurdular.

2. <u>Fizikalist baxım</u> D.Counza xasdır; o, variasiya üzvlərini bir ailə üzvləri kimi götürür. D.Counz İ.A.Boduen de Kur-

tenenin fonem haqqındakı fikirlərilə 1911-ci ildə Şerbanın çap etdirdiyi məqalə vasitəsilə tanış olur. Sonra 1915-ci ildə mütəmadi olaraq öz fəaliyyətində fonem ideyasından istifadə edir. D.Counza görə fonem bir dildə xüsusi mənası olan səslərin ailəsidir. Ailənin hər bir üzvünün danışıqda fərqli işlənməsi fonetik əhatə ilə şərtlənir və bir üzv digərinin yerində gələ bilmir.[37]

D.Counz Praqa Dilçilik Məktəbilə razılaşmırdı və fonetikanı fonologiyadan ayırmaq istəmirdi. Fonemi ton əlaməti, xronemi uzunluq əlaməti, varifonu qrup səslərindən birini göstərmək üçün işlədirdi.

D.Counz 1950-ci ildə yazdığı «The Phonem, its Nature and Use» kitabında fonoloji sistemin tədqiqini müəyyən vaxtda, dil tarixi baxımından deyil, müəyyən bir dialekt əsasında müəyyən bir dil üslubunda həyata keçirməyi tövsiyə edirdi, yəni hər hansı bir fərdin müəyyən və vahid üslubda danışığını fonoloji səpkidə təsvir etmək olar. «A language – is to be taken to mean the such of the individual pronouncing in a definite and consistent style.» (1950, s. 9) - "Dil fərdi tələffüzün müəyyən və daimi üslubda işlənməsi kimi başa düşülməlidir." Bu da Bloxun idealist, fərdi dil anlamına uyğun gəlirdi, yəni hər hansı bir zaman kəsiyində müəyyən bir danışanın, fərdin dialekti "The totality of the possible utterances of one speaker at one time in using a language to interact with one speaker is an idiolect."[38] "Bir danışanın müəyyən bir vaxtda başqa bir danışanla ünsiyyətdə istifadə etdiyi mümkün tələffüzlərinin cəmi idiolekt adlanır».

Müxtəlif fonemlərin üzvləri məna fərqləndirə bilir, ancaq eyni fonemin üzvləri məna fərqləndirməyə qabil deyildir. Məs.:

/pan/ - /p/ > müxtəlif fonemlərin
/van/- /v/ üzvləridir

/_k_/ və /_q_/ isə „keel" və „call" sözlərində eyni fonemin üzvləri kimi çıxış edir, çünki onlar müxtəlif fonemlər qarşısında gəlir. Lakin buna baxmayaraq onlar bir-birinə oxşarlığını qoruyub saxlayırlar. Bu səslərdəki akustik və artikulator müxtəliflik

onlardan sonra gələn saitlərlə bağlıdır. Ailənin heç bir üzvü eyni fonetik mövqedə digər üzvün yerində işlənə bilməz. Buna əlavə distribusiya prinsipi deyilir (complementary distribution). Lakin bu prinsip türk dilində /bana gel/ və ya /bana gəel/, alman dilində /ja:rə/ və /ja:Rə/ misallarındakı [e:æ] və [R:r] münasibətlərini araşdırmaqda çətinlik çəkir.[39] Göründüyü kimi, türk və alman dillərində də səslər, yuxarıdakı misallardan fərqli olaraq(/_k-q_/), eyni əhatədə və eyni fonetik mövqedə işlənib. İngilis dilində samitlərin bu çalarlığını kombinator variantlar, türk və alman dillərindəki çalarlığı isə fakültativ variantlar adlandırırlar.

3. Semantik baxım Qərb dilçiliyində, xüsusilə Praqa Dilçilik Məktəbinin ənənəsinə sadiq məktəblərdə formalaşıb. Bu konsepsiyanın məğzi səsin məna fərqləndirməsini ön plana çəkməkdir. Lakin nədənsə bunu amerikan dilçisi L.Blumfildin adı ilə bağlayırlar.[40] Halbuki artıq ötən əsrin 70-ci illərində İ.A.Boduen de Kurtene bunu xüsusi qeyd etmiş, N.S.Trubeskoy isə nəzəriyyə şəklində işləyib hazırlamışdır.[41]

4. Abstrakt yanaşma. Bu da fonemlərin onlarla əlaqəsi olan fonetik xüsusiyyətlərdən mahiyyətjə asılılığını nəzərdə tutmur. Burada üç cür variasiyaya imkan var. Burada artıq hər bir fərqləndirici əlamət bütün səviyyələrdə fonematik vahid (istər prosodik, intonasiya və s. məs.: latter-ladder) kimi fonemə bərabər götürülür. Bununla bağlı J.R.Firsin (1890-1960) ton əlamətlərini, fonoloji frazada isə səs fərqlərini qeyd etmək lazımdır. Məs.: /Give me '"that book// və /Give me that '"book// və s. səslərdəki bütün müxtəlifliklər təklikdə və ya bir yerdə (sait, samit, uzunluq, qısalıq, intensivlik, vurğu, ton, intonasiya) linqvistik fərqləndirməyə xidmət edir. Bu axırıncıları adətən prosodiya və supraseqmentaliya adı altında birləşdirirlər.

Vurğulu və ya vurğusuz dərəcələr danışığın ritmik təşkilinə, quruluşuna xidmət edir. Güc adətən tonla birgə hərəkət edir. Enən ton, qalxan ton, orta ton - bunlar danışanın nitqini təşkil edir. Serb-xorvat dilində isə ton fərqləndirici rol oynayır, Güc fərqilə ton fərqi birgə hərəkət edir.

Tonun iki cür fərqləndirici əlaməti var:

a) Ton cümlə səviyyəsində distinktivdir. Ton intonasiyanın mühüm komponenti kimi çıxış edir. Burada ton əyriləri cümlə və ya onun hissələri kimi çıxış edən sintaqmlar səviyyəsində fəaliyyət göstərir. Məs.: /I en'joyed it//. Burada ton bütün cümlədə distinktivdir. Məna baxımından tonu /en'joyed// üzərində salıb, /it/ üzərində qaldıra bilərik.Bu artıq konsituasiyadan asılıdır.[42]

b) Ton söz səviyyəsində distinktivdir. Yəni Cantonese (Çin dilinin dialekti) dilində /soeŋ/ tonun hərəkətindən asılı olaraq 6 məna ifadə edə bilər: 'soeŋ-«yaralamaq», ¯ soeŋ-«baş nazir», ,soeŋ-«bir cüt şalvar», s̲oeŋ-«qalxmaq», _soeŋ-«üzərində».[43] Bu tipdən olan ton növlərini qruplaşdırıb onları ton və ya tonem adlandırırlar. Tonem fonemə uyğun gəlir. Burada ton fərqləndirici əlamət kimi intonasiyaya qarşı qoyulur.

Fonemlərdə olduğu kimi, ton əyrilərində də fonetik oxşarlığı tapmaq çətindir. Əvvəla, ton çalarında, fonemdə olduğu kimi, bir fərqləndirici əlaməti tapmaq olmur; ton modeli tondan əlavə başqa sistemlərdə də təsirlidir (intonasiya, vurğu variasiyaları). Ona görə də abstrakt yanaşma ton fonemlərini şərh etməyə imkan verir.

Distinktiv fonetik fərqlər variativ meyarın fonoloji ünsürləri kimi dəyərləndirilə bilər. Səs keyfiyyətləri normal olaraq fonemləri (sadə seqmentləri) səciyyələndirir, bəzən isə lap kənara çıxır. Məs.: türk dilində sözlərdə saitlər ya hamısı ön sıralı, ya da arxa sıralıdır (buna sait ahəngi deyilir).[44] Məs.:/adamlar/, /evler/. Uzunluq normal olaraq seqmentlə əlaqələndirilir. Ton isə əsasən heja ilə bağlıdır və səs tonunun fərqləndirilməsi hecanın səsli hissəsilə (saitlə) əlaqədə götürülür. Adətən tonu sözdəki saitlə bağlı götürürlər. Ancaq yaxşı olar ki, tonun yerləşdiyi vahidi hecaya aid edək və əslində bir sıra dildə ton, həqiqətən də, heca ilə bağlıdır. Bu da adətən sözdə baş vurğunun ifadəsinə xidmət edir.

J.R.Firsin terminilə bu o deməkdir ki, vurğunun meydanı sözdür.[45] Çünki onun fokusu sözün bir hissəsi olan hecadır. Rabitəli baş vurğu bir neçə sözdən ibarət vurğulu qrupda ola bilər (Stressgroup). Sonda intonasiya ton qrupundan, pauza qrupundan və ya fonoloji frazadan böyük ola bilər. Fonoloji

cəhətdən relevant elementlər müxtəlif supraseqment elementlərin şəbəkəsilə birlikdə fonoloji hierarxiya adlanır.[46]

Fonoloji hierarxiyanın müxtəlif elementləri arasında münasibətlər sadədir: cümlə bir və ya bir neçə intonasiya qrupundan, bunların da hər biri bir və ya bir neçə vurğu qrupundan, bunların da hər biri bir və ya bir neçə sözdən, bu sözlər də bir və ya bir neçə hecadan ibarət olur. Hecanın strukturu seqment terminlərində normal olaraq bir və ya bir neçə saitlə müşayiət edilir.

J.R.Firsin prosodik fonologiyası, fonoloji hierarxiyanın bəzi səs keyfiyyətlərini və elementlərin uzunluğunu, sadə seqmentlərdən uzun parçaların əlamətlərini üzə çıxarmağa imkan verir. Məs., türk dili saitlərinin irəli və ya geri olması söz səviyyəsində həll olunur (adamlar-evlər). J.R.Firsin prosodiya termini bu əlaməti əhatə edir. Bu distinktiv əlamət göstərir ki, J.R. Firs onu niyə fonematik əlamət adlandırır. Yalnız invariant əlamətləri fonematik adlandırmaq olar, çünki o biriləri variasiya tiplərinin prosodiyasına aid edilir. Bunu heç də variasiya ilə məşğul olan bütün fonoloqlar qəbul etmirlər. Firs fonologiyasının bir xüsusiyyəti də odur ki, o bir mövqedə distinktiv çıxış edən eyni bir səsin digər bir mövqedə distinktiv ola bilməməsinə nəzəri əsas verir. Bunu da çoxları qəbul etmir. /m/ və /n/ arasındakı oppozisiya sait qarşısında və söz sonunda mümkündür. Müq. et: meat-ram # ran, ancaq samit qarşısında gələn müxtəlif burun samitləri arasında mümkün deyil: limp, lint, liŋk, ancaq liŋp, liŋt mümkün deyil və ya hammed /hæmd/ və hand /hænd/. Söz sonundakı samitdən və ya qrammatik şəkilçidən önjə gəlir. James və Clumsy də bura aiddir. Burun saitinin identifikasiyası adətən ondan sonra gələn samitdən asılı olur. Burun samitini ümumi olaraq /N/-lə göstərsək, onda söz sonundakı /ŋ/ fonemini /Ng/ fonem ardıcıllığının tələffüzü kimi göstərə bilərik.

Firs müxtəlif sistemlərin olması imkanını nəzərdən keçirir (onların şəbəkəsindən seçmək olur), heca və söz strukturunun müxtəlif yerində hər birini seçmək olur. Məs., ingilis dilində heca strukturunda mərkəzi yerlə əlaqədə olan sistem əlahiddə saitlərdən ibarətdir, hecadan əvvəl və sonrakı yer əlahiddə samitlərlə

bağlıdır; çünki post-finisial sistemdə tr, sn, gl və s. samit birləşməsində /w/, /l/, /r/, /m/, /n/ üzvləri var və pre-final sistemdə mp, ld, rk birləşmələrinin üç üzvü - /l/, /p/, /m/ var. Bu, Firsin baxışlarından biridir ki, ona da tez-tez D.Counzun monosistem termini əvəzində polisistem anlayışı tətbiq edilir, çünki D.Jounz deyirdi ki, səs bir mövqedə distinktivdirsə, deməli, bütün mövqelərdə distinktiv olur, bir dəfə fonemdirsə, deməli, həmişə fonemdir.[47] Bu mövqe imkan verir ki, fiziki mövqeyə qarşı reaksiya göstərilsin. «Polisistem» həmçinin bir neçə distinktiv sistemlərə malikdir, daha dəqiq desək, onun bir neçə partsial oxşar sistemləri var (məs.: post-inisial, pre-final).

Polisistem termini müxtəlif dillər arasında fərqi göstərməyə imkan verir. Məsələn, ingilis dilində roman və ya latın mənşəli sözlərdən fərqlənən german mənşəli sözləri göstərmək üçün müxtəlif fonoloji sistemlər gərəkdir. /ð/ əsasən işarə əvəzliklərinin, artiklin, zərflərin və bağlayıcıların əvvəlində işlənir: /the, this, that, they, there, thus, then, though, than/ və s.

Beləliklə, abstrakt yanaşmada[48] morfoloji alternasiyada iştirak edən [Ł] və [l] samitləri «feel“ və «feeling“ sözlərində heç vaxt kontrast yaratmır, onları bir fonemə aid edən fonetik yaxınlığı deyil, hərçənd ki, onlar fonetik cəhətdən çox fərqlidir. [f] da [v] ilə alternasiyada iştirak edir: wife-wives, ancaq graph-graphs-dakı kimi avtomatik deyildir, çünki caves təkdə cave-dir. [f] və [v]-ni eyni fonemə aid edə bilmərik, burada deyə bilərik ki, [f] və [v] bir-birinə qismən münasibətdədirlər, bu, özünü onda göstərir ki, /f/-/v/ alternasiyaları son mövqedə morfoloji funksiya daşıyır: safe (sifət), save (fel) və s. Eynilə həmin münasibət /θ/ və /ð/ (breath və breathe) və /s/-/z/ (use-isim, use-fel) arasında mövcuddur.

Fonem qruplaşması üçün hecalarda və sözlərdə distributiv oxşarlıq əsas götürülməlidir. Burada söz əvvəlində /w/, /e/, /r/ fonemlərindən sonra hansı samitin gələ bilməsini əsas götürməliyik.

1) /p/,/b/,/f/ /l/ və /r/-dan əvvəl gəlir, amma /w/-dan əvvəl yox;

2) /w/ və /r/-dan əvvəl gəlib, /l/-dan əvvəl gələ bilməyənlər: /t/, /d/, /θ/;

Hər üçündən əvvəl gələ bilən /k/, /g/, /s/ fonemləridir.

1-ci və 2-cidə fonetik yaxınlıq var, ancaq 3-də yoxdur, çünki /k/ və /g/ dilarxası, kipləşən-partlayışlı, /s/ dilönü, novludur. Fonetik baxımdan /s/ /t/ və /d/-ya daha yaxındır.[49]

Alman dilində /Bund/-«ittifaq» və /bunt/-«rəngarəng» sözlərinin sonunda əlavə distribusiya kriteriyasına əsasən /d/ və /t/ eyni fonem sinfinə aid edilir, çünki sonda hər ikisi /t/ kimi tələffüz olunur. Qlossematiklər bunun üçün kenem (ceneme) terminini işlədirdilər. Sonralar fonem və ya diferentor, hər ikisi isə konstruktor adlandırıldı.[50] Əslində bunlar bir neçə elmin qovuşuğuna gedib çıxan məsələdir (linqvistika, fəlsəfə, psixologiya, fizika və s.).

Son zamanlar fonologiyanı əvvəlki hüdudlarından çıxararaq qrammatik səviyyədə nəzərdən keçirirlər və özü də ifadənin təkcə fonetik tərəfini deyil, həm də fonoloji reprezentasiyasını əsas götürürlər.

Frazadan başlayan təhlil qaydalar vasitəsilə axırıncı semə qədər aparılır.

1. $\left.\begin{array}{l}\left.\begin{array}{l}k\\ t\end{array}\right\}\rightarrow s\\ d\rightarrow z\end{array}\right\}$ i ilə başlanan affiksdən

2. $z\rightarrow s$ w- dən əvvəl

3. $\perp\rightarrow i$ zion- dan əvvəl

4. $\left.\begin{array}{l}s+i\rightarrow \int\\ z+i\rightarrow ʒ\end{array}\right\}$ a saitindən əvvəl

5. zero → y a yumşaq dilönü saitindən əvvəl

6. i → ā

7. $\left\{ \begin{matrix} o \\ a \end{matrix} \right\} \rightarrow \overset{\frown}{\longrightarrow}$ ə vurğusuz olanda

1-ci qayda belə oxunur: k və t s kimi, d isə i ilə başlayan affikslərdən əvvəl z kimi yazılır və s.

Biz yuxarıda göstərmişdik ki, müasir dilçilikdə fonemin varlığını şübhə altına alanlar, əsasən, onun realizasiyasına şübhə edirlər. Arqument odur ki, fonemi ayırmaq olmur və ya bəzi fonemlər, məsələn alman dilində /R/, söz sonunda ümumiyyətlə realizə olunmurlar (müq. et: /'hi:ə/, /'ve:ə/ və s.) "Bu arqumentlər yalnız danışıqda fiziki hadisələrə aiddir; onlar fonemlərin şüurda, yəni danışanın dil biliyində qeyri-fiziki varlığına aid deyildir."[51]

Fonemlərin varlığından imtina ediriksə, deməli, dil biliyinin məzmunu problemi səslərdən hecalara keçir. Əgər real mövcud olanı heca hesab ediriksə, onda sual olunur, hecalar hansı vahidlərdir və onların realizasiyası üçün təcrübə necə formalaşır?[52]

Məlumdur ki, E.Koseriu ternar bölgü tərəfdarıdır, o, ümumi dil, tək bir dil və danışıq biliyi səviyyələrini fərqləndirməklə bunların hər birinin məzmununu təşkil edən məsələləri ayrılıqda araşdırmağı təklif edir və onlardan hər birinin öz spesifik xüsusiyyətini xüsusi qeyd edir.[53]

Sözsüz, yuxarıda verilən təhlil metodu mümkün üsullardan biri kimi yaşaya bilər. Ancaq burada bir məsələ aydındır ki, fonoloji səviyyənin mövcudluğu onun özünəməxsus ən kiçik vahidinin olmasını tələb edir və bu ən kiçik vahid müəyyən kriteriyalar əsasında danışıq aktından ayrılmalı və hərtərəfli təhlil edilməlidir. Dilin yarusları arasında sərhədlərin tam götürülməsi

və hər bir söyləmin yalnız iki istiqamətdə təhlil edilməsi - 1) ifadə tərəfinin son fərqləndirici fiqurunun (Yelmslevin təbirincə) və 2) məna tərəfinin ən kiçik ünsürünün (Skaliçkaya (1909-1996) görə seminin) yuxarıdan aşağı və ya əksinə qaydalar və ya formullar şəklində müasir dilçilik elmi baxımından heç də mənasız və lazımsız bir şey kimi qiymətləndirilə bilməz. Amma bununla yanaşı dilin fonem, leksem, frazem, tekstem və s. kimi vahidlərinin seqmentasiya və fiksasiya prinsiplərinin sırf linqvistik kriteriyalar əsasında aparılması, o vahidlərdən birinin müəyyənləşdirilməsində yuxarı və ya aşağı səviyyənin köməyə cəlb edilməsinin mümkünlüyü kimi çoxsaylı problem həll olunmalıdır. Və bu sahədə fonem kimi dil vahidinin seqmentasiyasında İ.A.Boduen de Kurtene - L.V.Şerba - L.R.Zinder məktəbinin işləyib hazırladığı kriteriyalar daha münasib görünür. Elə biz də irəlidə bu məktəbin elmi-nəzəri müddəalarına əsaslanaraq fonemin müəyyənləşməsində öz anlamımızı açıqlamaq istərdik.

Əvvəlcə, biz bu suallara cavab verməliyik. Fonem nədir? O, danışıq aktından necə ayrılır? Onun dil vahidləri arasında yeri haradadır? Bu suallara cavab vermək üçün birinci olaraq danışıq aktının üzvlənməsindən başlamalıyıq.

İ.A.Boduen de Kurtene 1867/68-cı illərdə Almaniyada A.Şlayxerin (1821-1868) şagirdi olur, 1870-ci ildə A.Leskinin (1840-1916) rəhbərliyi altında "Polyak dilində analogiyanın hallanmaya təsiri" adlı dissertasiyasını müdafiə edir. İ.A.Boduen de Kurtene canlı danışığı öyrənməyi üstün tuturdu. Təsadüfi deyil ki, o zaman Rusiyada yaranan eksperimental fonetika laboratoriyalarını Kazanda (V.A.Boqoroditski, 1857-1941), Sankt-Peterburqda (S.K.Buliç, 1859-1921) yaradanların hər ikisi onun şagirdi idi. O, 1875-ci ildən 1883-cü ilədək Kazanda (N.Kruşevski, 1851-1887), 1883-cü ildən Derpt-Yuryev-Tartuda, 1893-cü ildən Krakovda, 1901-ci ildən S.Peterburqda (L.V.Şerba, Y.Polivanov, 1891-1938) çalışmışdır. 1918-ci ildə vətəninə dönür, 1929-cu ildə vəfat edir. 1918-ci ildə Polşa dövləti yarananda milli azlıqlar onun prezidentliyə namizədliyini irəli sürmüşdülər.

İ.A.Boduen de Kurtenenin səsi hərfdən kəskin ayırmaq ideyaları sonralar 1917-ci ildə onun tələbəsi L.V.Şerbanın və digərlərinin vasitəsilə rus dilinin orfoqrafiyasında islahatlarla tamamlandı. 1870-ci ildən ömrünün sonuna qədər İ.A.Boduen de Kurteneni səs və fonem münasibətləri maraqlandırıb. R.Yakobson bu böyük alimə həsr etdiyi nekroloqunda Kazan linqvistik məktəbini beynəlxalq linqvistik məktəb adlandırmağı təklif edirdi (rus V.A.Boqoroditski, alman V.V.Radlof (1837-1918), tatar N.S.Kukiranov, polyak N.Kruşevski və s.).

İ.A.Boduen de Kurtenenin fonemlə bağlı əsas fikirləri bunlardır: fonem səsin psixi ekvivalentidir; səslər hecaların tərkib hissəsidir; onları akustik və fizioloji cəhətdən obyektiv öyrənmək olar. Sonradan İ.A.Boduen de Kurtenedə psixoloji meyl güclənir. O, 1895-ci ildə yazırdı: "Fonem hər hansı bir səsin deyiliş vasitəsilə ruhda yaratdığı təəssüratla psixi qarışması nəticəsində əmələ gələn vahid, fonetik aləmə xas olan təəssüratdır - dil səslərinin psixi ekvivalentidir".[54]

Fonemlə bağlı axtarışlarını davam etdirən İ.A.Boduen de Kurtene artıq əsrin ayrıcında fonemi morfemin tərkib hissəsi kimi götürür, hətta onun tərkib hissələrə bölünə bilməsi fikrinə gəlir: tələffüz vahidi kimi kinema, auditiv vahid kimi akusma, birgə çıxış edən bölünməz fonemləri isə ikili vahidlər adlandırırdı.[55]

1870-ci il 17-29 dekabr tarixdə Sankt-Peterburq universitetində Hind-Avropa dillərinin müqayisəli qrammatikası kafedrasında privat-dosent yerini tutmaq üçün "Некоторые обшие замечания о языкознании и языке" mövzusunda oxuduğu mühazirədə İ.A.Boduen de Kurtene səsin dil mexanizmində rolundan danışaraq göstərir ki, fonemlər ayrılıqda məna fərqləndirə bilərlər: məsələn g-k-Garten-Karten sözlərinin əvvəlində; və ya morfologizasiyaya uğraya, yəni morfoloji funksiyaları yerinə yetirə bilərlər: əzizləmə mənasını bildirmək üçün (Kuß-Küßchen) və s. Göründüyü kimi, İ.A.Boduen de Kurtenenin fonem haqqındakı fikirləri sonralar yaranan fonoloji məktəblərin hamısının bilavasitə ideya mənbəyi olmuşdur. Xüsusilə fonemin özü-

nün kiçik hissələrə parçalanması, N.S.Trubeskoy - R.O.Yakobson və ümumilikdə qərb fonoloji məktəblərinin semantizasiyası Avropa və Amerika fonoloqlarının təşəkkül tapmasına Güclü təkan vermişdir. Morfologizasiya ideyası isə üç istiqamətdə genişlənib:
1) Fonomorfologiya və ya morfonologiya (N.S.Trubeskoy və b.);
2) Moskva fonoloji məktəbi (morfem eyniliyi prinsipi) və
3) S.-Peterburq məktəbi (fonemin ayrılmasında morfoloji funksiyanın vacibliyi). L.V.Şerba əslində minimal cütləri misal gətirərək fonemin fərqləndirmə xüsusiyyətlərini ön plana çəkmişdir. Məsələn: ingilis dilində /bat-pat/. L.V.Şerbanın bu kriteriyası sonralar fonem üçün mərkəzi ideyaya çevrilmişdi: əgər səslər bir fonemə aiddirsə, onların bəzi ümumi səciyyəsi olmalıdır: fonetik yaxınlıq və əlavə distribusiya, yəni onlar eyni əhatədə gələ bilməzlər. Öz əhatəsindən ən az asılı olan variantı L.V.Şerba "əsas" və ya "tipik" variant adlandırırdı. L.V.Şerbanın təsiri altına düşən D.Counz bunu sonralar fonemin əsas üzvü (principial member of phoneme) adlandırmışdı.[56]

## IV. 6. Danışıq aktının üzvlənməsi

Fonem nəzəriyyəsində mühüm yer tutan üzvlənmə məsələsinin mahiyyətini başa düşmək üçün biz alman ailəsində lentə aldığımız danışıqdan götürdüyümüz bu dialoqu nəzərdən keçirək:

A: Guten Tag, Rudi! (Salam, Rudi).

B: Guten Tag, Monika! (Salam, Monika).

A: Hast du Werners Brief schon gelesen? (Sən Vernerin məktubunu artıq oxumusan?)

B: Nein, ich bin doch erst jetzt gekommen und muß schnell ins Badezimmer. Was schreibt er denn? (Xeyr, axı mən indijə gəlmişəm və özü də tez hamama girməliyəm. O nə yazır?).

A: Ja, nichts Besonderes. Aber folgender Satz ist fğr mich auch nicht verstdndlich. Er schreibt nebenbei: (Hə, elə bir şey yoxdur. Amma orada bir cümlə mənə də aydın deyil. O yazır:).

In diesen Tagen herrscht im Süden eine furchtbare, fğr uns Europder kaum begreifliche Ruhe und man wollte Löhnigs Können nüchtern überlegen, ob es jetzt Sinn hat, auf die jungen deutschen Pfleger zu verzichten[57]...(Bu günlər cənubda biz avropalılar üçün Güclə anlaşılan dəhşətli bir sükut hökm sürür və Löniqin bacarığını ayıq başla götür-qoy etmək lazımdır: görəsən indi gənc alman xidmətçilərdən imtina etməyin mənası varmı...).

Eşitdiyimiz bu parçada axırıncı cümləni transkripsiya edək.

/˒⊥n‿*di:zən‿″ta:gən/′hɛRʃt ˒⊥m‿″*zy:dən/ ˒a‿enə‿ ′fʊʀçtba:ʀə/ fy·ʀ‿ ˒ʊns‿˒⊃‿øʀo·pe:əʀ ka‿om ‿*bə′gʀa‿efli·çə ′′′ʀu:ə/ /˒ʊnt‿man‿ *v⊃ltə 'lø:n⊥çs "kænən "'nyçtərn ˃y.bər'le:gən / ˒⊃p‿˒ɛs '*jɛt‿st "*z⊥n hatə / ˃a‿of di.‿'*jʊŋən '*d⊃‿øt‿ʃən "'pfle:gəʀ 't‿su.‿ fɛʀ't‿s⊥çtən//

Bu cümləni iki müstəqil cümlə kimi də götürmək olar:

1./˒⊥n‿*di:zən‿″ta:gən /′hɛʀʃt˒ ⊥m‿″*zy:dən / ˒a‿enə‿ ′fʊʀçtba:ʀə/ fy·ʀ‿ ˒ʊns ‿ ˒⊃‿şʀo·′pe:əʀ ka‿om ‿*bə′gʀa‿efli·çə ′′′ʀu:ə/

2. /˒ʊnt‿man‿ *v⊃ltə 'lş:n⊥çs "kænən "'nyçtərn ˃y.bər'le:gən / ˒⊃p‿˒ɛs '*jɛt‿st "*z⊥n hatə / ˃a‿of di.‿'*jʊŋən '*d⊃‿øt‿ʃən "'pfle:gəʀ 't‿su.‿ fɛʀ't‿s⊥çtən//

Axırıncı cümlənin bu cür iki yerə bölgüsü fonetik və semantik cəhətdən mümkündür. Təhlilimizi davam etdirsək, onda 1)-ci 3 sintaqma bölünəcək:

a) /˒⊥n‿*di:zən‿″ta:gən /;

b) /′hɛʀʃt˒ ⊥m‿″*zy:dən/;

c) /˒a‿enə‿ ′fʊʀçtba:ʀə/ fy·ʀ‿ ˒ʊns ‿ ˒⊃‿Øʀo·′pe:əʀ ka‿om ‿*bə′gʀa‿efli·çə ′′′ʀu:ə /

Canlı danışıqda /fy·R ‿ʾʊns ‿ʾ⊃‿øRo·′pe:əR ka‿om ‿∗bə′gRa‿efli·çə ′′′Ru:ə/ işlənməyə də bilər. Hər halda bu parçanın üç sintaqma[58] bölünməsi heç bir çətinlik törətmir. İkinci tərkib də 3 sintaqma bölünür:

a) /ʾʊnt‿man‿∗v⊃ltə 'Lş:n⊥çs "kænən "'nyçtərn >y.bər'le:gən /

b) /ʾ⊃p‿ʾεs '∗jεt‿st "∗z⊥n hatə /

s) />a‿of di.‿'∗jʊŋən ' ∗d⊃‿øt‿ʃən "'pfle:gəR t‿su.‿ fεR't‿s⊥çtən/

Növbəti bölgünü (üzvlənməni) elə aparmalıyıq ki, nə fonetik, nə də sematik bütövlük pozulmasın. Bu da semantik baxımdan kompozit[59], fonetik baxımdan isə fonetik sözə uyğun gəlir. Bu baxımdan bizim misalımızda aşağıdakı kompozitlər-fonetik sözlər ayırmaq mümkündür:

1. a) /ʾ⊥n‿∗di:zən‿′′ta:gən/
   b) /′hεRʃt/
   c) /ʾ⊥m‿′′∗zy:dən/
   d) /ʾa‿enə‿′fʊRçtba:Rə/
   e) /fy·R‿ʾʊns‿ʾ⊃‿ØRo·′pe:əR/
   f) / ka‿om‿∗bə′gRa‿efl⊥çə/
   g) / ′′′Ru:ə/
2. a) /ʾʊnt‿man‿∗v⊃Ltə/
   b) /'lş:n⊥çs "kænən/
   j) / "'nyçtərn >y.bər'le:gən/
   d) / ʾ⊃p‿ʾεs '∗jεt‿st/
   e) / "∗z⊥n hatə/
   f) / >a‿of‿di.‿' ∗jʊŋən ' ∗d⊃‿øt‿ʃən "'p‿fle:gəR/
   g) / t‿su.‿ fεR't‿s⊥çtən/

4-cü mərhələdə üzvlənmə bu danışıq aktında işlənən leksemlərin müəyyənləşdirilməsidir ki, fonetik baxımdan bu tam vurğulu və vurğusuz və ya köməkçi vurğusu olan sözlərə bölgü olacaq. Əvvəlcədən qeyd edək ki, hər bir söz burada verildiyi formada götürülməlidir. Beləliklə, bu üzvlənmə nəticəsində iki sıra leksem üzə çıxacaq: a) avtosemantik; b) sinsemantik.

a) avtosemantik leksemlər: ∗di:zən, ′ta:gən, ′hεRʃt, ′′∗zy:dən, ′fʊRçtba:Rə, ʾʊns, ʾ⊃‿şRo·′pe:əR, ∗bə′gRa‿efl⊥çə, ′′′Ru:ə, man, ∗v⊃Ltə,

'lø:n⊥çs, "kænən, '"nyçtərn, ˃y.bər'le:gən, '*jɛt͜st, "*z⊥n, hatə, '*jʊŋən, '*d⊃͜øt͜ʃən, '"pfle:gəʀ, fɛʀ't͜s⊥çtən.

b) sinsemantik leksemlər: ˀ⊥n, ˀ⊥m, ˀa͜enə, fy·ʀ, ka͜om, ˀʊnt, ˀ⊃p, ˀɛs, ˃a͜of, di., t͜su.

Cümlədə 21 avtosemantik leksemin müqabilində cəmisi 10 sinsemantik leksem işlənir ki, onlardan da 2-si (ˀ⊥n, ˀ⊥m) təkrar edilir. Üzvlənməyə görə təhlilimizi davam etdirərək növbəti mərhələnin vahidlərini müəyyənləşdirməyə çalışmalıyıq. Bu da təbii ki, morfem səviyyəsidir. Morfem, fonetik ifadəetmə baxımından, seqment və supraseqment vahidlərin qarşılıqlı əlaqəsindən ibarət olub, mənalı ən kiçik dil vahiddir. Mətnimizi morfem tərkibinə bölək. Burada da iki cür morfemlə rastlaşırıq. Danışıq aktında öz yeri ilə seçilən, istənilən an öz yanına formativlər (affikslər) və funksionemlər qəbul etməyə imkanı olan, müstəqil vurğu ilə deyilə bilən morfemlər və asılı morfemlər. Bunlara da yuxarıda işlətdiyimiz avtosemantik və semantik terminlərini tətbiq etsək, onda bölgü belə olacaq:

a) avtosemantik morfemlər: : *di:z,′ta:g,′hɛʀʃ, ″*zy:d(ən), ′fʊʀçt, ˀʊns, ˀ⊃͜øʀo·′pa., *gʀa͜ef, ′″ʀu:ə, man, , *v⊃l, 'lø:n⊥ç, "kæn, '"nyçtərn, 'le:g, '*jɛt͜st, "*z⊥n, hat, '*jʊŋ, '*d⊃͜øt͜ʃ, '"pfle:g, 't͜s⊥çt

b) sinsemantik morfemlər: ˀ⊥n, ən, t, ˀ⊥m, ˀa͜en, -ə, ba:ʀ, -ə, fy·ʀ, -əʀ, ka͜om, bə-, ˀʊnt, -tə, -s, ən, ˃y.bər, ˀ⊃p, ˀɛs, -tə, ˃a͜of, di., -ən, -ən, t͜su, fɛʀ, -tən.

Bu, üzvlənmənin son hüdududurmu? Yoxsa üzvlənməni davam etdirmək olar?

Fonetik və semantik tamlığı nəzərə alsaq, bu bölgünü son hüdud hesab etmək olar.[60] Amma canlı danışıqda [-ən] morfemi güclü reduksiyaya uğrayaraq [n̩] kimi tələffüz olunur. Eyni zamanda onun morfoloji funksiyasına xələl gəlmir.

Beləliklə, bizim yuxarıda verdiyimiz morfem siyahısında /ə, s, t, n/ ünsürlərini morfoloji sərhədin köməyilə danışıq aktından ayıra bilirik.[61] Başqa sözlə desək, /′hɛRʃt/ sözündə /t/ qoşulduğu kök morfemdən morfoloji sərhədin köməyilə ayrılır. Eləcə də Lühnings sözündə /-s/ mənsubiyyət mənası bildirir və qoşulduğu morfemdən morfoloji sərhədlə ayrılır. Bunlardan hər ikisinin fiziki substansiyası var: hər ikisi dilönü, kar; /t/ kipləşən partlayışlı, /s/ isə novludur. Digər tərəfdən hər ikisinin

qrammatik mənası var: /t/ üçüncü şəxsin təkini, ikinci şəxsin cəmini, /s/ mənsubiyyət, bəzən isə cəmlik bildirir. Sintaqmatik səviyyədə /t/ er, sie, es-lə uzlaşır, paradiqmatik baxımdan e, st, en, et ilə əvəz oluna bilir (məs.: er komm/t, sie komm/t, es komm/t, es hersch/t, ich komm/e, du komm/st, wir komm/en, ihr komm/t); /s/ sintaqmatik səviyyədə yiyəlik halıyla və ya cəmlə uzlaşır, paradiqmatik baxımdan isə von (mənsubiyyət) və e, (er), (en), (-) -lə əvəz oluna bilir. Məs.: Löhnigs Können, das Können von Löhnig və ya Löhnigs (Mitglieder der Familie Lühnig). Yuxarıda biz /n/-dan danışmışdıq. Bu da cəmin göstəricisi (Tafel-Tafeln), yönlük halda cəmdə (Tage-Tage/n) və s. işlənməsi və morfoloji sərhədlə ayrılması onu göstərir ki, bu morfemlər ayrılıqda müəyyən qrammatik məna ifadə etməklə danışıq aktından ayrılır. Eynilə /ə/ haqqında bunları demək olar: cəm şəkilçisi (Tage-Tag/e), prezensdə 1-ci şəxsin təki (ich komm/e), konyunktivdə 1-ci və 3-cü şəxsin təki, (ich, sie kdm/e), dativ halının şəkilçisi (Tag-Tag/e) və s.

Bu yolla biz digər samit və saitləri danışıq aktından ayırmağa çalışmalıyıq. /*du.‿*'ge:st/ söyləmində /st/ bir morfemdir. Amma /e.ʀ‿*ge:t// söyləmində /t//st/ bütövündən ayrılır və müstəqil morfem kimi çıxış edir. Həmin əməliyyatın köməyilə /ts/ birləşməsini də tərkib hissələrinə bölmək olar. Məs.: /'kʊʀt|s"*bu:x/ (wird mit Interesse gelesen). Bu seqmentləri ayırdığımız kimi biz bütün digər seqmentləri morfoloji instrumentlə danışıq aktından ayırmalıyıq.

Alman dilində knaklaut heç zaman bir yerdə işləndiyi saitdən ayrıla bilmir. Elə hal yoxdur ki, knaklaut morfoloji sərhədin o üzündə və ya bu üzündə qalsın. Məs., /'falzum/-/falz|a./ qarşılaşmasında [a.] cəmin göstəricisidir və sözdən morfoloji sərhədlə ayrılır. İndi />a.'gramatiʃ/ sözündə də [a.] morfoloji sərhədlə ayrılır. Birinci halda knaklaut yoxdur, ikinci halda isə var, amma o saitdən ayrılır. Beləliklə, /s/, /t/, /n/ və s. ünsürlərinin son parçalanma vahidləri olduğunu sübut etmək üçün onların sağ tərəfdən morfoloji yolla ayrıla bilməsini nəzərdən keçirmək lazımdır. Görəsən, seqment ardıcıllığı hər iki tərəfdən morfoloji sərhədlə ayrılırmı? Təhlil göstərir ki, «Auskunftsbüro» sözündə /s/ həm soldan, həm də sağdan morfoloji sərhədin köməyilə ayrılır. Özü də konkret morfoloji funksiya yerinə yetirir. O, mürəkkəb sözün tərəfləri arasında birləşdirici ünsür rolunu oynayır. Hətta ünsür olmayan söz tamam başqa məna kəsb edir (məs.: Wassersnot-su çatışmazlığı, Landsmann-yerli, Wassernot-daşqın, Land-

mann-kəndli). /'hɔfəntliç/ sözündə də /t/ hər iki tərəfdən morfem sərhədi ilə ayrılır. Hər iki halda bu seqmentlər birləşdirici rolunu oynayır. Bu cür üzvlənmə metodu göstərir ki, nə /s/, nə /t/, nə də digər bir seqment bir-birinin ardınja gələn daha xırda hissələrə bölünə bilmir. Akustik və artikulator baxımdan bu, mümkündür. Məs., /t/ samitinin tələffüzündə səs telləri titrəmir, dilönü üst dişlərin yuvaqlarına sıxılaraq kipləşmə yaradır, kipləşən üzvlərdə hava axınının təzyiqi ilə partlayış olur ki, bu da səsin eşidilməsini təmin edir. Bunlara kipləşən - partlayış əlamətləri deyilir. Əlamətlər eyni zamanda olduğundan tələffüzdə bir məxrəjdə cəmləşir. Fonemi əmələ gətirən əlamətlər iki cür olur: fərqləndirici (distinktiv, differensial, relevant və ya siqnfikant) və qeyri-fərqləndirici (qeyri-distinktiv, inteqral, qeyri-relevant). Məs.: Tat (əməl) /tʰa:tʰ/ (nəfəslilik), tut (etmək, 3-cü şəxsin təki) /t°utʰ/ (dodaqlanma), /ʃta:t/#/ʃtat/ (uzun/qısa), packen /pakən/-backen /bakən/ (kar/ cingiltili). Bu axırıncı iki söz yalnız bir fərqləndirici əlamətlə fərqlənir: kar (güclü) / cingiltili (zəif). Əslində bu, əlamətlə fonemi eyniləşdirmək cəhdidir. Sözün tanınması və dərk olunmasını L.R.Zinder söz cildi nəzəriyyəsi ilə izah edir. Yəni hər halda differensial əlamətlə yanaşı inteqral əlamət də fonemin konstitutiv ünsürü kimi çıxış edir. Məs: /'t°y:ʀ/ sözündə dodaqlanma /t/ samiti üçün inteqral əlamətdir, yəni alman dilinin fonemlər sistemində dodaqlanan [t°] dodaqlanmayanla oppozisiya yaratmır. Ancaq /'t°y:ʀ/ sözündə bu əlaməti kənar etsək, həmin söz tanınmayacaq, ya da ki, çox çətinliklə tanınacaq[62].

Səsin gücü onun partlayış dərəcəsindən, bu da havanın təzyiqindən və bir də tələffüzə sərf olunan vaxtdan asılıdır. Amma praktikada bunların hamısı simultan hərəkət təsiri bağışlayır. Başqa sözlə desək, güc də, ton da, küy də, zaman da bir-birinin ardınca deyil, bir məxrəjdə cəmlənir. Morfoloji sərhədlə danışıq zəncirindən ayrılan bu seqmentlər həm də müəyyən morfoloji funksiya yerinə yetirirlər. Eynilə ingilis dilində /kæt|s/, /bæg|z/ sözlərində və ya /he‿ask|s/ cümləsində /s/ və /z/ seqmentlərinin ayrılması mümkündür.[63]

German dillərində mövcud olan daxili fleksiya da hər hansı bir seqmentin danışıq axınından ayrılmasını göstərən linqvistik mexanizmdir.

Məs.:

Alman dilində

/a:→→ e:/=/'fa:təR/-/'fe.təR/
/⊃→→ œ/=/'t⊃xtəR/-/'tœctəR/
/ʊ→→ y/=/'mʊtəR/-/'mytəR/
/⊥ → a →→ʊ/=/f⊥ndən/-/'fant/-/gəfundən/
/a͜e →→i:→i:/=/'ʃRa͜ebən/-/'→Ri:p/-/gə'ʃRi:bən/
/ɛ→→ a→→ a/=/'*dɛŋkən/-/'*daxtə/-/*gə'daxt/ və s.

İngilis dilində

/u: → i://'fut/-/fi:t/
/a͜u→→ a͜i//maus/-/mais/
/u: →→i://tu:θ/-/ti: θ/
/i: →→o͜u/ /spi:k/-/spouk/
/ei→→ ʊ/ /teik/-/tʊk/

Daç dilində
/u: →→o//'sp u:n/-/'spon/

Burada misalların sayını artırmaq olar. Ancaq bu üzvlənməni tam aydın açmır, çünki sözün seqment düzümündə saitlə bərabər samit də dəyişikliyə uğrayır, hətta bəzən tamam başqa samitə keçir. Məs: /'t⊃xtəR /-də /⊃x/→/o͜ec/, /'*dɛŋkən /-də /ɛ →→a, ŋk →→x/ və s.

Qayıdaq üzvlənmədən əldə etdiyimiz ən kiçik seqmentlərə. Yuxarıda gördük ki, /s/, /n/, /t/ və s. seqmentlər hər iki tərəfdən morfoloji sərhədlə ayrılır və bu ayrılma müəyyən morfoloji funksiya ilə bağlıdır. Bu seqmentlərə biz artıq fonlar deyə bilərik. Yəni onlar müstəqil olaraq işlənir. İndi baxaq görək, onlar daha harada işlənə bilirlər. Bunun üçün mətnimizə nəzər salırıq və görürük ki, anlautda saitdən əvvəl /s/ heç vaxt işlənmir.[64]

Samitdən əvvəl isə /sl/, /skl/, /sts/ birləşmələrində gəlir. Məs.: /slaviʃ/, /skla:və/, /'st͜se:nə/ və s. Sözün ortasında bütün saitlərdən sonra gələ bilir. Samitlərlə işlənmə məhdudiyyəti yoxdur. Bu cür işlənmə hallarına məhdud distribusiya deyilir. /t/ və /n/ samitində isə belə məhdudiyyət yoxdur. İndi isə /t/ seqmentinin işləndiyi digər mövqeləri

də nəzərdən keçirək. Məs: /$t^0$y:R/, /$t^0$o:R/, /ta:k/, /ti:R/, /$t^0$u:x/, /$t^h$a:$t^h$/, /∗′vɛtəR/ və s. sözlərdə /t/ seqmentinin müxtəlif vəziyyətlərdə işlənməsinin şahidi oluruq. Sual olunur: onların bizim ayırdığımız /t/ ilə əlaqəsi nədir? Onlarla bu samiti yaxınlaşdıran və ya onlardan fərqləndirən bir şey varmı?[65]

Fonoloqların hamısına bəllidir ki, burada müəyyən kriteriya olmalıdır. D.Jounz akustik və artikulyator oxşarlıq prinsipini irəli sürürdü. Beləliklə, fonetik cəhətdən iki oxşar səs (fon) bir-birini istisna edən mövqelərdə işlənirsə (yəni əlavə distribusiya kriteriyasına əməl olunursa), onlar bir fonemin müxtəlif variantları (allofonları) kimi götürülür. Yalnız eyni mövqedə işlənən səslər müxtəlif fonem ola bilər.

Deməli, [$t^0$], [$t_{\rightarrow}$], [t′], [$t^h$] (dodaqlanan, yumşaq, dilin geri çəkilməsilə tələffüz edilməsi, yumşaq və nəfəsli tələffüz) fonetik cəhətdən bir-birindən fərqlənir, /$t^0$y:R/ sözündə dodaqlanmanı götürsək, onda bu söz /$t^0$y:R/ kimi dərk olunmaz. Doğrudan da, [$t^0$] samiti /$t^0$y:R/ sözünün əvvəlində dodaqlanmalıdır. Yoxsa bu sözün deyilişi həmin sözə oxşamaz. Bunu transpozisiya sahəsində aparılan tədqiqatlar da təsdiq edir. Çünki fonetik mövqelər başqa-başqadır. Vurğulu saitdən əvvəl və mütləq sonda alman dilinin kar kipləşən- partlayışlı samiti həmişə nəfəsli tələffüz olunur, ön sıra saiti özündən əvvəl gələn samiti yumşaldır, dodaq saitləri isə dodaqlandırır. Lakin ilk dəfə danışıq aktından ayırdığımız [t] fonunda yalnız nəfəslik vardı. O da mövqe ilə bağlı idi. Mövqeyi götürən kimi nəfəslik yox olur. Bax bu cür müstəqil, mövqe ilə bağlı olmayan, yalnız sistemdə başqalarına qarşı durması ilə fərqlənən, söz və söz formalarını fərqləndirməyə qabil olan ən kiçik dil vahidinə fonem deyilir.

Lakin bu tərifdən belə çıxmamalıdır ki, «t» ayrı, [$t^0$], [$t_{\rightarrow}$], [t′], [$t^h$] ayrı və /t/ isə tamam ayrı şeylərdir. Elə məsələnin ən mürəkkəb yeri də burasındadır. Onlar əslində eyni şeylərdir. Sadəcə olaraq yanaşma bujağı müxtəlif olduğundan onları fərqləndirmək lazım gəlir.

## IV.7. Səs, variant və fonem münasibətləri

«t» danışdıqda, konkret situasiyada işlənən, özünün daimi akustik və artikulyator xüsusiyyətləri ilə seçilən bir səsdir (dilönü, kipləşən-partlayışlı, kar), ümumi şəkildə ona fon (yəni səs) deyilir.

[$t^0$], [$t_{\rightarrow}$], [t′], [$t^h$] və başqaları isə konkret situasiya ilə bağlı olsalar da, onlardan hər birinin işlənməsi müəyyən fonetik amildən ası-

lıdır, yəni $[t^0]$ dodaq saitlərindən, $[t']$ ön sıra, $[t_{\rightarrow}]$ arxa sıra, $[t^h]$ vurğulu saitdən əvvəl və auslautda işlənir. Mövqe aradan qaldırılan kimi, bu əlamətlər yox olur. Başqa sözlə desək, alman orfofonik qaydasına, yəni tələffüz normasına görə, $[t^hat^h]$ sözündə samit hər iki halda nəfəsli tələffüz olunur. $[t^hatən]$ sözündə isə sondakı [t]-nın mövqeyi dəyişir və ona görə də nəfəslilik yox olur. Və nəhayət, /t/ yalnız sistem vahidi kimi /d/, /s/, /z/ və digər samit fonemlərə qarşı qoyulur. Əyani olaraq bunu belə göstərmək olar:




Səs və ya fon. Yüzlərlə və minlərlədir.

Variant və ya allofon. Çox məhduddur, işlənməsi mövqe ilə bağlıdır.

Fonem. Bircədir, başqa fonemlərə qarşı durur.

Demək, fonemin varlığı onun potensiyada məna ilə bağlılığı ilə müəyyənləşir. Dil sistemində bircə yerdə məna ilə bağlılıq, morfoloji funksiya yerinə yetirməsi fonemə avtonomluq qazandırır və bu avtonomluğu sayəsində məna ilə bağlılığı olmadıqda belə, fonem öz müstəqilliyini qoruyub saxlayır ki, buna morfoloji prinsip deyilir.[66] Bu o deməkdir ki, alman dilində /tu:|t/ sözündə sondakı $/t^h/$ morfoloji funksiya yerinə yetirdiyi halda, əvvəlki $[t^0]$-nın heç bir semantik mənası yoxdur. Lakin əvvəldəki $[t^0]$ alman dili sistemində mövcud /t/ foneminin bu sözdəki birbaşa nümayəndəsidir, ona görə də o, sözü tanıma, fərqləndirmə funksiyası yerinə yetirir, yəni fonematikliyini qoruyub saxlayır. Elə bu səbəbdəndir ki, bir tərəfdən $/hu:t^0/$, o biri tərəfdən /tu:x/, /tu:n/, /hu:n/ və s. sözləri ilə qarışıq düşməyə imkan vermir. Müxtəlif variantlar bir morfem daxilində əvəz oluna bilirlər.

Məs., ingilis dilində /fi:l/-/fi:liŋ/ sözlərində [l'] və [l] eyni morfem daxilində əvəzlənə bilir, ona görə də onlar bir fonemin müxtəlif variantları sayılır. Çünki ingilis fonemlər sistemində rus dilindən fərqli olaraq (müq. et: угол-уголь/l/-/l'/ və s.) sərt və yumşaq samitlərin qarşılaşması relevant deyil. Amma alman dilində /'*bʊnt/-/'*bʊndə/ sözlərində /t/ və /d/ bir morfem daxilində söz sonunda əvəzlənsələr də, onlar müxtəlif fonemlərə aiddir. Çünki alman dilinin fonemlər sistemində /t/ və /d/ müxtəlif fonemlərdir, odur ki, onların morfem daxilində eyni fonemin variantları kimi götürülməsi sistem münasibətlərinə xələl gətirir. Belədə fonemin başqa fonemlərə qarşı, norma səviyyəsində, paradiqmatikada isə öz variantlarının həmin digər fonemlərin variantlarına qarşı durması ilə səciyyələnir. Bunlar da müvafiq olaraq danışıq səviyyəsində fonlar vasitəsi ilə qarşılaşmanı qoruyub saxlayır. Əyani olaraq bunu belə göstərmək olar:

| Danışıq (parole) | | Norma | | Sistem |
|---|---|---|---|---|
| „t“, „t“, „t“, „t“ | ⟶ | [t→ ], [t'], [t°] və s. | ⇄ | /t/ |
| „p“, „p“, „p“, „p“ | ⟵ | [p→], [p'], [p$^h$] və s. | ⇄ | /p/ |
| „d“, „d“, „d“, „d“ | | [d→], [d'], [d°] və s. | ⇄ | /d/ |

Burada qarşılıqlı münasibət belədir ki, bir allofon yerində başqası gələ bilmədiyi kimi, bir fonemin variantı əvəzinə başqa fonemin variantı da gələ bilməz.

Məs.:

/'t°o:t$^h$/, /d°o:d$^h$/*

/ḍ°⊃lç/, /t⊃lç/*

Əgər bu, mümkündürsə, deməli, onlar variant yox, başqa-başqa fonemlərdir, çünki müxtəlif sözlər meydana gəlir.

Məs:

/'p⊃st/-/'t⊃st/-/'R⊃st/ və s.

Fonla allofon və onların hər ikisilə fonem arasındakı əlaqə birbaşadır. Hər fon müəyyən bir fonemin danışıqda təcəssümüdür, eyni zamanda onların hər ikisi müəyyən bir fonemin konkret bir şəraitdə və vəziyyətdə bu və ya digər danışıq aktında konkret manifestasiyasıdır, yəni variantıdır.

| | | | | |
|---|---|---|---|---|
| /t/ | «t» | fon | «t»* | /t/* |
| ↓ ↓↑ ↑ | ↑ ↓ | | ↓ | ↑ |
| [t] | [t] | allofon | [t] | [t] |
| ↓ ↓↑ ↑ | ↓ ↑ | | ↓ | ↑ |
| [t] | \|t\| | fonem | /t/ | «t» |

Bəzən danışıq aktından bütün fonları morfoloji sərhədlə ayırmaq mümkün olmur. Belə hallarda qalıq prinsipi üzrə üzvlənmə metodundan istifadə edilir. Biz yuxarıda gördük ki, /st/ morfoloji sərhədin köməyi ilə danışıq aktından ayrılır (müq. et: /*du.‿'"**ge:|st// və s.).

Eyni zamanda həmin bu /st/ seqment ardıcıllığı da morfoloji sərhədlə bir-birindən ayrıla bilir (məs: /˃e.R‿ '"**ge:t//, /˃aRba‿ets|ta:k// və s.). /**du.‿b⊥st//, /**zi.‿ ˃⊥st// formalarında isə /st/ bir-birindən ayrılmaz seqment ardıcıllığı təsiri bağışlayır. Hər halda müasir alman dili baxımından bu formalarda /st/ ardıcıllığını ayırmaq çətindir. Amma biz yuxarıda göstərdik ki, /st/ bütün fellərin indiki zamanda ikinci şəxs təkində şəxs sonluğu və xəbər şəklidir. Digər tərəfdən, eyni funksiyanı üçüncü şəxsdə /t/ yerinə yetirir. Deməli, burada onların ayrılması sırf linqvistik təcrübə baxımından mümkündür. Bir dəfə danışıq aktından ayrılması mümkün olan seqment fonematiklik qazanaraq bütün digər hallarda ayrılması mümkün olmasa belə, öz avtonomluğunu qoruyub saxlayır. Hətta /st/ seqment ardıcıllığı üzvlənmə nəticəsində danışıq aktından ayrılıbsa, deməli, /˃⊥st / parçasında da /⊥/ saitindən ayrılır. Məhz qalıq prinsipi üzrə üzvlənmə metodu ilə /⊥/ saitinin sağdan ayrılması mümkün hesab edilir. Əslində bu qalıq prinsipi morfoloji sərhədin keçməsi ilə mümkün olmayan bütün hallara şamil edilə bilər. Lakin bu eliminasiya üsulundan

köklü şəkildə fərqlənir. Eliminasiya üsulunda hər hansı bir seqmenti müstəqil dil vahidi-fonem hesab etmək olar.

Məs.: alm.d.: /'**gRʊnt/-/'Rʊnt/-/'ʊnt/ və s.

ing.d.: /'lʌnd/- /ænd/ və s.

Azərb.d.: /gaz/-/az/ və s.

German dillərində Azərbaycan dilində olduğu kimi afrikatlar mövcuddur.

Müq.et:

| ing.d. | alman d. | Azərb.d. |
|---|---|---|
| /tʃ/, /d3/ | /tʃ/, /t‿s/, /p‿f/ | /ʤ/, /tʃ/ |

Bu afrikatları heç bir dildə morfoloji sərhədlə tərkib hissələrinə bölmək mümkün deyil. Alman dilində /'ap‿fəl / sözündə /p‿f/ bölünməzdir, ona görə də /p‿f/ afrikatdır, ancaq /'ap,fal/ sözündə isə /p+f/ fonem ardıcıllığı göz qabağındadır, odur ki, /p+f/ fonem birləşməsi kimi götürülməlidir. Eynilə /'kʊrt‿s/ və /'d⊃‿øtʃ,lant/ sözlərində /t‿s/ və /tʃ/ afrikatları, /'lantʃaft/ və /'kʊrt|s/ sözlərində isə /t+s/ fonem ardıcıllığı realizə olunub. Çünki birinci halda sərhəd mümkün deyil, ikinci halda fonemlər morfoloji sərhədlə bir-birindən ayrılır.

Diftonqlar da eyni ilə afrikatlar kimidir. Alman dilindəki /ae/, /⊃ø/, /ao/, ingilis dilindəki /eı, aı, eı, əʊ, aʊ, ıə, eə, ʊə/, daç dilində isə /ɛi/, /oey/, / Λi / diftonqları var. Bu dillərin heç birində diftonqları morfoloji sərhədlə tərkib hissələrinə ayırmaq olmaz. Polyak germanisti N.Morçinyes[67] mexaniki qarşılaşma metodu ilə /ha‿os/, /ha‿es/, /'a‿os/, /'a‿es/ sözlərində diftonqları əmələ gətirən komponentlərin ayrılmasını mümkün sayır. Amma o unudur ki, /ha‿os/ sözündəki diftonqda [a]-ya bənzər komponent heç də [a] deyildir. Elə olsaydı, cəmdə bu söz /'h⊃øzəʀ/ kimi yox, /'hɛ‿ʊzəʀ/ kimi olardı, yəni özünü [a] kimi aparardı. Məs.: /man- /'mɛnəʀ/, ancaq /'ha‿os/, /'h⊃‿øzər/. Göründüyü kimi, /a‿o/ özünü bütöv kimi aparır. Azərbaycan dilində əsl diftonq yoxdur. Fərdlərin və dialektlərin dilində diftonqlara rast gəlmək olur. Məs.:/t ŏ x/, /s ŏ x/, /dŏşan/,/dŏɤa/ və s.

## IV. 8. Fonemlərin identifikasiyası

Morfoloji sərhədin və qalıq prinsipinin köməyilə verdiyimiz misallarda aşağıdakı seqmentləri ayıra bilərik.

1. Saitlər: /i, y:, ə, ε, i:, a:, a͜e, ʊ, ⊃͜ø, o:, e:, a͜o, u, ø:, ⊃, o͜e, y/
2. Samitlər: /m, z, d, n, h, ʀ, ʃ, t, g, f, ç, b, s, p, k, l, x, t͜s, j, ŋ, t͜ʃ, p͜f/

Mətnimizin seqment düzümündəki ardıcıllığı belə sıralamaq olar. Təkrarları nəzərə alsaq onda düzülüşü çoxdan aza doğru getməklə belə vermək olar:

1. Saitlər: /ə$^{17}$, i$^{6}$, e:$^{3}$, a͜e$^{3}$, ʊ$^{3}$, a͜o$^{3}$, i:$^{2}$, a:$^{2}$, u:$^{2}$, ⊃͜ø$^{2}$, a$^{2}$, ⊃$^{2}$, o:$^{1}$, ø:$^{1}$, o͜e$^{1}$, y:$^{1}$, y$^{1}$/
2. Samitlər: /n$^{17}$, R$^{11}$, t$^{9}$, f$^{5}$, ç$^{5}$, l$^{3}$, d$^{3}$, g$^{3}$, t͜s$^{3}$, b$^{3}$, s$^{3}$, m$^{3}$, p$^{2}$, h$^{2}$, z$^{2}$, k$^{2}$, x$^{1}$, j$^{1}$, ŋ$^{1}$, t͜ʃ$^{1}$, p͜f$^{1}$, v$^{1}$/

Göründüyü kimi, balaca bir mətndə seqmentlərin işlənməsi tezliyi[68] tamam müxtəlifdir. İndi vəzifə fonem inventarını və yalnız bundan sonra fonem sistemini müəyyənləşdirməkdən ibarətdir. Saitlərdə ən tez işlənən [ə] olsa da, onun fonem statusu çox mürəkkəb və dolaşıqdır. Polifunksional seqment kimi cəm şəkilçisi /Tag-Tage/, indiki zamanda 1-ci şəxsin təki /ˀ⊥ç͜'k⊃mə̲/, konyuktivdə qüvvətli fellərin 1-ci və 3-cü şəxs sonluğu /ich käme̲, er, sie, es kdme̲/, sözdüzəldici şəkilçi /schön-das Schöne/ olmasına baxmayaraq, onun söz əvvəlində, vurğulu hecada gələ bilməməsi ucbatından fonematik statusu qaranlıqdır. Hər halda biz [ə] və [ε]-yə eyni fonemin müxtəlif variantları kimi baxırıq, hərçənd ki, [ε] açıq hecada heç vaxt işlənə bilmir.

Əgər saitlər üçün bütün mövqeləri və kombinasiyaları nəzərə alsaq, onda hər bir saitin və samitin variantları xeyli artacaq. Alman dilində /e:/-nin söz və morfemin müxtəlif mövqelərində işlənməsinə nəzər salaq:

/ˀe:/ söz və morfemin əvvəlində vurğulu hecada: /'ˀe:zəl/.

/˺e./ söz və morfemin əvvəlində vurğusuz hecada: /˺e.ʀ/.
/e:/ söz və morfemin ortasında vurğulu hecada: /'le: ʀ ən/.
/e./ söz və morfemin ortasında vurğusuz hecada: /le.'bɛndiç/.
['e:] söz və morfem sonunda vurğulu hecada: /˺a ʀ 'me:/.
[ə#] söz və morfem sonunda vurğusuz hecada: ['⁎⁎bø:zə],
[⁎⁎bə'kɔmən], gelesen [⁎⁎gə'le:zən].

Müxtəlif kombinasiyalarda işlənməsi

Alman dilində /e:/ fonemi aşağıdakı mövqedə işlənir:
[˺e:] anlautda açıq, vurğulu hecada: [˺e:ʀə].
[˺e:] inlautda açıq, vurğulu hecada: ['de:nə].
[e⁰:] dodaqlanan, vurğulu hecada: [be:bən].
[' e˗˺:] arxaya çəkilən variantda: ['ke˗˺:lə].
[ ẽ:] burun saitləri arasında ['m ẽ:nə] və s.

İngilis dilində /t/ foneminin işlənməsi:
[tʰ ⁰] anlautda vurğulu saitdən əvvəl: /tʰɔ:k/- «söhbət».
[t⁰] anlautda, dodaq satindən əvvəl: /t⁰u:tu/ -„paçka».
[t'] inlautda, ön sıra saitdən əvvəl: /a:nt'i/ -„ xala».
[tʰ] auslautda vurğulu saitdən sonra:/mi:tʰ/- „qarşılamaq“.
[ţ] vurğulu arxa sıra saitindən əvvəl: /ţʌsk/ - „ diş“ və s.

İstər alman saitinin, istərsə də ingilis samitinin yuxarıda verdiyimiz misallarda bir-birindən akustik və artikulator baxımdan fərqlənən çalarlıqlarla çıxış etməsi heç bir şübhə yeri qoymur. Lakin buna baxmayaraq klassik fonologiyada bu müxtəlif sait və samit çalarlarını müvafiq olaraq /e:/ və /t/ fonemlərində birləşdirirlər. Bu zaman əsas kimi aşağıdakı kriteriyalar götürülür.

1. kvaziomonimlər vasitəsilə /e:/ saitinin və ya /t/ samitinin fonemliyi müəyyənləşdirilir.

2. müxtəlif variantlar arasında fonetik (akustik və artikulyator) yaxınlıq var (phonetic similarity).

Eyni metodla başqa dilin sait və samit çalarlarını müəyyənləşdirmək olar. Məs.: ingilis dilində /t/ samiti dilucu olsa da, onun dilin geri çəkilməsilə (məs.: talk [ţɔ:k]-"söhbət, müsahibə", tusk [ţʌsk]- «köpək diş»), dilin tam irəli çəkilməsilə (məs.: twit [t⁰wit]- "gərəksiz yerə», /t⁰u:t⁰u/ -„paçka»), nəfəsli tələffüzü (məs.: [kæt$^h$] – "pişik» və s.) həm mövqe, həm də kombinasiya ilə bağlı variantlarıdır. Bu fonemin çalarları (variantları), allofonemləri arasındakı oxşarlıq daha çoxdur, bunlar başqa fonemlərin variantlarına oxşamır, nə də onlarla əlaqədar deyillər, yəni /˃ĕ:/ nə qədər qapalı olsa da, bu mövqedə /˃i:/ foneminin variantına çata bilməz.

3. Bu variantlar bir fonemə / invarianta əlavə distribusiya prinsipinə görə, yəni bir-birini istisna edən mövqelərdə gəldiklərinə görə, aid edilir. Ancaq /'ly:gən/-/'la:gən/ və /'li:gən/ sözlərindəki /y:/, /a:/ və /i:/ saitləri fonetik cəhətdən bir-birini istisna edən mövqelərdə gəliblər.

Düzdür, bizə etiraz edib deyə bilərlər ki, saitlərin üçünün də eyni fonem əhatəsində gəldiyi halda bu necə ola bilər? Bəli, doğru sualdır, fonem əhatəsi fonetik müxtəlifliyi istisna etmir. /li:gən/-də [l] çox yumşaq, /ly:gən/-də dodaqlanan [l⁰], /la:gən/-də isə dilin geriyə çəkilməsi ilə bir balaja velar tələffüz olunur. Deməli, fonetik əhatə eyni deyildir. Biz 1980-ci ildən bəri fonetik və fonoloji (fonemik) mövqeləri fərqləndirməyi təklif edirik. Fonoloji cəhətdən eyni mövqe dedikdə biz eyni fonem əhatəsində gəlməni başa düşürük. Eyni fonem əhatəsi dil vahidləri üçün fonetik cəhətdən heç də eyni mövqe demək deyildir. Koartikulyasiya və superseqment vahidlərin (prosodiya, ton, intonasiya) təsiri nəticəsində yaranan əhatə və mövqeyi fonetik mövqe adlandırırıq.[69]

Buna rəğmən, biz fonemliyi müəyyənləşdirmək üçün aşağıdakı qaydaları təklif edirik:

1. Fonetik müxtəlifliyə baxmayaraq eyni fonem əhatəsində gələn səslər müxtəlif fonemlərə aid edilməlidir. Fonetik müxtəliflik həmin fonemlərin öz keyfiyyətindən irəli gəlir. Digər tərəfdən sözlərin fərqləndirilməsi göz qabağındadır. Məs.:

ing.d. : p⊥n – pen – pan
heed – hood – head və s.
alm.d.: Land - Hand - Wand - Sand - Rand
liegen – lügen - lagen – legen – logen

Burada fonem əhatəsi eynidir, bu əhatənin hər birində gələn bu və ya digər seqment fonetik vəziyyəti dəyişir, çünki başqa fonemlərlə kombinasiyaya girən hər bir səs koartikulasiya qanununa görə nəinki özü keyfiyyətcə dəyişir, həm də fonetik mövqeyə öz çalarlığını gətirir.

2. Eyni fonoloji və fonetik mövqedə, lakin müxtəlif danışıq üslubunda, kontekstində və situasiyasında (diatopik, diastratik və diafonik səviyyələr nəzərə alınmaqla) işlənən səslərə situativ, fərdi,kontekstual və ya fakültativ variantlar kimi baxmaq olar.

1-ci danışıq situasiyası:/Bücher//, ¿welche meinst duω

2-ci danışıq situasiyası:/Bücher, ¿kennst du auch was anderesω

Bir funksional sistem daxilində fakültativ variantın işlənməsi mümkün deyil. Adətən fakültativ variantlardan danışanda almanlardakı [ʀ] və [r] realizasiyasını misal gətirirlər. Ancaq unutmaq olmaz ki, eyni fərd həm [ʀ] tələffüz etsin, həm dnə [r]. Ədəbi dil norması üçün səciyyəvi /ʀ/-dır. Yaşlı nəsildə və səhnə dilində [r]-ya tez-tez rast gəlmək olur. Amma bir idiolekt həm [ʀ], həm də [r] tələffüz edirsə, sadəjə olaraq həmin idiolekt danışıq üslubunu dəyişir. Təsəvvür etmək mümkün deyil ki, eyni vurtemberqlilər həm /'*günStiç/, həm də /'*günstiç/ tələffüz etsinlər. Seçim yalnız birinciyə düşür. İkinci realizə olunduğu halda, deməli, vurtemberqli ədəbi dildə danışmağa çalışır.

3. Eyni fonem əhatəsində, lakin müxtəlif fonetik şəraitdə realizə olunan iki akustik-artikulator baxımdan oxşar səs eyni fonemin variantları kimi götürülə bilər. Bu, əsasən, bir morfem daxilində baş verən variant əvəzlənmələrinə aiddir. Məs.:

/'le:bən/-/le.'bɛndiç/

Burada [e:] və [e.] /e:/ foneminin, [ə] və [ɛ] isə /ɛ/ foneminin variantlarıdır.[70]

Misalların sayını artırmaq olar:

/'*by:çəʀ/-/'*by:çəʀa͜e /
/'*dɔkto.ʀ/-/*dɔk'to.ʀən/
/mu.'zi:k/-/mu.zi.'t͜si:ʀən/
/me.lo.'di:/-/me.lo:diʃ/ və s.

4. Akustik-artikulyator baxımdan iki oxşar səs müxtəlif fonem əhatəsində gəlməklə, həm də müxtəlif fonetik vəziyyətdə işlənirsə, onlara eyni fonemin müxtəlif variantları kimi yanaşmaq olar. Məs:

/'*vi:gən/-/'*zi:gən/; /'*zy:dən/-/ˀy:bən/
/'tɔl/-/'fɔl/-/'*za:l/; /'*bo:dən/-/'*bo:rən/ və s.

## IV. 9. German dillərinin fonem inventarı

Hər bir dildə fonem inventarını müəyyənləşdirmək ən mürəkkəb məsələlərdən biridir. Dilçilər arasında fikir ayrılığına səbəb aşağıdakılardır:

1. Dilin fonem tərkibinin müəyyənləşdirilməsində hansı dil materialı təhlilə cəlb edilməlidir? Bəziləri güman edirlər ki, fonem inventarının müəyyənləşdirilməsində alınma sözləri təhlilə cəlb etmək düzgün deyil. Yəni hər bir dilin öz sözlərindən çıxış etmək lazımdır. Elə buna görə də, fonem tərkibi say etibarı ilə müxtəlif fonoloqlarda müxtəlif cür olur.

Alman dilində N.S.Trubeskoydan başlayaraq bəzi Qərb dilçiləri /ç/ və /x/ fonem qarşılaşmasını qəbul etmirlər.[71] Çünki onların fikrinjə /ç/ dilarxası saitdən əvvəl işlənmir. Amma /ço.'re:us/, /'çarkof/, /kɔl'ços/, /sov'ços/ misalları alınma sözlər olduğundan nəzərə alınmır. Halbuki bu sözləri ruslar tamam başqa cür işlədirlər.

2. Distribusiyanı əsas götürərək, bəzi fonoloqlar bu və ya digər səsi fonem hesab etməyərək, onu daha çox işlənən fonemin variantı sayırlar. Məs., rus dilində /ı/ ayrıja fonem kimi götürülmür, çünki söz başında və yumşaq saitlərlə qonşuluqda gələ bilmir.[72] Onda gərək alman dilində söz əvvəlində /ŋ/, söz əvvəlində

saitdən qabaq /s/, söz sonunda uzun saitlərin işlənmədiyini əsas götürən onların fonematikliyi şübhə altına alınsın.

3. Məna fərqləndirməni aydın və asan yolla göstərməyə xidmət edən kvaziomonimlər tapılmadıqda səsin fonemliyini sübut etmək, demək olar ki, qeyri-mümkün olur.

4. Bəzən analiz müxtəlif diastratik, diatopik və diafatik səviyyələrdə aparılır. Dilin işlənməsində sosial, dialekt və üslubi çərçivələrdən kənara çıxmalar müşahidə olunur. Əlbət ki, Amerika və Britaniya ingiliscəsi arasında fərqlər, dildə danışanların bu və ya digər ixtisas, peşə, mədəni səviyyəsi və müxtəlif üslubi məqamlar nəzərə alınmalıdır.

Beləliklə, üç german dilinin Azərbaycan dililə birlikdə ədəbi dil səviyyəsində fonem tərkibini aşağıdakı kimi əks etdirmək olar:

Saitlər:

Monoftonqlar:

| Alman d. | İngilis d. | Daç d. | Azərb.d. |
|---|---|---|---|
| /i:/, /i/ | /i:/, /i/ | /I/, /i/, /i:/ | /i/ |
| /y:/, /y/ | /ɛ/ | /y/, /y./, /y:/ | /ü/, /ı/ |
| /e:/, /ɛ/ | /ɑ/, /a/, /ɒ/ | /ɛ/, /e:/, /ɛ/ | /e/ |
| /'ø:/, /æ/ | /u/, /ʊ/ | /ə/, /ø:/, /æ/ | /ø/ |
| /u:/, /ʊ/ | /⊃/ | /a/, /a:/, /-/ | /æ/ |
| /o:/, /⊃/ | /ʌ/ | /⊃/, /o/, /⊃:/ | /u/ |
| /a:/, /a/ | | /-/, /u/, /u:/ | /o/, /a/ |

İngilis dilində bunlardan başqa sait + r birləşməsində z (first), iə (hear), ɛə (fair), α (hard), ⊃: (forty), və (poor) və vurğusuz hecalarda ə (father) və ı (pitied) saitlərini də fərqləndirirlər.

Diftonqlar:

| | | | |
|---|---|---|---|
| /a‿o/,/a‿e/, /⊃‿ø/ | ei, ai, ⊃i, зʊ, aʊ | ɛi, ay, ʌu | ——— |

Samitlər:

**alman d.**
/p/, /b/, /t/
/d/, /k/, /g/,
/f/, /v/, /s/,
/l/, /x/, /h/, /j/,
/ç/, /p͜f/, /ʃ/,
/t͜s/, /t͜ʃ/, /m/,
/n/, /l/, /ŋ/, /R/

**ingilis d.**
/p/, /b/, /t/,
/d/, k/, /g/,
/f/, /v/, /s/,
/z/, /ʃ/, /ʒ/, /r/,
/θ/, /t͜/, /d͜ʒ/,
/j/, /w/, /m/,
/n/, /l/, /r/, /ŋ/, /h/ [73]

**daç d.**
/p/, /b/, /f/,
/v/, /ν/, /m/,
/k/, /t/, /d.(c)/, /n/
/z/, (ʒ), (ʃ) /z/
/n/, /l/, ([3]), /r/,
/j/, /k./, /ŋ/, /.x/, /ћ/, /ʔ/ (qlottis), /ɲ/

Azərb.d.
/b/, /p/, /v/, /f/, /m/
/d/, /t/, //z/, /s/, /ʒ/, /ʃ/,
/ts/, /tʃ/, ʹʒ/, /l/, /n/, /r/
/j/, /Ђ/,
/g/, (k), /ɤ/, /x/
/h/

Deməli, alman dilində 40 fonem var. Ondan 17-si sait (14-ü monoftonq, 3-ü diftonq), 23-ü samitdir (20-si sadə, 3-ü afrikat). İngilis dilində D.Jounsun tələbəsi A.S.Cimsona görə 20 sait (12 monoftonq, 8 diftonq) və 24 samit (22 sadə, 2 afrikat), daç dilində isə K.Qussenhovenə görə 19 monoftonq və 23 samit (onlardan [j, ɲ, ʃ]) müvafiq olaraq /t, n, s/ fonemlərinin variantıdır. [74]

Azərbaycan dilində isə 9 sait və 23 samit vardır.

Nəzərdən keçirdiymiz german dillərinin hamısında ən çox işlənmə tezliyi olan [ə] fonoloji cəhətdən statusu qaranlıq qalan saitlərdəndir. Yəni indiyə qədər irəli sürülən fonoloji kriteriyaların heç birisi birmənalı şəkildə [ə] saitinin fonematikliyini qəti müəyyənləşdirməyə qadir deyil. İngilis dilində onu fonem tərkibinə daxil edirlər. Daç dilində o zəif sait kimi saitlərin sırasına daxil edilir. Alman dilində [ə] saitini əksər hallarda mötərizə arasında göstərirlər. Son dövrlərdə bəzi alman alimləri [ə] saitini ayrıca fonem kimi götürməyə cəhd göstərirlər. Bunun üçün Kanne-kann, Ware-war, Juli-Jule, Budi-Bude, Weida-Weide və s. misallarını göstərirlər.[75]

Ancaq son illərin tədqiqatları göstərir ki, vurğusuz hecalarda bütün saitlərin realizasiyası [ə] istiqamətində gedir, yəni, əslində bu gün [ɛ]-nin [ə] ilə əvəz olunması adi hala çevrilib.[76]

Fonem tərkibini müəyyənləşdirəndə /R/ haqqında ayrıja danışmaq lazımdır. Alman dilində dilönü titrək [r] variantı öz yerini tamamilə dilçək titrək samitinə verib. İngilis dilində kakuminal /r/ üstünlük təşkil edir. Daç dilində isə dilönü zəif /r/ samiti fonem tərkibinə daxildir.

Ancaq bu dillərin hər birində vurğusuz hecalarda, xüsusilə söz sonunda /ə+R/ çox ciddi problem yaradır. Alman dilində hətta bir hecalı sözlərdə istənilən saitdən sonra gələn /R/ samiti özündən əvvəl gələn saitə qovuşur və danışıqda onları bir-birindən ayırmaq müşkül işdir. Məs.:

Der /*de.ʁ/; zwar /t͜sva: ʁ/; Uhr /ˀu: ʁ/; über /ˀy.bʁ/
sehr /*ze: ʁ/; Nachbar /'na:xba. ʁ/; Ohr /o: ʁ/, Lehrer /le:rʁ/ və s.

Ümumiyyətlə alman dilində /R/ samiti yerindən asılı olaraq müxtəlif variantlarda çıxış edə bilir. Məs.:

/R/
- [R] -Radio-/"Ra:di.o:/; Rest- /'Rεst/
- [ʁ] - Wehrmacht- /′ẏe: ʁ ṃaxt/; Doktorarbeit- /′*d⊃kto· ›aRba̯et/
- [ʁ]- Nord-/'n⊃ʁt/; Ort- /'⊃ʁt/
- [ʌ]- über-/y.bʌ /; lieber- /'li.bʌ /[77]

İngilis dilində də, xüsusilə amerikan variantında, saitdən sonra gələn [r] saitə qarışır, ona görə də transkripsiyada onu aşağıdakı kimi verirlər.[78]

| Amerikan variantı | Norma (RP) |
|---|---|
| Pearl /pƛl/ (mirvari) | /p3:l/ |
| Hear /hiƛ/ (eşitmək) | /hiə/(P) |
| Fair /fzƛ/ (təmiz) | /fεə/ |
| Hard /haƛd/ (bərk) | /ha:d/ |
| Fourty /fɔƛti/ (qırx) | /fɔ:rt/ti/ |

Aydındır ki, bu və ya digər dilin fonem tərkibinin müəyyənləşdirilməsilə bağlı mübahisələr kəsilmək bilmir. Məsələn, Azərbaycan dilində uzun saitlər məsələsi hələ də mübahisəlidir. [k'] və [k] samitlərini də çoxları ayrıca fonem kimi götürür. Digər tərəfdən, diftonqlar məsələsi də mübahisə obyektinə çevrilir. Qeminat samitlər məsələsi tam tədqiq olunmamışdır.[79] Lakin bunlar hər bir dilin öz problemidir. Biz isə sadəcə olaraq «German dilçiliyinə giriş» fənninin məqsəd və məramını əsas götürərək, dilin fonem tərkibini müəyyənləşdirməyə cəhd göstərdik.

## IV. 10. Fonem sistemi fonemlərin qarşılıqlı münasibətləridir

İndi biz hər bir dilin fonem sistemini müəyyənləşdirə bilərik. F.de Sössür langue - ni səciyyələndirərkən yazır: «... biz lap başlanğıjdan dilin (langue ) üzərinə gəlməliyik və onu insanın dil fəaliyyətinin (langage) bütün başqa ifadələrinin norması kimi götürməliyik.»[80] E.Koseriu isə ümumi dil, hər hansı bir dil, danışıq aspektlərini fərqləndirir. Konkret bir dili danışığın texnikası kimi qəbul edən bu alim hər bir fərdin idiomatik biliklərə (fərdi dilə) malik olmasını vacib sayır. Bu biliklərin realizasiyasında fərdin subyektivliyi oricinallığı və yaradıcılığı ilə yanaşı insanlar arasında dilin realizasiyasının variabilliyini də - normativ xüsusiyyətlərini də nəzərə almalıyıq. Hər bir danışığın (parole) özülündə (qrammatikaların və lüğətlərin) norma durur, bu da təbii olaraq dil sisteminə uyğun gələn texniki biliklərdir. "Dil sistemi normada reallaşmış olur, funksional olan hər şeyi obyektiv əhatə edir, məzmun və formaca fərqləndirən (distinktiv) oppozisiyaları, yəni bu mənada normadan da kiçik əlamətləri əhatə edir".[81] Digər tərəfdən, o, realizə olunan bütün hər şeyi - vahidləri, kombinasiyaları və normada hələ mövcud olmayan( deməli normada görünənlərdən daha çox şeyləri) oppozisiyaları əhatə edir.

"Sistem təkcə norma kimi realizə olunanlar deyil, o həm də realizə oluna bilənlərdir."[82]

Göründüyü kimi, sistem anlayışı E.Koseriuda daha genişdir. Buna rəğmən biz dilin fonoloji sistemini - fonemlərin qarşılıqlı münasibətlərinin və əlaqələrinin şəbəkəsini açıb göstərməyə çalışacağıq. Nəzərdən keçirdiyimiz dillərdə fonoloji vahidləri iki yarımsistemə ayırmaq olar: saitlər və samitlər.

Artıq deyildiyi kimi, dildəki bütün fonemlərin maddi varlığını müəyyən akustik təbiətə malik səslər təşkil edir. Bu, sistem münasibətlərini içdən duymaq üçün çox vacibdir, çünki onlar həmin münasibətlərin konkret daşıyıcılarıdır. L.R.Zinder yazır ki, akustik və artikulyator baxımdan fərqlənməyən fonlar (səslər) dil vahidlərini fərqləndirə bilməz, başqa sözlə, fonem kimi çı-

xış edə bilməzlər. Hər bir linqvistik fərq akustik-artikulyator fərqin olmasını tələb edir, amma bu o demək deyildir ki, bütün akustik-artikulyator fərqlər mütləq linqvistik fərqlə bağlıdır.[83]

Dilin fonoloji sistemində olan bütün fonemlər bu prinsipə tabedir. Məs.: götürək uzun/qısa əlamətini. Uzun sait nisbi mənada həmişə qısa saitdən uzundur, lakin bu o demək deyil ki, sistemdə qısa kimi təmsil olunan sait konkret danışıq aktında nə qədər uzadılsa da, uzun sait kimi dərk olunur. Məs. /*d⊃rt/, /ʾ⊃rt/ və s. sözlərdə sait nə qədər uzun tələffüz olunsa da, o heç zaman almanlar tərəfindən uzun sait kimi qəbul olunmayacaq, çünki eyni vəziyyətdə uzun sait də müvafiq olaraq uzanacaq. Məs., /ʾo:R/ və s. Hər üç dildə saitlər yarımsisteminin fərqləndirici əlamətləri aşağıdakılardır.

1. Hər üç german dilində saitlər uzun/qısa əlamətinə görə oppozisiya yaradır, bu o deməkdir ki, hər bir uzun saitin qısa qarşılığı var. Daç dilində isə uzun/qısa qarşılaşması olmadıqda fərqləndirici əlamət kimi qapalı/açıq əlaməti çıxış edir. Məs.: /e:/#/ε:/, /o:/#/oe:/, /o:/#/⊃:/

2. Saitlərin digər qarşılaşması çənənin aşağı düşmə dərəcəsi və dilin şaquli istiqamətdə hərəkətindən doğan açıq/qapalı əlamətinə görədir. Alman dilində bütün uzun saitlər (/a:/-dan başqa) qapalı, qısa saitlər isə açıqdır. İngilis dilində də təxminən buna bənzər mənzərə müşahidə olunur. Daç dilində bütün qeyri-gərgin saitlər /i, ü, ε, a, ⊃/ açıq, gərginlər isə qapalıdır: /i:, y:, e:, o:, a:, ø:, u:/.

Üçüncü qrupda isə reduksiyaya uğrayan saitlər təmsil olunub:/i:, y:, ε:, a:, ⊃:, u:/.

3. Saitlər dilin üfüqi istiqamətdə hərəkətinə görə aşağıdakı qarşılaşmaları yaradır: ön sıra, orta sıra və arxa sıra saitləri. /i:, i, y:, ü/ ön sıra, / e:, ε, o:, oe/ orta sıra, /a:, a, o:, ⊃, u:, ʊ/ arxa sıra saitləridir. Bunları ikili bölgü prinsipilə də vermək mümkündür:

ön sıra saitləri: /i:, i, y:, ü/ - qeyri-ön sıra saitləri: /e:, ε, oe, ø:, ⊃, a:, a, u:, ʊ/.

orta sıra saitləri: /e:, ε, o·, oe/ - qeyri-orta sıra saitləri: / i:, i, y:, ü, a·, a, o:, ⊃, u:, ʊ/.

arxa sıra saitləri: / a:, a, o:, ⊃, u:, υ/ - qeyri-arxa sıra saitləri: / i:, i, y:, ü, e:, ε, o:, oe/

4. Saitlərin digər fərqləndirici əlaməti onların dodaq/qeyri-dodaq əlamətinə görə qarşılaşma yaratmasıdır. Dodaqların iştirakı ilə yaranan saitlərə dodaq, dodaqların iştirakı olmadan əmələ gələn saitlərə isə qeyri-dodaq saitləri deyilir.

Sadaladığımız əlamətlər diftonqlarda əhəmiyyət kəsb etmir. Onlar monoftonqlara qarşı qoyulur, bir qayda olaraq birinci komponentlər vurğunu öz üzərinə çəkir və buna görə də ikinci komponentləri özlərinə tabe edir.

Biz burada saitləri fərqləndirici əlamətlərə görə geniş xarakterizə etmirik. Lakin son dövrlərdə apardığımız spektral təhlilə əsasən diffuz/kompakt, yüksək/alçaq və ya aydın/qeyri-aydın əlamətlərini xüsusi qeyd etmək istərdik.

Dilin yuxarı qalxması ilə yaranan səslər aydın, aşağı düşməsilə tələffüz olunanlar isə qeyri-aydınlardır. Birincilərdə Fı və Fıı bir-birindən çox aralı (bax: şəkil 21), ikincilərdə isə / υ, u:, ⊃, o:, a, a:/ çox yaxın olur (bax: şəkil 21). Diffuz saitlərdə Fı çox aşağı, kompaktlarda isə Fıı nisbətən yuxarıda olur (bax: şəkil 20, 21). Deyilənlərin qarşılıqlı münasibətini aşağıdakı sxemlə aydın göstərmək olar.[84]

aydın tutqun<br>
i: u:<br>
y: v<br>
I

diffuz ü o: kompakt<br>
e: ⊃<br>
o: a:<br>
ε æ a

Göründüyü kimi, saitlər sistemində bir neçə əlamətə görə simmetriya gözlənilir. Simmetriyanın pozulması sistemdaxili dartışmanın nəticəsidir və bu da son nəticədə sistem münasibətlərinin yenidən qurulmasına gətirib çıxarır.

Artıq dəfələrlə qeyd edildiyi kimi, fonemlər sistemi fonem qarşılaşmalarından ibarətdir. Məs. alman dilində /i:/ uzun və qapalıdır, çünki ona qarşı qoyulan qısa və açıq /ı/ saiti var. Digər tərəfdən o, qeyri-dodaq samitidir, çünki ona qarşı duran dodaq saiti /ʏ:/ vardır. Qısa açıq /ʏ/-dən isə /i:/ dilin yuxarı qalxma dərəcəsilə, /e:/-dən sıraya, /ɛ/-dən həm sıra, həm də qapalılığa, /0/-dən sıra, yüksəliş, həm də qeyri-dodaq tələffüzünə görə, /æ/-dən sıra, yüksəliş və dodaq, /ʊ/-dan sıra, yüksəliş, uzunluq və dodaq, /⊐/-dan sıra, yüksəliş, dodaq və uzunluq, /o:/-dan qapalılığına, sırasına, yüksəlişinə, uzunluğuna, habelə dodaqlılığına görə, /ʊ/-dan uzun, /o:/ saitində uzunluqdan başqa olan bütün əlamətlərlə, /a/ və /a:/-dan isə sıra və yüksəlişinə görə fərqlənir.

Deməк, hər bir fonem digərindən ən azı bir və ya bir neçə əlamətə görə fərqlənir. Bu əlamətlərə fərqləndirici relevant əlamətlər deyilir. Fonemin realizasiyasında yalnız danışığın və əhatənin nəticəsi kimi meydana gələn əlamətlərə relevant əlamətlərdən fərqli olaraq inteqral əlamətlər deyilir. Məs. /i:/ saitində dodaq iştirak etmir, deməli, dodaq əlaməti bu sait üçün fərqləndirici sayıla bilməz. Ancaq /bi:gən/ sözündə /i:⁰/ dodaqlanır. Bu normanın tələbidir, ona görə də variantı səciyyələndirən, lakin onsuz bu sözdə deyilə bilməməsi faktdır.

Samitlər yarımsistemində də qarşılaşmalar kifayət qədər vardır. Elə qarşılaşmalar var ki, ikilidir (binardır). Məs.: kar/cingiltili əlaməti bütün samitlər sisteminin ortasından keçir. Yalnız /m, n, l, ʀ, ŋ/[85] samitlərinin kar qarşılığı yoxdur. Eyni zamanda /t͜s/, /t͜ʃ/, /p͜f/, /x/, /h/ samitlərinin də cingiltili qarşılığı yoxdur. Lakin bu o demək deyildir ki, onlar bu əlamətlərdən kənarda qalırlar və ya orta vəziyyəti tuturlar. /m, n, l, ʀ, ŋ/ ümumiyyətlə sonordurlar. /t͜s/, /t͜ʃ/, /p͜f/, /x/, /h/ isə özlərini digər kar samitlər kimi aparırlar.

Bəzən oppozisiya üçlü olur. Yəni oppozisiyada üç üzv təmsil olunur. Məs.:

/b/-/d/-/g/
/p/-/t/-/k/
/v/-/z/-/j/

O, dörd və ya beş üzvlü (alman və ingilis dilində) olur. Məs.:

/f/-/s/-/ç/-/x/-/h/
/f/-/θ/-/s//x/-/h/[86]

Qarşılaşmalar təcrid edilmiş və ya proporsional ola bilər. Əgər bir qarşılaşma arasındakı münasibətlər eyni ilə başqalarında da təkrarlanırsa, onda bu qarşılaşmalara proporsonal oppozisiyalar deyilir. Məs.:

| | | |
|---|---|---|
| /b/#/p/ | və ya | /v/#/ f / |
| /d/#/t/ | | /z/#/s/ |
| /g/#/k/ | | /ð/#/θ/ |

Burada bir qarşılaşma arasındakı bütün münasibətlər digərində eyni ilə təkrar olunur. Belə olmadıqda qarşılaşma təjrid edilmiş hesab olunur. Məs.: /l/ - /r/. Alman dilində ikinci belə bir oppozisiya tapmaq mümkün deyildir. Amma rus dilində bu təcrid olunmuş sayılmır, çünki /l'/ # /r'/ var. Məs.: солю-сорю və s.

Proporsional oppozisiyalar çox vacibdir və çoxluq təşkil edir. Qarışıq oppozisiyalarda qarşılaşma üzvləri bir-birindən bir neçə əlamətə görə fərqlənirlər. Məs: Azərbaycan. dilində /p/ # /ə/ qarşılaşmasının birinci üzvü ikincidən dodaq, kipləşən partlayışlı və kar olması ilə fərqlənir. Hər ikisinə xas olan yeganə əlamət onların küylü samit olmasıdır. Əslində dilin hər bir fonemi yerdə qalan bütün fonemlərə qarşı qoyulur. Həmin qarşılaşmaları müəyyən etmək və bu zaman sistem münasibətlərini araşdırmaq dərin fonoloji tədqiqatın mövzusu ola bilər.[87]

## IV. 11. Fəslə dair yoxlama sualları və tapşırıqlar

1. Ünsiyyətin modelini lövhədə çəkin və ayrı-ayrı komponentləri izah edin.
2. Ünsiyyətin fizioloji aspektini açıqlayın. Danışıq cihazını çəkin və ayrı-ayrı səslərin əmələ gəlməsini şəkil üzərində göstərin.
3. Sait və samitlərin artikulyator xüsusiyyətlərindəki fərqi açmağa çalışın.
4. Ünsiyyətin akustik aspektini şərh edin. Sait və samitlərin spektral təhlilini verməyə çalışın.
5. Ünsiyyətin perseptiv aspektindən nə deyə bilərsiniz? Dərketmənin vahidi nədir? Qulağın şəklini çəkin və ona şərh verin.
6. Ünsiyyətin linqvistik aspektinə xas olan xüsusiyyətləri sadalayın. Danışıq aktının üzvlənməsi prinsiplərini göstərin.
7. Mövcud fonoloji məktəblər haqqında nə deyə bilərsiniz?
8. İ.A.Boduen de Kurtene-L.V.Şerba-L.R.Zinder konsepsiyasının məğzi nədir?
9. Səs, variant və fonem münasibətlərini açıb göstərməyə çalışın.
10. German dillərinin fonem sistemlərini əyani göstərin.
11. Fonoloji oppozisiyalar haqqında nə deyə bilərsiniz?
12. Müəyyən bir mətn götürün və onun son həddə qədər üzvlənməsini göstərin.

[1] F.Veysəlov və başqaları. Eksperimental fonetika. Bakı, ı, 1980, ıı, 1981; F.Yadigar. Fonetika və fonologiya məsələləri. Bakı, 1993.
[2] artikulyator-lat. ayrı-ayrı səslərə bölərək, danışmaq deməkdir.
[3] Nəfəsalmanın və nəfəsvermənin incəlikləri haqda bax:F.Veysəlov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 80. Burada yalnız onu qeyd edək ki, indiyə qədər dediklərimizin hamısı ilkin olaraq fizioloji funksiya daşıyır. Danışma isə onların sonrakı ikinci funksiyasıdır. Digər tərəfdən danışıqda nəfəsvermə ağızdan çıxır, özü də onun həcmi ciyərdəki hava ehtiyatından və danışanın nə demək istədiyindən asılı olaraq nizamlanır.
[4] Ətraflı məlumat almaq üçün bax: F.Vejsalov. Göstərilən əsəri, s. 83-84; H.H. Wängler. Physiologische Phonetik. Eine Einführung. Marburg, 1972; N.S.Trubeskoy. Fonologiyanın əsasları. Bakı,2001. «Grundzüge der Phonologie» (Prague, 1939) alman dilindən tərcüməsi, «Son söz» və «Qeydlər» prof.F. Yadigarındır.
[5] Fizioloji fonetika A.Ruslonun başçılığı ilə başlamış, sonra Almaniyada fizioloq, anotom, həkim, psixoloq və fonetiklərin birgə əməkdaşlığı nəticəsində çox böyük uğurlar qazanıb. Bax: H.H.Wängler. Göstərilən əsəri.
[6] Boşluqlara rezonator və rezonans boşluğu da deyirlər.
[7] F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989.
[8] Biz dodaq, qeyri-dodaq terminlərilə dodaqlanan və dodaqlanmayan terminlərini bir-birindən ayırmağı məqbul hesab edirik. Dodaq, qeyri-dodaq ontoloji əlamətdirsə, dodaqlanan və dodaqlanmayan kombinasiyada meydana gəlir. Məs.: /y:bən/, amma /bi:bəl/. Birincidə dodaq əlaməti, ikincidə isə dodaqlanma müşahidə olunur, çünki /i:/ bir sait kimi dodaqların iştirakı olmadan əmələ gəlir, amma norma baxımından onun dodaqlanması vacibdir, çünki o, dodaq samitləri arasında gəldiyindən mütləq dodaqlanmalıdır. Bax: Ф.Вейсалов, А.А.Гасанов. Интерпретация некоторых фонетических терминов. "IV Республиканская Конференция по актуальному вопросу обучения русскому языку в азербайджанской аудитории". Баку, 1973 .
[9] Aşağı udlaq samitinə ərəb və Dağıstan dillərinin bəzisində rast gəlmək olur. Məs.: ĥəmzə, ĥəsən və s. Daç dilində / ʋ / [ ʋ ] kimi əvvəldə, sonra isə [ß] kimi tələffüz edilir. /r/ bu cür əvvəldə tələffüz olunur. Axırda isə /r̠/ kimi deyilir. Bundan başqa daç dilindəki [˃] alman dilindəki [˃] knaklaut kimi sözün əvvəlində saitlə başlayanda tələffüz olunur. Bax: Carlos Gassenhoven. Dutch. In: Handbook of the International Phonetic Association. Cambridge, 1999, s. 74-77.
[10] Artikulyator və akustik aspektin vacibliyi haqqında çox qızğın mübahisələr gedirdi. İsveç fonetisti B.Malmberq isə ümumiyyətlə bütün dillər üçün yetərli artikulator prinsipin olmasına şübhə ilə yanaşdığını gizlətmirdi. Bax: B.Malmberg. Einführung in die Phonetik als Wissenschaft. München, 1976.

[11] Mötərizə arasında verilmiş terminlər akustik nəticəyə işarədir. Onlar haqqında irəlidə geniş məlumat veriləcək (bax: IV fəsilin 3-cü böliəsi)

[12] Rentgen çəkilişləri müxtəlif dillərin, fərdlərin və müxtəlif səslərin müqayisəsində yaxşı səmərə verir. Son zamanlar bütün neyrofizioloji prosesi öyrənməkdən ötrü spektromioqrafiyadan istifadə edilir. Qədim artikulator metod makrofonetika, yenisi isə mikrofonetika adlanır.

Son illərdə xirtdəyin fəaliyyəti və burada hava sıxlığının həjmi geniş öyrənilir. Subqlottal təzyiqlə hejanın arasında birbaşa əlaqənin olması fikri özünə daha çox tərəfdar tapır. Bu təzyiqin artması prosodik əlamətlərə təkan verir. Son zaman Sven Öman və Byörn Lindblum üz əzələlərinin aktivliyi və saitin kəmiyyəti haqqında çox maraqlı müşahidələr əldə ediblər. Bu barədə ətraflı məlumat almaq üçün bax: F.J.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989; həmçinin: Л.Р.Зиндер. Обшая фонетика. М.,1979; Л.В.Бондарко. Фонологическое описание речи и фонетическое описание языка. Л., 1981.

[13] P.Ladefoged. A Course in Phonetics. 2. Edition, 1982.

[14] Danışığı müşahidə və təhlil etmək iki yolla mümkündür. Birinci, öz qulağımız vasitəsilə. Buna subyektiv metod deyirlər. Böyük fonetistlər çox dərin eşitmə məharətinə malik olurlar. O.Yespersen, D.Jounz, E.Sivers, L.V.Şerba, L.R.Zinder (1904-1995) son dərəcə incə eşitmə qabiliyyətlərinə malik adamlar olublar. Onların elmi qənaətləri sonra obyektiv metodla dəfələrlə təsdiq olunub. İkinci yol obyektiv yoldur. Danışıq prosesi müəyyən cihazların - kimoqraf, fonoqraf, ossiloqraf, spektroqraf, sonoqraf vasitəsilə akustik siqnallar elektrik siqnallara çevrilir. Beləliklə də, bəşəriyyətin çoxdankı arzusu - canlı danışığı şəklə çevirərək onun üzərində təhlillər aparmaq gerçəkliyə çevrilir. Hazırda bu işlərin əksəriyyətini elektron cihazları və kompüter vasitəsilə həyata keçirirlər. Bu barədə bax: K.Machelett, H.G.Tillmann. Das Lesen von Sonagrammen -Inhaltsübersicht. Institut für Phonetik und Sprachliche Kommunikation. Universitdt München. 1996.

[15] Tonun yaranmasını bir misalla göstərmək olar: a----b cismini ehzaza gətirdikdə, o (insanda səs telləri) məruz qaldığı qüvvənin gücündən asılı olaraq titrəməyə başlayır. Əvvəlcə s-yə, ordan da d-yə, sonra isə əvvəlki vəziyyətinə qayıtmaqla sönənə qədər titrəyir. S-yə, oradan d-yə və sonra sükunət nöqtəsinə qayıtması cismin tam dövrü adlanır. Bunu hs-lə ölçürlər. Cismin bir saniyədə titrəməsinin (rəqsinin) 2/1-i 1 hs-ə bərabərdir. Bütöv cismin titrəməsindən əsas ton alınır. 100 hs-ə bərabər cisim saniyədə 100 ikili rəqs edir. Səsin yüksəkliyi onun titrəmə tezliyindən asılıdır. Cismin titrəmə tezliyi onun kütləsinə tərs mütənasibdir. Cismin kütləsi böyük və kiçik gərginlikdə olarsa, ton da kiçik və aşağı olacaq (kişilərdə). Cisim nazik və güclü olsa, səsin tonu yüksək və bəm olacaq (qadınlarda). Daha böyük titrəmə tezliyi olan cismin tonu daha yüksək olacaq. İki 200 hs, müvafiq olaraq 100 hs

tezliyi olan cisimlərdən təbii ki, 200 hs-li daha yüksək olacaq (bax: şəkil 17). Səsin gücü (intensivliyi) səs təzyiqinin bir $m^2$ sahəsinə düz mütənasibdir. Səsin gücü (intensivliyi) rəqqasın uzaqlaşma dərəjəsindən (amplitudasından) asılıdır. Böyük amplituda yüksək ton, kiçik isə aşağı ton deməkdir. Eyni amplitudalı, müxtəlif tezlikli səslər müxtəlif cür qəbul edilir. Səsin gücü eşitməni və dərketməni müəyyənləşdirir. Ölçü vahidi beldir (1:10 münasibəti). 2 bel $1:10.10=1:100(10)^2$ deməkdir. Praktik məqsəd üçün desibeldən istifadə edilir (1 bel:10=db). Yuxarıda deyildiyi kimi, cisim təkcə bütövlükdə əsmir (bundan əsas ton yaranır), həm də hissələrilə titrəyir. Cismi neçə yerə bölsək, bu bölgülərin titrəməsi bir o qədər əsas tondan çox olacaq. Bu titrəmələr obertonu yaradır. Müq. et: cismin əsas tonu=100 hs, $\frac{1}{2}$-nin titrəməsi 200 hs, 1/3-nin titrəməsi 300 hs və s. olacaqdır. Obertonlar səsin çalarlığını və məlahətini zənginləşdirir. Onlar səsin tembrini yaradır. Əksər elmi ədəbiyyatda bu yanlış olaraq əlavə ton kimi verilir.

[16] Alman alimi H.fon Helmhols danışıq cihazında səsin formalaşmasını, modulyasiyasını, keçid mərhələlərini fiziki yollla öyrənməyə çalışmışdı. O, hər bir səsin az çalarlıq sahəsini və digər səslərin köməkliyilə onun rezonansının güjlənməsini müşahidə etmiş və belə nəticəyə gəlmişdir ki, ön sıra saitləri 2, arxa sıra saitləri isə 1 yüksək ton sahəsinin olması ilə səciyyələnir. Buna rezonans nəzəriyyəsi deyilir. Onun həmyerlisi L.Herman isə formant nəzəriyyəsini inkişaf etdirdi. Formant terminini də elmə elə o gətirib. L.Hermana görə, ciyərlərdən gələn hava axını titrəməklə ağız boşluğundakı havanı hərəkətə gətirir. Özü də çıxan havanın tezliyi ağız boşluğunun öz titrəməsinə uyğundur. Onlar əsas ton tezliyindən asılı olur. O, ağız boşluğunda əmələ gələn obertonları göstərmək üçün formant terminlərindən istifadə etmişdir. XX əsrin 30-cu illərində A.Jemelli və A.Soviyarvi danışılanın ossiloqrafda adekvat şəklini almağa müyəssər olmuşlar. Karl Ştumf ilk dəfə tonun dalğavari hərəkətinin filtrləşmə yolu ilə sait üçbujağını ala bilmişdi. 1947-ci ildə ilk dəfə «Görünən nitq» (Visible Speech) kitabında müəlliflər kollektivi saitlərin spektrini verməklə akustik fonetikada inqilab etdilər. Onlar elektroqraf vasitəsilə səs və səs ardıjıllığının spektrini əldə etməyə nail olmuşlar. Sonralar sonoqraf icad edildi. Ona görə də bu apparatlarda alınan səs görünüşlərinə spektroqram və ya sonoqram deyilir (Bax: şəkil 18, 19, 20). İlk dəfə dil səslərinə bu təhlili tətbiq edən M.Y.Cuuz olmuşdur (bax: F.Veysalov, 1989, s. 48-50, 95-110); K.Machelett, H.G.Tillmann. Göstərilən əsər.

[17] Eksperimentin aparılması şərtləri və akustik parametrlərin hesablanması metodikası haqqında bax: F. Veysəlov və başqaları. Eksperimental fonetika. B. 1980 (I), 1981 (II); F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 48-51, 95-110, 205-229; F.Yadigar. Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

[18] R. Jakobson und M.Halle. Grundlagen der Sprache. Berlin, 1960; Bax həmçinin: F.Vejsalov, Lehrbuch der Phonetik. Baku, 1989, s. 109.

[19] Dilçilik elminə fonemlərin differensial əlamətlər üzrə dixotomik bölgü kimi daxil edilmiş bu metodun məqsədi əslində ikili əsaslı məntiqi dilə tətbiq etmək olub. Ona görə də buna binar (ikili) təsnifat prinsipi deyilir. Qoyulan suala iki cavabdan biri - ya "hə", ya da "yox" verilir. Əslində səsin spektrindəki xüsusiyyət bu təsnifdə aparıcı rol oynayıb. Bax: F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku , 1989, s. 60-79.

[20] A.Martinet. Grundlagen der Sprachwissenschaft, Berlin , 1960.
Bax həmçinin: F.Yadigar. Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s.116-122.

[21] P.Menzerath und A.de Lacerda. Koartikulation, Steuerung und Lautabgrenzung. Bonn-Berlin, 1934.

[22] The Encyclopedia of Language and Linguistics. V. 6, 1994, s. 3030.

[23] E. Joseriu. Sprajhkompetenz. Tübingen. 1988, s. 252.

[24] Ф.Я.Вейсалов. О понятии различия в фонетике и фонологии. «Ученые записки АПИРЯЛ им. М.Ф.Ахундова ». Баку, 1975, № 3.

[25] Л.В.Бондарко. Фонологическое описание речи и фонетическое описание языка. М., 1994.

[27] N.S.Trubeskoy. Fonologiyanın əsasları. Grundzüge der Phonologie. Prague, 1939-cu il nəşrindən tərcüməsi, „Son söz“ və „Qeydlər“ prof. F.Yadigarındır. Bakı, 2001; J.M.Y.Simpson. A First Jourse in Linguistics. Edinburgh, 1979.

[28] N.S.Trubeskoy. Göstərilən əsər. s. 7, 17. Əslində bu fikri hələ 1870-ci ildə İ.A.Boduen de Kurtene irəli sürmüşdü. Fonemi ümumi, subyektiv təsəvvürlər adlandıran İ.A.Boduen de Kurtene onların tədqiqi ilə iki elmin - psixoloci və sosioloji elmin məşğul olmasını məsləhət görürdü. Birincini «səs fiziologiyası», ikincini isə «funksional təhlil», sonralar isə birincini «antropofonika», ikincini isə «psixofonetika» adlandırırdı. «Fonetik alternasiyalar nəzəriyyəsinə bir cəhd. Psixofonetikadan 1 fəsil.» (Braunschweig, 1895) əsərində İ.A.Boduen de Kurtene səslə bağlı indiyə qədər söylədiyi fikirlərdən əl çəkərək fonemi yalnız psixoloji cəhətdən müəyyənləşdirir. (Bax: B.Bartschaft. Göstərilən əsər, s. 39-40). Eyni zamanda İ.A.Boduen de Kurtenenin sadiq tələbələrindən biri L.V.Şerba fonetikanın fonologiyadan ayrılması əleyhinə qətiyyətlə çıxaraq yazırdı: «Bu qeyri-mümkündür, necə ki, konkret hallarda işlənməsindən ayrılıqda hər hansı bir formanın funksiyası ilə məşğul olmaq qeyri-mümkündür. Л.В.Щерба. Очередные проблемы языковедения. Изв. АН СССР, ОЛЯ , 1945, т. IV, вып. 5, s. 185-186.

[29] Bu ideyanı sonralar R.Yakobson öz konkret tədqiqatları ilə inkişaf etdirərək dil fonemlərinin dixotomik təsnifatının nəzəri əsasını işləyib hazırladı və

bilavasitə onu təcrübi yolla sübuta yetirdi. Bax: R.O.Jakobson, M.Halle, G.Fant. Preliminaris to speech theorie. „Technical report“. 1951, N 13.

[30] 1940-cı ildə R.İ.Avanesov (1902-1968) və V.T.Sidorov (1903-1968) «Очерки по русской грамматике» əsərində hiperfonem anlayışını işlətmişdilər. Bəzən buna «qarışıq» fonem də deyirlər.

[31] D.Jones. The Phoneme. It's Nature and Use. London, 1947.

[32] Л.Р.Зиндер. Общая фонетика. М., 1979.

[33] Ф.Вейсалов. Проблема варьирования фонем в современной фонологии. «Вопросы языкознания». 1990, № 3.

[34] Bax: F.Yadigar. Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

[35] N.S.Trubeskoyun yuxarıda adı çəkilən əsərinə müəllifin mövqeyi barədə bax: N.S.Trubeskoy. Fonologiyanın əsasları. Alman;adan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. Fəxrəddin Yadigarındır. Bakı,2001.

[36] J.M.Y.Simpson. A First Jourse in Linguistics. Edinburgh, 1979, s. 68. „Such a group of sounds constitutes a phoneme of the language, and the individual sounds in the group are the allophones of that phoneme“. Müəllif bu yerdə qeyd edir ki, allofon terminini B.Uorf dilçiliyə gətirib. Bax: s. 274.

[37] «A family of uttered sounds . . . in a particular language meaning one particular and consistent variety of spoken language which count for practical purposes as if there were one and the same: the use of each member of the family is conditioned by the phonetic environment, i.e., no one member ever occurs in the situation appropriate to another.» The Encyclopedia of Language and Linguistics. 1994, s. 3030.

[38] B.Bloch. A Set of Postulates for phonemic Analysis. „Language“, 1948, vol. 24, s. 7.

[39] E.C.Fudge. Phonology. In: „New Horizons in Linguistics“. Edited by John Lyons, 1973, s. 76-81.

[40] Göstərilən əsər, s. 80.

[41] N.S.Trubeskoy. Göstərilən əsər.

[42] R.Firth. Papers in Linguistics. 1934-1951. Oxford, 1969.

[43] D.Jones. The Phoneme. It's Nature and Use. London, 1950, s. 16.

[44] E.C.Fudge. Göstərilən əsər, s. 83. Təəssüf ki, müəllif fikrini dəqiq ifadə etmir. Yəqin ki, söhbət sözdən gedir. Axı, türk dilində saitlərin hər iki tipi mövcuddur.

[45] J.R.Firth. Papers in Linguistics. 1934-1951, Oxford, 1969.

[46] Yenə orada, s. 409-410.

[47] E.C.Fudge. Göstərilən əsəri, s. 86.

[48] Abstrakt yanaşmanın ən böyük təşəbbüskarı L.Yelmslev olmuşdur. Bu yanaşmada fonetik xüsusiyyət fonemlərin heç də hamısının müəyyənləşməsində və siniflərə bölünməsində iştirak etmir və buradakı alternasiya və distribusiya kriteriyalarına əlavə olaraq qlossematiklər göstərirlər ki, iki

fonem müəyyən kontekstdə eyni cür tələffüz olunursa, onlar eyni sinfə aid edilə bilərlər.

[49] Əlbət ki, burada fonetik oxşarlıq deyəndə yalnız artikulyator aspekt nəzərdə tutulur, akustik aspekt nəzərə alınmır. Akustik cəhətdən /t/ və /d/ daha yaxındır.

[50] Mürəkkəbləşdirməyə nə ehtiyaж var idi?! Elə N.S.Trubeskoy da təxminən belə deyirdi və adını arxifonem qoymuşdu.

[51] E.Coseriu. Sprachkompetenz. Tübingen, 1988, s. 252-253.

[52] Yenə orada.

[53] E.Coseriu. Göstərilən əsəri.

[54] I.A.Boudouin de Courtenay. Versuch einer phonetischen Alternation. Braunschweig, 1895.

[55] И.А.Бодуэн де Куртене. Фонетические законы. В.кн.: «Избранные труды по обшему языкознанию». М., 1962, t.II, s. 198-199. N.S.Trubeskoyun və sonralar R.O.Yakobsonun differensial əlamətlər nəzəriyyəsinin özülündə İ.A.Boduen de Kurtenenin bu ideyası dururdu.

[56] The Encyclopedia of Language and Linguistics. V.6, 1994, s.3029.

[57] Danışıq məqamında valideynlər cənubda idman yaraşına getmiş oğlanlarından məktub alırlar. Məktubda cənubdakı sakitlikdən xəbər verilir. Sonra isə gənc alman xidmətçilərindən imtina edilməsinə dair Löniqin imkanlarının sakitcə götür-qoy edilməsindən danışılır.

[58] Sintaqm haqqında bax: Ф.Ядигяр и др. К истории проблемы синтагмы в языкознании. Журн: «Dil və ədəbiyyat», Bakı, 1999, № 4 (22).

[59] Kompozit dedikdə tam mənalı sözlə təyin rolunda çıxış edən digər sözlərin birliyi nəzərdə tutulur.

[60] Bundan sonrakı üzvlənmədə L.V.Şerba məktəbindən başqa yerdə qalan bütün fonoloji məktəblər mexaniki kvaziomonimlərin qarşılaşmasına əsaslanırlar. Məs.: Hand-Land-Wand-Sand və s.

[61] Bəzən təsadüf üzündən bir seqment bir söz və ya bir morfem ola bilər. Onda üzvlənməyə dair bu cür təhlilə bəlkə də ehtiyac olmazdı. Məs., alman dilində /a͜e/- yumurta, /a͜⊃/-çəmən, Azərbaycan dilində /o/ bu qəbildəndir. Amma əslində belə hallar dildə olduqca azdır.

[62] Bu barədə bax: Ф.Я.Вейсалов. Вариативность гласных фонем современного немецкого языка (теоретические проблемы и экспериментальные данные). АДД, Ленинград, 1980.

[63] Hər bir dilin bütün seqmentlərinin bu üsulla müəyyənləşdirilməsi çox mühüm vəzifələrdən biri sayılır. Bax: F.Yadigar. Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

[64] Saitdən əvvəl «s“ fonunu Saksoniyada işlədirlər. Məs.: Sievers /'si:vers/, Saarland /'sa:rlant/ kimi deyilir. Amma bizim obyektimiz sintopik, sinstratik və sinfatik tədqiqatlar olduğundan, bölgə, dialekt, idiolekt və digər sosio-

mədəni yayınmalar, beynəlmiləl sözlər və s. nəzərə alınmır. Biz normaya əsaslanırıq. Bax: E.Coseriu. Sprachkompetenz. Tübingen, 1994; D.Crystal. Göstərilən əsəri.

[65] Fonologiyanın son dövrlər inkişaf etmiş xüsusi sahələrindən birinin adı fonotaktikadır. Məhz fonotaktika fonemlərin işlənməsi xüsusiyyətləri ilə məşğul olur. Bax: O. Werner. Deutsche Phonemik. Stuttgart, 1977.

[66] Moskva məktəbinin ən görkəmli nümayəndəsi A.A. Reformatski (1900-1978) fonemin mövqe ilə bağlı məna fərqləndirmək xüsusiyyətini əsas götürərək güclü və zəif mövqelər ayırır (əslində bunu bütün fonoloqlar qeyd edirlər. Məs.: L.V.Şerba mövqedən asılı olan səsi tipik variant, elə fonemin özü adlandırırdı). Saitlər vurğulu vəziyyətdə, samitlər isə vurğulu saitlər qarşısında güclü mövqedə çıxış edirlər. Özü də bunlar həm dərketmə (perseptiv), həm də məna fərqləndirmə (siqnifikativ) cəhətdən güclü və zəif olur:

a) perseptiv güclü mövqedə fonem öz əsas cildində çıxış edir, mövqedən asılı olmur. Məs.: mal-mil sözlərində guya söz başında samitin sonda gələn saitin keyfiyyətinə elə bir təsiri yoxdur. Saitlər vurğulu vəziyyətdə, samitlər isə vurğulu saitlər qarşısında güclü mövqedə çıxış edirlər. Bunun üçün A.A. Reformatski eliminasiya metodundan istifadə edir: al-il. Deməli /a/ və /i/ ayrılıqda fonemdirlər.

b) perseptiv zəif mövqedə fonem pozisiyadan asılı mövqeyə düşür, ona görə də çalarlıq və ya variasiya şəklində çıxış edir. Məs.:mal-mıl. Anlautdakı samitləri atmaqla guya biz rus dilində olmayan (əe) və (ı) saitlərini yaradırıq ki, bunlar da müvafiq olaraq /a/ və /I/ sait fonemlərinin variasiyalarıdır. Buradan da /ı/ saitinin ayrılıqda fonem olmaması ideyası guya təsdiqlənir. Əvvəla, L.A.Verbiskayanın(1940) tədqiqatları sübut etdi ki, rus dili daşıyıcıları real olaraq 6 deyil, 18 sait variantı fərqləndirir. [a], [á], a′, [′a], //o,o//o/o/, //u,u//u/,u,/, //e,e/,/e/,e,/, /ı/, /i/ (Bax: Л.А. Вербицкая. Русская орфоепия. Л,, 1976). İkincisi, eliminasiya saitin və samitin olub-olmamasını deyil, sözün olub-olmamasını müəyyənləşdirə bilər. Üçüncüsü, fonem tərkibinin müəyyənləşdirilməsində bütün söz ehtiyatı təhlilə cəlb edilməli, istisnalar olmamalıdır. Dördüncüsü isə bu metod fonemin danışıq aktından ayrılmasında mexaniki qarşılaşma metodundan başqa bir şey deyildir.

v) Siqnifikativ güclü mövqedə fonem fərqlənməklə bərabər, həm də məna fərqləndirir. Məs., мат-мать.

q) Siqnifikativ zəif mövqedə isə sait və samit eyni səsləndikləri üçün nə fərqlənirlər, nə də fərqləndirirlər. Beləliklə, fonem qarşılığı neytrallaşır (müq. et: N.S.Trubeskoyun korrelativ qarşılaşma üzvlərinin neytrallaşaraq arxifonem kimi çıxış etməsi fikrini) və s; söz sonunda kar və cingiltililər keyfiyyətcə üst-üstə düşür. Müq. et: луг-лук бы. Ola bilsin, oppozisiya üzvləri üçüncü bir səsdə realizə olunsun. /a/ və /o/ perseptiv və siqnifikativ güclü mövqedə müstəqil fonemlər kimi çıxış edir: /там/- /том/. Amma söz əvəlində və ilk vur-

ğusuz mövqedə [ʌ], ikinci vurğusuz mövqedə [ь], üçüncü vurğusuz mövqedə isə [ь] tələffüz olunur. Məs: /vʌda'/, /vʌdʌvos/, /vʌdь'noj/ və ya /gъvʌrit/, amma /rʌzgъvʌrivʌj/ və s. Beləliklə, signifikativ zəif mövqedə sait öz variantında, bunlar da ümumi variantda «qarışıq fonem», «hiperfonem» və ya «fonem sırası» terminləri ilə ifadə olunur. Bax: A.A.Реформатский. Введение в языковедение. М., 1976; Л.Р.Зиндер. Общая фонетика. М., 1979; F.Yadigar. Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

[67] N.Morciniec. Distinktive Spracheinheiten im Niederldndischen und Deutschen (Zum phonologischen Identifizierungsprozeß). Wroclau, 1968.

[68] Biz transkripsiya zamanı təkrar olunan seqmentləri birləşdirdik.

[69] F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 131; Ф.Я.Вейсалов. Вариативность гласных фонем современного немецкого языка (теоретические проблемы и экспериментальные данные) АДД. Ленинград, 1980.

[70] [ə] -nin [ɛ] ilə əvəzlənməsi onu göstərir ki, onların eyni bir fonemin variantları kimi götürülməsi daha düzgündür.

[71] N.S.Trubeskoy. Göstərilən əsəri; N.Morčiniec. Göstərilən əsəri.

[72] A.A.Реформатский. Введение в языковедение. М., 1976. A.N.Qvozdev (1892-1959) bu fikri təkzib edərək göstərir ki, mövqe məsələsində bir az diqqətli olmaq lazımdır. Кupe-Кыpe (Кupe-k Ире) buna misal ola bilər və s. Bax: A.Н.Гвоздев. Избранные работы по орфографии и фонетике. М., 1963, s.122.

[73] Amerika fonoloqları L.Blumfilddən başlayaraq fonem sisteminin təsnifini aşağıdakı kimi təsvir edirlər. Onlar birinci (primary: sadə simvollarla göstərilir) və mürəkkəb birinci fonemlər (compound primary - simvollar birləşməsi verilir), diftonqlar və ya uzun saitlər adı altında dilin fonemlərini təsnif edirlər. Məs: buy /bai/, see /si:/ və s. Sonra bunlara ikinci fonemləri (secondary) əlavə edirlər ki, bura da vurğu, heca düzəldən samitlər və cümlə intonasiyası aiddir (ton dillərində tonlar söz fərqləndirdikləri üçün birinci fonemlərə aiddir). Onlar ritmə, heca variasiyalarına və uzunluğa da, hətta sərhədə də fərqləndirmə bucağından yanaşırlar. Məsələn: aim- a name (buna juncu tre deyirlər), yəni /ən+eim/ və /ə+neim/. Sonralar uzun saitləri /a+h/ və /o+h/ kimi nəzərdən keçirərək belə güman edirlər ki, Amerika ingiliscəsində 6 sait var /ə, i, e, a, u, ⊃/ . Uzun saitlər, diftonqlar sait+/w/, /y/, /h/ və /r/-dan birinin fonoloji ardıcıllığını göstərmək üçün /|/, /||/, /#/ işarələrindən istifadə edirlər.

Deskriptivistlər vurğunun dörd növünü göstərirlər: birinci /′-/, ikinci /ʌ/, üçüncü /'/ və zəif vurğu /.ˇ/. Məs: /'elyv 'atˇ orôp eràtˇor/. Onlar 4 ton səviyyəsi fərqləndirirlər. Deməli, onlara görə fonem sistemi təkdə sait və samit fonem-

ləri deyil, həmçinin vurğu, ton və qovuşuq fonemlərindən ibarətdir. Bax: J.M.I.Simpson. A First Course in Linguistics. Edinburg, 1979, s. 83-87.
[74] C.Gussenhoven. Dutch. Handbook of the International Association. Camridge, 1999, s. 74-77.
[75] G.Meinhold. E.Stock. Phonologie der deutschen Sprache. Leipzig, 1980, s. 91-93. Biz L.R.Zinderdən sonra [ə] və [ɛ] səslərini eyni fonemin variantları kimi götürürük və bu fikri əsaslandırmağa çalışırıq. Bax: F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, s. 132-135.
[76] F.Schindler. Beitrdge zur deutschen Hochlautung. Forum Phoneticum. 9. Hamburg, 1974, s. 31
[77] Q.Maynhold və E.Ştok /ə+R/ ardıcıllığından yaranan səsi Reduktionsvokal (reduksiyalı sait) adlandırmağı təklif edirlər. Bax: F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 134.
[78] J.M.Y.Simpson. Göstərilən əsəri, s. 82.
[79] A.Axundov. Azərbaycan dilinin fonemlər sistemi. Bakı, 1984; F.Yadigar. Fonetika və fonologiya məsələləri. Bakı, 1993.
[80] F.de Saussure. Göstərilən əsəri. s. 11.
[81] E.Coseriu. Sprachkompetenz. Tübingen 1998,s.267.
[82] Yenə orada. S. 267
[83] L.R.Zinder. Obhaə fonetika. M.,1979.
[84] F. Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 138.
Qeyd edək ki, spektral təhlildə saitin identifikasiyası üçün $F_I$ və $F_{II}$ əsas götürülür ki, bu da rezonatorun fəaliyyətindən asılıdır. Dil ağızda yuxarı qalxdıqca $F_I$ aşağı düşür. $F_{II}$ isə dilin şaquli istiqamətdə hərəkətindən asılıdır. Rezonans boşluğu (ağız) nə qədər uzun olarsa, $F_{II}$ də bir o qədər aşağı düşür. Göründüyü kimi, ön sıra saitlərində $F_I$ aşağı, $F_{II}$ isə yuxarı, arxa sıra saitlərində isə $F_I$ yuxarı, $F_{II}$ isə aşağı tezlikdə olur. Bax: F.Vejsalov. Göstərilən əsəri, s. 140-141. Alman dilçisi M.Şubiqer də eyni fikirdədir. Ona görə saitin keyfiyyəti onun formatlarının tezliyindən və intensivliyindən asılıdır. Özü də iki formant əsasdır. $F_I$ rezonatordan asılı olaraq formalaşır. Dil yuxarı qalxdıqca, bu formant aşağı tezlikdə olur. FII isə rezonatorda səsin traktından asılıdır. Trakt uzun olduqca, bu formant aşağı tezlikdə olur. Traktın uzanıb qısalmasına dodaqlar və xirtdək təsir edir. Xirtdəyin hərəkətini əlimizi hulquma qoyub /i-u/ saitlərini tələffüz etsək, hiss edə bilərik. Bax: M.Schubiger. Einführung in die Phonetik. Berlin, 1970, s. 56. Maraqlıdır ki, M.Şubiqerin sxemində [ɛ:] fonem kimi verilmir, [ə] isə sxemə əlavə edilir. Bax: M.Schubiger.Göstərilən əsər, s. 62. P.Leydfoqed ingilis saitlərinin formant göstəricilərini belə verir:

| $F_I$ | $F_{II}$ (hc-lə) |
|---|---|
| /i/ - 240 – 480 | 1020 – 1920 |
| /e/ - 415 – 640 | 1595 – 1820 |

| | |
|---|---|
| /ɛ/ - 590 – 770 | 1460 – 1815 |
| /a/ - 660 – 830 | 1260 – 1490 |
| /⊃/ - 435 – 725 | 780 – 980 |
| /o/ - 415 – 600 | 695 – 910 |
| /u/ - 260 – 430 | 540 – 855 |

Bax: P.Ladefoged. Three Areas of Experimental Phonetics. 1967.

[85] İngilis dilində bura /c/ və /w/ də daxildir. İngilis dilində hər bir kar samitin öz cingiltili qarşılığı var.

[86] Əslində bütün təhlili ikili qarşılaşma prinsipi ilə aparmaq olar. Biz irəlidə bu barədə danışmışıq (Bax: «Ünsiyyətin akustik aspekti» bölməsinə).

[87] Qarşılaşmaların nəzəri əsasını N.S. Trubeskoy işləyib hazırlamışdır. Bax: N.S.Trubeskoy. Göstərilən əsəri. Biz öz tədqiqatlarımızda onları geniş işıqlandırdığımızdan, burada o barədə ətraflı söhbət açmağı lazım bilmədik. Bax: F.Yadigar. Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

# V. FONEMLƏRİN DİSTRİBUTİV TƏHLİLİ

## V.1. Fonem birləşmələri və fonem dəyişmələri

Dilin fonemləri paradiqmatik qarşılaşmada olduğu kimi sintaqmatik qarşılaşmada da çıxış edirlər. Bunu müəyyənləşdirmək üçün bir dilin fonemlərinin danışıq aktının bu və ya digər yerində işlənib-işlənməməsini, yəni düzüm xüsusiyyətlərini araşdırmalıyıq.

Aydındır ki, hər bir fonem ayrılıqda ünsiyyətin qabığını təşkil edə bilmir. Məs.: alman dilində ¿Was hast du gegessen⇑ sualına /ʾa͜e// cavabını verəndə burada təkcə bir fonem verilən cavabın maddi qabığını təşkil edir. İngilis dilində /a͜e/ - „mən“, Azərbaycan dilində /o/ sözlərinin (mən, sən qarşılaşmasında), rus dilində ayrı-ayrı sözlərin maddi qabığının birfonemli olması məlumdur. (Məs.: u, i, k, v və s.). Dilçilik ədəbiyyatında təklikdə məlumatın qabığını bu cür təşkil edən fonları əsas variantlar adlandırırlar.[1]

Məlumdur ki, fonemlər müxtəlif fonetik mövqelərdə və vəziyyətlərdə çıxış edirlər. Hər bir danışıq aktında bu və ya digər fonem cürbəcür kombinasiyalar və pozisiyalarda çıxış edir, bəzilərinin düzülüşündə müəyyən məhdudiyyətlər olur. Bəziləri isə məhdudiyyətin nə olduğunu bilmir. Hər bir fonemin gələ bilmədiyi mövqe və vəziyyətdən fərqli olaraq, işlənməsi mövqelərinin və vəziyyətlərinin cəminə onun distribusiyası deyilir. Müəyyən vəziyyətlə bağlı işlənən variantlara isə fonemin mütləq variantları deyilir. Məs., ingilis dilində /t/ fonemi sözün əvvəlində, ortasında vurğulu saitdən əvvəl və ya sonra gələ bilir. Deməli bu samitin distribusiyası qeyri-məhduddur. Ancaq bu dildə /ŋ/ və /h/ samitlərinin distribusiyası məhduddur. Birinci sözün ortasında və sonunda gəlir, amma əvvəldə heç zaman işlənmir. İkincisi isə heç zaman sonda gələ bilmir. Ona görə də bunlara məhdud distribusiyalı fonemlər deyilir.[2]

İstər qeyri-məhdud, istərsə də məhdud distribusiyalı fonemlər müəyyən şəraitdə və vəziyyətdə çıxış edərək müəyyən variantda realizə olunur. Məs., /t/ fonemi kombinasiyaya girdiyi qonşu fonemin və ya fonetik mövqeyin təsiri ilə müəyyən çalarlar qəbul edir: /'t$^{0}$y:R/, /'t'i:R/, /t$^{h}$a:t$^{h}$/ və s. Deməli, dodaqlanan [t$^{0}$], [t'] və nəfəsli [t$^{h}$] bu sözlərdə məjburidir. Amma rus dilində /gd^mam/ k domam fonetik sözündə /d/ samitinin təsirilə /g/ tələffüz edilməlidir, lakin ingilis dilində /kcts/ sözündə sondakı /s//t/ samitinin tələbilə belə tələffüz olunur. Çalarların ən zəngini mövqe və birləşmə ilə bağlıdır. Burada kombinator və mövqe ilə bağlı variantlar fərqləndirilir. Adından bəlli olduğu kimi, kombinator variant danışıq zəncirində bir fonemə onu əhatə edən digər fonemlərin təsirinin nəticəsidir. Məs.:




Mövqe ilə bağlı variant isə fonemin sözdə və ya, ümumiyyətlə, danışıq aktında harada (əvvəldə, ortada, sonda, vurğulu və ya vurğusuz hecada) gəlməsindən asılı olaraq yaranan çalarlıq başa düşülür ki, buna da mövqe ildə bağlı variant deyilir. Məs.:




/Abend, aber, Tal, Laborant/ /Ast, an, Gast, Monat/ və s.

Həm kombinator, həm də mövqe variantları çarpazlaşmayan distribusiya əlaqələrinə girirlər.[3] Bu o deməkdir ki, bunlardan heç biri digərinin yerində işlənə bilməz.[4] Bundan fərqli olaraq bir-birini əvəz edən variantlar da var ki, bunlara fakülta-

tiv variantlar deyilir. Məs., alman dilində [r] və [R], türk dilində [e] və [æ] və s. Ancaq burada bir şeyi unutmaq olmaz ki, onlar azad variantlar olsa da, hər birinin işlənməsi diatopik, diastratik və diafatik şərtlərə əsaslanır.

## V. 2. Fonem əvəzlənmələri

Alternasiya adlanan bu proses morfem və sözlərin daxilində müxtəlif amillərin təsiri nəticəsində fonemlərin əvəzlənməsini nəzərdə tutur. Qeyd edildiyi kimi, fonemlər diskret vahidlərdir, yəni özləri kimi fərqləndirmə və tanıma funksiyasını yerinə yetirən daha kiçik hissələrə bölünmür, həm də morfem və leksemlərin fonetik qabığında düz xətt boyunca bir-birinin ardınja düzülür (işarələrin xətti-linearitet prinsipi). Amma bu heç də o demək deyildir ki, morfem və sözlərin fonem tərkibi daim sabit qalır və heç zaman dəyişikliyə uğramır. Dəyişiklik olmazsa, sistem öz daxili mütəhərrikliyini qoruyub saxlaya bilməz. Söz və morfemlərdə fonem dəyişikliyi flektiv dillərdən sayılan german dillərində daha çox müşahidə olunur.[5] Fonem əvəzlənməsini doğuran səbəblər bir tərəfdən dilin bu günü, digər tərəfdən isə keçmişilə bağlı olur. Aşağıdakı misallara müraciət edək.

| | | | |
|---|---|---|---|
| /a/→ /ɛ/ | Man-Männer | /o:/→/œ/ | Lohne(Dat)-Löhne |
| /a:/→ /e:/ | Tag-täglich | /o./→ /o:/ | Doktor-Doktoren |
| /i:/→ /i./ | Musik-musizieren | /u:/ →/i:/ | foot-feet |
| /e:/→/a:/→/e./ | geben-gaben-gegeben | /g/→ /k/ | Tage-Tag |
| /ł/ → /l/ | feel-feeling | /ŋk/→/x/ | denken-dachte |

Misallardan göründüyü kimi, söz və morfemlərin fonem tərkibində bir sıra dəyişiklik baş verir. Həm də bu dəyişikliklərin və ya əvəzlənmələrin heç də hamısı eyni dərəcəli və eyni mənalı deyildir.

Söz sonunda cingiltili samitlərin karlarla əvəzlənməsi çağdaş alman dili üçün səciyyəvidir. Başqa sözlə desək, bütün cingiltililər söz və morfem sonunda kar qarşılıqları ilə əvəzlənirlər.

İngilis dilində isə bu mümkün deyildir. Lakin alman dilində söz və morfem başında əvəzlənmə olmur. Əlbəttə, burada söz ədəbi dildən gedir. Almaniyanın cənubunda və Avstriyada söz və morfem başında novlu cingiltililər müvafiq karlarla əvəzlənir. Bu və ya digər mövqedə gələ bilməyən fonemləri biz yuxarıda məhdud distribusiyalı fonemlər adlandırmışdıq. N.S.Trubeskoy və onun ardıcılları bu kimi halları zəif mövqedə müəyyən əlamətə görə qarşılaşmanın neytrallaşması adlandırırlar. Neytrallaşma mövqeyində realizə olunan səsi N.S.Trubeskoy arxifonem, Moskva məktəbi isə hiperfonem adlandırır.[6] Şerba məktəbi belə hallarda fonem əvəzlənmələrindən danışır. Məs: /'ta:k/-/'ta:gə/, /'*za:gən/-/'*za:kt/, /'lo:nə/-/'lø:nə/.

Əvəzlənmənin ümumi şəkildə iki növünü fərqləndirirlər.

1. Variant və ya allofon əvəzlənməsi;

2. Fonem əvəzlənməsi.

Alman dilində /Doktor/-/Doktoren/, /Melodie/-/melodisch/, /leben/-/lebendig/, /Musik/-/musizieren/ sözlərindəki /o:/-/o./, /e:/-/e./, /i:/-/i./ saitlərinin və ingilis dilində /feel/-/feeling/ sözlərindəki /ɫ/-/l/ samitlərinin əvəzlənməsini allofon əvəzlənməsi adlandırmaq olar, çünki burada fonetik vəziyyətlə bağlı mütləq variantlar bir-birini əvəz edirlər.

Amma /'*ge:bən/-/'*ga:bən/, /Mann/-/Männer/, /Lohne/-/Löhne/, /write/-/written/, /foot/-/feet/ sözlərindəki /e:/-/a:/, /a/-/ɛ/, /o:/-/ø/, /ai/-/i/ əvəzlənmələrini fonetik vəziyyətlə əlaqələndirmək olmaz. Onların əksəriyyətində fonem əhatəsi eynidir. Fonetik çalarlıqdakı dəyişiklik isə fonem əvəzlənməsinin nəticəsində meydana gəlir. Belə əvəzlənmələrin kökünü dilin tarixində axtarmaq lazımdır. Bunlar fonem əvəzlənmələri adlanır və onların meydana gəlməsi səbəblərini diaxronik baxımdan açmaq olar. Bundan fərqli olaraq Şerba məktəbi daha bir fonem əvəzlənməsini - canlı fonem əvəzlənməsini fərqləndirir. Məs.: /pʌgódʌ/-/pʌgótka/ sözlərində /d~t/ əvəzlənməsini doğuran əsas səbəb müasir rus dilində hökm sürən fonetik qanundur: kar samit qarşısında

cingiltili samit gələ bilməz. Alman dilində də bu belədir. /'ʃtu:bə/- /'ʃty:pçən/ və s. sözləri buna misal ola bilər.

Sintaqmatik səviyyədə fonemlərin düzülüşündəki qanunauyğunluqlardan danışarkən onların bir-birilə bilvasitə (kontakt) və bilavasitə (distant) birləşməyə girib-girməməsinin, hər bir fonemin işlənməsi tezliyinin müəyyənləşdirilməsi fonotaktika və ya kombinatorikanın qarşısında duran mühüm məsələlərdəndir.

Nəzəri baxımdan bir fonemin sistemdəki digər fonemlərlə yan-yana işlənməsinə heç nə mane olmur. Belə olan halda (1.2.3.4...) $40^{39}$ miqdarda söz yaranardı ki, bunu da təsəvvürə gətirmək mümkün deyildir. Praktik olaraq isə dil fonemlərinin işlənməsində bütün struktur səviyyələrdə məhdudiyyətlər var. Elə buna görə də dildə maksimum söz ehtiyatı 350 min ətrafında olur. İndiyə qədərki fonotaktika artıq müxtəlif səviyyələrdə bir neçə mühüm qaydaları müəyyənləşdirməyə nail olub. Fonotaktik təhlilin nəticələri dil materialının hansı həjmdə götürülməsindən, hansı fonem inventarından çıxış edilməsindən, bi- və monofonem kriteriyalarından asılı olaraq müxtəlif ola bilər. Fikrimizjə, danışıqda işlənən bütün dil faktorları nəzərə alınmalı, hər dilin fonoloci sistemi qəti müəyyənləşdirilməli, diftonq və afrikat məsələləri dəqiqləşdirilməlidir. Yalnız bundan sonra kombinator təhlilə keçmək mümkündür. Burada isə bəzi müşahidələrin nəticələrini verməklə kifayətlənirik.

1. Alman və ingilis dillərində /ŋ/ fonemi söz və morfem başında gələ bilmir.

2. Bu dillərdə /h/ fonemi heja, morfem və söz sonunda gələ bilmir.

3. Alman dilində vurğusuz açıq hecalarda uzun saitlər yarımuzun variantlarda çıxış edir. Söz, morfem və heca sonunda isə qısa saitlər işlənmir.[7]

4. Alman dilində söz və morfem sonunda cingiltili samitlər gəlmir, ingilis cingiltili samitləri üçün bu məhdudiyyət yoxdur. Fonemlərin işlənməsində müşahidə olunan distributiv xüsusiyyətlər konkret dil materialı əsasında araşdırılıb müəyyənləşdirilə

bilər. Alman dilində KV modeli üzrə aşağıdakı kombinasiyalar mümkün deyildir:

/ŋ/, /z/+ bütün saitlər :

/ç/+/u:, ʊ, ɛ, ø:, ü/

/x/+/a, ɔ, u:, ʊ, ɛ, ø:, æ, ü, u:/

/tʃ/+/o:, ʊ, ɛ, ø:, œ, u:/

İkinci mühüm məsələ fonemlərin işlənmə tezliyinin müəyyənləşdirilməsidir. Biz «BFA-1999-cu il»də çap olunmuş «Şimal küləyi» mətnində alman, ingilis və daç dillərindəki mətni transkripsiya edərək bu dillərdə fonemlərin işlənməsi tezliyini tədqiq etdik. Onun bəzi nəticələrini burada verməyi lazım bildik: həmin mətn ingilis dilində 114, alman və daç dillərində isə müvafiq olaraq 108 sözdən ibarətdir. Alınan nəticələr aşağıdakılardan ibarətdir:

| | İngilis dili | alman dili | daç dili |
|---|---|---|---|
| Cəmi: | | | |
| söz | 114 | 108 | 108 |
| fonem | 380 | 470 | 400 |
| onlardan: | | | |
| | [ə] 38 dəfə | /n/ 50 dəfə | [ə] 57 dəfə |
| | /n/ 26 ----- | /R/ 38 ----- | /R/ 30 ----- |
| | /⊥/ 19 ----- | [ə] 33 ----- | /n/ 28 ----- |
| | /t/ 18 ----- | /⊥/ 18 ----- | /⊥/ 6 ----- [8] |

Beləliklə, bizim kiçik arifmetik hesablamamız imkan verir ki, bu üç qohum dildə fonemlərin işlənmə tezliyində oxşar və fərqli cəhətləri müəyyənləşdirək. Bu tipli tədqiqatlar dilöyrənmədə önəmli yer tutur. Belə ki, daha tez-tez işlənən dil vahidinə çox diqqət yetirməli, onları ilk növbədə öyrətməliyik. Fonem tezliklərinin müəyyənləşdirilməsi mətnin riyazi-statistik yolla tədqiqində, mətnlərin tipoloji təhlilinin verilməsində mühüm rol oynayır. Digər tərəfdən, hər bir fonemin entropiyasının müəyyənləşdirilməsi mətnin avtomatik təhlilində və tanınmasında əvəzsiz rol oynayır (bax:1-ci fəsil).

## V. 3. Fonem realizasiyasına heca və prosodiyanın təsiri

Sintaqmatikada fonemlərin düzümündə müəyyən qanunauyğunluqlar həm samit+sait, həm də sait+samit ardıcıllığında özünü büruzə verir. Bu sahədə german dillərinə xas olan ən ümumi əlamət fonemlərin bir heca əmələ gətirərək tələffüz vahidi kimi çıxış edə bilməsidir. Heca fonemlərin realizasiyası üçün ən münasib fonetik sahədir. Hecaya yığcam şəkildə tərif versək, ona prosodik vasitələrin köməyilə sait+samit və ya əksinə növbələşməsi kimi yanaşmaq olar.

Heca nəinki seqment vahidlərin, həm də supraseqment vasitələrin (ton, prosodiya, vurğu və s.) daşıyıcısıdır. Elə buna görə də hecaya fonetik bütövlük kimi yanaşılır. Sait+samit və ya əksinə düzümündə hecanın özəyini, nüvəsini əksər hallarda sait fonemlər təşkil edir. Məs., alm.d.: /˃an/, /⁎van/, /nu:/, /nu.R/; ing.d.: /ænd/, /bæd/; daç d.: /bɛd/, /nø:s/ və s. Ancaq /'li:bnn̩/, /ta:fl̩/, /' ⁎ge:bn̩/ və s. sözlərdə ikinci heca da vardır. Anjaq onlarda heca nüvələrini sonorlar təşkil edir.[9]

Hecanın digər dil vahidlərilə üst-üstə düşməsi sırf təsadüfi bir şeydir. Məlumdur ki, klassik dilçilik ədəbiyyatında bəzən sait və samitlərin statusu onların heca əmələgətirmə funksiyaları ilə müəyyənləşirdi. Yəni heca əmələ gətirən səslərə saitlər /Mitlaute/, onları müşayət edənlərə isə samitlər /Selbstlaute/ deyirdilər. Müəyyən mənada bu təriflə razılaşmaq olardı, anjaq bu heç də universal tərif deyildir. O. fon Essen hecaya fonem ardıjıllığı kimi yanaşırdı və onu fonoloji yolla müəyyənləşdirməyi təklif edirdi.[10] L.R.Zinder haqlı olaraq hecanı ən kiçik tələffüz vahidi kimi müəyyənləşdirir.[11]

Heca haqqında ən geniş yayılmış 3 nəzəriyyə var. O.Yespersen fonemləri səslənmə dərəcəsinə görə 8 yerə bölürdü:[12] 10: /a:, a/; 9: / ɔ:, ɔ, e:, ɛ, ø, œ, o:/; 8: /y:, y, u:, ʋ, i:, i/; 7: /R/; 6, 5: /m, n, l, ŋ/; 4:/v, z, j/; 3:/b, d, g/; 2-1: /f, s, h, x, ʃ, p, t, k/. Bu baxımdan ən uja səs sonrakı səslə qonşuluqda gələndə heca zirvəsini həmin

uja səs təşkil edir. Lakin mütəxəssislər bununla razılaşmır, bəzən bir sözdə iki zirvə olsa da, tək bir heca sərhədini müəyyən etməkdə acizdir. İkinci nəzəriyyə amerikan alimi R.H.Stetsona məxsusdur.[13] Bu nəzəriyyənin adı impuls nəzəriyyəsidir. Həmin nəzəriyyəyə rəğmən heca bir nəfəsvermədəki bir impulsa bərabərdir. İmpulsların sayı dodaqların açılmasına uyğundur. Amma eksperimental tədqiqatlar sübut edir ki, bir nəfəsvermədə bir neçə heca tələffüz etmək mümkündür.

Üçüncü geniş yayılmış nəzəriyyə Qrammon-Şerba tərəfindən işlənib hazırlanıb. Bu nəzəriyyəyə görə, heca əzələ gərginliyinin məhsulu olub, bir gərginlik zirvəsindən o birinə qədər olan məsafədə yaranır. Məs:| a: | a |. Göründüyü kimi, zirvə həm sükunət xəttində ayrılıb, yenidən sükunət xəttinə qayıtmanı əhatə edir. Hər sinusoidal zirvə bir hecadır. Bu nəzəriyyəyə görə samitlərin heca tutumunda üç növü olur: Güclü başlanğıclı, güclü sonluqlu və ikizirvəli. Qüvvətli başlanğıclı samit özündən əvvəlki saitə qoşulur və təbii ki, heca sərhədi ondan sonra keçir. Məs: /'vin|diç/, /ʃtɛR|kə/. Güclü sonluqlu samit ondan sonrakı saitə qoşulur, heca sərhədi ondan əvvəl keçir. Məs: /'tRø:s|tən/, /ʃta:|tliç/ və s. İkizirvəli samitlərdə isə heca sərhədi samitin tən ortasından keçir. Məs.: /'nɛ|nən/, /'mʊ|təR/ və s. Bu nəzəriyyə praktik jəhətdən heca sərhədini müəyyənləşdirməkdə ən kamil və səmərəli sayıla bilər. Heca sərhədinin bəzən morfem sərhədi ilə üst-üstə düşməsi onlar arasında bərabərlik işarəsi qoymağa əsas vermir. Sırf tələffüz vahidi kimi heca saitlə samit ardıjıllığından prosodik vasitələrin köməyi ilə əmələ gələrək bölünməz bir fonetik vahid təşkil edir və onun morfemlə üst-üstə düşməsi təsadüfün nəticəsidir.

German dillərində heca sərhədi əksərən morfem sərhədi ilə üst-üstə düşmür:

| alman d. | ingilis d. |
|---|---|
| /bə-'kan-tʃaft-liçə/, ancaq /'ba͜o-əR/ | /ti:-tʃə/, /fa-ðə/, /sloʊ:-ə/, /blu:ə/ |
| /'za-gən-haf-tə/, /bla͜o-ə/ | |

Heca sərhədi iki sait arasından keçir. Məs.:

/'ze:-ən/, /'bla͜o-ən/, /ge:-ən/ /'si:-ə/, /'lei-ə/

Saitlə samit arasından keçir. Məs.:

/'le:-zən/, /'be:-zən/, /fe:-dəR/ /'li:-də/, /fəʊ:-ne-tık/ və s.

Saitlə samit arasından keçir. Məs.:

/' ˃an-ɛR-ˌkɛn-nən/, /'˃an-a͜e-knən / /'fi:-ldə/, /pri.pɛəd/ və s.

İki samit arasından keçə bilir. Məs.:

/'zɛn:-dən/, /'mɛl-dən/ və s. /bil-diŋ/, /kəm-pli:t/ və s.

Heca strukturu bir və ya bir neçə fonemdən ibarət ola bilər. Məs.:

Birfonemli - /˃ae/, /ze:-ə̲/, /blʊ-ə̲/ və s.

İkifonemli - /˃an /, /˃in /, /ən/, /əz/, /na/, /t͜su./, /du./, /tu./ və s.

Üçfonemli - /bla͜o/, /fRa͜e/, /t͜su.R/, /blʊ/, /fri:/,
/˃ast /, /˃ʊnt /, /ænd/, /bæd/ və s.

Dördfonemli - /'gast/, /'Rest/, /'lʊst/; /lænd/,/hænd/, /a:sks/ və s.

Beşfonemli -/'fe:Rst/, /'ʃRa͜ept/, /˃ɛRnst/; /flənl/,/fləetn/ və s.

Altıfonemli-/'hɛRpst/,/'ʃRa͜epst /, /'ʃvimst/;/splint/, /sprindz/ və s.

Heca fonoloji vahid kimi o mənada qəbul edilə bilər ki, dil sistemində heca modellərinin qarşılaşmaları olduqda onlar konkret heca qəlibləri yaradır. Əyani olaraq bunu modellərlə belə göstərmək olar:

Təkhecalı model və onun variantları:
KV KV
0#0
KKV VKK
00#00
KKKV VKKK
000#000
Cüthecalı model və onun variantları:
VV VV
00 və ya 00

KV′ KV̆ KV̆ KV′
00 00 00 00
KKV′ KV̆ KKV̆ KV′
000 00 000 00
KV′ KKV̆ KV̆ KKV′
00 000 00 000
KKV′ KKV̆ KKV̆ KKV′
000 000 000 000
Üçhecalı model və onun variantları:
V′K V̆KK V̆K V′K
00 000 00 00
V′KK V̆KK V̆KK V′KK
000 000 000 000
V′KKK V̆KK V̆KKK V′KK
0000 000 0000 000 və s.

İki və daha artıq hecalı sözlərdə bu modellər əsasında hecalar yaranır və daima vurğulu ilə vurğusuz, açıqla qapalı bir-birini əvəz edir. Dildəki sözlərin hamısı təkhecalı deyildir, ona görə də ikili, bəzən də üçlü qarşılaşma dil sistemində bütün hecaların mümkün modelləridir. Bir modelin fonem tutumuna görə bir neçə variantı var. Bu variantlar konkret danışıq aktında sonsuz miqdarda realizə oluna bilər.

Hecaları keyfiyyətinə və kəmiyyətinə görə fərqləndirirlər. Bu əlamətlər german dilləri üçün çox vacibdir (bu barədə irəlidə geniş məlumat veriləcək). Keyfiyyətinə görə heca açıq, qapalı, örtülü və ya qeyri-örtülü olur. Saitlə qurtaran heca açıq, samitlə bitən heca isə qapalı sayılır. Məs.:

alm.d.: /'fa:dən/, /'la:dən/, /'fRo:/, /t͜su./ və s.

ing.d. /'fri:/, /tu/, /fæ.mi:li/ və s.

Qeyd edək ki, german dillərində açıq hecalar üstünlük təşkil edir və qapalıların da açılmağa meyli güclüdür. Bunun üçün alman dilindəki /an/ sözünü dalbadal bir neçə dəfə tələffüz etmək kifayətdir. Üçüncü, dördüncü dəfədə artıq heca açılır. /an-an-na-na-na/ və s.[14] Bir və ya bir neçə samitlə bitən heca qapalı sayılır.

Məs.: /ænd/, /ˀʊnt/, /ˀin/, /lænd/, /d‿ʒo:n/ və s. Saitlə başlayan heca qeyri-örtülü, samitlə başlayan isə örtülü heca adlanır. Məs.:

daç d.: /an|hat/ - «əynində olmaq», /spra:kə/-«dedi» və s.

alman d.: /'ˀanˌha:bən/, /'ˀa:bənt/, /'gaŋ/ və s.

ingilis d.: /'n⊃θwind/ ; /ə'gri:d/ və s.

Açıq və qapalılıq german dillərində, xüsusən alman dilində, hecanın kəmiyyəti ilə birbaşa əlaqədardır. Belə ki, açıq hecada qısa sait gələ bilməz. Heca açıq və vurğuludursa, onda sait mütləq uzun, açıq və vurğusuzdursa, onda sait yarımuzun deyilməlidir. Məs., /mu.'zi:k/, ancaq /mu.zi.'t‿si:rən/. Qısa saitlər yalnız mütləq qapalı vurğulu və vurğusuz hecalarda gələ bilər. Məs.: /'ˀan-,ne:mən/, /'ˀim‿'gaRtən/ və s.

Bəzi hecalar şərti qapalı olur və ya onlar tarixən açıq, sonralar isə unifiksiya nəticəsində qapalı hecaya çevriliblər. Bu hecalarda saitlər vurğu altında uzun, vurğusuz halda isə yarımuzun tələffüz olunurlar. Birinci halda heca açıla bilir. Məs.:

/'ta:k/ - /'ta:gə/

İkinci halda isə heca tarixən açıq olub, ənənəvi olaraq sait də uzunluğunu qoruyub saxlayıb. Məs.:

/br⊃øti.ga:m/, /'mo:nt/ və s.[15]

Alman dilində heca strukturunda samitin saitə qoşulmasının öz spesifik xüsusiyyətləri var ki, buna elmi ədəbiyyatda anşlus problemi deyirlər. Son illərin tədqiqatı göstərir ki, VK strukturunda komponentlər arasında bağlılıq nisbətən daha güclüdür.[16] Anşlus möhkəm olan hecalarda (ton, intensivlik, formant strukturu, lokus əlamətləri) bu tipdə özünü daha aydın büruzə verir. Yuxarıda qeyd etdiyimiz kimi, E.Sivers bunu qüvvətli və zəif aksent kəsiyilə izah edirdi. KV-də isə, bu alimə görə, aksent zəifdir.

## V. 4. Sintaqm intonasiya vahidi kimi

Ünsiyyət fonem ardıcıllığı, heca növbələşməsi deyil, o daha mürəkkəb neyrofizioloji, psixo- və sosiolinqvistik proseslərin çulğaşmasından törəyir. Yuxarıda dedik ki, fonemlərin realizasiyası üçün ən yaxşı şərait onların heca daxilində işlənməsidir.

Danışıq aktına heca növbələşməsi kimi yanaşanda üzvlənmənin fonem birləşməsindən sonrakı ikinci böyük fonetik vahidi heca olduğunu yuxarıda qeyd etmişdik. Ancaq ünsiyyət təjrid edilmiş hecaların yığımı deyil, mənaya tabe olan sintaktik strukturun sintaqmatik əlaqələrindən yaranan bir bütövdür. Yuxarıda gətirdiyimiz misalın /˃⊥m ⁎zy:dən/hɛRʃt/ /˃⊥n di:zən 'ta:gən/ birinci hissəsində 9 heca düz xətt boyunca xaotik düzülməyib. Burada sinsemantik sözlər /˃⊥m, ˃⊥n / sözlərindən sonra gələn avtosemantik sözlərə /'⁎zy:dən/, /'hɛRʃt/, /di:zən/, /'ta:gən/ birləşərək danışıq aktında bir bütöv yaradır. Bu bütöv 2 cəhətdən səciyyələnə bilər.

1) Bütövün mənası var.

2) Bütöv alman dilinin qrammatik qaydalarına əsasən təşkil olunub (ismin dativ halında durması, söz önünün artiklə birləşməsi, felin 3-cü şəxsdə işlənməsi, sonra gələn mübtədanın /Ru:ə/ ilə uzlaşması və s. Bu bütöv fonetik baxımdan prosodik vasitələrin köməyi ilə (vurğusuz sözlər vurğulular ətrafında birləşir) düzəlir. Bu cür bütövə sintaqm deyilir.[17] Sintaqm bir və ya bir neçə fonetik sözdən ibarət ola bilir. Məs.: /˃⊥m '⁎zy:dən /, /˃⊥m ⁎zy:dən hɛRʃt ˃⊥n di:zən 'ta:gən/, /˃aenə fuRçtba.Rə/, /fy.R ˃uns ˃⊃øRo΄pe:əR kaom bəgraefliçə/, /Ru:ə/).

Fonetik sözün bir vurğulu hecası olur, o birilər isə vurğusuz olduğundan həmin o vurğulu hecanın ətrafında birləşirlər. Vurğusuz söz vurğudan əvvəl gələndə olur proklitik. Məs.: /˃⊥m ‿'⁎zy:dən /. Amma vurğusuz söz vurğuludan sonra gələrsə, buna enklitik deyilir. Məs.: /,zaenəR 'maenuŋ‿ na.x/ və ya /'hi:r 'gi:pt ‿ ˃ɛs/ və s.

Danışıq aktının sintaqma, sintaqmın isə aktlara (vurğulu sözlə vurğusuz söz ardıcıllığına) bölünməsi deyilənin aydın başa düşülməsinə xidmət edir. Vurğulu hecanın və ya sözün nəinki saiti yüksək tonla, qüvvətli tələffüz olunur, o həm də, bir qayda olaraq, daha böyük zaman sərf etməklə deyilir. Bilavasitə bu nüvənin ətrafında olan samitlər daha sıx əlaqədə olur. Məs.: qısa saitlərdən sonra samitlər daha sıx əlaqədə olur (starkgeschnittener Akzent), uzun saitlərdən sonra isə bu əlaqə xeyli zəif olur

(schwachgeschnittener Akzent). Məs.: /'ʃta:t/ və /'ʃtat/. Əsas məsələ danışıq aktında nisbətin gözlənilməsidir. Bu xüsusilə ifadəli oxuda, şer sənətində və səhnədə özünü çox qabarıq şəkildə büruzə verir.

Sintaqmın da öz vurğusu olur. Sintaqmın vurğulu mərkəzindən əvvəl və sonra gələn vurğusuz seqment ardıcıllığı sintaqmın fonetik təşkilinə xidmət edir. German dillərində tonun qalxıb-enməsi yalnız cümlə səviyyəsində distinktivdir. İngilis dilində qalxan, enən, qalxıb-enən tonların fərqləndirilməsi sadəjə olaraq tədris prosesində cümlə intonasiyasını daha yaxşı mənimsətməyə xidmət edir.[18] Prosodik elementlərin içərisində vurğu mühüm rol oynayır.

German dillərində prosodik əlamətləri öyrənən elmə prosodika, vurğudan bəhs edən elmə aksentologiya, intonasiyadan bəhs edən elmə isə intonologiya deyilir. Bu bölgüdə müvafiq olaraq 3 vahiddən söhbət gedə bilər: prosodem, aksentem və intonem. Bütün bu vahidlərin özülündə fonetik əlamətlərin (tonun, uzunluğun, qovuşuq münasibətlərin, intensivliyin, açıq-qapalı, dodaq-qeyri / dodaq əlamətlərin) birgə nisbi fəaliyyəti durur və, adətən, bu vahidlər səviyyəsində qarşıdurma bu əlamətləri danışıq aktının bir nöqtəsində qonşuda və ya bütövlükdə düz xətt boyunja başqa nöqtələrdəkindən daha qabarıq ifadə olunur. Müq. et:



və ya



və s.

Bu şəkillərdə prosodik əlamətlərin 4 dərəcəsi göstərilir. Elə bu dərəcələr prosodem, aksentem və intonemin təbiətini aydın şəkildə açıb göstərir. Seqment vahidlərdən fərqli olaraq bu əlamətlər diskret şəkildə bir-birinin ardınca düzülmür, bu şəkildə düzülən seqment vahidlərinin üzərinə sərilir, sanki məhlul kimi

arasına girərək sözləri, ifadələri və cümlələri bir bütövə çevirir. Ona görə onlara superseqment (seqmentüstü) vahidlər deyilir. Seqment vahidlərin düzümündə həlledici rol oynayan, onların bir bütöv halında dərk edilməsini təmin edən superseqment vahidə vurğu deyilir. Vurğu həmişə vurğusuzun, zəif vurğulunun fonunda qəbul olunur. Vurğusuz hecalarda fonemlər, bir qayda olaraq, zəifləyir. Məs.:

controversy /'kɒntrəvɛ:si/ və ya /kɒntrəvz:si/

Vurğu baxımından güclü vurğulu, vurğusuz, zəif vurğulu və vurğusuz ardıcıllığı bir sözün fonetik qabığını yaradır. Əgər onlar müxtəlif sözlərdirsə, biri işlənən kontekst və ya situasiyada digəri işlənə bilməz. Əks-təqdirdə onlar fakültativ işlənən sözlər olur. Əyani olaraq bunu belə göstərmək olar.




Deməli, vurğulu yalnız vurğusuz, qüvvətli vurğulu isə zəif vurğulu hecanın və sözün müqabilində dərk edilir. Danışıq aktı adətən vurğulu ilə vurğusuz heca və sözün növbələşməsidir. Müxtəlif növbələşmədə ritm, ahəngdarlıq yaxşı olur, növbələşmə pozulanda ahəngdarlıq da pozulur.

Məs.:

ˇta-'ta, ˇta-'ta, ˇta-'ta və ya ˇta-ˇta,-'ta, ˇta-ˇta-'ta və ya
'ta-ˇta, 'ta-ˇta və ya 'ta-ˇta-ˇta, 'ta-ˇta-ˇta və ya
'ta->ta, 'ta->ta, 'ta->ta, 'ta, >ta->ta, 'ta->ta->ta və s.

Təbiətinə görə vurğu ya melodik, ya dinamik, ya da temporal olur. Əksər hallarda vurğunun özülündə iki komponent-melodiya + güc (intensivlik); güc + zaman (temporal), melodiya + zaman və s. durur. Alman dilində vurğu melodik-dinamikdir,

zaman sait fonemlərin inherent əlamətidir. İngilis dilində vurğu dinamik-melodikdir.[19] Azərbaycan dilində vurğu dinamikdir.

Melodik




/'>a:-təm/ /bə't‿su:k/

Dinamik




/'ɛks: port/ /ɛks 'port/

Temporal

/ | -----------| / | ----| / və ya / | ----| / | ------------| /

/'ʃta:| tən/ /⁎bə' le:k/ və s.

İşlənmə dairəsinə görə vurğu 3 cür olur. Söz, sintaqm və cümlə vurğusu. Onlar müvafiq olaraq /'/, /''/, /'''/ işarələri ilə göstərilir. R.Yakobsona görə[20] vurğu distinktiv, kulminativ, delimitativ və ya demarkativ funksiyalarını yerinə yetirir. Vurğunun köməyi ilə danışıq aktında neçə sözün, neçə zirvənin və morfoloci sərhədin harada olduğunu müəyyənləşdiririk. Məs: /'>⊥m ⁎zy:dən/, /''hɛRʃt/, /'>⊥n di:zən ''ta:gən/... və s. Burada 3 zirvə var, çünki üç aksent mərkəzi realizə olunub.

İngilis dilində /imp'ɔ:t/ (idxal etmək) və /'impɔ:t/, alman dilində /''ʃta‿en'ra‿eç/ («daşlı-kəsəkli»), /ˌʃta‿en'ra‿eç/ («çox zəngin») sözlərindən çıxış edərək vurğunun distinktiv funksiya daşıdığını güman edənlər unudurlar ki, həmin sözlər heç vaxt eyni kontek-

stdə bir-birini əvəz edə bilməz. Odur ki, onlara müxtəlif sözlər kimi yanaşılmalıdır. Burada vurğu, sözü bütövə çevirən mühüm fonoloji vasitə kimi çıxış edir. Ona görə də belə hallarda vurğunun konstitutiv funksiyasından danışmaq düzgün olardı.

Vurğu bəzi dillərdə daima bir hecanın üzərinə - latın, çex və slovak dillərində sözün əvvəlində, polyak dilində sözün axırınjıdan əvvəlki hecasına, daç dilində axırdan 3-cü (antipenultim), sondan 2-ci (penult) və ya 2-ci heca açıqdırsa, son hecanın, qapalıdırsa, 2-ci və ya son hecanın üzərinə düşür (Məs: 'ka:n⊃n, ka'n⊃n, 'sᴇʀvis, sᴇʀ'vis) və s. Belə hallarda vurğunun delimitativ, yəni sözün sərhədini göstərən funksiyasından danışılır.[21]

Çağdaş german dillərində vurğunun yeri ilə bağlı iki məsələni fərqləndirmək lazımdır. Birincisi vurğunun yeridir, ikincisi isə vurğunun hərəkiliyi məsələsidir. Əgər vurğu bütün hallarda sözdə bir hecanın üzərinə düşürsə (məs.: fransız dilində anjaq son heca vurğulu olur), polyak dilində anjaq sondan ikinci heca vurğulu olur, onda belə vurğuya bağlı vurğu deyilir. Vurğu sözdə isətənilən heca üzərinə düşürsə, buna sərbəst vurğu deyilir. German dillərində vurğu sözün istənilən hecası üzərinə düşə bilər. Məs.:

alm.d.:

/'˃a:b^ənt/, /me.lo.'di:/, /fɛʀ'na͜enuŋ/ və s.

ing.d.:

/ə'gri:d/, /'trævəls/, /kən'sidəd/ və s.

daç d.:

/'ka:n⊃n/, /ka'n⊃n/ və s.

Bundan fərqli olaraq vurğunun hərəkiliyi və qeyri-hərəkiliyi (bağlılığı) sözün öz formasını dəyişərkən dəyişə bilməsindən asılıdır. Əgər sözün bütün formalarında vurğu həmişə bir heca üzərində qalırsa, buna konstant (məs.: fransız, polyak və s. dillərində), dəyişərək başqa heca üzərinə keçirsə, buna hərəki vurğu deyilir. Alman dilində vurğu nisbi hərəki, nisbi sabit müəyyənləşdirilə bilər. Məs.:

sabit: /'t͜sy:gə/, /bə't͜sy:gə/, /bə't͜sy:kliç/, /bə't͜su:k,na.mə/ və s.
hərəki: /me.lo.'di:/, /me.'lo:diʃ/, /mu.'zi:k/, /mu.zi:'t͜si:Rən/ və s.

Adətən, vurğudan danışanda onun kontrastiv funksiyasını (qarşılaşdırma) xüsusi qeyd edirlər. Məs. tədrisdə kişi cinsli isimlərdən dativ halında /m/ qəbul etməsini nəzərə çatdırmaq məqsədi ilə /t͜su.de:m (niçt de:R) fa:təR/ kimi işlənir. Bu pedoqoji fonetikada geniş işlənən üsullardan biridir. Başqa bir kontekstdə müəllim tələbənin səhvini düzəldərək deyir ki, /'bək⊃mən/, /'gek⊃mən/ yox. Belə olduqda sözdə istənilən hecanı vurğu ilə ayırmaq mümkündür.[22]

Bu yaxınlarda çapdan çıxmış kitabında Ute Maas (1942)[23] mürəkkəb sözlərin aksentoloji şərhinə yeni ruh verməyə çalışaraq onların daxili aksent quruluşunu açır. Qeyd edək ki, U.Maas hər bir ifadəni 4 mühüm cəhətdən araşdırır.

1. $A_1$ -ifadənin fokusu;

2. $A_2$ -tema-rema üzvlənməsi (fokus burada remanın tərkib hissəsi kimi götürülür);

3. B-sintaktik strukturun və ya sözün qəlibi;

4. V-sözün sintaktik qurumu (heca strukturu).

Nəzərə alsaq ki, müəllif prosodik qurumun ətəyində troxeya (x-), daktiliya (x...), yambus (-x) və anapest (--x) kimi səciyyəvi əlamətləri ayırır, onda istənilən mürəkkəb tərkibin prosodik qurumunu açıqlamaq mümkündür. "Traxeyik formalı mürəkkəb sözlərdə prosodik struktur rekursiv qurulur, burada hər bir troxeya özlüyündə, yuxarıda deyildiyi kimi, əlamətlərin toplusu ilə ifadə olunur; aşağıdakı misallarda "supertroxeyik" səviyyəni ST ilə, troxeyik üzvlənməni T ilə və daha güclü aspekti «x» işarəsi ilə göstərirəm». Sonra müəllif aşağıdakı nümunələri verir:

| | | |
|---|---|---|
| STx--------- | $ST_1$ | x - - - - - - - - - - - |
| Tx--------- | $ST_2$ | x - - - - x - - - |
| | T | x - - x - - x - - |

Gartenlaube /'gaʁ.tn̩,la͜obə/ Gartenlaubendächer /'gaʁ.tn̩,la͜obn̩dɛçəʀ /

Məsələyə elmi-nəzəri baxımdan yanaşdıqda məlum olur ki, bu müəllif mürəkkəb sözün mahiyətcə daxili aksent qurumunun müvafiq göstərilməsindən əlavə heç nə vermir.

O, digər mürəkkəb tərkiblərdən söz açaraq yazır ki, heç də onların hamısında aksent baxımdan daxili bağlılıq olmur. Məsələn, kopulativ kompozitlərdə bu cür hierarxik aksent bağlılığı yoxdur.

U.Maas çox düzgün qeyd edir ki, alman dilinin əsas müstəqil vahidi sözdür və sözün də fonoloji konturu güclü vurğu ilə müəyyənləşir. Alman dilçiliyi tonun, gücün və ya zamanın aparıcı komponent olmasını əsas götürərək vurğunu müxtəlif cür adlandırır. Əsas tonun aparıcıllığı ilə əldə olunan prosodik inteqrasiyaya ton (müvafiq olaraq Betonung, Hochton, Tiefton və s.), intensivliklə başa gələn inteqrasiyaya güc (Ton, Tonstärke müvafiq olaraq Hochdruck, Tiefdruck), zamanla baş tutana isə kəmiyyət vurğusu deyilir.[24]

Lakin alman dilində son zamanlar aksent sözü daha geniş işlənməkdədir.[25] Maraqlıdır ki, seqment vahidlər yazının ön plana çəkəlməsindən irəli gəlirdi. Yəni danışığın ayrı-ayrı elementlərə uyğun parçası yazıda xüsusi işarələrlə verilir. Bəzən mühazirə və məruzə mətnlərində vurğuda səhv etməmək üçün fonemlərin üzərinə vurğu işarəsi qoyulur ki, bu da latınca <u>supra</u> (üzərində işarəetmə) mənasını verir. Buradan da dilçilikdə geniş yayılmış seqment və supra (super) seqment terminlərinin mənası açıqlanır. Lakin bununla yanaşı prosodiya (yunanca "pro"-buna əlavə "od-ō"- oxumaq, ifa etmək) sözü də geniş işlənir. Bunun latın dilinə hərfi tərcüməsi «Accent»[26]-dir, bu da «ad-cent» sözləri olub, «ad» buna əlavə, «cant-ō» isə oxumaq deməkdir. Bu termin də gen-bol işlənməkdədir. Nəzəri ədəbiyyatda, xüsusilə bilinqvizm məsələlərindən bəhs edən əsərlərdə «aksent»-«yad, xarici, bu dilə xas olmayan tərzdə danışıq üslubu» kimi başa büşülür. Lakin əksər tədqiqatlarda aksent seqment vahidlərin özü ilə bərabər onlara əlavə avaz vermək mənasında işlənir.

Mürəkkəb sözlərin aksent xüsusiyyətlərini D.Kleman, ötəri də olsa, nəzərdən keçirir və göstərir ki, hər bir alman intuitiv

olaraq bilir ki, «Straßenbahn» sözündə əsas aksent «Stra»-nın, köməkçi aksent isə «bahn»-ın üzərinə düşür.[27] Müəllifin bu qənaətinə heç bir etiraz yoxdur. Etiraz yalnız aşağıdakı fikirlə bağlı meydana gəlir. Müəllif yazır ki, «Straßenbahnschaffner» sözündə əsas vurğu «Stra»-nın, köməkçi isə "schaff"-ın üzərinə düşür. Halbuki "Kriminalhauptkomissar" sözündə əsas vurğu "haupt"-un köməkçi, vurğu isə "nal"-ın üzərinə düşür. Məsələ burasındadır ki, üçkomponentli mürəkkəb sözdən komponentlərdən biri (Bahn və Komissar) ümumiyyətlə aksent modelindən kənarda qalır. Bütün bunlardan sonra D.Kleman belə bir nəticəyə gəlir ki, kompozitlərin vurğusu onların hierarxik strukturundan asılıdır: kompozit ikikomponentlidirsə, onda qayda üzrə təyin edən söz (yəni birinci söz) vurğulu olur». Bu həm də o zaman olur ki, təyin edən söz kompozit olsun. Ancaq təyin edən sözün özü kompozit olduqda, bu kompozit əsas vurğunu daşıyır».[28] İrəlidə deyildiyi kimi, burada da müəllif kompozitin ikinci komponentinin vurğu xüsusiyyətini və, ümumiyyətlə, ümumi modeldə bu komponentin yerini yada salır. Amma bu qaydadan kənara çıxan hallara dair müəllifin misalları çox tutarlıdır. Müq. et: Kriminalhauptkomissar, Elbeifeld (Vupertalda), Lebensmittelgeschäft» və s.

Alman dilində bəzən kompozitlərdə təyin olunan komponentlərin əsas vurğunu öz üzərinə götürməsindən danışarkən L.R.Zinderin konsepsiyasını yaddan çıxarmamalıyıq. Burada gətirdiyimiz misallar bu mövqeyin düzgünlüyünü bir daha təsdiq edir. Doğrudan da, Kriminalhauptkomissar sözündə əsas vurğunun /haupt/ üzərinə düşməsi burada bir daha məna tərəfin aparıcı olduğunu sübut edən amildir.[29] Söhbət kriminal komissarın başçısından gedir, buna görə də bu güclü vurğu ilə deyilməlidir. O ki qaldı o biri komponentlərə, "Kriminal" ikinci dərəcəli, «Komissar» isə köməkçi vurğu daşıyır. Fikrimizcə komponentlərdən hansı birinisə aksent modelindən çıxarıb kənara atmaq olmaz. Amma ən tutarlı nəticəni burada eksperiment verə bilər. Dildə keçmə və xarici sözlərin də aksent modelləri çox ciddi maraq doğuran məsələlərdəndir. Əcnəbi sözlərin vurğusu ak-

sərən etimon dildəki mövcud qaydanın təsiri altında olur (məs.: fransız dilində gəlmə sözlərdə vurğunun axırınjı heca üzərində qalması). Bu fikir də bütövlükdə eynilə bu cür qəbul edilə bilməz. Məsələ burasındadır ki, bu sözlərdən dildə tam mənimsənilənlər kifayət qədərdir. Hər halda burada da ciddi tədqiqat aparılmalı və söylənilən fikirlər geniş dil materialı əsasında öyrənilməlidir.

## V. 5. Fəslə dair yoxlama sualları və tapşırıqlar

1. Distributiv təhlil dedikdə nə başa düşürsünüz?
2. Fonem birləşmələri və fonem əvəzlənmələrinin fərqi nədir?
3. Verilmiş mətndə fonem birləşmələrini və fonem əvəzlənmələrini müəyyənləşdirin.
4. Fonem əvəzlənmələrini doğuran amilləri sadalayın.
5. Fonemlərin işlənməsində məhdud və qeyri-məhdud distribusiyalara müxtəlif dillərdən misallar göstərin.
6. Fonemlərin işlənmə tezliyini verilmiş mətndə hesablayın.
7. Heca haqqında nə bilirsiniz?
8. Prosodik vasitələr hansılardır?
9. Vurğu, prosodiya və intonasiya haqqında bildiklərinizi danışın.
10. Verilmiş mətni fonem tərkibinə görə təhlil edin.

[1] Ю.С.Маслов. Введение в языкознание. М., 1987, с.47-62.
[2] Л.Р.Зиндер. Общая фонетика. М., 1979.
[3] Artikulyator (fizioloji) fonetika birinji və ikinji çalarlığı, yəni saitin samitə təsirini akkomodasiya (uyuşma), /g←d/ və /t→t͜s/ təsirini assimilasiya, özü də birincini irəli, ikincini isə geri assimilasiya adlandırırdı. Bununla yanaşı dissimilyasiya deyilən fonetik hadisədə fonem qonşuluqda (kontakt) və ya aralıda (distant) gələn fonemin təsirilə öz tələffüz məxrəcini itirir. Məs., Azərbaycan dilində tramvay sözü /tranvaj/ kimi tələffüz olunur. Nəhayət, danışıqda bütöv heca düşə bilər ki, buna da haplologiya deyilir. Məs: rus dilində Pavel Pavloviç əvəzinə /pa.l pa.lç/ deyilir. Lakin fonologiyanın inkişafı ilə bu məfhumlar tədricən aradan çıxmağa başladı, çünki belədə müxtəlif səviyyələr qarışdırılırdı. Bu barədə bax: М.И.Матусевич. Введение в общуюю фонетику. М., 1957.
[4] Vurğusuz mövqedə sait və samitlərin ciddi reduksiyaya uğraması müşahidə olunur. Elə alman dilində bütün vurğusuz hecalarda sait fonemlərin hamısında [ə] istiqamətində reduksiya baş verir. Daç dilində vurğusuz mövqelərdə qeyri-gərgin saitlər realizə olunur. Qeyd edək ki, E.Sivers qüvvətli və zəif aksent kəsiyi deyəndə reduksiyanı deyil, saitin hansı nöqtədə sınaraq samitə qoşulmasını əsas götürürdü. Uzun saitlərdə bu kəsik zəif, qısa saitlərdə isə qüvvətli olur. Müq. et: /'za|¯L:t/, /za|¯t/ və s. Bax: F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 139.
[5] Azərbaycan dilində fonem əvəzlənməsi nadir hadisədir. Məs: /d/←/t/ /getmek→ gedir/. Rus dili isə flektiv dil olduğundan fonem əvəzlənmələrilə zəngindir. Məs.: /druk-druga-druz'a-družba/. Əslində istər fonem, istərsə də variant əvəzlənmələri morfologiyanın obyektidir. Bax: Ю.С.Маслов. Введение в языкознание. М., 1985, s. 58; N.S.Trubetzkoy. Das morphologische System der Sprache. TCLP, N. 2, Prague, 1934.
[6] Rus dilində bundan başqa bir mövqe də fərqləndirirlər ki, buna da qüvvətli mövqe deyilir. Məs: /v/-/v'/-dan başqa bütün cingiltili samitlərdən əvvəl cingiltili (сбрить, взбрело, amma срыть, взвалить), sonrakı kar samitlərin qarşısında karlar (вспахать), söz sonunda kar (гас, газ, amma гаснут, газа) gəlir. Fonemin tanınması ancaq güclü mövqedə olur. Güclü mövqe ilə əlaqəli zəif mövqedə həmin güclü mövqedə olan fonem işlənir. Ona görə də bütün mövqelərdə (срыть, «сплавить» sözlərində) /s/ fonemi işlənib.»взрастить» və «взбрить» sözlərində isə /z/ fonemi gəlib. «Гаснут» sözündə /s/ (hətta не погас бы) ifadəsində və "газ" sözündə sonda hansı fonemin işlənməsindən asılı olmayaraq /s/ fonemi işlənib. Şerba məktəbinə və çex dilçisi B.Trnkaya (1895-1984) görə neytrallaşma mövqeyində arxifonem (hiperfonem) və ya fonemin tanınmasının sıfra bərabər olması deyil, ancaq və ancaq qarşılaşmanın olmaması ucbatından müəyyən mövqedə hər hansı bir fonem işlənmir.

Privativ oppozisiyanın yalnız bir üzvü partnyorsuz işlənsə də, o, qüvvətli mövqedə özünə xas olan qarşılaşmada qalır, lakin bu mövqedə işlənmir, yəni bir "qisim" fonem fonoloji sistemdə öz statusunu saxlayır. Beləliklə „сбру", "здоров", „низги" sözlərində /z/, "spor", "сто", "скала", "нас" sözlərində isə /s/ fonemi realizə olunur. Qüvvətli mövqe ilə əlaqəli zəif mövqelərdə də biz eşitdiyimiz fonemlər işlənir.
Ona görə də Şerba məktəbi „сбрить", „сбрела" sözlərində /z/, «сплавит», «вспахивать», «гас», «газ» sözlərində /s/ foneminin olduğunu israr edir və «взбрело»-da /z/, «вспахиват» sözündə isə /s/ fonemlərinin işləndiyini qəbul edərək onlara fonem əvəzlənməsi kimi yanaşır. Deməli, «газ, газа» sözlərindəki /z/ fonemi «газ» sözündə /s/ fonemilə əvəzlənir.
Rus dilində digər maraqlı məsələ /a/ və /o/ saitlərilə bağlıdır. Yuxarıda deyildiyi kimi, saitlər üçün qüvvətli mövqe onların vurğulu hecada işlənməsidir. Məs.: «вал-вол». Amma vurğusuz mövqedə /a/ və /o/ tamamilə fərqli keyfiyyətdə çıxış edir /val/-/vʌlt/ və /vol/-/vʌlt/. Birinci halda morfem eyniliyi daxilində /a-ʌ/ və ikinci halda isə /o-ʌ/ əvəzlənməsi baş verir. Digər misallar /сˈам-самˈа, сˈом-сомˈа, маховˈик-моховˈик, нелепˈа-нелˈепо" və ya «вˈада-вˈоды" və s./. Bəzən heç morfem eyniliyini də müəyyənləşdirmək olmur (Məs.: «бара́н, тата́р, горо́х, бараба́н, моло́ко́» və s.). N.S.Trubeskoya görə burada arxifonem, moskvalılara görə isə «баран, татар, горох, барабан və молоко» sözlərinin 1-ci hecasında (o/a) hiperfonemi, «валы», «маховик» sözlərinin 1-ji hecasında və «нелепа» sözünün sonunda /a/ fonemi, «волы», «моховик» sözlərinin 1-ci hecasında isə /o/ fonemi çıxış edir. [ʌ] və [o ] səslərinin bir halda bir fonemə, digər halda isə başqa fonemə aid olmasını Şerba məktəbi qəbul etmir. Çünki bu, fonemin təkjə qüvvətli mövqedə deyil, həm də zəif mövqedə fərqləndirilməsinə ziddir. Dodaq FƏ olmadığından [ʌ] və [o] fonları /a/ foneminin variantları sayılmalıdır.

[7] F.J.Vejsalov. Zur Kombinatorik deutscher Vokalphoneme. In: „Zeitschrift für Phonetik, allgemeine Sprachwissenschaft und Kommunikationsforschung". Bd. 34, H. 6, 1981; Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 167-174; H.J.Seiler. Laut und Sinn. Zur Struktur der deutschen Einsilbler. In: H.Steger. Vorschläge für eine strukturalle Grammatik des Deutschen. Darmstadt, 1970. H.J.Scholz. Untersuchungen zur Lautstruktur deutscher Würter, W.Fink-Verlag, München, 1972.; M.Philipp. Phonologie des Deutschen. Stuttgart-Köln, 1974.

[8] Maraq üçün qeyd edək ki, «İngilis dilinin Kembric Ensiklopediyasında» (Cambridge, 1997, s. 230-255) D.Kristal ingilis dilində hər yüz fonemdən 10,74-nün [ə]-nin, 8,33-nün /⊥/-nin, 7,8-nin /n/-nın, 3,51-nin /ʀ/-nın payına düşdüyünü qeyd edir. Kiçik müqayisə göstərir ki, fərq o qədər də böyük dey-

ildir. Statistikadan məlum olur ki, seçmə nə qədər böyük olsa, nəticə bir o qədər doğru olar.
[9] Hecanın nüvəsini samitlər təşkil edən dillərə çex, serb-xorvat və s. dillər aiddir. Məs.: vr̩ba, Br̩no, vl̩k və s.
[10] O.von Essen. Allgemeine und angewandte Phonetik. Berlin, 1966, s. 136.
[11] Л.Р.Зиндер. Общая фонетика. М., 1979.
[12] O.Jespersen. Lehrbuch der Phonetik. Berlin, 1924.
[13] F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 190.
[14] Л.И.Прокопова. Структура слога в немецком языке. Киев, 1973; В.Г.Таранец. Энергетическая теория слога. Одесса, 1981.
[15] Bəzən klassik dilçilik ədəbiyyatında hecadan söhbət gedərkən guya səs artımı (söz daxilində - epenteza, əvvəldə protez), səs düşümü (eleziya), heja düşümü (haplologiya) və ya səsin yerdəyişməsi (məs.: torpaq - topraq) kimi terminlərə rast gəlmək olar. Bunlar müxtəlif təsvir səviyyələrinin qarşılaşdırılmasıdır. Bir zaman kəsiyində, bir funksional dil sistemində, bir üslubda müxtəlif realizə imkanları ola bilər. Ancaq bu səviyyələr təsvirdə qarşılaşdırılmamalıdır.
[16] Л.И.Прокопова. Göstərilən əsəri; E.Sievers. Göstərilən əsəri.
[17] Sintaqm haqqında bax: Ф.Асланов. Синтагматическое ударение в современном немецом языке. Канд. дисс., Киев, 1981; Ф.Ядигар и др. К истории изучения синтагмы в современном языкознании. «Dil və ədəbiyyat» curnalı. 1998, № 3.
[18] A.İsaçenko və N.Y.Şedlix cümlə intonasiyasını enən və qalxan tonun ardıcıl düzümü kimi şərh etməyi tövsiyə edirlər. Bax: A.Isačenko, N.J.Schädlich. Untersuchungen über deutsche Satzintonation. „Studia Grammatika“ , Berlin, 1966, s.7.
[19] P.Leydfoqed yazır ki, ingilis dilində vurğulu heja vurğusuzdan uzun, qüvvətli və yüksək tonla deyilir. P.Ladefoged. Göstərilən əsəri. s.43. Əslində L.V.Şerba da vaxtilə yazırdı ki, vurğulu heca ən yüksək, ən qüvvətli və ən uzun tələffüz olunan hejadır. Bax: Л.В.Щерба. Языковая система и речевая деятельность. Л., 1974.
[20] R.Jakobson. Über die Beschaffenheit der prosodischen Gegensätze. In: „Melanges de linguistique et de phonologie“. Paris, 1937.
[21] Alman dilində knaklaut, daç dilindəki qlottislə (د) qarışdırılmamalıdır. Onlar morfem və sözün başlanğıjını göstərməklə ayırma və ya sərhədləmə (demarkativ) funksiya yerinə yetirir. İngilis dilində juncture də sərhədləmə funksiyası daşıyır( fɛʀ | 'a‿enigən, fɛʀ | 'ʀaenigən, ən | eim, ə | neime) və s.
[22] Bəzən /mother loves dauther/ və ya /Mutter liebt Tochter/ misallarında guya məntiqi vurğudan asılı olaraq subyekt və obyektin dəqiqləşdirilməsinə rəğmən məntiqi vurğunu xüsusi qeyd edirlər. Əvvəla, subyekt və obyektin

müəyyənləşdirilməsində söz sırasının rolu əvəzsizdir. Söz sırası isə xaotik olmayıb, mənanın diqtəsi ilə düzəlir. Bu isə əvvəldə verilmiş məlumatdan çox asılıdır. Yəni bu daha aydın şəkildə mətn dilçiliyi çərçivəsində şərhini tapmalıdır. Elə buna görə də biz məntiqi vurğunu dilçiliyin obyektinə daxil etmirik. Bax: F.Yadigar. Fonetika və fonologiya məsələləri. Bakı. 1993.

[23] Ute Maas. Phonologie. Einführung in die funktionale Phonetik des Deutschen. „Studienbğcher zur Linguistik". Westdeutscher Verlag. 1999.

[24] F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989.

[25] Ute Maas. Göstərilən əsəri.

[26] U.Maas. Göstərilən əsəri. c. 86-90.

[27] D.Clement. Göstərilən əsəri. s. 244.

[28] D.Clement. Göstərilən əsəri. s. 244.

[29] Bax: Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. М., 1957.

# VI. GERMAN DİLLƏRİNİN MORFOLOJİ STRUKTURU

## VI. 1. Ümumi qeydlər

Qrammatika danışan və dinləyən arasındakı fikir mübadiləsinin hansı qaydalar əsasında qurulduğunu və ya düzüldüyünü öyrənən elm sahəsidir. Bir qədər başqa cür desək, qrammatika mətnin yaranması qaydalarını və ya prinsiplərini öyrənən elmdir. Təsadüfi deyil ki, əksər dilçilər qrammatika deyəndə onu morfemlərin sözlər və sözlərin cümlələr əmələ gətirmək qaydalarını öyrənən elm kimi başa düşürlər. Əslində isə qrammatika üç mənada anlaşılır:

1. Hər bir dilin obyektiv mövcud olan qrammatik quruluşu (ümumi qrammatika, alman və ya ingilis dilinin qrammatikası, konkret bir fərdin qrammatikası);

2. Danışanın və ya dinləyənin öz bilik və bacarıqları əsasında (kompetensiyası) ünsiyyətə girməsi qabiliyyəti (performansı);

3. Hər hansı bir dilçinin, akademik qurumun (məs.: O.Musayevin (1929) yazdığı «İngilis dilinin qrammatikası», Bakı, 1986, AEA-nın Nəsimi adına Dilçilik İnstitutu (II cild, Bakı, 1980) və s.) hazırladığı qrammatika. Biz də ikincini əsas götürərək birinjini açmağa çalışacağıq.

L.V.Şerba qrammatikanın obyektindən danışarkən yazırdı: «Təsviri qrammatikada yalnız formaların, sözlərin və onların yaranmasının çox və az dərəcədə canlı vasitələri öyrənilir; yerdə qalanları lüğətin işidir...».[1] H.Svit (1845-1912) isə güman edirdi ki, ümumi faktları qrammatika, xüsusi faktları isə leksika öyrənməlidir.

Geniş mənada sözlərə və cümlələrə morfem ardıcıllığı kimi yanaşan alimlər (məs.: Nayda) qrammatikanın morfemikadan

və morfologiyadan (sintaktik səviyyədə) ibarət olduğunu iddia edirlər.[2]

İngilis alimi C.M.Simpson yazır: «Sözlərin qrammatik strukturunu öyrənən elm morfologiyadır, sözdən böyük strukturları isə sintaksis öyrənir».[3]

Almanca /Die Einladung des Professors/ iki cür başa düşülə bilər. Bir tərəfdən bu, professorun şəxsi dəvəti, digər tərəfdən isə professora gələn dəvət kimi qəbul edilə bilər. Qrammatik baxımdan eyni qayda ilə düzələn bu ifadənin hər iki mənasını qrammatika öyrənməlidirmi? Bəs qrammatik cəhətdən düz olan /Die songen Drünge metten lür//[4] bu parça nəsə bir məna ifadə edirmi? Buradan belə nəticə çıxartmaq olar ki, qrammatika ifadə tərəfilə məna tərəfi arasında tam uzlaşma olan halları öyrənir. Başqa sözlə desək, heç bir alman və ya ingilis belə bir cümlə işlətməz və elə buna görə də belə strukturların öyrənilməsindən danışmağa dəyməz. Hər bir qrammatik qaydanın müəyyən qrammatik və ya leksik-qrammatik mənası vardır. Bu mənalar ayrı-ayrı sözlərlə yanaşı, cümlə səviyyəsində söz sırası və intonasiyası ilə də ifadə olunur.

Alman alimi H.Qlins (1913) yazır ki, orta məktəb dərsliklərində «forma haqqında təlim» və «cümlə haqqında təlim» və ya «morfologiya» və «sintaksis» haqqında məlum bölgü elmi şərh üçün yaramır. Forma haqqında təlim söz və cümlə haqqında təlimi əhatə edir və bununla da hər ikisinin qismən üstünü örtür. Deyiləni o aşağıdakı sxemdə göstərir.

| Söz təlimi | Cümlə təlimi |
|---|---|
| Ayrı-ayrı işarələrin dəyərləri; hər birinin tam məzmunu. | Hər bir işarənin cümlə üzvü kimi dəyəri; güclü formal məzmun |

Forma haqqında təlim[5]

Qrammatik məna ya müəyyən bir ünsürlə (məs.: /'za:gə/, /bəegz/), ya daxili fleksiya ilə (məs.: german dillərində fonem əvəz-

lənməsi ilə müxtəlif zaman formalarının ifadəsi: müq. et: /geben-gaben-gegeben/ və ya /speak-spoke-spoken /və s.), ya söz sırası ilə (məs.: /Mutter liebt Tochter// oder / Tochter liebt Mutter// və s.), ya intonasiya ilə (məs.: Feuer!, Feuer?, Feuer... və s.), ya formal göstəricisi olmayan əlamətlə - sıfır morfemlə və ya gizlində olan göstərici ilə (məs.: Lehrer (təkdə), Lehrer (cəmdə) ifadə olunur. Belə hallarda qrammatik mənanı sintaqmatik əlaqə daha aydın göstərir. Müq. et: (/Er ist Lehrer//; /Sie sind Lehrer/ və ya /guter Lehrer/- /gute Lehrer/ və s.). Cümlə səviyyəsində də qrammatik mənanı birmənalı şəkildə dərk etmək üçün mətndən və deyiliş məqamından çıxış etmək lazımdır. Məs.: (/Die Sonne geht auf// - „Günəş çıxır") cümləsini mətndən asılı olaraq bir neçə mənada şərh etmək olar: /Die Sonne geht auf und es beginnt ein neuer Arbeitstag//-„Günəş çıxır və yeni iş günü başlayır", /Die Sonne geht auf// - „Günəş çıxır", /Die Nebel flohen wie Gespenster...//- „Duman kabus kimi dolanır" və s.

Qrammatik forma ilə qrammatik mənanın vəhdəti qrammatik kateqoriya yaradır. «Bu və ya digər qrammatik göstəricilərlə sistematik olaraq ifadə olunan eyni cinsli qrammatik mənaların bir-birinə qarşıdurmasını qrammatik kateqoriya kimi müəyyənləşdirmək olar».[6] İngilis dilində cins kateqoriyası üçüzvlü də olsa, cinsin fərqləndirilməsi yalnız 3-cü şəxsə aiddir. Məs: he, she, it, ya da itself, himself, herself. Qalan hallarda isə cins semantik məna ilə bağlı ola bilər, başqa sözlə desək, o, qrammatik kateqoriya səviyyəsində olmur. Müq. et: /girl-boy, brother - sister/ və s. Buradakı sıranı paradiqm də adlandırmaq olar. Məs.: alman dilində hal kateqoriyası 4 üzvlü, kəmiyyət kateqoriyası 2 üzvlü, cins kateqoriyası isə 3 üzvlüdür. Hər bir üzvün formal (və ya implisit) göstəricisi olur ki, bunlara qramem deyirlər. Məs.: ingilis dilində felin indiki zamanda birjə qramemi var ki, o da müxtəlif variantlarda / s, z, iz/ kimi çıxış edir.[7] Qarşılaşdırma nə qədər çox olarsa, o qədər də göstəricilərin qrammatik məna fərqləndirmək imkanı olur. Qrammatik kateqoriya bəzən bir sözdə özünü göstərir. Məs.: alman dilində /-ling, -ler,-

er/ kişi cinsini, /-ung,-heit,-schaft,-tion,-tdt/ isə qadın cinsini bildirir.

Bu və ya digər kateqoriyaya aid olmanı sözün özündən başqa, onunla birləşən söz də bildirir. Məs.: /ein großer Garten; ein großes Bild; eine große Stadt /. İsimlərin özü ilə bərabər artikl və sifət də eyni qrammatik mənanı - cinsi və halı bildirməyə xidmət edir.

Elə kateqoriyalar var ki, bir neçə söz qrupunu əhatə edir. Məs., alman dilində hal ismə, sifətə və əvəzliyə xasdır. İngilis dilində əvəzliklər nominativ və akuzativə bölünür: / I-me, he-him, she-her/. Alman dilində felin 3 şəkli və 3 zaman forması var: xəbər, əmr və konyunktiv. Məs.: / ich sehe, sieh-er sehe/; keçmiş, indiki və gələcək zamanlar: /sehe-sah-werde sehen/. Rus dilində felin ikiüzlü növü var, bitmiş-bitməmiş (çital-proçital). Azərbaycan dilində felin məlum / məchul növləri var (yazmaq-yazılmaq) və s.

Kateqoriya ümumilikdə aşağıdakı tələblərə cavab verməlidir:

1. Kateqoriya obyektiv gerçəkliyə uyğun gələ bilər. Alman dilində cins və kəmiyyət kateqoriyaları buna misal ola bilər. Burada sərhəd çox şəffafdır. Məs.:/der Band, das Band, die Eltern, die Ferien/ və s.)

2. Danışan - dinləyən - gerçəklik münasibətlərini ifadə edən qrammatik kateqoriyalar. Məs.: növ, müəyyənlik/ qeyrimüəyyənlik kateqoriyaları / der Mann- ein Mann – die Mdnner / və s.

3. Formal qrammatik kateqoriyalar. Alman və ingilis dillərində cins bəzi sözlərin semantik mənasından irəli gəlir. Məs: /Vater, father, Mutter, sister /və s.

Ancaq bəzən bunlar gözlənilmir. Məs.: alman dilində /das Weib/ və ya /man schmiede das Eisen, so lange es heiss ist// və ya Azərb. dilində /Nə tökərsən aşına, o da çıxar qaşığına// (söz «qadın» deməkdir, ancaq orta cinsdədir və ya atalar sözündə mübtəda formal olaraq 2-ci və 3-cü şəxslə ifadə olunsa da, hər ikisində məna ümumi şəxslidir).

Üzvlənmə zamanı sözlərin morfem tərkibindəki dəyişiklik onların sintaqmatik əlaqələrinin nəticəsidir. Məs.: ing. dilində /sing-sings-singing-sang-sung/ və s.

Sözlər öz semantik və qrammatik xüsusiyyətlərinə görə qruplara bölünürlər.

Bunlara ənənəvi dilçilik nitq hissələri, amerikan dilçilərisə söz sinifləri deyirlər. Nitq hissələrinin içərisində də xüsusi bölgü mümkündür (məs.: cinsə görə, semantik bölgü, abstrakt isimlər və s.). Sözlə morfemi yaxınlaşdıran sözdüzəltmə və sözdəyişmə əlaqələridir.

İngilis alimi P.H.Metyuz dildə üzvlənmədən danışarkən yazır: «...dil ən azı 2 cür minimal vahiddən ibarətdir, onlardan biri sintaksis və semantikanın əsas vahididir, o birisi isə fonoloji vahiddir.»[8]

Alman dilində ismin 3 cür hallanması, sifətlərin müxtəlif dərəcələri, fellərin müxtəlif təsrifi formal əlamətlərə əsaslanır. Bəzən isim yalnız cəmdə (Pluraletantum), bəzən isə yalnız təkdə (Singularetantum) işlənir. Bunu isə izah etmək o qədər də asan olmur.

## VI. 2. Dilin morfoloji quruluşu və morfem tərkibi

Dilin morfem tərkibini öyrənən elmə morfologiya deyilir. Qeyd edək ki, bu, şərti xarakter daşıyır, çünki sözün morfem dəyişikliyinin əsl mahiyyəti sintaktik səviyyədə açılır. Bununla bağlı akad. L.V.Şerba sual verirdi: isim hallandığına görə isimdir, yoxsa isim olduğu üçün hallanır? Doğrudan da, bu suala yalnız morfologiya ilə sintaksisin qarşılıqlı əlaqəsindən çıxış edərək cavab vermək olar. İndi isə keçək morfem təhlilinə.

İşarələr sistemi olan dildə fonoloji səviyyədən sonra 2-ci yerdə morfoloji səviyyə gəlir.[9] Bu səviyyənin vahidinin adı morfemdir. Fonemdən fərqli olaraq morfem dilin ikitərəfli ən kiçik vahididir, yəni morfemin həm ifadə edəni, həm fonetik tərəfi, həm də ifadə olunanı, yəni məzmun tərəfi var. Başqa sözlə de-

sək, morfem dilin mənaya malik ən kiçik vahididir. Morfem öz səviyyəsində bütövlüyü pozulmadan kiçik hissələrə bölünə bilməz. Məs., alman dilində :/lo:s/ «sız, siz, suz, süz» morfemi özündən kiçik morfemlərə bölünmür. «Morfemlər dil ifadələrində ən kiçik fərdi mənası olan ünsürdür».[10]

Ancaq alman dilində /'zinlo:s/ «mənasız» sözündə iki morfem var və onların heç biri morfem səviyyəsində özündən kiçik hissələrə bölünməz. Lakin bu heç də o demək deyildir ki, morfemin ifadə və məna tərəfi bölünməz bir tamdır. /lo:s/ morfeminin ifadə planında üç fonem ardıcılığı var: /l /+/o:/+/s/. Məna tərəfində isə bir neçə semin olduğunu müəyyənləşdirmək çətin deyildir. Məs.: /Das Kleid ist los// «paltarın qabağı açılıb» və /losstürmen/ «üstünə cummaq» sözlərində /lo:s/ müxtəlif semlərə malikdir.

Biz yuxarıda dil işarələrinin fonoloji səviyyədə üzvlənməsindən danışdıq (bax: IV fəsil). Burada isə morfemə görə üzvlənmədən danışacağıq.

Morfem anlayışını ilk dəfə dilçiliyə gətirən İ.A.Boduen de Kurtene olmuşdur. O, morfemi sözün məna daşıyan ən kiçik hissəciyi kimi başa düşmüşdür. Ancaq o həm də dilçilik elminə sıfır morfem anlayışını gətirmişdir[11] (məs.: alman dilində qadın cinsli isimlərin təkdə qenitiv və akuzativ hallarını göstərən ayrıja heç bir formal əlamət yoxdur: Mutter-Mutter).

Morfemlərin danışıq aktından ayrılması fonemlərə nisbətən çox asandır, çünki Y.S.Maslovun (1908-1977) dediyi kimi, morfemlərin ifadə tərəfindən başqa, həm də məna tərəfi vardır.[12] Məs.: /bild+əR / və /kind + əR / sözlərində /bild/ / kind/ morfemlərini kommutasiya (yerdəyişmə) prinsipilə bir-birinin yerində işlətməklə yeni ifadələr (Äußerung) yarada bilirik. Anjaq biz danışıq kontinuumunun morfemlərə parçalanmasını bu cür mexaniki yolla deyil, sırf linqvistik metodla göstərmək istərdik.

Məlumdur ki, /haos/, /hunt/, /fuks/, /hant/ və s. alman dilində müəyyən mənası olan leksemlərdir. Çünki /'hʊnt/, /'hʊndəs/, /'hʊndə/, /'hʊnt/, /'hündin/ paradiqmindən məlum olur ki, bütün söz formaları /hʊnd/t/ ifadə planında cüzi dəyişikliyi (/d/→/t/,

/ʊ/→/ü/) nəzərə almasaq, demək olar ki, öz bütövlüyünü qoruyub saxlayır.

Digər tərəfdən, yuxarıdakı cərgədə /hant/ sözünü də eyni paradiqmə salanda görürük ki, /hʊnt/ sözündəki kimi /hant/ sözündə də ifadə tərəfində müəyyən dəyişiklik baş verir: /hant/, /hɛndə/, /hɛntçən/. Demək, /d/→/t/ fonem əvəzlənməsindən başqa burada həm də /a/→/ɛ/ fonem əvəzlənməsi meydana gəlir. Halbuki bu parçaların heç birində məna dəyişikliyi olmur.[13]

Beləliklə, /'hʊnt/, /'hʊnd / bir tərəfdən, /hant/, /hɛnd/ digər tərəfdən, sözün daxilində morfoloji sərhədin köməyilə ayrılıb götürülə bilirlər. Cümlələrdə bunu daha aydın görürük.

/(der) 'hunt bɛl|t//; /(die) 'hʊndə ´´´ bɛl|ən//, / (die) ´´hant | ist ʾa‿en '''Ko‿erpər''ta‿el//; (die) ´´hɛnd|ə z⊥nt…// və s.

Hansı qrammatik əlaqəyə girməsindən asılı olmayaraq bu sözlər özlərini bütün başqa alman sözləri kimi aparırlar. Yalnız bircə halda danışıqda səslənən /hʊnt/, /fʊks/, /hant/və s elementlərinə morf deyilir. Ancaq bu morflar /hʊnt-hʊnd-hynd/ və ya /hant-hɛnd/ şəklində də çıxış edirlər. Bunlara isə allomorflar deyilir.

y̲ a̲ t̲

/hʊnd/t/, /hɛnd/ allomorfları isə müvafiq olaraq morfemlərdə birləşirlər.

## VI. 3. Avtosemantik və sinsemantik morfemlər

Ayrılıqda leksik mənası olan morfemlərə leksik morfemlər və ya əsas morfemlər (Grundmorpheme) deyilir.[14] Məs.: /'ta:k/, /'zo:n/, /fa:tər/ və s. Digər tərəfdən, verdiyimiz misallarda biz /'hynd|in/ və /hɛnt|çən/ sözlərində morfem sərhədindən sonra /⊥n/ və /çən/ vasitəsilə yeni sözlər düzəltmişdik. Onlar da morflardır, ancaq onların funksiyası yeni söz yaratmaqdır. Odur ki,

bu cür şəkilçi morflara formativlər və ya sözdüzəldən morfemlər (almanca Formationsmorpheme) deyirlər.

Yuxarıda verdiyimiz misallarda biz morfem sərhədinin sağında gələn [ə], [t] və [ən] ünsürlərini ayırmışdıq. Bunlardan hər birinin bir və ya bir neçə mənası var. [ə] hər iki ismin cəmini və həm də cəmdə adlıq halını bildirir. Deməli, o, ikimənalıdır. /t/ həm üçüncü şəxsi, təki və indiki zamanı, /ən/ isə üçüncü şəxsi və cəmi bildirir. Bunlara yuxarıdakılardan fərqli olaraq qrammatik morfemlər deyilir. Ancaq bunlar da leksik morfemlər kimi özlərindən kiçik elementlərə bölünmürlər.

İngilis dilində aşağıdakı cümlələri morfemlərə bölmək eynilə yuxarıdakı morfem sərhədi prinsipinə əsaslanır.

/The | bag|s | are | on | the | table//

/He | ask | s me | about | my | brother | s// və s.

Qrammatik morfemlər də morflardan (hər birinin ayrıca işlənməsi), allomorflardan (məs.: ingilis dilində [s] |cats|, [z] |bags|, [iz] | houses | olduğu kimi) ibarətdir. Və bu axırıncılar eyni bir morfem yaradırlar ki, bunu da transkripsiyada | s | z | iz | kimi göstərmək olar.

Türk dillərində olduğu kimi, german dillərində də qrammatik morfemlər qapalı inventar əmələ gətirir, onların sayı məhduddur, özü də məlumdur.[15] Məs: alm. / -ə, -(ə)r, -(ə)n, -", -(ə)s, -st, -t, -gə / və s.

## VI. 4. Morf, allomorf(em) və morfem münasibətləri

Üzvlənmədən sonra əsas vəzifə dilin morfem inventarını müəyyənləşdirməkdən ibarətdir. Yəni biz morfların allomorflara (morfem variantlarına), axırıncıların da morfemlərə paradiqmatik səviyyədə aid olmaları mexanizmini araşdırmalıyıq.

Misallara müraciət edək

| alm. | | ing. | | azərb. | |
|---|---|---|---|---|---|
| Sing. | Pl. | Sing. | Pl. | Tək | Cəm |
| Bahn-/'ba:n/ | /'ba:n\|ən/ | /kct/ | /kct \| s/ | /at/ | /atlar/ |
| Tafel-/'ta:fəl/ | /'ta:fəl\|n/ | /bcg/ | /bcg\|z/ | /əl/ | /əllər/ |
| Hase-/'ha:zə/ | /'ha:zə\|n/ | /keis/ | /keiziz/ | /qum/ | /qumlax/ |
| Bild-/'bilt/ | /'bild\|ər/ | /fu:t/ | /fi:t/ | /daş/ | /daşlıq/ |
| Rand-/'rant/ | /'rɛnd/ər/ | /t͜ʃa⊥ld/ | /t͜ʃ⊥ldrn/ | | |
| Wagən-/'*va:gən/ | /'*va:gən/-/0/ | /ðıs/ | /ði:z/ | | |
| Lehrer-/'le:rər/ | /'le:rər/-/0/ | /məen/ | /men / | | |
| Vater-/fa:tər/ | /fe:tər/-/a:/→/e:/ | /oks/ | /oksən/ | | |
| Auto-/'^a͜oto./ | /'^a͜oto\|s/-/s/ | | | | |
| Mensch-/'mɛn□/ | /'1 ⊃Øtə/ | | | | |
| Miller-/'m⊥lər/ | /'m⊥lər \| s/ | | | | |

Göründüyü kimi, alman və ingilis dillərində yalnız ismin cəmini bildirməkdən ötrü 8 variantdan istifadə edilir. Bunlar şəkilçilərdən tutmuş fonem əvəzlənmələri və supletivizm daxil olmaqla çox rəngarəngdir. Onların ifadə tərəfi müxtəlif olsa da, funksiyası eynidir. Onların hamısı cəmi ifadə edir. Ona görə də onlara cəm morfeminin müxtəlif variantları kimi baxa bilərik. Elə buna görə də, onları sonluq morfemləri (Flexionsmorpheme) adlandırırlar.[16] Sxematik olaraq bunu belə göstərə bilərik.



Qrammatik morfemlər fonetik cəhətdən müxtəlifdir. Ancaq bu müxtəliflik leksik morfemlərdə müşahidə olunur. Məs.: /hand/-/hɛnd/. Bunlardan hansının danışıqda işlənməsi artıq mövqe, əhatə və məqamla bağlıdır, ona görə də onlara leksik allomorflar deyilir. Başqa sözlə, alman dilinin orfofonik normasına əsasən sonda cingiltili samit gələ bilməz, ona görə də auslautda /t/ gəlir, lakin sözə cəm şəkilçisi əlavə edildikdə, o, kökdəki saitin /ɛ/ ilə əvəzlənməsini və saitdən əvvəldə isə /d/-nın gəlməsini tələb edir. Sistemdə paradiqmatik baxımdan tək və cəmin qarşı-qarşıya durduğu bu münasibətlər normanın tələbi ilə dəyişikliyə uğrayaraq, konkret səslər şəklində danışığa daxil olur ki, burada da təkcə məqam deyil, zaman, bölgə, sosial, mədəni, fərdi və s. xüsusiyyətlər özünü büruzə verir. Müxtəlif cür səslənib, eyni funksiya daşıyan morflar olduğu kimi, eyni cür səslənib müxtəlif funksiya yerinə yetirən morflar da var. 1-ciyə yuxarıda cəmlik bildirən morfları, ikinciyə isə /-en/, /-e/ və s. morfları misal göstərə bilərik.

/- ən/ 1-ci və 3-cü şəxsin cəmini bildirməklə bərabər, ismin cəmlənməsində də iştirak edir. /-ə/ - birinci şəxsin təkdə göstəricisi olmaqla bərabər, həm də cəmi bildirir.

Müq. et: /ba:n | ən/, /'le:z|ən/, /'le:z|ə/,/Tag |ə/ və s.

Sonunculara omonim morflar demək olarsa, onda yuxarıda verdiyimiz 8 variantlı cəm şəkilçilərinə də sinonim morfemlər demək olar.

## VI. 5. Morfemlərin valentliyi və variativliyi

Morfemlər valentliyinə görə də qruplaşa bilər. Qruplaşmanı aşağıdakı kimi aparmaq olar:

1. Multivalent morfemlər.

Bunlar çoxluq təşkil edir. Məs.: /-s/ ingilis dilində və /-ə/ alman dilində şəxs sonluqları və cəm şəkilçiləridir. Bundan başqa ingilis dilində /-s/ yiyəlik əvəzliklərinin isimləşməsinin(ours) və yiyəlik halının /horse-horse/s/ göstəricisi də ola bilir. Alman dilində /-e/ sözdüzəldici şəkilçi kimi də çıxış edir:/alt-die Alte/ və s.,

2. Univalent morfemlər. Məs.: rus dilində буженина, брусника, малина, alman dilində Nachtigal, ingilis dilində Tuesday, Tues (univalent) + day (multivalent) və s. Morfemlər həm eksponent (seqment), həm də məna baxımından variativliyə məruz qalır. Məs.:

-er-Fahr|er, driv/er-sözdüzəldici şəkilçi;

-er-schön|er, long/er - müqayisə dərəcəsinin şəkilçisi;

-er-alman dilində üçüncü şəxsin təki;

-er-Mauer, weather -sözün tərkib hissəsi;

-er-er|zählen, er/rant-prefiks.

Göründüyü kimi, eyni fonem tərkibinə malik seqment mənaja müxtəlif variantları ifadə edir.

Bunun əksinə olaraq, aşağıdakı misallar ifadə planında variantlığı göstərir:

Lehr | er-Tisch | ler; Gewerkschaft| ler-Gewerkschaft|er və s. İngilis və alman dillərində felin keçmiş zaman formalarının düzəlməsində şəkilçilə yanaşı (-ed, t-asked, learnt, -(e)te- sagte, antwortete/ fonem əvəzlənmələrilə qrammatik mənanın verilməsi (sing-sang, singen-sang və s.) morfemin variativliyinə bariz nümunələrdir.

Aşağıdakı sözlərdə morfem tərkibini müəyyənləşdirmək maraqlı olar:

alman dilində:

| | | |
|---|---|---|
| Bruder | größer | |
| Schwester | großer | |
| Fahrer | Lehrer | |
| Eier | dieser | |
| Üffner | unter | |
| Kammer | Puder | və s. |

ingilis dilində:

| | |
|---|---|
| silver | master |
| singer | driver |
| higher | faster |

| | |
|---|---|
| pen | pens |
| box | boxes |
| ox | oxen |
| foot | feet |
| child | children |
| lower | teacher |
| finger | opener |
| book | books |

/Nutz deine Chance!/, /Ich bin Student//
/Nğtz deine Chance!/, /Ihr seid Studenten// və s.

Bundan başqa supletiv morfemlər də var. Məs.: gut-besser. Fonem əvəzlənmələri əksərən morfem funksiyasını daşıyır. Məs.: Mutter-Mütter. Sözdə tutduğu mövqeyə görə alman dilində prefiks (be'kɔmən), interfiks (Arbeitstag), postfiks morfemləri fərqləndirilir. Axırıncılar da öz növbəsində fleksiyalara və suffikslərə bölünür. Məs.: /ich sage, die Sage//. Bundan başqa konfiks və ya sirkumfiks (alm. ge...t, ge...en) morfemləri də fərqləndirilir. Alman dilində sonra gələn morfem kök morfemə təsir edir, onun saitini dəyişir (məs.: Mann-Männer).

## VI. 6. Sözün morfem strukturu

Struktur baxımdan dildəki bütün sözləri, deyildiyi kimi, daha kiçik dil vahidlərinin - morfemlərin müəyyən qaydada düzülüşü kimi götürmək olar. Bu da əslində dil vahidlərinə sintaktik əlaqələr baxımından yanaşmaq deməkdir. Əgər biz təhlili bu metodla aparsaq və hər bir tərkibdə ismi (İ), sifəti (S), feli (F) və s. işarələrlə göstərsək, onda istənilən tərkibi formullar şəklində bu cür verə bilərik. Bu cəhətdən biz belə formul seçə bilərik:

İ=Kandidat, S=klein, F=schreiben və s.
İ+İ= İ-[Spitzen+Kandidat]
İ+[İ+İ] = İ-[Kanzler[ Spitzen+Kandidat]]

İ+[İ[İ+İ]]=İ-[Partei-[Kanzler[ Spitzen+Kandidat]]]
və ya: S+İ=İ-[ klein+Betrieb]
S+[İ+İ]=İ-[klein+[Betriebs+Abteilung]]
və ya: F+İ=İ-[Schreib+Maschine]
F +[İ+İ]=İ-[Schreib+[Maschinen+band]]

Dil vahidlərinin bu cür daxili əlaqələrini açıb göstərmək üçün son illərdə dilçilikdə geniş yayılmış konstituent struktur analizindən istifadə edilir.[17] Doğurdan da, bu cür təhlil mürəkkəb tərkiblərin daxili bağlılığını dərindən açmağa imkan verir. Bəzən bu əlaqələri dilçilik ədəbiyyatında qəbul edilmiş ağac şəkillərindən istifadə etməklə göstərirlər. Məs.: alman dilində /Warenhandelsschule/ belə açılır:

şəkil 1




şəkil 2




Məhz bu yolla aydınlaşdırmaq mümkündür ki, 1-cidə əmtəə ilə məşğul olan ticarət məktəbindən söhbət getdiyi halda, 2-cidə əmtəə satışı ilə məşğul olan məktəbdən danışılır. Başqa sözlə desək, 1-cidə ticarət məktəbi əmtəə üzrə kadr hazırlayır, ikincidə isə bu məktəb əmtəə alveri üzrə kadrlar hazırlayır.

Söz bir neçə morfemli olanda onun ağac şəkli daha cəlbedici və daha çox informativ olur. Məs: „Braunkohlenverarbeitungskombinat“ sözünün iç əlaqələri aşağıdakı kimi açıla bilər.

şəkil 3




şəkil 4




3-cü şəkildə əlvan metal istehsalı ilə məşğul olan kombinatdan söhbət gedirsə, 4-cüdə emal kombinatının əlvan metal istehsal etməsi bildirilir. Morfemlərin daxili bağlılığından doğan bu cür semantik incəliyi məhz bu yolla açmaq mümkündür. Əslində bu tərkibdə /Ver+arbeit+ung/ həm morfem ardıcıllığı sola, həm də sağa nəzarət edir. Digər tərəfdən, bu müəyyən fabrik, zavod, kombinat və ümumiyyətlə emal müəssisəsində həyata keçirilməsini tələb edir.

Morfemlərin üzvlənməsi, statusu və inventarı müəyyən edildikdən sonra, yəni qarşıdurma münasibətləri aşkar edildikdən sonra, onların düzülüşündəki qanunauyğunluqları aşkar etmək lazımdır, yəni sintaqmatik münasibətləri tədqiq olunmalıdır. İlk öncə ortalığa belə bir sual qoyulur: Bütün morfemlərin bir-birinin ardınca gələ bilməsi mümkündürmü? Yoxsa burda müəyyən məhdudiyyətlər mövcuddur?[18] Götürək (du läuf)-(st,t) morfemini. O bir tərəfdən/-st/, /-t/ ilə (du läufst, er, sie, es läuft), digər tərəfdən də /du, er, sie, es / morfemləri ilə sintaqmatik əlaqəyə girir. Bu o deməkdir ki, (sən qaçırsan) cümləsini demək üçün danışan / du + läuf + st / işlətməlidir. Eləcə də 3-cü şəxsdə (er (Karl), Sie (Anna), es (das Mädchen)) işlətmək istəyiriksə, gərək / er, sie, es lduft // deyək. Başqa cür mümkün deyil. N. Xomskinin irəli sürdüyü kompetensiya prinsipi

burada özünü tam doğruldur.[19] Danışıqda iştirak edən hər bir kəs bilməlidir ki, alman dilində /laufen/ feli ikinci və üçüncü şəxsdə kök saitini dəyişir, kök saiti | a͜o | umlaut qəbul edir. Beləliklə, /lɔøf /, /laof/, /li:f/ allomorfları eyni morfemin müxtəlif variantları kimi danışıqda çıxış edir ki, bu da N. Xomski konsepsiyasında performans kimi dəyərləndirilir.[20] Dilöyrənmədə paradiqmatik və sintaqmatik münasibətlərin gözlənilməsi xüsusilə əvəzetmə və cümlə quraşdırma tapşırıqlarında özünü aydın büruzə verir.

Müq. et:

alm.d.

| | | | |
|---|---|---|---|
| Heute | | | Gast |
| Morgen | kommt\| (en) | er/sie, | zu uns |
| | | wir | euch |
| In zwei Jahren | | unsere Freunde | Ihnen və s. |

ing.d.

I ask him about your friendship
My father ask(s) her war
relation
joint venture ect.

Morfemlərin düzümündə müəyyən qanunauyğunluqlar mövcuddur. Onlardan bəzisini burada qeyd edək.

1. Hər hansı bir leksemin yaranması üçün ən azı bir leksik morfemin olması vacibdir.

Məs.: Be|wässer|ung, Un|an|ge|nehm|lich|keit və s. morfemlər bir kök morfemin ətrafında birləşir.

2. Elə morfemlər var ki, onlara yalnız 1-ci sözdə təsadüf olunur. Məs.: Nachtigal, Bräutigam, Himmbeere və s.

3. Elə formativ morfemlər var ki, onlar təkbaşına digər morfemə qoşula bilmir. Məs.: /keit/ özündən əvvəl mütləq /⊥ç/, /za.m/ və /l⊥ç/ morfemlərinin gəlməsini tələb edir. Məs.: Freundlichkeit, Fleißigkeit, Gemeinsamkeit və s. Çox nadir hallarda o birbaşa kök morfemə qoşulub söz yarada bilir. Məs.: Übelkeit.

4. Alman dilində sonu /i:r/ morfemilə bitən fellərin partisip II formasını düzəldərkən /ge/ morfemi kök morfemdən əvvələ artırıla bilməz. Məs.: /korrigieren-korrigierte-korrigiert/ və s.

5. /miβ/ formativ morfemi derivasiyada təkcə də gələ bilər, özündən sonra daha bir formativ morfemin işlənməsinə də dözə bilir. Məs.: Miβverständnis, Mißerfolg, Mißvergnğgen, amma Mißglück, Mißtrauen və s.

Morfem tərkibinə görə sözlər çoxmorfemli (bunlar da özlüyündə iki yerə bölünür: düzəltmə formativi olan sözlər və funksionemi olan sözlər) və təkmorfemli sözlər.

Təkmorfemli sözlərə, adətən, köməkçi sözlər aid edilə bilər. Məs.: /zwischen, hinter, unter, aus, ein/ və s. Bəzən tək formalı söz iki morfemdən ibarət ola bilir (Məs: auf|s, zu|m, in|s və s.) Çoxmorfemli sözlər bir neçə söz formasında mövcuddur. Amma, leksemlərlə üst-üstə düşmür (Məs.: /lese, liest, lies, lest/ "lesen" leksemindəndir).

Sözün morfem tərkibinin təhlili göstərir ki, daxili dəyişməz morfemlə yanaşı, dəyişən, qeyri-sabit morfemlər də var. Birincini kök morfem və ya sözün əsası adlandırmaq olar. Məs.: man-mɛn+er [lich+keit] və s. Deməli, man-mɛn variantları yanaşıdır, dəyişən şəkilçilərdir. Eyni bir sözün bütün formalarının yaranmasında iştirak edən sözdəyişdirici şəkilçilər, formativlər forma düzəldən paradiqm yaradır. Məs.: feel, feeling, feels və s. Supletiv formalar kök morfemlər olur. /I-me/ və /ich-mein-mir// və s.

Bəzən isə kökdə qismən dəyişiklik olur. Məs.: alman dilində binden-banden-bunden və s.

Bəzən paradiqm vasitəsilə sözdüzəltmə formativi formadüzəldəndən ayırmaq olur. Məs.: ingilis dilində master - yiyə, sahib; to master- sahib olmaq, yiyə durmaq. Burda sözdüzəltmə və sözdəyişdirmə konversiya yaradır.[21] The master, a master, master's, masters', to master, he masters, mastered, mastering, ich weiße, ich weißte (ağardım) və ich weiß-weiß (bilmək).

Alman dilində /Vergißmeinnicht/ sözdüzəldici formativə tərkiblərin düzümü və vurğu daxildir. Başqa halda isə düzələn

söz tərkiblərinin birləşdirici ünsürlərlə (və ya onsuz) yanaşmasından ibarətdir. Məs.: Arbeitstag, ancaq Werktag və s.

German dillərində düzəltmə və mürəkkəb leksemlərin əksəriyyəti morfemlərin düz xətt boyunca düzülüşündən törəyir. Məs.: funkelnagelneu, Glühwein, Mutterseelenallein və s. Bu zaman daimi, təsadüfi, məhsuldar və qeyri-məhsuldar morfemlər fərqləndirilə bilər.

Daimi düzəltmələrdə yeni yaranan sözlər kökdə duran morfemlə formaca və məzmunca bağlı olur. Məs.: groß-Grüße-vergrüßern və ya Berlin-berlinisch-Berliner-Berlinerin və s.

Təsadüfi düzəltmədə isə daxili forma və məzmun əlaqəsini bərpa etmək çətindir. Məs..: schlecht-sich verschlimmern.

Məhsuldar morfemlər sözdüzəltmə modellərində çox fəal iştirak edir (Məs: Lehrer, Leiter, tüchtig, fleißig, realy, unrealy) və bu açıq sistem yaradır.

Qeyri-məhsuldar morfemlər isə mövcud modeldə sözlər yaradır, ancaq onlar üzrə yenisini düzəltmək olmur. Məs.: Brdutigam  və ya Nachtigal və s. Bu qapalı sıradır.

Qısaltmalar german dillərində çox geniş yayılıb. Struktur baxımından onların bir neçə növü məlumdur, Joo Fidjerald, Hans Johannes, bus omnibus əvəzinə və s. İsveç və Danimarka dilində «bil» avtomobil sözündəndir. Sadəcə olaraq bunda bütöv sözlə əlaqə rol oynayır.

Ən geniş yayılmış növlərdən biri də qısaltmalardır (abreviatura). Müxtəlif idarə, müəssisə, partiya və s. adlarından yaranaraq bir söz formasını alır. Məs.: SPD, CDU-CSU, BRD, GB, UK, EU. Bunlara akronimlər də deyirlər. Bəzən baş hərflərdən yaranan sözdə ona daxil olan hərflərin adı çəkilmir, bir söz kimi deyilir. Məs.: ASH (/aʃ/-Action on Smoking and Health)

Bəzən sözlərin birinci hecalarından istifadə edilir. Məs: smoke+fog=smog 1905-ci ildə yaranıb. Buna *blend* deyilir. Klippinqdə isə sözün yalnız birinci hecası saxlanılır. Məs.: fan-fanatic (XIX əsrin sonunda), hi-fi, high-fidelity sözlərindən XX əsrdə yaranıb.

Bəzən baş hərflərə şəkilçi qoşulub yeni söz yaranır. Məs.: FDJ- ler.

Əsas meyl o istiqamətdədir ki, qısaltmaları söz şəklinə salmaq olsun. Məs: UNO-Generalsekretär, NATO-Generalsekretär və s.

Bəzən qrammatik mənalar bir neçə müstəqil morfemlə asılı morfemin birləşməsində ifadə olunur. Belə düzəltmələr *analitik birləşmələr* adlanır. Məs:

| Sintetik | Analitik |
|---|---|
| Ich schreibe. | Ich werde schreiben. |
| I write. | I am /was writing. |
| | I' ll write. |
| | I should write. |
| | Der Brief wird geschrieben mit dem Bleistift, of my friend. |

Bəzən iki analitik forma sinonim kimi işlənir. Məs.: A book of my friend - my friend's book. Bəzən də sintetik və analitik formalar paralel işlənir. Məs.: Easy-easier, ancaq interesting-more interesting, the most interesting. Bəzən özünü bir söz kimi aparan belə düzəltmələrə analitik sözlər demək olar. Məs.: sich schdmen, to pride oneself (fəxr etmək).

## VI. 7. Nitq hissələri

Dildəki sözlərin morfem strukturundan danışanda bir məsələyə də xüsusi fikir vermək lazımdır. Sözlər morfoloji strukturuna, sintaktik funksiyasına və leksik mənasına görə müxtəlif cürdür. Bu kriteriyalardan çıxış edərək ənənəvi dilçilik nitq hissələri adı altında bölgü aparırdı. Elə məsələnin ən maraqlı cəhəti burasındadır ki, nitq hissələri deyilən sözləri morfologiyada və ya sintaksisdə öyrənmək cəhdi fikir müxtəlifliyinə gətirib çıxardır. İngilis dilçiliyi sözləri bu baxımdan söz siniflərinə, almanlar isə müxtəlif terminlərlə bu bölgünü müxtəlif cür ifadə edirlər.[22]

Cümlədə hansı vəzifəni yerinə yetirməsindən asılı olmayaraq dəyişməz qalan sözləri ümumi şəkildə köməkçi nitq hissələri sırasına daxil edirlər. Buraya müəyyən istiqaməti göstərən siqnal sözləri (bağlayıcılar), əşyanın və ya hadisənin yerini və zamanını bildirən münasibət sözləri daxildir (sözönüləri). Bunlar deyilənin formalaşmasına xidmət edirlər. Bunlardan fərqli olaraq cümlədə fərqli forma ilə çıxış edən və hərəkiliyilə seçilən sözlər (isim, sifət, fel, say) var ki, onlar yerinə yetirdiyi vəzifəyə müvafiq olaraq dəyişikliyə uğrayırlar. H.Brinkmann (1930) qeyd edir ki, onların forması dəyişkən və yerinə yetirdikləri funksiya müstəqildir.[23] Sözlər bir qrupdan digərinə keçə bilərlər. Bu zaman onların formasında dəyişiklik baş verir. Məs., alman feli /gəni: sən/-dən ablaut vasitəsilə /gənus/ ismi və /ba.r/ şəkilçisinin köməyilə /gəni:sba.r/ sifəti yaranır.

İsimlər əşyavi, lüğəvi mənaya malikdir (table,house, Tisjh, Haus və s.), onlar bəzən daxili hiss, həyəcan, hal, hərəkət və əlamətin adını da bildirirlər (love, hatred, Liebe, Hass və s.). Müstəqil cümlə üzvü olur, mübtəda və tamamlıq yerində işlənirlər (steel, snow, dog, trousers, Ding, Buch, Gefühl, Bewegung, Liebe, Traum və s.).

Alman dilində ismin 4 halı var, (ingilis dilində iki hal var (Common Case, Possesive Case), isim cəmlənir, artikllə və artiklsiz işlənir.

| Hallar | Singular | Plural |
|---|---|---|
| Nom. | der Tag, die Frau, der Hase | Die Tage, die Frauen, die Hasen |
| Gen. | des Tages, der Frau, des Hasen | der Tage, der Frauen, der Hasen |
| Dat. | dem Tag, der Frau, dem Hasen | den Tagen, den Frauen, den Hasen |
| Akk. | den Tag, die Frau, den Hasen | die Tage, die Frauen, die Hasen |

O ki, qaldı hallanmayan və ya cəmdən və ya təkdən kənarda qalan isimlərə, onları sintaqmatik səviyyədə başqa sözlərlə işlətmək kifayətdir. O zaman ismin hansı halda, təkdə (steel, snow, Stahl, Schnee) və ya cəmdə (scissors, trousers, Eltern) olmasını müəyyənləşdirmək çox asandır. Məs.: das neue Taxi, des neuen Taxi, dem neuen Taxi, das neue Taxi; die alten Eltern, der alten Eltern, den alten Eltern, die alten Eltern və s.

Bəzən isimlər artiklsiz işlənir (şəhər, məhsul, ölkə adları). İngiliscə bəzi isimlər mütləq artikllə işlənir. Məs.: the table is...; bəziləri artikl və artiklsiz işlənir. Məs.: The wine is... və ya Wine is...

Sifətlər bu və ya digər əşya, hadisə və hərəkətə aid olan əlaməti bildirir. Məs.: groß, schön, schlank, bitter, blue, green və s. Sifətlər dərəcələnir. /good- better- the best, gut-besser - der beste/ (adi, müqayisə, üstünlük dərəcələri), cümlədə əsasən təyin rolunda çıxış edir /Der cunge Mann ist mein Vater // və s.

Alman dilində sifət rus dilində olduğu kimi aid olduğu ismin bütün əlamətlərini, ingilis dilində Azərbaycan dilində olduğu kimi isə ismi yalnız birləşmədə təyin edir, onun əlamətlərini qəbul etmir. Məs.: das schöne Bild; die schünen Bilder, des schünen Bildes, dem schünen Bild , das schüne Bild.

Красивая девушка, красивый парень, красивое поле.
A good answer, The good answers və s.
Yaxşı adam, yaxşı adamdan və s.

Fel cümlənin mərkəzini təşkil etməklə hərəkəti və vəziyyəti bildirir, xəbər rolunda çıxış edir, müxtəlif formativlər qəbul edir. Felin alman dilində 3 əsas forması (infinitiv, preteritum, partisip II) və 3 şəkli- indikativ (xəbər), əmr (imperativ), konyunktiv (arzu, istək) var.[24]

| | | | | |
|---|---|---|---|---|
| | ich bin | wir sind | | |
| | du bist | ihr seid | sei, komm! kommt! | käme |
| Sein | er | sie sind | seid, sag! sagt! | kämest |
| | sie } ist | Sie sind | | kämt |
| | es | | | kämen |

Felin iki növü var: məlum / məjhul. Məs.: /...hat geschrieben / (məlum) /…wurde geschrieben (məchul): zəif və qüvvətli felləri, mürəkkəb zaman formaları analitik yolla ifadə olunur. Məs.: Ich habe gefragt; I have asked. Ich bin gefahren I have written.

Ich hatte gefragt; I had asked; İch war gefahren; I had written

Ich werde fragen; I shall ask; Ich fuhr; I wrote.

Elə zəif fellər var ki, bunları Y. S. Maslov verboidlər adlandırır.[25] Onlar müxtəlif analitik formaların yaranmasında iştirak edirlər. Alman dilində felin partisip I və II formaları qeyri-finit formalardır. Məs.: Schreiben-der Schreibende; fahren - der Fahrende, das Geschriebene (Buch); die gefahrene Strecke.

İng.d.: His coming; The man, coming from this side və s.

Zərflər hərəkətin əlamətini, icra vaxtını, tərzini, yerini, şərtini və s. bildirir, cümlədə zərflik rolunda çıxış edir, müəyyən dəyişikliyə uğrayır. Ancaq predikativ funksiyada çıxış edə bilmir.

Heute, morgen, sehr, gar, ganz, wenig və s. very, tomorrow, yesterday və s.

Keyfiyyət zərfləri dərəcələnə bilirlər. Başqaları heç bir qrammatik kateqoriya yaratmır.

Ən böyük nitq hissələrindən biri də saydır. Onlar əşyaların kəmiyyətini, miqdarını və sırasını bildirir.

Məs.:

Vier, four, fünf Bücher; five books,

Der zweite von links; the third from here və s.

Miqdar sayları strukturca 12 - dən - 20-yə kimi təklik + onluq, 20-dən sonra alman dilində təklik+und+onluq, ingilis dilində isə onluq + təklik prinsipilə düzəlir.

Məs.:

| | | |
|---|---|---|
| einundzwanzig, | ancaq ingilis | twenty four, |
| zweinunddreißig | dilində | fifti five və s. |

Alman dilində sıra sayları özlərini sifətlər kimi aparır, hallanır, ismin bütün əlamətlərini qəbul edir. Məs.:

Das fünfte Jahr
Des fünften Jahres
Dem fünften Jahr
Das fünfte Jahr

Əvəzliklər, adından məlum olduğu kimi əvəz və ya işarə edir və yaxud da digər nitq hissəsinin funksiyasını öz üzərinə götürür. Ich, du, er, sie, es, wir, Sie, ihr, jemand, niemand, isim ola bilər, amma mein, dein... you, my... sifət rolunda çıxış etməli olacaq.

Əvəzliklər hallanır, tək və cəmdə olur:

Dieser Tag- Diese Tage
This day- These days

Əvəzliklərin şəxs kateqoriyası, yaxın/uzaq qarşılaşması, əşya-şəxs /nichts-niemand, kein və s. mümkündür.

Köməkçi nitq hissələri (Konjunktion, Präposition, Artikel, Partikel) isimləşməsə, sərbəst işlənə bilmir, əksərən amorf olurlar, əsasən müstəqil sözlər arasında əlaqə yaratmaq funksiyası yerinə yetirirlər. Bağlayıcılar tabeli və tabesiz olmaqla iki yerə bölünürlər. Tabeli bağlayıcılar (alm.d.: als, wenn, nachdem, weil və s.; ing.d.: if, when, because və s.) tabelilik əlaqəsinin yaranmasına xidmət edir, əsasən mürəkkəb sintaktik bütövlərdə çıxış edir (Məs.: alm.d.: Wenn er vorbeigeht, …; ing.d.: If he comes to us, ... və s.). Tabesiz bağlayıcılar isə tabesiz cümlələr arasında və ya ayrı-ayrı sözlər arasında tabesizlik əlaqəsi yaradırlar (məs., er und sie; she and he; və s.). Sözönləri də adından məlum olduğu kimi aid olduqları sözdən əvvəl gələrək müəyyən əlaqə yaratmağa xidmət edirlər. Alman dilində onlar özlərindən sonra ismin müəyyən halda gəlməsini tələb edirlər. Məs.: alman dilində:

Gen. halı: während, innerhalb, jenseits və s.

Dat. halı: mit, nach, zu, aus, von, bei, gegenüber və s.

Akk. halı: ohne, für, durch, gegen, um, entlang və s.

Akk. və Dat. halı: an, in, auf, vor, neben, ğber, hinter, unter, zwischen və s. Bunlar aid olduğu sözlə birlikdə hərəkətin baş vermə yerini bildirirsə və wo? sualına cavab verirsə, Dat., istiqamət bildirərək wohin? sualına cavab verirsə, Akk. halını tələb edirlər.

Artikllər müəyyən və qeyri-müəyyən olur.

| | Müəyyən artikl | Q/müəyyən artikl |
|---|---|---|
| alm.d.: təkdə: | der (k.j.) | ein (k.j.) |
| | das (o.j.) | ein (o.j.) |
| | die (q.j.) | eine (q.j.) |
| cəmdə: | die | ---------- |
| ing.d.: | the | a (an) |

Artiklin funksiyası real gerçəkliyə münasibət bildirməkdir. İsmin müəyyən kateqoriyaya aidiyyətini bildirir. Məs: /Der Hund ist ein Saugetier//. Burada heyvanlardan konkret olaraq itin adı çəkilir, ona görə o, müəyyən artikllə işlənir, daha doğrusu, bu danışıq məqamında söhbətin itdən getdiyi əvvəlki fikirlərdən məlum olub. Məməli heyvanlara isə təkcə itlər aid deyildir, o, bir qrupu bildirir, həm də danışan burada yeni informasiya verir, ona görə də isim qeyri-müəyyən artikllə işlənib. Artikl danışıq aktının aktual üzvlənməsində intonasiya ilə birlikdə həlledici rol oynayır. Məs:

/An der Tür steht ein Mann//
məlum naməlum
Ancaq: /Der Mann ist sehr attraktiv//
məlum naməlum

Partikllər cümlədə mənanı qüvvətləndirməyə xidmət edirlər. Alman dilində sehr, doch, na, nun, noch, zu və s. partikllərə aiddir.

Dilçilikdə nidaları da ayrıca nitq hissələri kimi göstərirlər.

Nəhayət, modal sözlər xüsusi qrupda verilir, onların da əsas funksiyası modallığı (şübhə, təəssüf, inam, güman, ümüd və s.) bildirməkdir.

Məs: alman dilində: wahrscheinlich - yəqin ki
hoffentlich - güman ki
vermutlich - güman ki və s.[26]

## VI . 8. Fəslə dair yoxlama sualları və tapşırıqlar

1. Qrammatika haqqında nə deyə bilərsiniz?
2. Dilin morfoloji strukturu deyəndə nə başa düşürsünüz?
3. Morfem nədir? Onun morfa və allomorfa münasibəti nejədir?
4. Avtosemantik və sinsemantik morfemlər hansı morfemlərə deyilir?
5. Morfemlərin valentliyi və variativliyi barədə nə deyə bilərsiniz?
6. Morfemin üzvlənməsi hansı prinsiplərə əsaslanır?
7. Morfemlərin iç əlaqələrini açıb göstərməyə çalışın. Bu zaman ağac şəkilli modellərdən istifadə edin.
8. Nitq hissələri haqqında nə deyə bilərsiniz?
9. Müəyyən mətni morfoloji cəhətdən təhlil edin.

[1] Л.В.Щерба. Некоторые выводы из моих диалектологических лужицких наблюдений.С.-Петербург, 1915.s.126; А.И.Смирницкий.Морфология английского языка.М.,1959,s.6.
[2] Studia Grammatica. I, Akademie-Verlag, Berlin, 1966.
[3] J.M. Simpson. Göstərilən əsəri, s. 103.
[4] Akad. L.V. Şerbanın «Глокая куздра...» misalı sonralar dilçilikdə qanadlı sözlərə çevrildi. Л.В. Щерба. Языковая система и речевая деятельность. Л., 1974; E. Coseriu. Sprachkompetenz. Tübingen, 1988.
[5] H.Glinz.Die innere Form der deutschen Sprashe.1973, s.461.
[6] Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 127.
[7] İngilis alimi C.M.Simpson isə qrammatik kateqoriyanı belə tərifləndirir: «Qrammatik kateqoriya morfemlərin qapalı şəbəkəsidir. Onların işlənməsi sintaktik əlaqələrdən asılıdır. Onlar allomorflar şəklində sintaktik səviyyədə əlaqəyə girirlər. C.M.Simpson. " Göstərilən əsəri, s. 107.
[8] P.H. Matthews. Recent Devolpment in Morphology. "New Horizonts in Linguistics". 1973, s.103.
[9] Qeyd edək ki, A.Martine (1907) dil işarələrinin ikili üzvlənməsindən danışarkən, ikinci üzvlənmənin vahidi kimi **monem** terminindən istifadə edir. A. Martinet. Grundzüge der allgemeinen Sprachwissenschaft. Stuttgart, 1963.
[10] Ch. Hockett. A Sourse in Modern Linguistics. New-York, 1958, s. 123.
[11] И. А. Бодуен де Куртенэ. Избранные труды по общему языкознанию. 2 т., М., 1963, s. 282.
[12] Ю.С. Маслов. Введение в языкознание. М., 1987, s. 131.
[13] Məlumdur ki, /d/→/t/ və ya /a/→/ε/ kimi əvəzlənmələri başqa jür şərh edənlər də var. Biz burada L.V.Şerba məktəbinin mövqeyindən çıxış edirik. Bax: L.R.Zinder. Общая фонетика. М., 1979; F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989.
[14] Rolf Bergmann. Peter Paulu, Michel Schalfer. Einführung in die deutsche Sprachwissenschaft. Heidelberg, 1991, s.48.
[15] . Bax: J.Erben. Abriß der deutschen Grammatik. Berlin, 1964.
[16] Rolf Bergmann. Peter Paulu, Michel Schalfer. Einführung in die deutsche Sprachwissenschaft. Heidelberg, 1991, s.48.
[17] Bu təhlil metodunun əsasını L. Blumfild qoymuşdur. Bax: L.Blumfild. Язык. М., 1968. Lakin onun alman dilinə konkret tətbiqinə biz D.Klemenanın əsərində rast gəlirik. Bax. D. Clement. Linguistisches Grundwissen. Eine Einführung für zukünftige Deutschlehrer. Westdeutscher Verlag, 1996, s. 44-48.
[18] M. Bierwisch, Über den theoretischen Status des Morphems. „Studia Grammatica." I., Akademie-Verlag, Berlin, 1966, s. 51-89.

[19] E. Coseriu. Einführung in die allgemeine Sprachwissenschaft. 2. Aufl München, 1992, s. 17.
[20] Yenə orada.
[21] Termin: A. İ. Smirnitskinindir (1903-1954). Bax: А.И.Смирницкий. Лексикология англиского языка. М., 1956.
[22] Ənənəvi dilçilikdə parts of speech, Redeteile, Wortarten, Wortklassen və s. terminlərinə rast gəlmək olar. Bax: Rolf Bergmann, Peter Paulu. Michael Schalfer. Göstərilən əsəri, s. 52-57.
[23] H.Brinkmann. Die Wortarten im Deutschen. «Das Ringen um eine neue deutsjhe Grammatik». Naşir N.Mozerdir. Darmştadt, 1962, s.101-127.
[24] İngilis dilində xəbər şəklinin sual, inkar şəkilləri to do köməkçi felilə düzəlir. Məs.: |Do you ask me? |, |Yes, I do. No, I do not (don't)|| və s.Ancaq /İs he a doctor, Jan you help me, Had I seen…// tipli cümlələr to do-suz düzəlir.
[25] Ö.S. Maslov. Göstərilən əsəri. s.163.
[26] Biz burada köməkçi sözlər haqqında ətraflı danışmırıq. Maraqlananlara oxumağı məsləhət görərdik: Д.Вейсалова. Просодика служебных слов в современном немецком и азербайджанском языках. Канд. диссертация, Баку, 1990.

# VII. GERMAN DİLLƏRİNİN SİNTAKTİK QURUMU

## VII. 1. Ümumi qeydlər

Sintaksisi ənənəvi olaraq cümlə haqqında təlim kimi müəyyənləşdirirlər. Der Grose Brockhaus yazır: «Sintaksis qrammatikanın bir hissəsi olub, cümlənin (baş və budaq cümlənin) sintaktik quruluşu və üzvlənməsilə məşğul olur»[1].

Buna bənzər tərifə biz Duden-Lexikonda da rast gəlirik: «Qrammatikada cümlənin quruluşunu və üzvlənməsini öyrənən hissəyə sintaksis deyilir».[2]

Lap qədimdən tədqiqat metoduna görə formal, psixoloji və məzun sintaksisi fərqləndirirdilər. Formal sintaksis cümlənin formal əlamətlərini aşkar edirdisə, psixoloji metod cümlənin düzəlməsini ruhi proseslərin ifadəsi kimi götürürdü, məzun sintaksisi isə danışıqda cümlənin yerinə yetirdiyi funksiyanı öyrənirdi.

Məqsəddən asılı olaraq tarixən sintaksisin təsviri, tarixi, müqayisəli və izahedici növlərini fərqləndirirdilər.[3]

Germanistika üzrə mövcud mənbələrdə, qrammatika kitablarında və tədris planlarında bir qayda olaraq qrammatikanın üç bölməsindən danışılır: səs təlimi bölməsi (fonetika), bəhsi (sintaksis). Qeyd edək ki, H.Paulan rəhbərliyilə müəlliflər kollektivin çapdan buraxdığı orta əsrlər alman dili qrammatikasına (1881; 11-ci nəşri, 1959) qədər çıxmış əksər qrammatika kitablarında sintaksisdən söhbət belə getmirdi.[4]

Bununla yanaşı, alman dilinin sanballı qrammatikaları sintaksisə həmişə böyük yer ayırmışlar. Məsələn, Y.Qrimm (1785-1863) özünün dördcildli «Deutsche Grammatik» (birinci nəşri 1919, ikinci nəşri 1922) əsərinin 4-cü cildini bütövlükdə sintaksisə həsr etmişdi. (1133 səhifə). Maraqlıdır ki, bu kitabın birinci nəşrində səs təlimi bölməsi olmayıb. Bu yalnız ikinci nəşrdə «Hərflərdən» başlığı altında kitaba daxil edilib. Dilçilik elmi

üçün burada maraqlı odur ki, hərflə səsi fərqləndirə bilməməsi sonralar Y.Qrimm kimi alimin ciddi qüsuru sayılırdı.[5] H.Paulun 5 cildlik qrammatikasının (1916/20; 5-ci nəşri 1959) 3-cü və 4-cü bütövlükdə sintaksisə həsr olunub.

Amerika strukturalizminin banisi L.Blumfild yazırdı ki, morfologiya söz və söz hissələrinin, sintaksis isə frazaların düzəlməsini əhatə edir. Onun ardıcıllarından sayılan H.Qlisson isə sintaksisi belə müəyyənləşdirdi: «Sintaksisi ümumi şəkildə sözdüzəltmə və sözdəyişmə prosesində əmələ gələn birləşmələrin müxtəlif növdən olan daha böyük birləşmələrə düzənlənməsi (arcangement) prinsipləri kimi müəyyənləşdirmək olar».[6]

Görkəmli rus dilçisi A.M.Peşkovski (1878-1933) sintaksisə həsr etdiyi əsərin «Ön söz»ündə göstərir ki, onun sintaksisi elmi-metodoloji baxımdan dilin zahiri, yəni səs tərəfini əsas götürüb. Digər məziyyət kimi isə bəzi sintaktik çalarların zahiri göstəricilərinə - intonasiya və ritmə xüsusi diqqət yetirilməsidir.[7] Həmin əsərin 64-cü səhifəsində isə A.M.Peşkovski sintaksisi belə müəyyənləşdirir: «Söz birləşmələrinin formalarını öyrənən qrammatika bölməsinə sintaksis deyilir».

Görkəmli dilçi L.R.Zinder (1904-1995) öz həmkarı ilə ilk dəfə olaraq rus dilində alman dilinin qrammatik quruluşuna iri həcmli əsər həsr ediblər və bu əsərdə onlar qrammatikanı dilin qrammatik quruluşunu özünə predmet seçən elmi fənn kimi dəyərləndirirlər. Onlar fonetikanı müstəqil fənn kimi qəbul etsələr də, onun qrammatik quruluşla bilavasitə bağlı olduğunu xüsusi qeyd edirlər. Onların fikrincə, bu bağlılıq özünü dilin səs tərəfinə malik olmasında, qrammatik mənaların fonetik dəyişmələrlə ifadə oluna bilməsində, habelə fikrin ifadə olunmasında intonasiya və prosodiyanın oynadığı rolda biruzə verir. Bu müəlliflərə görə qrammatika morfologiyadan, yəni sözlərin düzəlməsi və dəyişilməsi haqqında təlimdən və sintaksisdən, yəni cümlədə sözlərin və cümlələrin öz aralarında birləşməsi qaydaları haqqında təlimdən ibarətdir.[8] Bu kitabın 230-cu səhifəsində oxuyuruq: «Qrammatikanın cümlə düzəlməsi, söz birləşmələri, habelə cümlələrin

bir-birilə birləşməsi qaydalarını öyrənən hissəsi sintaksis adlanır».

Digər görkəmli germanist V.Q.Admoni (1909) sintaksis deyəndə həm dilin sintaktik quruluşunu, həm də bu quruluşu öyrənən nəzəri fənni başa düşür. [9] V.Admoni yazır: «Sintaksis rabitəli nitqin düzəlməsilə, onun ünsiyyət prosesində çıxış etməsi, yəni bu prosesin ən mühüm vahidi cümlə isə, söz birləşmələrilə məşğul olur və cümlə və söz yaranmasına xidmət edən formal vasitələri öyrənir». [10]

Əslində sintaksisin bu mənada anlaşılması bütün müasir dilçilik üçün səciyyəvidir.[11]

Ancaq N.Xomskidən sonra qrammatikanın və o cümlədən, sintaksisin məqsəd və vəzifələrin başqa yönümdən şərh olunmağa başladı. Bu barədə biz irəlidə geniş danışacağıq. Burada isə onu demək kifayətdir ki, N.Xomski qrammatika deyəndə dildə bütün sonu olan və olmayan cümlələrin şəbəkəsini başa düşür. Bu alim çox haqlı olaraq göstərir ki, nəzəri cəhətdən hər bir dildə qrammatik cümlələrin sayı sonsuzdur. [12] Lakin sayca sonu olmayan cümlələri düzəltmək üsün sayca sonu olan qaydalar mövcuddur ki, onların köməyilə həmin o saysız-hesabsız cümlələr yaranır. Bu da törəmə qrammatikası adlandırılır. Dilçinin vəzifəsi həmin qaydaları ümumiləşdirərək düzgün cümlələri qeyri-düzgünlərdən seçməyi müəyyənləşdirməkdən ibarətdir. Cümlələr də iki baxımdan araşdırıla bilər. Sintaktik baxımdan cümlə söz, fonoloji baxımdan isə fonem ardıcıllığı kimi nəzərdən keçirilə bilər. Söz sırası mənanı dəyişə də bilər, dəyişməyə də. Məs. /The dog bit a man// (İt kişini dişlədi) və /The man bit a dog// (Kişi iti dişlədi), ancaq /I had an idea on my way home// (Evə gələrkən yolda bir ideyam vardı) və /On my way home I had an idea// (Evə gələrkən yolda bir ideyam vardı) və s.

Son illər uşaq dilinin geniş miqyasda tədqiqi bir daha göstərdi ki, sintaksis insanın ilk gündən yaratdığı bütün ifadə cümlələrin intonasiya və ritmlə formalaşmasında öz təsdiqini tapır. «Uşaq altı aylığında Azərbaycan dili üçün səciyyəvi olan (vurğu-

suz+vurğulu) heca modelini tam mənimsəmiş, tonun enib qalxan və qalxıb enən növlərini məharətlə tətbiq edərək kontakta girən dillərin hər ikisində (ingilis və Azərbaycan - F.Yadigar) nəqli, sual və nida cümlələrini təsdiqdə və inkarda, əsasən də söz/cümlə və ya holifrastik cümlələr şəklində tətbiq edə bilirdi». [13]

Məlumdur ki, biz xaraca dillərin tədrisində sintaktik səviyyəyə daha çox fikir veririk, çünki dilöyrənənlər elə ilk gündən öyrəndikləri dildə ünsiyyətə girmək istəyirlər (bax. VIII fəsil).

Ünsiyyətin ümdə vəzifəsi isə məlumatı ötürmək və ötürülən məlumatı başa düşməkdən ibarətdir ki, bu də əsasən cümlələr vasitəsilə gerçəkləşir. Son nəticə olaraq tekst meydana gəlir ki, bu da hər bir dil daşıyıcısı üçün önəmlidir. Elə buna görə də hər bir dil daşıyıcısı danışığının səslənməsini, bu danışıqdakı söz düzümünü və ikisinin bir yerdə ifadə etdiyi mənanı müşahidə edərək informant rolunda çıxış edir. Dilçinin tədqiq edərək çıxardığı qanunauyğunluqları hər bir dil daşıyıcısı kortəbii olaraq hər gün həyata keçirir, cümlələr düzəldir, onun tərkibini dəyişir, dediklərinə əlavələr edir, daha yaxşı anlaşılmaq üçün saysız-hesabsız eksperimentlər aparır, sanki bir dilçi kimi söz və ifadələri seçib götürür. Hər dəfə edilən dəyişikliyə müvafiq fonetik qəlib seçilir. Bu proses ünsiyyət boyu danışanla dinləyənin öz məqsədlərinə çatmasına qədər davam edir.

Amma german dilləri təkcə bu gün işləndikləri kimi olmayıblar. Onlar müəyyən tarixi bir dövr keçərək bugünkü vəziyyətlərinə gəlib çatıblar. Elə buna görə də dildə tarixən baş verən dəyişiklikləri müşahidə edib nəticələr çıxartmaq çətindir, çünki keçmiş dövrlərdə hər hansı bir dildə danışanları tapıb dilləndirmək mümkün deyil. Dilin keçmişini öyrənmək üçün iki yol var: ya dilin ötən dövrlərdəki sistem və struktur özəllikləri həmin dildə olan yazılı abidələrin əsasında bərpa edilərək öyrənilməlidir. Bu zaman diaxronik aspektdə dildaxili müqayisəyə geniş yer verilir. Bu da onu bir daha təsdiq edir ki, hər bir diaxronik tədqiqat ilk öncə sinxronik araşdırmadan sonra mümkündür. Ancaq keçmişdə vahid orfoqrafiya qaydaları mövcud olmadığından mətnlərin müxtəlif variantlarda qələmə alınması xeyli

çətinlik yaradır. İkinci yol isə indiki dillərin səslənməsi xüsusiyyətlərinin gələcəkdə tədqiq edilə bilməsi üçün onların müasir texniki avadanlıqların köməyilə (maqnitofon, sidi və s.) yazılaraq gələcək nəsillərə ötürülə bilməsidir. Bunun da nəticəsində onların təzədən dinləndirilərək analizə cəlb oluna bilməsi imkanı gerçəkləşmiş olur.

## VII. 2. German dilləri sintaksisinin nəzəri məsələləri

(Qrimmdən Xomskiyə qədər)

Yuxarıda qeyd edildiyi kimi, germanistika sahəsində sintaksisə dair ilk sanballı əsərin müəllifi Y.Qrimm olmuşdur. Y.Qrimmin aşağıdakı fikri ənənəvi qrammatika baxımından maraq doğurur: «...yalnız iki nitq hissəsi əhəmiyyətlidir, adlar və fellər. Ad mübtədadır, o nəsə deyir və ya ondan nəsə danışılır, fel isə ifadədir. Partiketlər addan başqa bir şey deyildir, bəzən də az və ya çox dərəcədə felləri kölgədə qoyan sözlərdir.[14] Y.Qrimm feli cins (Genus) - növ (Modus) - zaman (Tempus) - kəmiyyət (Numerus) - şəxs (Person) fəsillərində, adı isə ad (Nomens) - cins (Genus) - kəmiyyət (Numerus) - şəxs əvəzliyi (Persönliches Pronomen) - digər əvəzliklər (übrige Pronomina) - şəkilçi (Flexion) - hal (Casus) - mütləq hal (Absoluter Casus) - zərf və sifət (Abver bund Adjectiv) - hər iki parçalara qeydlər - qarışıq konstruksiyalar (Anmerkungen zu beiden Abschnitten: gemischte Constructionen) fəsillərində nəzərdən keçirir. Y.Qrimmin aşağıdakı sözləri onun öz ana dilinə necə tənqidlə yanaşmasını bir daha təsdiq edir: «Əksər başqa Avropa xalqları bizə daha çox yaxın olsalar da, onlar sağlam məntiqə daha çox söykənirlər; onlar müraciətin iki formasını - ikinci şəxsin təkini və cəmini saxlayıblar. [15] Y.Qrimm artiklin tarixən işarə əvəzliyindən yarandığını, lakin hazırda alman dilində onun ağır yükə çevrildiyini xüsusi qeyd edir. [16] Eyni zamanda onun ifadəyə incə və dəqiq təsirini də inkar etmək olmaz. [17] O, alman dilində keçmiş dövrlərin qalığı olan ablautun geniş inkişaf etmiş sistemindən danışır və onların köməyilə fellərin böyük şəffaflığa malik olduğunu xüsusi qeyd

edir. Keçmişi və indini özündə qüvvət tapıb təkbaşına ifadə etdiyinə görə Y.Qrimm bu cür felləri qüvvətli müxtəlif zamanı ifadə etmək üçün şəkilçilərdən istifadə edən felləri isə zəif fellər adlandırır. [18] Y.Qrimmdən düz əlli il sonra O.Erdmann (1846-1895) «Grundzüge der deutschen Syntax nach ihrer geschichtlichen Entvvicklung (1886) əsərində danışıqda sözlərin işlənməsi xüsusiyyətlərindən, cümlədə felin yerindən və ayrılıqda cümlə üzvlərindən tarixi ekskurslar etməklə geniş danışır.

H.Vunderlixin (1858-1916) «Der deutsche Sparchbau» kitabı o dövrün alman sintaksisnə həsr edilmiş bir əsər idi. [19] Bu müəllif sintaksisin əsas anlayışlarını və metodunu müəyyən etməyə çalışır. Bu müəllif öz dövrünün dil xüsusiyyətlərindən çıxış edərək və ələlxüsus Goethe-nin dilini nümunə götürərək sintaksisin əsas vahidi - cümləni səslənən bütöv kimi önə çəkir. Onun da əsərinin əsas hissəsini fel təşkil edir.

Məlumdur ki, alman qrammatikasının məktəbdə təlimi uzun müddət cümlənin mübtəda və xəbərə üzvlənməsi prinsipinə əsaslanırdı. H.Vunderlix də tədricən buna meyllənirdi. Ancaq onun konyunktivlə bağlı fikirləri çox maraqlı idi. O, formal olaraq konyunktivi optativ hesab edir, onun danışanın iradə sferasında yerləşdiyini israr edirdi. H.Vunderlix söz sırası ilə birinci cildi tamamlayır, ikinci cilddə isə əsasən adlardan və əvəzliklərdən, daha sonra partikellərdən və mürəkkəb cümlələrdən söhbət açır.

H.Paulun dördcildli qrammatikasının iki cildi bütövlükdə sintaksisə həsr edilib (1919). Mütəxəssislərin fikrincə, H.Paulun «Qrammatika»sı alimin ömrünün son illərində iş üzərində çalışarkən görmə qabiliyyətini itirdiyinə görə əvvəllər uzun müddət topladığı dil materialı öz sadiq əməkdaşı vasitəsilə sistemləşdirib şərh elədiyindən ondan 12 yaş kiçik olan H.Vunderlixin qrammatikasından təbiiliyinə və dəqiqliyinə görə xeyli geridə qalır. [20] H.Paul sintaksisə iki cilddə 16 fəsil həsr edir ki, bu da sadə cümlədən başlayıb söz sırası, nitq hissələri, uzlaşma, halların işlənməsi, söxönüləri, fel formaları, cümlələrin tabeliyi və tabesizliyi, asılı sual cümlələri, nisbi cümlələr, bağlayıcı ilə başlanan ası-

lı cümlələr, asılıl sual, nisbi və bağlayıcılı cümlələrdə zaman formalarının işlənməsi, baş və budaq cümlələr arasındakı münasibət (xüsusilə budaq cümlələrin yeri) kimi problemləri əhatə edir. Kitabın on üç fəsli inkarlıq, ifadənin qənaətliliyi və anomaliyalar məsələlərinə həsr edilib. H.Paul sintaksisi məna təliminin bir hissəsi sayır, onun fikrincə sintaksisin vəzifəsi ayrı-ayrı sözlərin birləşərək məlumatı düzəltməsini şərh etməkdir. H.Paul psixoloji anlamdan çıxış edir, ona görə də başqa bir sözlə əlaqəsi olmadan tələffüz edilən sözü heç bir şey sayır. Söz yalnız dinləyənin ruhunda doğurduğu uyğun məna ilə şüurda əvvəllər ona bağlanan təsəvvürü oyadır. Məlumatın yaranması üçün bir sözlə şüurda canlanan təsəvvür yalnız başqa bir təsəvvürə bağlanmalıdır. Bu da ən azı ikinci bir söz əlavə olunduqda mümkündür ki, bununla bağlı təsəvvür bərpa olunsun. Əslində bir sözlə də məlumat yarana bilər. Onda sözün mənasından doğan təsəvvür məqamla bağlı deyilməmiş sözlə əlaqələndirilir. [21] Bu cür yüksək səviyyəli alim üçün, nəzəri tədqiqatları ilə şöhrət qazanmış[22] bir dilçi üçün bu qədər qeyri adi fikirlər (müq. et: «hər hansı bir əlaqəsi olmadan deyilmiş ayrıca söz» və ya «danışanın ruhunda heç bir hazırlıq olmadan yaranan» və s.) necə meydana gələ bilər? H.Paul bildirir ki, /Diebe, Marsch/ sözləri cümlə məziyyətini o zaman qazanır ki, onlara bilavasitə deyilməyən üzvün əlavəsi nəzərdə tutulsun. Lakin məlum deyildir ki, o üzvü tədqiqatçı deyiliş məqamından uydurub tapmalıdır, yoxsa danışan və ya dinləyən bunu tapmalıdır. H.Paul cümlənin təhlili üçün qrammatik mübtəda və xəbər terminlərilə yanaşı «psixoloji subyekt» və «psixoloji xəbər» «anlayış»larını irəli sürür (bu məlumatları Azərbaycan dili materialları əsasında K.Abdullayev geniş şərh edib).[23] Psixoloji xəbər sadəcə olaraq cümlədə ən güclü tonla deyilən sözdür (paraqraf 8, s.12). Psixoloji subyekt isə cümlədə birinci güclü tonla deyilən sözdür (amma bu psixoloji predikatın tonuna çatmır). H.Paul 8-ci paraqrafın 15-ci səhifəsində yazır: «Karl spricht schnell. Karl isst Apfel» (Karl sürətlə danışır və Karl alma yeyir) cümlələrində qrammatik formanı psixoloji üzvlənmə ilə mümkün dərəcədə uyğunlaşdıra bilsək, onda bu

cümlələr belə səslənərdi: Karls Sprechen ist schnell-Was Karl isst, sind Äpfel» (Karlın danışığı sürətlidir və Karlın yediyi almadır).

H.Paul sadə cümləni subjekt+predikat kimi başa düşür. Amma predikat anlayışı onda genişdir: o, sadə feli, köməkçi feli (kopula)+ ismi xəbər, predikativ sifət (eynilə predikativ sözönülü birləşmələri), predikativ zərfi (eynilə predikativ sözönülü birləşmələri) əhatə edir. Məs.: /Er ist aus Leipzig, Er ist ohne Beschäftigung, Er ist in Verzweifelung, Er ist von Sinnen//) və ya predikativ atribut (müq. et: /İch kam müde an//, /İch kam gesund an//, /İch kam wohlbehalten an//)və s. H.Paul sözönüsüz hallara 4-cü, sözönülülərinə isə 5-ci fəsildə yer ayırır. Onun bu mövqeyini tənqid edən H.Qlins yazır: «... o istəyirdi ki, K.F.Bekerin mexaniki cümlə təhlilindən azad olsun, ancaq əsas məsələlərdə, hətta bu məsələlərlə psixoloji don geyindirməyə çalışsa belə, ondan uzaqlaşa bilmir».[24]

H.Paul söz sırasına xüsusi diqqət yetirir və təsrif olunan felə münasibətdə onun üç növünü göstərir: başda sonda və ikinci yerdə gələn. Bundan sonra o, ayrı-ayrı cümlə üzvlərini nəzərdən keçirir və yazır: «Akuzativin adəti funksiyası obyekti göstərməyə xidmət etməkdən ibarətdir, bu həmçinin onunla səciyyələnir ki, passivə çevriləndə akuzativ dönür olur nominativ».[25] Bundan savayı H.Paul akuzativin məna çalarlıqlarını açmağa çalışır. Akuzativ fəaliyyətin nəticəsini (daxili obyekt) və hər hansı fəaliyyətin təsirinə məruz qalan əşyanı (xarici obyekt) bildirir. İkili və predikativ akuzativlə yanaşı H.Paul predikativ sifəti də akuzativ kimi götürür. Məs./ İch finde ihn abscheulich//.

H.Paulda verilən nümunələrin hamısı eyni dərəcədə qiymətləndirilir, ona görə də bəzən dəyərləndirmə müasir dilin tələblərinə cavab vermir.

Öz dövrünün dil xüsusiyyətlərini daha yığcam və adekvat şəkildə şərh edən amerikalı germanist O.O.Kurme (1860-1948) olmuşdur.[26] O, «Grammar of the German Language» əsərində canlı alman dilini ingilis mövqeyindən açıb göstərməyə nail olmuşdur. Kitab canlıdır, əyanilik və bütövlük nümunəsidir. Bu-

nunla yanaşı bu əsərdə bir sıra köhnə misallar da verilib. Bu kitabda sintaksis əsasən məktəb qrammatikası işığında şərh olunub.

Germanistikada sintaksis sahəsində O.Behaqelin (1864-1936) öz yeri var. Onun sintaksisi səkkiz kitabı əhatə edir (1923-1932). F.de Sössürün tələbəsi olan O.Behaqel strukturalist başlanğıcla germanistika ənənəsinə inam arasında qalan bir alim təsəvvürü yaradır. Birinci kitabda adlar və əvəzliklər nəzərdən keçirilir. Saylar əvəzliklərə daxil edilir və artikldən ümumiyyətlə danışılmır. Sonra bu alim isimlərin absolut (Gott, Mann, Abend, Morgen, Weltende (ikinci tərəf relativdir) və relativ anlayışlarından (bir hissənin ifadəsi: məs.: bütövün və çoxluğu bir parçası (Anfang, Mitte), hadisələrin göstəriciləri (məs. Alter Hırte), feldən düzələn adlar (Fahrt, Klage); bağlayıcı anlayışlar : a) şəxs adları (münasibət bildirən adlar. Məs., Tochter, Feind), nomina acentis (məs. Anhänger, Geber), abstrakt isimlər (Liebe, Freude), yiyəlik bildirənlər (məs., Heimat), fiziki və mənəvi münasibətləri bildirən sözlər (məs. Treue, Abstand), nomina actions (məs., Liebe, Taufe) və s. növlərini fərqləndirir.

Absolut anlayışlar relativ ola bilir. Məs., ölçü vahidləri, insanın bədən üzvlərinin adı və ya paltarı ilə ifadə olunur. Məs.: Fuss, Schuh, qab adlarından, məs.: Ohm (Oma-çəllək, vedrə, Simri (zənbil sözündən), məhsul adından (Lot. qədim Blei), vaxt adından (ein Morgen Ackers, kütlə adından, məs.: Volk (ein Volk Hühner) və s.

Təküzvlü cümlələr. Məs. Mein Gott! Feuer! Çoxüzlü cümlələrin mübtədası: Gott ist allmaechtig.

İkiüzvlü cümlələrin ikinci üzvü yaranır. Alles Wahn.

Söz birləşmələri vasitəsilə genişlənmiş qruplar yaranır: Sone und Mond.

Təyinedici söz qrupları eyni halda olan sözlər olur. Məs.: die Stadt Berlin.

Genitivlə düzələn. Məs.: das Ende der Welt. Dativlə düzələn. Məs.: meinem Vater sein Haus.

Zərflə və ya sözönülü ifadə ilə düzələn. Məs.: Der König von Preussen.

Nisbi isimlərdə bir neçə birləşmə ola bilər. Məs.: Das Bündnis Frankrechs mit Russland.

O.Behaqel ismin işlənməsi üzrə hər hansı bir ümumişlənmə aparmadan konkret misal verir. Onları nəzərə almaq olar. Ancaq onun 4 cildliyini bütöv bir əsər kimi götürmək mümkün deyil.

Beləliklə, Y.Qrimmdən tutmuş O.Behaqelə qədərki sintaksis sahəsindəki araşdırmalar göstərir ki, onlar nəinki psixoloji-məntiqi baxımdan birtərəfli və sxematik, həm də dil tarixinə yönəlmiş məhdud təsvirlər idilər. Ancaq Y.Qrimm H.Paula nisbətən daha çox anlayış, tənqid və empirik dilçiliyə yaxın idi, baxmayaraq ki, Y.Qrimmin təlimində romantizm çox güclü idi. Hələ o zaman F. de Sössür və B. de Kurtene təlimləri yaranmamışdı. Ona görə də o dövrün dilçiləri mətnlərdə tapdıqları dil faktlarını şərh etməklə onların bir vəziyyətdən başqa vəziyyətə keçməsini müəyyənləşdirməyə çalışırdılar.

XX əsrin 30-40-cı illərində sintaksis sahəsində araşdırmalar yeni vüsət almağa başladı. Alimlər məktəb qrammatikasının təsirindən qurtulmağa, yeni anlayış sistemini yaratmağa və sintaksisi cümlə üzvləri haqqında təlim kimi dar düşüncədən xilas etməyə çalışırdılar. Bu baxımdan sintaksisə yeni ideyalar gətirən əsərlərdən bir neçəsinin adını çəkmək yerinə düşərdi: Erich Drach. Grundgedaken der deutschen Satzlehre, 1937; Wolfgang Pfeiderer. Der deutsche Satzplan in seinen Grundzügen. 1940; H.Glinz. Der deutsche Satz Satzglieder und Wortarten wissensenschaftlich gefasst und dichterisch gedeutet. 1957, 4-cü nəşri 1965; Die innere Form des Deutschen, Bern, 1952; K.Boost. Neue Untersuchungen zum Wesen und zur Struktur des deutschen Satzes. 1955. A.H.Gardiner. The Theory of Speech and Language. London, 1932.

Lakin K.Bülerin (1894-1963) «Sprachtheorie» (Jena, 1934), sonra isə Praqa Dilçilik məktəbinin Məktəbinin əsərləri (Cercle linguistique de Prague, 1929-1939, əsasən də S.Karsevskinin

«Sur la phonologie de la phrase» əsəri), J.Furkenin (1899)[27], H.Qlinsin[28], H.Brinkmannin (1901)[29], V.Q.Admoninin, L.Blumfildin, O.Yespesenin, Ç.Frizin[30] və s.-nin əsərləri german dillərinin sintaksisi sahəsində yeni fikir və mülahizələrin yaranmasına güclü təkan verdi.

1957-ci ildə H.Qlinsin «Der deutsche Satz» və N.Xomskinin «Sytactic Structure» kitabları, habelə Y.Erbenin «Abris der deutschen Grammatik» (1959), H.Brinkmannın cümlə nəzəriyyəsinə xüsusi yer ayırdığı «Die deutsche Sprache. Gestalt und Leistung» və L.Vaysqerberin «Die vier Stufen in der Erforschung der Sprachen» (1963), habelə şərqi Berlində çap olunmuş «Studia Grammatica»da M.Birviş (1930) və V.Moçun (1934) əsərləri sintaksisi elmi araşdırmaların yeni mərhələsinə qaldırdı.

50-ci illərin əvvəllərində qrammatikanın tədrisinə, habelə universitetlərdə canlı dilin tədqiqinə artan maraq sintaksisin də hərtərəfli öyrənilməsinə münbit şərait yaradırdı. Germanistikada sahə nəzəriyyəsinin banisi Y.Triir alman ali məktəb germanistləri birliyinin sədri kimi 1952-ci ildə Münsterdə germanistlərin qurultayının açılışında məktəblə universitetin əməli və didaktik işlər zəminində əməkdaşlığından danşaraq deyirdi: «... gələcək müəllimə qrammatik və stilistik tədrisin əsası kimi müasir yeni alman dilinin sintaksisi daha vacibdir... Universitetlə məktəbin yeni canlı əlaqəsi başlanır və bu ümid dolu fikirlərlə mən germanistlərin Münster qurultayını açıq elan edirəm».[31] Maraqlı burasıdır ki, yuxarıda adlarını çəkdiyimiz alimlərin çoxu orta məktəbdə çalışmışlar. Məs.: H.Qlins 9 ilə qədər orta məktəbdə alman və fransız dillərini tədris edib. L.Vaysqerber 50 il ordinarius kimi çalışandan sonra məktəbə gedib öz ideyalarını yoxlamaqdan çəkinməyib. Ç.Friz intensiv olaraq dilin tədrisi məsələlərilə məşğul olub və ümumiyyətlə, Amerikada bütün deskriptiv dilçilik nəzəriyyəni praktika ilə vəhdətdə götürüb.[32] İrəlidə bu əsərlərin bəzisi haqda bir qədər ətraflı danışacağıq. İlk növbədə H.Qlins və Y.Erberin (1925) sintaktik təlimlərinə bir nəzər salaq. H.Qlinsin «Die innere Form des Deutschen» əsəri 3 hissədən ibarətdir: hazırlayıcı (15-67 s.), əsas (69-451 s) və nəticələr

(453-478). Əsas hissə isə bütövlükdə söz və cümlədən bəhs edir. Öz orijinallığı, məzmun, metod və termin zənginliyilə diqqəti cəlb edən bu əsərdə cümləyə ilk mərhələdə belə tərif verilir: «Cümləni, onu ilk öncə tanıdğımız kimi, daha yaxşı nitqin nəfəsə uyğun gələn deyim vahidi, lakin hər zaman ifadə olunanın, məzmun və mənanın vahidi kimi müəyyənləşdirmək olar».[33] Sözü isə o ən kiçik məna vahidi hesab edir və bütün əsər boyu onların qarşılıqlı təhlilinə xüsusi önəm verir.

Y.Erbenin «Abris der deutschen Grammatik» (1958, 7-ci nəşri 1964) əsəri də bütövlükdə iki hissədən – söz və cümlədən ibarətdir. H.Qlinsdən «Bütün dillərin əsas vahidləri söz və cümlədir» (sonra da K.Bülerdən əlavə edir ki, «onlar nitqin yaranmasında iki korrelativ məqamlardır») epiqraf gətirən Y.Erben sonradan bütün kitabını söz (226 s.) və cümləyə (227-269) bölür.

İlk baxışdan bu bölgü etiraz doğura bilər. Amma bu kitabla yaxından tanış olduqda məlum olur ki, Y.Erben öz əsərinin B bölməsini (s. 18-226) «Söz cümlə daxilində funksional vahid kimi» adlandırır və O.Behaqelin 1-5-ci kitablarının (1 və 2-ci cild və 3-cü cildin yarısı) məzmununu təşkil edən sintaksisə həsr edib. Burada Y.Erben 3 iri söz qruplarından – fel, isim, sifət/zərfdən, daha sonra isə sözönü və bağlayıcılardan söz açır. Onları tərkibinə, forma düzəltməyinə və işlənməsinə görə nəzərdən keçirir. Axırıncı, bütövlükdə sintaktik baxımdan şərh olunur. Məs.: 111-135-ci səhifələrdə ismin hansı cümlə üzvü yerində işlənməsi araşdırılır.

Y.Erben cümləni ən kiçik, nisbətən müstəqil nitq vahidi adlandırır (Abris, s.227). İrəlidə H.Qlins və Y,Erbenə rəğmən bəzi sintaktik izahatlar vermək istərdik. Cümlə tiplərinin müəyyənləşməsində H.Qlins cümlədə əsas üzvün (Leitglied) yerindən çıxış edərək nüvə (Kernsatz), gərgin (Spannsatz) və başda gələn (Stirnsatz) cümlələri fərqləndirir. [34] Həmin bu əsas üzvün (xəbərin və ya onun dəyişən hissəsinin) yerindən asılı olaraq müxtəlif cümlə tiplərində təmsil oluna bilərlər. Məs.:/Hans hatte seinen Vater nicht bemerkt// - /weil Hans seinen Vater nicht bemerkt// - ? Hatte Hans seinen Vater nicht bemerkt? Məlumdur ki, cümlə-

də müxtəlif məna çalarlıqları ifadə edilə bilər. Buna əsasən Y.Erben cümlə sxemlərini təqdim edir, özü də birinci növbədə təsrif olunan xəbərin ikinci yerdə gəlməsini ön plana çəkir.

1. /İch kenne den Mann gut// (/ İ know the man good//) cümləsi konkret danışıq məqamından asılı olaraq müxtəlif cür deyilə bilər. Bunun ən yaxşı göstəricisi həmin cümlənin intonasiya qəlibinin fərqli olmasıdır ki, bu da cümlə vurğusunun yerini dəyişməklə daha qabarıq şəkildə özünü büruzə verir. Bununla da cümlənin həm mənasında, həm də intonasiya modelində bəzən ciddi, bəzən də cüzi dəyişiklik yaranır. Beləliklə, neytral variantda deyilən bu cümlənin minimum 4 variantda realizə olunması mümkündür.

2. / **İch** kenne den Mann gut//
3. /İch **kenne** den Mann gut//
4. /İch kenne den **Mann** gut//
5. /İch kenne den Mann **gut**//

Bu cümlədə /den/artiklini qüvvətli deməklə daha bir variant da yarana bilər ki, bundan da əsasən pedaqoji məqsədlə qarşılaşdırma yaratmaqdan ötrü istifadə edlir. Yəni tələbə ismin halını və ya cinsini səhvən /der/ və ya /das/ dedikdə müəllim /den/ artiklini güclü tələffüz edir və bununla da kontrast yaradır.

6. /İch kenne **den** (nicht der oder das) Mann gut//

7. Hansı variantda işlənməsindən asılı olmayaraq bu cümlələrin hamısında terminal intonasiya realizə olunur. Onun da əsas əlamətləri intonasiya komponentlərinin – səs tonu, səsin gücü və zamanı cümlənin əvvəlində orta registrdən başlayır, cümlənin ortasında xeyli güclənir və sonda səs tonu aşağı düşür, intensivlik zəifləyir və tələffüz sürəti azalır. K.Boost belə cümlələrin intonasiya qabığını qövsə bənzədir. O yazır: «Cümlənin başlanğıcı, cümlə əvvəli onun sonrakı axını üçün tema rolunu oynayır... temanın əvvəlindən gərginlik başlayır, bu gərginlik cümlənin sonunda öz həllini tapır».[35] Gərginliyin zirvəsi isə mənaca daha mühüm sözün üzərində olur ki, buna ənənəvi dilçilikdə cümlə vurğusu deyilir.

Bu tipli nəqli cümlələrdə birinci yerdə mübtədadan başqa tamamlıq və zərflər də gələ bilər. Bu artıq söz düzümü problemidir, onu da aktual üzvlənmə işığında daha səmərəli həll etmək olar.

Xəbərin dəyişən hissəsinin ikinci yerdə gəlməsi german dillərində sual sözlü sual cümlələrinə də xasdır. Müq. et:

? Was ist dein Name? (What is your name?). Tədqiqatlar göstərir ki, bu tipli sual cümlələrində intonasiya qəlibi nəqli cümlədəki kimidir, yəni belə cümlələrdə terminal intonasiya realizə olunur.[36]

A.M.Peşkovskinin kompensasiya prinipi burada özünü doğruldur. Bu prinsipə görə qrammatik vasitələrin iştirakı intonasiyanın iştirakını zəiflədir və əksinə. [37] Ancaq təkrar sualda və ya nəqli cümlə strukturlu sual cümləsində interroaqtiv intonasiya realizə olunur. Məs.: ? Wo wont er? ? Wo er wont? (weiss ich nicht). ?Er raucht. Bunların da əsas intonasiya əlamətləri belədir: intonasiya qəlibində yuxarıda təsvir etdiyimiz kimi qövsün ortasına qədər, yalnız qövsün ortasından sonra onların fərqli hərəkəti başlayır. Belə ki, bundan sonra ton yüksəlir, intensivlik və zaman xeyli artır.

Formal cəhətdən, yəni həm dəyişən xəbərin yerinə, həm də intonasiya qəlibinə görə nida cümləsi, demək olar ki, nəqli cümlədəkilə tamamilə üst-üstə düşür. Müq. et:

!Es lebe Frieden!, !Es lebe unsere Heimat! və s.

Əm rvə ümumi sual cümlələrində birinci yerdə xəbərin dəyişən hissəsi gəlir, ancaq intonasiya qəlibi əmr cümlələrində də terminal intonasiya realizə olunduğu halda ümumi sual cümləsində interroqativ intonasiya işlənir.[38]

Misallara müraciət edək. !Geht an die Arbeit! (Go to the work). ?Kommt Hans in die Schule? İngilis dilində sual və inkar cümlələrində ton daha aktiv rol oynayır. 4 tondan istifadə edən ingilis dillilər də nəqli cümləni başqa intonasiya komponentlərilə bərabər enən tonla, sualı isə qalxan tonla ifadə edirlər. Bütün cümlə boyu 4 tonun müxtəlif cürbəcür kombinasiyasından istfadə olunur.[39]

Sadalamalarda, iki və daha artıq sintaqmlı cümlələrdə axırıncıdan başqa bütün əvvəlki sintaqmlarda proqredient intonasiya işlənir.[40] Məs.: /Träume, Schäume//, /Viel Kuh, viel Müh// və s.

Ümumiyyətlə, intonasiya çox çevik bir ifadə vasitəsi olaraq külli miqdarda çalarlıqları – sevinci, kədəri, arzunu, istəyi, hiddəti, təlaşı, təəccübü, narazılığı, rəğbəti və s. ifadə etmək imkanına malikdir.

Cümlənin nüvəsini fel təşkil edir. Hər bir felin də sağdan və soldan tamamlanmaq imkanı var. Başqa sözlə, fellər valentliyinə görə müxtəlif olurlar. Hadisə bildirən fellər soldan və eyni zamanda sağdan tamamlana bilirlər. İüq. et:

/Es regnet// (İt rains),

Mutter schläft (mother sleeps)=Mübtəda+xəbər

/Es regnet gut// (İt rains good)=

mübtəda+xəbər+zərflik və ya tamamlıq.

Bəzən sağ tamamlayıcı qayıdış əvəzliyi də ola bilər. Məs.: /Hans arbeitet gut//, /Katzen fangen Mäuse//, /Mitstudenten helfen Hans// və ya /Er entrüstet sich//, /Hans geht seinen Gang//. Maraqlıdır ki, adi neytral cümlədə əvəzliklər bir qayda olaraq feldən sonrakı yeri tutur. Məs.: /İch gebe ihn meinem Vater// (İ give it to my father) və ya /Jetzt ruft sie den Vater an// (Just calls she my father) və s. Felin sağdan iki və ya üç tamamlayıcısı ola bilər. İki tamamlayıcılara misallar:

1. /Er nennt ihn Onkel//
2. Fahrgäste geschuldigen sie der Farhrläßigkeit//
3. /Besucher nähern sich dem Schaufenster//
4. Mädchen stelen Teller auf den Tisch//

Üç tamamlayıcılara misallar:

1. /Er schleuderte ihm den Handschuh ins Gesicht//

1. /Der Kaufman hat dem Kunden die Rechung rechtzeitig geschickt//

Alman cümləsində /hat....geschickt // mürəkkəb zaman bildirən bu köməkçi və əsas fel arasında gələn tərkibi V.Q.Admoni çərçivə konstruksiyası adlandırır.[41]

German dillərində felin transitiv və intransitiv olmasından asılı olaraq cümlədə aktiv və passiv mənaları ifdadə olunur. Məs.: /Hans friert/ (aktiv), /Hans hat Fieber// (possesiv) və /Hans ist fiebrig// (predikativ). /Hans schhreibt ein Buch// (aktiv). /Das Buch vvird von Hans geschrieben// (passiv).

Danışanın hansı sözlə ünsiyyətə başlaması müxtəlif faktorlardan asılıdır:

Məs.: /Şəhərə yeni sirk qrupu gəlib, ona görə də küçədə səs-küy var//. /Lärm ist auf der Strasse//. Mənə bir kitab göstərirlər. Mən də deyirəm /Das Buch sah ich gestern auf seinem Tisch//. Burada əvvəlki hadisəyə bağlılıq bu seçimə əsas verir.

Yuxarıda verdiyimiz cümlə modelləri genişlənə bilər. Birinci növbədə bu, cümlənin nüvəsini təşkil edən felin hesabına ola bilər. Bu da köməkçi və modal fellərdən istifadə etməklə və xəbər qrupuna aid olan hissənin ayrılıb cümlə sonuna keçməsilə əmələ gəlir. Məs.: /Hans vvird (bald nach Hause) kommen//, /Hans vvill (den Staubsauger) in Betrieb setzen//, /Hans hat (den Staubsauger) in Betrieb gesetzt/ ?Wird Hans (bald nach Hause) kommen? Və ya /Hans ist (soeben nach Hause) gekommen//, ? İst Hans (soeben nach Hause) gekommen?, ? Will Hans (den Staubsauger) in Betrieb setzen?, ? Hat Hans (den Staubsauger) in Betrieb gesetzt?

Bəzən prosesin ifadəsini şiddətləndirmək üçün nüvəni və onun ətrafını artırmaqla buna nail olmaq mümkündür. Məs.: /Es fethle an Brot, es fethle an Licht, es fehlte an Wasser//.

Cümlənin genişlənməsi hər bir sözün daha geniş açılması ilə mümkündür. Bu zaman həm nüvənin, həm də başqa üzvlərin solu və sağı genişlənə bilər. Müq. et: /Dieses (moderne, grossxügig angelegte) Haus von drei Stockwerken hinter dem Palast der Republik, das sehr geräuming ist, gehört dem jungen Geschäftsman, dem neugewählten Abgeordneten des Landtages//.

Genişlənmə yanaşma, bağlayıcı və şəkilçi vasitəsilə də ola bilər. Məs.: /Hir werden Hühner, Gänse und Enten gezüchtet//, /Hier werden Heühner, Gänse und Enten gerne gezüchtet// və /Hier werden fette Hühner, einigermassen fettarme Gänse und grose Enten gezüchtet//. Birinci və ikinci halda söhbət həmcins üzvlərdən gedir, ikinci halda tabe sözün tələbinə görə tabe olan söz şəkilçi qəbul edir.

Genişlənmə hər bir üzvün budaq cümlə şəklində açılması ilə baş verir. Bu zaman xəbər (məs.: /Er ist, was man den Künstler nennt//), mübtəda (məs.: /Wer A sagt, kann auch B sagen//), tamamlıq (Məs.: /Dass er grob ist, weiß jeder//), yer, zaman, səbəb, məqsəd, nəticə və tərz (məs.: /Wo die Platanen stehen, beginnt das Naturschutzgebiet//, /Gestern, als er angerufen wurde, hatte er noch Fieber//, Er kann heute nicht kommen, weil er kran kist//, /Er schreibt sorgfältig, damit die Leser ihn gut verstehen//, /Die Arbeit hat ihn so ermüdet, dass er sofort einschlief//, /Sie kümmert sich um die Kinder, wie eine Mutter für die eigenen Kinder sorgt// (Vergleich), /Er tat, als ob alles in Ordnung wäre// (Wiederspruch), /Er war besorgt, wohingegen sein Freund keine Sorgen hatte// (Kontrast) oder /Statt sich anzuregnen, sitzt er in der Ecke und singt// /Je älter er wurde, (um so oder je) menscHenscheuer vvurde er// (Proportionalsatz), /Das Wasser siedet schneller, als man erwartet hatte// (Komporativ) və s.

Təyin təyin budaq cümləsilə genişlənə bilir. Məs.: /Vorwürfe, die er mir gemacht hat, vvaren unsachlich//. Bu cür genişlənmələrin qrammatik xüsusiyyəti, xəbərin dəyişən hissəsinin budaq cümlə sonunda gəlməsidir. Amma güzəşt, şərt və qeyri-real cümlələrdə bu prinsip gözlənilmir. Məs.: /Kommt er heute, so können vvir auch mitgehen// (bağlayıcısız şərt cümləsi), /Sei die Übersetzung auch schwer, sie muss zu heute geschaff werden// (bağlayıcısız güzəşt cümləsi), /Es scheint so, als spiele er Fussball// (qeyri-real müqayisə cümləsi). Bəzən bir budaq cümlənin içinə başqası da girə bilir. Məs.: /Er sagte, dass, wenn nichts

dazwischen kommt, die Versammlung übermorgen stattfinden kann//.

Bəzən genişlənmə məsdər tərkiblərilə olur. Məs.: /Es ist notwendig, die Wissenschaft zu fördern//.

Tamamlığın genişlənməsi. Məs.: /Man erlaubt den Kindern, ein Fest zu feiern// (Man erlaubt das Kinderfest// və ya /Man erlaubt, dass die Kinder ein Fest feiern//).

Zərfliyin genişlənməsi. Məs.: /Er leidet ohne Klage//, ancaq /Er leidet, ohne zu klagen//. Predikativin genişlənməsi. Məs.: //Sein Traum ist Medizinstudium//, ancaq /Sein Traum ist, Medizin zu studieren//. Təyinin genişlənməsi. Məs.: /Die Notwendigkeit der Berufswahl/, ancaq /Die Notwendigkeit, einen Beruf zu wählen//. Genişlənmələr zu+məsdər və digər məsdərlə də ola bilər. Məs.: /Er bittet sitzenbleiben zu dürfen//.

Genişlənmələn ara söz və ara cümlələrlə də mümkündür. Məs.: /Sie ist-so scheint mir – sehr betrogen zu sein//. Onlar cümləyə intonasiya ilə bağlanır, yazıda hər iki tərəfdən tire ilə ayrılır. Əslində, onlar danışıq aktından çıxarıla bilər. Məs.: /Falls er – wir wollen es nicht hoffen – Durchfall hat// və ya /Dieser – man verzeihe mir den Ausdruch – ist Schurke// və s.

Danışıqda genişlənmələrin əksinə qənaət deyilir. Bəzən danışıqda, şeir dilində və sürətli ünsiyyət məqamlarında ayrı-ayrı sözlərə qənaət edilir, ona görə də söz-cümlələr tez-tez meydana gəlir. Müq. et: !Feuer!, ?Eine Schlange?, ?Dass du kein Geld hast?, Die erste Sehnsucht// və s.

Bu fəslin axırında Y.Erben bir neçə səhifə cümlə üzvü probleminə həsr edir. O, aşağıdakıları ayırmağı tövsiyə edir:

1. Feli nüvə. Buna ənənəvi dilçilikdə xəbər deyilir. Məs.: /Vater kommt bald nach Hause// və ya /Vater vvird bald nach Hause kommen//.

2. Nüvə ilə sıx funksional əlaqədə olan, onu tamamlayan, müstəqil nəqli cümlədə feli nüvənin cümləni bitirən hissə kimi çıxış edə bilən tamamlayıcılar. Bunlara mübtəda və ya cümlənin predmeti deyilir. Məs.:

a) bu, prosesin, baş verən hadisənin və olayın ifadəsinə xidmət edir. Məs.: /Jetzt geschieht eine Wandlung//.

b) proses, hərəkət və vəziyyətin icraçısını göstərir. Məs.: /Vater öffnet die Tür//, /Vater erwacht//, /Vater ist wach//, /Father closes the door//.

Məqsədin və ya dəyişən və yaranan mahiyyətin, yad da aid edilən, yəni şəxsin, şəxs kimi düşünülən və ya şəxsə aid olan şeylərin, hadisələrin aid olduğunu və onlara yönəldiyini bildirir. Buna tamamlıq deyilir.

c) /Er pflügt den Acker// və ya /Er baut ein Haus//, /İ read the note//.

d) /Er lauscht dem Redner// və ya /Er lauscht dem Vortrag//, /He sings songs//.

Cümlədəki felin tələbindən asılı olaraq akkusativ, genitiv, dativ və sözönülü tamamlıq ola bilər.

e) olayın, varlığın, yəni vəziyyətin tərzini bildirir. Buna predikativ, xəbərin bir xissəsi və ya ismi xəbər deyilir. Mahiyyətin və vəziyyətin subyekti və obyekti səciyyələndirməsnidən asılı olaraq subyekt və obyek predikativi fərqləndirirlər. Məs.: /Hans ist Bakuer (/fleissig, krank//, /Er nennt ihn Onkel//, /Sie putzt das Messer blank//, /John is Londoner//, /He calls him uncel/.

f) hadisənin, prosesin və hərəkətin hal-vəziyyətini.ö istiqamətini, yerini, vaxtını bildirən cümlə üzvü zərflik adlanır. Məs.: /Hans geht zum Arzt (dorthin)//, /Hans stellt Blumen auf den Tisch (dorthin)//, /Hans wohnt in Moskau//, /She lives in London// və s.

Bütün bunlarla yanaşı cümlənin nüvəsinə aid olmayan üzv də varö Buna təyin deyilir. Bir qayda olaraq adyektiv, adverbial və substantiv (bunlar da appozitiv, genitiv, akkusativ, dativ və ya sözönülü olurlar) təyinlər fərqləndirirlər. Onlardan birinci növbədə felin ismi tamamlayıcılarına aid olanları göstərmək olar. Məs.: ismə aid olan: /Das junge Paar//, /A young man.../, /Junge Studenten im Lesesaal/, /Vaters Bücher dort/.

Müşayiətedici sözə aid olan. Məs.: /Er ist frei von Sorgen//, /Er ist (arbeitet) sehr fleising//, /He is free from work// və s.

Cümlədə özünəməxsus yeri olan əlavə sözlər olur ki, onlar ya təsvir olunan olayı qüvvətləndirir, yad da məhdudlaşdırır. Məs.: /Allein ein Arzt kann hier entscheiden//, /Nur, wenn es İhnen genehm ist/ və s.

Cümlədə tabesiz və tabeli bağlayıcı üzvlər də işlənir. Məs.:

/Junge Lektoren und altee Hörer//.

/Wir hören die Abfrage auf, bis genaue Unterlagen vorliegen//.

Sintaktik konstruksiya sadə, elementar və genişlənmiş ola bilər. Cümlədə eyni sintaktiu statusa malik sözlər bir-birinin dalınca gəlib bir üzvü genişlənirə bilər. Məs.: /I waited, vvaited//, /Ein guter, guter Mann.../.

Cümlə üzvlərindən biri mürəkkəbləşə bilər. Məs.: /He is likely to come//, /Er versucht zu kommen//. Bəzən iki xəbər bir-birinin dalınca gəlir ki, buna müştərək və ya kontaminasiya deyilir. Məs.: /His face came up hot and angry Over the counter//. Sintaktik düzümdə tabe edən sözün tabe olan sözlərlə genişlənməsi də sintaktik proses kimi götürülə bilər. Məs.: /a shot, a good, avery good shot/, /der Mann, der junge Mann, der junge tüchtige Mann/ və s.

Sintaktik elementlər hissəciklərlə, modal sözlərlə genişlənə bilər. Birinci halda söhbət birləşmədən (Məs.: /just very red carpet/, /Ein geniug grosser Raum/), ikinci halda isə qoşulmadan (məs.: /There is, after All, no issue/, /Er ist, vvahrscheinlich, heute nicht zu erreichen//) gedir. Axırıncıları söz kimi ara söz, cümlə kimi olanda isə ara cümlə adlandırırlar.

Cümlədə hər hansı bir üzvü intonasiya ilə nəzərə çarpdıranda xüsusiləşmədən istifadə olunur. Məs.: /What a girl vvas she in some vvay-so nice, so fine//, /Was für eine attraktive Frau vvar sie-schön und jung//. Xüsusiləşmənin bir növü kimi parsellasiya çıxış edir. Məs.: //Allow me, sir, to congratulate you upon your accent in English. And to wish you a very good morning//, /Gestatten Sie mir, Sir, İhnen zum guten Akzent im Deutschen zu gratulieren// Und İhnen einen guten Morgen zu wünschen//.

Danışıqda əvvəl adı çəkilən söz və ya konstruksiya təkrarlanmır, yalnız əvəz olunur. Burada /no, do, nein, oder və s. sözəvəzedicilərdən istifadə olunur. Məs.: /Du must viel arbeiten//, /Oder?/, /John thought so//.

Bəzən sintaktik vahidin müəyyən hissəsi əvəzedici, təmsilçi kimi çıxış edir. Məs.: /İch kann lesen//, /ich kann//, /İch vverde//, /I can speak//, / I can//.

Və nəhayət bir sintaktik hadisəni də qeyd etməliyik. Bu da ellipsisdir. Birbaşa ifadə olunmayan, ancaq asanlıqla bərpa edilə bilən məzmun elementinə ellipsis deyilir. Məs.: /Sie sehen müde aus//, /Ja, ein bisschen//, /You look tired//, / I am a little//,

Biz bilərəkdən Y.Erbenin əsəri üzərində belə geniş dayandıq, çünki o, german dilləri sahəsində sintaksisə dair özəl baxışları ilə seçilən tədqiqatçıdır.ö çünki o, P.Qrebedən (1908), H.Brinkmanndan (1901), L.Vaysgerberdən də əvvəl məzmun qrammatikasının genəl prinsiplərinə sadiq qalaraq fundamental əsər ortaya qoymuşdur.

P.Qrebenin rəhbərliyi altında 1959-cu ildə çapdan çıxan Duden-Grammatik Y.Erbendə olduğu kimi iki hissədən – «Söz» və «Cümlə»dən ibarətdir. Cümlə üzvlənən məna vahidləri kimi nəzərdən keçirilir və alman cümlələrinin əsas formaları cümlə üzvlərinin mümkün kombinasiyalarının bütöv strukturlar şəklində şərh olunur. Eyni zamanda əsas formalara xas cümlə üzvlərindən danışılır. Ayrı-ayrı cümlə üzvlərinin bütün mümkün variantları göstərilir. Kitabda maraq doğuran fəsillərə «Söz sırası», «Cümlədə uzlaşma» və «Cümlənin səs forması» aiddir. Bu kitabda cümlə zəif və güclü, daha doğrusu vurğulu, vurğusuz və zəif vurğulu elementlərin ardıcıl düzümü kimi nəzərdən keçirilir. Bu kitab son elmi nailiyyətləri vaxtında və məharətlə nəzərə almaqla cümləni və dli bir bütöv kimi şərh edən nadir əsərlərdəndir.

H.Brinkmanın kitabında da cümləyə xüsusi bəhs ayrılıb.[42] Bu kitabın beş bölməsi cümlə probleminə həsr olunub. Onlar belə adlanır: qrammatik struktur-zamanca üzvlənmə-intonasiya-cümlə modelləri-mürəkkəb cümlə. H.Brinkmannın cümlə model-

lərinə P.Grebenin «cümlə formaları» və L.Vaysgerberin «cümlə-qurma planları» uyğun gəlir. H.Brinkmann elə güman edir ki, bütün əsas sintaktik formaların özəyində bir forma durur. Ancaq o ikiüzvlü və üçüzvlü cümlələri eyni hüquqlu əsas forma kimi götürmək istəsə də, son nəticədə seçdiyi misalların təsirindən aza dola bilməyərək start mövqeyindən uzaqlaşmalı olur.[43]

Əsrin əvvəllərindən məzmun qrammatikasının nəzəriyyə və metodları işləyib hazırlamağa başlayan L.Vaysgerber[44] dil məzmununa mənəvi meyar kimi yanaşdı, baxmayaraq ona irad tuturdu ki, L.Vaysgerber sintaktik tədqiqatın ənənəvi və ümumən tətbiq oluna bilən metodunu inkişaf etdirə bilmir..[45] Lakin sonralar o, Y.Triirin sahə anlayışından istifadə edərək dilin bütün incəliklərini açmağa çalışırdı. 1963-cü ildə çap etdirdiyi «die vier Stufen in der Erforschung der Sprachen» əsərində L.Vaysgerber göstərirdi ki, 30-cu illərdən Y.Triirin təsiri altında söz sahəsində düşüncə ona əsaslanır ki, məzmundan çıxış etdikdə nadir halda təklikdə sözləri müəyyənləşdirmək olur. Bunun kəsinə olaraq söz qrupları öz üzvlərinin qarşılıqlı məhdudiyyətində məzmunca qaydaya tabe olur ki, bu da həm bütöv, həm də hissələr üçün (sözlər) bir-birilə əlaqədə davamlı yaranır. Bu o deməkdir ki, üzvlə bütöv qarşılıqlı əlaqədədir və bütün digər yardımçı şərtlərə baxmayaraq aydınlaşma və bununla bağlı lazımi müəyyənləşmə bütün iştirakçı sözlərin qarşılıqlı oyunundan yaranır. [46] Ənənəvi cümlə üzvləri anlayışlarından imtina etməyə çalışan L.Vaysgerber öz anlayışlar sistemini yaradır: cümlə parçaları (Satzsücke) – cümlə hissələri (Satzteile) – cümlə dəyərləri (Satzverte) – cümlə üzvləri (Satzglieder). Bunları o, analizin müxtəlif mərhələləri kimi başa düşür.[47] Söz qruplarından yaranan cümlə parçaları, ən azı müəyyən formal şərtlərlə anlaşılan cümlə hissələri, söz sırası özəlliklərilə əlaqədə olan cümlə dəyərləri. «Buradan başlayaraq biz mənəvi mövqeyi təkcə aşağıdan söz qruplarının münasibətləri və ümumi cümlə təhlili kriteriyaları ilə əsaslanmaqla yaranan cümlə üzvlərindən danışmağa haqqımız var, həm də onların yuxarıdan bütöv cümlədə öz mövqeyindən əldə etdiyi rola görə onlardan danışa bilərik».[48]

L.Vaysgerber fərdi-psixoloji yayınmalardan çəkinərək mətnlərdən və sınaqlardan istifadə etməsə də, hazır işləmələrdən və toplanmış materialdan istifadə etməyin əleyhinə çıxmır. O dörd təhlil mərhələsini – forma (lautbezogen-gestaltbezogen) – məzmun (inhaltbezogen) – funksiya (leistungsbezogen) – təsir (wirkungsbezogen) mərhələlərini ayırmağı vacib sayır. Özü də formal təhlilin nəticələrinin məzmun mərhələsinə gətirilməsi və onların cəsarətlə davam etdirilməsindən xəbər verir (s. 273-279). Beləliklə, təhlilin aşağıdan yuxarıya davam etdirilə bilməsi və yuxarı mərhələnin aşağı mərhələyə söykənməsi L.Vaysgerberin dil təhlilinin əsasını təşkil edir. H.Qlins haqlı olaraq onu tənqid edib göstərir ki, L.Vaysgerber üçün məzmun, məna birincidir və ona görə də səslərdən deyil, bütünlükdə məzmun-səs işarə sistemindən çıxış edərək məzmuna və eynilə səslərə getmək lazımdır. O, funksional baxımı dilin mahiyyətinə daha yaxın hesab edir.[49]

Bütövlükdə L.Vaysgerber öz məzmun-təhlil metodu ilə dilin, eynilə sintaksisin daha müfəssəl və daha düzgün tədqiqinə nail ola bilib. O, empirik-strukturalist təhlilə doğru iradəsilə dilin ideal təsvir şəklilə bu şəkildən bütün hissələrin deduksiyasını ehtiva edən layihə əsasında təsviri arasında qalmışdı.

40-cı illərdən başlayaraq dilçilik sintaktik təhlildə bilavasitə tərkiblərdən (immediate constituents – İC) çıxış edirdi. Ç.Friz 1952-ci ildə yazırdı: «İn English a layer of structure has usually only only two members) (İngilis dilində strukturun qatı yalnız iki üzvə malikdir)».[50]

Amerika deskriptiv dilçiliyi 50-ci illərin başlanğıcından etibarən cümləni tərkib hissələrinə bölərkən sözlər arasındakı əlaqələri əsas götürür. Məs.: /The old man has gone to his son's house// (Qoca kişi öz oğlunun evinə getdi) cümləsində iki konstruksiya ayrılır. /The old man/ və /has gone to his son's house/ Digər bir məqamda bu bir konstruksiya kimi də çıxış edə bilər. Deməli, konstruksiya istənilən məna qrupuna deyilə bilər.[51] Elə buna görə də bu cümlədə /the man house/ konstruksiya ola bilməz, çünki onlar arasında birbaşa əlaqə yoxdur. Sintaktik sə-

viyyədə /has/ konstruksiya deyil, ancaq morfem səviyyəsində ona konstruksiya kimi yanaşmaq olar /ha+s/. Daha sonra deskriptivistlər tərkib və bilavasitə tərkib anlayışlarından istifadə edirlər. Birincini daha böyük birləşməyə girən söz və konstruksiyalar adlandırırlar. Yuxarıdakı misalda bütün sözlər tərkibdirlər. Eynilə /the old man/, /old man/, /has gone to his son's house/ tərkibdirlərö Ancaq /man/, /man has/ və ya bütöv cümləni tərkib hesab etmək olmaz, çünki onlar daha böyük konstruksiyaların hissələri deyillər. Bütün tərkiblər ən xırdalarını çıxmaq şərtilə konstruksiyalardır. Ən irilərini çıxmaq şərtilə bütün konstruksiyalar tərkiblərdir. Deməli, dil vahidlərinin əksəriyyətini həm konstruksiya, həm də tərkib adlandırmaq olar. Burada seçimi tədqiqatçının ixtiyarına buraxırlar. «If we are concerned with the item as a part of a larger whole, it is a constituent; if as a whole composed of smaller parts, it is a construction» (dil vahidinə daha böyük bütövün tərkib hissəsi kimi baxırıqsa, deməli, o, tərkibdir; əgər hissələrdən ibarət olan bütöv kimi götürürüksə, deməli o, konstruksiyadır).[52]

Bilavasitə tərkiblər bir, iki və ya daha çox tərkibdən ibarət olur ki, onlardan da bilavasitə bu və ya digər konstruksiyalar yaranır. Məs. /The old man/ və /has gone to his son's house// iki bilavasitə tərkibdir. Ancaq /old man/ konstruksiyadır. Beləliklə, deskriptivistlərin konsepsiyasında sintaktik təhlil əsasən bilavasitə tərkiblərin və bilavasitə konstruksiyaların ardıcıl laylarının aşkarlanmasından, bilavasitə tərkiblər arasında olan münasibətlərin və onlara uyğun gəlməyən əlaqələrin müəyyənləşdirilməsindən ibarətdir. Bu zaman əsasən müqayisə və söz sırası çox mühüm rol oynayır.

Digər sintaktik göstərici kimi deskriptivistlər tərkiblərin klasslarını hesab edirlər. Bunlar oxşar və ya eyni funksiya yerinə yetirən tərkiblər qrupudur.[53] Onların əsasında sözlərin paradiqmatik klassları durur. İngilis dilində dörd belə klass var: isim, əvəzlik, sifət, fel. onların hər birinin müəyyən sintaktik özəllikləri var. Məs., sifətə müraciət edək:

The man... bu adam

The old man... qoca adam

The most exeptionally brilliant man... həddən artıq qeyri-adi gözəl adam.

Bu misallarda sifətlər təyinedici sözlər kimi çıxış edirlər. Eynilə biz adları, əvəzlikləri və felləri müəyyən edə bilərik. Bundan savayı zərf və sözönülü klassları aşkar edə bilərik. Amma /in regard to/ (münasibətdə) kimi konstruksiyalar da var ki, onlar sözönü deyil. Bax bu cür konstruksiyalar sözönülü klasslar adlanır. Deskriptivistlər bu minvalla mübtəda-xəbər konstruksiyalarını təhilə gətirirlər. Ancaq normal mübtəda+xəbər tipli cümlələrlə yanaşı, onlar /The more, the merrier// (Nə qədər böyük olsa, bir o qədər şən olar) tipli cümlələrdən danışarkən vurğu və intonasiya rolunu xüsusi qeyd edirlər. Deskriptivistlər idarə və yanaşmanı ingilis dili üçün o qədər vacib əlamət saymırlar. Birincisi, hər hansı bir sözün sintaktik strukturda yerini müəyyənləşdirmək üçün onun qəbul etdiyi sonluqlardır ki, bu da hallara aiddir. Doğrudan da, bu, ingilis dilində önəmli deyil, amma alman və rus dillərində çox vacibdir. Məs.: /I saw him// və ya /Paul sawMary//. Bunlardan birincidə idarə əlaqəsi, ikincidə isə söz sırası həlledici rol oynayır.[54] O ki, qaldı uzlaşmaya, biz ba barədə ayrıca söhbət açacağıq. Burada isə sadəcə olaraq deməliyik ki, bu əsasən mübtəda ilə xəbər və təyin edən sözlə təyin olunan söz arasında olur. Məs.: /He asks me//, /They ask him//, /five books/ və s. Ancaq alman dilində /Der junge Mann/, /Die Mütze des jungen Mannes/ və /fünf Bücher/. Azərbaycan dilində /beş kitab/, /yaxşı oğlan/, ancaq /Onlar oxuyurlar// və s.

Beləliklə, deskriptivistlər çox maraqlı bir təhlil üsulunu sintaksisə gətirməklə onu xeyli irəli aparmış oldular.

1957-ci ildən bu yana N.Xomski sintaksisdə yeni axtarışların əsasını qoydu. XX əsrin 40-cı illərindən dilçiliyə gəlmiş N.Xomski dilçilərin 1962-ci ildə keçirilən 9-cu Beynəlxalq Konqresində (Cambridge/Mass.) əsas məruzəçi kimi «Linqvistik nəzəriyyənin məntiqi əsası» adlı çıxışına çoxdan yaddan çıxmış bir həqiqətlə başladı: «Hər bir mühüm linqvistik nəzəriyyənin cavab verməyə çalışdığı əsas məsələ budur: hər bir yetişmiş dil daşıyıcı-

sı yeri düşəndə öz dilində yeni cümlə düzəldə bilər və onun dildaşları mütləq onu başa düşə bilərlər, baxmayaraq ki, o, tamamilə təzədir».[55] Onun məruzəsində «creativity», «linguistic intuition of the speaker» kimi əvvəllər Amerika dilçiliyində yad terminlər işlənir. O, linqvistik şüurluluğun ən yüksək dərəcəsinə çatmağı tövsiyə edir. Cümləyə ilk baxışdan eyni konstruksiyalar daxil edildikdə onun daxili strukturunda və anlaşılmasında dəyişmələr (transformasiyalar) müxtəliflikdən xəbər verir. Məs.: /John is easy to please//-/John is eager to please//. Bu cümlələrin ikisində də quruluş eynidir: ad+is+sifət+to. Ancaq bu eynilik arxasında müxtəlif daxili struktur və məna gizlənir. Birincisində /Jonun xoşuna gəlmək asandır//, ikincisində isə /Jon başqalarına xoş gəlməyə çalışır// fikri ifadə olunub.

Cümlənin əksəriyyətini o, mövcud hissələrdən əmələ gələn yeni konstruksiya kimi deyil, mövcud bütöv cümlələrin (cümlə tiplərinin) ardıcıl transformasiyası kimi götürür. Buradan da transformasional qrammatika termini anlaşılandır. Ən nəhayət, N.Xomski dildə qəbul edilən cümlələrin qrammatik düzgünlüyünü göstərən quruluş qaydalarının müəyyənləşdirilməsinə cəhd edir ki, bu da həmin cümləlıəri struktur formalarının ardıcıllığının ifadəsi kimi götürməkdir. Qaydaların ardıcıllığı isə bütün konkret strukturların törəməsində əsas kimi çıxış edir. Buradan da törəmə qrammatikası termini meydana gəlib. Sonra N.Xomski superficial (üzdəki) və deeper (dərindəki) strukturdan söhbət açır.[56]

## VII.3. Sintaktik vahidlərin ümumi səciyyəsi və tipologiyası

Artıq deyildiyi kimi, ünsiyyətdə nisbətən iri, müstəqil dil vahidlərinin - cümlə modellərinin yaranmasının və onların əsasında cümlələrin düzəlməsinin özəl prinsiplərini və ya həmin kommunikativ vahidlərin üzvlənməsi xüsusiyyətlərini öyrənən elm sahəsinə sintaksis deyilir. Sayı məlum ən kiçik dil vahidlərindən (fonem, morfem, leksemlərdən) praktiki olaraq hər bir dil daşıyıjısı öz səriştəsi çərçivəsində (kompetensiya) n qədər

cümlə düzəldə bilər (performans). Nisbi müstəqillik isə o deməkdir ki, cümlələrin söz tərkibini heç vaxt əvvəlcədən, hazır sxem əsasında qurmaq olmur. Sxematiklik ancaq əlaqələr baxımından mümkündür. Alman dilində (Eingangsstraße) mürəkkəb sözdür, başqa mürəkkəb sözlərlə bir sırada durur, bu şəkildə intonasiya ilə təchiz olunmadan işlənəndə sadalama sırasının adi üzvü olur. Məs., /Autobahn, Hauptstraße, zweiseitige Straße, Eingangsstraße// və s. Ancaq deyəndə ki, /Das ist eine Eingangsstraße// və ya /Eingangsstraße! (?) // yəni /ehtiyatlı ol/, / axı bura birtərəflidir/ və s. situasiyalarında işləndiyi halda biz ünsiyyətə giririk. Deməli, ünsiyyət vahidinin, müəyyən modelə söykənən cümlənin kommunikativ mərkəzi olmalıdır, yəni onun açıq və ya gizli şəkildə xəbər mərkəzi olmalıdır /Das ist eine Eingangsstraße//. Bu xəbər müəyyən zamanda ifadə olunmalıdır. /ist/ indiki zamandadır. Sözsüz ki, bu mərkəz söz-cümlələrdə intonasiya vasitəsilə ifadə olunur. Evdə oturub dünən baş verən hadisəni danışanda qəzanın baş verdiyi yeri təfsilatı ilə şərh edərkən həmsöhbət tez-tez təkrar edir /¡Eingangsstraße!/ və ya /¿Eingangsstraße?/. Yəni, «axı dedim ki, ehtiyatlı ol, küçə birtərəflidir». Və ya hazırda maşında gəzərkən sürücüyə ehtiyatlı olmağı xatırladanda deyirik /Eingangsstraße/. Bütün bu hallarda xəbər mərkəzi mövcuddur.

Üçüncü əlamət kimi danışanla dinləyənin real gerçəkliyə bağlılıq dərəcəsi - modallıq götürülə bilər. Elə bir fikir ifadəsi yoxdur ki, o bu və ya digər dərəcədə gerçəkliyə bağlı olmasın. Hətta abstrakt təfəkkürün məhsulu olan cümlələrdə belə bunun şahidi oluruq.[57]

Dilçilik elmi yarandığı gündən ya tekstin (cümlənin) necə qurulduğunu (sintetik), ya da onun nələrdən ibarət olduğunu (analitik) müəyyənləşdirməklə məşğul olur. Ənənəvi dilçilik əsasən cümləni birtərəfli qaydada şərh edərək onu tərkib hissələrinə parçalamaq, mübtəda-xəbər qütblərini müəyyənləşdirmək qərarında idi. Praqa Dilçilik Məktəbi isə cümlənin bölünməsinə başqa bucaq altından yanaşdı və aktual üzvlənmə nəzəriyyəsini işləyib hazırladı. Danimarka strukturalizmi dil nəzəriyyəsini işləyib hazırlayarkən üç əsas prinsipdən çıxış edərək-empirik prin-

sipi müəyyənləşdirdi ki, burada ziddiyyətsizlik, bütövlük və sadəlik mühüm yer tutur. Daha sonra L. Yelmslev məktəbi dildə qarşılıqlı asılılıq (interdependensiya), birtərəfli asılılıq (determinasiya) və sərbəst birləşmə əlaqələrini (konstellasiya) işləyib hazırladı.

L.Blumfild[58] cümləni bilavasitə təşkil edənlər üzrə təhlili ön plana çəkirdi. L.Blumfildin tərəfdarları cümləni bilavasitə tərkiblərə görə təhlil edirlər. Məs.: /My friend vvill open the door// cümləsində üç belə tərkib var :

/My friend/, / vvill open / the door //.

Ağac şəklində bu belə olur:

/my friend . . . . . .//(S)




/My friend jame home late last night// cümləsi isə aşağıdakı şəkildə üzvlənə bilər:



N.Xomskidən sonra isə sintaksis cümlənin yaranmasının özülündə duran qaydaları müəyyənləşdirməklə cümlə modellərini və onların ifadə imkanlarını öyrənməyə başladı.

German dillərində cümlə ikiüzvlü, nominativ və xəbərliolmalıdır. Şəxssiz cümlələrdə /es/ (it) formal mübtəda rolunda çıxış edir və bununla da cümlənin tamlığı təmin edilmiş olur. Məs.: /Es regnet (it rains)//. Həmin bu əvəzlik bəzən predikativin yerini doldurmağa kömək edir. Məs.: /Bist du krank?-/Ja, ich bin's (es)//. Tamamlıq ümumi şəkildə ifadə olunduqda, hətta keçər fellərdə xəbər frazeoloji ifadə ilə deyildikdə bu (es) işlənir. Müq. et: /İch habe es fein//. Bəzən ikiüzlü cümlələrdə adamların hal-vəziyyəti ifadə olunduqda cümlənin birinci yerində gələn üzv normativdə olmur, ya da formal /es/ gəlir. Müq. et: /Mir gefällt es//, /Mich friert// (Es friert mich). Xəbər isə semantiksintaktik baxımdan tam mənalı fellə (müq. et: /Er arbeitet//) və ya fellə digər komponentin birləşməsindən (adla – məs.: /Er ist Arbeiter (türchtig) və s.// və ya mürəkkəb xəbərə ifadə olunur. Məs.: /Er will (nicht) arbeiten// və s.

Cümlələrin müxtəlif aspektdən öyrənilməsi geniş yayılmış metodlardandır. Məs.: V.Admoni alman dilində cümlələri 7 aspektdən öyrənməyi tövsiyə edir. Bu zaman hər aspekt daxilində cümlə tipləri müəyyənləşdirilir ki, bu tiplər həmin aspektin paradiqmini yaradır. Bütün cümlə aspektlərinin paradiqmlərinin məcmusu cümlənin bütöv paradiqmini əmələ gətirir. Sintaktik vahidlərin tipologiyasında bu aspektlərin əhəmiyyətini nəzərə alaraq bu təhlil barədə bir qədər ətraflı məlumat verməyi qərara aldıq.

I aspekt. Məntiqi-qrammatik cümlə tipləri. Burada mübtəda və xəbər arasındakı semantik əlaqələri əsas götürən V.Admoni 12 cümlə tipini göstərir.

1. /Berater arbeiten//. /Berater haben gearbeitet//. Əlaqə məsləhətçilərin iş prosesinə yönəlib. Əsas odur ki, fellə ifadə olunan xəbər cümləni bitirir. Bu tipdə digər fellər də işlənə bilir, həm də bu tip başqa məntiqi-qrammatik tiplərin özəyində durur. «Werden» felilə düzələn passiv cümlələr də bu tipə aid edilə bilər.

2. /Bauer pflanzt Bäume//, /Hans hilft seiner Mutter//. Burada tamamlıq tələb edən fel hərəkəti icra edəni sağ tərəfdən, hərəkətin obyektini isə sol tərəfdən tələb edir. Əksər hallarda «demək» və «vermək» fellərilə ifadə olunan xəbər iki tamamlıq tələb edə bilər (Dat. və Akk.). Müq. et: /Er gab mir Bücher//. Qayıdış fellə ifadə olunan cümlədə «sich» qayıdış əvəzliyi həqiqi obyekt kimi çıxış edə bilir. Məs.: /Er rasiert sich//. Obyekti genitivdə işlənən cümlələr bu tipin xüsusi variantı kimi göstərilə bilir. Məs.: /İch bedarf deiner Hilfe//.

Məntiqi-qrammatik cümlə tipologiyasında tamamlığı sözönlü isimlərlə ifadə olunan hallar az deyildir. Məs.: /İch denke an dich//, /Er vvies auf diese Frage hin// və s. Bəzən paralel formalar da mövcuddur. Məs.: /Er klopfe ihn auf die Schulter// və /Er klopfte ihm auf die Schulter//. Hər iki tamamlığı akkusativdə olan cümlələr də var. Məs.: /Er betrachtet ihn als Schurke// və s.

3. /Der Hund ist ein Saugtier//. Burada çoxluqdan bir hissənin, təkin ifadəsi öz əksini tapır. İt bütün əmmə kateqoriyasından olan heyvanların biri kimi götürülür. Maraqlıdır ki, mübtəda müəyyən artiklə işlənir, «çünki burada məfhum bütövün varlığında təmsil olunur, predikativdə isə isim qeyri-müəyyən artiklə işlənir, çünki burada bütöv növdən danışılmır, yalnız onun bir qolundan söhbət gedir». Elə bu keyfiyyətinə görə L.R.Zinder və T.V.Stroyeva alman artiklini müəyyən-qeyri müəyyən deyil, aidilik/qeyri-aidilik bildirən sözlər adlandırırlar. [59]

Sənət, peşə və vəzifə bildirən isimlər predikativin yerində artiklsiz çıxış edirlər. Məs.: /Er ist Student//. Ancaq ismin ifadə etdiyi məna fərdin daimi xüsusiyyətini bildirərsə, onda qeyri-müəyyən artikl işlənir. Məs.: /Er ist ein Politiker//.

«bleiben», «vverden», «sein» və «heissen» kimi yarımkopulativ fellərdən düzələn cümlələri 3-cü tip cümlələrin variantları kimi göstərmək olar. Məs.: /Er ist Student//-/Er bleibt Student//-/Er vvird Student//. Axırncı /Er vvird zum Studenten// kimi də işlənə bilər.

Bu cümlə tipi içərisində «aussehen, erscheinen, gelten, scheinen, vorkommen» felləri «vvie, als, für» kimi sözönülərlə birləşib kopulativ birləşmə yaradırlar. Məs.: /Er sieht wie ein Held aus// (Er scheint ein Held zu sein), /Er kommt als Held vor//. /Er gilt als Schurke// və s.

4. /Die Möwe ist gut//. Bu tip də predikativ əlamət bildirir. Mübtəda təkrar olunmasın deyə predikativ yerində o düşür. Məs.: Dieses Auto ist das sicherste//. Köməkçi fellə işlənən predikativ tipli cümlələr vəziyyət və passiv strukturlarını da əhatə edir. Məs.: /Das Haus ist gross//, /Das Haus ist gebaut//, /Das Haus vvird gebaut //. Beləliklə, göstərilən 4 cümlə tipi bütün cümlə tipologiyasının özəyini təşkil edən əsas formalardır. Qeyri-şəxsli cümlələri də buraya əlavə etsək, onda cümlələrin əsas modelləri haqqında tam təsəvvürə malik olarıq.

5. /İch bin der Meinung//, /Die Schuhe sind VVerterv//, /Dieses Substantiv ist vveiblichen Geschlechts//, /Er ist vom grossen Wuchs// və s. Strukturca m+x (ismi xəbər= köməkçi fel+predikativlə (Gen. və ya von sözönülü tərkib) ifadə olunan məna, subyektin daxili vəziyyətini, aidiyyətini, keyfiyyətini və s. bildirir.

6. /Er ist in der Schule//, /Der Tag ist da//. Burada «sein» feli «sich befinden»ə sinonim kimi işlənir. Yer və zaman zərflikləri xəbərin tərkib hissəsi kimi çıxış edir. Bu tipli cümlələr çox geniş yayılıb.

7. /Der Mann muss liegenbleiben und nicht rauchen//, /Er braucht nicht zu unterschreiben//, /Er hat zu schreiben//, /İch lasse idn das Heft bringen//. Bu tipdə cümlə zu və zu-suz infintif-lə tamamlanır. Göründüyü kimi, burada m + fel (model fel və ya haben + zu və sein + zu + inf)+proses ifadə olunur. İnfinitiv transitiv və intransitiv fel ola bilər. Məs.: /Er vvill mir das Buch

schenken//. Mənaca isə əsasən modallıq ifadə olunur. /Er setzt das Auto in Bevvegung// və ya /Er bringt das Auto in Bewegung// və s. Bunlar yuxarıda verilən cümlələrin variantları kimi götürülə bilər.

8. /İch habe Angst//, /Es gibt gute Leute//, /Er hat Geld// və s. Burada m+x+t sxemilə əsasən subyektin daxili vəziyyəti ifadə olunur. Artiklin düşməsi formal əlamət kimi götürülə bilər. İkinci tipin variantıdır.

9. /Es gab einmal ein Mädchen// tipli cümlələr subyektin mövcudluğunu bildirir və 1-ci əsas tipin variantı kimi götürülə bilər. Quruluşca bu /es+x+adlıq halda m/ kimidir. «Es»-in feldən sonra gəlməsi tamam başqa məna verir.

10. /Es regnet//, /Hier vvird nicht geraucht//, /Mich hungert//, /Es hungert mich// və s. Şəxssiz cümlələr «es» formal subyektlə ifadə olunur. Ancaq «es» olmaya da bilər. Onda felin mənasından irəli gələn iş icraçısı və ya ifadə olunan hərəkətin yerini və zamanını bildirən söz birinci yerdə gəlir.

11. /Der Gäste vvaren viele//. Bunlar iki hissəli partitiv cümlələrdir. Strukturu gen. (mübtəda)+köməkçi fel+kəmiyyət mənası verən bir söz (predikativ)-dən ibarətdir. Bəzən bu cümlələr başqa cür deyilə bilirlər. Məs.: /Es gab viele Gäste//, /Die Gäste vvaren viele// və s.

12. /Träume, Schäume//, /Tiefe Nach, helles Licht// və s. Bunlar təktərkibli, təküzlü cümlələrdir, hadisə və şeylərin mövcudluğun ifadə edirlər. Bunlara bədii ədəbiyyatda, qəzet və gündəliklərdə tez-tez rast gəlmək olur.

Burada təqdim olunan cümlə tipologiyası əsasən formal əlamətlərə əsaslanır.

Yuxarıda verilən 12 məntiqi-qrammatik cümlə tiplərinin digər variant və növləri ola bilər. Amma onlar kifayət qədər fərqlənən tiplərdir və təbii ki, daha dəqiq araşdırmalarla genişləndirilə bilər.

Cümlə tipologiyasının ikinci aspekti onların təsdiq və inkarda olmasıdır. Bu qarşılaşmanın əlamətsiz üzvü (merkmallos), sözsüz ki, təsdiq formasıdır, çünki inkar xüsusi sözlərin əlavə

edilməsilə düzəlir. Ona görə də buna əlamətli (merkmaltragend) üzv demək olar. Məs.: /Er spricht// - /Er spricht nicht//.

Üçüncü aspekt cümlənin struktur-qrammatik baxımdan genişlənə bilməsidir. Burada aşağıdakı cümlə növlərini göstərmək olar:

1. Sadə cümlə, yəni yalnız mübtəda və xəbərdən ibarət olan cümlələr.

2. Geniş cümlə. Burada bir qrammatik cəhətdən asılı olan sözlər vasitəsilə (/Der Vater schreibt//, /Der vor kurzem die Universität absolvierende Vater schreibt//), bir də eyni dərəcəli cümlə üzvlərilə genişlənmədən söhbət gedə bilər (/Der Vater schreibt gut und deutlich//.

3. Elliptik cümlələr. Məs.: ?Wohin des Weges? - /Zur Schule//.

Cümlələrin dördüncü aspektdə tipologiyası onların danışıq axınında tutduğu mövqeyə görə aparılır. Burada aşağıdakı tipləri müəyyənləşdirmək olar:

1. Adi, müstəqil cümlə. Məs.: /Er schreibt//, /Er schreibt einen Roman//, /Er hat seinen Roman vor zvvei VVochen in Berlin beendet// və s. Əslində birinci aspektdə sadalanan, həm də ikinci və üçüncü aspektlərdə göstərilən tiplərin hamısı buraya aid edilə bilər. Bu cümlələr struktur baxımdan avtosemantikdirlər, amma məzmuna görə adətən sinsemantikdirlər. Onlar elliptik də ola bilərlər. Əsas odur ki, onlar intonasiya qəlibinə görə tamamlanmış olurlar, yəni terminal intonasiya ilə deyilirlər və adi danışıqda yüksək işlənmə tezliyilə səciyyələnirlər.

2. Tabesiz cümlənin bir üzvü, həlqəsi. Tabesiz sindetik (bağlayıcılı)[60] və asindetik (bağlayıcısız) ola bilər. İkinci halda cümlə komponentlərini bir-birinə bağlayan yeganə vasitə intonasiya olur. məs.: /Der Fahrer merkte erst jetzt, sein Passagier ist aus der Schvveiz// və s.

3. Hipotaktik və ya tabeli cümlənin bir üzvü kimi. Özü də burada ya o qrammatik cəhətdən asılı olur, ona görə də ona budaq cümlə deyilir.[61] Semantik baxımdan budaq cümlə öz çəkisilə seçilə bilər, amma qrammatik baxımdan o həmişə baş cümlədən

asılıdr. Bəzən iki və daha artıq tabesiz cümlənin baş cümləəri tabesiz əlaqəsilə birləşib cümlə periodu yaradırlar. Dilçilər bəzən bütün bunların cümlə terminilə işlənməsinin əleyhinə çıxırlar. Məs., V.Admoni bununla bağlı baş, budaq və tabesiz cümlələri elementar cümlələr adlandırır və onu bütöv cümləyə (müstəqil, tabesiz cümlə, tabeli mürəkkəb cümlə və period) qarşı qoyur (W.Admoni, s.225). Əlavə cümlələri (paranteze) bəzən elementar cümlələr sırasına daxil edirlər. Məs.: /Dieser Mann – er hat immer alle Hände voll zu tun-ist heute nicht verfügbar//.

Beşinci aspektdə cümlələri funksional perspektiv baxımdan bölmək lazım gəlir ki, bu da aktual üzvlənmə deməkdir. Biz bu barədə irəlidə ətraflı danışacağıq. Ona göər də burada bunu geniş açmırıq.

Altıncı aspektdə cümlələr kommunikativ məqsəddən asılı olaraq təsnif olunur. Bu barədə yuxarıda Y.Erbendən danışanda geniş məlumat vermişik (bax: VII.2).

Nəhayət, yeddinci aspektdə cümlələr emosional çalarlığına görə təsnif olunur. Bu zaman neytral deyim tərzindən tutmuş, xüsusi emosional çəkiyə malik olan modal sözlərin və modallıq bildirən ifadələrin köməyilə (ei, ah, eh, oh, denn, wohl, weisst du?, siehst du?) danışıq aktına və deyilən cümləyə ekspressivlik və emosionallıq çalarları vermək olar. Burada intonasiya böyük rol oynayır.

4. Söz sırası ilə. Məs.: /Als es regnete, kam sie rein//. Yerinə görə budaq cümlə öndə (məs.: /was er machen vvill, weiss ich schon//), ortada (/Er kam zu spät, weil er den Gast abholen sollte, den konnte er nicht erreichen//) və sonda gələ bilər. (Məs.: /Er fragte ihn, ob er was bestellt hat//). Asılılıq dərəcəsinə görə budaq cümlə birinci, ikinci və s. dərəcəli ola bilər.

## VII.4. Sintaktik vahidlərin semantik təhlili

Sintaktik vahidlərin struktur əlamətlərə görə təhlili bir qədər yığcam olsa da, yuxarıda nəzərdən keçirildi. Burada isə onların semantik təhlilindən söhbət gedəcək.

Sintaktik vahidlər müəyyən mənada ifadə etdikləri obyektiv gerçəkliyi situasiyalar şəklində əks etdirirlər. Söz, hadisə, predmet və əqli fəaliyyətin bütün sahələrini kompakt şəkildə ifadə etdiyi halda, cümlə hadisələri adlandırmaq vasitəsidir. Düzdür, sözlər də hadisələri ifadə edirlər, ancaq cümlə hadisə və əşyaların qarşılıqlı əlaqəsi və təsirilə dil strukturu ilə verilir. Semantik bütöv kimi cümlədə işlənən hər bir felin oynadığı rol onun strukturuna daxil olan digər ünsürlərlə əlaqə yaratmaqdan ibarətdir. Struktur sxemin semantik əsasını semantik konfiqurasiya təşkil edir. Bir qayda olaraq cümlə üzvlərinin oynadığı semantik rolların siyahısını belə müəyyənləşdirirlər.

1. Agens. Bu cümlədəki fellə ifadə olunan hərəkətin canlı icraçısıdır, üzdəki strukturda aktivdə ifadə olunan cümlənin mübtədası, passivdə isə subyektin tamamlığıdır. Məs.: /Hans warf Steine//, /Steine werden von Hans geworfen//, /John threw stone//, /Stone was threw by John//. Onunla üzvi surətdə bağlı olan nominativdir, bu da hərəkətin prosesual əlamətinin daşıyıcısıdır. O, hərəkətin törədicisidir, yad da ünsiyyət məqamının dillə təsvirinin nəticəsidir. Məs.: /Her eyes twinkled//, /İhre Auge blitzen//. Üzdəki Strukturda nominativ mübtəda ilə, yad da vasitəli tamamlıqla (almanca von, durch, ingiliscə by, with) ifadə olunur. Məs.: /Er ist vom Killer ermordet//, /He was killed by a flywheel//. Agens mübtəda rolunda o zaman gəlir ki, cümlənin xəbəri hərəkət ifadə edən fellə ifadə olunsun. Bu fellərin əmr forması olur. Məs.: /Schlag den Ball//, !Hit the Ball!, Amma nominativi mübtəda olan cümlənin xəbəri bilavasitə hərəkət bildirmir və onların əmr forması olmur. Məs.: /Jim likes England//, /Jim liebt England, /*Like the country!// və s.

2. Patsiens. O, hərəkətin obyektini bildirir. Denotativ kimi canlı da ola bilər, cansız da. Məs.:/Hans beisst seine Hand//, /John bit his hand//.

3. Faktitiv. Hərəkətin nəticəsini bildirir. Məs.:/Das Kind sprach «Vater» aus//, /The child pronounced «Daddy»//.

4. İnstrument. İngilis dilində bu /with/, almanca isə /mit, durch/ vasitəsilə ifadə olunur. Məs.: /Hans öffnete die Tür mit

Schlüssel//, Jim opened the door with a key//. Bəzi hallarda instrument cümlədə təkbaşına mübtəda rolunda çıxış edir. Məs.: /Der Schüssel öffnete die Tür//, /The key opened the door// və s.

5. Lokativ. Çox rəngarəng olub sözönülərilə birlikdə məkan çalarlıqlarını (hərəkətin harada baş verməsini, çıxış nöqtəsini, haraya yönəlməsini və s. və i.a., sözönüləri ən incə məqamları belə dəqiqləşdirməyə kömək edir). Məs.: /r bleibt in Berlin//, /He stays in London// və s.

Beləliklə, cümləni söz yığını deyil, obyektiv gerçəkliyi əks etdirən söz və söz formalarının mənaca bir-birilə çulğalaşan düzümü kimi götürdükdə hər bir cümlənin konkret mənasını açmaq mümkündür ki, bu da realizə olunan strukturun semantik səciyyəsini müəyyənləşdirmək deməkdir. Hər bir üzdəki strukturda felin mənasının açılması cümlədə işlənən bütün digər peyklərin semantik baxımdan dəqiqləşməsinə xidmət edir.

Sintaktik strukturların semantik mənasının açılmasında, onların üzdəki ifadəsini dəqiqləşdirməkdə referensiyanın – obyektiv gerçəklikdəki hadisə, olay və predmetin real (Qaqarin ilk kosmonavtdır), qeyri-real (Şeytan gündə bir neçə dəfə fikrini dəyişir), müxtəlif cür real əşya və predmetlərə (lövhə, stol, təbaşir) və ifadə olunana həmin strukturun münasibətinin açılması son dövrlərdə geniş vüsət alıb. Bu da öz növbəsində müəyyənliyin və qeyri-müəyyənliyin ifadə vasitələrini ayırmağa imkan verir. Danışıq məqamı və ya mətn hər hansı predmetin və ya olayın işlənməsində məhdudiyyət tələb edir ki, bunun da german dillərində ifadəsinə əsasən artikllər xidmət edir. Danışan əlilə göstərib deyəndə ki, /Der Mann, der dort steht. İst mein Onkel// müəyyənlik bir başa danışıq məqamından aydınlaşır. Müəyyənlik referentiv, attributiv və hipotetik ola bilər, özü də bunların heç də hamısı aşkar (eksplisit) verilmir, əksər hallarda gizli (implist) qalır. Məs.: /Professoru öldürən ağıldan kəmdir// (/The murderer of professor is insane//, /Der Mörder des Professors ist geisteskrank//). Birinci halda bunu belə yozmaq olar ki, professorun qatili tapılıb, tibbi müayinə sübut edib ki, o dəlidir. Bu referentiv işlənmədir. İkinci yozum isə budur ki, o cür professoru öldürmək

ancaq dəlinin işi olar, ağıllı adam ona qıymazdı. Buna atributiv və ya denotativ işlənmə deyilir. Hipotetik işlənmədə danışıq məqamında təsvir olunan obyekt özü üzdə olmur, yalnız güman edilir. Beləliklə, sintaktik quruluşun üzdəki düzümü identik olsa da, dərindəki struktur müxtəlif cür yozula bilir. Sinaktik mənanın təhoili bunun tam əksinə də ola bilər. Yəni üzdəki struktur müxtəlif olsa da, dərindəki struktur eyni mənanı ifadə edə bilir. Məs.:/Orda gördüyün adam mənim dayımdır// və /Mənim dayım orda gördüyün adamdır// (/Der Mann, den du dort siehst, ist mein Onkel//, /Mein Onkel ist der Mann, den du dort siehst/ //The man, whom you saw there, is my onkel//, /My uncel is the man, which you saw there// və s.).

Cümlədə bəzən ön mövqeyi (propozisiya) tutan söz onun məzmununun açılmasında mühüm rol oynayır. Bu da adətən tərkiblər, müxtəlif yer və zaman zərflikləri ilə həyata keçirilir. Məs.: /Gestern war das Wetter nicht gut//, Yesterday the weather was not good// və ya /Arriving in the village, she hurried//, /Angekommen in der Stadt, beeilte sie sich// və s. Deməli, propozisiyanı tutan söz və ya ifadə bütün cümləni təqdim edib, danışıq məqamında olan iştirakçının adını çəkməklə bütün niyyəti açmış olur (bu barədə irəlidə temarema bölməsində geniş məlumat veriləcək).

Sintaksisdə son dövrlər geniş yayılmış bir məsələni də xırdalamaq pis olmazdı. Söhbət presuppozisiyadan gedir. Bu terminin dilimizdə birbaşa qarşılığı yoxdur. Amma aşağıdakı şərhdən onun nə demək olduğu aydın olacaq. Bəzi alimlər bu termin altında cümlənin hər hansı bir kommunikativ funksiyada işlənməsinə başlanmazdan öncə yerinə yetirilməli olan şərtləri başa düşülər. Bu da gerçəklikdə real olan məqamdan tutmuş (xahiş edirəm, lövhəni gətirin, professor mühazirəyə gedəndə asissentindən xahiş edir ki, lövhəni auditoriyaya qaldırsın), cümlənin məzmunu ilə bağlı olmayan bir sıra şərtlərin gözlənilməsinə qədər danışıq aktının baş tutmasında vacib olan amillərdir (həmsöhbətin ümumi hazırlığı, verilən məlumatın qavranılıb dərk edilməsi, deyilən fikrin həmsöhbətin yaşına və cinsinə uyğunluğu və s.).

Əslində bu anlayış dilçiliyə riyazi məntiqdən keçib. Hər hansı hökmün həqiqi olması üçün onun müəyyən obyektiv gerçəklikdən doğan şərtlərə müvafiq olması lazımdır. Məs.: A=B və B=C, deməli, A=C həqiqətdir. Başqa bir misal: /Əhməd bilir ki, Cəmil xəstədir. Mən təsdiq edirəm ki, bu faktdır//, yəni Cəmil xəstədir. Əgər desək ki, /Əhməd bilmir ki, Cəmil xəstədir// bu presuppozisiya ola bilməz. Burada cümlənin irəlidəkindən hasil olması və onun inkara aid edilməməsi mühüm vacib faktorlardır. Presuppozisiya həmişə danışanın, müəllifin cümlədə verilən məlumata münasibətini bildirir. Q.Q.Poçepsov yazır ki, pressuppozisiya məzmunun gizliliyi, cümlədən məlum olması, inkara həssas olmaması və praqmatikliyilə səciyyələnir.[62] Presuppozisiya cümlədə təkrar gedə bilməz. Məs.:/ Əhmədin qardaşı məktəbdə oxuyur//, /Əhmədin qardaşı var// Bu ardıcıllıq normal sayıla bilməz. Ancaq əksinə tamamilə doğrudur. Müq. et.:/Əhmədin qardaşı var//, /Əhmədin qardaşı məktəbdə oxuyur//.

Tabeli budaq cümlə komponenti olan cümlələrdə əsas hökmlə bərabər ikinci dərəcəli hökm də ifadə oluna bilər. Məs.: /əhməd bilir ki, Cəmil xəstədir// (/Hans vveiss, dass Karl krank ist// və /John konws that Jim is ill//. Birinci /Əhməd bilir/ ikinci /Cəmil xəstədir//. Deməli, burada presuppozisional məna ifadə olunub ki, bu da faktı təsdiqləyir. Bir sıra fellər faktla birbaşa bağlıdır. Məs.: /to admit, vorlassen, to discoverentdecken, to realize-realisieren/. Qeyri-faktlı fellərə misallar: /to assume-annehmen, to believe-.lauben, to seem-scheinen, to think-denken və s. Amma /Əhməd bilir ki, Kiyev Azərbaycanın paytaxtıdır// yalan olduğundan faktlı deyil. Amma/Əhməd düşünür ki, Kiyev Azərbaycanın paytaxtıdır// fakta uyğun olmasa da, işlənməsi mümkündür.

Faktiki Presuppozisiyanı emotivlərlə də bildirmək olar. Məs.: /İch kann seine Stellung gegenüber Dir nicht leiden// Emotivlik burada müəllifin subyektiv emosional münasibətini bildirməyə xidmət edir ki, bu da danışanın ünsiyyətdə gözlədiyinə uyğun gəlib-gəlməməsini ifadə edir. Qeyri-emotiv fellər (to orget, to

know) və s. (very) well-lə birləşik işlənirlər, emotiv fellər isə (to bother, to regret və s.) (very) much elementlərilə əlaqəyə girə bilir.

/She managet to sonseal her distress from her friend// (She verbarg ihre Schmerzen von ihrer Feundin//) cümləsində əsas fikirlə bərabər deyilməmiş, gizlində nəsə qalır. Bu cümlə inkrda işləndikdə hərəkətin baş tutmadığını bildirir. Beləliklə, cümlənin əsas mənasından doğan, presuppozisiya tipli olmayan, dildə ifadəsi gizli qalan hökmə implikasiya deyilir.

Digər gizli hökm kimi presuppozisiya tipli olmayan, deyilməsi mümkün olan, ancaq vacib olmayan hökmə infenesiya deyilir. Məs.: /Er versuchte seine Schmerzen von seiner Freundin zu verbergen// (She tried to conceal interest form her friend// və s. Bu cümlə inkarda işlənə bilir.

## VII. 5. Sintaktik əlaqələr

German dillərində sintaktik əlaqələr qabarıq şəkildə üç cür olur: uzlaşma (Kongruenz, Concord), idarə (Rektion, Government) və yanaşma (Anschluß).

Tabe edən sözün tələbinə əsasən tabe olan söz bir sıra əlamətə görə birincilə uzlaşmalı olur. Məs.: alm. d./ Der junge Mann, die schüne Frau, das schüne Bild.

İsimdən əvvəl gələn sifət onun halına, cinsinə və kəmiyyətinə müvafiq olaraq şəkilçilər qəbul edir.

Məs.:

Tək

der schöne Tag, das schüne Bild, die rote Fahne
Alm. des schönen Tages,des schünen Bildes, der roten Fahne
d. dem schönen Tage, dem schünen Bild, der roten Fahne
den schönen Tag, das schüne Bild, die rote Fahne

Cəm

die schönen Tage (Bilder, Fahnen)
der schönen Tage
den schönen Tagen
die schönen Tage

Rus d. красивый парень, молодая картошка, белое поле (ед. ч.)
красивые парни, молодые картошки, белые поля (мн. ч.)
ancaq ing. a joung man (wife), men, wifes və s.
ancaq from me, from you.
Azərb.d. Yaxşı adam, yaxşı adamlar; ing: academics, from you and I[63]

Uzlaşma mübtəda və xəbər arasında olur; mübtəda təkdə olanda, xəbər də təkdə olur.

İngilis dilində uzlaşma şəxsə görə olur. to be (I-am; you, we, they-are; he, she, it-is)[64].

Zamanda uzlaşmanın pozulması olur. Məs.: /Did not you know that my wife is ill.//

Sayla isim arasında uzlaşma /Five books, fünf Bücher, beş kitab, Er schreibt, Sie schreiben// , bəzən pozulur.[65]

Xəbərlə mübtədanın əlaqəsinə dair müxtəlif fikirlər var. Rus dilçiliyi xəbəri tamamilə mübtədadan asılı götürür. Məs.:/ Школа нашла свой облик//. Rus dilçiliyi həmçinin mübtəda və xəbəri koordinasiya əlaqəli üzvlər hesab edir.[66] Üçüncü nöqteyi-nəzər isə fransız dilçisi L.Tenyerə (1893-1954) məxsusdur.[67] Bu konsepsiyaya görə xəbər əsasdır, mərkəzdir. Qeyd edək ki, üçüncü konsepsiya daha geniş yayılıb.[68] Məs.: /der Bruder gibt das Buch der Schwester//. Burada Bruder, Buch, Schwester /gibt/-dən asılıdır. Sxematik olaraq bunu belə göstərmək olar.




İndi bunların hər biri genişlənə bilər (məs.: mein sehr lieber Bruder və s.). Onda mein Bruder-dən, sehr isə lieber-dən asılı olacaq, ona görə də buna asılılıq əlaqələri deyilir (Abhängigkeit və ya Dependenz).

Uzlaşma da iki cür olur (tabeli və tabesiz). Tabesizə misal olaraq /Ich und Du//, tabeliyə isə /Ich und meine Frau schreiben ein Buch// cümlələrini göstərmək olar. Tabesizdə sintaktik vahidlər nisbətən müstəqil olur, yalnız məna əlaqəsi gözlənilir.

/Er schreibt einen Aufsatz und bekommt dafür gutes Honorar//.

Tabesiz mürəkkəb cümləni bağlayan vasitələrə tabesiz bağlayıjılar, söz sırası və intonasiya aiddir.

Məs.: /groß und klein/, /Heute ging er traurig weg//, /Feuer!//

Tabeli əlaqələr sözlər və hətta cümlələr arasında olur, əsasən də formal göstəricilərə malikdir. Bəzən isə söz düzümü və intonasiya tabelik əlaqəsini ifadə edə bilir. Məs.: /Mein Freund schläft//, /Monika liebt Hans//, /Reiche Studenten meinen Wein// və s.

Təyin, xəbər və zərflik budaq cümlələrilə yanaşı mübtəda, tamamlıq və predikat əlaqələri xüsusi qeyd edilir.

Sintaktik səviyyədə dil vahidinin funksiyası onun yerinə yetirdiyi sintaktik vəzifədən çıxış etdiyi bütöv daxilində əlaqələrə girib hansı vəzifəni yerinə yetirməsindən asılıdır.

Yuxarıda biz bu əlaqələrdən uzlaşmanı qeyd etdik. İndi də xəbərin digər üzvlərlə əlaqəsindən danışaq. Burada əsasən idarədən söhbət gedir. Xəbər mərkəzində duran fel sağa və sola

baxmağından asılı olaraq əlaqəyə girir. Burada da həllediji rolu felin valentliyi oynayır. Məsələn, geben m+x+Dat. Oby.+Akk. Oby. /Ich gab dir das Buch//. İdarə sözönüllərilə isimlər arasında da geniş təmsil olunub. Yalnız Gen., Dat. və Akk. tələb edən sözönüləri, Gen., Dat. və ya Dat. və Akk. birgə tələb edən sözönüləri var. Məsələn,

/Wegen deiner Hartndckigkeit werden wir dieses Spiel...//

/Deiner Meinung nach ist er sehr zufrieden//

/Ich warte auf sie//

Birləşmədə müstəqil söz morfoloji cəhətdən əlamət daşıyır. Ancaq aqqlütinativ dillərdə tabe edən söz formal göstəricini öz üzərinə götürür. Məs: /Kopf des Pferdes//, amma atın başı (konkret) və ya at başı (abstrakt).

Yanaşma əlaqəsinin bariz nümunəsini biz ingilis və Azərbaycan dillərində aydın görürük. Bu dillərdə tabe söz tabe edən sözün heç bir əlamətini qəbul etmir. Onlar bir-birinə yanaşmaqla birləşmə yaradırlar. Müq.et: /a good man/, /yaxşı adam/ və s.

## VII. 6. Söz sırası

Söz sırası S(subyekt) – P(predikat) və ya P – S ilə ifadə oluna bilər. S-P normal söz sırasıdır, P-S və P-S-P inversiya adlanır. Birinjiyə nəqli, ikinjiyə isə sual cümlələrində rast gəlirik.[69]

(S-P): alm.d.:/Er schreibt//; ing.d.: /He writes//

(P-S-P):¿Hat er geschrieben (P-S-P)? ¿Does he write?

İng.d.: /There is a man at the door// və ya /There was no wind, was there?//

Deklarativdə də P-S+P ardıcıllığı ola bilir. Məs.: /Not only was he a first-rate mathematicion//.

Qeyd edək ki, zərfliklər asanlıqla cümlədə birinci yeri tuta bilirlər. Məs.:

/Lower and lower he bent// və /We often went for walkes together//

Söz sırası danışıq məqamından və kontrastdan asılıdır.

Bəzən sözlər yanbayan gəlir və bu da mənanı qüvvətləndirir. Məs.: /Er hat sehr viel getrunken//; /A book, an English book, a very interesting English book// və s.

Şer sənətində söz sırası nisbətən sərbəst ola bilər. Bəzən söz sırasını dəyişməklə mənanın çalarlığı da dəyişir. Məs.:

/Die wichtigsten folgenden drei Punkte wollen wir in erster Linie besprechen//

/Die folgenden drei wichtigsten . . . //

/Die drei folgenden wichtigsten . . .// və s.

Cümlədə daimi yeri olan söz. Alman dilində fel nəqli cümlədə adətən ikinci yerdə durur. Buna daimi yeri olan cümlə üzvü deyilir. Tabeli budaq cümlələrdə xəbərin şəxsli forması cümlənin sonunda gəlir. Söz sırası cümlə intonasiyası ilə fəaliyyət göstərir.

Yanaşma ilə yaranan söz modelləri alman dilində daha çoxdur:

/Nato-Friedenstruppen/
/De Goull-Reise nach England/
/Die Harzreise/
/Goethebeispiel/ və s.

## VII. 7. Sintaktik vahidin verbosentrik konsepsiyası

Mərkəzində fel duran cümlə konsepsiyası (verbosentrik) belə hesab edir ki, xəbəri fellə ifadə olunan cümlə hər hansı bir gerçək, ya da uydurulma situasiyaya uyğun gəlir ki, bu situasiyada iştirakçılar (partisipəntlər) olur (şəxslər, əşyalar və s.). İştirakçı, bilavasitə olmasa da, felin məzmunu onun olmasını ehtiva edir. Məsələn, oxumaq feli iş görəni (agens), hərəkətin obyektini (patsiens), hərəkətin alətini (eynəklə), materialı (qəzet, kitab, jurnal və s.) temanı və adresatı (kimə yönəldiyini) tələb edir. Bu partisipəntlərin hər birinə bir aktant cümlə üzvü uyğun gəlir və s.

/Ich lese einen Zeitungsartikel/meiner Freundin/mit der Brille/

Azərb.d.: /mən oxuyuram//, /kitab oxuyuram// və s.[70]

Müxtəlif dillərdə bu patsipiəntlər (iştirakçılar) morfoloji cəhətdən müxtəlif cür ifadə oluna bilər. Bundan başqa cümlədəki situasiya felin məzmunundan asılı olmayaraq müxtəlif əlamətə malik ola bilər.

Bu əlamətlər zərfliklərlə (zaman, yer, vəziyyət və s.) – sirkostantlarla ifadə olunur. Müq. et: alm.d. /Gestern habe ich gelesen//, /Vom Fernsehschirm las ich // və /Ich habe gern gelesen// və /Dünən oxudum//, /Ekrandan oxudum//, /Həvəslə oxudum// və s.

Bunları əyani olaraq belə göstərmək olar.




və ya




Felin aktantlarla əlaqəyə girməsi onun valentliyi adlanır. Tutulan yerlərdən asılı olaraq birvalentli (liegen – wer? və ya was?), ikivalentli (lieben - wer? wen? və ya was?), üçvalentli (geben-wer? was? və ya wen? wem?), sıfırvalentli fellər (əsasən german dillərində təbiət hadisələrini bildirir. məs., It rains, Es regnet və s.) fərqləndirilir.

German dillərində valentlik, xüsusilə subyektin olması vacibdir. Bu dillərdə mübtəda mütləq olmalıdır. /Es regnet, es donnert; I´ll go // və s. Amma rus və Azərbaycan dillərində bu formal cəhətdən vacib deyil. /Пойди/, /Я пойду/, /Gəlirəm/, /Mən gəlirəm/. Əlbət ki, felin sonuna qoşulan xəbər şəkli bu dillərdə subyektin funksiyasını yerinə yetirə bilir.

Bəzən aktantsız cümlə düzəlir (məs., Azərbaycan dilində /yazıram//, /yaman yazıram//. Amma müvafiq situasiyasız /pozuram/ demək olmur, gərək təsirlik halında obyekt olsun (qaydanı, lövhəni və s.).

Fel iki aktant tələb edirsə, onlar bir-birinə qarşı qoyulur. Məs., mübtəda tamamlığa qarşı qoyulan kimi. Hierarxiyada mübtəda əsas aktant kimi çıxış edir. Bəs bu mübtədanın qrammatik xüsusiyyətləri hansılardır? Bu da fellə müəyyənləşir. Valentlikdən savayı fel öz mənasını aktantlardan birinə yönəldərək onu qrammatik cəhətdən birinci edir.

Bəzən eyni məqamı əks etdirən fellər istiqamətini dəyişir, onlara qarşılıqlı-konversiv fellər deyirlər. Məs.: geben, receive, bekommen, verkaufen, gehüren. /geben/-in adresatı /bekommen/-dəki kimi qalır, ancaq felin başqa istiqamət alması sayəsində adresat agensə çevrilir və mübtəda ilə ifadə olunur. /Das Buch wurde bekommen (erhalten)//. Leksik konversivlə yanaşı qrammatik kateqoriya kimi konversiv mümkündür. Məs., növ kateqoriyası fəal - qeyri-fəal olur. Bu qarşılaşmada aktivdəki mübtəda agensə uyğundur (Der Schriftsteller schreibt einen Roman), passivdə mübtəda patsiensə uyğun gəlir. Məs.: /Der Roman wird vom Schriftsteller geschrieben//, /der Roman wird geschrieben//, /Der Roman ist geschrieben//. Ancaq ing. d.: /He is given a book// (Ona kitab verdilər). Mübtəda adresata uyğun gəlir.

Tamamlıq öz formasına görə - vasitəsiz/vasitəli, sözönsüz/sözönlü olur, sirkonstantlar isə mənasına görə aşağıdakı kimi bölünür: zaman, yer, tərzi-hərəkət, məqsəd, səbəb və s. Bəzən sözönü ilə ifadə olunası sözlərin tamamlığa və ya zərfliyə aid

edilməsi mübahisəlidir. Məs.: /Er lebt in Berlin//. Bunlara ənənəvi dilçilikdə yer zərfliyi kimi yanaşırlar. Belə hallarda zərflik felin əsas iştirakçılarındandır, ona görə də ona xüsusi aktant kimi yanaşmaq olar.

Növbəti cümlə üzvü kimi təyini götürürlər, anjaq o, qeyri-predikat birləşmənin üzvüdür. Məs.: /Er half der kranken Mutter//, bu da bilavasitə xəbərə aid deyildir. Ancaq /Er kam nach Hause krank// cümləsində /krank/ mürəkkəb xəbərin tərkib hissəsi kimi çıxış edir, ona görə də ona ismi və feli xəbərin kontaminasiyası kimi yanaşılır. /geben/ felinin qrafik şəkli belə olacaq.




Sintaktik vahidlərin təhlilində əvəz etmə (substitusiya) və yerdəyişmə (kommutasiya) mühüm rol oynayır. Eyni sinifdən olan sözlər bir-birini əvəz edə bilir, müxtəlif sinifdən olanlar isə əvəzlənmədə iştirak edə bilmir. Məs.: /Er spielt mit mir Schach/

| | | | | | |
|---|---|---|---|---|---|
| | Karl<br>Sie | | mit | Renat<br>allen | Fußball<br>Domino |
| ancaq | | | | | |
| | Sie | singt | mit | seinem Bruder | Schach* |
| | Sie | singt | mit | mir | və s. |

Yerdəyişmə də cümlələrin düzülməsinin düzgünlüyünü yoxlamaq üçün mühüm üsullardan biridir. Məs.:

/Der Direktor betrachtet ihn mit dem Fernglas// (womit?)

/Ihn betrachtet der Direktor mit dem Fernglas// (womit?)

/Mit dem Fernglas betrachtet ihn der Direktor// və s.

Bu yerdəyişməni şərtləndirən amil situasiya və məqamdan asılıdır. Bu da aktual üzvlənməni həyata gətirən məqam olur.

## VII. 8. Sintaktik vahidin aktual (kommunikativ) üzvlənməsi

Hər cümlənin formal-sintaktik strukturdan başqa düz xətt üzrə dinamik düzümü də ciddi maraq doğurur. Aşağıdakı cümlələrə diqqət yetirək:

(1) /Morgen gebe ich dir das Buch//
(2) /Das Buch gebe ich dir morgen//
(3) /Ich gebe dir das Buch morgen//
(4) /Dir gebe ich das Buch morgen//
(5) /Ich gebe dir morgen das Buch //

Bütün burada verilmiş cümlə növlərində eyni gerçəklik haqqında məlumat verilsə də, onların hamısının leksik tərkibi eyni olsa da, müxtəlif məna çalarlığı ifadə olunduğu heç bir şübhə doğurmur. Bütün bu deyimlərin hamısında xəbər (gebe), mübtəda (ich), tamamlıq (das Buch), zaman zərfliyi (morgen)-dir. Bu cümlələrdə aktuallaşan məlumat fərqlidir. Danışanın qarşıya qoyduğu məqsəd hər dəfə dəyişir. (1) -də sabah kitabı verəcəyim, (2)-də kitabı sabah verəcəyim, (3) -də mənim kitabı sabah verəcəyim, (4)-də sənə kitabı sabah verəcəyim və nəhayət (5)-də mənim sənə sabah kitabı verəcəyim daha qabarıq şəkildə nəzərə çatdırılır. Əgər 3-cü neytral götürülərsə, 1-cidə yalnız sabah (bu gün yox), 2-cidə məhz kitabı, 4-cüdə məhz sənə verə-

cəyim daha aydın şəkildə nəzərə çatdırılır. 5-cidə isə mən söz verirəm ki, kitabı sabah verəcəyəm.

Başqa sözlə desək, hər dəfə məlum olan məlumat (kitabın verilməsi), yeni çalarlıq kəsb edərək nəzərə çatdırılır və bu yolla təzə istənilən məlumata (nə zaman, kim, kimə, nəyi) yer açılır. Yeni məlumat isə söz sırası və kontrastiv vurğu ilə verilir, nəticə etibarı ilə tema-rema münasibəti formalaşır. Tema (köhnə, məlum) çıxış nöqtəsi rolunu oynayır, adətən dinləyiciyə əvvəlki danışıq məqamından və kontekstdən məlum olur. Rema isə fikrin özəyi haqqında verilən təzə məlumatdır.

Adi, neytral danışıqda adətən mübtəda tema rolunda çıxış edir. Məs.: /Er hat Grippe//, ancaq /Grippe hat er// - Woran leidet er? Bakı (tema) danışır (rema), ancaq /Danışır (tema) Bakı (rema)// və ya /Ich''' fahre nach Berlin/ və s. /Es war einmal/ (tema) /Eine Prinzessin//(rema) və s. Bu aktual üzvlənmənin əsasını böyük çex dilçisi V.Matezius (1882-1945) qoymuşdur.[71] O göstərirdi ki, biz məlumdan naməluma doğru gedərək deyiləni anlaşıqlı etməyə çalışırıq. Rema qabağa keçəndə (V.Mateziusa görə, subyektiv söz sırası) cümlə daha vacib çalarlıq kəsb edir. Bu zaman onun intonasiya qəlibi tamam dəyişir, rema xüsusi nəzərə çatdırılır, onun emosional və ekspressiv çəkisi xeyli artır.

İntonasiya və söz sırası ilə yanaşı bəzi leksik vasitələr (artikl, növ, xüsusi sintaktik konstruksiyalar) remanın verilməsinə xidmət edir.

Məs.:

| | | |
|---|---|---|
| alm.d.: | | /Ich habe das schon gehört// |
| | | /Schon diese Tatsache spricht über vieles// |
| | | /Ins Zimmer trat ein Mann// |
| | | /Der Mann /hatte eine Mütze an// və s. |
| ing.d.: | rema | /That is he, who...// |
| | | /That was sir Bernhard, who// |
| | | /John loves Mary\|-\|Mary is loved by John// |
| tema | | /That was John, who loves Mary// |
| | | /Karl liebt Lisa//, /Lisa wird von Karl geliebt// və s. |

## VII. 9. Qrammatik funksiyalar

Cümlədəki sözləri funksional baxımdan təhlil etdikdə məktəb qrammatikasında özünə möhkəm yer tutmuş cümlə üzvlərinə görə üzvlənməni ön plana çəkmiş olarıq. Başqa sözlə desək, bu üzvlənmədə cümlədə düzülmüş sözlər arasındakı qarşılıqlı əlaqələrdən bəhs edilir ki, bu da mübtəda, xəbər, təyin, tamamlıq və zərflik əlaqələri kimi müəyyənləşdirilə bilər.

Mübtəda cümlədə haqqında danışılan (cümlənin predmeti və ya teması) və ya xəbərin aid olduğu üzvdür (xəbərin mübtədası). Məs.:

/Schriftsteller schreiben Romane//
/Wer schreibt Romane?//
/Worğber wird im Satz zugesagt?//
və ya /Die Romane dieses Schriftstellers ...//

Göründüyü kimi, mübtəda yalnız bir sözlə deyil, bir neçə söz və ya cümlə ilə də ifadə oluna bilər. Məs.:

/Die Botschaft der BRD in Baku//
və ya /Ob du singen kannst, ist mir bekannt//
və ya /Daß du singen kannst, ...//

Ciddi maraq və eyni zamanda mübahisə doğuran təbiət hadisələrinin şərhindəki es-in (/Es donnert//, /Es schneit// və s.) mübtəda olması məsələsidir. Ənənəvi qrammatika buna /wer (was) schneit, donnert?// sualını verə bilmir. İkinci məsələ /Mich friert// kimi cümlələrdə mübtədanın olub-olmamasıdır.

Məlum olduğu kimi, asılılıq qrammatikası tamamlığı mübtədadan tam fərqləndirmir. Onların hər ikisi feldən asılı olan aktantlar kimi götürülür. Konstituent sintaksisində isə mübtəda (NP) və tamamlıq (NP) hər ikisi feldən (VP) asılı olaraq üçü bir yerdə cümlə (S) düzəldir.

Alman dilində tamamlığın (əlavə, komplement) Akk., Dat. və Gen. hallarda işlənməsi cümlədəki felin valentliyindən asılıdır. Məs.:

/Er schreibt ein Diktat// (vasitəsiz tamamlıq).

/Er wartet auf den Zug// (vasitəli tamamlıq).

Tamamlıq genişlənərək cümlə ilə də ifadə oluna bilir.

Məs.:

/Er sagt, daß er ein Diktat schreibt// və s.

Xəbər həm mübtədaya (/Er schldft//), həm də bütün cümləyə aid olur.

/Er schldft den ganzen Tag//

/Monika lernt Russisch // və ya

/Monika hat (lernt) Russisch mit Russischlehrerin gelernt// və ya

/Meine Meinung ist die, die sich von deiner gründlich unterscheidet// və s. cümlələrdə xəbərin funksiyası məlumatın təsdiqindən ibarətdir.

Cümlədəki digər funksiyaları (təyin, zərflik) göstəricilər, iştirakçılar və ya adyunkt[72] adlandırırlar.

Təyin adətən isimlə idarə olunur, məs.:

/Die wunderschüne duftende Landschaft//, /Der Kampf um die Freiheit...//, /das Haus meines Vaters//, /die Arznei gegen Grippe//, /das Haus am Schollerplatz// və s.

Zərfliklər çox müstəqil olur, əksərən hərəkətin yerini, zamanını, vəziyyətini, icra tərzini və modallığını bildirir. Məs.:

/Damals arbeitete er als Lehrer//

/Damals arbeitete er in Baku//

/Leider ist das unmüglich// və s.

Modallıq, yer və zaman zərflikləri adətən bütöv cümlənin zərflikləri funksiyasını yerinə yetirir. Alman və ingilis dillərində attributiv funksiyası daşıyan dəyişən və adyektiv sözlər artikldən sağda, amma isimdən solda gəlir. Məs.: /Der junge Mann begegnete ihm plützlich//

/Plützlich begegnete ihm der junge Mann//

/A young man asks me//, /He loves me//

Alman dilində dativ obyekti akuzativ obyektindən əvvəl gəlir.

Məs.: /Sie gab den Lehrern Osterneier//

Ancaq akkuzativ obyekti əvəzliklə ifadə olunanda o,dativ obyektini qabaqlayır. Məs.: /Sie gab sie den Lehrern//

Alman ismi birləşmələrində artikl olmayanda qenitiv obyekt qabağa keçə bilir. Məs.: /Meines Bruders gute Freunde//

Tabeli mürəkkəb cümlədə dəyişən xəbər sonra gəlir, amma danışıq dilində bu konstruksiya asanlıqla pozula bilər. Məs.:

/Frag mal ihn, ob er kommen wird//

/Erzdhl's doch, weil ich kenne den Jungen nicht//

Xəbərin dəyişən və dəyişməyən hissələrindən çıxış edənlər söz sırasında feli məhək daşı hesab edirlər.[73] Bunlar cümlədə bir-birindən ayrıldıqlarına görə onlara mötərizə mənasında yanaşaraq cümləni üç sahəyə bölürlər:

1) Ön sahə; 2) Orta sahə; 3) Son sahə

| *Ön sahə* | *Mötərizə açılır* | *orta sahə* | *mötərizə bağlanır* | *Son sahə* |
|---|---|---|---|---|
| Monika | Wird | Am Wochenende | heiraten | Daß sie bald heiraten wird, war uns ganz klar |
| Monika | Hat | Immer | behauptet | |
| DaƏ | Sie | keinen von uns | mag | |

Yuxarıda deyildiyi kimi, sözlərin bölgüsü təkjə formal əlamətə əsaslanmır. Burada üç əlamət birgə götürülür. L.V.Şerba yazırdı ki, forma və məna bir-birilə üzvi surətdə bağlıdır: «Ola bilməz ki, işarə haqqında danışasan və deməyəsən ki, o nəsə bildirir; formanı mənadan ayırdın, dil yoxdur və digər tərəfdən, formal göstəricisi olmayan kateqoriyalar yoxdur».[74]

Sırf formadan çıxış edərək alman dilində sözləri dəyişən (flektierbar) və dəyişməyən (unflektierbar) hissələrə bölürlər. Fikrimizcə, bu, düzgün deyil. Çünki belə olduqda bir sıra (Auto, Taxi) və s. sözləri haraya aid etmək aydın olmur. Digər tərəfdən, Diese Unters, Diese Hinters, Diese Und və s. sözlər də Autos, Taxis kimi naməlum qalır.

Yalnız yuxarıda verilən üç kateqoriyaya görə sözləri əsas və köməkçi olaraq iki qrupa bölmək olar. Əsas sözlər (isim, sifət, say, əvəzlik, fel, zərf) ayrılıqda cümlə üzvü ola bilir, məna daşıyır və formal dəyişikliyə uğrayır. Köməkçi sözlər isə (nida, modal sözlər, bağlayıcılar, sözönüləri, artikllər, partikllər) adətən dəyişikliyə uğramır, özünün əşyavi və hərəki hiss, həyəjanını bildirərək, nə sağdan, nə də soldan əlaqəyə girmir, bəzən adlandırır, bəzən də işarə edir (Hello, By, Hura, Fu və s.). Determinativlər sözönüləri, artikllər, partikllər (ja, nein, yes, no) müqayisə sözləri (more, most, mehr, sehr), qayıdış əvəzliyi (sich), predikativlər (asleep, alive) və s. digər analitik birləşmələrin yaranmasında iştirak edir.

Modal sözlər köməkçi sözlərlə əsaslar arasında qiymətləndirici məna daşıyan körpü rolunu oynayır (may be, wahrscheinlich, unfortunately və s.).

## VII. 10. Fəslə dair yoxlama sualları və tapşırıqlar

1. Dilin sintaktik səviyyəsini göstərən əlamətlər hansılardır?
2. Xomski məktəbinin əsas məziyyətləri hansılardır?
3. Sintaktik əlaqələrin növləri və məziyyətləri hansılardır?
4. Söz sırası haqqında nə deyə bilərsiniz?
5. L.Tenyerin sintaktik təliminin əsas istiqamətləri nədən ibarətdir?
6. Aktual üzvlənmə haqqında bildiklərinizi nəql edin.
7. Verilmiş mətni sintaktik təhlil edin.
8. Sintaktik vahidlərin tipologiyası hansı əlamətlər üzrə aparılır?
9. Sintaksisin tarixi haqqında nə bilirsiniz?

[1] Der grosse Brockhaus. 1957, Bd II.
[2] Duden-Lexikon. 1962, Bd 3.
[3] H.Glinz. Deutsche Syntax. Stuttgart, 1965, c.1-3.
[4] H.Glinz. Göstərilən əsər, s.3.
[5] Bu barədə ətraflı məlumat almaq üçün bax: Ф.Я.Вейсалов, Д.Ш.Вейсалова. Вопросы теории языка в трудах проф. М.А.Кязимбека. «Türkologiya», Bakı, 1-2, 2002, s.3-13.
[6] L.Bloomfild. Göstərilən əsər. 1933, s.207; H.Gleason. İntroduction to descriptive Linguistics. London, 1970.
[7] А.М.Пешковский. Русский синтаксис в научном освещении. Предисловие к первому изданию. М., 1938, с.3.
[8] Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. М., 1957, с.5-7.
[9] В.Г.Адмони. Введение в синтаксис современного немецкого языка, М., 1955, с.13.
[10] W.Admoni. Der deutsche Sprachbau. 4.überarbeitete und ervveiterte Auflage. München, 1982, s.225.
[11] J.M.Y.Simpson. A First Course in Linguistics. Edinbyrg, 1979, s.93; J.Lyons. Einführung in die moderne Linguistik. 8. Aufl., Dachau, 1995, s.136.
[12] J.Lyons. Chomsky. London, 1970, s.48.
[13] V.F.Veysəlova. Uşaq dilinin formalaşması və inkişafı problemləri. Namizədlik dissertasiyasının avtoreferatı. Bakı, 2002, s.16.
[14] J.Grimm. 2 von Roethe im Jahre 1898 verbesserte Aufl., s. 1-2.
[15] Yenə orada, s. 371.
[16] Yenə orada, s. 437.
[17] Yenə orada, s. 454.
[18] Yenə orada, s. 173.
[19] H.Wunderlich. Der deutsche Sprachbau. 1892, II Auflage, 1902.
[20] H.Glinz. Göstərilən əsər, s.34.
[21] H.Paul. deutsche Grammatik. Halle, 4. Aufl., Bd III, Teil IV. 1. Hälfte, s.3.
[22] H.Paul. Prinzipien der Sprachgeschichte. Halle, 1880, 6-cı nəşri, 1960.
[23] K.Abdullayev. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, 1998.
[24] H.Glinz. Göstərilən əsər. s.39.
[25] H.Paul. Göstərilən əsər. s.225.
[26] G.O.Curme. Grammar of the German Language. 1904, yenidən işlənmiş nəşri, 1922, son nəşri, 1952.
[27] J.Fourquet. L'ordre des elements de la phrase en germanique ancien, etude de syntax de position, Strasbourg, 1938.
[28] H.Glinz. Die innere Form des Deutschen, Bern, 1952, 6-cı nəşri, 1973.

[29] H.Brinkmann. Geschichte und Kritik der Lehre von den Satz'liedern in der deutschen Sprache, 1947.
[30] Ch.Fries. The Structure of English. An Introduction to the Construction of English Sentences., New York, 1952, 4-cü nəşri, 1965.
[31] J.Trier. Wirkendes Wort, 1. Sonderheft, 1952, c.1-2.
[32] W.G.Moulton. Linguistics and a Language Teaching in the United States 1940-1960. In: Trends in Ueropean and American Linguistics 1930-1960.
[33] H.Glinz. Göstərilən əsər. s.76.
[34] Yenə orada, s.422.
[35] K.Boost. Göstərilən əsər, 30.
[36] Ф.Вейсалов. Завершающая интонация в современном немецком языке. Л., Канд. дисс., 1970.
[37] А.М.Пешковский. Интонация и грамматика. М., 1928.
[38] O.von Essen. Grundzüge der hochdeutschen Satzintonation. Düsseldolf. 1956.
[39] D.Bolinger. İntonation. Penguin Books. 1972.
[40] F.Veysəlov. Alman dilinin fonetikası. Bakı, 1980.
[41] W.Admoni. Der Deutsche Sprachbau. 4.Aufl., München, 1982, s.302-308.
[42] H.Brinkimann. Die deutsche Sprache. Gestalt und Leistung. 1962, s.455-627.
[43] H.Glinz. Göstərilən əsər, s.81
[44] L.Weisgerber. Muttersprache und Geistesbildung. Braunscweig, 1929.
[45] H.Glinz. Göstərilən əsər, s.82.
[46] Yenə orada, s.70.
[47] Yenə orada, s.80.
[48] Yenə orada, s.84.
[49] H.Glinz. Göstərilən əsər, s.86.
[50] Ch. Fries. Gbstərilən əsər, s.264.
[51] H.Gleason. An İntroduction to descriptive Linguistics. London, 1970, s. 128-148.
[52] H.A.Gleason. Göstərilən əsər, s.133.
[53] Yenə orada. p.138.
[54] Yenə orada. s.159.
[55] N.Chomsky. Proseedings, 1962, s.914.
[56] N.Xomski. Göstərilən əsər.
[57] Y.V. fon Qötenin «Wilhelm Meisters Wanderjahre» (1829), $1949^2$, s.327 əsərində bu fikrinə diqqəti cəlb etmək istərdik: «Das höchste wäre zu begreifen, daß alles Faktische schon Theorie ist».
[58] J.Lyons. Generative Syntax. «New Horizonts in Linguistics». 1973, s. 115-139.

[59] W. Admoni. Göstərilən əsər, s.242; Л.Р.Зиндер, Т.В.Строева. Göstərilən əsər.

[60] Praktik qrammatika dərsliklərində əlaqələndirici və ya tabesiz bağlayıcının sadə (und, aber, and, but və s.) və mürəkkəb (sowohl-als auch, nicht nur-sondern auch, as well as, either-or, neither-nor və s.)növlərini göstərirlər. Semantik baxımdan onlar kopulativ (sıralma-und, auch, sowohl-als auch, nicht nur-sondern auch, weder-noch, and, as well as və s.), adversativ (qarşılaşdırma-aber, but, teils-teils, bald-bald (adətən bu ikisini kopulativə aid edirlər), oder., entweder-oder, or, either-or, neither-nor (bu ikisini isə disyunktiv, bölüşdürücü adlandırırlar). Bundan başqa aydınlaşdırma əlaqəsini bildəirən bağlayıcılar da var (das heisst, nämlich, sozusagen, kurz, d.i. (las ist), z.B.) zum Beispiel),bzw (beziehungsvveise) və s. Tam bağlayıcı olmayan /daher, also, darauf, indessen/ kimi sözlər də bağlayıcı rolunda çıxış edirlər. /denn, ja, nämlich/ səbəb-nəticə əlaqələrinin ifadəsinə xidmət edir. Burada /dann, darauf, schliesslich/ və s. kimi bağlayıcı sözləri qeyd etmək olar. Bax: Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. M., 1957, c.283.

[61] German dillərində mürəkkəb cümlələr sintaktik-funksional, sintaktik-semantik, baş cümlə ilə bağlılıq vasitəsinə, bütövdə yerinə və asılılıq dərəcəsinə görə təsnif olunur. Sintaktik funksional baxımdan budaq cümlələr bunlardır: 1) mübtəda b.c. (bağlayıcılar-dass, wie: /Wer A sagt, kann auch B sagen//). 2) xəbər b.c. (dass, vvie-Er, vvie er vvar//), 3) tamamlıq b.c. (dass, ob, that - /İch weiss nicht, vvas soll es bedeuten, dass ich so traurig bin. Ein Märchen aus alten Zeiten, das kommt mir nicht aus dem Sinn//), 4) təyin b.c. (der, die das, vvelcher, vvelches, welche, which və s. /Der Roman, den er geschrieben hat, gefällt mir sehr//), 5) zərflik b.c.:a) yer b.c. (wo, where-/İch wohne, wo er früher gelebt hat//),b) zaman b.c. (als, vvenn, bevor, ehe, nachdem, seit (dem), indem, während, solange, sobald, so oft, bis, dieweil, wie, da, indes (sen), when, -/Als er erwachte, sah ihn nicht//), c) tərzi-hərəkət b.c. (indem, ohne dass-/Er guckte ihn an, indem er die Liste in der Hand hielt//), d) məqsəd b.c. (damit, dass, auf dass-/Er kommt, damit ich ihm alles erzähle//), f) şərt b.c. (vvenn, falls, if, in case, unless-/İch komme, wenn du auch mitkommst//), g) güzəşt b.c. (obschon, ogleich, obwohl, obzwar, wie auch, wenn schon, wenn auch, trotzdem, ungeachtet, wenn gleich, though, although - /Er kommt, obvvohl er krank ist//), e) məhdudiyyət b.c. ((in) soweit/, insofern, soviel, nur dass, ausgenommen dass/Wir badeten, so gut es ging//), i) səbəb b.c. (weil, da, zumal, because, so.. that - /İch erzählte das, weil er verstehen wollte, worum es ging//), j) nəticə b.c. (so dass, dass, als dass-/İch zögerte, so dass er mich erreichen konnte//), h) müqayisə b.c. (real: wie, als, als ob, als wenn, wie wenn - /Er sieht besser aus, als wir er wartet haben//, qeyri-real - /Er singt, als ob er Sänger vvära//). Bu cümlə növlərini

bəzən bir-birindən ayırmaq o qədər də asan olmur. Elə bu da sintaktik-semantik bölgü üçün ciddi çətinliklər yaradır. Müxtəlif tiplərin qarşılaşmasında məzmun cümlələri (inhaltssätze) mühüm yer tutur. Onlarda baş cümlə iki sözlə ifadə olunur, budaq cümlə isə çox böyük ola bilir. Baş cümlə ilə bağlılığına görə aşağıdakı vasitələrdən istfifadə olunur: 1.Tabeli bağlayıcılar və cümlə bağlayan əvəzlik və zərflər (der, welcher, wer, was, wo, wohin, wodruch və s.); 3. Heç bir bağlayıcı vasitə olmadan, söz sırasının dəyişilməsilə. Məs.: /Kommt er heute nich, vverde ich idn morgen prufen//. 3. Korrelatlar vasitəsilə. Məs.: /Kommt er heute nicht, so vverde ich idn morgen prüfen//.

[62] И.П.Иванова, В.В.Бурлакова, Г.Г.Почепцов. Теоретическая грамматика современного английского языка. Л., 1981, с.261.

[63] Y.M.Simpson. Göstərilən əsər, s.114.

[64] Ancaq /My family are early risers//. Bax: R.W.Zandvoort. A.Handbook of English Grammar. 7.Ed.H. 258. His family was an ol one (oradaca, s.264) və ya /The government are determined to resist agression// (yenə orada, s.259).

[65] Daniel Clement. Linguistisches Grundwissen. Eine Einführung für zukünftige Deutschehrer. Westdeutscher Verlag. 1996, s.60-125.

[66] Ю.Маслов. Введение а языкознание. М., 1987, s.178.

[67] Люсен Теньер. Основы структурного синтаксиса. Москва, «Прогресс», 1988.

[68] Dainel Clement. Göstərilən əsər, s.60-125.

[69] Konkret söz sırası haqqında bax: R.W.Zandvoort. Göstərilən əsəri, s. 236-254.; O.Musayev. İngilis və Azərbaycan dillərində söz sırası. Bakı, 1960.

[70] L.Teynerin sintaktik təlimində fel cümlənin mərkəzi olur. O, mübtəda və xəbəri ifadə edir. Bunlara aktantlar deyilir. Bunun əksinə olaraq feli müşaiyət edən sözlərə yardımçılar / göstəricilər (sirkonstantlar) deyilir. Yuxarıda verdiyimiz misalda /Bruder/ mübtədası 1-ci aktant, /Buch/ vasitəsiz tamamlığı 2-ci, /Schwester/ vasitəsiz tamamlığı isə 3-cü aktantdır. /Mein sehr lieber Bruder/-də isə mein, sehr lieber göstəriciləridir. Bu barədə bax: D.Clement. Göstərilən əsəri, s.64-66.

[71] В.Матезиус. О так называемом актуальном членении предложения. Праж. Лингв. Кружок. М., 1967, s.244; Ю.С.Маслов. Введение..., s.182-185.

[72] Adyunkt ingiliscə əlavə edilən deməkdir.

[73] D.Clement. Göstərilən əsər, s.98.

[74] Л.В.Щерба. Языковая система и речевая деятельность. Л., 1984, s.92-93.

# VIII. GERMAN DİLLƏRİNİN AZƏRBAYCANDA ÖYRƏNİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

## VIII.1. Ümumi qeydlər

Hazırda bütün dünyada, o cümlədən Ölkəmizdə xarici dillər maraq olduqca artmışdır. Buna da səbəb bir tərəfdən elmi-texniki tərəqqidirsə, digər tərəfdən dünya miqyasında qloballaşma və inteqrasiya meyllərinin durmadan artmasıdır. Müasir dünyada xalqların və ölkələrin təcrid olunmuş şəkildə yaşaması qeyri-mümkündür. Odur ki, indi siyasi, iqtisadi, mədəni, hərbi, ticari və digər sahələrdə qarşılıqlı əməkdaşlıq hər bir ölkə üçün önəmlidir.

Bu gün Respublikamız onlarla beynəlxalq qurum və təşkilatlarda tam hüquqlu dövlət kimi təmsil olunur. Azərbaycanda hazırda çoxlu sayda xarici firma, müştərək müəssisə, səfirlik, nümayəndəlik və s. fəaliyyət göstərir. Bu bir daha onu göstərir ki, xaricdə Ölkəmizə maraq durmadan artır. Bu gün ölkə əhalisinin sənaye mallarına olan tələbatı əsasən xaricdə istehsal olunan məhsulların hesabına ödənilir (texniki avadanlıq, nəqliyyat vasitələri, tikinti-inşaat materialları, tibbi-müayinə avadanlığı, preparatlar və s.). Deməli, xariclə əlaqələrimiz günbəgün artmaqdadır. Müxtəlif səviyyələrdə əlaqələrimizi daha da genişləndirmək üçün xarici dillərdə ünsiyyətə girməyi bacaran səriştəli kadrlarımız olmalıdır. Bunlar hamısı bir daha sübut edir ki, biz doğma dilimizlə yanaşı, xarici dillərin öyrənilməsinə diqqəti artırmalıyıq. Əks halda dövrün artan tələblərindən geridə qalmış olarıq.[1]

Yaranmış real vəziyyəti nəzərə alaraq biz ləngimədən Respublikamızda xarici dillərin tədrisinin bütün sahələrini əhatə edən, elmi-metodik cəhətdən əsaslandırılmış, xalqımızın gələcək inkişafına yönəlik geniş fəaliyyət proqramı hazırlama-

lıyıq. Bu elə bir sanballı sənəd olmalıdır ki, onda təhsil sistemimizdə xarici dillərin yeri və əhəmiyyəti və onlara olan tələbat öz geniş həllini tapsın. Bu, yüksək intellektual səviyyəyə çatmış xalqların dilöyrənmədə qazandıqları zəngin təcrübəni nəzərə alan, milli gerçəkliyimizi, adət və ənənələrimizi, düşüncə tərzimizi və psixoloji-intellektual səviyyəmizi özündə ehtiva edən bir fəaliyyət proqramı olmalıdır. «Xarici dil konsepsiyası məzmunca respublikamızda xarici dillərin tədrisi, tədqiqi və tətbiqi siyasətindən, bu siyasətin həyata keçməsi üçün fəaliyyət proqramından (nə vaxtdan və hansı məzmunda hansı dilin öyrədilməsi, dilöyrənmənin hansı mərhələsində hansı metoddan istifadə olunması və s.) və bu proqramın maliyyələşdirilməsindən ibarət olmalıdır».[2]

İndi soyadaşlarımız dünyada istehsal olunan ən yeni texnologiyaları öz məişətlərinə daxil edir, çox az vaxt ərzində (səsdən iti uçaqlarda və digər nəqliyyat vasitələrində) bir ölkədən digərinə gedə bilir, bir göz qırpımında dünyanın istənilən nöqtəsində internet və telefon əlaqəsinə girə bilirlər. Yer üzündə bir dilin, ingilis dilinin hegemonluğu günü-gündən artır, onun yeganə ünsiyyət vasitəsinə çevrilməsi ehtimalı heç kəsdə şübhə oyatmır. Çünki bu dilin ABŞ kimi qüdrətli hesab var. Lakin çoxdan müstəqillik yoluna qədəm qoymuş Avropa ölkələri bu və ya digər xalqın dilinə üstünlük verilməsilə heç cür razılaşa bilmir. Məs., 2954-cü il Avropa Mədəniyyət Sazişi, Avropa Birliyinin qərar, qətnamə və memorandumu, habelə 1975-ci il Helsinki yekun aktı bu sənədlərə imza atan bütün dövlətlərin dillərində tərtib edilib. Amma eyni zamanda o da məlumdur ki, Avropa Şurasının işçi dili fransız və ingilis dilləridir. BMT-də də ingilis, ərəb, fransız, çin və rus dilləri işçi dillərdir. Doğrusu, vəziyyətin bu şəkildə davam edəcəyi az inandırıcıdır, çünki ispan, aman, italyan, yapon, hind və s. dillərdə danışan xalqlar linqvistik imperializm siyasətilə barışmaq istəmirlər.[3]

Göründüyü kimi, xarici dillərin öyrənilməsi dövrün dəbi və ya imtiyaz məsələsi deyil, bu müasir dünyanın real mənzərəsidir. Biz xarici dillərə Respublika daxilində və ya xaricində ya-

ranmış ünsiyyət məqamında vəziyyətdən çıxmaq vasitəsi kimi deyil, xalqımızın dünya sivilizasiyasına qovuşmasında, uzaq və yaxın qonşularımızın həyatı ilə tanışlıqda və bu yolla da dünya xalqları düzənində öncül yerlərdən birini tutmaqda mühüm faktor kimi yanaşmalıyıq.

Xarici dil konsepsiyasında tədris planlarında fənlərin statusunun müəyyənləşdirilməsi elmi-nəzəri və pedaqoji-psixoloji prinsiplər əsasında olmalıdır. Dilöyrənmədə kəmiyyət və keyfiyyət faktorları (xarici dil dərslərinin intensivliyi və məzmunu) çox mühüm rol oynayır. Çalışmalıyıq ki, soydaşlarımızda dil dünyası elə formalaşsın ki, onların dilöyrənməsi şəxsi maraq və həvəs üzərində qurularaq gündəlik tələbata çevrilsin.

Xarici dil konsepsiyasında ana dilinin (ingilisdilli elmi-nəzəri ədəbiyyatda buna birinci dil deyilir.[4], bu ağlabatan fikirdir, çünki müşahidələr göstərir ki, bəzən valideynlər öz doğma dillərində danışsalar da, onların övladları başqa dildə danışırlar) və sonra öyrəniləcək dillərin yeri və ardıcıllığı dəqiq müəyyənləşməlidir.

Aydın məsələdir ki, xarici dilin tədrisi ana dilinin tədrisindən fərqlənməlidir. Ana dilini uşaq kortəbii şəkildə öyrənir, bu dilöyrənmə idarə olunmur. «Uşaq doğulduğu gündən onu əhatə edən mühitə ünsiyyət vasitəsi kimi xidmət edən dili eşidir, səslər ümmanından fonem qarşılaşmalarını ümumiləşdirərək fərqləndirir, bu dilin sistem və qurum xüsusiyyətlərini tədricən mənimsəyir».[5]

L.V.Şerba xarici dilin öyrənilməsində ana dilinin rolunu xüsusi qeyd edirdi və yazırdı ki, xarici dilin tədrisində ana dilinin köməyi olmadan uğur qazanmaq olmaz.[6]

Eyni zamanda L.V.Şerba xarici dilin ana dilinə təsirini yüksək qiymətləndirirdi. «Mən deyərdim ki,... ana dilini tam mənimsəmək (mən, əlbət ki, ədəbi dili nəzərdə tuturam), yəni onun bütün zənginliyi, ifadə vasitələrini qiymətləndirmək, onun bütün imkanlarını başa düşmək yalnız hər hansı bir xarici dili öyrənməklə mümkündür».[7] Bu alim ana dili və xarici dili bir-birilə üzvü surətdə bağlı olan fənlər kimi götürür, onlara

bütün təhsilin filoloji əsası kimi yanaşır və birini digərindən ayırmaq mümkün olmadığını vurğulayır.[8]

Xarici dili isə biz xeyli sonra, ana dilinə və ya birinci dilə yiyələnəndən sonra öyrənirik. Ona görə də xarici dilin öyrənilməsini idarə olunan dilöyrənmə adlandırırlar. Buraya müstəqil və nəzarət altında dilöyrənmə aiddir. Bu zaman ana dililə müstəqil və ya müəllimin (repetitorun) nəzarəti altında öyrənilən dil arasındakı sistem və struktur fərqləri və oxşarlıqları şüurlu şəkildə müəyyənləşdirilir ki, bu da dilöyrənməni sürətləndirir. Dil strukturları arasındakı fərqləri ön plana çəkən kontrastiv dilçilik interferensiya və transfer anlayışlarından gen-bol istifadə edir. Psixolinqvistik araşdırmaların nəticəsi olan bu elmi istiqamətin mahiyyəti ondan ibarətdir ki, əvvəl öyrənilən dil (birinci dil) sonra mənimsənilən dilə müsbət, mənfi və sıfır təsirə malik olur. Buna elmi ədəbiyyatda transfer deyilir. Böyük oxşarlıqlar müsbət transferlər doğurur. Dil strukturları arasındakı oxşarlıqlar az olduqca mənfi transferlər çox olur. Bu transferlər dilöyrənmədə səhvlərə gətirib çıxardır ki, buna da interferensiya səhvləri deyilir. Başqa sözlə desək, hər hansı bir xarici dili öyrənərkən öz dilimizin struktur nümunələrini öyrəndiyimiz dilin üzərinə keçiririk.[9] N.S.Trubeskoy öz klassik əsərində fonoloji sistemin mənimsənilməsindən danışarkən səhvləri doğuran faktorları «fonoloji ələk» adlandırırdı.[10]

Tətbiqi dilçiliyin son nailiyyəti sayılan bu nəzəriyyəni biz Azərbaycan auditoriyasında tətbiq edə bilmərik, çünki bu nəzəriyyə flektiv dillərin materialları əsasında işlənib hazırlanıb. Məsələnin uğurlu həlli bizim gerçəkliklərə söykənən elmi-nəzəri konsepsiya hazırlamağımızdan asılıdır. Xarici dil konsepsiyası Respublikamızda dil siyasətini, fikrimizcə, aşağıdakı kimi həll etməyə çalışmalıdır.

Birinci dil kimi dövlət dilimiz öyrənilməlidir. Bu, Respublikamızda yaşan azərbaycanlıların bütün ölkə ərazisində maneəsiz, birbaşa, rəsmi yazılı və şifahi ünsiyyətinin ana xəttini təşkil edir, bu dildə vətəndaşlarımız orta və ali təhsil almalı və Ölkəmiz daxilində bütün fəaliyyətlərini bu dildə həyata keçir-

məlidirlər. Bundan sonra ikinci, davranış dili gəlir. Azərbaycanla qonşuluqda yaşayan xalqlar və etnik azlıqlar üçün bu Azərbaycan türkcəsidir. Dağıstan və Gürcüstandan gələnlər sərhədyanı təmasda bu dildən istifadə edə bilərlər. Cənub sərhəddimizdə heç bir problem yoxdur, çünki orada dili dilimizdən, canı canımızdan olan 30 milyonluq soydaşlarımız yaşayır və bu səbəbdən də onlarla ünsiyyətimizdə möhtəşəm azəri türkcəsindən istifadə heç bir maneə ola bilməz. Biz azəri türkləri üçün isə davranış dili rus və ya ingilis dili ola bilər.

Üçüncü dili fundamental dil adlandırmaq olar. Bu da orta məktəblərin beşinci siniflərindən başlayaraq öyrədilən xarici dil ola bilər.

Dördüncü dili ünsiyyət dili adlandırmaq olar. Bu dili öyrənməklə hər bir soydaşımız dünyanın istənilən nöqtəsində ünsiyyətə girə bilər. Bu da, bir qayda olaraq, soydaşlarımızın qarşısında duran məqsəddən və mütəxəssis kimi konkret fəaliyyət dairəsindən asılı olaraq ingilis, rus, alman, fransız, ispan, ərəb, fars və s. ola bilər.

Nəhayət, beşinci dildir, bunu da araşdırma-açma dili kimi müəyyənləşdirə bilərik. Bu, o deməkdir ki, hər bir soydaşımız konkret fəaliyyət növü ilə bağlı hər hansı bir dili öyrənə bilər. Əgər kimsə gürcü və ya fars tarixini tədqiq etməyi qarşısına məqsəd qoyubsa, o, tədqiqatı üçün lazımi informasiyanı birinci əldən almaq istəyərsə, gürcü və ya fars dilini öyrənə bilər.[11]

Yuxarıda təsvir olunan dil konsepsiyasında dillərin sadalanması geniş əhatəli, hərtərəfli inkişaf etmiş soydaşlarımız üçündür. Misal üçün, deyək ki, cənub bölgəsindən olan hər bir soydaşımız dövlət dilini, davranış dilini (öz ana dilini), siyasi xadim və alimdirsə, fundamental və ünsiyyət dillərini, eyni zamanda öz elmi-ictimai fəaliyyətilə bağlı araşdırma dilini də öyrənə bilər. Təbiidir ki, adi vətəndaşlarımızın bəzən iki (dövlət dili və davranış dili), bəzən də üç dillə (dövlət, fundamental və ünsiyyət dilləri) kifayətlənə bilərlər.

## VIII.2. Xarici dil fənninin özəllikləri

L.S.Vıqotski ana dilinin öyrənilməsini «aşağıdan yuxarı», xarici dili isə «yuxarıdan aşağı» istiqamətdə gedən proses hesab edir. Xarici dilin öyrənilməsində önəmli olan odur ki, bütün təlim prosesi bir sualı cavablandırmalıdır: nə və necə deməli, fikir hansı ardıcıllıqla ifadə olunmalıdır? Müasir elmi-nəzəri ədəbiyyatda bunu mənimsəmənin istiqamətinin müəyyən edilməsi adlandırırlar.[12] Uşaq dilinin formalaşması və inkişafı problemilə məşğul olan V.Veysəlova uşaqlarda fonoloji sistemin mənimsənilməsilə bağlı yazır ki, körpəliyində çıxardığı səslərin əksəriyyəti böyüdükcə uşaq üçün oyuncağa çevrilir, yəni qığıltıların böyük əksəriyyəti ünsiyyət funksiyası yerinə yetirmir. Digər tərəfdən, bu tədqiqatçıya görə, fonemlər formalaşdıqca onların fonematikliyi, kontrastlar yaratması artan silsilə üzrə gedir.[13]

Deməli, birinci dil aşağıdan yuxarı prinsipilə öyrənilir: qığıltılar, kontrast yaradan və fərqləndirmə funksiyası kəsb edən fonemlər, sözlər, söz-cümlələr ana dilinin öyrənilməsi mərhələləridir.

Xarici dildə isə artıq ilk gündən danışıq etiketlərilə rastlaşan öyrəncil kommunikativ məqsədin tələbinə əsasən həm tələffüz vərdişlərinə, həm qrammatik qaydalara yiyələnməli, həm də gerçəkliyin əşya-hadisə-hiss-həyəcan əlaqələrini başa düşüb onları öyrəndiyi dildə reallaşdırmağa çalışmalıdır.

Xarici dili öyrənəndə istiqamətin dəyişməsilə yanaşı, ünsiyyət sıxlığının da dəyişməsini müşahidə edirik. Uşaq dili mənimsəyərkən öz əhatəsindəkilərlə, yaşlı qohumları və tanışları ilə daha tez-tez ünsiyyətə girir. Ancaq xarici dildə danışmaq ilkin mərhələdə o qədər də ardıcıl olmur. Bu mərhələdə ünsiyyət bir adamla məhdudlaşır. Dilöyrənən öz arsenalında olan dil qaydalarından səmərəli istifadə etməklə öz fikrini ifadə etməyə, başqasının nitqini başa düşməyə çalışır, leksik baqajdan, qrammatik və fonetik qaydalardan səmərəli istfiadə etməklə danışıq vərdişlərini inkişaf etdirir. Bu mərhələdə dilöyrənənin həmsöhbəti adətən ona dərs deyən müəllimi olur ki, bu da onun dil fəa-

liyyətini ciddi şəkildə məhdudlaşdırır. Bu məhdudluğu aradan qaldırmaq üçün tədris planında xarici dilə ayrılan saatların miqdarını artırmaq və dil aspektlərinin ayrıca öyrədilməsini təmin etmək lazımdır. Bu yolla tədrisə bir neçə müəllim cəlb olunar ki, dilöyrənən şüurlu şəkildə müqayisələr apara bilsin. Bu xüsusilə ali məktəbdə yaxşı nəticə verə bilər.

Sonralar yeni dil mühitinə düşən insanlar, xüsusilə öyrənilən dildə danışanlarla tez-tez ünsiyyətə girmək ehtiyacını ödəmək lazım gəldiyindən, ünsiyyət aktında işlənən cümlələrin ayı artır, xarici dildə danışmaq intensivləşir. O, fərdin intellektual və şəxsi keyfiyyətlərinin üzə çıxarılmasına şərait yaradır.

İlk mərhələdə dilöyrənən ünsiyyətə qoşulmaq üçün xarici dildən ehtiyatla istifadə edir, lakin nə danışan, nə də dinləyən danışanı tam dərk edərək özününkiləşdirə bilmir. Bu çox-çox sonralar yaranır, dili duymaq yalnız o dili yaxşı mənimsəyəndən sonra başlayır. Lakin adamın xarici dillə öz doğma dili kimi davrana bilməsi üçün ardıcıl məşqə və çoxlu enerji tələb olunur. Bu da hamıya nəsib olmur. Yalnız xarici dilin sistem və struktur özəlliklərini tam mənimsədikdən və onların danışıq aktında maneəsiz realizəsi üçün yetərli vərdişlər yaranandan sonra xarici dil ana dilinin yerinə yetirdiyi ünsiyyət funksiyasını yerinə yetirə bilər. Bununla yanaşı, qeyd edilməlidir ki, heç bir xarici dil ana dilini tam əvəz edə bilməz. Buna əsas olaraq o faktı göstərmək olar ki, «bir neçə dil bilən adamlar ən intim, qeyri-ixtiyari hisslərini, incə mənalı nəsnələri yalnız öz ana dillərində ifadə edə bilirlər».[14] Beləliklə, xarici dil fikrin formalaşaraq ifadə olunmasını təmin edə bilər ki, bu da insanın cəmiyyətdə ehtiyacdan doğan bütün ünsiyyət və sosial tələbatını ödəməyə imkan verir. L.V.Şerba yuxarıda adı çəkilən əsərində yazırdı ki, xarici dilin öyrənilməsi dialektik təfəkkürü inkişaf etdirmə vasitəsidir. Dilöyrənən öz danışığına nəzarət edir, onu tərkib hisslərinə bölür, bu parçaların arasındakı münasiətləri aşkar edir, onları müqayisə edərək dərindən başa düşməyə çalışır. Bir sözlə, dil üzərində müşahidə təfəkkürün üzərində müşahidəyə çevrilir.[15]

Mütəxəssislər dəfələrlə qeyd ediblər ki, xarici dil başqa fənlərdən fərqli olaraq həm məqsəd, həm də vasitədir. Dilöyrənmə insan demək istədiyini, yəni məqsədini öyrəndiyi dil vasitəsilə ifadə edir. Dildən kənarda mövcud olan əşya-hadisə əlaqələrini öyrəndiyi dilin köməyilə izhar edir. Tarix keçmişdə baş verən olayları xronoloji ardıcıllıqla səbəb-nəticə əlaqələri baxımından, fizika materiyanın mövcudluğu və hərəkəti qanunlarını öyrəndiyi halda, dilin belə daimi obyekti yoxdur. Burada müşahidəyə gələn yeganə şey dilin ayrı-ayrı fərdlərin danışığında realizə olunmasıdır. Tarixi və fizikanı öyrənən tarixçi və fizik olur, ingilis və ya alman dilini öyrənən ingilis və alman olmur. Dili öyrənən son nəticədə dilçi ola bilər ki, bu da artıq məsələyə başqa müstəvidən yanaşmaq deməkdir. Digər bir məziyyət, N.Xomski demişkən, dilin sonsuzluğudur. Sonu məlum olan dil işarələrindən saysız-hesabsız cümlələr düzəltmək mümkündür (bax: I fəsil). Elə bu səbəbdən, dərsliklərin yazılmasında tədris materialının məhdudluğu həmişə nəzərə alınmalıdır. Yəni bütöv dili heç zaman mənimsəmək olmur, onda hər zaman açılmamış səhifələr qalır.

Və nəhayət, hər bir dilin, o cümdədən xarici dilin əsas məziyyəti onun çoxşaxəli, çoxyaruslu struktura malik olmasıdır.

## VIII.3. Xarici dil dərslərinin əsas komponentləri

Məlumdur ki, xarici dilin tədrisində bir-birilə üzvü surətdə bağlı 4 mühüm komponent çıxış edir: 1) öyrəncil (şagird, tələbə); 2) öyrətmən (müəllim, hazırlanmış test, kasset, sidi və s. vasitəsilə dilin öyrədilməsi); 3) madditexniki baza; 4) proqram, dərslik və dərs vəsaiti. Çoxillik müəllimlik təcrübəmizdən çıxış edərək onlardan hər biri üzərində bir qədər geniş dayanaq.

1. Biz bilərəkdən burada öyrəncil birinci yerdə veririk. Çünki dilöyrənmədə əsas fəal kütlə öyrəncillərdir. Onlar bir növ bu prosesin yönəldiyi obyektdir. Onların münasibətindən, arzusundan, məqsəd və məramından çox şey asılıdır. Könüllü dilöyrənənlər, eləcə də valideynlərinin və dövlətin sifarişi və

maliyyə yardımı ilə xarici dili verbal ünsiyyət[16] məqsədilə öyrənənlər cəmiyyətin fəal hissəsini təşkil edir və onlar müəyyən uğurlar qazanırlar. Şübhəsiz, birinci növbədə öyrəncillərin maddi təminatı olmalıdır.

Öyrəncilin fəallığı cəmiyyətin ona qarşı irəli sürdüyü tələbdən asılıdr. O, rəqabəti, ədaləti, ona qarşı münasibətin hər zaman qərəzsiz olduğunu hiss edirsə və cəmiyyətin demokratikliyinə onda əminlik varsa, gələcək həyatında həlledici amilin həqiqi biliklə ölçüləcəyinə inam varsa, o bütün qüvvələrin səfərbər edib dil bilgilərini (competence) və danışıq vərdişlərini (performance) inkişaf etdirməyə çalışacaqdır. Başqa sözlə desək, cəmiyyətdə dilöyrənmənin motivi aydın olmalıdır ki, öyrəncil öz məqsəd və məramına çatmağa meylli olsun.

2. Tədrisdə, o cümlədən xarici dilin tədrisində, öyrətmən (müəllim) çox güclü faktordur. O, öz mülayim rəftarı və mədəni davranışı ilə nəinki tədris müəssisələrində, həm də cəmiyyətdə nümunə olmalıdır. O, dilin tədrisində pedaqoji ustalıq nümayiş etdirməli, didaktik priyomları yaxşı mənimsəməlidir. Öyrətmən pedaqoji məharətindən ustalıqla istifadə edərək çətini asan, mürəkkəbi sadə və öyrəncil üçüe qaranlıq qalan məsələləri yerindəcə açıb göstərməyi bacarmalıdır. O, öz öyrəncillərində tədris etdiyi dilə qarşı həvəs oyatmalı, onların fəallığını artırmalıdır. Pedaqoji fəaliyyətində öyrətmən daim axtarışda olmalı, dilçilik və pedaqoji ədəbiyyatı ardıcıl izləməli, geniş dünyagörüşünə və dərin erudisiyaya malik olmalıdır ki, istənilən vəziyyətdən çıxa bilsin. Öz elmi-metodiki təcrübəsini mətbuatda dərc etdirməli, həmkarları ilə tez-tez fikir mübadiləsi aparmalıdır. O, dilöyrənənlərin danışığında nəzərə çarpan hər bir yayınmanı tutmalı, düzgün variantı öz nümunəvi, səlist danışığı ilə düzəltməli, həssas eşitmə qabiliyyətinə arxalanaraq öyrəncillərin buraxdığı bütün səhvləri eşidib düzəltməli, onların bu prosesdə fəal iştirakını təmin etməlidir. Müəllim böyük təşkilatçılıq qabiliyyətinə malik olmalı, öyrəncilləri vahid bir ideya ətrafında birləşdirməli, öz işlərində ardıcıl və məqsədyönlü olmalıdır. O, iradəliliyi, qətiyyəti, tələbkarlığı, məsuliyyətliliyi və

səbrliliyilə dərs dediyi qrupun və ya sinfin hörmətini qazanmalıdır. Müəllim eyni zamanda ünsiyyətə girmək həvəsi və pedaqoji ustalığı ilə fərqlənməlidir (əvvəlcədən səhvləri görmək, öyrəncilə müəyyən tövsiyələr vermək, onların bacarıqlarını göstərməyə köməklik etmək və s.). Eyni zamanda o, öz yetirmələrinə və ətrafdakılara diqqətli olmalı və onlara qayğı göstərməlidir. Bütün bu yuxarıda sadalanan keyfiyyətlər o zaman özünü tam şəkildə büruzə verər ki, müəllim maddi cəhətdən təmin edilsin və heç kimdən və heç nədən asılı olmasın. Müəllimin mənən təmiz, qəlbən xeyirxah və ruhən vicdanlı olması cəmiyyətdə ona verilən qiymətdən asılıdır. İqtisadi cəhətdən asılı olmayan, mənən sıxılmayan, əqidəcə sərbəst olan müəllim öz peşəsilə fəxr edər.

3. Dilin tədrisi o zaman sevindirici nəticə verər ki, tədris prosesi işıqlı, qışda isti, yayda sərin otaqda keçsin. Qışda üst paltarını soyunmaq üçün qarderob olsun, müasir yazı taxtası, rəngbərəng ştiftlər, kağız lövhələr, foliyaları göstərmək üçün hedproyektor, ən vacibi isə divara proyeksiya verən avadanlıqla təmin edilmiş kompüter, disket, sidi, maqnitofon, mikrofon, diktofon, boşqab antenalı televizor, surətçıxardıcı aparat, digər əyani vəsaitlər, işıqlı, geniş və internet xidmətli oxu zalı, zəngin, müasir elmi-nəzəri ədəbiyyatla təchiz edilmiş kitabxana və s. bugünki xarici dil tədrisinin ayrılmaz tərkib hissələri olmaqla onun maddi-texniki bazasını təşkil edir.

4. Proqram, dərslik və dərs vəsaiti xarici dilin tədrisində çox mühüm rol oynayan amillərdəndir. İllərin sınağından uğurla keçmiş proqram və onun əsasında yazılmış dərsliklər xarici dillərin tədrisindəki müvəffəqiyyətlərin rəhnidir. Proqrma quruluşca sadə və məzmunca dolğun olmalıdır.

Proqramdan söhbət düşəndə görkəmli Azərbaycan alimi M.T.Tağıyev (1921-1994) deyirdi ki, yaxşı proqram olsa, dərslik yazmaq bir o qədər də çətin deyil.

Orta və ali məktəblərdə german dillərinin tədrisi problemlərilə Respublikamızda x/d-in tədrisi metodikası kafedrası məşğul olmuşdur. Bu kafedranın ilk yaradıcılarından biri və uzun

müddət ona rəhbərlik etmiş görkəmli metodist-alim T.R.Əhmədovadır (1924).[17]

İngilis və alman dillərindən həm orta məktəb, həm də ali məktəb üçün xeyli dərslik və dərs vəsaiti hazırlanıb və çap olunub. Tanınmış dərslik və dərs vəsaitləri müəlliflərindən C.M.Cəfərovun, H.M.Nağıyevanın (1925-1996), O.İ.Musayevin (1929), Ə.L.Əliyevanın (1930) və s.-in adlarını bu gün böyük iftixar hissilə çəkirik.

Hazırda mövcud olan proqram, dərslik və dərs vəsaitləri bizim üçün bir örnəkdir. Lakin müasir elmi-nəzəri və didaktik-metodik tələblərə cavab verən proqram, dərslik və dərs vəsaitlərinin yazılıb hazırlanması indiki və gələcək nəsillərin ümdə vəzifəsi olmalıdır.

## VIII.4. Geoman dillərinin Azərbaycanda öyrənilməsi tarixindən

Azərbaycanda german dillərinin tədrisi və tədqiqi böyük tarixi keçmişə malikdir. Burada hərtərəfli məlumat vermək fikrində deyilik. Bunun üçün ciddi araşdırmalar aparılmalıdır. Bu bölmədə biz sadəcə olaraq german dillərinin Respublikamızda tədrisi və tədqiqi məsələlərindən qısaca söhbət açmaq istəyirik.

İlk öncə qeyd edək ki, bu dillərin tədrisi və tədqiqi bir sıra işıqlı ziyalıların adı ilə bağlıdır. Onlardan C.M.Cəfərovu, R.Ə.Qayıbovanı (1900-1969), N.H.Ağazadəni (1910-1979), F.Ə.Kazımovu (1925-1989), L.Y.Barsuku (1916-1977), Ə.Əliyevi (189801967), S.Ə.Pepinovanı (1929-2001) və s.-ni göstərmək olar.[18] Bu alimlər intensiv tədqiqat aparmaqla yanaşı, uzun müddət ingilis və alman dillərini gənclərimizə öyrədiblər. C.M.Cəfərov, R.Ə.Qayıbova, N.H.Ağazadə uzun illər elmin və tədrisin qaynar mərkəzi olan kafedralara rəhbərlik edərək gənc nəslin yetişməsində şam kimi əriyiblər. Onlardan sonrakı nəslin nümayəndələrinə O.İ.Musayevi, T.İ.Hidayətzadəni, Z.N.Verdiyevanı (1935), Ə.L.Əliyevanı, S.M.Babayevi, F.Ə.Seyidovu (1930), C.M. Axundovu və s.-ni aid etmək olar.[19]

Hazırda Respublikamızda ingilis dilinin üslubiyyatı, alman və Azərbaycan dillərinin müqayisəli-tipoloji tədqiqi, habelə, müxtəlif sistemli dillərdə qarşılıqlı-tutuşdurma metodu ilə kontrastların öyrənilməsi problemləri germanistikanın aparıcı sahələrindəndir[20] və həmin dillər üzrə kadrlar hazırlığında ardıcıl iş gedir.

İndi Respublikamızda german dillərindən yüzlərlə mütəxəssis dərs deyir, təkcə Azərbaycan Dillər Universitetində bu ixtisas üzrə 10 kafedra fəaliyyət göstərir, bu kafedralarda xeyli elmlər namizədi-germanist çalışır, elmi-tədqiqat işləri aparır.

## VIII.5. Fəlsə dair yoxlama sualları və tapşırıqlar

1. Xarici dillərin öyrənilməsini vacib edən amillər hansılardır?
2. Xarici dil konsepsiyası necə olmalıdır?
3. Respublikamızda dil siyasəti nədən ibarət olmalıdır?
4. Xarici dil fənninin özəllikləri hansılardır?
5. Xarici dillə ana dili arasında əlaqə necə olmalıdır?
6. Xarici dil tədrisinin komponentləri hansılardır?
7. Xarici dil müəlliminin keyfiyyətləri barədə nə deyə bilərsiniz?
8. Respublikamızda german dillərinin öyrənilməsi barədə nə deyə bilərsiniz?
9. German dilçiliyinə aid Azərbaycan alimlərinin əsərlərinin biblioqrafiyasını tərtib edin.
10. Azərbaycan germanistikasının öncül nümayəndələrinin albomunu hazırlayın.

[1] F.Yadigar. Müstəqillik və xarici dil: nəzəriyyələr və problemlər. Xəzər universitetində 20 may 1995-ci il tarixdə «Xarici dil tədrisinin nəzəri və rak-tik məsələləri» konfransındakı məruzənin qısa xülasəsi. Bakı, «Elm», 1995, s. 67-69; Ф.Я.Вейсалов. «Сувернитет и языковая политика Азербайджана». Сборник тезисов конференции. «Европейский год языков». М., 2001, с.22-24.

[2] Yenə orada, s. 67-68.

[3] R.Phillipson. Göstərilən əsər, s.67-68.

[4] F.Yadigar. Göstərilən əsər, s.67-68.

[5] V.Veysəlova. Uşaq dilinin yaranması və inkişafı problemləri. Nam. diss. avtoreferatı. Bakı, 2002, s.15.

[6] Л.В.Щерба. О взаимоотношениях родного и иностранного языка. В кн.: Л.В.Щерба. Языковая система и речевая деятельность. Л., 1974, с.341.

[7] Yenə orada, s.354.

[8] Yenə orada, s.363.

[9] Linguistik, Pzonetik und Sprachunterricht. Von M.A.K.Halliday, A.Mcintosh, P.Stevens. Heidelberg, 1972, s.91-92.

[10] N.S.Trubeskoy. Göstərilən əsər, s.65-70. Həmin səhifədə alimin fikri bizim təcrümədə belə səslənir: «Əcnəbi danışığına qulaq asıb onu təhlil edəndə istər-istəməx bizim üçün adi olan ana dilimizin «fonoloji ələyindən» istifadə edirik. Ancaq bizim «ələk» əcnəbi dilə yaramadığından külli miqdarda səhv və anlaşılmazlıq yaranır. Əcnəbi dilin səhvlərini biz düzgün şərh etmirik, çünki onları ana dilimizin «fonoloji ələyindən» keçiririk».

[11] Ətraflı məlumat almaq üçün bax: F.Yadigar. Göstərilən əsər, s.69.

[12] И.А.Зимняя. Психология обучениям иностранным языкам. М., 1991, s.28.

[13] V.Veysəlova. Uşaq dilinin formalaşması və inkişafı problemləri. Namizədlik dissertasiyasının avtoreferatı. Bakı, 2002, s.15.

[14] И.А.Зимняя. Göstərilən əsər, s.32.

[15] Л.В.Щерба. Göstərilən əsər, s.339-341.

[16] Fritz Leisinger. Elemente des neusprachlichen Unterrichts. Stuttgart, 1966, s.104-126.

[17] T.R.Əhmədova. Azərbaycan orta məktəblərinin (V-VII siniflərində) alman dili təsirli fellərinin idarəsinin tədrisi metodikası. Nam. dis., Moskva, 1954; T.Əhmədovanın proqram və dərsliklərin hazırlanmasında rolu böyük olub. 60-cı illərdə x/d üzrə ilk proqram çapdan çıxmışdır. Bak: Orta məktəbdə xarici dillərin tədrisi üzrə proqram. T.R.Əhmədovanın redaktəsi altında, Bakı, 1986; həmin proqramın yenidən işlənmiş variantı bizim redaksiyamızda 1992-ci ildə çapdan çıxıb. Ali məktəb üçün proqram haqqında

bax: T.İ.Hidayətzadə, A.Qarayev. İngilis dili proqramı (universitetin humanitar fakultələrinin gündüz şöbələri üçün). Bakı, ADU, 1980.

[18] Tam biblioqrafik göstəriciləri versək bu çox yer tutar, həm də bu bizi əsas məqsədimizdən yayındırar. Ona görə də burada və irəlidə adları çəkilən müəlliflərdən bir nümunə gətirməklə kifayətlənirik. Bax. Дж. М. Джафаров. О ектороых вопросах динамики и статики. «Уч. записки» АГУ, сер. «Язык и литература», 1968, № 5; R.Ə.Qayıbova. Azərbaycan ədəbiyyatı ingilis alimlərinin tədqiqatlarında (ingilis şərqşünaslarının XI-XVI əsr Azərbaycan şairləri haqqında baxışlarının tənqidi). Nam. diss., Bakı, 1948; Н.Г.Агазаде. Система глагольных наклонений в современном азербайджанском языке. Баку, 1967; Ф.А.Кязимов. Система гласных фонем азербайджанского языка. Известия Ан СССР. Отделение языка и литературы. М., 1952, т. XI, вып.4 (июль-август); Ə.Əliyev. Alman dilinin qrammatikası (morfologiya). Bakı, 1959; Alman dili. Bakı, 1963; С.А.Пепинова. Курс лекций по теоретической грамматике немецкого языка (морфология). Баку, 1964.

[19] O.İ.Musayev. İngilis və Azərbaycan dillərində söz sırası. Bakı, 1960; İngilis dilinin qrammatikası, Bakı, 1986; F.Seyidov. Azərbaycan müəllimlərinin hazırlanmasında Qori seminariyasının rolu. Nam. diss., Tbilisi, 1962; İ.Rəhimov, T.Hidayətzadə. İngilis dilinin qrammatikası, Bakı, 1966; З.Н.Вердиева. Сравнительно-сопоставительное исследование семантической сочетаемости прилагательных в современном английском и азербайджанском языках. Автореферат док. дисс. Баку, 1970; Л.Ю.Барсук. Основы обучения иностранным языкам в национальной аудитории. Автореферат док. дисс., М., 1967; Ə.L.Əliyeva. Die deutschen Femininasuffixe und ihre Äquivalente im Aserbaidshanischen. Berlin, 1961; S.M.Babayev. Müasir Azərbaycan və ingilis dillərində feli bağlama tərkibli sadə nəqli cümlələrin intonasiya xüsusiyyətləri. Nam. diss., Bakı, 1966. Дж.Ахундов. Вопросительные предложения в ангийском и азербайджанском языке. В.сб.: «Контрастивная фонетика», Бакы, АДУ, 1986.

[*20] М.Т.Гайыбова. Коммуникативные аспекты изображения речемыслительной деятельности персонажа в структуре текста. Бакы, 1987; S.Ə.Abdullayev. Müasir alman və Azərbaycan dillərində inkarlıq kateqoriyası. Bakı, 1998; F.Yadigar. Fonetika və fonologiya məsələləri. Bakı, 1993; Yenə həmin müəllif. German dilçiliyinə giriş. Bakı, 2001.

# Şəkillər




*Şəkil 1. Ünsiyyətin modeli.*



*Şəkil 2.*
*1. Burun boşluğu;*
*2. Sərt damaq;*
*3. Dil;*
*4. Qalxanvari qığırdaq;*
*5. Səs telləri;*
*6. Qırtlaq;*
*7. Ciyər;*
*8. Döş qəfəsi;*
*9. Qida borusu;*
*10. Üzükvari qığırdaq;*
*11. Xirtdəküstü;*
*12. Dilaltı sümük;*
*13. Yumşaq damaq (damaq pərdəsi).*

*Şəkil 3.Xirtdəyin qabaqdan kəsiyi.*
*1. Həqiqi səs telləri;*
*2. Səs telləri;*
*3. Yalançı səs telləri;*
*4. Qalxanabənzər vəzi;*
*5.Üzüyəbənzər vəzi;*
*6. Nəfəs borusu*






*Şəkil 4. Xirtdəyin irəlidən və arxadan görünüşü.*
*A – 1. Qalxanabənzər vəz; 2. Üzüyəbənzər vəz; 3. Dilaltı sümük; 4. Liflər; 5. Qalxanabənzər və üzüyəbənzər vəzləri birləşdirən liflər; 6. Nəfəs borusu.*
*B – 1. Qalxanabənzər vəz; 2. Üzüyəbənzər vəz; 3. Qalxanabənzər üst vəzin buynuzu; 4. Qalxanabənzər vəzin alt buynuzu; 4. Çalovabənzər vəz; 6. Xirtdəküstü.*




*Şəkil 5. Xirtdəyin köndələninə kəsiyi.*
*1. Qalxanabənzər vəz; 2. Çalovabənzər vəz; 3. Səs tellərinin kənarları; 4. Səs cığırı.*




*Şəkil 6. Səs cığırının müxtəlif vəziyyətləri.*
*a – kipləşmə; b – pıçıltı; v – səs; q – nəfəsalma; d – nəfəsvermə.*



[b, p, v, f, m] *samitlərinin rentgenoqramları*



[j, ç] *saitlərinin rentgenoqram və palatoqramı*

*Şəkil 7. Dodaq və dilortası samitlər.*




*Şəkil 8. Dilönü saitlərin rentgenoqram*
*və palatoqramları.*



*Şəkil 9.* [k, g, x, ŋ] *və* [H] *samitlərinin rentgenoqram və palatoqramları.*



*Şəkil 10. Alman dilində* ǀy:ǀ, ǀyǀ, ǀϕ:ǀ, ǀœǀ, ǀo:ǀ, ǀuǀ, *və* ǀvǀ *saitlərinin retgenoqramları və palatoqramları.*




*Şəkil 10a. Alman dilində* |i:|, |⊥|, |e:|, |ε|
*saitlərinin retgenoqram və palatoqramları.*



*Şəkil 12. Alman dilində orta sıra saitləri:* |e:, ε, ɸ:, y:, œ|.



*Şəkil 11. Alman dilində ön sıra saitləri:* ׀i: ⊥, y:, y׀.




*Şəki 13. Alman dilində arxa sıra saitləri:* |o:, ⊃, u:, v, a:, a|.




*Şəkil 14. Azərbaycan dilində* [e] *(solda) və alman dilində* [e:] *(sağda) saitlərinin rentgenoqramları.*




*Şəkil 16. Dil səsləri: a) saitlər; b) sonor və cingiltili samitlər; v) novlular; q) karlar.*




*Şəkil 17. Cismin (səs tellərinin) titrəməsi.*



a) səsin spektri;



b) (hərəkət) və (qəbul) sözlərinin kimoqramları




*Şəkil 18.*
*v) saitlərin osilloqramı; q)* [ħ$^{v}$lms $^{y}$nd $^{i}$] *sözünün ossiloqramı.*



*Şəkil 19 a. – [duş] və [duz] sözlərinin ossiloqramları; b – ayrı-ayrı cümlələrdən götürülmüş söz və söyləmlərin ossiloqramları,* [e$^{v}$xыp], [ad$^{i}$], [eşk], [sayı], [bij], [olm$^{v}$ja oldu$^{1}$], [onu$^{ы}$], [xos$^{v}$bəxt], [ç$^{v}$ox], [ʏzʏm]




*Şəkil 20 a. – saitlərin ani spektri; b – saitlərin dinamik spektri;*
*v - /das ist mein Neuhaus// cümləsinin sonoqramı.*



A.Alman dilində Pfaltser, Adel, Koffer, Ofen, öde, öffnen, Ufer, İktus über, üppig, Ebbe, İgel sözlərinin spektoqramları.

B. Azərbaycan dili saitlərinin ayrılıqda tələffüzündən alınmış spektroqramlar. B. [ot], [eSk] [æks], [arx], [elxan] və (eldar) sözlərinin spektroqramları.



*Şəkil 21. Sözlərin və ayrıca tələffüz olunmuş saitlərin spektroqramları*




*Şəkil 22. Eşitmə cihazı.*

*1. Qulaq seyvanı; 2. Eşitmə kanalı; 3. Qulaq pərdəsi; 4. Çəkiccik; 5. Zindan; 6. Üzəngi; 7. Eustax borusu; 8. Yarımdairəvi kanal; 9. Önaçıqlıq; 10 İbbiz; 11. Əsas membran; 12. Eşitmə sinirləri.*




*Şəkil 23. Dil səslərinin insan beynində paylanması*



*Şəkil 24. Saitlərin formant zonalarını göstərən şəkil.*




*Şəkil 25. Alman dilində* [bi, ba, bu] *hecalarının sonoqramları.*




*Şəkil 26. Alman dilində* [di, da, du] *hecalarının sonoqramları*




*Şəkil 27. Alman dilində* [gi, ga, gu] *hecalarının sonoqramları*




*Şəkil 28. Alman dilində* [fi, fa, fu] *hecalarının sonoqramları*




*Şəkil 29. Alman dilində* [si, sa, su] *hecalarının sonoqramları*




*Şəkil 30. Alman dilində* [zi, za, zu] *hecalarının sonoqramları*




*Şəkil 31. Azərbaycan dilində* [a, o, u, ı] *saitlərinin spektroqramları.*




*Şəkil 32. Azərbaycan dilində* [e, æ, ø, i, y] *saitlərinin spektroqramları.*

# Ad göstəriciləri


| | |
|---|---|
| K.M.Abdullayev | 301 |
| N.H.Ağazadə | 367 |
| A.A.Axundov | 71 |
| C.Axundov | 71, 368 |
| M.Ə.Abbasova | 152 |
| İ.Adelunq | 28, 143 |
| V.Q.Admoni | 296, 304, 310, 325, 330 |
| Aristotel | 20, 21, 72 |
| Anton Arno | 27 |
| Appolonius Dysclus | 23 |
| S.M.Babayev | 71, 367 |
| L.Y.Barsuk | 367 |
| O.Behaqel | 302, 303, 306 |
| Y.T.Bekanus | 45 |
| K.F.Beker | 302 |
| R.Bekon | 25 |
| E.Benvenist | 15, 46 |
| M.Birviş | 305 |
| Blox | 208 |
| L.Blumfild | 149, 159, 160, 207, 209, 295, 304, 323 |
| İ.A.Boduen de Kurtene | 14, 23, 34, 35, 36, 52, 53, 54, 56, 64, 72, 181, 204, 205, 207, 208, 214, 215, 275, 304 |
| V.A.Boqoroditski | 214, 215 |
| K.Boost | 304, 307 |
| L.V.Bondarko | 204 |
| F.Bopp | 29, 33, 34, 60, 104, 106 |
| H.Brinkman | 286, 304, 305, 316 |
| K.Bruqmann | 62 |
| S.K.Buliç | 214 |
| L.B.Buranov | 71 |
| K.Büler | 40, 304, 306 |
| C.M.Cəfərov | 71, 367 |

| | |
|---|---|
| A.S.Cimson | 233 |
| S.V.Cons | 104 |
| S.Conson | 82 |
| D.Counz | 85, 204, 206, 207, 208, 211, 216, 222, 233 |
| Ç.Darvin | 55 |
| B.Delbrük | 62 |
| K.Duden | 143 |
| Demokrit | 17 |
| E.Drax | 304 |
| Y.Erben | 155, 305, 306, 307, 313, 316, 330 |
| O.Erdmann | 299 |
| O.fon Essen | 255 |
| T.R.Əhmədova | 366 |
| Əli ibn Sina | 24 |
| Ə.Əliyev | 367 |
| Ə.L.Əliyeva | 367 |
| Q.Fant | 196 |
| İ.S.Fater | 28 |
| M.Filip | 233 |
| C.R.Firs | 210, 211 |
| W.Fiyetor | 85 |
| V.Flayşer | 155 |
| T.Frinqs | 170 |
| Ç.Friz | 304, 305, 318 |
| C.Furke | 304 |
| M.Halle | 196 |
| Z.Harris | 57 |
| Q.Hegel | 55 |
| H.fon Helmhols | 194 |
| E.Henqel | 156 |
| Heraklit | 17 |
| Y.Q.Herder | 28 |
| T.I.Hidayətzadə | 71, 367 |
| Hofmann | 11 |
| Ç.F.Hoket | 205 |
| V.fon Humboldt | 33, 34, 35, 36, 52, 60, 75 |

| | |
|---|---|
| E.Husserl | 160 |
| N.Xomski | 9, 40, 73, 74, 282, 296, 298, 305, 321, 324, 363 |
| A.V.İsaçenko | 71 |
| V.M.Cirmunski | 115 |
| F.Ə.Kazımov | 367 |
| S.N.Karsevski | 53, 304 |
| Kardinal Rişelyü | 27 |
| M.Kaşqarlı | 24, 28 |
| Andreas Kemke | 44 |
| D.Kleman | 153, 264, 265 |
| Klod Lanslo | 27 |
| Kondilak | 45 |
| E.Koseriu | 74, 75, 77, 155, 161, 168, 169, 213, 234, 235 |
| H.Kraye | 112 |
| D.Kristal | 49 |
| N.Kruşevski | 54, 64, 214, 215 |
| N.Ş. Kukiranov | 215 |
| M.S.Kuznetsov | 200 |
| Q.O.Kurme | 302 |
| Q.fon der Qabelents | 76 |
| R.Ə.Qayıbova | 367 |
| A.Qardiner | 74, 304 |
| H.Qlins | 272, 302, 304, 305, 306, 318 |
| H.Qlisson | 295 |
| P.Qrebe | 316 |
| Y.Qrimm | 9, 30, 31, 33, 106, 294, 295, 298, 299, 304 |
| K.Qussenhoven | 233 |
| A.Laçerda | 202 |
| Q.V.Laybnits | 29 |
| C.Layons | 14, 18 |

| | |
|---|---|
| A.Leskin | 53, 214 |
| M.Lomonosov | 29 |
| M.Lüter | 136 |
| Ute Maas | 263, 264 |
| Y.N.Madviq | 75 |
| V.Mayer | 170 |
| A.Martine | 65, 201 |
| Y.S.Maslov | 275, 288 |
| V.Matezius | 345 |
| C.Məmmədquliyev | 71 |
| P.Menserat | 202 |
| R.Merinqer | 170 |
| P.H.Metyuz | 274 |
| H.Mozer | 148 |
| C.Morris | 38 |
| N.Morçinyes | 226 |
| V.Moç | 305 |
| O.I.Musayev | 271, 367 |
| E.A.Nayda | 149 |
| H.M.Nağıyeva | 367 |
| H.Osthoff | 63 |
| Panini | 16, 17 |
| P.S.Pallas | 28 |
| P.Passi | 85 |
| H.Paul | 56, 62, 63, 294, 295, 300, 301, 302, 304 |
| N.Pflayderer | 304 |
| N.Pelts | 167 |
| S.Ə.Pepinova | 367 |
| Ç.Pirs | 38 |
| A.M.Peşkovski | 295, 308 |
| Y.D.Polivanov | 54, 214 |
| Q.Q.Poçepsov | 334 |
| Platon | 17, 20, 21, 23, 72 |
| V.V.Radlof | 215 |

| | |
|---|---|
| R.Rask | 30, 33, 59, 106 |
| R.fon Raumr | 57 |
| A.A.Reformatski | 42 |
| Russo | 45 |
| F.Ə.Seyidov | 367 |
| J.M.Simpson | 271 |
| E.Sivers | 37, 51, 204, 258 |
| P.P.Smirnov Troyanski | 69 |
| A.İ.Smirnitski | 126, 150 |
| Filippo Sossetti | 104 |
| F. de Sössür | 14, 15, 35, 38, 39, 40, 41, 43, 52, 53, 54, 72, 73, 74, 75, 80, 234, 151, 161, 168, 202, 302, 304 |
| T.V.Stroyeva | 326 |
| H.Svit | 271 |
| M.Svodeş | 205 |
| L.V.Şerba | 53, 54, 57, 215, 204, 205, 208, 214, 215, 216, 271, 274, 349, 358, 363 |
| Şirazi Firuzabadi | 24 |
| A.Şlayxer | 33, 34, 36, 53, 55, 62, 63, 114, 214 |
| A.V. fon Şleqel | 34 |
| Fridrix fon Şleqer | 29 |
| Y.Şmidt | 33, 109 |
| H.Ştayntal | 33 |
| H.Şuxart | 109, 170 |
| M.T.Tağıyev | 366 |
| Tatsitus | 114 |
| L.Tenyer | 337, 350 |
| H.J.Tillmann | 194 |
| A.Tomson | 202 |
| D.Traks | 23, 24, 26 |
| T.L.Treqer | 206 |

| | |
|---|---|
| Y.Triir | 167, 169, 305, 317 |
| N.S.Trubeskoy | 34, 52, 65, 67, 159, 200, 205, 206, 207, 209, 215, 231, 252, 359 |
| Z. Hərris | 57 |
| Q.K.Tsipf | 67 |
| E. və K.Tsvirner | 67 |
| V.F.Tvoddel | 205 |
| V.S.Uitni | 45 |
| Varro | 21 |
| H.Vayd | 156 |
| Karl Vaynhold | 117 |
| L.Vaysqerber | 25, 167, 169, 305, 316, 317, 318 |
| Z.N.Verdiyeva | 367 |
| K.Verner | 31 |
| V.Veysəlova | 361 |
| L.S.Vıqotski | 361 |
| Vulfil | 118, 119 |
| V.Vundt | 62 |
| H.Vunderlix | 299, 300 |
| F.Yadigar | 297 |
| R.O.Yakobson | 53, 65, 196, 214, 215, 262 |
| N.F.Yakovlev | 204 |
| L.Yelmslev | 148, 163, 169, 214, 323 |
| O.Yespersen | 55, 85, 204, 255, 304 |
| T.Zibs | 51, 143 |
| L.R.Zinder | 214, 220, 235, 255, 265, 295, 326 |

# Fənnin özək sözləri


| | |
|---|---|
| ablaut,111, 112, 113 | arxa sıra,236 |
| abruptiv,197 | arxaizm,148 |
| abstrakt,148, 209 | arxifonem,205,207, 252, |
| açıq sait,191 | avtonomluq,14 |
| ad,17,21,300,303 | avtosemantik,218,276 |
| adyunkt, 347 | Azərb.dili, 19,41,68,70,261,297 |
| affiks,153 | azəri türkcəsi, 77, 360 |
| afrikat,186 | baza, 178 |
| aqens,331 | baltik,61,105 |
| ağız,191,199 | bağlayıcı,21,306 |
| ahəng qanunu, 108 | bask dili,27,35 |
| ahənglik,70 | bemol,198 |
| aydın, 197 | bilinqvizm,71,264 |
| aqqlütinativ,55 | bioloqizm,62,63 |
| aksent(ologiya),108,260 | bilavasitə tərkiblər,318,319,323 |
| aktiv,22,111 | birinci (və ya german) fonem |
| aktant,340 | irəli çəkilməsi,30 |
| aktual üzvlənmə,64,344 | bolqar,60 |
| akus(tik)ma,193,215 | böyük fasilə,86 |
| akuzativ,119,273 | burun,185,190,199 |
| alban,61 | cingiltili,30,32,188,197 |
| alçaq,198 | cins kateqoriyası,273, |
| allofon (morf), 222,223,224,278 | cümlə (ara),40,59,296,312,321 |
| allofonik, 84 | cümlə tipologiyası,326,329 |
| alman dili,13,29,31,33,48,49,57,58 | cümlə haqqında təlim,272 |
| 68,70,134,294,295,305 | çin dili,34,45 |
| alınma söz,63,148,166 | çoxyaruslu (şaxəli),364 |
| alternasiya,251 | daxili fleksiya, 272 |
| amalqam,85,150 | Danimarka dili,44,60 |
| amorf,55,60 | danışıq,35,42,66,75,172,312 |
| ana dili, 48,49,70,363 | daç,13,31,128 |
| analitik,60,323 | davamlı,197 |
| analitizm, 110 | delimitativ,262 |
| analiz,69 | demarkativ,262 |
| analogiya, 20,21,23,53,63,300 | denotat,163,164 |
| analoqist,20,23 | derivativ,154 |

| | |
|---|---|
| anqlo(friz)saks,27,115,116 | deskriptiv,21,301,318 |
| anomaliya,21,20,22,23,300 | determinant,159,174 |
| apikal,183 | determinativ,349 |
| araşdırma-açma dili,360 | dominant,343 |
| artikulator,178 | diafatik,77,78 |
| | diaxron,64 |
| aspekt,178,325,329,330 | diaxronik,41,64,165,169,170, |
| artikl,111,142,299 | diakritik,93 |
| | dialektizm,87 |
| | dialekt,37,75,148 |
| | faktitiv,332 |
| | fel (qüvvətli, zəif),17,21,25,299 |
| dialektologia,75 | fin dili,29 |
| dialoji,46 | fonem,32,46,54,105,107,116,130, |
| diastratik,77,78 | 139,163,169,204,207,214,223 |
| diatopik,77 | 225,231,250,275,296,358,361 |
| didaktik,358,359 | fonem ardıcıllığı,275 |
| diffuz,197,198 | fonem haqqında təlim,272 |
| diftonq,100,119,131,137,141,226 | fonem əvəzlənməsi,252,272,276 |
| dixotomik,183 | fonematiklik,361 |
| dil (davranış),14,54,74,118,172,360 | fonemik,15,36, |
| dilarxası,61,184 | fonomorfoloji,84,85 |
| dilçək,184 | fonetik,58,77,109,155,160,275,309 |
| dilçilik,13,15,41,52,56 | fonetika,16,25,60,202,294,295 |
| dildaxili,107 | fono(morfo)logiya,53,202,205,215 |
| dilönü,131,183 | fonoloji,70,85,119,139,274,296,359 |
| dilortası,184 | fonoqrafik,80 |
| dilöyrənmə,358,364 | fonosemantik,18 |
| dinamik,54,107 | fonosemantika,18 |
| diskret,42,251 | fonotaktik,253 |
| distant,150 | forma haqqında təlim,64,119,318 |
| distinktiv,259,262 | formal,273,274,294 |
| distribusiya,158,159,250 | fortis,199 |
| məhdud distribusiyalı,250 | fleksiya,25,34 |
| q/məhdud distribusiyalı,250 | flektiv,55,105,123,359 |
| distributiv təhlil metodu,66,250 | fransız dilii,16,24,34,44,55,305 |
| diyez,199 | frikiya dili,44,45 |
| dualis,110,111,120,141 | fundamental dil,360 |
| dubletlər,165,166 | funksiya,15,36,110,221,346,347 |
| düzəltmə,149,152,155 | funksional metod,64,66,72,330 |

| | |
|---|---|
| ellipsis,315 | genetik,33,104 |
| elliptik,329 | genitiv,110,132 |
| emotiv,160 | gənc qrammatikçilər,37,54,55,56, |
| enerqeya,75 | german dilləri,13,59,104,230 |
| entropiya,68 | germanist,12,58,62,153 |
| erqon,75 erməni dili,61 | germanistika,13,158,294,300,302 |
| etiket,361 | gürcü dili,360 |
| etimo(n)logiya,13,32,151 | herminon,128 |
| etnopsixologizm,35 | het dili,61,62 |
| ədat,17,159 | həbəş dili,26,44,45 |
| ədəbi dil,126,136 | həmahənglik,70 |
| ənənəvi,22 | heca (açıq,qapalı),255,257, |
| ənənəvi dilçilik,22,36,72,83 | hierarxiya,210 |
| ərəb,24,26,33,60 | hind (-Avropa, germ.) dilləri, 33, 104, 108 |
| əsas,158 | hiperfonem,252 |
| əvəzlik,23,158,300,303 | holifrastik,297 |
| əvəz(etmə)lənmə,17,158,252 | xarici dil,49,297,356,359,362 |
| xəbər(mərkəzi),300,322 | kakuminal,183 |
| xronologiya,112 | kar,30,188,192 |
| idarə əlaqəsi,336,338 | keçmə,129 |
| ideoqrafik,80 | söz,167 |
| ifadə edən,41,170 | keyfiyyət,111 |
| ifadə edilən(olunan),41,161 | kelt dili,61,109 |
| ixtiyari,19,38,41 | kentum,61 |
| ixtiyarilik,58 | kəmiyyət,111 |
| ikinci (və ya alman) fonem dəyişikliyi, 31 | kəmiyyət kateqoriyası,273 |
| ikonlar,37 | kəskin,197 |
| illir dili,61 | kibernetika,68 |
| iltisaqilik,70 | kiçik fasilə,86 |
| imperativ,120 | kinema,215 |
| indikativ,120 | knaklaut,220 |
| inqevonlar,127 | koartikulasiya,178 |
| infiks,153 | kommutasiya,275 |
| infinitiv,112,133 | kompakt,163,197,198 |
| ingilis dili, 19, 29, 32, 51, 77, 121, 277, 309, 339 | kompensasiya,308 |
| inherent,261 | kompetensiya,271 |
| intensivlik,308 | kompozit,150,153,154 |

| | |
|---|---|
| interferensiya,359 | koordinativ,154 |
| intonasiya,260,295,307,309,315 | konnotat,163 |
| invariantlıq,66 | köməkçi,25,164,349 |
| inventar,230,253 | köməkçi sözlər,158,164 |
| instrumentalis,110,119 | konfrontativ,34,71 |
| isim,25,286 | konqressiv,154 |
| ispan,29 | konnotat,163 |
| isveç dili,121 | konstant,263 |
| işarə,19,39,40,41,42,45,52,168,172 | konstituent,263,347 |
| işarəvilik,41 | konstitutiv,263,347 |
| italyan,29,59 | konstruksiya (çərçivə),310,318 |
| qapalı,191 | kontrastiv,71,307,361,367 |
| qarışıq,85 | Koreya dili,34 |
| qarşıdurma,70,234 | kulminativ,263 |
| qarşılaşdırma,273 | kvaziomonim,167 |
| qarşılaşdırma (oppozisiya),70,235 | lay,71 |
| qarşılaşdırma-tutuşdurma metodu,70,367 | latın dili,24,25,26,27,41,78, |
| qarşılıqlı,19 | lateral,183 |
| qaydalı,20,21 | latış dili,29 |
| qaydasız,20,21 | leksem,212,275,283 |
| qlossar,16 | leksik,60,70,149,150,151,362 |
| qot dili,30,31,60,115,118 | leksik həmrəylik,168 |
| qrafem,80 | leksikoqrafiya,25,171 |
| qramem,273 | lenis,199 |
| qrammatika,28,36,59,66,77,295,300 | linqvistik(a),15,204 |
| qrammatik,25,49,60,72,105,124,272, | litov dili,59,60 |
| 273,274,294,362 | |
| | loqistsizm,62 |
| | lokativ,332 |
| lokus,196 | nüvə,311,313 |
| lüğət,24,51,67,70 | obtativ,111,120 |
| lüğət tərkibi,148 | obyekt,14,42,43,364 |
| macar,29 | onomotopoea,18 |
| mancur,29 | önsıra,236 |
| marginal,170 | oral,185 |
| məcazi,149,155,157 | orta yüksəlişli,191 |
| məfhum,25,74,76,163,294 | orta sıra,236 |
| məna,149,155,157,172,173,174,275 | paradiqm,142,276 |
| mənanın daralması,165 | paradiqmatik,38,65,158,167,205 |

| | |
|---|---|
| genişlənməsi,165 | parsellasiya,302,315 |
| pisləşməsi,165 | partikl,298,340 |
| yaxşılaşması,165 | partsipient,340 |
| mənimsənilmə,356 | passiv,22,111 |
| məzmun qrammatikası,317 | periferik,170 |
| mentalist,205,207 | perfekt,111,142 |
| metod,108,305 | perfomans,77,118 |
| modallıq,322,323,348 | period,330 |
| modal sözlər,330 | pluraliatantum,274 |
| modifikasiya,156 | polilinqvizm,359 |
| monqol dili,29 | pozitivizm,35,55 |
| monoftonq,92,138 | predikat,23, |
| morfem,29,46,54,60,147,271,272,274 | predmet,45 |
| morfem sərhədi,276 | prefiks,105,153 |
| morfemika,271 | prefiksləşmə,157 |
| morfologiya,271,272,294,295 | presuppozisiya,334 |
| morfoloji,67,70,83,113,121,158 | preterito-prezentia,112,133 |
| morfonologiya,84,108,110,119,137,215 | preskriptiv,21 |
| murmellaut,88 | prezens partisip,11,112,120,133 |
| müqayisəli,28 | priyom,365 |
| mürəkkəb söz,151 | propozisiya,333 |
| tərkib,154,155 | prosodiya,264,255,264,295 |
| müstəqil mənalı söz,149,155,157 | proto-hind-Avropa dili,55 |
| naturalist,20 | psixofiziki,62 |
| nazal,185 | psixoloji,62,294,300,301 |
| nəfəsli,30 | psixoloji predikat,300 |
| nəfəssiz,30 | subyekt,3001 |
| nenes dili,60 | psixologiya,55 |
| neoloqizm,63,148 | psixologizm,62,71 |
| neytral,160 | reduksiya,108,119 |
| neytrallaşma,252 | redundant,68 |
| nişanlar,37 | referensiya,332 |
| nominasiya,150 | referent,150,161 |
| nominal,120 | refleksiya,111 |
| nominativ,273 | relevant,68,158,206 |
| normal,278,224 | rema,345 |
| novlu,30,32,90,186 | ritm(ik),209,295,297 |
| riyazi-statistik metod,6 | sözvermə,34 |
| roman dilləri,60 | söz vurğusu,86 |

| | |
|---|---|
| romantizm,27 | söz sırası,113,123,296,302,319,339 |
| rus dili,41,48,295,320 | skadinavistika,14,32 |
| sait,17,42,52,58,181,194 | slavistika,14,32 |
| samit,42,44,47,59 | slavyan dilləri,32,60,61 |
| sahə dili,50 | statik,54 |
| nəzəriyyəsi, 305,317 | stoiklər,22,23,25,72 |
| sazişçilər,20 | struktur,16,64,75,271,298,359,362 |
| sanskrit,16,17,30,55,104 | (dərindəki),321 |
| satem,61 | (üzdəki),321 |
| səviyyə,42,70 | strukturalizm, 35,64,295 |
| seqment (superseqment),210,255 | struktur-funksional metod,63 |
| sem,163,169,172,275 | suaxili,60 |
| semantik,40,80,208,331 | substansiya,64,343 |
| semasiologiya,165,171 | substantiv, |
| semiotika,37,39,80 | substrat,107,109 |
| semit dilləri,25 | substitutsiya,158 |
| siqnal,46 | subyekt,23 |
| siqnifie,161,166,179 | suffiks,111,123 |
| siqnifikant,161,162 | superstrat,109 |
| simvol,45 | suppletivizm,60 |
| sillabik,80 | sürüşkən,196 |
| simmetriya,81,172 | süzülən,112,187 |
| simvolika,18 | tamamlıq,342 |
| sinfatik,78 | tarixi-müqayisəli metod,59,60,61 |
| sinxron,64,65 | tema,307,345 |
| sinxronik,41,65,170,298 | tərkiblər (bilavasitə),24,34,152,318 |
| sinqulariatantum,274 | tərcümə (maşınla və avtomatik),69 |
| sinonim,166,173,174 | təsirli,22 |
| sinoloq,76 | təsirsiz,22 |
| sintaqm,80 | təsviri,294 |
| sintaqm(atik),38,39,64,168,258,274 | tətbiqi dilçilik,49,54,72,359 |
| sintaksis,271,272,274,302,304 | təyin,314 |
| sinsemantik,149,212 | təyin edən söz,153,156 |
| sinstratik,77,78 | təyin olunan söz,153,156 |
| sintaktik,70,113,121 | tipologiya,14,72,322,328 |
| sintetik,105,323 | titrək,186,188 |
| sintez,60,69 | toxar,61 |
| sintopik,77,78 | ton,209,307,308 |
| sirkonstant,343 | törəmə qrammatikası,69,296,321 |
| sistem,41,64,119,139,205,278,298,359 | transfer,359 |

| | |
|---|---|
| söz (ara),64,105,108,148,210,296,302 | transformasiya,321 |
| sözalma,34 | transkripsiya,70,84,85, |
| sözönü,17,23,306 | transliterasiya,71 |
| söz-cümlələr,361 | udlaq,154 |
| sözdəyişmə,274,295 | ulu dil,59,62,109 |
| sözdüzəltmə,29,111,169,275,295 | umlaut,108,119,130,138,142 |
| unifikasiya,138,139,258 | ünsiyyət,38,40,43,46,70,178,360,361 |
| ünsiyyət dili,360<br>ünsiyyət aktı,362<br>ünsiyyət funksiyası,313,363<br>ünsiyyətin sıxlığı,362<br>uzlaşma,337<br>üzdəki struktur,321<br>üzvlənmə,54,64,294,301,344,346<br>valentlik,279,341<br>variant(mövqe,kombinator,fakültativ), 86,220,223,227,251,273<br>variantlıq,66<br>variativ,45<br>variativlik,279<br>verbal ünsiyyət,364<br>verbosentrik konsepsiya,340<br>vurğu,122,258,260,261,308<br>vurğulu,122,261<br>vurğusuz,261<br>vokativ,119 yakut dili,60<br>yanaşma,153,339<br>yuxarı,191, yakut dili, 60<br>yüksək,198<br>yunan,22,26,34,55,60<br>zaman,307,308<br>zend dili,60<br>zərf,23,302 | |

## Biliklərin dərinləşməsi üçün


1. A.A.Axundov. Ümumi dilçilik (yenidən işlənmiş ikinci nəşri). Bakı, "Maarif", 1998, 221 s.
2. A.A.Axundov. Azərbaycan dilinin fonemlər sistemi (fizioloji, akustik, statistik, fonoloji tədqiqat təcrübəsi). Bakı, "Maarif", 1973, 302 s.
3. A.A.Axundov. Riyazi dilçilik. Bakı, ADU, 1979, 78 s.
4. A.A.Axundov. Ümumi dilçilik (dilçiliyin tarixi, nəzəriyyəsi və metodları). Bakı, "Maarif", 1979, 208 s.
5. A.Qurbanov. Ümumi dilçilik. Bakı, "Maarif", 1989, 567 s.
6. Ə.Rəcəbov. Dilçilik tarixi. Bakı, "Maarif", 1988, 542 s.
7. V.Məmmədəliyev. Ərəb dilçiliyi. Bakı, "Maarif", 1985, 286 s.
8. Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili. I. (Fonetika, orfoepiya, orfoqrafiya). Bakı, "Maarif", 1972, 308 s.
9. F.Y.Veysəlov. Eksperimental fonetika. Bakı, 1980, I, 84 s., 1981, II, 100 s. (həmmüəlliflər: Z.N.Verdiyeva, F.M.Ağayeva)
10. F.Veysəlov. Alman dilinin fonetikası. Bakı, 1980, 191 s.
11. М.Г.Арсеньева, С.П.Балашова, В.П.Берков, Л.Н.Соловьева. Введение в германскую филологию. М., 2000, 314 с.
12. И.А.Бодуен де Куртенэ. Избранные труды по общему языкознанию. М., 1963, I т.- 383 с., II т. – 391 с.
13. Л.В.Бондарко. Фонетический строй современного русского языка. М., 1977, 175 с.
14. Л.Л.Буланин. Фонетика современного русского литературного языка. Л., 1977, 245 с.
15. Л.Р.Зиндер. Общая фонетика. М., 1979, 312 с.
16. Ю.С.Маслов. Введение в языкознание. М., 1987, 287 с.
17. Р.О.Якобсон. Детский язык, афазия и общие звуковые законы (Kindersprache, Aphasie und allgemeine Lautgesetze. Stockholm, 1949). Перевод с немецкого языка, коментарии и послесловие проф. Ф.Ядигара. Баку, 96 s.
18. Ю.С.Степанов. Методы и принципы современной лингвистики. М., 1975, 331 s.
19. H.Arens. Sprachwissenschaft. Der Gang ihrer Entwicklung von der Antike bis zur Gegenwart. Frankfurt am Main, 1969, Bd. II, 816 s.
20. E.Coseriu. Textlinguistik. Tübingen, 1994, 252 s.

21. G.Helbig. Geschichte der neueren Sprachwissenschaft. München, 1971, 392 s.
22. B.Malmberg. Phonetics. N.- York, 1963, 123 s.
23. W.Porzig. Das Wunder der Sprache. Tübingen. 1993, 431 s.
24. H.G.Tillmann mit Phil Mansell. Phonetik. Lautsprachliche Zeichen, Sprachsignale und lautsprachlicher Kommunikationsprozess. Stuttgart, Klett-Cotta, 1980, 323 s.
25. D.Zimmer. So kommt der Mensch zur Sprache. Über Spracherwerb, Sprachentstehung, Sprache und Denken. München, 1999, 202 s.

*Nəşriyyatın direktoru* – prof. Telman CƏFƏROV

*Nəşriyyat redaktoru* – Əliş AĞAMİRZƏYEV

*Texniki redaktor* – Mətanət QARAXANLI

Çapa imzalanıb: 04.10.2011.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 25,5 ç.v. Tiraj: 100. Sifariş № 79.
Qiyməti müqavilə ilə.

MÜTƏRCİM

**TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ**

**Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru**